4. al-Alwani Taha Cabir. Issues in Contemporary Islamic Thought. London-Washington. 2005.
5. Бердяев Н.А. Опыт философской автобиографии. М.: Наука, 624 с.
6. Бехтерева Н.П. Магия мозга и лабиринты жизни. М.: АСТ; СПб.: 2007. - 400 с.
7. Блауберг И.И., Бергсон А.Л. // АФЕ в 4-х т. Т.I. М.: ЮНИТА, 2000. – 724 с.
8. Бунг М. Интуиция и наука. М.: Прогресс, 1967. – 214 с.
9. Григорий Палама. Святогорский томос. // Альфа и Омега. №3(6), М.: 1995.
10. Григорий Палама. Триады в защиту священно-безмолвствующих.М.: Канон, 1995.
11. Декарт Р.//Избранные произведения М.: Мысль, 1955. – 628 с.
12. Икэда. Мой Будда. Земной путь Шакьямуна. М.: Прогресс, 1994. – 422 с.
13. Интуиция и научное творчество. Аналитический сборник. М.: ЮНИОН, 1981. – 362 с.


## FƏLSƏFƏDƏ İNTUİSİYAYA MÜNASİBƏT

***Məmmədova G.F.***


**XÜLASƏ**

Məqalə elm və fəlsəfənin ən mübahisəli problemlərindən birinə - intuisiya probleminə həsr edilmişdir. Bu problem mürəkkəb və çoxşaxəlidir və burada epistemoloji cəhət nəzərə alınır. İntuisiya ilə bağlı müəyyən bir elmi düşüncənin olmasına baxmayaraq, intuisiyanın bilinçaltı və ya huşsuz olub olmaması problemi hələ elmi olaraq müəyyən edilməmişdir. Məqalənin məqsədi bu problemi müsbət həll etməkdir. Mütləq Həqiqət haqqında qədim dövrdən müasirə qədər böyük filosoflar tərəfindən aparılan axtarışların nəticələri müəllif tərəfindən üç ekvivalent kitab konsepsiyası ilə müqayisə edilir.

Fikirlərin Birliyi və Davamlılığı prinsipinə əsaslanaraq müəllif həm Qərbin, həm də Şərqin özünəməxsusluğunu qoruyub saxlamağın və böhrandan çıxmağın yeganə yolu, İdeyanın mahiyyət mənbələrinə düzgün münasibət formalaşdırmaq fikrini əsaslandırır.

## ОТНОШЕНИЕ К ИНТУИЦИИ К ФИЛОСОФИИ

***Мамедова Г.Ф.***

**РЕЗЮМЕ**

Статья посвящена одной из самых спорных проблем науки и философии – проблеме интуиции. Данная проблема сложна и многогранна, и здесь рассмотрен ее гносеологический аспект. Несмотря на то, что существует определенное научное представление об интуиции, проблема о том, является ли интуиция подсознательной или она сверхсознательна, пока что научно не определена. Цель статьи заключается в позитивном рассмотрении данной проблемы. Результаты поиска источников познания Абсолютной Истины великими философами, начиная от античности и кончая современными, автор сопоставляет с концепцией трех эквивалентных книг.

Исходя из принципа Единства и непрерывности Идеи, автор обосновывает мысль о том, что единственным путем сохранения как Западом, так и Востоком своей собственной специфики и вы-хода из кризиса является формирование правильного отношения к источникам сущности Идеи.

## ATTITUDE TO INTUITION TO PHILOSOPHY

***Mamedova G.F.***

**SUMMARY**

The article is devoted to the problem of intuition in gnoseological aspect which is considered to be one of the disputable problems in the philosophical outlook of the contemporary scientific intellect. Certain achievements have been gained in the study of the problem of intuition, but there is some truth yet to be disclosed. Firstly, intuition is an underconscious process. The other problem is whether this process belongs to consciousness or extraconsciousness. The main task of the article is to investigate this problem positively.

The author analyses the well-known philosophers` ideas about Absolute Truth beginning from Ancient time and compares these ideas conception of the “equivalence of three books”. The author, who assumes the unity of Idea and its continuity as a basis, concludes that the salvation way of the West and the East is the right approach to the sources of true nature of the Truth.

# АКСИОЛОГИЧЕСКИЙ ПОДХОД К ОСМЫСЛЕНИЮ ИНФОРМАЦИИ КАК ЧЕЛОВЕЧЕСКОЙ ЦЕННОСТИ

***доц. И.А.Исламов***
***к.ф.н. Г.Ю.Юсифова***

***Ключевые слова:*** Информация, ценность информации, коммуникативное взаимодействие, структурированная информация, социальная информация.
***Açar sözlər:*** İnformasiya, məlumatın dəyəri, ünsiyyətin qarşılıqlı əlaqələri, strukturlaşdırılmış məlumat, sosial məlumat.
***Key words:*** Information, value of information, communicative borrowing, structured information, social information.

Рассмотрение проблемы человека в информационном пространстве современного общества ставит новую проблему человеческих ценностей информационного мира и, прежде всего, ценности информации, которая является содержанием новой эпохи.

В исследовании данной проблемы мы намерены исходить из тезиса о том, человек есть мировоззренческий центр любой картины мира, связанной с информационной эпохой. А мир человека – это, прежде всего, мир ценностей. Соответственно, это ставит задачу понимания информации как ценности, прежде всего, человеческой ценности.

Обоснование данного тезиса находится в ключе познавательного и предметно-деятельностного подходов, которые широко распространены в социальной философии. Действительно, познавая окружающий мир и преобразуя его, человек использует различные средства, которые будучи оцениваемыми как успешные, продуктивные, полезные, результативные, адекватные предмету познания и практического преобразования, выступают как ценности познавательной и предметно-преобразовательной деятельности.

Одним из таких средств познания и преобразования мира является информация, которая в данном процессе приобретает характер ценности, человеческой ценности.

Соответственно этому, аксиологический подход к осмыслению информации как человеческой ценности представляется вполне уместным и продуктивным еще и потому, что информация выступает не только как ценное средство познания и преобразования мира, она также является неким продуктом, который также выступает как ценность, поскольку он удовлетворяет определенные человеческие потребности.

Спектр свойств информации чрезвычайно широк: информация служит не только средством познания и преобразования мира, не только некоторым продуктом, удовлетворяющим человеческие потребности и даже не целью познавательной и преобразовательной деятельности; она основой функционирования самого общества и основой человеческого бытия.

Кроме всего прочего, информация предпосылкой и основой любого бытия.

Естественно, что аксиологический подход к осмыслению информации характеризует ее как ценность, и ценность не только познания и преобразования, не ценность как продукта, как основы жизни, ни и как ценность такого специфического взаимодействия, как коммуникация.

Именно под этим углом зрения мы намерены рассматривать ценность информации, прежде всего, как осознанную ценность коммуникативного взаимодействия. Подобным образом понимаемая ценность выступает как осознанное качество социального процесса информационного взаимодействия, которое может трактоваться как субъектно-объектное взаимодействие и субъектно-субъектное взаимодействие.

В первом случае взаимодействие касается отношения субъекта к окружающему миру, во втором – коммуникативное взаимодействие в социуме между людьми, социальными сообществами, в целом как коммуникативно-информационное взаимодействие в обществе.

В любом случае данный процесс будет пониматься нами как взаимообмен такими ценностями, которыми выступает информация. Соответственно этому, данный процесс понимается нами не только как деятельность и взаимодействие, не только как передача и взаимообмен информацией, а еще и как процесс создания такой ценности, как информация, т.е. процесс, который выражается в деятельности оценивания.

Информация как ценность, создаваемая коммуникативным взаимодействием, не является абсолютно безотносительной. Она (ценность информации) является ценностью для некоторого субъекта, поскольку выражает цель его действий и интересов, выступает потребностью субъекта, а значит, приобретает в коммуникативном взаимодействие такие качества, как нужность, полезность, привлекательность, интерес, значение и смысл.

Приобретение информацией в коммуникативном взаимодействии такого качества как ценность побуждает нас рассмотреть то, какие вообще качества изначально заложены в информации, могут ли они трактоваться как ценность, либо информация приобретает качество ценности только в процессе коммуникативного взаимодействия.

Информация, трактуемая как результат восприятия, получение сведений, изложение фактов о события, процессах и свойствах, как сообщение и истолкование, как знание и результат процесса познания и преобразования мира, имеет свойства полезности, практичности, достоверности, актуальности, уместности, правдивости и истинности, которые вроде бы сами по себе являются ценностью.

Информация как ценность также может трактоваться с точки зрения ее понятности, емкости, интерпретируемости, осмысленности (семантическая корректность), точности знакового характера (семиотическая корректность) и ассоциативности.

Информация, кроме того, что она может содержать сведения о каких- либо свойствах предмета или процесса, может оповещать потребителя информации о качествах различных социальных практик. Такая информация является социальной информацией.

Социальная информация, обладая выше перечисленными свойствами и качествами, характеризующими ее как ценность, при получении ее потребителем информации, ведет к улучшению эффективности социальной познавательной и предметно-преобразовательной деятельности.

Социальная информация как ценность удовлетворяет социальные потребности социального субъекта в области того или иного сегмента социальных практик. Социальной информации, присущи специфические социальные качества, в частности, качество циркуляции социальной информации по социальным каналам, доступным ее социальному потребителю, ориентированность на определенного социального потребителя, соответствие социальной действительности, востребованность, целевой характер, идейная наполненность, нормативность, соответствие моральным кодексам, объективность в виде отсутствия искажений, неточности и неполноты, социальная своевременность, релевантность, оригинальность и творческий характер.

Второй вопрос, который возникает после вопроса о том, обладает ли информация ценностью лишь по отношению к пользователю информацией, к субъекту коммуникативного взаимодействия, или ценность информации – есть ценность сама по себе, и она безотносительна к любому субъекту, ее использующему, это вопрос об объективных и субъективных качествах информации.

Информационная ценность может трактоваться как потенциальная и актуальная, потенциальная ценность – то, что еще не востребовано субъектом, а актуальная – та ценность, которая уже стала элементом коммуникативного взаимодействия.

В рассматриваемом в статье контексте информация предстает как переданное сообщение, являющееся результатом познавательной или практической деятельности людей [9].

Информация как объективное качество, лежит в основе всякого материального взаимодействия и в этом плане ее объективность не подлежит сомнению. Все это, безусловно, так, пока речь не идет о коммуникации, о коммуникативном взаимодействии людей. В этом процессе также используются те компоненты информации, которые изначально, объективно обладают некоторыми свойствами, которые можно оценить как ценность.

Но вместе с этим, в самом процессе коммуникативного взаимодействия ценностными качествами наделяются те элементы, которые до этого, до самого коммуникативного процесса, ими не обладали. Эти элементы могут быть ситуативными, контекстуальными, прагматическими, праксематическими, комбинационными, конспирологическими, стратегическими, тактическими, речевыми, приобретшими смысл лишь во время их использования в ответ на что-то в этом же процессе. В коммуникативном процессе имеет место процесс трансформации элементов этого процесса в ценности, наделением их ценностными качествами или оцененными в данной ситуации как таковые. Можно сказать даже так: коммуникация – суть процесс оформления информации как ценности.

Рассмотреть в структуре элементов необходимое, значит иметь такую цель или потребность; выделить имеющее значение – означает осмыслить, понять, интерпретировать и использовать. Вот это и есть то, что называется порождением формы или сотворением ценности в процессе коммуникативного взаимодействия.

Этим, снимается противоречие объективного и субъективного в ценности информации: в информации изначально есть определенные объективные качества (потенциальные или актуальные), которые трактуются как объективная ценность; но в процессе коммуникативного взаимодействия оформляются новые качества-ценности, которые нигде помимо данного процесса не могли бы быть проявленными.

Информационное взаимодействие является в природе, в объективном мире в обществе и в мире причинно-следственных отношений является неисчерпаемым по своему многообразию процессом.

И в этом процессе ценностью наделяются те элементы информации, которые до этого, как ценность не рассматривались. Это коммуникативные ценности информации. Именно этот процесс мы рассматриваем с точки зрения философской теории о ценностях – аксиологии.

Осмысление аксиологического подхода к информации тоже далеко не однозначно.

Рассмотрение вопросов объективности и субъективности информации как ценности, ставит и другие вопросы. В их числе вопрос о человеческих ценностях в информационном мире.

## ЛИТЕРАТУРА

1. Каган М.С. Философская теория ценностей [Текст] / М.С. Каган. - СПб.; ТОО ТК «Петрополис», 2007. - 205 с.

2 Коган, В. 3. Теория информационного взаимодействия. Философско-социологические очерки / В. 3. Коган. Новосибирск: Изд-во Новосиб.ун-та, 1991.-320 с.

3. Матвеев, П. Е. Аксиология : учеб. пособие. В 2 ч. Ч. 1 История аксиологии / П. Е. Матвеев ; Владим. гос. ун-т им. А. Г. и Н. Г. Столетовых. – Владимир : Изд-во ВлГУ, 2017 – 176 с. – ISBN 978-5-9984-0769-7 (Ч. 1).

4. Розов Н.С. Ценности в проблемном мире: философские основания и социальные приложения конструктивной аксиологии [Текст] / Н.С. Розов. - Новосибирск: Изд-во Новосибирского ун-та, 2008. - 292 с.

## АКСИОЛОГИЧЕСКИЙ ПОДХОД К ОСМЫСЛЕНИЮ ИНФОРМАЦИИ КАК ЧЕЛОВЕЧЕСКОЙ ЦЕННОСТИ

### РЕЗЮМЕ

В статье рассматриваются угрозы информационной безопасности личности с точки зрения деформированного использования информации в коммуникативном взаимодействии субъектов в современном информационном мире с позиции аксиологического подхода, когда информация для субъекта становится опасной, некорректной, не правдивой, когда она приобретает отрицательное значение.

## İNSAN DƏYƏRLƏRİ KİMİ İNFORMASİYA ANLAYIŞINA AXİOLOJİ YANAŞMA

### XÜLASƏ

Məqalədə, müasir məlumat dünyasında subyektlərin kmmunikativ qarşılıqlı münasibətdə, axioloji yanaşma baxımından informasiyanın təhlukəsizliyinə qarşı təhdidləri bir mövzu üçün məlumat təhlükəli olduqda səhv, doğru deyil, təhlükə halına gəldiyi zaman müzakirə edilir.

## AXIOLOGICAL APPROACH TO UNDERSTANDING INFORMATION AS A HUMAN VALUE

### SUMMARY

The  article discusses therats to the information security of an individual from the point of view of the deformed use of information in the communicative interaction of subjects in the modern information world from the perspective of an axiological approach when information for a subject becomes dangerous, incorrect, not true when it becomes negative.

# ŞƏRQİN İLK PARLAMENTLİ DÖVLƏTİNİN İLK TÜRKİYƏ ELÇİSİ

***f.ü.f.d. Kərimova Aygün Xəlil qızı***
***Bakı Dövlət Universiteti Fəlsəfə Kafedrası***
***aygunxalilqizi@mail.ru***

***Açar sözlər:*** AXC, siyasi xadim, mühacirət, səfir, yazıçı.
***Ключевые слова:*** АДР, политический деятель, миграция, посол, писатель.
***Key words:*** ADR, politician, migration, ambassador, writer.

Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət müddətinin qisaliğina baxmayaraq Azərbaycan xalqının tarixi, siyasi və mənəvi-psixoloji həyatında, o cümlədən o dövrün ədəbi-bədii fikir nümunələrində silinməz izlər buraxmışdır. Cümhuriyyət dövrünün öz böyük poeziyası, nəsri, dramaturgiyası və publisistikası olmuşdur.

Cümhuriyyətin verdiyi qələm azadlığından bəhrələnirdilər. Nəcəf bəy Vəzirov, Süleyman Sani Axundov, Yusif Vəzir Çəmənzəminli, Seyid Hüseyn, Abdulla bəy Divanbəyoğlu və başqaları pedaqoji işdə, publisistika sahəsinde, dövlət işlərində çalışır, siyasi həyata qoşulurdular (1).

1918-20 illərdə Azərbaycanda ideoloji mübarizənin bütün ağırlığı dövri mətbuatın kesərli silahı olan publisistikanın üzərinə düşürdü (1).

Azərbaycan publisistikası ideya-mövzu cəhətdən çox rengarəng və zəngin idi: çarizm əsarətindən yenicə qurtulmuş Şimali Azərbaycanın milli müstəqilliyinin qorunub saxlanması, milli ordunun yaranması, ölkədə demokratik parlament seçkiləri ve islahatların keçirilməsi, bolşevik və Denikin təhlükəsinin dəf edilməsi, Qarabağda erməni millətçilərinin törətdiyi müharibə yanğının söndürülməsi, ölkə daxilindəki təfriqəçilik, Bakı nefti uğrunda xarici imperialistlerin didişməsi və s. publisistikanın toxunduğu əsas məsələlər idi. Belə ağır və məsuliyyətli dövrün görkəmli ziyalilarina Nəcəf bəy Vəzirov, Süleyman Sani Axundov, Yusif Vəzir Çəmənzəminli, Seyid Hüseyn, Abdulla bəy Divanbəyoğlu və başqalarini misal göstərə bilərik.Onlar həm pedaqoji işdə, həm publisistika sahəsində həm də dövlət işlərində çalışır, siyasi həyata qoşulurdular.Bu ziyalilarin icərisində .Azərbaycan Xalq Cumhuriyyətinin siyasi həyatinda xüsusi yeri olan ziyalilardan biri Yusif Vəzir Çəmənzəminli olmuşdur. Lakin keşməkeşli həyat yaşamiş bu insanin qisa ömür yolunda Azərbaycan ədəbiyyati ,publisistikasi və s üċün etdikləri həqiqətən də tədqirəlayiqdir.Bu zəngin ziyali xüsusiyyəti səbəbiylədir ki o Azərbaycan Xalq Cümhuriyyətinin İstanbulda ilk səfiri və eyni zamanda Cumhuriyyətin tək Türkiyə (Osmanlı) səfiri olmuşdur. Yusif Vəzir Azərbaycan Demokratik Cumhuriyyətinin Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəyovun təklifi ilə 1919-cu ildə yeni yaranmış Respublikanın səfiri kimi İstanbula göndərilir. Yusif Vəzir İstanbulda diplomatik işlə məşğul olmaqla yanaşı, öz ədəbi fəaliyyətini də davam etdirir. Belə ki, Azərbaycanı və Azərbaycan ədəbiyyatını türk aləminə tanıtmaq üçün elmi müşahidələrlə zəngin olan "Azərbaycan ədəbiyyatına bir nəzər"adlı kitabını yazır (Avstriyalı Fridrix Kraelitz-Qreyfenhorst Yusif Vəzirovun "Azərbaycan ədəbiyyatına bir nəzər" (İstanbul) kitabı ilə bağlı rəy yazmışdı (2).

Y.V.Çəmənzəminli (1887-1943) realist Azərbaycan nəsrinin, ümumiyyətlə, XX əsr ədəbi-bədii fikrimizin yeni səviyyəyə qalxmasında və yeni bir mərhələyə daxil olmasında böyük xidmətləri olan sənətkarlarımızdandır. O, tarixi roman və hekayə ustası, dramaturq, publisist, ədəbiyyatşünas, folklorşünas, tarixçi-etnoqraf və tərcüməçi kimi çoxcəhətli yaradıcılıq yolu keçmişdir.

Yusif Vəzir Mirbaba oğlu Çəmənzəminli 1887-ci il sentyabrın 12-də Şuşa şəhərində anadan olmuşdur. Ailənin daşıdığı Vəzirov familiyası XVİİİ əsr Qarabağ hökmdarı İbrahimxəlil xanın nüfuzlu saray əyanlarından biri olan Mirzə Əliməmmədlə əlaqədardır. “Mirzə Əliməmməd ağa

Vəzirov ailəsinin cəddidir". "İran şahı Qarabağın paytaxtı Şuşanı zəbt etdikdə Vaqifi, oğlu Əliağanı və Türkiyəyə səfir təyin olunan Mirzə Əliməmməd ağanı dustaq edir. Həbsdəkilərin növbə ilə öldürülməsinə əmr verilmişdi. Mirzə Əliməmməd ağa qətl olundu. Nöbə

Vaqif ilə oğluna gəlməzdən əvvəl Ağaməhəmməd şah öldürüldü.

Yusif Vəzir ilk əvvəl Şuşada "Kar Xəlifə" ləqəbi ilə tanınan Molla Mehdinin məktəbində oxuyur. Molla Mehdinin yanında təhsilin səmərəsiz olduğunu hiss edən Məşədi Mirbaba oğlu Yusifi Ağdama aparır və onun təhsili ilə özü məşğul olur. Ona türk və fars dillərini öyrədir. Yusifin atası onun rusca öyrənməsini də istəyirdi. Ağdamda rus məktəbi olmadığı üçün Yusif Muradbəylidəki rus məktəbinə getməli olur. Yusif bir il bu məktəbdə oxuyandan sonra hazırlaşıb realnı məktəbinə girmək üçün 1896-ci ildə Şuşaya qayıdır və imtahan verib Şuşa realnı məktəbinə daxil olur. O zaman Şuşa realnı məktəbə tədris və təchizat etibarilə Qafqaz orta məktəbləri sırasında birincilərdən sayılırdı.

Yusif Vəzir Çəmənzəminli haqqinda əsərlərin birində bu barədə belə deyilirdi: "Ağdamda məktəb olmadığı üçün Yusifi Muradbəyli kəndindəki rus məktəbinə qoyurlar. O, burada bir il oxuyub edadiyyə məktəbinə girmək üçün Şuşaya qayıdır (1896). Əvvəl Qara Hüseynalı, Camal bəy adlı müəllimlərin xüsusi məktəblərində, daha sonra isə Haşım bəy Vəzirovun müdirlik etdiyi Azərbaycan – rus məktəbində oxuyur. Bir ildən sonra Şuşa edadiyyə məktəbinin birinci hazırlıq sinfinə girir. Edadiyyə məktəbində fransız dilini Əhməd bəy Ağayev, şəriət dərsini Mirzə Sadıq, hazırlıq sinfində türk dilini isə Haşım bəy Vəzirov keçirdi. Məktəbin direktoru və başqa müəllimləri rus idi. Yusifin böyük qardaşı Əbülhəsən bu məktəbin yuxarı sinfində oxuyurdu. Yusifin edadiyyə məktəbində ilk uğurları böyük qardaşının köməyi və təsiri ilə bağlı idi. Əbülhəsənin vaxtsız vəfatı (1901) Yusifə ağır təsir edir. Sonralar o, bu itkinin sarsıdıcı təsirini "Son bahar" (1912) adlı hekayəsində qələmə almışdır"(3).

Şuşa realnı mətəbının yuxarı kurs tələbəsi, Yusifin böyük qardaşı Əbülhəsən nümunəvi tələbə olduğu üçün Yusifin də realnı məktəbdə yaxşı tələbə olmasına çalışırdı. Lakin Əbülhəsən istədiyi kimi ona müvəffəq ola bilmirdi. Çunki Yusifin riyaziyyata o qədər də marağı yox idi. Yusif oxuduğu kitablarda hər şeydən çox rəssamların və heykəltaraşların tərcümeyi-halına diqqət yetirərdi.

Yusif Vəzir hələ kiçik yaşlarında rəsm əsərləri çəkməklə məşğul olurdu. Əvvəlcə təbiət mənzərələri, sonralar isə ictimai-siyasi motivli karikaturalar çəkməyə başlamışdı.Yusifin tələbəlik illərinin sevinci uzun sürmür. Gözlənilmədən onun böyük qardaşı Əbülhəsən xəstələnir və 1904-cü ildə vəfat edir. Yusif Vəzirin 21 yaşlı qardaşı Əbülhəsənin vaxtsız ölümü onu hədsiz dərəcədə sarsıdır. Baş verən bədbəxt hadisə atalari Məşədi Mirbabanın və anaları Seyid Əziz xanımın tez-tez xəstələnmələrinə səbəb olur. Bu hadisə dünyada haqq və ədalət olmasına inanan Yusifdə də ümidsizlik doğurur və onun uzun müddət dərsləri ilə məşğul ola bilməməsinə səbəb olur.Bir müddət keçəndən sonra qardaşı Əbülhəsənin yaratdığı zəngin kitabxana Yusifə verilir. Yusif Vəzir kitabxanadakı rus və əcnəbi klassiklərin kitabları ilə yaxından tanış olandan sonra onda rəsm ilə bərabər ədəbiyyata da böyük maraq oyanır. Yusif Vəzir Şuşa realnı məktəbində təhsilini rus dilində aldığı üçün 1904-cü ildə həyatından şikayət tərzində yazılmış "Jaloba" adlı ilk şeirini rusca yazmışdı. Yusif Vəzir rusca yazdığı bir neçə şeirini Şuşa realnı məktəbindəki rus dili müəllimi Klemiyə göstərir. Müəllim şeirləri gözdən keçirib ona Çexovu oxumağı məsləhət görür. Çexovun şirin və duzlu hekayələri Yusif Vəzirin çox xoşuna gəlir.

Yusif Vəzirin atası 1906-ci il fevral ayının 20-də vəfat edir. Onun vəfatından sonra ailə, həyat təcrübəsi olmayan 19 yaşlı Yusifin himayəsində qalır. Atasının vəfatından sonra Yusif ilk əvvəl Ağdamdakı əttar dükanının şeylərini və dükanın özünü satmaq üçün mart ayının birində Ağdama gedir. Bir neçə gün orada qaldıqdan sonra xəstələnib Muradbəylidə yaşayan Telli bibisigilə gedir. İki ay yatalaq xəstəliyindən yatıb, ağır böhranlar keçirir. Sonra Yusifin bibisi onun sağalacağına olan ümidini itirib Şuşaya göndərir. Xəstəlikdən zəif düşmüş Yusifin üç ay yataqdan qalxa bilməməsi ailəni böyük çətinliklər qarşısına qoyur. Ailə köməksiz qalır. Yusifin

anasi Seyid Əziz xanım gecə-gündüz rahatlıq bilmədən onun həyatını xilas etmək üçün əlindən gələni edir. Ailənin ağır vəziyyətində Yusif hələ uşaq ikən Cənubi Azərbaycanın "Çəmənzəmin" adli kəndində aclıq nəticəsində oradan qaçıb, Şuşaya pənah gətirib, Yusifgilin həyətlərində sığınacaq tapmış Həsənxan, Nifti və Fərəc qardaşlarından basqa heç bir qohumları onlara kömək etmir. Yusifin atasi Məşədi Mirbabayev yurdları olmayan bu qardaşlara öz həyətində sığınacaq verib himayəsinə almışdı.

Yusif sağaldıqdan sonra anasına deyir ki, əgər mən gələcəkdə adlı-sanlı adam olsam, mütləq Cənubi Azərbaycandan gəlmiş sədaqətli qonşularımızın kəndlərinin adını özümə təxəllüs qəbul edəcəyəm. Yusif Vəzirin "Çəmənzəminli" təxəllüsünü qəbul etməsi onun həmin ailəyə bəslədiyi hörmət və məhəbbətdən irəli gəlir. Şuşada yaranan erməni-müsəlman toqquşmaları nəticəsində azərbaycanlı tələbələr məktəblərini tərk etmək məcburiyyətində qalırlar. Yusif Vəzir də təhsilini davam etdirmək üçün Bakıya gedib realnı məktəbin altıncı sinfinə daxil olur. O, böyük səylə oxumaqla bərabər ictimai işlərlə də məşğul olur. Yusif Vəzir xalqın məişətini, onun adət və ənənələrini, həyat tərzini bilərək 1907-ci ildə "Şahqulunun xeyir işi" adlı hekayəsini yazır.

1905-1906 –cı illərdə Şuşada ve Qarabağın diğər bölgələrində Ermənilərlə Azerbaycanlılar arasında çatışmalar baş verirdi. Diğər Hökümət binaları ilə bərabər realnı məktəbinin də binası Erməni məhəlləsində Olduğundan Azərbaycanlı öyrəncilər məktəbi tərk etmək məcburiyyətində qaldilar. Pulu olanlar isə Bakıya təhsil almağa gettilər. Yusuf Vəzir də təhsilinə davam etmək istəyirdi. Bunun üçün Bakıdaki məktəb yoldaşlarindan birinə məktub yazaraq durumu izah etti. Bir müddət sonra dostundan müsbət cavab alan Yusuf Vəzir, o həyəcanlı günləri belə anladirdi: “Bakıya deyil, mənim üçün yeni bir elm və mədəniyyət dünyasına gedirdim. Nə qədər sevincli dəqiqələr idi. Baxmayaraq ki Yusif Vəzirin Realni məktəbindən ayrilmasi,Realni məkəbinin bağlanma səbəbidigər yerlərdə fərqli səbəblər göstərilərək yazilirdi.Amma esas olan fakt budur ki,O,tehsilini başlamış olduğu məkəbdə davam etdirə bilməyərək Bakiya gəlir.

1904-cü il rus-yapon müharibəsi “o zamana qədər tanınmayan kiçik Yaponiyanın böyük Rusiyaya qələbə çalması” hər yerdə olduğu kimi, Şuşada da siyasi söhbətlərə geniş meydan açmışdı. Bu məğlubiyyətdən sonra inqilabi hərəkatın güclənməsi, milli şüurun oyanmağa başlaması gəncliyə güclü təsir edirdi.

Şuşa edadiyyə məktəbi şagirdlərinin coşqunluğu və mürtəce ruhlu müəllimlərə qarşı tətili nəticəsində məktəb bağlanır (3).

1909-cu ildə Bakı edadiyyə məktəbini bitirir 1909 cu ilin iyun ayında təhsilini davam etdirmək üçün Peterburq şəhərinə gedən Yusif riyaziyyatdan zəif olduğu üçün imtahanlara girə bilmir. Peterburgdan döndükdən sonra bir müddət Aşqabatda qalan Yusif Vəzir daha sonra hüquq təhsili almaq üçün n 1910 –cu ildə Kievə getdi, Kiev İmperator Universitetinin Hüquq Fakültəsinə qeydiyyatdan keçdi.. Uşaqlığından bu yana ədəbiyyat və rəsm ilə maraqlanan Yusif Vəzirin, hüquq fakültəsini seçməsinin səbəbi bilinmir (4). “Bizim məqsədimiz və amalımız Azərbaycanımızdır”, – deyən ədib 1917-ci il fevral-oktyabr hadisələri zamanı Kiyevdə olmuşdur. Həmin ildə Bakıda onun “Azərbaycan muxtariyyəti” kitabı çapdan çıxmışdır. Bu zaman ADR hələ yaradılmamışdı. Göründüyü kimi, müstəqil, muxtar Azərbaycan ideyasını ilk irəli sürənlərdən biri də Y.V.Çəmənzəminli olmuşdur .Azərbaycanı tanıtmaq, onun haqqında layiqli ictimai rəy doğurmaq 1917-1922-ci illərdə Y.V.Çəmənzəminlini ən çox düşündürən və məşğul edən məsələlərdən idi. Y.V.Çəmənzəminli 1918-ci ilin mayından 1919-cu ilin fevralına qədər Krımda olmuş, denikinçilərə qarşı mübarizə aparmış və milli hərəkatın güclənməsi sahəsində xeyli iş görmüşdür. Bu illərdə onun Ağməsciddə (Simferopol) çıxan “Millət” qəzetində “Azərbaycan və azərbaycanlılar”, “Litvanya tatarları”, “Millət üçün yazıçı nasıl olmalıdır”, “Milli axşamlar”, “Haqq səs”, “Millətə doğru” məqalələri, “Litva tatarlarının tarixi” adlı kitabı çap olunmuşdur.1918 –ci il may ayını 28 də Azərbaycan Cümhuriyyəti quruldu. Qısa zaman sonra isə Ukranyadakı Azərbaycanlılara sevindirici xəbərlər gəlməyə başladı. Yusuf üçün daha mühüm xəbər isə, onun Ukranyada Azərbaycanın diplomatik təmsilcisi təyin edilməsi idi.

Ukranyada Azərbaycan dövlətinin səfiri təyin olunması haqqındaki xəbəri və etimadnaməyi ona çatdırmaq üçün , Azərbaycan Xarici işlər Nazirliyinın özəl təmsilcisi Əsəd Axundov Kievə göndərilmişti. Ancaq o sırada Yusuf Vəzir, Kievdə deyildi. Kırım Akmescitdə (Simferapol), Çar hökümətini yenidən qurmaq istəyən Denikin güclərinə qarşı savaşırdı.

Beləliklə 1919-cu ildə Azərbaycan hökuməti onu Ukraynaya səfir təyin edir. Y.V.Çəmənzəminli bu münasibətlə 1919-cu il fevralın 3-də ADR Xarici İşlər Nazirliyinə yazırdı: "15 gün bundan əvvəl hökumətimizin diplomatik nümayəndəsi təyin edildiyimi bildim. Bu barədə xəbəri mənə Simferopola gələn Kiyevdəki Azərbaycan Koloniyasının elçisi çatdırdı. Təəssüf ki, bu barədə hökumətimiz tərəfindən göndərilən rəsmi sənədi indiyədək ala bilməmişəm". Buna səbəb yolların təhlükəli olması idi. Bu vaxt Kiyev ətrafında bolşeviklərlə Ukrayna Milli Hərəkat qüvvələrinin arasında qanlı döyüşlər gedirdi. Y.V.Çəmənzəminli məqam gözləyirdi ki, Kiyevə gəlib, təyin edildiyi vəzifədə işə başlasın. Lakin, o bir daha Kiyevə qayıda bilmir. Bolşeviklər

Kiyevi tuturlar. Y.V.Çəmənzəminli isə uzun və üzüntülü bir yol keçərək, 1919-cu ilin yazında Bakıya gəlir. Bu vaxta qədər ədəbi-bədii yaradıcılığı ilə şöhrət qazanmış və ictimai-siyasi fəaliyyət sahəsində xeyli təcrübə toplamışdi (3).

Ukranyda və Rusiyada müharibə vəziyyətinin olması Yusif Vəziri Azərbaycana geri dönmək məcburiyyətində Vətənə geri dönə bilmək üçün Odessaya gedən Yusif, müharibə səbəbilə yollar bağlı olduğu üçün , burada iki ay gözləmək məcburiyyətində qaldı. Bu vaxt Denikinlə Bolşeviklər arasındaki müharibədən , Bolşevikler galip olarak ayrıldı və Sovet Höküməti Ukraynada olan Qafqazlılara öz Vətənlərınə dönmə izni verdi. Yusuf Vəzir, diğər Qafqazlılarla bərabər "Boris" adlı bir Bolgar gəmisinə minərək öncə İstanbula, ordan da Bakı qayıtdı…(5). Təqribən 1 ay Azərbaycanda qalan Yusif, 1919 –cu ilin yayında yeni Cümhuriyyətin ilk səfiri olaraq İstanbula göndərildi. Həmin vaxt O, 32 yaşında idi.Yusif Vəzir, İstanbula səfir olaraq göndərildiği dövrdə onun köməkçisi Cahangir Bəy Gaibov idi. İstanbula getmək üçün Batumidən keçən Yusif Vəzir, burada İngilizler tarafından çeşitli bahanelerle oyalanıyordu. Bu sırada Azərbaycanın Xarici İşlər naziri olan Məmməd Yusif Cəfərov Türkiyədə diplomatik təmsilcilik açılması ilə bağlı İngiltərə hökümətinə üç dəfə (1919-cu il 27 iyun, 21 Avqust ve 25 sentyabr) müraciət etmişdi. Tiflis, London və İstanbul arasında davamlı yazışmalar davam etməsinə baxmayaraq İngiltərə, Türkiyə ilə muharibə şəraitində olduğunu və Azərbaycan Cumhuriyətinin İttifaq dövlətləri tərəfindən tanınmadığını irəli sürərək Azərbaycan heyətinin İstanbula getməsinə icazə vermirdi… (6).

Yusif Vəzir, Batumidə iki ay qaldıqtan sonra bir tacir adıyla aldığı Viza ilə, 18 iyun 1918-ci il kiçik bir gəmi ilə İstanbula çatdı. Bir neçə gün sonra isə Türkiyənin xarici işlər nazirii ilə görüşdü və özünü təqdim etdi. İstanbulda ikən İngiltərənin Türkiyədəki Baş Komissarı Jon M. De Robek Ilə də görüşən Yusif Vəzir, İngiltərə və Azərbaycan arasında iki taraflı işbirliği çalışmaları ilə bağlı Azərbaycan Hökümətinin görüşlərini açıqladı. Azərbaycan heyyətinin istanbulda necə çətin şərtlərdə çalışmasi əlbəttə nəzərdən qacilmazdir.Bu fakti biz İngiltiərə hökümətinin onu izləməsində görə bilərik "Ancaq Yusuf Vəzirin faaliyətləri, İngiltərə höküməti Hərbi Nazirliyi tərəfindən daima diqqətlə izlənirdi"… (6).

Bir dövlət məmuru olarak "bir məmləkət, yaşamaq üçün özünü yaşatmalıdır, kənardan təsdiq gözləməməli" deyən Yusif Vəzir,Azərbaycanın inkişafı və xalqın həyat şərtlərinin yaxşılaşması üçün əlindən gələni edirdi. Lakin özü o dövrdə xalqın istiqbalının yaxşı olmasını sosializmdə görmürdü. Bununla bağlı olaraq Azərbaycan gəzetinin 1919 –cu il 24 avqust sayında çap olunan məqaləsində belə izah edirdi: "mən əsasən Bolşevizmə zıdd biriyəm. Bolşevizm heç bir millət üçün , xüsusən də bizim kimi əsarətdən yenicə xilas olmuş millətlər üçün heç bir səadət gətirməz (7).

Yusif Vəzirin qələmə almiş olduğu "Bolşevik qorxusu" və"Denikin qorxusu" adlı məqaləleriylə Bakıdakı Müsavat hökümətini Bolşevizmin Azərbaycana girməsinə izin

verməməyə çağırırdı.Yusif Vəzir İstanbulda səfir olduğu müddətdə siyasi fəaliyyəti ilə bərabər eyni zamanda ədəbi fəaliyyətindən də kənar qalmırdi.Təsadüfi deyildi ki ədibin "Azərbaycan ədəbiyyatına bir nəzər" və "Tarixi,coğrafi və iqtisadiAzərbaycan" adlı kitabları məhz bu dövrdə yazılmışdır.Bu kitablar 1921 –ci ildə İstanbulda çap edilmişdir.

1920 –ci il 27 aprelində Azərbaycan Demokratik Cümhuriyyəti Sovet Qızıl Ordusu tərəfindən işgal edildi və milli idarəçiliyə son verildi. Bu xəbəri alan Yusif Vəzir, İstanbulda təhsil görən tələbələri səfirliyinin binasına toplayaraq Azərbaycan Cümhuriyyətinin müstəqillyinə son verildiğini, bir sözlə vəzifəsinin artıq bitdiyini elan etdi. Ardından gələcəkdə nə etməsi lazim olduğunu öyrənmək məqsədıylə, Batumdaki Sovet Konsulluğuna müraciət etdi. Lakin oradan bir cavab ala bilmədi. Bu sırada Sovet Azərbaycanının Türkiyəyə yeni təyin edilən xarici ticarət müstəşarı Behbud Bəy Cəvanşir İstanbulda idi. Azərbaycan Kommunist Partiyasının 1-ci Katibi olan Sergey Mironoviç Kirov (1886-1934)26, Behbud Bəyə İstanbulda yerləşən Azərbaycanlılara iş tapması lazim olduğunu tənbeh etmişdi. Behbud Bəy, İstanbulda Yusif Vəzir ilə görüşərək ona iş tapacağına dair söz verdi. Lakin qısa bir müddət sonra Behbud Bəy Erməni Daşnak Partiyası üzvlərindən biri olan Torlakyan tərəfindən İstanbulda qətl edildi (8). Təəssüf ki beləcə,Behbud Bəy, planladığı işləri həyata keçirə bilmədi.

Cümhuriyyətin süqutu Çəmənzəminlinin bütün həyatını alt-üst edir. O, Parisdə Siyasi Elmlər İnstitutunun diplomatiya fakültəsində təhsil alan kiçik qardaşı Mirabdullanın yanına gedir. Burada da həyat onu sınağa çəkir. Əcnəbi olduğu üçün Fransada onu öz ixtisası üzrə hüquqşünas işləməyə qoymurlar. Yusif Vəzir məcburiyyət qarşısında qalıb Parisin yaxınlığında yerləşən Klişidə 3 il ağır fəhləlik həyatı keçirir.

Yusif Vəzir Çəmənzəminli Francada yaşadiğı mühacirət illərində fransiz dilini öyrənir,orada bədii kitablar oxumağa davam edir,amma bir xarici vətəndaş olaraq huquq sahəsində iş tapa bilməməsi səbəbiylə maddi və mənəvi çətinliklər çəkir. Sonra kiçik qardaşı MİrininParis banklarinda işləməsinə baxmayaraq yenə də ağır maddi sixintilar içərisində olan qardaşlarin bu vəziyyətinə aylar sonra Mirinin xəstəlikdən vəfati daha bir ağırliq əlavə etdi.Qardaşının da vəfatindan sonra Yusifin Fransada qalmasi artiq anlamsiz idi . Sonrakı illərdə Vətəninə qayıtmaq istəyir, buna da nail olur. Amma bu qayıdışın da kədərli bir tarixçəsi var.

Parisdə işləri yaxşı getməyən Yusif Azərbaycana qayıtmaq üçün Parisdəki sovetlərin səlahiyyətli nümayəndəliyinə ərizə ilə müraciət edir. Eyni zamanda, Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Qəzənfər Musabəyova (vaxtilə tələbə yoldaşı olublar) xüsusi məktub yazır. Q.Musabəyov həmin məktubu o zaman Azərbaycana rəhbərlik edən S.M.Kirova göstərir. Kirov Y.V.Çəmənzəminlinin Vətənə qayıtmasına razılıq verir.1926- cı ildə Bakıya qayidan Yusif bir müddət Azərbaycanın müxtəlif universitetlərində muəllim kimi işləyir.Lakin Sovet rejiminin 1937 də başlayan ağır "Repressiya dalgasından" qurtula bilməmişdir. Xüsusilə Azərbaycana döndükdən sonra qələmə aldığı "Studentlər" (Tələbələr) romanına görə öncə ciddi şəkildə müzakirə edilmiş, ardından romandakı düşüncələrinə görə mühakimə olunmuşdur.

Əksəriyyəti artıq həyatda olmayan şəxslərdən zorla alınan saxta ifadələr doğrultusunda 1940 il fevral ayının 26 da Yusif Vəzirin günahkar olduğuna dair qərar çıxarılmışdır. Bu qərardan sonra, eyni ilın 11 iyununda SSRİ Xalq Kommisarliğinin özəl iclasinda, Yusuf Mirbaba oğlu Vəzirov anti Sovet faaliyətinə, İngiltərə, Fransa, Türkiyə və Almanyanın müxtəlif təşkilatlarına casusluq ettdyi üçün 8 il həbsə məhkum edilmişdir. Təxminən 6 ay Bakıya yaxın Keşlə həbsxanasinda saxlandıqdan sonra 3 Iyulda Gorki vilayətinin Suxabezvodnaya kəndindəki həbsxanaya göndərilmiştir. 3 Yanvar 1943 –cü ildə isə orada vəfat etmiştir (9).

## ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. Lider nəşriyyat, 2004. 440 s.
2. Mitteilungen zur osmanischen Geschichte. 1, 1921/22, (1922), səh. 174-175.

3. Çəmənzəminli Yusif Vəzir. Əsərləri. Üç cilddə. I cild. Bakı, "AVRASİYA PRESS", 2005, 360 s.
4. Cənnət Nağıyeva, Y. V. Çəmənzəminli Arxivinin Təsviri, Bakı 1999, s. 5.
5. Orxan Vəzirov, atam Yusif Vəzir Çəmənzəminli haqqında, s. 38.
6. Cəmil Həsənli, Ağ Ləkələrin qara kölgəsi, Bakı 1991, s.161-162.
7. Aybəniz Əliyeva, "Y.V.Çəmənzəminlinin Diplomatik Fəaliyyəti", Ədəbiyyat və İncəsənət, 13 Ekim 1989.
8. Orhan Vəzirov, Babam Yusif Vəzir Çəmənzəminli haqqında, s. 40.
9. Azerbaycan Cumhuriyeti'nin İlk İstanbul Sefiri Yusuf Vezir Çemenzeminli'nin Fransa'daki Muhaceret Yılları. Ramin Sadıqov. Dergiler. Ankara

## XÜLASƏ

Azərbaycan Xalq Cumhuriyyətinin siyasi həyatında xüsusi yeri olan ziyalılardan biri Yusif Vəzir Çəmənzəminli olmuşdur. Lakin keşməkeşli həyat yaşamış bu insanın qısa ömür yolunda Azərbaycan ədəbiyyatı, publisistikası və s. üçün etdikləri həqiqətən də tədqirəlayiqdir. Bu zəngin ziyalı xüsusiyyəti səbəbiylədir ki, o, Azərbaycan Xalq Cümhuriyyətinin İstanbulda ilk səfiri və eyni zamanda Cumhuriyyətin tək Türkiyə (Osmanlı) səfiri olmuşdur.

## РЕЗЮМЕ

Ю.В.Чаманзаминли был одним из интеллектуалов, которые сыграли важную роль в политической жизни ADR. Однако мы должны также обратить внимание на его работы, касающиеся азербайджанской литературы, гласности и т.д. По этой причине он был первым послом ADR в Стамбуле, а также единственным послом в Турции (Османской империи), который представлял ADR.

## SUMMARY

Y.V.Chamanzaminli was one of the intellectuals who played an important role in the political life in ADR. However, we should also pay attention to his works concerning Azerbaijan literature, publicity, etc. For that reason, he was the first ambassador of ADR in Istanbul, as well as the only ambassador in Turkey (Ottoman Empire), who represented ADR.

# İSMAYIL BƏY QASPIRALININ PUBLİSİSTİKASI (TƏRCÜMAN QƏZETİ VƏ ALƏMİ-NİSVAN DƏRGİSİ TİMSALINDA)

***Məmmədova Güllər***
***BDU-nun II kurs magistrantı***
***memmedovaguler82@gmail.com***

***Açar sözlər:*** Tərcuman qəzeti, Tərcumanın məzmunu, məqsədi, Qadınlar Dünyası və səifələrində yer alan məsələlər.
***Ключевые слова:*** Перевод газета, его содержание, его цель, мир женщин и вопросы на их страницах.
***Keywords:*** Tercuman (Translated) newspaper, İt`s content, it`s goal, Women` World and important problems on pages.

***Tərcuman qəzeti:*** İsmayıl Bəy Qaspıralının ən önəmli fəaliyyəti şübhəsiz ki, nəşr etdirdiyi qəzet oldu. Bu qəzet olmadan İsmayıl Bəyın Türk dünyasında tanınması və fikirlərinin yayılması mümkün olmayacaqdı. O, qəzet çıxarmaq haqqında müxtəlif şəxslərlə görüşdü və Bələdiyyə başçısı olarkən Kazan və Nijni-Novqoroda gedərək burada olan səlahiyyətli şəxslərlə görüşdü. Görüşdüyü şəxslər sırasında tanınmış tarixçi və din alimi Şihabəddin Mərcani də vardı, O, İsmayıl Bəyin bu fikrini ürəkdən dəstəkləmişdi.Qaspıralının qəzet çıxarmaq haqqında olan fikri Rusiya Türkləri arasında orljinal bir fikir deyildi. Beləki, bundan əvvəlki zamanlarda bu haqda səylər olmuş və hətta qəzet də nəşr olunmuşdu və bu təşəbbüs yarısı Rus dilində, yarısı Türk dilində olmaqla "Qazan Xəbərləri" (Kazanskie İzvestiya) adlı qəzeti nəşr etmək edilmişdi. Lakin, rəsmi dairələr buna icazə verməmişdilər [1] .Bundan sonrakı Ulduz, Bahrül- Əhbar, Tanğ Ulduzu adlı qəzetləri nəşr etdirmək üçün təşəbbüslərdə nəticəsiz qalmışdı. Amma 1870- ci ildəTürküstan Valisinin əmr və köməyi ilə Daşkənddə Türküstan Vilayətinin Qəzeti nəşr olunmağa başlamışdı, lakin bu qəzeti Türk qəzeti hesab etmək yalnış olardı. İlk Türk qəzeti isə Azərbaycanda Həsən Bəy Zərdabinin(1537-1907) kısa ömürlü Əkinçi qəzeti idi (1875-1877) [2]. Əkinçinin bağlanmasından sonar isə İsmayıl Bəy 1879-cu ildə qəzet nəşr etdirmək üçün ilk müraciətini göndərdi, və rədd edildi, lakin buna rəğmən bezmədən 3 il davamlı şəkildə müxtəlif bank və valilərə gedərək bu istəyini təkrarladı və yalnız 4-cü ildə lazımi icazəni ala bildi.

Qaspralı, qəzet nəşr etdirmək istəyi və təşəbbüsü ilə yanaşı digər mətbuat fəaliyyətlərini də davam etdirdi və qəzeti əvəz edəbiləcək Tonquc, Şəfəq, Ay, Ulduz, Kamer, Günəş, Latail, Günəş kimi braşurlar çap olundu. Bunlarda ümumi məsələlər ilə yanaşı dil məsələsini də araşdırırdı.İsmayıl Bəy Qaspıralı Tərcüman qəzətini çap etdirməzdən əvvəl çıxartdığı Tonğuç-da bütün Türklərin eyni dildə danışmasını məsələsini gündəmə gətirərək, bütün Türk dünyası tərəfinfən başa düşüləcək bir Türk dili işlətmişdir. Tonğuçun(ilk dünyaya gələn uşaq, ilk məhsul) müqəddiməsində bu məsələ haqqında aşağıdakı fikirləri söyləmişdir: "Millətimizin əsəri olan dilimiz əbədi olaraq işlənməmiş olsa da təhsil və qaydalara riayət edə biləcək bir dildir. Kifayət qədər incə Tatar türkülərindən, Noqay cönklərindən, Qırğız və Türkmən cırlarından məlum olur ki, dilimiz usta tapıb, söz alınıb işlənərsə, indikinə görə daha çox parlaq və istifadə edilməyə yararlı olar.... Arzumuz dilimizi inkişaf etdirməkdir [4]. Müqəddimənin davamı olaraq iyirmi beş illik həyatı boyunca nələr etdiyini və bundan sonra nə edəcəyini belə izah edir: "İyirmi beş ildən bəri yazdığım, dediyim, çalışdığım budur. Yol açmaq, çarə açmaq başqa bir şey deyildir.Çünki, nəcib, ömürlü, cəsarətli və səbirli olan Türk millətinin, pərakəndə düşüb Çin səddindən Ağdənizə qədər yayıldığı halda, nüfüzsuz, səssiz qaldığı dilsizliyindən, yəni lisanı-umumi (ortaq dilə) yə sahib olmadığından irəli gəlmişdir. Bu inancla yaşadım, bu inancla da məzara girəcəyəm". Tərcumanın dilinin Osmanlı Türkcəsi olmasının səbəblərindən biri bu dilin üç qitəyə yayaılmış bir imperiyanın dili olması idi, ikinci səbəbi isə XIX yüzilliyin əvvəllərindən başlayaraq Çar

Rusiyasının Türklər arasına Ruaları yerləşdirərək Türklərin özlərinə aid dil və ədəbiyyat yaratmaq istəməsiydi.

İsmayıl bəy Qaspıralı 1882-ci ildə Peterburqa son səfərindən sonra Tərcuman qəzetini çap etdirmək və mətbuat qura bilmək üçün lazimi icazəni ala bildi. Qəzet Türkcə və Rusca çap olunmaqla iki hissədən ibarət olacaqdı (Tərcuman və Perevotçik). İsmayıl bəy Qaspıralı qəzet çap etdirmək üçün rəsmi icazəni 1883-cü ildə Baxcasaray Dumasının (Məclisinin) rəhbəri olduğu zamanlarda aldığı məlum olur. Bu icazə israrlı şəkildə göndərilən bir neçə müraciətdən sonra verilir və Qaspıralıya mətbəə sahibi olmaq və Tatarca ədəbi yazılar nəşr etmək üçün 13 Yanvar 1882-ci il, 6 Mart 1883-cü il və 12 Mart 1885-ci il tarixlərində verilən icazə sədləri mövcuddur. C.S Kırımerin ifadəsinə görə İsmayıl Bəyə bu icazənin verilməsində bir neçə faktor mühüm rola malik olmuşdur: Kırımın Rus hakimiyyəti altına girməsinin 100-cü ili 1883-cü ilin Aprel ayında qeyd olunacaqdı və bu tarixi qeyd etmək məqsədi ilə Rus hökumətinin ana dildə-Türkcə bir nəşrə icazə verməsi ehtimaldır. Kırım xanlığı Osmanlı imperiyasının himayəsindən qoparıldıqdan sonra da iki ölkə arasında düşmançılıq sona catmamışdı (ən axırıncı müharibə 1877-78- ci illərdə olmuşdu). Hökumətin Tərcuman-Perevotçik adlı qəzetin nəşr olunmasına icazə verməsi yerli Müsəlmanların Rusiyaya qarşı rəğbət hissini aşılamaq məqsədi ilə açıqlamaq olar. Bu ehtimallardanmı və ya digər səbəblərdənmi nəşrə icazə verilməsini qəti şəkildə təsdiq eden hec bir informasiya yoxdur. Şübhəsiz ki, bu icazə İsmayıl Bəy Qaspıralının Baxcasaray Bələdiyyəsini Sədri olması, xarizması, Ruslarla davam etdirdiyi dostluq münasibətləri, Rus hərbi məktəblərində təhsil alması və.s buna oxşar səbəblərlə Rus idarəsinin ona güvənməsinin də bir nəticəsidir. Tərcuman-Perevotçik qəzetinin Kırımın Ruslar tərəfindən işğalının ildönümündən iki gün sonra fəaliyyətə başlaması (1883-cu il 10 Aprel) və Qaspıralının qəzetin ilk nömrəsində (Rusca hissəsində) yazdığı aşağıdakı sətirlər göstərdiyimiz ehtimalları dəstəkləmək istiqamətindədir: "Tam 100 il əvvəl 8 Aprel 1783-cü ildə qanlı hadisələr və nizamsızlıq səbəbilə tamamilə məhv olan kiçik xanlıq-Kırım xanlığı dünyadakı ən böyqk imperiyanın bir parçası oldu və bu gücün hakimiyyəti və ədalətli qanunların himayəsi altında sülhə qovuşdu... Digər xalqlarla bu gününu qeyd edən Kırımlı müsəlmanlar yüz ildən bu yana yaralandıqları bu xoş davranışları inkar ede bilməzlər. Bu ifadələri qəlbən yoxsa şərtlərə uyğunmu yazdığını anlamaq çox çətindir. Çünki indinin özündə belə yüksək məqamda olanlardan bir şey istədiyimizdə yumşaq və münasib üslub işlətməyimiz lazımdır. Başqa sözlə rəsmi məqamlara hücum edərək hər hansı bir şey əldə etmək qeyri mümkündür.

Qaspıralıda Tərcumanı nəşr etdirə bilmək üçün rejimə uyğun davranmaq məcburiyyətində idi. Əks halda qəzet nəşr etdirmək üçün lazımi icazəni ala bilməzdi və ya nəşrə başladıqdan sonra senzuranın qurbanı olar və qəzet bağlanardı. Tərcuman Türk qəzetləri arasında en uzun ömürlü qəzet olmuşdu və bunun səbəbi də bu təmkinli siyasət idi. Tərcumanın Türkcə bölümü Rusca hissəsinin eynisi idi və hər ikisinin də mündəricatında bu bölümlər mövcuddur: İdarədən; Yüz il; Rusiyada Mətbuat-ı İslamiyə (Rusiyada İslami Mətbuat); Münacat( İdarəyə məktubdan); Ahbar-ı Mahalliye(Yerli xəbərlər); Ahbar-ı Dahİlliye(İç xəbərlər); Ahbar-ı hariciyye( Xarici xəbərlər); İlanat. Tərcuman/Perevotçik 4 səhifədən ibarət olub, yarısı Türkcə, yarısı Rusca çap olunurdu və ilk illərdə Rus dilində yazılan məqalələri Türk dilinə Həsən Nuri Bəy tərcümə edirdi. 1950-ci ilin sonlarına yaxın yəni, birinci Rus inqilabından sonra İsmayıl Bəy qəzetin Rusca hissəsinin nəşrindən imtina etdi, daha doğrusu artıq buna ehtiyac qalmamışdı [6]. Buna baxmayaraq Qaspıralı məqalələrini Rus dilində yazmağa davam etdi və əlbəttə ki, bu məqalələr Türk dilinə tərcümə olunaraq nəşr olunurdu. Lazzerininin ifadəsinə görə Perevotçik/Tərcuman 1904-cü ilə qədər həftədə iki dəfə, 1906-cı ildən sonra həftədə üç gün, 1912-ci ildən sonra isə gündəlik olaraq nəşr olunbağa başladı. 1905-ci ildən sonra Tərcuman qəzetinin adı dəyişdirilərək Əhvali-i Zaman qoyuldu.

***Tərcumanın məzmunu:*** Tərcumanın ilk buraxılışlarında vəfatnamə adlı yazı çap olunmuşdur ki, bu isə İsmayıl Bəy Qaspıralının Parisdə olduğu zaman tanıdığı və bir müddət

işlədiyi məşhur Rus yazıçısı Turgenyevin ölümündən sonra ona həsr olunmuşdu (Tərcuman 23 Sentyabr,1883-cü il nömrə 17). İlk nəşrlərində dövlət içində müxtəlif din və dilə mənsub olan insanların birgə yaşamaları, onlar arasındakı mədəni və iqtisadi münasibətlər, milli şüur kimi məsələlərə geniş yer verilirdi. Məsələn, 1883-cü il nömrə 27da olanları eyniylə köçürən Əməkçi(Mşak) adlı Erməni qəzetinin Axalkələk və ya Axılkələk (Bu günkü Gürcüstan) mənbəsindən istifadə olunmuş xəbərlər maraq doğurur: “Yerli Tatarların (həmin dövürdə Azərbaycanlıları belə adlandırırdılar) gələcəkdə məcburi hərbi xidmətə cəlb olunacaqlarını eşitdirərək, mallarını sataraq Türkiyəyə köçürlər. Amma işin kədərli tərəfi odur ki, tamamilə xoşbəxt insanların yaşadığı bir ölkə mövcud deyil. Əgər Kırım müsəlmanları da yad ellərdə çəkəcəkləri əziyyətlərdən əvvəlcədən xəbərdar olsalardı, heç köçməmiş olardılar.”

İsmayıl Bəy Qaspıralı Ruslarla Rusiyadakı müsəlmanları uzlaşdırmanın xaricində digər millətlərlə də yaxşı keçinməyi nəsihət edən fikirlərə sahib idi. Bu mənada Ermənilərin çalışqanlığı, maarif və ticarət sahəsindəki uğurlarının Müsəlmanlara örnək ola biləcəyinin Tərcumanın səhifələrində öz əksini tapmışdır. Laki yeri gəldiyində İsmayıl Bəydə Ermənilərin təcavüzkar siyasətlərindən narahat olur və bu cür hadisələrə etiraz etməkdən də çəkinmirdi. Tərcuman qəzetinin bir nəşrində (1896-cı il 1 Sentyabr, nömrə 34) aşağıdakı “ Eden bulu”r(Edən tapar) adlı yazı İsmayıl Bəyin bu məsələdəki həssaslığını açıq-aşkar göstərir: “Edən bulur”: Erməni millətinin sənayeyə və ticarətə meyilli, çalışqan, təhsilli olmağı arzulayan olduqlarını dəfələrlə Tərcumanda qeyd edərək bunlar ilə birgə yaşayam vətəndaşları Müsəlmanlara misal göstərdiyimiz və bunlar kimi işləmək və kifayət qədər olan qazanc üçün çalışmağın lazımlı olduğunu tövsiyə etdiyimiz məlumdur.

Müsəlman xalq ilə münasibətlərini güvən və sevgi ilə qurmaq lazım gəldiyini də bir neçə dəfə söyləmişidik. Bu halda Anadoluda başqalarının cəsarətləndirməsinə inanaraq, boş xəyallara aldanaraq Erməni “Milliyətçiləri” millətin başına hər cür fəsadlıq və bəla gətirəcəklərini anlayıb keçən il Erməni məsələsi haqda xeyli bəhslər etmişdik. Elə indi dost millət “fədayi”, “Böyük Ermənistan Əhli” adları ilə meydana atılmış fəsadçıların millətə etdikləri ziyanlar görülməkdədir. “Keçən il Anadoluda etdikləri qarışıqlıq və pozğunluq ilə milləti və onların vətənlərini ləkələdikləri kimi bu dəfə də İstanbulda etdikləri cinayət və hərəkətlər Avropanında gözünü açdı. Avqustun ortalarında Erməni fəsadçılarının İstanbulda etdikləri bu cinayətlər komunist cinayətlərinə oxşayıb Avropanın nifrətini öz üzərinə çəkdi”.

Rus qəzetlərindən “Novoe Vremya” da yazilmışdı: Əvvəldən bəri Erməni məsələsi haqqında bildirdiyimiz fikirlər təsdiqlənmiş olur: Əgər erməni milləti bəzi intiriqaçıların yazdığı kimi “məzlum” və “çarəsiz” olsaydılar Osmanlı Bankına hücüm etməzdilər.

Tərcumanın 1906-cı ildə olan nüsxələrinin son iki yarım səhifələrində “Kamus-u İlmiye və Fenniye”adlı bir elm lüğətinin nəşr etdirdiyini görürük. O, şübhəsiz ki bu yol ilə Türklərdə elmə qarşı maraq və həvəs oyandırmağa və onları maarifləndirməyə çalışırdı. Dörd səifəlik qəzetin bir səhifəsinin tamamilə bu məsələyə ayrılması qəzetin elmə və maarifə verdiyi əhəmiyyətin nümunəsidir. Bundan əlavə qəzetin hər buraxılışında “Dövlətin vəziyyəti, millətin hərəkəti”(Ahval-i Devlet-Hareket-i Millet), Daxili xəbərlər və “Bizim qəzetlərdən”(Yəni Rusiyada mövcud olan Türk mətbuatından) kimi hissələrdən əlavə müxtəlif Türk boylarından və onların yaşadıqları şəhərdəki sosial, siyasi və mədəni fəaliyyətlərindən bəhs olunurdu.

1906-cı ildə cıxan Tərcumanın növbəti buraxılışında maraqları cəlb edən digər bir nuans da dil məsələsinə göstərilən diqqət və həssaslıqdır. Bildiyimiz kimi İsmayıl Bəy Qaspıralının əsas qayəsi “Dildə, fikirdə, işdə birlik” prinsipidir.

***Tərcumanın məqsədi:*** Qaspıralının əsas fikri yalnız Kırım Türk-Tatarlarını deyil, bütün türk və hətta Müsəlman aləmini oyandırmaq və ayağa qalxmalarını təmin etməkdir. O, “Sönmüş qəlbləri nə ilə yandırmalı? Bəsirəti kəsilmis pərdələri nə ilə qaldırmalı? Qəflət səhrasında yıxılıb qalmış qoca bir milləti nə il ayağa qaldırmalı sualları ilə işə başlamış, bütün ömrü boyunca bu sualların cavablarını tapmaq və onları tətbiq etmək üçün səy göstərmişdi. İsmayıl Bəy Qaspıralı

Türk millətinin bir bütün olduğuna, ləhcə fərqlərinə və coğrafi ayrıseçkiliyə baxmayaraq bu bütünlüyün parçalanmamasına inanırdı. Türk millətini bir-birinə bağlayan en qüvvətli əlaqənın dil olduğunu qəbul edirdi və bu dil Farsca, Ərəbcə və digər xarici dillərdən keçmiş sözlərdən addım-addım ayrılmalı, yalnız sade bir Türkcə ilə danışılmalı və yazılmalı idi. Bu istiqamətdə İdil-Ural, Azərbaycan və Türkiyədə mövcud olan mətbuat və yazı ərbabları ilə məktublaşırdi. Bakıda, Qazanda, Daşkənddə, Baxçasarayda, İstanbulda və ya hər hansı bir Türk yurdunda çap olunan bir kitab bütün Türklər tərəfindən oxunub asanlıqla anlaşılmalı idi. Ortaq bir Türk dili bütün Türk əyalətlərinə yayılıb möhkəmləndikdən sonra fikirlərdə ortaqlıq, birlik hasil etmək asan olacaqdı.İşdə birlik isə bunlardan sonra gələ bilərdi. İsmayıl Bəy Qaspıralı deyirdi: "Bəzi düşüncələr vardır ki, bizə qadağandır və onları bizdən sonrakı nəsillərə buraxaq. Biz mənəvi birlik yaradaq, dilləri birləşdirək, siyasi birliyi isə başqaları düşünsün".

Tərcumanın zaman-zaman bütün Türk əyalətlərində və digər Türk ərazilərində yayılıb, oxunduğunun şahidi oluruq və bu proses uzun zaman davam edir. 1897-1898-ci illərdə Tərcumanın Bolqarıstanda 200, Doburcadakı Kırım Türkləri arasında isə 100 nüsxəyə qədər satıldığı göstərilirdi.Tərcuman xüsusən 1905-ci ilə qədər Türk-Tatar cəmiyyətinin yeniləşməsinə xidmət edən ən vacib qəzetlərdən biri olmuşdu və C.Validi tərcumanın Türk-Tatar dünyası üçün əhəmiyyətini belə vurğulayır: "Bu kiçik qəzetin təsiri Rusların Novoe Vremyası və ya İngilislərin nəhəng Times qəzeti ilı müqayisə olunduğunda min qat daha qüvvətlidir. Bundanda məlum olduğu kimi İsmayıl Bəy Qaspıralı və onun Tərcuman qəzeti Türk-Tatarlarının inkişafı və yeniləşməsinin mərkəzində durur.

***Aləm-i Nisvan (Qadınlar Dünyası):*** İsmayıl Bəyə görə Rusiyada yaşayan Müsəlman və Türk cəmiyyətinin yarısından çoxunu təşkil edən qadınlar, hər sahədə və bərabər şəkildə kişilər ilə yan –yana işləmədikcə, evlərindən çölə çıxıb çarşaflarını atmadığı müddətdə, təhsildən uzaq qaldıqca, Türk Cəmiyyəti əsla qurtuluşa nail ola bilməz; yəni "Tək qanadlı quş uça bilməz". Ancaq Rus qanunlarına görə nəinki xarici irqdən olan qadınların hətta kişilərin belə yığışmaq hüququ və azadlıqları mümkün deyildi. Lakin Qaspıralı ailəsi fərqli bir həll yolu irəli sürür: Tərcüman qəzetinin onuncu il dönümü münasibətilə (1893) həyata keçirilən yığıncaqda Rusiyanın demək olarki, hər yerindən liderlər xanımları ilə birlikdə dəvət edilmişdi. Tədbir sonrasında İsmayıl bəy kişiləri, xanımı Zöhrə xanım isə qadınları yönləndirir və təlimatlandırdı. Və bunların davamı gəlir. Zöhrə xanım vəfat etdikdən sonra bu vəzifəni qızı Şəfiqə xanım həyata keçirir. Şəfiqə Qaspıralının rəhbərliyi ilə 1906-ci ildə sadəcə qadınlar üçün xüsusi olaraq Aləm-i Nisvan (Qadınlar Dünyası) jurnalı nəşr olunur. Bütün dünyadakı qadınlarla, qadın cəmiyyətləri ilə, təhsil problemləri ilə, ev idarəsi məsələləri və sağlamlıq haqqında məsələləri, qadınları maraqlandıran siyasi və sosial xəbərlər dolu olaraq öz nəşrini davam etdirən jurnal, hökumətin təzyiqlərinə davam gətirə bilməyib 1907-cı ilin axırlarında bağlandı. Buna baxmayaraq başda Tərcüman qəzeti olmaqla yenilik tərəfdarı olan Türk qəzetləri qadınlarla bağlı yazılar, xəbərlər və b. fəaliyyətlərin davam etdirirdilər.

İsmayıl Bəy Qaspıralının ən ümmdə məqsədlərindən biri də Türk qadınına azadlıq qazandırmaq və kişilərlə bərabər hüquqlara sahib olmalarını təmin etmək idi və bu məqsədini də israrlı və davamlı olaraq həyata keçirməyə çalışırdı. Onun gözündə millətin birinci tərbiyəçiləri, birinci anaları- qadınlardır, qadınlar həyatı başa düşməzlərsə-anlamazlarsa uşaqlarını da həyatda qabiliyyətli olaraq yetişdirməzlər, millətin yarısı qadınlardır, onlar həyat və fəaliyyətdən uzaq qalarlarsa millətin həyat və fəaliyyəti də yarım qalar və bu qadın məsələsinə görə Qaspıralı "Qadınlar ölkəsi-dünyası" əsərini yazmışdır.

Tərcumanın 1906-cı ildə çap olunan nüsxələrinin son səifələrində müxtəlif elanlar arasında Türklər tərəfindən müxtəlif qəzet və jurnalların nəşr olunmağa başladığını müşahidə edə bilərik. Misal üçün, islahatçıların əsas mətbuat orqanı olacaq olan Əl-Əsr ül-Cedid (Yenilik yüzili) fəaliyyətə başlayacağı bu qəzetın nüsxələrində ilan edilmişdi (Tərcuman -1906,nomrə 2, s 1, nömrə 13, s4.). Həmçinin İsmayıl Bəy bu ilki nömrəsində mizah( tənqidi yumor) jurnalı olan

Ha! Ha! Ha! və xüsusi olaraq xaanımlar üçün çıxardığı Aləm-i Nisvan (Qadınlar dünyası) jurnallarını oxuyuculara tanıtmaq üçün müxtəlif kompaniyalar həyata keçirmişdi.

İsmayıl Bəy Qaspıralının təşəbbüsü ilə böyük qızı Şəfiqə xanımın rəhbərliyi altında 1906-cı ildə fəaliyyətə başlayan qadın jurnalı olan Qadınlar dünyası (Aləm-i Nisvan) Rusiya Türkləri tərəfinfən çıxarılan ilk qadın jurnalı olması baxımından böyük əhəmiyyətə malik olmuşdu ( İkinci qadınlara aid olan jurnal isə 1913-cü ildə Kazanda fəliyyətə başlayan Süyüm Bikə-olmuşdur). Baxcasarayda 1906-1910-cu illər arasında fəaliyyətdə olmuş "Qadınlar dünyası" səkkiz səifədən ibarət olub, həftə ərzində və yaxud da on-on beş gündən bir nəşr olunurdu və jurnal tamamilə ailə və qadın ilə bağlı məsələlərə üstünlük verirdi. Həmçinin jurnal özünü "elmdən, ədəbiyyatdan, tibbdən, ev idarəsi və tərbiyyədən bəhs edən rəsmi həftəlik Türki məcmuadır" və jurnalın 2-ci və 8-ci nömrəlrindən bu proqrama sadiq qalaraq fəaliyyət göstərdiyi məlum olur. Jurnalın rəsmi olaraq fəaliyyət göstərməsi isə şəriətin surətə, rəsmə qarşı tutumu səbəbəbi ilə zəmanəsinə görə böyük bir yenilikdi, Çünki bu jurnalın hər nömrəsində müxtəlif məsələlərlə bağlı daş basma rəsmlərə rast gəlinir. Araşdırılan yeddi nömrədə də jurnalın yarısında (5,6,7. 8-ci səifələrdə) "Uşaqların başlarına gələn qorxulu və qəribə hadisələr" (Uşaqların səyahət-i garbiyesi) adlı qərbə məxsus olan bir romanı seriya şəklində yer verildiyini görə bilərik.

Jurnalın ən əhəmiyyətli hissələri sosial və sağlamlıq haqqında olan məsələlər təşkil edirdi. Beləki, "Uşaq böyütmək" (30 Yanvar 1907-ci il nömrə 2, s. 3), "Doğururkən təmizlik" (9 Mart-1907-ci il nömrə6, s. 4) kimi belə yazılarda sağlamlıqla bağlı əhəmiyyətli məsləhətlər və informasiyalar verirdi. Nudan əlavə jurnalın 12fevral 1907-ci il, nəşr olunan 3-cü nömrəsinin s 2, və 3 səifələrində çap olunan "Sərbəst evlilik" (sərbəst-i tezvic) adlı məqalədə oxuyucuların evlilik hüququ məsələsində Rusiyadakı prosesləri izah edirdi: "İndiyə qədər Rusiyada hansı dinə aid olmasından aslı olmayaraq ayin-i ruhani- dini nigah həyata keçməyən evliliklər kanuna zidd idi. İndi Fransada həyata keçirildiyi şəkildə Rusiyada da sərbəst nigah və evlilik (qrajdanskiy brak- vətəndaş evliliyi) üsulunun tərtib olunması haqqında daxili işlər naziliyinin nəzarəti altında bir qanun tərtib edilməkdədir. Bundan əlavə 1905-ci il Aprelin 17-i gələnə qədər provoslavni(Ortodoks məzhəbindəki) qadınlar ilə Xristiyanlığa və başqa dinlərə aid olanlar arasında- ortodoksluq xaricində başqa bir dini mərasim ilə edilən nigahların və bunlardan meydana gələn nəsillərin və evladın nizamən tanınması xüsusunda daxili işlər nazirliyində tərtib olunan manastırlar məclisinə təqdim olunmuş qanun təklifi təsdiq olunmuşdur".

Bu məsələlərdən əlavə istər Rusiyada istərsə də digər ölkələrdəki qadınlarla baxlı fikirlər və xəbərlər də "Qadınlar dunyasında" əhəmiyyətli bir yerə sahib olmuşdur. Bakıda "Qadınlar cəmiyyəti və Türkustandakı qadınların vəziyyətini özündə əks etdirən xəbər-30 oktyabr-1907-ci il,nömrə 2,s 1, Erməni-Türk qarşıdurması nəticəsində dağılmış bir vəziyyətdə olan Gəncədə qızlar üçün hər hansı bir təhsil imkanının olmadığını bildirən xəbər-1907-ci il 23fevral, nomrə 5,s3, 9mart nomrə6,s3, 16mart nom7,s4; Orenburqda nəşr olunan "Vakit-zaman" gəzetində "Naciyə" imzası ilə çap olunan "qadınların dövlət dumasındakı musəlman üzvlərindən tələbləri" adlı məqalə-1907.6 mart.n7, s1 və dini tərəfdən qadınların Haqqların müdafiə edən " İlm-i Hadis" adlı bölümlər -12 fevral 1907 n3, s3 və 23 fev n4,s 2, qadın və gənc qızları bir başa maraqlandıran əhəmiyyətli məsələləri nəzərə çatdırmaqdadır.

Jurnalın bir əhəmiyyəti də ondan ibarət idi ki, o, Aləmi Nisvan oxuyucularına qərb dünyasının mədəniyyəti ilə bağlı kiçik xəbər və rəsimləri də çatdırırdı və buna misal olaraq 4-cü nomrəsində Viyana operasının iki sənətçisinin şəkilləri (23fevral, 1907); Amerka ilə bağlı bi şəkil və ya qədim yunan təmsil ustası Ezop-la bağlı bir xəbər (23 mart 1907, n 8, s. 3) vs kimi xəbərlər bu növdəndir. Qadınlar Dünyasının məhdud səifələrində bu yol ilə qərbə maraq oyandırmağa çalışırdı və belə hekayə, roman kimi ədəbi yazılar ilə birlikdə İsmayıl Bəy Qaspıralının kiçik qızı Nigar xanımın "Neredesin-hardasan" ( 12fevral, 1907, n3,s1) və "Gönlüm

nə istər?” adlı ( 9 mart 1907,n6, s3) iki şeirinəd də rast gəlirik və bu da zənnimizcə qadınları şeir yazmağa sövq etmək, həvəsləndirmək mahiyyətini daşıyırdı.

Qısaca olaraq Qadınlar dünyasını belə ifadə edə bilərik: “Aləmi nisvan” qadınlar tərəfindən qadınlar üçün yaradılan bir jurnal idi və Rusiya Türkləri arasında bu gün bülə müzakirə olunan qadın haqqları- hüquqları məsələsinin XX əsrin əvvəllərində aktual bir məsələ olduğunu göstərməsi baxımından bu jurnal əhəmiyyətli və xüsusi yerə sahibdir. İsmayıl Bəyin qadınlara və onların hüquqlarına verdiyi əhəmiyyət 1910-cu ilə qədər fəaliyyətini davam etdirən bu jurnalda öz əksini tapmışdı və uzun müddət fəaliyyət göstərə bilməməyinin səbəsi isə qadın oxuyucuların az sayıda olması idi. Beləki, o dövrdə şəriət qaydaları ilə yaşayan qadınların həyat yoldaşlarının icazəsi olmadan bu cür jurnallara üzv olması da problem idi. Lakin Qaspıralı yenə də Rusiya Türklərinin dirçəlməsində qadınların çox vacib bir yer tutduğunu anlamış və bunu ictimaiyyətə anlatmağa çalışmış bir şəxsiyyətdir.

## ƏDƏBİYYAT

1. A. Bennigsen-C. Lemercier-Quelquejay, La Presse et le movement chez les muslumans de Russie avant 1920, Paris 1964.
2. Nadir Devlet Rusiya Türklerinin milli mücadele tarihi(1905-1917)Ankara Türk Kültürünü araşdırma enstitüsü yayın 1985.
3. C.Validov,Oçerk istorii obrazovannosti I literature Tatar,2.bks.(Oxford:Society for central Asian studies 1986.
4. Yusuf Akçura-Türkçülüğün tarihi Gelişimi.yeni yazı-1ci baskı.İstanbul,1978.
5. Tərcuman -1906,nomrə 2, s 1, nömrə 13, s4.
6. Nadir devlet-unutdurulan türkçü,islamçı,modernst İ.Q-İSTANBUL başlık yayın qrupu 2011.

## ISMAIL GASPIRALI`S PUBLICISM (INCLUDED TERCUMAN (TRANSLATED) NEWSPAPER AND ALƏMI-NISVAN MAGAZINE.)

## SUMMARY

This article describes the journalistic life of Ismail Bey Gaspirali, his political and philosophical activities during his journalistic lifetime. First of all, it reflects the ideas about the beginning of the Translator newspaper and its reflections and also İt`s content, it`s goal. Particularly, the idea of "Language, Idea, Work Together" and the merging of all Turks and Ottoman Turkish was the only eternal language. Ismail Bey Gaspirali tried to illuminate all of Turks and Ottoman`s people with new learning method: it had called- method-i jadid (usul-i cedid). One of the all activity of Ismail Bey and his family is for women's freedom and education and as a result of which the article about Alem-i Niswan (Women's World), published under the supervision of Shafiga khanum.

## ПУБЛИЦИСТИКА ИСМАИЛА ГАСПИРАЛИ (В ТОМ ЧИСЛЕ ГАЗЕТА ПЕРЕВЕДЕНО И ЖУРНАЛ АЛЕМ-И НИСВАН)

## РЕЗЮМЕ

В этой статье описывается журналистская жизнь Исмаила Бея Гаспирали, его политическая и философская деятельность в течение его журналистской жизни. , Прежде всего, он отражает идеи о начале газеты «Переводчик» и ее размышления, а также его содержание, его цель. В частности, идея «Язык, идея, совместная работа» и слияние всех турок и османских турок было единственным вечным языком. Исмаил-бей Гаспирали пытался осветить всех турок и османцев с помощью нового метода обучения: он назвал- методики-я Джадид. Одним из видов деятельности Исмаила Бея и его семьи является свобода и образование женщин, в результате чего статья об Алем-и Нисван (Мир женщин), опубликованная под руководством Шафига ханум.

# TARİXİ PROSESİN XƏTTİ İNKİŞAF KONSEPSİYASI

***Əlizadə Bilal***
***BDU-nunFəlsəfə kafedrasının dosenti***

*Məqalədə tarixi prosesin əsas konsepsiyalarından birinin – xətti inkişaf konsepsiyasının təhlili verilir. Xətti inkişaf konsepsiyasında tərəqqi və tənəzzül dıqişiklikləri tədqiq olunur. Məqalədə bu konsepsiyanın görkəmli nümayəndələri İ.Kondersenin, O.Kontun, H.Spenserin və K.Yaspersin fikirləri təhlil olunur.*

***Açar sözlər:*** tarixi proses, tarixi inkişaf, tərəqqi, xətti inkişaf, tarixin sonu
***Ключевые слова:*** исторический процесс, историческое развитие, прогресс, линейное развитие, конец истории
***Keywords****:* historical process, historical development, progress, line development, the end of the history.

XIX əsrdə hamı tərəfindən geniş istifadə olunan "tərəqqi" termini o zaman işləndiyi mənasına görə iki sahəni (hansıları ki ayırmaq lazımdır) əhatə edirdi: tarixdə tərəqqi və təbiətdə tərəqqi.

Təbiətdəki tərəqqini bildirmək üçün "təkamül" sözündən o qədər geniş istifadə edirdilər ki, onu təbiətdə tərəqqi anlayışının hamı tərəfindən qəbul edilmiş mənası kimi qəbul etmək olardı.

Tərəqqinin iki sahəsini qarışdırmamaq üçün, mən "tarixi tərəqqi" ifadəsindən istifadə etdiyim tarixdən fərqli olaraq "təkamül" termini yalnız təbiətlə bağlı istifadə edəcəyəm.

"Təkamül" – təbii proseslərə aid edilən bir termindir, belə ki, onlar təbiətdə yeni növ formalarını doğuran proseslər kimi təsəvvür olunurlar.

Təbiəti bir təkamül kimi göstərən bu təsəvvürü təbiətin bir proses kimi təsəvvürü ilə qarışdırılmamalıdır. Əgər biz təbii proses anlayışını qəbul etsək, onda bizim ixtiyarımızda ona iki cür yanaşma olacaqdır:

1) Növlər dəyişməzliyini saxlayan zaman təbiətdə hadisələr bir-birini təkrarlayır və növ formaları öz bütün fərdi müxtəlifliyində sabit qalır, ona görə də hərəkətdə olan təbiət yeni formalar yaratmır və "gələcək keçmişi xatırladır";

2) Növ formalarının özləri dəyişikliklərə uğrayırlar, həm də yeni formalar köhnələrin modifikasiyası yolu ilə yaranır. Təkamül dedikdə məhz bu anlaşılır.

Təbii prosesi təkamül adlandırmaq onu müəyyən mənda mütərəqqi adlandırmağa bərabər olan bir şeydir. Çünki əgər istənilən növ forması yalnız artıq özünü təstiq etmiş başqasının modifikasiyası kimi yarana bilərsə, onda bu formanın mövcudluğu ehtimal etməyə imkan verir ki, onun özünün də modifikasiya olunub yaranmasına səbəb olan hər hansı başqa bir növ dəvrdır və s. Bu tərif sözsüz ki, nə modifikasiyaların yaranmasının səbəbləri haqqında nəticələrlə, nə də onların böyük və ya kiçik olması ilə bağlı nəticələrlə bağlı deyil. "Tərəqqi", "mütərəqqi" sözləri bu mənada yalnız müəyyən nizamlılığı yəni nizamın təzahürünü bildirirlər.

Kant hesab edirdi ki, insanın məqsədlərindən asılı olmayan dəyərin bir və yalnız bir forması mövcuddur ki, bu da məhz yaxşı niyyətin mənəvi dəyəridir. O, sübut edirdi ki, xeyrin bütün başqa növləri, sadəcə olaraq mahiyyətcə hansısa postulat kimi qəbul edilmiş məqsəd üçün xeyirdir, amma əxlaqi xeyir hansısa postulat kimi qəbul edilmiş məqsəddən asılı deyil və buna görə də Kantın özünün adlandırdığı kimi mənəvi xeyir həm də öz-özü üçün məqsəd olur. Bu nöqteyi-nəzərdən təkamül həqiqi mütərəqqi bir proses olurdu, çünki o, müəyyən bir sıra formaları keçəndən sonra mənəvi xeyirxahlığa qadir varlıq olan insanın yaranmasına gətirib çıxarırdı.

Filosoflar və tarixçilər tarixi prosesə müxtəlif cür baxırlar. Tarixçilər cəmiyyətin tarixinin

öyrənilməsinə elmi mövqelərindən yanaşırlar, onların məqsədi –istənilən, konkret, qeydə alınmış faktlar və hadisələr barəsində etibarlı, həqiqi biliyin alınmasıdır. Tarix fəlsəfəsində tarixi proses keçmişi, indini və gələcəyi bir yerə yığaraq bağlayan tam proses şəklində təqdim olunur. Amma tarixi prosesi yalnız o halda belə görmək olar ki, o zaman ona konseptual tərtibat verilmiş olsun və o heç olmasa nəzəri cəhətdən filosofun son məqsəd kimi qəbul etdiyi gələcək vəziyyətə (əhəmiyyəti yoxdur, mütləq və ya nisbi mənada) yönəlmiş olsun. Beləliklə, tarix fəlsəfəsi onun adının əksinə olaraq, indiki zamandan həm keçmişə, həm gələcəyə eyni şəkildə yönəldilmişdir.

Nəzəri bilik kimi tarix fəlsəfəsi tarixi ideyadan başlanır. O, haradan alınır? Cəmiyyətin müxtəlif mədəniyyət sferalarında on aaid müxtəlif işarələr, aspektlər daim müzakirə edilir. Müəyyən dövrün şüurunu təşkil edən bu əhval-ruhiyyələri tutmaq və nəzəri formada, fəlsəfə mətni şəklində ifadə etmək fəlsəfənin vəzifəsidir.

Tarix fəlsəfəsində sosial-fəlsəfi biliyin təbiəti, bəlkə də, özünü daha böyük şəkildə göstərir.

Fəlsəfə konkret cəmiyyətin və ya sivilizasiyanın mənəvi, ideal meyllərini ifadə edir, onlara nəzəri formanı verməyə - yəni ölkə və ya sivilizasiyann özü üçün qəbul etdiyi tarixin mənasını məntiqi ardıcıllıqla və nizamlanmış şəkildə ifadə etməyə çalışır. Amma bu nəzəri biliyi sırf elmi bilik adlandırmaq olmaz. İnkişaf prosesinin qanunauyğun xarakterli olmasının  qəbul edilməsi cəmiyyətin tarixini müəyyən mərhələlərəayrılmasına gətirib çıxarır.

Tarixin xristian fəlsəfəsində üç mərhələ hesablanır – dünyanın yaranmasından İsanın zahir olmasına qədər, sonra İsanın zahir olmasından onun ikinci gəlişinə qədər (hansı ki, tarixin sonunu bildirir) və nəhayət, Yer kürəsində Allahın çarlığının qurulması mərhələsi; bu zaman yalnız həqiqi iman sahibləri xilas olacaqlar. XVIII əsrin sonunda fransız filosof-maarifçisi M.Kondorsenin insan ağlı tərəqqisinin on mərhələsi haqqında yazırdı. O, “biliyin inkişafını və maarifçiliyi tarixi tərəqqinin əsas hərəkətverici qüvvəsi hesab edirdi” (1).

Tarixi proses – bu bir çox insan nəsillərinin fəaliyyətinin əks olunduğu bir-birini əvəz edən hadisələrin ardıcıl sırasıdır. Filosoflar cəmiyyət üzvlərinin daxil olduğu sosial qrupların maraqlarını insanların sosial fəallığını gücləndirən əsas amil hesab edirlər. İstənilən fərd müxtəlif sosial qruplara aiddir, bu həm sosial sinif, həm millət, həm xalq, həm peşəkar qrup, həm dini icma və s. deməkdir.

Beləliklə, insan bir şəxsiyyət, fərdiyyət olaraq eyni zamanda sosial qrupun bir hissəsidir və nəticədə onun dəyər-normativ strukturunu qəbul edir, onun maraqlarına şərik çıxır.

Sosial qruplar və birləşmələrlə yanaşı xalq da tarixi prosesin subyekti kimi çıxış edir. Sosial-fəlsəfi mənada xalq öz obyektiv vəziyyətinə görə cəmiyyətin yüksələn inkişafında maraqlı olan bütün təbəqə və siniflərini birləşdirən geniş birlikdir.

Xalq, əlbəttə, siniflərdən ibarətdir, amma “xalq” anlayışı özündə xüsusi məna yükünü daşıyır: onun köməyi ilə cəmiyyətin mütərəqqi qüvvələri irticaçılardan ayrılır. Xalq hər şeydən əvvəl zəhmətkeşlər deməkdir, onlar həmişə xalqın əksəriyyətini təşkil edirlər. Ancaq bu anlayışa istismarçı siniflər də daxil ola bilərlər və onlar tarixin konkret anında irəliləyən hərəkatın maraqlarını ifadə edə bilərlər, buna görə də əksəriyyətin nümayəndəsi hesab olunurlar. Heç bir sinif onu dəsəkləməyə hazır olan başqa sinifləri və geniş ictimai təbəqəəri öz ətrafında birləşdirmədən və təşkil etmədən dərin dəyişikliklər həyata keçirə bilməz.

Dəyişikliklərdən nə qədər daha dərindirsə onda iştirak edən xalq kütlələri bir o qədər çox olur. Amma əks olanı da doğrudur ki, ictimai hərəkatda nə qədər böyük insan kütləsi iştirak etsə onun nəticələri bir o qədər əsaslı olar. Baxmayaraq ki, sosial proseslərdə bir çox insanlar iştirak edirlər, tarixdə, nəsillərin yaddaşında yalnız ayrı-ayrı qeyri-adi şəxsiyyətlər qalırar.

Belə insanları da həmçinin tarixi prosesin subyektlərinə aid edirlər və tarixi şəxsiyyət adlandırırlar. Onların rolu o qədər böyük və bəlli idi ki, uzun zaman filosoflar oları tarixin həqiqi mühərrikləri ilə eyniləşdirirdilər. Hal hazırda üstünlük təşkil edən nöqteyi-nəzərə görə ayrıca bir şəxsiyyət ümumdünya tarixi miqyasında tarixin gedişini dəyişdirə, onun ümumi obyektiv məntiqini poza bilməz, amma ölkələrin və xalqların lokal tarixində şəxsiyyt həddindən çox şey

edə bilər.

Viko tərəfindən qoulmuş insan tarixinin dərk edilməsi problemi Fransız Maarifçiliyini yeni Avropa ənənəsində öz davamını tapdı. Ilk dəfə Volter tərəfindən tətbiq edilmiş "tarixin fəlsəfəsi" anlayışı təkamüllə və insanın dərrakəli fəaliyyət prosesi ilə bağlı olan reallığın xüsusi predmeti kimi tarixin fəlsəfi dərk edilməsinə istiqamətlənmişdir. Volterdən sonra fransız maarifçilərini ikinci nəslin nümayəndəsi Jan Jak Russo insanın təbii dərrakəli mahiyyətinə əsaslanaraq tarixi nəzəri cəhətdən tədqiq etməyə cəhd etmişdir.

İnsan tarixinin mənaca anlanması və istiqamətlənməsinə yanaşmanın maarifçilik spesifikasının formalaşması ən əvvəl belə başlamışdır. Bu spesifika ondan ibarət idi ki, tarixin mənasının əsas məzmunu həmişə insan ağlının tərəqqisi ilə bağlanırdı və müvafiq olaraq bəşəriyyətin tarixinə də bu tərəqqinin pillələri ilə hərəkət kimi baxılırdı. Bu tərəqqipərvər yanaşmanı Jan Antuan Kondorse "insan ağlının tərəqqisinin tarixi mənzərəsinin eskizi" (2) (1795) əsərində ən parlaq şəkildə əsaslandırmışdır. O tərəqqiyə insan tarixinin bəşəriyyətin həqiqətə və xoşbəxtliyə tərəf durmadan hərəkətini təmin edən əsas tendensiyası kimi baxırdı.

Kondorse bəşəriyyətin tarixində 10 dövr seçib ayırmışdır, insan ağlının təkmilləşdirilməsində müvəffəqiyyətlər, onun daha tam azadlığa nail olması bu dövrlər üçün fərqləndirmə meyarı kimi xidmət edir. Kondorse öz tərəqqi ideyasını hökdarların və hakimlərin maarifləndirilməsi (Volter və Monteske kimi) ilə deyil, texnikanın elmi kəşflərin tətbiqi, adətlərin, hüquqi və siyasi institutların təkmiləşdirilməsi nəticəsində inkişafın yüksək pilləsinə çatmaq iqtidarında olan fərdlərin, xalqların, millətlərin kütləvi hərəkatları ilə bağlayırdı. Kondorsenin sözlərinə görə, insan nəslinin gələcəkdə xoşbəxtliyə nail olması yalnz üç problemin, yəni "millətlərin arasında bərabərsizliyin ləğv edilməsi, hər bir millətin müxtəlif sinifləri arasında bərabərliyin tərəqqi etməsi, nəhayət insanın həqiqi təkmilləşməsi" həllindən sonra mümkündür. Kondorsenin tarixi nikbinliyi, bəəriyyətin qızıl əsrinin yaxınlaşmasında insa ağlının roluna olan şişirdilmiş ümidləri Alman Maarifçiliyində təmkinlə qəbul edilmişdir.

İmmanuil Kant yazırdı ki, insan nəslinin tarixi, bizi hiddətlə ondan üzümüzü çevirməyə məcbur edir, biz "burada nə vaxtsa tamamilə ağıllı bir məqsəd tapmaq ümidini itiririk...". Kanta görə, tarix təcrübədə heç vaxt tam və vahid kimi alınmır. Buna görə tarixin mənasının axtarışlarına "başlanğıcdan" deyil, tarixin "sonundan", onun güman edilən nəticələrindən çıxmaq lazımdır, hansıları ki, təbiət özünün ən yüksək məqsədi kimi nəzərdə tutur. Kant yazır ki, biz təbiətin hətta insan azadlığının təzahürlərində belə plansız və məqsədsiz hərəkət etməsini fərz etməməkdə haqlıyıq. Çünki insan nəslinin tarixini təbiətin gizli planının, yəni mükəmməl dövlət quruluşunun qurulmasının, "yeganə vəziyyətin, hansında ki, təbiət onun tərəfindən bəşəriyyətə qoyulmuş bütün qabiliyyətlər tamamilə inkişaf etdirilə bilər" – icrası kimi baxmaq olar.

"Ümumdünya vətəndaş planında ümumi tarixin ideyası" (1784) məqaləsində Kant tarixin daxili məqsədinə, yəni "ümumdünya hüquqi vətəndaş cəmiyyətini" "ümumdünya vətəndaş vəziyyəti" kimi qurulmasına nail olmaq yolunda bəşəriyyətin həll etməli olduğu əsas problemləri və çətinlikləri ifadə edən doqquz müddəanı irəli sürdü. Bu problemlərin arasında ən əhəmiyyətli olanlar: vətəndaşın maksimal azadlığı ilə məcburiyyətin uyğunlaşdırılması, "dövlətin arasında qanuniləşdirilmiş xarici münasibətlərin qurulması, bəşəriyyətə qoyulnuş bütün qabiliyyətlərin inkişafı və təkmilləşdirilməsi. Kantın rasional və kosmopolitik qurmaları, onun tarixin mənasının teleoloji konstruksoyası dünya tarixinin praktik təcrübəsi ilə müqayisədə kifayət qədər dəqiq deyil. Tarix fəlsəfəsi, yəni tarixi faktların dərk edilmiş sintezi, yalnız mütərəqqi insanlarının və proqressiv inkişafın köməyi ilə mümkün olmuşdur.

Russo bu mütərəqqi inkişafı görür və hətta onu qaçılmaz hesab edir, o, onun səbəbinin insanın təkmilləşdirməyə olan anadangəlmə qabiliyyətindən (perfectibilitè) ibarət olduğunu göstərir; amma Russo bu təkmilləşdirmənin nəticəsi üçün ağlayırsa, o, həm də səbəbin özü üçün də ağlamış olur. Russo onun üçün yalnız ağlamır, həm də onu ən güclü obrazla, bədnam ifadə ilə ittiham edir: "düşüncə - qeyri-təbii vəziyyətdir, düşünən insan əxlaqı pozulmuş heyvandır"

(animal dèpravè). Buna uyğun olaraq bəşəriyyətin tarixi Russoda bir sıra təbii xoşbəxt və təmiz vəziyyətdən ardıcıl boyun qaçırmanın pillələri kimi təqdim edilir. Russo tamamilə unudur ki, o, Voltera etiraz edərək, pessimizmə hücum edir və qəzavü-qədər və onun dünyada təzahürünü müdafiə edir; onun üçün bəşəriyyətin talelərində qəzavü-qədər yoxdur və onun tarixi fəlsəfi, kədərli pessimizmlə sonlanır. İnsanların ilkin xoşbəxt vəziyyəti bəşəriyyətin yaşamış olduğu kədərli tarixə yalnız daha güclü kölgə salır. Bu vəziyyətdə insanlar bir-birindən asılı olmayaraq yaşayırdılar; hər kəs yalnız özü üçün çalışırdı və özünə lazım olan hər şeyi edirdi; əgər onları hər hansı ümumi maraq birləşdirirdisə də, məsələn, qarğa sürüsünü təzə şumlanmış tarlanın cəlb etməsi kimi, bu müvəqqəti olurdu.

Birinci bədbəxtlik onda baş verdi ki, insanlar özəl olaraq yaşamaq və çalışmaq haqqında müdrik qaydalardan yayındılar, nə vaxt ki, onlar birgə yaşayışa başladılar və əmək bölgüsü baş verdi. Bu birgə yaşayış bərabərsizliyə doğru aparır və həm də ona bəraət verir; Russonun özü bərabərliyə səs verdiyi üçün, onda o, birgəyaşayışı ittiham etmiş olur.

İnsanın digər nəhs addımı torpaq mülkiyyətinin yaranmasından ibarət idi. "Bu torpaq mənimdir deyib, birinci olaraq torpaq sahəsini hasarlayan şəxs" (3). Russonun gözündə bəşəriyyətin başına gələn saysız hesabsız bədbəxtlikləri səbəbkar olmuş yalançıdır; o nəhs dəqiqədə payaları yerindən çıxarıb, ucadan: "meyvələrin hamıya və amma torpağın heç kəsə aid olduğunu əgər unudacaqsınızsa siz məhv olacaqsınız" deyən şəxs insanların xeyriyyəçisi olardı.

Russoya görə torpaq mülkiyyətinin yaranması varlı və kasıbların arasında bərabərsizliyə (sanki belə bərabərsizlik köçərilərin arasında yoxdur) gətirib çıxardı; öz əmlakının saxlanılmasında maraqlı olan varlılar kasıbları ictimai asayişi və qanunları tətbiq etməyə razı salmağa başladılar. Məqalədə Hobbs, Russo, Kant və Monteskyenin insanın təbiətinə olan baxışlarının çıxış nöqtələri ətraflı şəkildə tutuşdurulur, onların vətəndaş cəmiyyətinin yaradılması səbəbləri haqqında fikirləri müqayisə edilir, beynəlxalq münasibətlərin təbiətinin izahında Russo və Hobbs arasında olan yaxınlaşma anları bir sıra prinsipial fikir ayrılıqları müəyyən edilir. Sonda, müəllif Russonun xalqların dinc, yanaşı yaşamasının imkanı ilə bağlı hər şeyə olan dərin pessimist baxışları haqqında nəticəyə gəlir.

Müəllif yazır ki, əgər, Russonun müddəalarını əsas tutaraq müasir dünyaya baxsaq, onda tamamilə aydın olacaq ki, dünya sonsuz rəqabətə məhkum edilmişdir və bizə yeganə bir sual vermək qalır: Russonun müddəalarına rəğmən dünyada dinc yanaşı yaşamaq mümkündürmü? Yer üzündə əbədi sülhün mümkünlüyü məsələləri bir çox mütəfəkkirlər tərəfindən Russoya qədər və onun vaxtında ortalığa qoyulurdu və həll edilirdi, amma yalnız Russoda əbədi sülh dövlətlərin daxili quruluşunun dəyişdirilməsi zərurəti, despotizmin aradan qaldırılması və həyarın ümumi demokratlaşdırılması, yəni inqilabın zəruriliyi ilə bilavasitə əlaqədə olduğu göstərilmişdir. Məhz Russonun bu tezisi amerika tarixçisinin gprüş dairəsindən kənarda qaldı. Russonun pessimizmdə ittihamı yalnız müəllifin özünün bizim dövrümüzdə dövlətlərin həyatında belə dəyişikliklərin baş verməsi imkanına mənfi münasibəti ilə diktə edilmiş ola bilər. Bundan əlavə başqa sosial şəraitdə fəaliyyət göstərmiş keçmişin mütəfəkkirlərinin yaradıcılıqlarında bizim günlərin tarixinin qoyulduğu konkret suallara cavab axtarmağa çətin ki, səlahiyyətimiz çatsın. Belə çüasirləşdirmə özünü doğrultmur. Russonun əsərlərində yaradıcı fikir üçün və xalqlar arasında sülhün bərqərar edilməsində yaxşı niyyətlər üçün geniş imkanlar qoyulmuşdur, amma bütün dövrlər üçün yararlı reseptlər verilməmişdir.

Tarixin xətti konsepsiyası düzxətli ictimai inkişaf ideyasını ifadə edir. Öz-özlüyündə düzxətlilik dəqiq istiqamət gıstərmir, həm irəliyə, həm də geriyə inkişaf ola bilər, hətta qeyd edilmiş tendensiyalardan kənara tərəf də inkişaf ola bilər. Sadədən mürəkkəbə, ibtidaidən aliyə, köhnədən yeniyə keçidlə assosasiya edilən inkişaf kontekstində düzxətlilik irəliyə, gələcəyə aydın ifadə edilmiş istiqamət xarakterini qazanır. Bu mənada xətti inkişaf tərəqqi xətti kimi təqdim etmək olar. İlk dəfə xətti inkişaf nəzəriyyələri antik fəlsəfədə kifayət qədər özünəməxsus formada yaranmışdır. Xəttilik cəmiyyətin "qızıl əsrin" dəyərləri və ideallarından tədricən

uzaqlaşdırılması kimi nəzərdən keçirilirdi. Yəni bu faktiki olaraq tərəqqi deyil, inkişafın geriləməsi demək idi. Amma antik insanın düşüncə spesifikası belə idi. O, gələcəyi çətinliklə təsəvvür edirdi və onu yalnız keçmişə bənzədərək təsəvvür etməyi bacarırdı. Anrik Avropa fəlsəfəsinin təfəkkür mifoloji ənənəçiliyi xətti inkişafının tam konsepsiyasının yaradılmasını istisna edirdi.

Tərəqqi konsepsiyaları orta əsrlərdə məlum olmamışdır. Dini dünyagörüşünün hökmranlığı bu fərziyyəylə uyuşmurdu. İnsanın ilkin günahı, onun tale qarşısında acizliyi ilə insanların tarixi fəaliyyəti, həyat yolunun yaradıcı seçimi kimi tərəqqi əlamətləri ilə birləşdirmək qeyri-mümkün idi. Kondorse bəşəriyyətin tərəqqisini insan ağlının tərəqqidi kimi görürdü. Ağıl, bitkilər, elmlər, maarif onun üçün ictimai inkişafın meyarıdır. Onlar insan ağlının bütün elementlərini, bütün alt sistemləri, institutları, hadisələri və insanların ictimai həyatındakı əlaqələrini öz dinamizmləri ilə tutur və özlərinə tabe edirdilər. İstənilən maneə biliklərin və ağlın köməyi ilə aradan qaldırılır.

Nəticədə, ağıl həqiqətin, xoşbəxtliyin, yaxşılığın tarixi birliyin əsasıdır. “Təbiət maarifin tərəqqisi ilə azadlığın, yaxşılığın, insanın təbii hüquqlarına hörmətin tərəqqisi ilə qırılmaz surətdə bağlanmışdır”. Ağıl xurafat və mövhumatlarla (hansılar ki, davranışın bütün qaydalarını, bütün həqiqətləri qədimdəkilərin nöqteyi-nəzərlərinə, keçmiş əsrlərin təcrübəsinə əsaslanaraq yaradırlar) mübarizədə ən yaxşı vasitədir. Ağlın tərəqqisi, sənayenin tərəqqisinə səbəb olur, hansı ki, öz növbəsində elmlərin və maarifin inkişafına doğru aparır. Ağıl ictimai tərəqqinin mühərrikidir. Kondorseyə görə, tərəqqi inkişafın ümumi qanunlarına tabe edilmiş qanunauyğunluqdur. Faktiki olaraq bunlar insan qabiliyyətlərinin inkişaf qanunlarıdır. Nəticədə tərəqqinin özü inkişaf qanunu olur. İnsan qabiliyyətlərinin inkişafında hüdudların yoxluğu isə bu qanunun bir hissəsi olur. Tərəqqi müxtəlif sürətə malik ola bilər, amma heç vaxt geri getmir.

Xətti tərəqqi konsepsiyası XIX əsr fəlsəfəsində və xüsusilə də O.Kont və Q.Spenserin fəlsəfəsində fəal müzakirə edilirdi. Kont üçün tərəqqi nizamın inkişafından başqa bir şey deyil. Təbiətin özü, onun daxili nizamı özündə hər hansı bir mümkün tərəqqinin rüşeymini saxlayır. Onun artma mexanizmi təbiətin təkamül etmək qabiliyyətində saxlanır. Amma ictimai həyat da dinamikdir və üç mərhələyə bölünür: teoloji, metafizik və pozitiv. Ruhun, təfəkkürün inkişafı bəşəriyyətin inkişafının əsası və bir mərhələdən digərinə keçidin səbəbidir. Nadanlıqdan avtoritetlərə kor-koranə inamdan fəlsəfənin yanlış fikirlərinə və nəhayət pozitiv biliyə - bəşəriyyətin yolu belədir. Son mərhələdə ədalətli octimai quruluşu yaratmış yeni bəşəriyyət yaranacaq. Q.Spenserin nöqteyi-nəzərindən istənilən ictjmai tərəqqi üzvi tərəqqinin -fərdi bitki və ya heyvan orqanizminin dəyişməsi artmasının yalnız matrisasıdır. Spenser onun mahiyyətini “eynicinslidən, müxtəlifcinsliyə” keçidində görür. O, canlı varlıqların təkamül tarixindən nümunələr gətirərək göstərir ki, eynicinsli canlı orqanizmlər – balıqlardan -necə müxtəlifcinsli orqanizmlər olan sürünənlər, quşlar və məməlilər əmələ gəlir.

Bəşəriyyətə gəldikdə isə, o da həmçinin ibtidai insandan mürəkkəb bioloji quruluşu və çoxsaylı irq və xalqlara qədər uzun təkamül yolu keçmişdir. Buna görə müxtəlifcinsliliyin, mürəkkəbliyin artması qanunu bəşəriyyətin tarixində də özünü büruzə verir. Bu həm siyasi sistemlərin, sosial təşkilatların və institutların mürəkkəbləşməsində həm də elm, incəsənət, dillər və s. diferensiallaşmasında görünür. Beləliklə, tərəqqi tarixi zərurətdir. XX əsrdə tərəqqi ideyasına bir münasibət bir qədər soyudu. Amma ona maraq sönmədi. Amerikanın filosofu F.Fukuyama 80-ci illərin sonlarında “tarixin sonu” konsepsiyası ilə əlaqədar onun haqqında məlumat verdi. İndiyə qədər bəşəriyyət yalnız “işıqlı keçmişi” (keçmişə görə nostalgiya) və “işıqlı gələcəyi” (utopiyalar) bilirdi. Fukuyama bizi “indiki işıqlı zamanla” tanış edir. O əmindir ki, bir “tarixin sonunun”, yəni bəşəriyyətin ideoloji təkamülünün tamamlanmasının və qərb liberal demokratiyasının son idarə üsulu kimi universallaşdırılmasının” şahidiyik (4).

XX əsrin sonu Qərbin, liberalizmin qərb ideyasının təntənəsi kimi qeyd edilmişdir, yəni indiki yaşamağa heç bir qabil alternativi yoxdur. “tarixin sonu” hərfi məna daşımayan metaforik ifadədir, axı tarix bitmir və sosial-məişət axını davam edəcək. Sadəcə artıq prinsipial və ya çox

mühüm yeni heç nə olmayacaq və ola da bilməz. "Tarixin sonu" bəşəriyyətin uzun müddətli əmin-amanlıq erasının başlanğıcıdır. Amma güman edilir ki, bəşəriyyət donub bir yerdə qalmayacaq, necəsə mövcud olacaqdır. Bundan başqa, liberalizm ideyaları hələ ki, təcrübədə deyol şüurda qalib gəlirlər. Bundan başqa faşizm, kommunizm və s. ideyaları da var. Amma məhz liberal dəyərlərin mükəmməl dünyası maddi dünya qalib gələcəkdir. Daha erkən xətti inkişaf konsepsiyaları kimi Fukuyama konsepsiyası da daha yaxından baxılanda qərb dünyası inkişafının sadələşdirilmiş sxemi məlum olur. Qərb sivilizasiyasının nailiyyətlərinə universal, ümumbəşəri statuslar verilir. Çoxsaylı sivilizasiyaların mövcud olduğu dünyada heç də bütün nailiyyətlər ümumbəşəri olmur. Burada vahid yanaşma, xüsusən də fundamental mədəni dəyərlərə münasibətlərdə yoxdur və ola da bilməz. Onlardan yalnız müxtəlif sivilizasiyaların qarşılıqlı anlaşmasına söykənənlər ümumbəşər statusunu alırlar.

## ƏDƏBİYYAT

1. Кондорсе М.А. Эскиз исторической картины прогресса человеческого разума. М., 1936
2. Конт И. Идеа всеобщей истории во всемирно-гражданском плане. М. 1936.
3. Руссо Ж.Ж.. Избранные сочинения. ТТ.1-3. М., 1961
4. Фукуяма Ф. Конец истории. М 1995

## РЕЗЮМЕ

В статье рассматривается линейная концепция, как одна из основных направлений исторического процесса. Концепцию линейного развития истории автор исследует в ракурсе измерения прогресса и регресса. Дается анализ воззрений таких ученый как Кондорсе, Конт, Сперсер, Ясперс.

## SUMMARY

The presented article deals with one of the main conceptions of the historical process – the line development conception. The line development conception investigates the processes of progress and decline of changes. In the article well-known representatives of this conseption Kondersen, Kont and Spenser's thinkings have been analysed as well.

# İ. NƏSİMİ DÜNYASI VƏ ONUN DİNƏ MÜNASİBƏTİ

***İsrafilov Mahir Mənsur oğlu, İlahiyyat fakültəsinin***
***İslam elmləri kafedrasının nəzdində olan İslamşünaslıq***
***Elmi Tədqiqat Mərkəzinin böyük elmi işçisi,***
***Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***

***Açar sözlər***: Nəsimi, sağlam ideya, dönməz məslək, Azərbaycan dilində şeir.
***Key words***: Nasimi, healthy idea, irreversibility, poetry in Azerbaijani language.
***Ключевые слова***: Насими, здоровая идея, непоколебимые убеждения, поэзия на Азербайджанском языке.

600 ildən çoxdur ki, sağlam ideyası, dönməz məsləki uğrunda mübarizə aparan, sözündən dönməyən, özünü haqq yolunda, əbədiyyət üfüqlərində doğan eşq günəşi adlandıran İ.Nəsimi bu gün də yaddaşlarda, sənətkarların yaratdığı tablolarda, əsərlərdə yaşayır, çünki o, ərəb, fars dillərini mükəmməl bilməklə yanaşı, Azərbaycan dilində şeirin gözəl nümunələrini də yaratmışdır.

1369-cu ildə Şamaxı şəhərində Seyid Məhəmmədin ailəsində dünyaya göz açan İ.Nəsimi mədrəsədə təhsil almışdır, riyaziyyat, astronomiya, məntiq və digər elmləri mükəmməl öyrənmişdir, X əsrdə Bağdadda dara çəkilən və əqidəsindən dönməyən Həllac Mənsur Hüseyinin təriqətini təbliğ etdiyinə görə ilk şeirlərini də Hüseyini ləqəbində yazmışdır.

İnamla iqrar etmək olar ki, ölkəmizdə İ.Nəsimi irsi dərindən və hərtərəfli tədqiq olunmamışdır, onu qatı din düşməni, kommunist ideoloqu kimi tərənnüm edən alimlər də olmuşdur. Nəsimi şiə təriqətinin ideoloqlarından olub, o qatı din düşməni olsaydı, onun qəbri üzərində türbə qoyulmazdı və qəbri ziyarətgaha çevrilməzdi.

Nəsimi həyata açıq gözlə baxıb, şeirin fəlsəfi və məntiqi incəliklərini yaradıb, həyatda tacın-taxtın, mali-mülkün boşluğunu önə çəkib, insanın ucalığını, mənəvi aləminin zənginliyini hər şeydən uca tutub, onu Tanrı səviyyəsinə qaldırıb, bəzən də din xadimlərinə edilən duaların boşluğunu önə çəkib. Gəlin, Nəsiminin poetik təfəkküründən süzülüb gələn bir neçə beytlərini nəzərdən keçirək:

*Dilbəra, mən səndən ayru ömrü canı neylərəm?*
*Tacü təxtü, mülkü malü xanimanı neylərəm?*

*Çox dualar qılmışam mən xaliqin dərgahına,*
*Çün muradım hasil olmaz, mən duanı neylərəm?*

Vəhdəti-vücud təlimini hər şeyin əsası hesab edən sufi şairlərdən biri də Nəsimi idi. Nəsimi insan gözəlliyini, insan ləyaqətini hər şeydən üstün tutaraq yazırdı:

*Dilbər aydır, ey Nəsimi, sabir ol, qılma fəğan,*
*Mən bu gün səbr eyləsəm, danla fəğanı neylərəm?*

Nəsimi haqq yolunda susmadı, sussaydı nəsillərin yaddaşında qalmazdı. Mən lirik təbiət şairimiz H.Arifin insanları susmağa çağırması fikrini də qəbul etmirəm, “Sus” şeirindən ikicə bəndi gətirməklə kifayətlənirik:

*Qəm ürəyə, fəğan dilə yazıldı,*
*Hüseyn Arif yazı belə yazıldı*

*Zaman susur, dövran susur sən də sus.*

İ.Nəsimi hürufiliyin tərəfdarı olmaqla, bu dinin banisi Fəzlullah Nəiminin görüşlərini, bu təriqətin fikirlərini yaymaqda fəal iştirak edirdi. Onun şəxsiyyəti və yaradıcılığı haqqında Nəvainin **"Nəsaim ül-məhəbbət və Haləti-Məhəmməd pəhləvan"** əsərində yüksək qiymət verilən 618 nəfər sufi alimlərdən biri də Nəsimidir. Nəsiminin şeirlərində məntiqi və fəlsəfi duyğulara daha geniş yer verilmişdir. Misir Sultanlığının əmri və cahil ruhanilərin fitvası ilə aləmi vəhdətdə, inkişafda götürən və insan mənəviyyatını hər şeydən uca tutan Nəsiminin dinsizlikdə günahlandırılıb diri-diri dərisinin soyulması da insanlıq aləmi üçün qara ləkədir. Şeirləri, yazdığı əsərləri Yaxın Şərq ölkələrində geniş yayılan və dillər əzbəri olan Nəsimi haqlı olaraq kamil insanı **"canının cananəsi"** adlandırırdı.

İraqda, Hələbdə, Türkiyədə və digər ölkələrdə hürufiliyi geniş təbliğ edən Nəsimi 1417-ci ildə Hələb hökumətinin tapşırığı ilə zindana salınır, sonra isə edam olunur. Belə bir rəvayət də vardır ki, Nəsiminin dərisi soyularkən, ruhanilər istehza ilə ondan soruşurlar ki, sən ki, həqsən, bəs niyə rəngin saralır?

Nəsiminin cahil ruhanilərə verdiyi cavabda da dərin məna və məntiq vardır:

– **Mən əbədiyyət üfüqlərində doğan eşq günəşiyəm. Günəş batanda saralar.**

O dövrün şairlərindən pəhləvan Məhəmmədi də Nəsimi poeziyasına məftun edən onun **"Ənəl-həqq"** ideyası idi. Onun aşağıda verəcəyimiz beytləri də bu fikri təsdiq edir.

*Hər hara baxsam, üzümə Günəşdən nur yetir,*
*Hər nəyə nəzər salsam, o Ay mənə xoş gəlir.*

Nəsiminin yaradıcılığı ilə Herat hökmdarı Sultan Hüseyn Bayqara tanış olduqdan sonra, onun tapşırığı ilə Əmir Kəmaləddin Hüseyn tərəfindən **"Məcalis ül-üşşaq"** adlı bir əsər yazılır və orada Nəsiminin faciəli ölümündən geniş danışılır, onun **"həqq aşiqi"** olması fikri iftixarla önə çəkilir.

Həqiqəti, haqqı demək, söyləmək heç vaxt yasaq olunmamalıdır. Nəsiminin kinoda verilən portreti haqqında da yanlış, dolaşıq fikirlər ortaya çıxmaqdadır. Tarixi məxəzlərə yaxşı bələd olmuş, ərəb, fars dilini bildiyindən Füzuli və Babəkin portretləri ilə yanaşı, Nəsiminin portretini də rəssam Sadıq Şərifzadə də çəkmişdir. Şair S.Rüstəm **"Komsomolskaya pravda"** qəzetində "Nəsimi" kinosunda göstərilən portretin Sadıq müəllimə məxsus olması haqqında çıxış etsə də, bu sənət əsəri üç turdan Şərifzadənin adına keçsə də, yanlış olaraq üstünlük rəssam M.Abdullayevə verilmişdir. Sual ola bilər ki, bu haqsızlığa o dövrün **intellekt sahibləri** niyə etirazlarını bildirməmişlər?

Zəka sahibləri yaxşı bilir ki, elmin, texniki tərəqqinin və insan mənəviyyatının gizli qapılarını dinlə, inancla yox, dəlil və faktlarla açmaq alternativi olmayan üsullardandır. Elə dini fanatizmin, cahilliyin nəticəsidir ki, F.Nəimi "Cavidannamə", "Məhəbbətnamə" və "Növnamə" əsərlərində dinin nəzəri əsaslarını araşdırdığına görə Teymurləngin oğlu Miranşahın dəstəsi tərəfindən həbs olunur və 1394-cü ildə Əlincə qalasında vəhşicəsinə qətlə yetirilir.

Paradoksallıq ondadır ki, şairi allahsızlıqda ittiham edirdilər, onun panteist fikirlərini də yanlış izah edirdilər. Nəsimi dünya şairləri içərisində birinci yerdə duran N.Gəncəvinin Yaxın Şərq ədəbiyyatına gətirdiyi bəşəri ideyaları inkişaf etdirməklə, insanı həyatın yaradıcısı hesab edirdi. Ruhanilərin satqınlığını ifşa edən şair insanı kainatın, sosial mühitin sirlərini öyrənməyə, onları qəflət yuxusundan oyanmağa səsləyirdi. İ.Nəsimi Qazi Bürhanəddin, Həsənoğlu, Xətai, Füzuli, M.P.Vaqif kimi **ədəbi dilimizin** yaradıcılarındandır.

Əsərləri Yaxın Şərqdə geniş yayılan İ.Nəsimi şeirlərində Quran ayələrindən də ustalıqla istifadə etmişdir. Lakin bir çox tədqiqatçılar onun divanında verilmiş sözlərin, ifadələrin dəqiq mənasını anlamadıqlarından təhrifə də yol vermişdilər. Məsələn, Nəsiminin **"Sığmazam"** adlı

şeirində işlədilən iki sözünü çox zaman ikən kimi işlədirlər ki, bu da fikrimizcə yanlışdır. Nəsimi **"Məndə sığar iki cahan, mən bu cahana sığmazam, Gövhəri la məkan mənəm, Kövnü məkana sığmazam",** – dedikdə maddi və mənəvi dünyanın varlığını nəzərdə tuturdu.

İ.Nəsimi poetik təfəkkürün gücü nəticəsində kainatda baş verən hadisə və proseslər arasında olan harmoniyanı, cazibə qüvvəsini öz şeirlərində bir mütəfəkkir kimi zilə qaldırmışdır. Elmi biliklərə yiyələnməyin **vasitəli** (dəlil və faktların təhlili yolu ilə) və **vasitəsiz** (fitrətən) yollarının olduğunu da yaddan çıxarmaq olmaz.

Görkəmli ədəbiyyatşünas S.Mümtaz 1926-cı ildə Nəsimi divanını ərəb əlifbası ilə nəşr etdirmişdir. Bu divanın elmi-tənqidi mətnini isə C.Qəhrəmanov vermişdir.

Nəsiminin ən yaxşı tədqiqatçılarından biri də Qulamhüseyn Beqdeli olub. O, Nəsiminin "Divanı"nın Aşqabad variantını və iki poemasını respublikamıza gətirmişdir. Professor Mirzəağa Quluzadə, XV əsr özbək şairi Nəvainin mürşüdü Mövlanə Lütvü də Nəsiminin yaradıcılığı haqqında dəyərli fikirlər söyləmişdir.

*Ey hüsnü camal, əhli xadimlərə sultansan*
*İnsan sifəti birsə sən surəti-rəhmansan.*

Azərbaycan-özbək ədəbi-mədəni əlaqələri tarixində Nəsimi yaradıcılığı xüsusi yer tutur. XVII əsrdə Nəsiminin təsirilə yazan özbək şairi Babarəhim Məşrəb də dini fanatizmi tənqid etdiyinə görə Bəlx hakiminin hökmü ilə 1711-ci ildə **kafir (kafir – tanrının varlığına, birliyinə inanmayan, həyatın mənasını bu dünyada görən və Quranda verilmiş ayələri vəhy hesab etməyən adamlardır)** adlandıraraq dar ağacından asırlar. Bu cür hərəkətin özündə də heç bir məntiq yoxdur, çünki insan yer üzünün tanrısı olmaqla azad və sərbəstdir. Bu dar ağacından asılan °air və yazıçıların ölüm səbəblərini də İ.Nəsiminin poetik təfəkkürünün onlara təsirində, gücündə axtarmaq olar.

XX əsrin yazıçılarından Mirmöhsünün yazdığı "Memar" romanında da Nəsiminin yaradıcılığına, Nəsimi obrazına geniş yer verilmişdir. Özbək yazıçısı Vahid Zahidovun, Erqoş Rüstəmovun, Həsənxoca Məhəmmədxocayevin "Qardaşlıq duyğuları", Qulamhüseyn Əliyevin "Nəsimi və özbək ədəbiyyatı" və digər əsərlərdə Nəsimi yaradıcılığının, onun poetik təfəkkürünün özbək ədəbiyyatına təsirindən geniş danışılır.

Aləmi, kainatı vəhdətdə və hərəkətdə götürən İ.Nəsimi haqlı olaraq, insan qüdrətinə, onun potensial imkanlarına yüksək dəyər verərək, insan zəkasını səmalara qaldırırdı.

*Zərrə mənəm, günəş mənəm, çar ilə pəncu şeş mənəm,*
*Surəti gör bəyan ilə, çünki bəyanə sığmazam.*

*Dünyanın qalü qilindən keç, Nəsimi, fariğ ol,*
*Aləmi-vəhdəti gözlə, bunca qovğası nədir?*

## İ. NƏSİMİ DÜNYASI VƏ ONUN DİNƏ MÜNASİBƏTİ

***İsrafilov Mahir Mənsur oğlu***

## XÜLASƏ

İ.Nəsimidən əvvəlki dövrlərdə sufi təriqətlərinin sayı daha çox olduğundan sufilik ideyaları poeziyada daha geniş tətbiq olunmağa başlamışdı. Sufilərin bir çox təlimləri İslam dininin tərəfdarları tərəfindən etirazla qarşılanırdı və onların fikrincə, bu təlim islam dünyasının inkişafına mane olur. İ.Nəsimi kimi şairlərin edam olunmaları da o dövrdə bu təlimin geniş

yayılması ilə bağlıdır. **Vəhdətül-vücud** təlimi sufi təriqətlərinin ən aparıcı ideyalarından birinə çevrilmişdir. Bu gün Amerikada, Avropa və Afrika ölkələrində sufi ideyaları rəğbətlə qarşılanmaqdadır.

## МИР ИМАДЕДДИНА НАСИМИ И ЕГО ОТНОШЕНИЕ К РЕЛИГИИ

***Исрафилов Махир Мансур оглы***

### РЕЗЮМЕ

Поскольку во времена Нассими было больше суфийских сект, чем раньше, суфийские идеи стали широко распространяться и в поэзии. Сторонники ислама опровергали многие из суфийских учений, по их мнению, это учение препятствовало развитию исламского мира. Смерть таких поэтов, как Насими, также была связана с широко распространенной практикой того времени. Вахдат-аль-вуджуд стала одной из самых выдающихся идей суфийских сект. Суфийские идеи приветствуются сегодня в Америке, Европе и Африке.

## THE WORLD OF IMADEDDIN NASİMİ AND ITS RELATION TO RELIGION

***Israfilov Mahir Mansur***

### SUMMARY

Since there were more Sufi sects in the time of Nasimi than before, Sufi ideas began to spread widely in poetry. Supporters of Islam have refuted many of the Sufi teachings, in their opinion; this doctrine hampered the development of the Islamic world. The death of poets such as Nasimi was also associated with the widespread practice of the time. Vahdat al-Wujud became one of the most prominent ideas of the Sufi sects. Sufi ideas are welcome today in America, Europe and Africa.

# ƏLİBƏY HÜSEYNZADƏNİN FƏLSƏFİ-ETİK GÖRÜŞLƏRİ

***f.ü.f.d. Vəliyev Daxil,***
***Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müəllimi***

***Açar sözlər:*** milli məfkurə, Əlibəy Hüsüynzadə, tükçülük, maarifçilik, ziyalı təbəqə.
***Ключевые слова:*** национальная идеология, Алибей Гусейнзаде, тюркизм, просветительство, интеллектуальная элита.
***Key words:*** national ideology, Alibey Huseynzade, Turkism, enlightenment, intellectual elite.

"Nicat – məhəbbətdədir!" İdeal və gözəlliyə əbədi meyllər! – Bu – Ə.Hüseynzadənin qəti qənaətidir, həm təbiətdə, həm də cəmiyyətdə zorakı qəsdi inkar edən müasir humanitar təlimlərlə də onu birləşdirir. Həyatı idealsız absurd, mənəvi, əxlaqi dəyər və sərvətdən məhrum xaos, yanüstü iblis səltənəti sayan qaranlıq, işığın, modern qərb fəlsəfəsindən Əlibəyi ayırıb, Şərqlə birləşdirən bu nöqtədə idi.

Ə.Hüseynzadə "Nicat məhəbbətdədir!" – o zaman söyləyir ki, "qırmızı qaranlıqlar", "terror alovları" hər tərəfi bürüyüb, hər gün, hər yerdə "bombalar vəhşicəsinə rəqs edir, insanlar bir-birlərini öldürür, məktəb içindən insanlar bir-birini vurur". Məhz görünməmiş zor, irtica mütəfəkkir filosofun simasında şəri, iblisi yox, xeyir və məhəbbət mələyini dilə gətirir. O, nicat sorağında tarixi araşdırır, filosofların irsində zamanın böyük sualına cavab axtarır.

Təbiət və tarix Əlibəyin nə qədər haqlı olduğunu sübut etdi. Terror doğuran "texnogen sivilizasiya" özünü tamamən tükətdi. Əsrin sonu məhz o həqiqəti təsdiq və yekun oldu ki, həm təbiətə, həm də cəmiyyətə zorakı qəsd özünü heç vaxt doğrultmur. Təbiət də, cəmiyyət də belə qəsd üçün insandan intiqam alır. Yüzdən çox inqilab və əksinqilab, iki dünya müharibəsi, total mümkün vasitələrdən istifadə edirdi. Rejimlər, ölüm peçləri, konsentrasion düşərgələr – bütün bunlar Ə.Hüseynzadənin hələ yeni başlayan əsrin qanla qızaran dan yerində gördüyü və əvvəldən xəbər verdiyi "qırmızı qaranlıqlar"dan doğdu. Əqli məhəbbət, diqqət, hamısı batan, yox olan "yaşıl işıqlarda" və yaşılı əvəz edən al qaranlıqlarda əriyib bitdi. Planeti bürüyən kütləvi ölüm və zor epidemiyası Şərqin "məhəbbət və nicat" fəlsəfəsindən yox, Avropanın vulqar və nihilist elmindən – təzad və mülahizə, sinif və tərəqqi təlimindən doğdu.

Mütəfəkkir-inqilabi "qırmızı qaranlıq", maarif, zəka çırağından yayılan nuru isə "yaşıl işıqlar" adlandırır.

Bütün Turanı Ə.Hüseynzadə məhz yaşıl perspektivdə görmək istəyir. Bunun üçün coğrafi, yaxud siyasi bir anlam kimi heç bir "pantürkmiz" uydurmaq lazım deyil, məhz mədəniyyət, elm və sənət mənasında vahid bədii, estetik mənəvi məkana nail olmaq lazımdır.

Ə.Hüseynzadənin təbliğ etdiyi türkçülük siyasi bir partiya deyildir, fəlsəfi, etik və estetik bir məktəbdir, başqa cür desək mədəniyyətlə bağlı bir çalışma və yeniləşmə yoludur. Bu səbəbdəndir ki, bu türkçülük indiyə qədər bir partiya şəklində siyasi mübarizə meydanına atılmayıb.

"Türkçülük" fəlsəfəsinə gəldikdə isə qeyd edə bilərik ki, elm obyektiv olduğu üçün beynəlmiləldir. Buna görə də elmdə türkçülük ola bilməz. Ancaq fəlsəfə elmə söykənməklə bərabər, elmi düşüncədən başqa bir düşüncə tərzidir. Elmin rədd etdiyi hökmləri fəlsəfə sübut edə bilməz, elmin sübut etdiyi həqiqəti isə fəlsəfə rədd edə bilməz. Fəlsəfə bu iki qayda ilə elmlə bağlı olmaqla bərabər, bunların xaricində tamamilə müstəqildir. Fəlsəfə elmlə ziddiyyətə girməmək şərtilə ruhumuz üçün daha ümüdlü, həyəcanlı, təsəlliverici, daha çox səadət bəxşedici, büsbütün yeni və orijinal fərziyyələri ortaya çıxara bilər. Əslində fəlsəfənin vəzifəsi bunun kimi fərziyyələri və görüşləri axtarıb tapmaqdır. Bir fəlsəfənin dəyəri bir yandan müsbət elmlər ilə ahəngdar olmasının dərəcəsiylə, digər yandan isə ruhlara böyük ümidlər, həyəcanlar, təsəllilər və səadətlər verməsiylə ölçülür. Deməli, fəlsəfənin bir bölümü obyektiv, digər bölümü isə

subyektivdir. Buna görə, fəlsəfə elm kimi beynəlmiləl olmağa məcbur deyildir. Milli də ola bilər. Bundan irəli gəlir ki, hər millətin özünə görə fəlsəfəsi vardır.

Fransız filosofu Rostan bunu belə izah edir: "Bir sərkərdə üçün qarşısındakı düşmən ordusunun nə qədər əsgəri, nə qədər silah ləvazimatı olduğunu bilmək çox faydalıdır, amma onun üçün bunlardan daha çox faydalı bir şey də vardır ki, o da qarşısındakı düşmən ordusunun fəlsəfəsini bilməkdir" (6 səh.23).

Gerçəkdən, iki ordu və iki millət bir-biriylə savaşarkən birisinin qalib, digərinin məğlub olmasını doğuran ən başlıca amillər hər iki tərəfin fəlsəfəsidir. Şəxsi həyatı vətənin istiqlalından, şəxsi mənfəəti namus və vəzifəsindən daha dəyərli bilən ordu hökmən məğlub olar.

İnsanlar hansı dövrdə yaşamasından asılı olmayaraq həm müasiri olduğu cəmiyyət, həm də keçmiş ictimai quruluş haqqında müəyyən biliklər əldə etməyə cəhd göstərirlər.

Ə.Hüseynzadənin fəlsəfi görüşlərindən bəhs edərkən görürük ki, filosof fəaliyyətinin ilk çağlarında ateizm mövqeyindən çıxış etmişdir. Bu onun cavanlıq aldanışı idi. Sonralar verdiyi müsahibədən öyrənirik ki, bu əqidəni o babası Axund Əhməd Səlyani ilə ateist M.F.Axundovun mübahisələri zamanı seçmiş, amma bu qərarın ömrü çox az olmuşdur.

Bir sual Əlibəyi çox düşündürürdü. Tez-tez yadına babasının Mirzə Fətəli ilə mübahisəsi, onu dinsizlikdə qınaması düşürdü. Bəşəriyyətin yaratmış olduğu dinlərin tarixini öyrənəndən sonra Əlibəy bu qərara gəlmişdir: etiqad məsələsində ən yaxşı yol dözümlü olmaqdır, dinlərlə tolerant münasibət bəsləməkdir. Ondakı bu etiqadlı "Qoy bu dünya həmişə abad, aram və şən olsun" – deyən Zərdüşt, "Döyüşdən fəlakət və əzab, barışıqdan sərvət və əmniyyət törəyir" – deyən Qətran Təbrizi kimi ulular yaratmış, "Həyatın mənayi-əslisi şəfqətdir, məhəbbətdir", "İdealsız nicat ümidi – məhal…", "İttihad!" – iştə ən böyük ideal!", "Həpimiz bir günəşin zərrəsiyiz, həpimiz bir ana pərvərdəsiyiz. "Ayırmaz bizləri İncil, Quran" deyən cavan qələm dostları Hadi, Cavid, Faiq möhkəmləndirmişdi (7, səh 84).

Məlumdur ki, ictimai fəaliyyət meydanına atılan hər bir xalqın azadlıq hərəkətana rəğbətinin ilkin və təbii təzahürü milli şüurun inkişafa başlamasıdır. Hər yerdə olduğu kimi, Azərbaycanda da, xalqın siyasi və milli şüurunun hansı istiqamətdə inkişafı məsələsi ətrafında gedən ideoloji mübarizə hərəkatına müxtəlif siyasi qüvvələr başçılıq edirli. Bu qüvvələrin mövcud quruluşa qarşı apardığı mübarizənin mahiyyəti eyni idi. Mütləqiyyəti ifşa və inkar etmək, milli əsarətdən qurtarmaq, ictimai ədalətsizliyə son qoymaq, bir sözlə, xalqı azadlığa çıxarmaq. Lakin həmin qüvvələrin mübarizə yolları xalqın inkişafı və gələcəyi haqda görüşləri müxtəlif idi. Belə ki, çarizmə qarşı mübarizə etməyin şəraiti və şərtləri haqqında bəzi ziyalıların tələbi başqa, ümumtürk islam birliyi ideyası yolunu tutan ziyalıların tələbi isə bir başqa idi. Nərimanov azadlığa çatmağın yolundan danışarkən "davasız vətən yüz illərlə bəslədiyi məqsədinə çatmayacaq" – deyə xalqı rus inqilabçılarının silahlı mübarizəsinə çağırırdısa, Ə.Hüseynzadə isə xalqı bu yoldan çəkindirərək "qılınc deyil, siyasət lazım, lisan lazım, əhli-maarif lazım" – deyə onları milli tərəqqi uğrunda mənəvi təkamül yoluna çəkildi.(5 səh 16) Yaxud Nərimanov xalqın oyanan şüurunun sinfi mübarizələrə hazırlamaq üçün onlardan Marksdan bəhrələnməyi, "Marksın gözəl fikirlərini, gözəl qanunlarını öyrənməyi" təklif edirdisə, Ə.Hüseynzadə ateist marksizmə qarşı öz idealist konsepsiyası olan islamçılıqdan çıxış edirdi.

Lakin Ə.Hüseynzadə islamı olduğu kimi qəbul etmək istəmirdi. O, islamda bir refermator kimi çıxış edirdi. Mədəni intibahla yanaşı dini intibahı da əsas götürürdü. Ali, mənəvi, etik dəyərləri xalqa çatdırmaq üçün Əlibəy, islamı əsrin nailiyyətlərindən faydalandıraraq, onu mütərəqqi səmərəli ideologiya kimi təqdim edirdi. Əlibəy qərbin qabaqcıl elm və texnikasından istifadə etməklə yüksəltmək fikrini təbliğ edirdi. Bu təbliğat islamın müasirləşdirilməsi, XX əsrin əvvəllərində mədrəsələrdə islahatların keçirilməsi, elm ilə dinin barışdırılması istiqamətində aparılırdı.

Cəmiyyət üçün o zaman hansı elmlərin zəruri olması haqda "Həyat" qəzetində açılan mübahisədə iştirak edən Ə.Hüseynzadə də bu "bu mübahisə yeni olmayıb lap qədim

zamanlardan Əflatun, Ərəstun və Lukretçi Kar dövründən başlayıb, zəmanəmizə qədər davam etmiş və etməkdədir" – deyərək sübut edirdi ki, elm ilə din bir-birinə zidd deyil, hər ikisi eyni bir məqsədə xidmət edir. O, dini elmlərin vacibliyindən bəhs edərkən İbn Sinanın, Fərabinin, İbn Rüşdün, J.J.Russonun, Dekartın dini ideyalarına istinad edirdisə, dünyəvi elmlərin əhəmiyyətindən danışarkən Franklinin texniki kəşflərindən, Monteskündyenin xalqı mütləqiyyət zülmündən xilas etmək tədbirlərindən, K.Marksın "sərmayədarların istismarından füqərayi-kasibəyi azad etmək" çarələrindən yazırdı. Bununla da o, elmlə dini əlaqələndirir, onların arasında ciddi fərq olmadığını sübuta yetirərək yazırdı: "Bizə hər növ mədəniyyət lazım deyil, yalnız islamiyyət daxilində olan mədəniyyət lazımdır".(6, səh 23) Lakin Ə.Hüseynzadənin bu xidməti son dərəcə çətin bir şəraitdə görülürdü. Belə ki, islamın müasirləşdirilməsini cahil din xadimləri, mühafizəkarlar müqavimətlə qarşılayırdılar. Çünki, onlar tərəqqini, yeniliyi müsəlmançılığa zidd hal kimi pisləyərək, "İslam əldə gedir" – deyə yeniliyə, intibaha maneçilik törədirdilər (6, səh 35).

Məhz buna görə də öz proqramında "türk millətlərinin mədəni birliyinə çalışacağından danışan "Həyat", eyni zamanda türkü geri çəkmək istəyən irticaçılara qarşı vuruşacağını bildirirdi.

Ə.Hüseynzadə ideoloji mübarizədə "sağ firqə" adlandırdığı "daima xalqın irəliləməsinə sədd çəkən", hər növ tənə və cədid şeylərdən və işlərdən bəhs edən, insanları alətdəvam nöqtədə saxlayan ruhanilərə qarşı mübarizəni vacib bilirdi. Çünki, bu firqə "dini mifini islamın ruhuna vaqif olmayaraq, öz zövq və həvəslərinə müvafiq bir halətdə qalmaq istəyirdilər" (9, səh 23). Əlibəyə görə xalqın milli şüurunun inkişafında böyük maneəyə çevrilən bu cahil qüvvələr islam ehkamlarına sadiq qalarsa, öz müsəlmançılıqlarını itirməkdən qorxaraq, yeniliyə, müasirləşməyə qarşı çıxırdılar. Lakin Əlibəy o zaman islamçılığın təbliğində daha təhlükəli hesab etdiyi, yəni "islamda mədəniyyətə, tərəqqiyə, təkamülə xidmət edəcək bir şey yoxdur" – deyən sol cəbhəyə qarşı mübarizəni də vacib bilirdi. Çünki bu cəbhə də Avropa cəhətdən əsən bütün yelləri, maddi uyğunluq (materializm), dəhryunluğ (ateizm) – ideyalarını şəfabəxş hesab edərək xalqın milli, dini şüurunun marksizm ideyaları ilə zəhərləyirdilər. Bütün bunları ümumiləşdirən Əlibəy "İslam xaricində bizə nicat yoxdur" – şüarını öz məramlarının əsas prinsipi kimi elan etdi.

Ə.Hüseynzadənin 1905-ci il "Həyat" qəzetinin 19-cu sayında çap etdirdiyi "İranda misyonerlər" məqaləsi bir əsr bundan öncə yazılmasına baxmayaraq, bu gün də öz əhəmiyyətini saxlamaqdadır. Bu məqaləsində Əlibəy misyonerlərin dini yaymağına iki tərəfli qiymət verir. Bir tərəfdən o bu fəaliyyəti müsbət qiymətləndirir: "Bu kimlərin xidməti Afrikanın, ya Polineziyanın bütpərəst qəbaili – vəhşiyyəti içində davam etdikcə, əlbəttə, məhduddur. Lakin Şərqdə, islam ölkələri arasında xristian dinin yayılmasına mənəvi münasibətini gizlətmiş "fərqdə aləmi – islam içində avropalıların siyasi intriqalarına bilə-bilə, ya kor-koranə vasitə olduqca ikidə-birdə bunların qəsdən, ya bilaixtiyar qeylü-qalə, həyəcanlara bais olacaqlar, inamlara müzürr məsələlər, siyasi məsələlər çıxaracaqları şübhəsizdir" (5, səh 117).

Azərbaycan milli hərəkatı çox çətin, mürəkkəb və gərgin inkişaf yolu keçmişdir. Bu proses anadilli mətbuatın nəşri uğrunda mübarizədən başlamış, mətbuat, şəxsiyyət azadlığı, sosial demokratiya və nəhayət, müstəqil dövlətçilik səviyyəsinə qədər yüksələn bir inkişaf mərhələsi keçmişdir.

XIX əsrin sonu milli hərəkat tarixinin inkişafında yeni mərhələnin başlanması ilə əlamətdardır. Kapitalizmin meydana gəlməsi, kənd təsərrüfatında yeni islahatların keçirilməsi, yeni neft yataqlarının kəşfi və xarici investisiyaların Azərbaycana qoyulması, sinfi münasibətlərin formalaşması bu dövrün iqtisadi-siyasi mənzərəsini əks etdirir.

Bu dövr həmçinin öz mədəni məzmunu ilə də seçilir. Ötən əsrin sonunda Azərbaycanın iqtisadi və sosial-siyasi irəliləyişi analoji olaraq mədəniyyət sahəsində də özünü göstərməyə başlayır. Azərbaycanda maarifçiliyin inkişafı, yeni-yeni təhsil ocaqlarının açılışı milli şüurun formalaşmasına təkan verir. Azərbaycan ziyalıları anadilli məktəb uğrunda mübarizəyə

başlayırlar. S.Ə.Şirvani, F.Sidqi, M.M.Nəvvabın dünyəvi elmlərə üstünlük verən yeni üsul məktəbdən xalqın maariflənməsində mühüm rol oynayır.

Milli hərəkatın ən böyük nailiyyətlərindən biri – milli mətbuatın əsasının qoyulması oldu. 1875-1877-ci illərdə böyük maarifpərvər H.Zərdabinin nəşr etdirdiyi "Əkinçi" qəzeti xalqın milli şüurunun oyanmasında son dərəcə mühüm rol oynamışdı. Qəzet xalqın səviyyəsini yüksəltmək, onu maarifləndirmək, onda vətən sevgisi, milli birlik ideyasını qüvvətləndirmək üçün bütün

Ə.Hüseynzadə yalnız mədəni deyil, eyni zamanda, mədəni və siyasi türkçülük hərəkatının Azərbaycanda ilk naşiridir. Onun türkçülük ideologiyası o zaman Azərbaycanda hökm sürət mürəkkəb ictimai-siyasi şəraitin bilavasitə təzahürü idi. Onun bu görüşləri bütöv bir ideya cərəyan kimi məhz Azərbaycanda I rus inqilabi illərində çarizmə, müstəmləkəçiliyə, əsarətə, cəhalətə və nadanlığa, milli və dini çəkişləmələrə qarşı mübarizədə formalaşmışdır. Onun türkçülüyü-siyasi məfkurəsi, milli idealı, yüksək amalı ilə fərqlənirdi. Bu türkçülüyün əsas milli idealı dini və milli birlik yaratmaq idı. Bu ideal milli şüurun yaradılmasını, formalaşmasını sürətləndirirdi. Türkçülüyə görə milli şüuru olmayan millətlər daim təcavüzə, parçalanmalara məruzdur.

Türkçülüyün yaranma tarixini türk millətinin yaranma tarixi ilə deyil, türk millətinin milli şüurunun yaranması ilə bağlamaq lazımdır. Türk xalqlarına qarşı yönəldilmiş təhqiredici hadisələr milliyyət şüurunun, türkçülüyün partlayışına və yaranmasına səbəb olmuşdur. Bu çıxış nöqtəsi türkçülük aksiomunun qabağıalınmaz bir qüvvəyə çevrilməsilə nəticələnmişdir.

XX əsrin əvvəllərində azadlıq uğrunda mübarizə yollarının hələ müəyyənləşmədiyi bir dövrdə Ə.Hüseynzadə tarixi məsuliyyəti öhdəsinə çəkərək milli tərəqqinin "üç düşüncə tərzi" (islamlaşmaq, türkləşmək, avropalaşmaq) əsasında aparılmasının vacibliyini iddia və isbat etməklə türkçülüyü tez bir zamanda siyasi doktrinaya çevrirək, müsəlman və türk xalqlarının milli azadlıq tarixində yeni bir səhifə açır.

Ə.Hüseynzadəyə görə türklərin dini məfkurəsi islamlaşmaq, milli məfkurəsi isə türkləşməkdir. Milliyyət fikri qüvvət tapdıqca, islam dini də o dərəcədə qüvvətlənəcək. Millətçilik türkçülüyün ən mühüm xüsusiyyətidir. Millətçilik duyğusundan məhrum olan xalq millət deyildir. Türkçülüyün məqsədi mənəvi birliyə nail olmaq üçün müsəlmanların "milli tərəqqi" idealı ətrafında birləşməsidir.

## ƏDƏBİYYAT


1. Əlyev M.M. Ə.Rəsulzadə, Bakı: 1990.
2. Fikrin karvanı. Bakı: 1984.
3. Göyüşov Z.B. Azərbaycan maarifçilərinin etik görüşləri. Bakı: 1960.
4. Həsənov H. Azərbaycanda fəlsəfi və ictimai-siyasi fikir. Bakı: 1997.
5. Hüseynzadə Ə. Siyasəti fürusət. Bakı: 1996.
6. Hüseynzadə Ə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. Bakı: 1996.
7. Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir. Bakı: 1997.
8. Hüseynzadə Ə. Qərbin iki dastanında türk. Bakı: 1998.
9. Qasımzadə F. M.F.Axundovun həyat və yaradıcılığı. Bakı: 1962.

## ƏLİBƏY HÜSEYNZADƏNİN FƏLSƏFİ-ETİK GÖRÜŞLƏRİ


### XÜLASƏ

Məqalədə XX əsrin əvvəllərində dünyada baş verən proseslər, bunların Azərbaycana təsiri və bu proseslər əsnasında ziyalıların cəmiyyətdə oynadığı roldan bəhs olunur. Bu ziyalılardan biri də Əlibəy Hüseynzadə olmuşdur. Məqalədə haqlı olaraq qeyd olunur ki, terror doğuran sivilizasiya özünü tamamən tükətdib. Əsrin sonu məhz o həqiqəti təsdiq elədi ki, zorakı qəsd heç vaxt özünü doğrulmur. Bu dövr həmçinin öz mədəni məzmunu ilə seçilir.

Ötən əsrin sonunda Azərbaycanda iqtisadi və social-siyasi irəliləyiş analoji olaraq mədəniyyət sahəsində də özünü göstərməyə başlamışdı. Həmin dövrdə Azərbaycanda maarifçiliyin inkişafı, yeni-yeni təhsil ocaqlarının açılışı milli şüurun formalaşmasına təkan verirdi.


## ФИЛОСОФСКО-ЭТИЧЕСКИЕ ВЗГЛЯДЫ АЛИБЕКА ГУСЕЙНЗАДЕ

***Велиев Д.***


### РЕЗЮМЕ

В статье описываются процессы, которые происходили во всем мире в начале XX века, их влияние на Азербайджан и роль, которую в ходе этих процессов играли в обществе интеллектуалы. Одним из таких интеллектуалов был Алибек Гусейнзаде. В статье подчеркивается, что цивилизация, порождающая террор, полностью исчерпала себя. Конец века подтвердил тот факт, что акты насилия никогда себя не оправдают. Этот период также характеризуется своим культурным содержанием.

В конце прошлого века экономический и социально-политический прогресс в Азербайджане начал проявляться в культурной сфере. В то время развитие образования в Азербайджане и открытие новых учебных заведений стимулировали формирование национального самосознания.


## PHILOSOPHICAL-ETHICAL DEDUCTION OF ALIBECA GUSEINZADE


### SUMMARY

The article is about early twenty centuries what is happening in the world, so their influence to Azerbaijan and with this process the role of intellectuals in our modernized era. One of famous intellectuals was Alibay Huseyinzadeh. It is said in article and it confirmed that, terrorism is miserable factor of $20^{th}$ century. The end of the $20^{th}$ century confirmed that violent conspiracy never justify itself. This century is selected as cultural background.

In the end of $20^{th}$ century had shown itself as economic and social-political development, also cultural pleas in Azerbaijan. That century, stimulated the improvement of education, opening of to the national modern education places formation of conscious ness.

# AZƏRBAYCAN – DÜNYANIN SÜLH, TOLERANTLIQ VƏ HƏMRƏYLİK MƏKANIDIR

***Mahmudova Sevda Pənah qızı,***
***Ağayev Çingiz İlyas oğlu***
***Bakı Dövlət Universiteti Şətqşünaslıq fakültəsinin***
***İslamşünaslıq Elmi Tədqiqat Mərkəzinin əməkdaşları***

***Açar sözlər:*** İslam; həmrəylik; tolerantlıq; dəyər.
***Ключевые слова:*** Ислам; солидарность; толерантность; ценности.
***Key words:*** Islamic; solidarity; tolerance; worth.

Azərbaycan uzun əsrlərdən bəri islam sivilizasiyasının əsas mərkəzlərindən biri olmuş və o, islam dininin yayılmasında və eyni zamanda müsəlman intibahının bərqərar olmasında mühüm bir rolu vardır. Bu gün müsəlman dünyasında din amilindən istifadə edərək yaradılan qarşıdurmaların qarşısını almaq üçün alternativ yollar arayıb tapmağa hər zamankından daha çox ehtiyac vardır. Bu yol isə dini tolerantlığın, birgə yaşayışın, multikultural dəyərlərin, eyni zamanda, müsəlmanlar arasında həmrəylik ideyasının təbliğ və təşviq olunmasından keçir. Bu cür xoşagəlməz halların qarşısını almaq üçün dünyaya islamın sülh dini olduğunu və müsəlmanların terrorçu deyil, dinindən, irqindən, sosial mənsubiyyətindən asılı olmayaraq hər kəsə dözümlü, bərabər yanaşan toplumlar olduğunu çatdırmağa ehtiyac duyulur.

Bütün bunların hamısını Azərbaycan xalqı öz işi və əməli ilə həyata keçirməkdədir. Necə ki, xalqımızın sahib olduğu bu dəyərlər artıq ölkəmizdə həyat tərzinə çevrilmişdir və biz bütün bunlarla dünyaya göstəririk ki, Azərbaycan xalqı tolerant bir xalqdır və bu yolun heç bir alternativi yoxdur. Artıq Azərbaycan dünyada istər mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi, istər tolerntlığın, multikultural dəyərlərin inkişafı, istərsə də müsəlman ölkələri arasında həmrəyliyin gücləndirilməsi istiqamətində mühüm rol oynamaqdadır.islam həmrəyliyi yalnız din amilini deyil, eyni zamanda müsəlman ölkələrinin həm iqtisadi, həm mədəniyyət, həm də mənəviyyat sahəsində bir-birinə dəstək olması, həmrəy olması məsələsini özündə əks etdirir və onlar arasında mifaq salmaq istəyənlərə qarşı bir cavabdır.

Dünyada bugünkü çağırışlar baxımından islam həmrəyliyi mühüm əhəmiyyət kəsb edir. Çünki bu gün islam dünyasına qarşı müəyyən təzyiqlər müşahidə edilir. Bu baxımdan islam dünyasının iqtisadi sahədə həmrəyliyi, beynəlxalq təşkilatlarda həmrəyliyi olmalıdır. Bu gün müasir dövrün çağırışları baxımından islamda həmrəyliyin olması vacibdir, çünki bu dinə qarşı müəyyən təzyiqlər mövcuddur. Bu gün 7 milyard dünya əhalisinin 25 faizi islam dininə sitayiş edir. Dünya neft ehtiyatlarının 60 faizi, qaz ehtiyatlarının 62 faizi müsəlman ölkəsindədir. Ancaq internetləşmənin səviyyəsi müsəlman ölkəsində dünya orta göstəricisindən 4 dəfə azdır. Dünyadakı elmi kəşflərin yalnız 1,5 faizi islam alimlərinin payına düşür. Nobel mükafatçılarının yalnız 2-3 faizi islam alimləridir.

Islam dünyası 100 trilyon dollarlıq dünya iqtisadiyyatında yalnız 8,5 faiz paya malikdir. Müsəlman ölkələri arasında iqtisadi sahədə, beynəlxalq təşkilatlarda, siyasi sahədə bir həmrəylik olmalıdır. Islam həmrəyliyi sivilizasiyalararası həmrəyliyə bir körpü yaşatmaq məqsədi daşıyır.

Azərbaycan tarixən müxtəlif xalqların və dinlərin nümayəndələrinin sülh, dostluq şəraitində yaşadığı məkan olub. Bu gün Azərbaycan dünyada təkcə enerji resursları ilə zəngin olan ölkə kimi deyil, həm də humanizm prinsiplərinə sadiq, tolerant və multikultural ölkə kimi tanınır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi. Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi

və öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqamət hazırda Prezident İlham Əliyev tərəfindən davam və inkişaf etdirilir.

Ölkəmizin və xalqımızın sahib olduğu multikultural dəyərlərin, tolerantlıq ənənələrinin beynəlxalq ictimaiyyətə təqdim edilməsində Azərbaycan dövləti ilə yanaşı, dünyada maddi və qeyri-maddi irsin qorunmasında və təbliğində mühüm işlər görən Heydər Əliyev Fondunun da böyük əməyi var. Bu gün Heydər Əliyev Fondu Azərbaycan multikultural ənənələrinin qorunub saxlanması, təbliği ilə bağlı olduqca əhəmiyyətli layihələr həyata keçirir. Bu layihələr Azərbaycan multikulturalizminin bir ölkə çərçivəsində qapalı inkişafını deyil, dünyada dinlərin və mədəniyyətlərin müxtəliflikləri şəraitində fəaliyyət göstərməsini reallaşdırır.

Azərbaycanda ictimai-siyasi sabitliyin tam təmin olunması və iqtisadi qüdrətimizin getdikcə artması regional əməkdaşlığı gündən-günə möhkəmləndirir. Siyasi, iqtisadi və mədəni əlaqələrin uğurla davam etdirilməsi Azərbaycanı artıq çox nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi məkana çevirib. Beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə xüsusi diqqət yetirən Azərbaycan Respublikası İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ISESCO) ilə qarşılıqlı faydalı münasibətlər qurmuşdur. Əlaqələrin daim yüksələn xətt boyunca uğurla inkişaf etdiyi ötən müddət ərzində respublikada İslam ölkələrinin qlobal əhəmiyyətli bir sıra mühüm mədəni forumları keçirilmişdir.

Müstəqil Azərbaycanda etnik azlıqların hüquqlarının müdafiəsi ölkənin siyasi sabitliyinin təminatı və xarici siyasətin prioritet vəzifələrindəndir. Çoxmillətli və çoxfunksiyalı respublika olan Azərbaycanın milli siyasəti bütün etnik qruplar, o cümlədən, milli azlıqlar üçün şəraitin təmin edilməsi və yaradılmasıdır. Respublikada multikulturalizm Azərbaycan dövlətinin milli-mənəvi, ümumbəşəri, humanist dəyərlərə söykənən davamlı və ardıcıl siyasi kursudur.

Azərbaycan nadir ölkələrdən biridir ki, eyni zamanda, həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının üzvüdür. Azərbaycan dünyəvi müsəlman ölkəsidir. İslam bizim müqəddəs dinimizdir və biz öz dinimizə, öz ənənələrimizə, öz köklərimizə böyük hörmətlə yanaşırıq.

Azərbaycan xalqı dünyanın ehtiyac duyduğu və əldə etməkdə çətinlik çəkdiyi birgə yaşayışı, həmrəy olmağı dədə-babalarımızdan miras kimi qəbul edərək bugünübüzədək qoruyub saxlamışdır.

Azərbaycan bir növ islam dünyasında da barışdırıcı məkan rolunu oynaya bilər və oynamaqdadır. Islam dünyasının bir parçasına çevrilmiş Azərbaycan öz milli-mənəvi dəyərlərinə sadiqliyini bir daha nümayiş etdirməklə islam həmrəyliyini eyni zamanda vətəndaş həmrəyliyinin tərkib hissəsi kimi təsvir edir. Islam həmrəyliyi radikalizm və reabilitasiyada ən effektiv vasitədir, xüsusilə məzhəbçilik və dini təhlükəsizlik problemlərinin həllinin açarı sayıla bilər. Islam həmrəyliyi təkcə islam yox, digər dövlətlərlə də həmrəyliyi özündə ehtiva edir. Həmrəylik ölkələr arasında anlaşmaya və əməkdaşlığa dünyaya sülhə, artıq fəlakətə çevrilən terrorizmə qarşı əlbir və əlaqəli fəaliyyətə xidmət edir.

Azərbaycan bütün dinlərə mənsub olan insanlar arasında dinc birgəyaşayışın əyani şahidi olmağa kifayət edir. Azərbaycan başqalarının fikirlərini qəbul edən, onlarla birlikdə bir dövlətin tərkibində və müştərək milli ideologiya çərçivəsində yaşayan tolerant islamın əsl nümunəsidir. Islam bizləri öyrədir ki, insanlar ləyaqətdə bərabərdirlər, millətlər, regionlar və irqlər arasında ayrı – seçkiliyə yol verilməməlidir.

Islam, dində məcburiyyəti rədd edir, dövlət hər bir vətəndaşın həyatını, ailəsini, əmlakını və dini azadlığını qorumağa məcburdur. Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri də islam ölkələri arasında həmrəyliyin gücləndirilməsindən ibarətdir. Islam ölkələrinin peşəkar jurnalistlərini, aparıcı xəbər agentliklərini, beynəlxalq və regional media təşkilatlarını bir araya

toplayacaq İƏT-ə üzv dövlətlərin Jurnalistləri Assosiasiyasının yaradılması təşəbbüsü də Azərbaycana məxsusdur. Bu qurum qloballaşan dünyada islam aləminin üzləşdiyi yeni təhdidlərə qarşı mübarizədə birlik və həmrəyliyə nail olmağın yollarını tapmağa imkan verən nüfuzlu platformaya çevriləcəkdir.

Azərbaycan Prezidenti son dərəcə gərəkli və hümanist bir addım ataraq islam dünyasını bir masa ətrafında əyləşməyə, onları hədələyən və reallaşan təhlükələrə qarşı birgə mübarizəyə, həmrəy olmağa dəvət etdi. Dövlətimizi, xalqımızı və dünyamızı təhlükələrdən, terrordan və dağıntılardan, yoxsulluq və gerilikdən qurtarmaq üçün həmrəylik uğrunda çalışmalıyıq. Islam həmrəyliyinin İƏT (İslam Əməkdaşlıq Təşkilatı) üçün də çox böyük əhəmiyyəti vardır, çünki bu təşkilatın əsas fəaliyyəti islam həmrəyliyi üzərində qurulmuşdur.

Nə qədər ki, islam ölkələrində pərakəndəlik hökm sürəcək, müsəlmanları da parçalayıb məhv etmək o qədər asan olacaq. Buna görə də Azərbaycanın bu dəfə islam ölkələrinə etdiyi çağırış, hesab etmək olar ki, zamanın çağırışıdır və nəinki müsəlman dünyasının, eləcə də digər imanların hökmran olduğu ölkələrdə dinc yanaşı yaşamaq prinsiplərinin inkişafına xidmət edir.

Azərbaycan İslam Əməkdaşlıq Təşkilatına üzv olduqdan sonra öz təşəbbüskar mövqeyi ilə seçilib, üzərinə düşən vəzifələri həmişə yerinə yetirib, təşkilatın prinsiplərinə uyğun davranmağa çalışıb. Azərbaycan təmsil olunduğu bütün beynəlxalq platformalarda həm özünün dövlət maraqlarını, həm də islam mədəniyyətini, islam dünyasının ortaq mənafelərini müdafiə etməkdədir.

2017-ci ilin “İslam həmrəyliyi ili” elan olunması Azərbaycanda islami dəyərlərə verilən qiymətin dünya səviyyəsində bir daha qeyd olunmasının göstəricisidir. Çünki bu dəyərlər Azərbaycan üçün son dərəcədə vacib mənəvi dəyərlərdir və Azərbaycanı islam dünyasının incisi olmağa layiq bir ölkə kimi giymətləndirmək olar. Islam aləmi ilə qurulan əlaqələr, hərtərəfli əməkdaşlıq Azərbaycan Respublikasının dövlət siyasətinin mühüm bir hissəsi kimi daim inkişaf etməkdədir. Bu gün müsəlman aləmi dünyanın ən gərgin və böhranlı regionlarından birinə çevrilmişdir.

Burada mövcud olan zəngin neft ehtiyatları və digər təbii sərvətlər imkan verir ki, böyük dövlətlər və beynəlxalq güc sahibləri öz diqqətlərini bu bölgələr yönəltsinlər. Belə bir şəraitdə müsəlman ölkələrinin birləşməsi, islami dəyər və prinsipləri rəhbər tutaraq həmrəylik nümayiş etdirməli və bir-biriləri ilə yüksək dərəcədə əməkdaşlıq etməlidirlər. Müsəlman ölkələrinin əksəriyyəti öz inkişaflarında geri qalırlar, ancaq Azərbaycan isə artıq qısa bir müddətdə öz sosial-iqtisadi, siyasi-ictimai və mədəni inkişafında böyük nailiyyətlərə çataraq bir çox müsəlman ölkələrinə nümunə olmuşdur.

Azərbaycan bu gün dünyada dinlər, mədəniyyətlər və sivilizasiyalararsı dialoqun təşviqində, həmçinin multikultural dəyərlərin təbliğ olunmasında mühüm rola malik olan ölkələrdən biri, bəlkə də birincisidir. Azərbaycanın tərəqqipərvər və hümanizm, həmrəyliyə söykənən mövqeyi olduqca təqdirəlayiqdir. Müsəlman ailəsinin bir üzvü olan Azərbaycan xalqının milli, mədəni dəyərlərinin digər müsəlman cəmiyyətləri ilə tarixi – mədəni əlaqələrinin rolu böyükdür. Bir sözlə, Azərbaycan həm islami ölkələri arasında siyasi, iqtisadi, mədəni əlaqələrinə genişlənməsində önəmli rol oynayır, həm də ölkə ərazisində və dünyada islam irsinin qorunması istiqamətində fəal işlər aparır. Azərbaycan milli mənəviyyatı öz ənənələri ilə islam dini dəyərlərini özündə ehtiva edir. Yəni, sülh şəraitində birgəyaşayış, mütərəqqilik, insanpərvərlik, digər xalqlara və cəmiyyət üzvlərinə hörmət kimi üstün mədəni keyfiyyətlər islam dini dəyərlərini özündə əks etdirir.

Azərbaycan müsəlman ölkələri arasında həmrəyliyi və əməkdaşlığı möhkəmlətməyi, sülh şəraitini təmin etməyi, islamın mənəvi dəyərlərini, mədəniyyətini, ənənələrini qoruyub saxlamaq və inkişaf etdirməyi ən başlıca vəzifələrdən biri hesab edir.

Azərbaycan həmişə düşünülmüş və ölçülüb-biçilmiş çoxşahəli bir siyasət yürüdür, ikitərəfli və çoxtərəfli münasibətlərin möhkəmlənməsi üçün səylər göstərir, bütün aktual məsələlərdə

islam dünyasını dəstəkləyir, mədəniyyətlərarası və dinlərarası dialoqun möhkəmlənməsində fəal rol oynayır. Belə təşəbbüslər müsəlman xalqların sıx birləşməsinə, müsəlman ölkələri ilə qarşılıqlı anlaşmanın möhkəmlənməsinə və bir çox məsələlərdə onlarla həmrəy olmasına gətirib çıxarır. Odur ki, Azərbaycanın "İslam həmrəyliyi2 təşəbbüsü İslam dininin həqiqi dəyərlərinin dünya ictimaiyyətinə çatdırılmasında, müsəlman ölkələri ilə başqa ölkələr arasında münasibətlərin möhkəmləmlənməsində mühüm rol oynayır. Bu həmrəyləiyə bütün müsəlman ölkələri ciddi yanaşmalı, onu dəstəkləməli və həyata keçirmək üçün birgə çalışmalıdırlar.

## ƏDƏBİYYAT

1. 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı;
2. İlham Əliyev: Azərbaycan tolerantlıq örnəyidir. (çıxışlar, nitqlər, görüşlər, təbriklər). Bakı, 2015.
3. IV Bakı Beynəlxalq Humanitar Forumu. Bakı, 2 oktyabr 2014.
4. YUNESKO tərəfindən qəbul edilən "Dözümlülük Prinsipləri Bəyannaməsi". 16 noyabr 1995.
5. Rex J. The problematic of multinational and multicultural societies// Ethnic and Racial Studies/ 1997. Vol.20 №3.
6. İslam təhriflərə cavab. Bakı: Az. Dövlətkitabpalatası, 1997, 133s.
7. Məmmədəliyev V.M. Islamqısaməlumatkitabı. BakıAz.döv.nəşr., 1985,162s.

## XÜLASƏ

Azərbaycanın islam həmrəyliyi təşəbbüsü islam dininin həqiqi dəyərlərini dünya ictimaiyyətinə çatdırılmaqdan və müsəlman ölkələri ilə başqa ölkələr arasında münasibətinin möhkəmlənməsində mühüm rol oynayır. Azərbaycan bu gün dünyada dinlər, mədəniyyətlər və sivilizasiyalararası dialoqun təşviqində, həmçinin multikultural dəyərlərin təbliğ olunmasında mühüm rola malik olan ölkələrdən biri, bəlkə də birincisidir.

## РЕЗЮМЕ

Истинные ценности ислама в Азербайджане играют важную роль и выступают с призывом к мировому сообществу, расширить инициативу исламской солидарности и укрепления отношений между мусульманскими и другими странами. Азербайджан в современном мире религий, культур и цивилизаций в развитии диалога, играет важную роль в содействии мульти культурных ценностей.

## SUMMARY

Azerbaijan has an important impact on strengthening relationship of Islamic countries with other countries, playing initiative role in showing the Islamic solidarity to the world community. Today, Azerbaijan is one of the countries and even the first country which has an important role in promoting the dialogue between world religions, cultures and civilizations as well as in promoting multicultural values.

# ФИЛОСОФСКОЕ СОДЕРЖАНИЕ АВЕСТЫ

***Вейсова Самира Малик кызы,***
***доцент кафедры истории философии и культурологии БГУ***
**samira029@mail.ru**

***Ключевые слова:*** дуализм, монотеизм, зарванизм
***Açar sözlər:*** dualizm, monoteizm, zərvanilik
***Keywords:*** dualism, monotheism, zarvanism.

Авеста относится к числу тех общечеловеческих ценностей, которые оказали существенное влияние на всю историю развития мировой цивилизации. В европейской науке интерес к Авесте существует по меньшей мере со времен Аристотеля. Учение Заратуштры привлекло внимание виднейших представителей немецкой философии - Гегеля, Ницше, Гете.

Вся последующая философская мысль развивала основные философские идеи Авесты - идея закономерности и порядка в природе; "о бесконечном времени",зарванизме; идея о том, что история повторяется; идея борьбы противоположностей в природе и жизни людей. Так, в науке существует предположение о том, что гегелевское учение о единстве и борьбе противоположностей происходит от зороастризма. Не устаревает вопрос отношения доктрины Гат к гностическим учениям. Известная близость между ними не вызывает сомнений. В обоих случаях налицо комплекс системно-связанных понятий свободы воли, индивидуального религиозного сознания, личного бессмертия, происхождения зла, наконец, дихотомия двух миров - земного и духовного.

Важнейшие положения зороастрийского учения были заимствованы античными философами. Например, учение о четырех элементах мира - огне, воде, воздухе, земле. Ряд положений Гераклита о тождестве морального и космического закона, овеществленного в наделенном сознанием мирообразующем огне с эсхатологической функцией в конце веков, также берет от зороастризма. Учение Платона ставилось в связь с Зороастром, уже у непосредственных учеников Платона. Представление о Зороастре как об изобретателе искусства магии идет от Платона, а астрологии от Динона. Итак можно перечислить много раннегреческих рефлексов авестийских мифологем.

В научной литературе нет единого мнения относительно монотеизма и дуализма религиозной философии Зороастра. По этому поводу исследователи придерживаются разных позиций. Анализ Авесты дает полное основание утверждать. что Зороастр отверг политеизм и провозгласил монотеизм, веру в единое духовное начало, Ахура Мазду. Об этом свидетельствуют Гаты, в частности Гаты Уштаваити, Ясна 43,11 в которой говорится, что Зороастр посчитал Ахура Мазду единственным святым началом, с того времени как тот открыл ему свое учение через Воху Мана. Он, Зороастр, должен приложить все усилия по распространению этого учения (6, с.26).

Ахура Мазда - абсолютная, бесконечная субстанция, истинное, доброе, творец всего конкретного материального мира. По Авесте, Ахура Мазда первоначально сотворил шесть божеств, которые вместе с ним создали семь материальных творений - это человек, скот, огонь, земля, небо, растения. В зороастризме божества называются Амэша-Спэнта, "Бессмертные Святые" - это Воху Мана, "Благая Мысль"; Аша-Вахишта , "Лучшая праведность"; Спэнта-Армаити ,"Святое благочестие"; Хшатра-Ваирйа, "Желанная власть"; Хаурватат, "Целостность"; Амэрэтат "Бессмертие". "Бессмертные Святые", в Авесте, являются либо эманацией Ахура Мазды, либо сотворены им. Так, Ормазд-яшт,

Яшт 1, 25 говорит о том, что и благая мысль, и истина, и власть. и святое благочестие, и целость, и бессмертие творения Ахура Мазды (1, с.18).

Согласно мнению крупнейшего исследователя в области зороастризма М. Бойс, священнослужители развили зороастрийское учение утверждением о том, что Ахура Мазда совершил акт творения в два этапа. Сначала он создал все в "духовном", или нематериальном, меног, виде, придал всему материальный, гетиг, вид. Когда творение стало материальным, оно оказалось уязвимым для сил зла, появился злой дух - Ангра Манью. С нападением Ангра Манью связано начало новой эры - "Смешение", во время которой добро и зло смешаны. Третья эра мировой истории -"Разделение", связано с полным уничтожением зла и восстановлением материального мира в первоначальном совершенстве. Некоторые ученые считают, что Заратуштра в теологии придерживается монотеизма, а в метафизике - дуализма.

Для зороастризма характерно как монотеистическое, так и дуалистическое миропонимание. Наиболее четко монотеизм прослеживается в Гатах Зороастра. Так, в Ясне 44,15 , Гата Уштаваити, рассказывается о том, что две силы, истина и ложь, столкнувшиеся в начале мироздания ведут ожесточенную борьбу и, Зороастр задается вопросом - кому из них поможет Ахура Мазда одержать победу (6, с.30).

Следовательно, Ахура Мазда могущественнее всех сил. Другие же части Авесты предполагают обратное. Как только Ахура Мазда сотворил совершенный, не стареющий, не умирающий вечно живой мир о чем повествует Замйад-яшт (3, с.54 ), где нет ни тьмы, ни холода, ни зноя, появляется злодей творящий зло (1, с.66-67 ). Ангра Манью не столько бог в истинном понимании слова, сколько злой дух, но уже вступающий в противоборство с божеством и, являющийся равносильной ему абсолютной противоположностью, началом, создателем, в чем убеждают нас некоторые Гаты, например Гаты ахунаваити.

В ней отмечается, что изначально появились два духа - один добрый в мыслях, словах, делах, другой злой в мыслях, словах, делах. Разумный человек выберет добро, а не зло. Столкнувшись, первоначальные духи положили начало жизни и смерти. Погрязший во лжи попадает в ад, а следующий истине в рай (Ясна 30, 3-4) (6, с.7).

Зороастризм подвергался многочисленным интерпретациям в результате которых, дуальное мировосприятие превратилось в центральную идею зороастрийского религиозного мировоззрения. Авеста впервые в истории философской мысли наиболее четко формулирует дуализм, резкое противопоставление двух начал, который проявляется во всей вселенной и определяет своими взаимоотношениями характер и устройство мира, его первооснову и историю. Дуализмом обязано зороастрийской системе вся последующая философская мысль. Идея борьбы противоположностей - света и тьмы, чистого и нечистого, бесконечного и конечного, Ормузда и Ахримана считается основной идеей зороастрийского учения.

Характеризуя зороастризм как религию добра или света, Гегель писал: " Перед нами в самом деле добро истинное, могущественное, но в борьбе со злом, и зло противостоит ему в качестве абсолютного принципа и продолжает противостоять; зло, правда должно быть преодолено, устранено, но того, что должно быть, еще нет; долженствование - мощь, неспособная реализовать себя, нечто слабое, бессильное" ( 5, с.12).

Добро и зло, олицетворенные в Ахура Мазда и Ангра Манью, как два абсолютно противоположных принципа и составляют зороастрийский дуализм. Основное значение Авесты состоит в том, что впервые в истории философской мысли она четко формулирует дуализм, которое проявляется во вселенной и определяет своими взаимоотношениями характер и устройство мира, его первооснову и историю. Дуальное мировосприятие , идея борьбы добра и зла в зороастризме становиться принципом философствования, своего рода фокусом осмысления мира и ценностно-оценочного отношения к нему. Абсолютное

добро должно победить абсолютное зло, поэтому добро выступает как бесконечное, не являющееся причиной зла, а зло есть нечто конечное, которое имеет лишь временное существование, не обладает истинной самостоятельностью и представляет собой небытие. Зороастризм проповедует победу как Ахура Мазды над Ангра Манью,

"Из всех самым великим
Владыкой и главою
Ахура-Мазда будет -
На гибель Анхра Манью"  Яшт 1,32 (1, с.20)

так и возглавляемых им духов и людей над силами зла, на что, неоднократно указывает Авеста, например, Яшт 19,96 говорит о том, что добрая мысль одолеет злую, речь истинная лживую, бессмертие же голод и жажду(1,с.146)

Основная суть зороастрийского учения заключается в поклонении добру, которой принадлежит все живое. В зороастризме довольно четко прослеживаются пантеистические идеи, оказавшие значительное влияние на формирование пантеистического мировосприятия, на что обратил внимание Гегель: "Всякое проявление добра в живых существах - писал он, - есть Ормузд: он вносит жизнь посредством мысли, слова, действия. Здесь также отчасти содержатся черты пантеизма, поскольку добро, свет есть субстанция всего" ( 5, с.16 ).

Авеста содержит в себе идею о "бесконечном времени", которая впоследствии вылилось в самостоятельное течение мысли - "зарванизм". В основе этой идеи лежит представление о том, что первопричиной сущего является Зарвана Акарана -"бесконечное время". Ормазд-яшт характеризует время самодержавной, безграничной, долговечной. Время выступает как абсолютное начало, божество, обладающее властью, имеющее свои законы и подчиняющееся только им. Ахура Мазда - светлое, Ангра Манью - темное существа, близнецы, родившиеся от этого всемогущего творца, Зарвана.

Существуют различные мифы о происхождении духов-близнецов, например согласно одной из них, " до того, как родился Ахура Мазда, Зарван стал сомневаться в своих силах - сумеет ли он родить достойного сына. От этого сомнения и получил зачатие Ангра Маинйу - на свет появилось это темное и отвратительное существо, испугавшее родителя" (4, с.85). Другая же версия мифа о добре и зле, происходящих от Зарвана утверждает " что Ормузд обладает злым умыслом, т.е. он допускает в мысли существование своего потенциального противника и от этого Ахриман становится действительным" (2, с.25).

Между творениями Зарвана происходит непрерывная борьба, от которой он самоотстраняется и не принимает участие. Созданные Зарваном Ахриман - разрушительная сила, Ормузд творец всего материального мира не противоречат исходной позиции зороастризма. Важно и то, что как в зороастризме, так и в зарванизме Ахриман - зло побеждается Ормуздом. Вместе с тем, зарванизм объединения добро и зло единым началом, не согласуется с главной идеей зороастризма о том, что Ахура Мазда и Ангра Манью независимы друг от друга и не имеют общего происхождения. Он противоречит монотеистическому принципу, согласно которому Ахура Мазда - единственное, несотворенное начало. Представления о Зарване являются весьма ранними, хотя некоторые представители зороастрийского духовенства пытались исключить существование учения о Зарване, но тем не менее вместе с дуалистической концепцией наличие монистической концепции не вызывает сомнений.

## ЛИТЕРАТУРА

1. Авеста. Избранные гимны. Душанбе:1990

2.Азимов К.А.Ценностный мир человека в религиозно-философской доктрине зороастризма. Баку. 1991
3. Бертельс Е.Э. Избр.труды. М.,1960
4. Бойс М. Зороастрийцы. Верования и обычаи.Спб.,1994
5. Гегель. Философия религии.Т.2. М.,1976
6. Ali Nihat Tarlan. Avesta. İstanbul.1935

## ФИЛОСОФСКОЕ СОДЕРЖАНИЕ АВЕСТЫ

### РЕЗЮМЕ

В статье анализируются основные философские идеи Авесты - идея закономерности и порядка в природе; "о бесконечном времени"/зарванизме/; идея о том, что история повторяется; идея борьбы противоположностей в природе и жизни людей. Особо отмечается, что основное значение Авесты состоит в том, что впервые в истории философской мысли она четко формулирует дуализм. Вместе с дуалистической концепцией большое значение в зороастризме имеет также монистическое миропонимание.

## AVESTA-NIN FƏLSƏFI MƏZMUNU

***Veysova Samira Malik***

### XÜLASƏ

Avestada mühüm yer tutan təbiətdə qanunauyğunluq prosesi, tarixin təkrarlığı, zamanın sonsuzluğu, təbiətdə və insanların həyatında əksikliklərin mübarizəsi kimi əsas fəlsəfi ideyalar məqalədə təhlil edilir. Xüsusi ilə qeyd edilir ki, fəlsəfi fikir tarixində ilk dəfə olaraq dualizm məhz Avestada təşəkkül tapmışdır. Dualizm konsepsiyası ilə yanaşı monizm konsepsiyası zərdüştlikdə xüsusi əhəmiyyət kəsb edir.

## PHILOSOPHICAL CONTENT OF AVESTA

***Veysova Samira Malik***

### SUMMARY

Main philosophic ideas of Avesta are analized ideas of reqularity and order in nature; idea about repeatinq history cycles; idea of struqqle of oppsites in nature and people life. Dualizm is definetly formulated in Avesta for the first time in history of philosophic thouqhts. Along with dualistic conseption zoroastrianism monistic vision also occupies an important place.

## SOSİOLOGİYA

# AZƏRBAYCANDA ORTA SİNİF: REALLIQLAR VƏ PERSPEKTİVLƏR

(Konkret sosioloji tədqiqatın nəticələri əsasında)

***Tahir Ağayev***
***BDU-nun Sosiologiya kafedrasının dosenti***

***Açar sözlər:*** stratifikasiya, orta sinif, islahat, mülkiyyət münasibətləri, özəlləşdirmə, bazar iqtisadiyyatı.
***Ключевые слова:*** стратификация, средний класс, реформа, отношение к собственности, приватизация, рыночная экономика.
***Keywords:*** stratification, middle class, reform, the relation to the property, privatization, market economics.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan cəmiyyətinin sosial strukturuna bir sıra amillər güclü təsir göstərmişdir: 1)iqtisadiyyatın böhranlı vəziyyəti və onun strukturunun yenidən qurulması; 2) dövlət mülkiyyətinin özəlləşdirilməsi və digər mülkiyyət formalarının təşəkkül tapması; 3) bazar iqtisadiyyatının tələblərinə cavab verən yeni məşğulluq strukturunun formalaşması və s.

Bəzi sosioloji ədəbiyyatlarda sosial stratifikasiya sistemində əsas siniflərin arasında aralıq vəziyyəti tutan sosial təbəqələrin məcmusu orta sinif adlandırılır.Orta sinif heç də həmişə eyni təbəqələrin nümayəndələrindən ibarət olmur. Əksinə, çox vaxt ona orta gəliri az olan, əməyin ictimai təşkilində roluna, istehlak davranışı və siyasi rəğbətinə görə ən müxtəlif insan qrupları daxil edilir. Məhz ona görə də orta sinif haqqında çox vaxt cəm şəklində danışırlar:” orta siniflər “, “orta təbəqələr”.

Sosiologiyada bu və ya digər ölkələrin xüsusiyyətindən asılı olaraq orta sinfə daxil etmənin müxtəlif meyarları təklif olunur. Məsələn, L.Belyayeva orta sinfi müəyyənləşdirərkən aşağıdakı üç göstəricini əsas meyar kimi götürü:

1) özünü identifikasıya; 2) həyat səviyyəsi; 3) təhsil səviyyəsi [1].

Elmi ədəbiyyatda orta sinfə mənsub olmanın digər əlamətləri də (iqtisadi davranışın növü, gəlirlərin səviyyəsi, siyasi orientasiya və s.) qeyd olunur.

Cəmiyyətin sosial sabitliyi üçün orta sinfin əhəmiyyətini adətən onun aşağıdakı sosial funksiyaları yerinə yetirməsində görürlər: 1) o, əsas siniflər arasındakı münaqişələri zəiflədən ictimai bir qüvvədir; 2) ənənəvi ailə dəyərlərinin daşıyıcısıdır; 3)əsas vergi ödəyicisidir və s. [2].

Orta sinfin sərhədinin müəyyənləşdirilməsi meyarları ilə bağlı sosiologiyada fərqli fikirlər mövcuddur. Məsələn, 1999-cu ildə Rusiya müstəqil sosial və milli problemlər institutunun sosioloqları tərəfindən orta sinfin aşağı həddi kimi Rusiyada adambaşına düşən gəlirin 1500 rubl olması qeyd edilmişdir. Bu gəlir inkişaf etmiş ölkələrdə adambaşına düşən gəlir ilə müqayisədə olduqca az görünür. Lakin əgər mənzillərin, nəqliyyatda gedişin və s. ödənişi üçün sosial transferlər nəzərə alınarsa, onda göstərilən gəliri məqbul hesab etmək olar. Rusiyada orta sinfin kəmiyyətcə qiymətləndirilməsi ilə bağlı digər yanaşmalar da vardır. Məsələn, V.A.Lepyoxin hesab edir ki, dörd nəfərdən ibarət ailənin gəliri ayda 2.5 min dollara qədər olan adamları Rusiyanin orta sinfinə daxil etmək olar.

Ötən əsrin 80-ci illərinin ortalarında başlamış sosial-iqtisadi yenidənqurma sovet cəmiyyətinin orta təbəqələrini dağıtdı və əhalinin yeni meyarlara görə, ilk növbədə gəlirlər üzrə birləşməsinin əsasını qoydu. Azərbaycanda orta sinfə xırda və orta sahibkarlar, məmurlar, menecerlər, professorlar, peşəkar həkimlər, vəkillər, bir sözlə, cəmiyyətin özəyini təşkil edən insanlar daxil edilir. Tanınmış Azərbaycan alimi professor R.Əzimova apardığı tədqiqatda

müəllimləri də orta sinfə daxil etmişdir [3] . Bu prosesin ölkəmizdə müasir, real inkişaf mənzərəsinin öyrənilməsi məqsədi ilə "Azərbaycanda orta sinfin təşəkkülü və inkişaf xüsusiyyətləri" mövzusunda sosioloji sorğu keçirilmişdir. Sorğu 2019-cu ilin may ayında Bakı Dövlət Universitetinin sosiologiya ixtisasında təhsil alan bir qrup III kurs tələbələrinin və müəllimlərin birgə iştirakı ilə aparılmışdır.

Sorğuda 121 nəfər respondent iştirak etmişdir. Onlar 18-78 yaş hüdudunda olub, 20 müxtəlif peşə sahibləridir. Tədqiqatda iştirak edən respondentlərin 43 faizi qadınlar və 57 faizi kişilərdən ibarət olmuşdur. (cədvəl 1, diaqram 1)

| Cavablar | Faktiki | Faiz |
|---|---|---|
| Qadın | 52 | 42,98 |
| Kişi | 69 | 57.02 |
| Total | 121 | 100.0 |

Cədvəl 1. Respondentlərin cins tərkibi




Diaqram 1. Respondentlərin cins tərkibi

Respondentlərin ailə vəziyyəti ilə bağlı suala verdikləri cavabların təhlili zamanı aydın olmuşdur ki, tədqiqat iştirakçılarının 66 faizi evli, 32 faizi subay olmuşdur. Eyni zamanda iştirakçılardan biri həmin suala cavab verməmiş, bir nəfəri isə dul olduğunu qeyd etmişdir. (cədvəl 2,diaqram 2)

| Cavablar | Faktiki | Faiz |
|---|---|---|
| Evli | 80 | 66.67 |
| Subay | 39 | 32.50 |
| Dul | 1 | 0.83 |
| Total | 120 | 99.2 |
| Cavabsiz | 1 | 0.8 |
| Total | 121 | 100.0 |

Cədvəl 2. Respondentlərin ailə vəziyyəti




Diaqram 2. Respondentlərin ailə vəziyyəti

Sorğuda iştirak edən respondentlərin 62,0 faizi ali, 38 faizi isə orta təhsili olduğunu qeyd etmişdir.(cədvəl 3, diaqram 3)

| Cavablar | Faktiki | Faiz |
|---|---|---|
| Ali | 75 | 61.98 |
| Orta | 46 | 38.02 |
| Total | 121 | 100.0 |

Cədvəl 3. Respondentlərin təhsil səviyyəsi




Diaqram 3. Respondentlərin təhsil səviyyəsi

“Əhalinin orta təbəqəsinin əsas xüsusiyyətlərini necə təsəvvür edirsiniz?” sualına sorğuda iştirak edənlərin əksər hissəsi - 27.3 %-i xüsusi əmlakın mövcudluğu, 28.1 %-i maddi-mənəvi istehsalda , 13.28 %-i isə idarəetmədə iştirak cavabını qeyd etmişdir. Respondentlərin 19%-i orta təbəqənin əsas xüsusiyyətini maddi müstəqillikdə, 12.45 %-i isə ümumiyyətlə orta sinfin olmadığını bildirmişdir. (cədvəl 4, diaqram 4)

| Cavablar | Faktiki | Faiz |
|---|---|---|
| Maddi müstəqillik | 23 | 19.01 |
| Xüsusi əmlak | 33 | 27.27 |
| İdarəetmədə iştirak | 16 | 13.28 |
| Maddi-mənənvi istehsalda iştirak | 34 | 28.10 |
| Orta təbəqə yoxdur | 15 | 12.45 |
| Total | 121 | 100.0 |

Cədvəl 4. Orta təbəqənin əsas xüsusiyyətləri




Diaqram 4. Orta təbəqənin əsas xüsusiyyətləri

“Orta sinif cəmiyyətin hansı sahəsində üstünlük təşkil edir?” sualına respondentlərin əksər hissəsi - 28.9%-i orta sinfin təhsil- tibb sferasında, 22.3% -i sahibkarlıq-biznes sahəsində, 21.5 %- i özəl sektorda, 19%-i dövlət qulluğunda, 8.3% isə cəmiyyətdə orta sinfin olmadığını bildirmişdir. (cədvəl 5, diaqram 5)

| Cavablar | Faktiki | Faiz |
|---|---|---|
| Sahibkarlıq-biznes | 27 | 22.31 |
| Dövlət qulluğu | 23 | 19.01 |
| Özəl sector | 26 | 21.49 |
| Təhsil-tibb sahəsi | 35 | 28.93 |
| Orta sinif yoxdur | 10 | 8.26 |
| Total | 121 | 100.0 |

Cedvel 5. Orta sinfin cəmiyyətin hansı sahəsində üstünlük təşkil etməsi




Diaqram 5. Orta sinfin cəmiyyətin hansı sahəsində üstünlük təşkil etməsi

“Orta təbəqəyə məxsus ailənin aylıq gəliri nə qədər olmalıdır?” sualına sorğuda iştirak edənlərin əksər hissəsi - 36.4%-i 501-700 Azn., 32.2%-isə 701-1000 Azn cavabını seçmişdir. Respondentlərin yalnız 19.8 %-i 1000 Azn daha çox, 10.7%-i isə 201-500 Azn məbləğinin daha doğru olduğunu bildirmişdir. (cədvəl 6, diaqram 6)

| Cavablar (Azn) | Faktiki | Faiz |
|---|---|---|
| 200-ə qədər | 1 | 0.83 |
| 201-500 | 13 | 10.74 |
| 501-700 | 44 | 36.36 |
| 701-1000 | 39 | 32.23 |
| 1000-dən cox | 24 | 19.83 |
| Total | 121 | 100.0 |

Cədvəl 6. Orta təbəqəyə aid olan ailənin aylıq gəlirinin səviyyəsi




Diaqram 6. Orta təbəqəyə aid olan ailənin aylıq gəlirinin səviyyəsi

“Özünüzü hansı ictimai təbəqəyə aid edirsiniz?” sualına sorğuda iştirak edən şəhər sakinlərinin 50.4%-i orta təbəqəyə, 27.3%-i isə orta aşağı təbəqəyə, 13.2 %-i isə aşağı təbəqəyə aid olduğunu bildirmişdir. Yalnız 7.4% yüksək orta təbəqəyə,1.7% yüksək təbəqəyə aid olduğu cavabını seçmişdir.(cədvəl 7, diaqram 7)

| Cavablar | Faktiki | Faiz |
|---|---|---|
| Aşağı təbəqəyə | 16 | 13.22 |
| Orta-aşağı təbəqəyə | 33 | 27.27 |
| Orta təbəqəyə | 61 | 50.41 |
| Yüksək-orta təbəqəyə | 9 | 7.44 |
| Yüksək təbəqəyə | 2 | 1.65 |
| Total | 121 | 100.0 |

Cədvəl 7. Respondentlərin özünü aid etdiyi ictimai təbəqə




Diaqram 7. Respondentlərin özünü aid etdiyi ictimai təbəqə

“Təbəqələşmədə indiki mövqeyinizdən razısınızmı?” sualına sorğuda iştirak edənlərin 59.51 %-i razıyam və ya qismən razıyam cavabını vermişdir. Rəyi soruşulan şəhər sakinlərinin 26.56 %-i mövcud sosial durumundan razı olmadığını bildirmişdir.(cədvəl 8,diaqram 8)

| Cavablar | Faktiki | Faiz |
|---|---|---|
| Razıyam | 30 | 24.80 |
| Qismən razıyam | 42 | 34.71 |
| Qismən razı deyiləm | 11 | 9.09 |
| Razı deyiləm | 32 | 26.56 |
| Bilmirəm | 6 | 4.96 |
| Total | 121 | 100.0 |

Cədvəl 8. Respondentlərin mövcud təbəqələşmədə səviyyəsi




Diaqram 8. Respondentlərin mövcud təbəqələşmədə indiki mövqedən razılıq indiki mövqedən razılıq səviyyəsi

“Ölkədə gedən sosial- iqtisadi islahatlar sizin ailənizin ictimai təbəqədəki yerinə necə təsir etdi?” sualına respondentlərin 23.24%-i dəyişdi, 38.18% –i isə qismən dəyişdi, 29.05 %-i xeyr, dəyişmədi variantını seçmişdir. 9.9 % sorğu iştirakçısı bu suala “Bilmirəm” cavabını vermişdir (cədvəl 9, diaqram 9)

| Cavablar | Faktiki | Faiz |
|---|---|---|
| Bəli, dəyişdi | 28 | 23.24 |
| Qismən dəyişdi | 46 | 38.18 |
| Xeyr, dəyişmədi | 35 | 29.05 |
| Bilmirəm | 12 | 9.92 |
| Total | 121 | 100.0 |



Cədvəl 9. Sosial-iqtisadi islahatların respondentlərin ailəsinin ictimai təbəqədəki yerinə təsiri

Diaqram 9. Sosial-iqtisadi islahatların respondentlərin ailəsinin ictimai təbəqədəki yerinə təsiri

“Sosial yönümlü islahatları necə qiymətləndirirsiz?” sualına sorğu iştirakçılarının 52.9 %-i müsbət və ya qismən müsbət, 32.3%-i mənfi və ya qismən mənfi,14.9 %-i isə “Bilmirəm” cavabını vermişdir. Bu, islahatların tam effektiv nəticəsi üçün müəyyən zamana ehtiyac olduğunu göstərir.(cədvəl 10, diaqram 10)

| Cavablar | Tezlik | Faiz |
|---|---|---|
| Müsbət | 23 | 19.01 |
| 3Qismən müsbət | 41 | 33.88 |
| Qismən mənfi | 10 | 8.26 |
| Mənfi | 29 | 23.97 |
| Bilmirəm | 18 | 14.88 |
| Total | 121 | 100.0 |




Cədvəl 10. Respondentlərin sosial yönümlü islahatları qiymətləndirməsi

Diaqram 10. Respondentlərin sosial yönümlü islahatları qiymətləndirməsi

“Ölkəmizdə orta sinif bu gün hansı inkişaf mərhələsindədir?” Sorğu iştirakçıların bu suala cavabı birmənalı olmamışdır. Belə ki, 20.7 % orta sinfin inkişaf mərhələsində olduğunu, 51.2 % bu prosesin ləng getdiyini, 12.45 %-i isə bunun cəmiyyətin arzusu olduğunu bildirir. Cavabların müqayisəsi bu sualın mahiyyətinin bəzi respondentlər tərəfindən düzgün anlaşılmadığını göstərir. (cədvəl 11,diaqram 11)

| Cavablar | Tezlik | Faiz |
|---|---|---|
| İnkişaf mərhələsindədir | 25 | 20.66 |
| Ləng inkişaf edir | 62 | 51.24 |
| Tamamilə formalaşıb | 9 | 7.47 |
| Orta sinif cəmiyyətin arzudur | 15 | 12.45 |
| Bilmirəm | 10 | 8.3 |
| Total | 121 | 100.0 |




Cədvəl 11. Respondentlərin orta sinfin hansı sinfin hansı

Diaqram 11. Respondentlərin orta

inkişaf mərhələsində olması barədə rəyləri

inkişaf mərhələsində olması barədə rəyləri

“Siz əhali arasındakı sosial təbəqələşməyə necə yanaşırsınız?” sualına cavablar müxtəlifdir. İştirakçıların 61.1 %-i bu prosesin inkişafı stimullaşdırdığını, vacib olduğunu, 28.9% təbəqələşmənin əleyhinə olduğunu, 9.9 % isə “Bilmirəm” cavabını seçmişdir (cədvəl 12,diaqram 12).

| cavablar | Tezlik | Faiz |
|---|---|---|
| İnkişafı stimullaşdırır | 51 | 42.15 |
| Adi yanaşıram, olmalıdır | 23 | 19.01 |
| Əleyhinəyəm | 35 | 28.93 |
| Bilmirəm | 12 | 9.92 |
| Total | 121 | 100.0 |

Cədvəl 12. Sosial təbəqələşməyə respondentlərin yanaşması




Diaqram 12. Sosial təbəqələşməyə respondentlərin yanaşması

“Sizcə, ölkəmizdə hansı təbəqənin nümayəndələri daha çoxdur?” sualına verilən cavablar da müxtəlifdir. Respondentlərin çoxu belə hesab edir ki, orta-aşağı təbəqə- 44.63% və orta təbəqə - 13.22 % cəmiyyətdə çoxluq təşkil edir. Bakı şəhər sakinlərinin 29.88 %- i isə aşağı təbəqənin, 6.64 %-i isə yüksək təbəqənin çox olduğu cavabını qeyd etmişdir. (cədvəl 13, diaqram 13)

| Cavablar | Faftiki | Faiz |
|---|---|---|
| Yüksək təbəqənin | 8 | 6.64 |
| Orta təbəqənin | 16 | 13.22 |
| Orta-aşağı təbəqənin | 54 | 44.63 |
| Aşağı təbəqənin | 36 | 29.88 |
| Bilmirəm | 7 | 5.79 |
| Total | 121 | 100.0 |

Cədvəl 13. Respondentlərin ölkəmizdə hansı ölkəmizdə hansı təbəqənin nümayəndələrinin çoxluğu sualına münasibət




Diaqram 13. Respondentlərin təbəqənin nümayəndələrinin çoxluğu sualına münasibət

“Azərbaycanda orta sinif formalaşıbmı?” sualına sorğu iştirakçılarının 14.0 % -i bəli formalaşdığı, 63.3 %-i qismən formalaşdığı, 14.9 %-i isə formalaşmadığı cavabını seçmişdir. 10.7 % respondent “Bilmirəm” cavabını qeyd etmişdir.

| Cavablar | Faktiki | Faiz |
|---|---|---|
| Bəli | 17 | 14.05 |
| Qismən | 73 | 60.33 |
| Xeyr | 18 | 14.88 |
| Bilmirəm | 13 | 10.74 |
| Total | 121 | 100.0 |

Cədvəl 14. Respondentlərin orta sinfin formalaşmasına münasibəti




Diaqram 14. Respondentlərin orta sinfin formalaşmasına münasibəti

Tədqiqatın nəticəsi göstərdi ki, ölkəmizdə orta sinfin mövcud inkişafı arzu olunan səviyyədən bir qədər ləng gedir. Bunun mühüm səbəbləri Azərbaycanda həyata keçirilən özəlləşdirmədə yol verilən qüsurlar, bazar iqtisadiyyatının təbii inkişafına süni maneələr, rəqabətli, azad biznes mühitinin tam yetərli səviyyədə olmaması, bu prosesə bəzi məmurlar tərəfindən yersiz müdaxilələr və sairədir.

Fikrimizcə, aşağıdakı amillər Azərbaycan cəmiyyətinin sosial strukturunda orta sinfin xüsusi çəkisinin artmasını, real ictimai qüvvə kimi ölkəmizdə sabitliyin qarantına çevrilməsini sürətləndirəcəkdir:

1. 2019-cu ilin əvvəlindən dövlət başçısı İlham Əliyevin apardığı və əhalinin maddi rifah səviyyəsinin yüksəlməsini şərtləndirən sosial yönümlü islahatlar.
2. Sosial meyarlarda insan amilinə daha çox diqqət yetirilməsi, dəyərlər, normalar və sanksiyaların mədəni formalarla şərtlənən sisteminin inkişafı;
3. Cəmiyyət isntitutlarının stabilləşməsi, onların öz sabitliyini təkrar istehsal etmək qabiliyyəti, hakimiyyətin demokratikləşməsi və aşkar xarakteri.

## ƏDƏBİYYAT


1. Беляева Л. Критерии выделения российского среднего класса. // Средний класс в современном российском обществе. М., 1999, с.11-16.
2. Авраамова Е.К. Проблема формирования среднего класса в России // Вопросы экономики, 1999, № 7, с. 78-79.
3. Азимова Р. Средний класс в социальной стратификации общества переходного периода. Баку. 2006, с. 63.
4. Əmək bazarı. Statistik məcmuə. Bakı, 2012, s. 28.
5. Sosial-iqtisad inkişaf. İllik məcmuə. Bakı, 2018, s. 103.


## AZƏRBAYCANDA ORTA SİNiF: REALLIQLAR VƏ PERSPEKTİVLƏR

(Konkret sosioloji tədqiqatın nəticələri əsasında)

***Tahir Ağayev***

## XÜLASƏ

Məqalədə Azərbaycan cəmiyyətində orta sinfin formalaşmasının özəllikləri, bu prosesə təsir edən amillər və sosilolgiyada orta sinfə mənsub olmanın meyarları tədqiq edilir. Cəmiyyətin sosial sabitliyi üçün orta sinfin yerinə yetirdiyi funksiysiyaların mühüm əhəmiyyəti qeyd olunur.

Məqalə 2019- cu ilin may ayında "Azərbaycanda orta sinfin təşəkkülü və inkişaf xüsusiyyətləri" mövzusunda keçirilmiş konkret sosioloji tədqiqatın nəticələri əsasında - sorğu və sosioloji təhlil metodlarına istinad edilərək hazırlanmışdır. Sorğuda orta sinfin əsas xüsüsiyyətlərini ehtiva edən 14 suala respodentlərin müxtəlif cavabları müqayisəli surətdə təhlil edilir, müvafiq qaydada cədvəl və diaqramlarda öz əksini tapır. Tədqiqatın nəticəsi kimi məqalədə ölkəmizdə orta sinfin inkişafını ləngidən amillər – özəlləşmədə yol verilmiş qüsurlar, bazar iqtisadiyyatının təbii inkişafına süni maneələr, bəzən azad biznes mühitinin tam yetərli olmaması, bu prosesə yersiz müdaxilələr və s. araşdırılır. Sonda Azərbaycan cəmiyyətinin sosial strukturunda orta sinfin xüsusi çəkisinin artmasını, real ictimai qüvvə kimi sabitliyin qarantına çevrilməsini şərtləndirəcək amillər nəzərdən keçirilir.

## СРЕДНИЙ КЛАСС В АЗЕРБАЙДЖАНЕ: РЕАЛЬНОСТЬ И ПЕРСПЕКТИВЫ

(По результатам конкретного социологического исследования)

***Тахир Агаев***

### РЕЗЮМЕ

В статье исследуются особенности формирования среднего класса в азербайджанском обществе, факторы, влияющие на этот процесс, и критерии принадлежности к среднему классу в социологии. Подчеркивается важность функций, выполняемых средним классом, для социальной стабильности общества. Статья подготовлена по результатам конкретного социологического исследования на тему «Особенности формирования и развития среднего класса в Азербайджане», проведенного в мае 2019 года – на основании методов опроса и социологического анализа. В опросе сравниваются разные ответы респондентов на 14 вопросов, которые охватывают основные характеристики среднего класса и представлены соответственным образом в таблицах и диаграммах.

Как результат исследования в статье рассматриваются факторы, которые замедляют развитие среднего класса в нашей стране - недостатки в приватизации, искусственные барьеры для естественного развития рыночной экономики, а иногда и недостаточная свободная бизнес-среда, неуместные вмешательства в этот процесс и так далее. Наконец, рассматриваются факторы, которые будут способствовать росту удельного веса среднего класса в социальной структуре азербайджанского общества и его трансформации в реальную социальную силу как гаранта стабильности.

## MEDIUM CLASS IN AZERBAIJAN: REALITIES AND PERSPECTIVES

**(Based on the results of a specific sociological study)**

***Tahir Agayev***

### SUMMARY

The article examines the peculiarities of middle class formation in Azerbaijani society, the factors influencing this process, and the criteria for belonging to the middle class in sociology. The importance of the functions performed by the middle class for the social stability of society is emphasized. The article was based on the results of a specific sociological study on the topic "Formation and development characteristics of the middle class in Azerbaijan" in May 2019 - based on survey and sociological analysis methods. The survey compares the different responses of respondents to the 14 questions that cover the main characteristics of the middle class, and are presented in tables and diagrams accordingly.

As a result of the research, in the article the factors that slow down the development of the middle class in our country - deficiencies in privatization, artificial barriers to the natural development of the market economy, and sometimes insufficient free business environment, interference in this process, and so on are investigated. Finally, the factors that stipulate the growth of the middle class's special weight in the social structure of Azerbaijan society and its transformation into the real social force as guarantor of the stability are considered.

# К ВОПРОСУ ПОНИМАНИЯ МЕТОДА «КЕЙС-СТАДИ» (CASE-STUDY) КАК ОДНОГО ИЗ НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИХ МЕТОДОВ

***Əsgərova Arzu Ələddin qızı***
***BDU-nun II kurs magistrantı***
***arzu.esgerova.1988@mail.ru***

***Ключевые слова:*** качественное исследование, исследовательская стратегия, объект, социология, теоретическая концепция, эмпирические методики случай, методы
***Açar sözlər:*** keyfiyyətli tədqiqat, tədqiqat strategiyası, obyekt, sosiologiya, nəzəri konsepsiya, empirik metodikalar , hadisə,metodlar
***Keywords:*** qualitative research, research strategy, object, sociology, theoretical concept, empirical methods, case, methods.

Необходимо отметить, что начальные попытки применения в социологических работах систематического эмпирического материала относятся приблизительно к началу XX века. В те времена, основными видами эмпирических данных являлись: различные письма, дневники, хроники, материалы практики судебных дел, передаваемые рассказы, устные истории, а в дальнейшем – автобиографии, чуть позднее – позаимствованные уже у специальных служб методы агентурной работы, (разновидность включенного наблюдения).

Через призму рассмотрения используемых методов первичый этап в развитии социологии возможно охарактеризовать как «качественный». Одним из главных направлений эмпирических исследований тех лет было изучение социальных причин преступности, в частности в среде молодежи и подростков.

В принципе, деление социологии на «количественную» и «качественную», мы можем считать правомерным с точки зрения применения к сфере эмпирических методик. Различные теоретические подходы и различные практические задачи могут в той или иной мере тяготеть к количественному или качественному инструментарию, но характеризовать их как «количественные» или «качественные» было бы, с нашей точки зрения, большой натяжкой. Качественные исследования предназначены для получения с помощью специальной техники, так называемой глубинной информации. Это исследование называют также интерпретационным. Качественное исследование позволяет получить информацию о мотивах поведения, установках людей. В этом вопросе, жесткие требования к выборке и математическому подтверждению достоверности полученной информации к таким исследованиям считаются неприменимыми. Качественное исследование – это процесс открытия, тогда как количественное – это процесс доказательства и подтверждения (1, 92-101).

Кейс-стади это традиционная тактика качественного исследования, изучение уникального объекта в полноте его взаимосвязей. Объектом анализа в этой тактике обычно является случай или социально-психологические особенности личности («клинический случай»). Специфика кейс-стади состоит в глубинном изучении своеобразия объекта, выводы о результатах обычно носят сугубо локальный, прикладной характер и направлены на выработку рекомендаций по разрешению конфликтов или более успешному функционированию общности (2, 598).

Данное краткое исследование представляет собой некий экскурс в целях воспринимания case-study как исследовательской стратегии. Нашей целью является прояснение ключевых моментов этого подхода. Оговоримся, что в статье не столько даются однозначные и окончательные ответы, сколько обрисовывается определенный

спектр взглядов по поводу методических проблем. Социальный исследователь, который работает в системе качественных методов, обращается к выбору исследовательской стратегии – выбранному определенным образом методико-методологическому подходу, который более совершенно позволяет ответить на исследовательский вопрос (решить задачи поставленные перед исследованием), а также соответствует интересуемому объекту исследования. Так, к примеру, наравне с case-study среди стратегий выделяют этнографический метод (который наиболее близок и часто отождествляется с case-study), биографический метод, обоснованная теория (grounded theory) и другие. Следует сказать, что четко очерченных границ между стратегиямине существует, в некоторых случаях одно и тоже исследование возможно отнести к несколькими стратегиям. Здесь скорее важны общие принципы и допущения, актуальные для традиции качественных исследований в целом: доступ в поле, отбор случаев, позиция исследователя, процедура анализа и другие (3,12), (4, 381).

Центральным для всех стратегий является понятие случая – отдельный фрагмент социальной реальности, ограниченный в пространстве и времени, а конкретно, объект наблюдения. Случаем могут быть сообщества (субкультурные, территориальные, организации), социальные группы, движения, индивиды. В перечисленных стратегиях единицей наблюдения является именно случай. Однако «случаи» каждой стратегии специфичны: в биографическом методе – это личный интерсубьективный опыт отдельного индивида, в этнографическом – культурные сообщества (субкультуры, организации). Особенность случаев, предмет исследования определяет границы стратегии и ее отличие от других. Но эти «случаи» как единицы наблюдения отличается от case-study – исследовательской стратегии, направленной на глубокий, полный и комплексный анализ социального феномена на примере отдельного эмпирического объекта (случая). Очевидным достоинством этого подхода является возможность получения более глубокой информации о латентных процессах, скрытых механизмах социальных отношений. Case-study позволяет работать более с конкретными вещами. Это позволяет обеспечить лучшее понимание социальной реальности, уникальность каждого объекта и в то же время выделить общие черты для дальнейшего обобщения (5,102).

Направленность кейс-стади состоит в изучении отдельно взятого случая, произошедшего в названном месте, в конкретное время и имеющего ясно выраженные социальные и временные границы. При этом «случай» исследуется в его уникальности, неповторимости, невоспроизводимости в других условиях как индивидуальное самоценное, целостное явление во всей совокупности связей, его формирующих. Особое внимание уделяется социокультурным и экономическим условиям, в рамках которых стало возможным его становление и развитие. Одним из наиболее часто поднимаемых вопросов является проблема соотношения стратегий case-study и этнографического метода. При попытке разграничить эти близкие понятия, следует уточнить, что оба они представляют разновидности полевого качественного исследования, различные стратегии, обладающие как рядом общих, так и уникальных черт (6, 121).

Этнографический метод и case-study обладают общими для полевого исследования допущениями. Они связанны, в первую очередь, с особенностями доступа в поле, гибкости подхода, в некоторых случаях с отбором объектов анализа, спецификой построения научного вывода, логикой интерпретации. Заметим лишь, что «подобные качественные исследования проводятся на одном или нескольких объектах, которыми являются некое сообщество, отдельно взятое социальное явление, класс действий или область деятельности» (7,5).

Отличие этнографического метода состоит в более долговременном характере исследования, в так называемом вживании в культурный контекст, и конечно

применением качественных методов, но самое главное это отдельный этический подход к анализу данных и предмету исследования. Касаясь же сущности исследования в стратегии case-study, здесь детально изучается один или несколько случаев, раскрывается содержание интенсивных процессов.

Case-study часто упрекают в единичности наблюдаемых случаев, в субъективизме относительно их отбора. Этнографический метод страдает субъективизмом другого плана – особая роль исследователя, необходимость «вжиться», прочувствовать и проживать «жизнь людей как свою». Представляется возможным провести типизацию кейс-стади и в зависимости от временных границ, задаваемых автором исследования: исследования, направленного на изучение «случая» сегодняшнего дня (имеющего место в настоящий период времени), и исследования, ориентированного на изучение «случая», произошедшего в прошлом (исторические библиотековедческие кей-стади). Процесс проведения кейс-стади включает в себя этапы, традиционные для любого научного исследования: определение цели и задач, сбор, анализ и интерпретация полученных данных, подготовка отчета о проведенном исследовании. Таким образом, уникальность кейс-стади как независимого исследования в свою очередь, явилась причиной введения в научный оборот термина «метод кейс-стади» (8, 36-42).

Авторами утверждается, что процесс познания который регулируется, представленным методом, ничем особенно не отличается от регулирования, представляемыми другими методами, в частности методами включенного наблюдения и обследования. Существуют и специалисты, отказывающие в оригинальности этому методу, принимая его одним из видов квазиэксперимента. Широкое распространение получила и такая точка зрения, которая считает метод кейс-стадис не научным, так как «при его использовании исследователь не располагает возможностями многоаспектного измерения изучаемых в «случаях» событий, а базируется главным образом на субъективной оценке собранной информации» (6,118).

И все же, несмотря на существование подобных критических мнений, количество кейс-стади, проводимых в различных областях наук, увеличивается, а место указанного метода как качественного метода исследований все более упрочняется. Определенная прослойка специалистов считает, что анализ данных, полученных в ходе проведения кейс-стади, может получить успех только в случае, когда «до проведения исследования у его авторов уже существовала определенная теоретическая концепция, необходимость подтверждения (опровержения) которой собственно и определила выбор для изучения именно данного «случая». Наличие предварительно разработанной теоретической концепции дает возможность более точно определить приоритеты в выборе данных, подлежащих первоочередному анализу, и др.» (4,255). Но при этом, изъянами отмеченного подхода следует считать вероятность неприятия во внимание разработчиками тех событий в «случае», которые не укладываются в созданную ими теорию. На пути преодоления этого, может оказать эффективное влияние удостоверение результатов кейс-стади иным исследованием, который предполагает использование подобного или другого метода, к примеру – эксперимент. Такие исследования будут способствовать уточнению результатов и добавлению новых штрихов в исходные теоретические обобщения.

В заключении следует отметить, что в целом качественные методы (сюда можно отнести и исследуемый метод case-study) в значительной степени обладают возможностью применения в решении практических задач по анализу общественного мнения в сфере информационных ресурсов, масс-медиа и маркетинга. Они дают возможность для исследований внутренних механизмов процесса влияния массовой коммуникации на

сознание на личностном уровне и рассмотреть определенные закономерности в восприятии социально значимой информации.

Качественные методы социологических исследований – это инструмент не имеющей альтернативы для проведения моделирования различных политических и рекламных кампаний, он весьма широким образом используется в ближнем и дальнем зарубежье. В правильным образом проведенных исследованиях этих методов, грамотных подходах предоставляется возможность ясно и четко сформулировать понятный и близкий потребителю образ соответствующей организации, выбранного товара, избираемого политика и подобрать такие технологии воздействия на общественное мнение, которые обладают наибольшей эффективностью. В целом, case-study следует понимать как стратегию исследования, которая направлена на поэтапное изучение одного объекта с особой тщательностью и учитыванием разнообразных, обладающих доступностью способов сбора информации.

## ЛИТЕРАТУРА


1. Клюшкина О.Б. Построение теории на основе качественных данных // Социол. исслед. – 2000. – № 10
2. Либакова Н. М., Сертакова Е. А. Культурологическое исследование коренных малочисленных народов Севера Красноярского края: результаты экспертного интервью // Современные проблемы науки и образования. – 2014. – № 4
3. Фливберг Б. Недоразумения в связи с «case-study». Социологические исследования. № 4. 2005
4. Рождественская Е.Ю. Биографический метод в социологии. М. Высшая школа экономики. 2012
5. Романов П.В. Стратегия case-study в исследовании социальных служб. Социологические исследования.2005. №4
6. Социология жизни II под редакцией профессора Мамедзаде И.Р., Баку: Avropa, 2018
7. Романов П.В. Микроуровень социальной реальности: возможности междисциплинарного подхода // Социологические исследования. 2002, № 3
8. Г.В. Варганова, Библиосфера, 2006, № 2


## К ВОПРОСУ ПОНИМАНИЯ МЕТОДА «КЕЙС-СТАДИ» (CASE-STUDY) КАК ОДНОГО ИЗ НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИХ МЕТОДОВ

## РЕЗЮМЕ


В статье говорится о том, что деление социологии на «количественную» и «качественную», правомерно только применительно к области эмпирических методик. Отмечается, что кейс-стади – традиционная тактика качественного исследования, изучение уникального объекта в совокупности его взаимосвязей. Статья представляет общую рамку для понимания case-study как исследовательской стратегии. Заключается, что в самом общем виде case-study – стратегия исследования, направленная на последовательное и детальное изучение одного объекта с учетом различных доступных способов сбора информации.

## "CASE-STUDY" (CASE-STUDY) METODUNUN TƏDQIQAT ÜSULLARINDAN BIRI KIMI ANLAŞILMASI MƏSƏLƏSINƏ DAIR


### XÜLASƏ

Məqalədə, sosiologiyanın "kəmiyyət" və "keyfiyyətcə" bölünməsinin qanunauyğuluğu yalnız empirik metodlar sahəsinə bağlı olaraq tətbiq edilməsi barədə bəhs edilir. Qeyd edilir ki, case-study – keyfiyyətli tədqiqatın ənənəvi taktikası, qarşılıqlı əlaqələrin bütöv bir hissəsində öyrənilməsidir. Məqalə, case study-ni tədqiqat strategiyası kimi anlamaq üçün ümumi bir çərçivə kimi nəzərdə tutur. Belə nəticəyə gəlinir ki, ən ümumi formada, case-study – məlumat toplamaq üçün mövcud olan müxtəlif üsulları nəzərə alaraq, bir obyektin ardıcıl və ətraflı öyrənilməsinə yönələn bir tədqiqat strategiyasıdır.


## TO THE QUESTION OF UNDERSTANDING THE CASE STUDY METHOD AS ONE OF THE RESEARCH METHODS


### SUMMARY

The article argues that the division of sociology into "quantitative" and "qualitative", is legitimate only in relation to the field of empirical methods. It is noted that case studies are the traditional tactics of qualitative research, the study of a unique object in the totality of its interrelationships. The article presents a general framework for understanding the case study as a research strategy. It turns out that, in the most general form, case-study is a research strategy aimed at a consistent and detailed study of a single object, taking into account the various available methods of collecting information.

# MƏŞĞULLUQ ANLAYIŞI VƏ MƏŞĞULLUĞUN NÖVLƏRİ

***Qasımova Sitarə***
***BDU-nun II kurs magistrı***

***Açar sözlər:*** insan resursları, məşğulluq, işsizlik, əmək ehtiyatları, tam və natamam məşğulluq,məşğul şəxs.
***Ключевые слова:*** человеческие ресурсы, занятости, безработица, трудовые ресурсы, полной и неполной заняатости, занимается человек.
***Keywords:*** human resources, employment, unemployment, labor resources, full and partial employment, engaged person.

"Məşğulluq – Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər, və vətəndaşlığı olmayan şəxslərin (bundan sonra – şəxslər) Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və qazanc (gəlir) gətirən hər hansı fəaliyyəti"dir. Bu 29 iyun 2018-ci il tarixli Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır : I fəsil, maddə 1, 1.1.10. 3cü maddəyə əsasən, bu Qanun Azərbaycan Respublikasının vətəndaşlarına, Azərbaycan Respublikasında yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə aid edilir (2).

Məşğulluq "istehsal amilləri olan əmək, kapital, sahibkar və təbii resurslardan optimal istehsal edilərək istehsal prosesində iştirak etmək" mənasına gəlir. Bu ifadədən də göründüyü kimi məşğulluq anlayışının əhatə dairəsi olduqca genişdir. Leksik mənada "xidmətə götürmək, xidmət sahəsində istifadə etmək" mənasına gələn məşğulluq ən sadə formada" insanları işlətmək, işə qəbul etmək" kimi təsvir olunur. Bu kontekstdə məşğulluq sahibkarların insan ehtiyaclarını qarşılamaq üçün əmtəə və mal istehsal etmək məqsədilə digər istehsal amillərində olduğu kimi əməyin də məhsuldar bir amil olaraq istehsal prosesində istifadə edilməsi və bunun qarşılığında əməyə əldə olunan mənfəətdən pay verilməsi ilə öz yerini tapmışdır (4)

Ümumiyyətlə məşğulluq sosial – iqtisadi və hüquqi kateqoriyadır. Məşğulluğu hər hansı işlə, əməklə eyniləşdirmək olmaz. Məşğulluq iqtisadi kateqoriya kimi insanların iş yerləri ilə təmin edilməsi və həmçinin iş qüvvəsinin istehsal vasitələri ilə əlaqəsini özündə əks etdirən sosial-iqtisadi prosesdir.

Görkəmli iqtisadçı alim Tofiq Quliyevin fikrinə görə, məşğulluğu sosial-iqtisadi kateqoriya olmaqla insanın mövcud olmasının təbii şərti, zərurəti adlandırmaq olar. Məşğulluq hər hansı fərd üçün sağlam həyat tərzi və gəlir mənbəyidir, iş yerinin olmasıdır (3). Bildiyimiz kimi, insanın ömrü boyu ehtiyacları artır ki, azalmır. Bu ehtiyacları ödəmək üçün isə müəyyən pul vəsaitinə ehtiyac yaranır. Həmin pul bizə əməyin qarşılığı olaraq pul, maaş, əməkhaqqı, günəmuzd, məvacib formasında geri qayıdır. Bu vəsaiti qazanmaq üçün isə müəyyən iş görmək lazım gəlir. Həmin iş "məşğulluq" anlayışı ilə xarakterizə olunur.

Həmçinin, biz məşğulluğu iqtisadi kateqoriya kimi nəzərdən keçirərkən onun kəmiyyət və keyfiyyət tərəflərinin mövcudluğuna da diqqət yetirməli və aydınlıq gətirməliyik. Məşğulluğun keyfiyyət tərəfi dedikdə, əmək qabiliyyətinə məxsus əhali ilə mövcud iş yerlərinin nisbəti, keyfiyyət tərəfi dedikdə isə həmin iş qüvvəsindən optimal istifadə olunması başa düşülür. Buna görə də, inkişaf etmiş ölkələrdə məşğulluq disbalansını nəzarətdə saxlamaq üçün dövlətin qanunları çərçivəsində çalışırlar ki, həm istehsal maksimum dərəcədə olsun, həm də vətəndaşların məşğulluq vəziyyəti təmin edilmiş olsun. Dolayısı ilə, istehsalı güclü olan dövlətin iqtisadiyyatı da güclənir, iqtisadiyyatı güclənmiş dövlət vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində yeni tədbirlər görməyə başlayır, nəticə etibarilə, yeni iş yerləri açılır, işsiz əhali məşğul əhali kateqoriyasına daxil olur, deməli əhalinin məşğulluq səviyyəsində artım müşahidə olunur.

Məşğulluq kateqoriyasına geniş və dar mənada aydınlıq gətirmək mümkündür. Geniş mənada məşğulluq kateqoriyası özündə vətəndaşların gəlir əldə etmək məqsədilə gördüyü bütün işləri əks etdirir. Dar mənada isə əməyin səmərəli şəkildə istehsal prosesində iştirakını məşğulluq olaraq dəyərləndirmək mümkündür. Digər bir mənada hər bir istehsal amilinin "ayrı – ayrı şəkildə optimal (səmərəli) istifadə edilərək istehsal prosesində iştirak etməsi"ndən söhbət gedə bilər. Bu tərifdə məşğulluq anlayışını hansı məqsədlə istifadə etdiyimiz mühüm əhəmiyyət kəsb edir.

Hüquqi kateqoriya kimi isə məşğulluq əmək hüququ nöqteyi-nəzərindən gözdən keçirilir. Yenə burada da məşğulluğu geniş və dar mənada qiymətləndirmək mümkündür.

Əməyin iqtisadiyyatı kontekstində məşğulluğa tərif verəsi olsaq, bu fərdi səviyyədə olmalıdır. Ona görə də, məşğulluq müəyyən dövrdə işi olanlar, yəni "işləyən" insanlar olaraq adlandırılır. Lakin məşğulluğu işlə eyniləşdirmək olmaz. Yəni, məşğulluq işçilərin müəyyən məqsədyönlü fəaliyyəti ilə bağlıdır. Hər işi məşğulluq hesab etmək olmaz. Bu mütləq ictimai-faydalı əmək olmalıdır. Bu mənada, məşğulluq "maaş və ya əmək haqqı (pul) ilə işləyənlər" və "müstəqil işləyənlər" olmaqla 2 qrupa ayrılır.

Əmək qüvvəsi və istəyi olan şəxslərin "müəyyən bir məbləğ müqabilində onun əmək qüvvəsindən istifadə olunması" kimi edilən bir tərif hər hansı bir ölkənin əhalisi ilə məşğulluq səviyyəsi arasındakı əlaqənin yaxınlığından ortaya çıxır. Əhalinin yaş, cinsiyyət, miqrasiya kimi demoqrafik xüsusiyyətlərinin məşğulluq üzərində xüsusi təsiri vardır. Həmçinin ölkənin inkişaf səviyyəsi, təbii sərvətləri ilə iqtisadi sabitliyi də digər mühüm amillərdəndir.

Məşğulluq anlayışını axtararkən "kimlər məşğul şəxs sayılır" sualı ortaya çıxır. Bu suala cavab Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanununun 4-cü maddəsində təsdiq olunmuşdur. Biz də bu maddənin əsas bəndlərinə nəzər salaq. Məşğul şəxslərə aşağıdakılar aiddir:

- Muzdla işləyənlər - Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq işəgötürənlə əmək müqaviləsi (kontrakt) bağlayaraq, müvafiq iş yerlərində əmək fəaliyyətini əməkhaqqı müqabilində yerinə yetirən şəxslər;
- Mülki-hüquqi xarakterli müqavilələrlə işləyənlər - Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq qarşı tərəflə müqavilə bağlayıb əmək münasibətləri yaratmadan müəyyən haqq müqabilində işləri ( xidmətləri) yerinə yetirən şəxslər;
- Sahibkarlar, mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olanlar, ailə kəndli təsərrüfatının üzvləri;
- Haqqı ödənilən vəzifəyə seçilənlər, təyin və ya təsdiq edilənlər;
- Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edənlər;
- Ödənişli fəaliyyətlə məşğul olan ali və orta təhsil müəssisələrində əyani təhsil alanlar;
- Azərbaycan Respublikasının ərazisində qanuni əsaslarla haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;
- Azərbaycan Respublikasının hüdudlarından kənarda qanuni əsaslarla əmək fəaliyyəti ilə məşğul olan Azərbaycan Respublikasının vətəndaşları (2).

Bu yerdə məşğulluğun növlərindən olan tam, natamam və həddindən artıq məşğulluğun da bir tərifə ehtiyacı olduğunu düşünürük.

Makro baxımdan məşğulluq bir iqtisadi quruluşun müəyyən period daxilində bütün istehsal amillərinin (əmək, kapital, təbii sərvətlər və sahibkar) mövcud texnoloji səviyyəyə görə nə dərəcədə istifadə edildiyidir". Bu mənada tam məşğulluq bir iqtisadi quruluşda mövcud olan bütün əməyin, kapitalın, təbii sərvətlərin və sahibkarların istehsal prosesində iştirak etməsi və əməyin hamısından istifadə etməsi mənasına gəlir.

Natamam məşğulluq bir iqtisadiyyatda bütün istehsal amillərinin istehsal prosesində dəyərləndirilməməsidir. Daha dar mənada əmək ünsürünün bir iqtisadi quruluşda müəyyən bir vaxt ərzində bütünlüklə istehsal prosesində iştirak edə bilməməsi halıdır. Bu əmək qüvvəsinin

məşğulluq həcmindən çox olduğu vəziyyət olaraq da ifadə edilir. Natamam məşğulluq makro səviyyədə ümumi əmək qüvvəsi tələbatının ümumi əmək qüvvəsi ehtiyatından çox olmasıdır.

Həddindən artıq məşğulluq natamam məşğulluğun şərtlərinin tam əksi olaraq, əmək qüvvəsinin tamamilə fəaliyyətdə olduğu halda, yenə də daha çox əmək qüvvəsinə ehtiyac olması vəziyyəti kimi qiymətləndirilir.

Məşğulluğun struktur problemlərindən biri, bəlkə də, ən birincisi də məhz işsizlik problemidir. Dövlətlərin müasir zamanda ən mühüm vəzifələrindən biri vətəndaşlarını işsizliyin mənfi təsirlərindən qorumaqdır. Bu zaman siyasi hakimiyyət məşğulluq imkanını yaratmaqda hökmlüdür. Bu səbəbdən məşğulluq siyasətlərindən əvvəl dövlətlərin getdiyi yolun nəticəsi olan işsizliyin və günümüzdə milli və beynəlxalq mənada işsizliyin sərhədlərini müəyyən etməyin, bunları araşdırmağın faydalı olacağı düşünülür.

Bir ölkədə iş qüvvəsinə malik olan və işləmək istəyən şəxslərin bir qisminin iş sahibi olmamasına işsizlik, bu vəziyyətdəki adamlara isə işsiz deyilir. Yuxarıda qeyd edildiyi kimi işsizlik əmək qüvvəsi cəhətdən fəal olan şəxslərdən bir qisminin öz iradələri ilə işləməməyi seçmələrilə bağlı olan, işsiz olmaları ilə əlaqədar vəziyyət deyildir. Bunun tam əksinə, işsizlik əmək qüvvəsinin var olduğu bir qisim insanın işləmək istəmələrinə baxmayaraq, iş tapa bilməmələrindən və bununla bağlı istəmədən işsiz olmalarının nəticəsi kimi ortaya çıxır. Başqa bir dillə desək, işsizlik anlayışı həm iradi, həm də qeyri-iradi işsizliyi deyil, sadəcə qeyri-iradi işsizliyi ehtiva edir (5). Texniki mənada işsizliyi “işləmə arzusunda və iqtidarında olan və cari məvaciblə işləməyə razı olmasına baxmayaraq, iş tapa bilməyən əmək qüvvəsinin mövcudluğu formasında adlandırmaq mümkündür. İşsizlik səviyyəsi isə, mövcud iqtisadi durumdakı işsiz qəbul edilən adamların sayının əmək qüvvəsinin ümumi miqdarına bölünməsi ilə əldə edilir.

Məşğulluq problemini tədqiq edən əksər müəlliflər öz əsərlərində işsizlik məsələsinə toxunmadan keçməyiblər. Işsizlik, sözsüz ki, əmək bazarının mühüm elementlərindən biridir. Lakin buna baxmayaraq, yenə də qətiyyətlə demək olmaz ki, işsizlik tamamilə məşğulluqdan yaranmır və ya əksinə, işsizliyin səbəbi birbaşa məşğulluqdur.

Beynəlxalq Əmək Təşkilatının da adlandırdığı kimi: “müəyyən bir gün ya da həftə ərzində, müəyyən bir yaş qrupundan olan və aşağıdakı kateqoriyalara daxil olanlar işsiz qəbul edilirlər:

- əmək müqaviləsi bitdiyinə, ya da müvəqqəti olaraq dayandırıldığına görə məşğulluğa əlverişli mövqedə dayanan, hər hansı bir işi olmayan və muzdlu iş axtaranlar
- daha öncə heç işləməmiş, ya da əvvəlki statusu baxımından asılı olmayan və ya pensiyaya çıxarılmış, lakin müəyyən dövr üçün işləmə imkanı olan şəxslər
- gələcəkdə hər hansı işdə işləmək üçün müqavilə bağlamış, lakin hələ də hər hansı bir işi olmayan və işləməyə uyğun olanlar
- müvəqqəti - qeyri-müəyyən bir zaman müddətində təzminatsız (əvəzsiz) işdən çıxarılmaya tabe olan şəxslər (4).

Ümumiyyətlə, istər işsiz, istərsə də məşğul əhali arasında işsizliyi qeydə alınan zamana qədər heç işləməmiş adamlar da olur. Lakin əksər hallarda, əvvəllər işləmiş, sonra isə işdən çıxmış və ya çıxarılmış şəxslər üstünlük təşkil edir.

İşsizliyin xüsusilə, işləyə bilən yaşda olan insanlara və nəticə etibarilə bütün cəmiyyətə təsir etməsi onun işlənmə səviyyəsini çətinləşdirir, həmçinin bir çox elm adamı tərəfindən fərqli təriflər verilməsinə səbəb olur.

Bildiyimiz kimi, iqtisadi böhranlar, siyasi qeyri-sabitlik və müharibə vəziyyətlərində birbaşa təsir altına düşən əmək, kapital və maliyyə sahələri olur. Bunlardan ən başlıca təsirlənən qrup isə kimdənsə asılı vəziyyətdə işləyənlərdir. Çünki böhran və qeyri-sabitlik vəziyyətində göstərilən reflekslərə baxdıqda artan xərclər və itkilərin kompensasiyası üçün müəssisələrin investisiyalarını dayandıraraq inkişaf hədəflərini yenidən ciddi yoxladıqları və daha çox kiçilməyə doğru getdikləri, xüsusilə bir maliyyə ünsürü olaraq görülən işçi sayını da azaltdıqları açıq-aydın görülür. Bu zaman yaşanan böhran və qeyri-sabitliyin təsiri işsizlik səviyyəsinin

artması formasında baş verir. Məsələn, 2008-ci ildə qlobal maliyyə böhranı bütün ölkələrdə işsizlik səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur.

Dünya miqyasında İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı və Avropa İttifaqı üzvü ölkələrinin əmək bazarlarının güclü quruluşuna diqqət yetirildikdə, 2008-ci ildə ABŞ-da maliyyə böhranı olaraq başlayan və dünya dövlətlərinin əmək bazarlarında real böhrana dönən 2008-ci il qlobal böhranının işsizlik üzərində bu gün də hələ də bir çox dövlətə təsirinin davam etdiyini görürük. İİƏT-in məlumatlarına görə, böhranın ev sahibi ABŞ-da 2008-ci ildə 5,8% olan işsizlik səviyyəsi 2009-cu ildə 9,4%-ə qalxmış, 2013-cü ildən sonra azalaraq 2016-cı ildə 4,9 % olmuşdur.

Məşğulluğun növlərinin (formalarının) təsnifləşdirilməsinə nəzər saldıqda isə, həm nəzəriyyədə, həm də praktikada onu bir neçə yerə ayırırlar:

1. Mülkiyyət formalarına görə - xüsusi sektorda, dövlət müəssisə və idarələrində, qarışıq məşğulluq
2. İşədüzəlmə legitimliyinə görə - formal və qeyri-formal məşğulluq, müvafiq sektorlardakı məşğulluq
3. Tam və natamam məşğulluq - tam, natamam iş vaxtında, məşğulluq, alternativ iş rejimi ilə məşğulluq, iş yerlərinin bölünməsilə, yəni bir iş yerində iki nəfərin işləməsilə
4. Məşğulluğun iqtisadi tələblərə uyğunluğu səviyyəsinə görə - məhsuldar, səmərəli, optimal məşğulluq
5. Təşkiletmə formasına görə - standart və qeyri-standart məşğulluq. Standart – daimi iş. Tam iş günü, qeyri-standart tələbə və şagirdlərin semestrdə işləməsi, müvəqqəti, təsadüfi məşğulluq (3).

Sosializm quruculuğu dövründə tam məşğulluq hər bir fərdin, ümumilikdə bütün əhalinin əməklə məşğul olması kimi xarakterizə olunurdu. Bazar iqtisadiyyatı şəraitində isə tam məşğulluq cəmiyyətin əmək qabiliyyətinə məxsus fərdlərinin ictimai-faydalı əməkdə iştirak etməsinin mümkünlüyü kimi qiymətləndirilir. Bu zaman iş axtaran şəxslərin sayı iş yerlərinin sayı ilə müəyyən dərəcədə uyğun gəlir. Lakin bu iş yerlərinin sayı peşə və ixtisas uyğunluğu baxımından fərqli ola bilər.

Natamam məşğulluğu araşdırarkən bu, bir sıra açar sözlərlə xarakterizə olunur: natamam iş günü və ya iş həftəsi, müdiriyyətin təşəbbüsü ilə məcburi məzuniyyətlər və s. Yəni, əmək qabiliyyətinə məxsus bir şəxs bütün günü işləmək iqtidarında olsa belə, ya bu tələbinə uyğun iş tapa bilməməsi, ya da tapdığı işdə daha az məvacib verilməsi üçün iş saatından əvvəl işdən azad edilməsi buraya daxildir. Həmçinin, müdiriyyət tərəfindən işçini məcburi ödənişsiz məzuniyyətlərə çıxarmaq da natamam məşğulluğu şərtləndirən amillərdəndir.

İqtisadi nəzəriyyə və praktikada məşğulluğun bu növlərini fərqləndirirlər: məhsuldar, rasional və səmərəli məşğulluq(1). Məhsuldar məşğulluq o məşğulluqdur ki, burada işçi həm özü üçün, həm də cəmiyyət üçün faydalı nemətlər yaratmaq məqsədilə çalışır. Rasional məşğulluqda məşğul əhali regionlar üzrə elə paylanır ki, burada məhz onların işçiliyinə tələbat vardır. Misal olaraq, məsələn, yeni salınan bir şəhər düşünək. Burada yeni binaların tikintisi, yol, körpü çəkilişi və s. yenidənqurma işlərini görəcək xüsusi məşğul qrup – ustalar, fəhlələr, mühəndislər, sürücülər və s. bu regionda yaşamağa və işləməyə cəlb olunur. Səmərəli məşğulluq dedikdə isə, yüksək peşəkarlığa malik, səmərəli işləməyi özlərinə rəhbər seçmiş, həmçinin yüksək texnologiyalar ilə təchiz olunmuş müəssisələrdə, yüksək keyfiyyətli məhsul istehsal etmək üçün çalışan əhali qrupunun məşğulluğu başa düşülür.

Müstəqil məşğulluq zamanı işçinin özünün müəyyən istehsal vasitələri olur və o, bu vasitələrlə hər hansı muzdlu qüvvədən istifadə etmədən özü öz işini qurur, müəyyən istehlak malları, xammallar hazırlayır.

Qlobal məşğulluq dedikdə, əmək fəaliyyətinin bütün sahələrində məşğulluq başa düşülür. Buraya iqtisadiyyatdan siyasətə, təhsildən səhiyyəyə, incəsənətdən mədəniyyətə, bir sözlə bütün həyat sferası nəzərdə tutulur.

Çevik məşğulluq məşğulluğun daha sərbəst forması kimi çıxış edir. Burada işçi iş saatını özü seçir, təbii ki müdiriyyətlə razılaşmaq şərti ilə. Iş saatının seçilməsi qaydasında da müəyyən şərtlər mövcuddur. Belə ki, işçi 1 iş günü və ya 1 iş həftəsi (ay) ərzində nəzərdə tutulan saatlarda işləmək məcburiyyətindədir. Bu hallara riayət edildikdə işçi işinin başlanma və bitmə saatını özü seçə bilər. Loru dildə desək, məsələn, bu işçi gündə 6 saat işləməlidir. Istəsə bunu 8:00-dan 14:00-a qədər, istərsə də 15:00-dan 23:00-a qədər görə bilər. Həmçinin çevik iş saatında müəyyən saatlar təyin edilir ki, bu saatlarda işçi mütləq iş başında olmalıdır. Işçilərin istirahətlərini təmin etmək üçün uzunmüddətli nahar fasilələrinə icazə verilir.

Müvəqqəti məşğulluq müvəqqəti müqavilələr üzrə işləmək deməkdir. Müvəqqəti məşğulluğa fəhlələr, inşaat işçiləri, xidmət sahələrində işləyənlər və s. arasında daha çox rast gəlinir. Belə ki, müvəqqəti məşğulluğa memarla, arxitektorlar, dizaynerlər və s. də cəlb oluna bilər. Şirkət müdirlərinə də müvəqqəti məşğulluqla muzdlu işçiləri çalışdırmaq daha çox sərf edir. Belə ki, daha az əmək haqqı verərək muzdlu işçilər üçün çəkiləm xərcləri azaltmaq, işçiləri tez –tez dəyişdirmək, müəyyən səbəblərdən iş başında olmayan işçiləri operativ surətdə digərləri ilə əvəz etmək, hətta özünü təsdiq etmiş işçiləri daimi işə götürmək baxımından müvəqqəti məşğulluq şirkət müdirləri üçün də daha əlverişli üsuldur. Müvəqqəti məşğul şəxslər arasında natamam iş rejimində işləyən qadınlar da çoxluq təşkil edir. Müvəqqəti məşğulluq Qərbi Avropa ölkələrində çox geniş yayılmışdır.

Məşğulluğun digər bir növü mövsümi məşğulluqdur. Mövsümlə bağlı məşğul əhali ilin çox hissəsini işsiz olaraq keçirir, sezonluq işlərlə məşğul olur. Buna misal olaraq, kənd təsərrüfatı, balıqçılıq, şəkər istehsalında işləyənləri, hətta tikinti sektorunda işləyən fəhlələri göstərmək olar. Deməli, belə nəticə çıxır ki, mövsümi məşğulluq müvəqqəti məşğulluqla çox yaxın əlaqədədir. Lakin bir fərq olaraq, müvəqqəti məşğul əhalidən fərqli olaraq mövsümi işçilər hər il eyni yerdə işləyə bilərlər. Bu insanlar mövsümlər arası dövrdə başqa işlərdə işləmək, daimi işə düzəlmək hüququna malikdirlər. Lakin ümumi olaraq, iş olmayan müddətdə mövsümi işlərlə məşğul olan insanlar bir çox ölkələrdə işsiz sayılmırlar.

Bu növlərlə yanaşı, məşğulluğun qeyri-standart növləri də mövcuddur. Bunlardan biri də evdə işdir. Belə ki, işçilər firmadan xammal, material, alətlər və s. vasitələri təhvil alır, daha sonra firma ilə razılaşdırılmış vaxt ərzində hazır məhsulu onlara təhvil verir. Müasir dövrdə bu iş formasına maraq ikitərəfli geniş yayılmışdır. Belə ki, bu iş forması müdirə sərf edir, çünki evdə çalışan şəxsə müəssisədə çalışan şəxsdən nisbətən az əməkhaqqı verir. Həmçinin bu işçinin müəssisədaxili xərcləri olmadığına görə, hazırlanan məhsuldan sahibkara daha çox xeyir qalır. Həmçinin, işçi də evdə iş formasında işləyərkən iş saatını özü təyin edə bilir, ev işləri ilə məşğul ola bilir.

Qeyri-standart məşğulluğun bir növü də ictimai işlərdir. Bu işlər onları icra edən insanlar tərəfindən yüksək ixtisaslaşma tələb etmir. Bunlara misal olaraq, yaşıllaşdırma, ərazinin təmizlənməsi, yol tikintisində iştirak və s. göstərilə bilər.

Beləliklə, sadaladığımız bu sahələrdən ən azı birində muzdla işləyən, o cümlədən əmək müqaviləsi bağlamış tam və ya natamam iş günündə fəaliyyət göstərən hər bir Azərbaycan Respublikasının vətəndaşı məşğul əhali kateqoriyasına daxil edilir.

## ƏDƏBİYYAT

1. Əliyev M., Həmidov H. İnsan resurslarının idarə edilməsi (Ali məktəblər üçün dərs vəsaiti) Bakı – “Nurlan”, 2002

2. Məşğulluq haqqında Azərbaycan Respublikasının qanunu. 29 iyun 2018-ci il. № 1196-VQ

3. Quliyev T.Ə. İnsan resurslarının idarə edilməsi (insan naminə). Bakı - "Nağıl evi" şirkəti, 2013. 178,199 s.

4. Biçerli. M. K. İşsizlikle mücadelede aktif istihdam politikaları. Eskişehir: Anadolu Üniversitesi Yayınlar. 2004

5. Işığıçok. Ö. İstihdam ve işsizlik. Bursa: Dora Yayınevi. 2014

## MƏŞĞULLUQ ANLAYIŞI VƏ MƏŞĞULLUĞUN NÖVLƏRİ

***Qasımova Sitarə***

### XÜLASƏ

XXI əsrin astanasında bəşəriyyət yeni dövrə qədəm qoyur. Bu mərhələdə insan amili, onun dəyərləndirilməsi ön plana çıxır. İnsanlara daha yaxşı həyat tərzi təqdim etmək üçün yeni sosial-iqtisadi tədbirlər həyata keçirilir. İnsanların işlə təmin olunması, ictimai-faydalı əməkdə iştirak etməsi sahəsində dövlət orqanları əsaslı çalışmalara başlamışdır. Həmçinin, məşğulluğun əksi olan işsizlikdən müdafiə üsulları da axtarılmış və tətbiq olunmağa başlanmışdır. "Məşğulluq anlayışı və məşğulluğun növləri" adlı elmi məqalədə məşğulluğun elmi-nəzəri və praktiki tərəflərini araşdırmışıq. Məşğulluğa müxtəlif aspektlərdən yanaşmış, müxtəlif elm adamlarının görüşlərini ümumiləşdirmişik. Elmi məqalədə "kimlər məşğul şəxs sayılır?" sualına ətraflı cavab verməyə çalışmışıq.

## ЗАНЯТОСТЬ ВОСПРИЯТИЯ И ВИДЫ ЗАНЯТОСТИ

***Ситара Гасымова***

### РЕЗЮМЕ

На заре XXI века человечество вступает в новую эру. На данном этапе человеческий фактор и его оценка выходят на первый план. Внедряются новые социально-экономические меры для улучшения жизни людей. Государственные органы начали работу по трудоустройству людей, участию в общественно-полезной работе. Кроме того, методы защиты от безработицы, которые являются противоположностью занятости, также были найдены и реализованы. В научной статье, озаглавленной «Концепции занятости и виды занятости», мы исследовали теоретические и практические аспекты занятости. Мы подошли к трудоустройству в разных аспектах, подвели итоги встреч разных ученых. В научной статье мы постарались подробно ответить на вопрос «Кто занятой человек?»

## EMPLOYMENT PERCEPTIONS AND TYPES OF EMPLOYMENT

***Sitara Gasimova***

### SUMMARY

At the dawn of the 21st century, mankind is entering a new era. At this stage, the human factor and its evaluation come to the fore. New social and economic measures are being implemented to give people a better lifestyle. Government agencies have begun work on employment of people, participation in socially useful work. In addition, methods of protection against unemployment, which are the opposite of employment, have also been sought and implemented. In a scientific article entitled "Employment Concepts and Types of Employment," we explored the theoretical and practical aspects of employment. We approached employment in various aspects, summarized the meetings of various scholars. In the scientific article we tried to answer in detail the question "Who is a busy person?"

# AZƏRBAYCAN RESPUBLİKASINDA HEYDƏR ƏLİYEV FONDUNUN TƏHSİL VƏ SƏHİYYƏ SAHƏSİNDƏ FƏALİYYƏTİ

***İsmayılov Ramil***
***BDU-nun II kurs magistrı***
**ismayilovramin495@gmail.com**

***Açar sözlər:*** təhsil, səhiyyə, sosial problemlər, sosial layihə, sosial islahat
***Ключевые слова:*** образование, здравоохранение, социальные проблемы, социальный проект, социальная реформа
***Keywords:*** education, health, social problems, social project, social reform.

Ümummilli lider Heydər Əliyev öz fəaliyyətində təhsil sisteminin inkişafı və bununla bağlı olan digər məsələlərə xüsusi diqqət ayırmışdır. O, daim vurğulayırdı ki, hər bil xalqın, millətin hərtərəfli inkişafı üçün təhsil zəruri əhəmiyyətə malikdir. Bu fikri ümummilli liderin aşağıdakı cümlələri də bir daha təsdiqləyir: “Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır” (1). Bu səbəbdən təhsilin inkişafı ölkəmizdə fəaliyyət göstərən bir sıra təşkilatların, o cümlədən də Heydər Əliyev Fondunun daim diqqət mərkəzində olmuşdur.

Heydər Əliyev Fondu ölkəmizin inkişafında əvəzsiz rola malik olan, ulu öndər Heydər Əliyevin xatirəsinə xalqımızın dərin ehtiramını ifadə etmək arzusundan irəli gələrək yaradılmışdır. Fondun yaradılmasında digər bir məqsəd azərbaycançılıq ideologiyasının əhəmiyyətini bir daha vurğulayaraq, bu ideologiyanın gələcək nəsillərə ötürülməsidir. Fond öz fəaliyyətinə 2004-cü ildən başlamışdır. Fondun prezidenti UNESCO və ISESCO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyeva, vitse-prezidenti isə Leyla Əliyevadır. Fond öz fəaliyyətini təhsil, səhiyyə, idman, elm və texnologiya, idman və s. sahələrin inkişafına yönəldərək bu sahələrdə mövcud olan problemlərin aradan qaldırılmasını hədəfləyir.

Fondun fəaliyyət məqsədləri sırasına bunlar daxil edilə bilər: Heydər Əliyevin ölkənin hərtərəfli inkişafına nail olmaq məqsədilə həyata keçirdiyi siyasətin öyrənilməsi və gənc nəslə bu ideyaların aşılanması, vətəndaşların yaradıcı imkanlarını, bacarıqlarını aşkara çıxarmaq və bu bacarıqların düzgün istiqamətləndirilməsi işinin hayata keçirilməsi, gənclərimizin müasir biliklərə malik vətəndaş kimi inkişafı işinə dəstək, ölkə həqiqətlərini dünyaya çatdırmaq, həm ölkə daxilində həm də xaricdə müasir dövrün aktual problemlərini ələ ala beynəlxalq konfransların keçirilməsi,yerli sferada özünü göstərən bir sıra sosial problemlərin həllini həyata keçirmək, əhali qrupları arasında xüsusi qayğıya ehtiyacı olan qrupların müdafiəsi işini həyata keçirmək və s. (4).

Heydər Əliyev Fondu yarandığı ilk gündən etibarən ölkədə elm, təhsil, mədəniyyət, səhiyyə, sosial və digər sahələrda mövcud olan problemləri aradan qaldırmağı, o cümlədən bu sahələrdə mövcud şəraiti dünya standartlarına uyğunlaşdırmağı qarşıya hədəf kimi qoymuşdur. Bu sahələr içərisində təhsil və səhiyyə sahələri xüsusi əhəmiyyətə malikdir. Fondun təhsil sahəsində atdığı ən mühim addımlar içərisində ilk olaraq "Təhsilə dəstək" layihəsini qeyd etməliyik. Bu layihə çərçivəsində hər il yeni məktəblər salınır, mövcud məktəblər əsaslı surətdə təmir olunur, eyni zamanda onların elmi-texniki bazası gücləndirilir. Təkcə onu qeyd etmək kifayətdir ki, "Təhsilə dəstək" layihəsi çərçivəsində 2005-20012-ci illər ərzində ölkədə 20-dək uşaq bağçası yenidən qurularaq istifadəyə verilmişdir. Bu layihədə ölkədə mövcud olan milli azlıqların tərəqqisi və inkişafı da prioritet məsələlərdən biri idi (4). Lakin təhsilə dəstək hərəkatının ayrılmaz bir hissəsi olan müəssisələrin yenidənqurulması prosesi sonrakı illərdə də tam sürətlə davam etdirilmişdir. Məsələn , 2018-ci ildə Səbail rayonunda yerləşən 157 nömrəli uşaq bağçası Heydər Əliyev

Fondunun maliyyə dəstəyi ilə əsaslı surətdə təmir olunub istifadəyə verildi. Digər tərəfdən, Binəqədi rayonunda fəaliyyət göstərən 141 saylı körpələr evi-uşaq bağçasında da Fondun dəstəyi ilə təmir işləri aparılıb və burada uşaqların istirahəti üçün mövcud olan avadanlıqlar daha da yaxşılaşdırılıb.

Həmçinin, Sabunçu rayonunda 1937-ci ildən fəaliyyət göstərən 260 saylı körpələr evi-uşaq bağçası ötən il sökülərək Fondun dəstəyi ilə yenidən inşa edilmişdir. Müəssisənin 2019-cu il avqustun 26-sında baş tutmuş açılışında Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva da iştirak etmişdir.

Elm və təhsil sahəsində Fondun gördüyü işlər yalnızca təmir və yenidənqurma işləri ilə məhdudlaşmır, eyni zamanda təhsil prosesində yeni texnologiyaların, müasir təhsil formalarının tətbiqini də əhatə edir. Buna əyani misal olaraq, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə UNEC-də yaradılmış distant Çin dili kurslarını göstərə bilərik. Burada kurslar ödənişli olsa da aztəminatlı ailələrin uşaqlarının ödənişləri Fond tərəfindən həyta keçiriləcək. Bu layihənin həyata keçirilməsində əsas məqsəd sənayenin inkişafı ilə səciyyələnən müasir dövrdə əhəmiyyəti günbəgün artan çin dilinə olan marğı daha da artırmaq və eyni zamanda bu sahədə gələcək mütəxəssislər hazırlamaqdır. Heydər Əliyev Fondu həyata keçiriləcək layihələrin planlaşdırılması zamanı aztəminatlı ailələri və onların övladlarını daim diqqət mərkəzində saxlayır. Məsələn, bu il Fondun maliyyə dəstəyi ilə 17 min aztəminatlı uşağa məktəb ləvazimatları təqdim edilib. Bu təşəbbüs nəyinki Bakını, hətta müxtəlif regionları da əhatə edib. Layihəni həyata keçirməkdə Fondun başlıca məqsədi bir sıra maddi və sosial problemlər ucbatından təlim-tədris prosessində yaxından iştirak edə bilməyən şagirdlərin bu prosesə tam surətdə cəlb olunmasıdır.

Eyni zamanda, təhsilin keyfiyyətini arzu olunan səviyyəyə çatdırmaq məqsədilə hər il Fondun maliyyə dəstəyiylə bir sıra fənnlər üzrə müxtəlif plakatlar və dərs materialları çap olunaraq təhsil müəssisələrinə paylanılır.

Heydər Əliyev Fondunun müasir Azərbaycanda müasir təhsili formalaşdırmaq üçün gördüyü işlər yalnız yerli sferanı əhatə etməyib, bir sıra beynəlxalq addımları da göz önünə sərir. Ölkədə mövcud olan təhsil sistemini beynəlxalq səviyyəyə çatdırmağı qarşısına qəti məqsəd qoyan Fond bütün mövcud imkanlardan lazımınca istifadə edir. Bu istiqmətdə həyata keçirilən əsas tədbirlərdən biri də beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirməkdir. Bu baxımdan 2004-cü il iyul ayının 6-da Fondun təşəbbüsü ilə Fransanın paytaxtı Paris şəhərində YUNESKO-nun iqamətgahında baş tutan "Davamlı inkişaf üçün Azərbaycanda təhsil islahatları" konfransını xüsusi vurğulamaq lazımdır. Konfransın yekun nəticəsi olaraq , avqust ayında "YUNESKO-Azərbaycan: Azərbaycanın təhsil problemləri və perspektivləri" mövzusunda yeni bir konfrans keçirildi. Bu konfransda təhsil sahəsində ölkədə mövcud olan problemlər, onların aradan qaldırılması yolları barədə söhbət açıldı və eyni zamanda Ermənistanın ölkəmizə qarşı yeritdiyi işğalçı siyasətin təhsil sahəsində yaratdığı problemlər bir daha vurğulandı (3).

Heydər Əliyev Fondu xalqın mariflənməsi, gənclərdə kitaba ,mütaliəyə olan marağın daim artırılması məqsədilə bir sıra mühim addımlar atmışdır. Buna ən real nümunə kimi Fondun dəstəyi ilə yaradılan "Bakı Kitab Mərkəzi"-ni göstərmək olar. Bu mərkəzdə Azərbaycan dili ilə yanaşı rus, ingilis, fransız, ispan, alman və ərəb dillərində ümumilikdə 10 mindən çox kitab mövcuddur. Burada bədii kitablarla yanaşı Fondun fəaliyyətini əks etdirən müxtəlif nəşrləri də görmək mümkündür. Mərkəzdə həmçinin görmə imkanları məhdud şəxslərin mütaliə ilə məşğul olmaları üçün xüsusi şərait yaradılıb.

Heydər Əliyev Fondunun ölkəmizdə həyata keçirdiyi layihələrin digər bir hədəfi səhiyyə sahəsidir. Bu zaman Fondun əsas məqsədi səhiyyə sisteminin davamlı inkişafının təmin edilməsi və bu sahədə mövcud problemlərin aradan qaldırılmasıdır. Bu istiqamətdə həyata keçirilən layihələr özündə yeni sağlamlıq mərkəzlərinin qurulmasını, mövcud mərkəzlərin yenidən barpasını, onların müasir avadanlıqlarla təmin edilməsi ilə yanaşı həm də bir sıra xeyriyyə

aksiyalarını birləşdirir. Buna misal olaraq Fondun dəstəyi ilə Cəlilabad və Biləsuvar rayonlarında keçirilən qanvermə aksiyalarını qeyd edə bilərik. Aksiya çərçivəsində hemofiliya, talassemiya və digər qan xəstəlikləri ilə mübarizə üçün istifadə edilməsi məqsədilə ümumilikdə 361 nəfərə yaxın könüllü donor qan verib. Toplanan qanlar Respublika Mərkəzi Qan Bankına göndərilib. Bununla yanaşı Heydər Əliyev Fondunun səhiyyə sahəsində attığı addımlar sırasında ürək xəstəliyindən əziyyət çəkən uşaqların müalicə məqasədi ilə İsrailə göndərilməsini misal göstərə bilərik. Uşaqların müalicəsini və əməliyyatını nəzərdə tutan bu layihə İsralinin bu sahədə fəaliyyət göstərən "Uşaq ürəkləri xilas edək" təşkilatı ilə birgə həyata keçirilmişdir. Qeyd etmək yerinə düşərdi ki, Heydər Əliyev Fondu tərəfindən ürək qüsurlu uşaqların müalicəsi ilə bağlı aksiyalar davamlı olaraq həyata keçirilir.

Az əvvəl qeyd etdiyimiz kimi Heydər Əliyev Fondu qaçqın və məcburi köçkünləri daim diqqət mərkəzində saxlayır. Məhz bu baxımdan "Qobu Park" yaşayış massivində həyata keçirilən humanitar tibbi yardım aksiyası xüsusən diqqətəlayiqdir. Qaçqın və məcburi köçkünlərin yerləşdirilməsi məqsədilə inşa edilən bu yaşayış massivində həyata keçirilən aksiyada 300-ə yaxın məcburi köçkün ödənişsiz şəkildə göz müayinəsindən keçirilib. Aksiyanın əsas məqsədi qaçqın və məcburi köçkünləri müayinə etməklə onlarda mövcud olan görmə problemlərinin aşkar edilməsi və həllində hərtərəfli kömək göstərilməsidir (4).

Heydər Əliyev Fondunun səhiyyə sahəsində həyata keçirdiyi mühim layihələrdən biri də "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsidir. Bu layihəçərçivəsində 14 yaşadək olan 310 uşağın dərmanla bağlı çətinlikləri aradan qaldırılıb. Diabetli xəstələrin dərmanla təmin olunması prosesi günümüzdə də davam edir. Belə ki, bu xəstəlikdən əziyyət çəkən uşaqlar və böyüklər müvafiq dərman məhsulları ilə mütəmadi olaraq təmin edilir (2).

Fondun səhiyyə sahəsində həyata keçirdiyi tədbirlərin yönəldiyi mühim istiqamətlərdən biri də talassemiya xəstəliyindən əziyyət çəkən insanlara qayğı göstərilməsidir. Bildiyimiz kimi bu sahədə həyata keçirilməli olan prioritet məsələlərdən biri bu xəstəliyə düçar olmuş insanların keyfiyyətli qanla təmin olunmasıdır. Məhz bu səbəbdən layihənin əsas istiqamətləri mövcud donor xidmətinin yaxşılaşdırılması, insanların bu xəstəliyin yaranma səbəbləri, müalicə proseduru barədə məlumatlandırılması və xüsusi diaqnostika üsulları ilə bu xəstəliyin proqnozlaşdırılmasıdır. Bu layihənin ən mühim nəticələrindən biri ən son tibbi avadanlıqlarla təhciz olunmuş Talassemiya Mərkəzinin yaradılması olmuşdur.

Heydər Əliyev Fondu ilk gündən etibarən müxtəlif xəstəliklərdən əziyyət çəkən insanlara humanitar tibbi yardımın göstərilməsini özünün əsas fəaliyyət istiqamətlərindən biri kimi vurğulamışdır. Belə bir nümunəyə diqqət yetirmək kifayətdir ki, əgər 2003-cü ildə böyrək çatişmazlığından əziyyət çəkən 214 şəxs dövlət hesabına hemodializ seansları alırdısa, 2009-cu ildə bu say 1145-ə çatdırıldı (2).

Fondun səhiyyə sahəsində diqqət yetirdiyi digər bir məsələ mövcud tibb müəssisələrinin müasir standartlara cavab verən avadanlıqlarla təhciz edilməsidir. Məhz bu baxımdan, Fond tibb sahəsində yüksək naliyyətlər əldə etmiş avropa ölkələri ilə beynəlxalq əməkdaşlığı daim inkişaf etdirir. Bu əməkdaşlıq çərçivəsində Almaniyanın "Karl-Storz" və "Fresenius Medical Care" şirkətləri ölkəmizə bir sıra xəstəliklərin diaqnostikasına və müalicəsinə imkan verən ən müasir standartlara uyğun tibbi avadanlıqlar hədiyyə etmişdir.

Eyni zamanda Fondun səhiyyə sahəsinin infrastrukturunun qurulmasında əldə etdiyi uğurları da xüsusi olaraq qeyd etməliyik. Belə ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yeni tibb mərkəzləri yaradılır, mövcud mərkəzlər əsaslı surətdə təmir olunur. Ən əyani nümunə kimi Qala ərazisində fəaliyyət göstərən 29 nömrəli xəstəxananın yeni filialının yaradılması, Yeni Günəşli ərazisində uşaqlar üçün reabilitasiya mərkəzinin yaradılması, bir sıra xəstəxanalara ən müasir təcili tibbi yardım maşınlarının verilməsini və s. göstərə bilərik.

## ƏDƏBİYYAT


1. Hüseyn Həşimli. Heydər Əliyev və Azərbaycan təhsili. Şərq qapısı, 2013.
2. Ramil Vəlibəyov. Yeni Azərbaycan, 5may 2009, Nö 82, S. 4
3. Sona Məmmədbəyova, Xalq qəzeti.-2009.-9 sentyabr.-N200,-S.3
4.https://heydar-aliyev-foundation.org/az/content/blog/132/T%C9%99hsil%C9%99-d%C9%99st%C9%99k
5.http://www.mct.gov.az/az/region-xeberleri/heyder-liyev-fondunun-tesebbusu-ile-yaradilan-baki-kitab-merkezinin-acilisi-olub


## AZƏRBAYCAN RESPUBLİKASINDA HEYDƏR ƏLİYEV FONDUNUN TƏHSİL VƏ SƏHİYYƏ SAHƏSİNDƏ FƏALİYYƏTİ

***İsmayilov Ramil***


**XÜLASƏ**

Hər bir ölkə öz gələcək inkişafı üçün dərin elmi biliklərə sahib sağlam gənclər hazırlamağı hədəfləyir. Bu, ümumilikdə dövələtlə yanaşı, eyni zamanda müxtəlif sahələrdə fəaliyyət göstərən bütün təşkilatların mühim misiyasıdır. Müxtəlif sosial problemlərin hər dəfə daha geniş miqyas aldığı müasir cəmiyyətdə bu problemlərin həlli dövlətlə sosial və ictimai təşkilatların qarşılıqlı əlaqəsini və birgə fəaliyyətini tələb edir. Problemlər müxtəlif olduğu kimi, onları həll yolları da müxtəlifdir. Məhz bu baxımdan ölkədə mövcud olan təşkilatlar öz fəaliyyətlərini müxtəlif sahələrə yönəltməlidir. Bu sahələr arasında ən mühim yeri təhsil və səhiyyə sahəsi tutur. Çünki sağlam gələcək sağlam və təhsilli fərdlərin əlindədir.


## ДЕЯТЕЛЬНОСТЬ ФОНДА ГЕЙДАРА АЛИЕВА В ОБРАЗОВАНИИ И ЗДОРОВЬЕ В РЕСПУБЛИКЕ АЗЕРБАЙДЖАН

***Исмайлов Рамиль***


**РЕЗЮМЕ**

Каждая страна стремится подготовить здоровых молодых людей с глубокими научными знаниями для их будущего развития. Это важная миссия для всех организаций, не только государственных, но и действующих в разных областях. В современном обществе, где различные социальные проблемы становятся все более распространенными, решение этих проблем требует взаимодействия и сотрудничества государственных и общественных и общественных организаций. Поскольку проблемы разные, решения разные. Вот почему организации в стране должны сосредоточить свою деятельность в разных областях. Наиболее важной из этих областей является образование и здравоохранение. Потому что здоровое будущее в руках здоровых и образованных людей.


## ACTIVITY OF HEYDAR ALIYEV FUND IN EDUCATION AND HEALTH IN THE REPUBLIC OF AZERBAIJAN

***Ismayilov Ramil***


**SUMMARY**

Each country aims to prepare healthy young people with deep scientific knowledge for their future development. This is an important mission for all organizations, not only state, but also operating in different fields. In a modern society where various social problems are becoming increasingly widespread, the solution of these problems requires the interaction and co-operation of government and social and public organizations. As the problems are different, the solutions are different. That is why organizations in the country should focus their activities in different areas. The most important of these areas is education and health. Because a healthy future is in the hands of healthy and educated individuals.

# SOSİAL İŞ

## SOSİAL İŞ QAYDALARINDA YENİ YAXINLAŞMALAR (YANAŞMALAR) –DOST YANAŞMASI

***f.ü.f.d. Eliza İsmayılova***
***BDU-nin Sosial Iş kafedrasının Baş müəllmi***
***eliza_ismayilova@yahoo.com***

**Açar sözlər;** sosial iş, yaxınlaşma, könüllülük, sosiallaşma və humanizm
***Ключевые слова:*** Социальная работа, сближение, волонтерство, социализация и гуманизм
***Key words:*** Social work, rapprochement, volunteering, socialization and humanism

Cəmiyyət inkişaf etdikcə, dovlətin iqtisadi gücü möhkəmləndikcə, demokratik inkişaf yolunu seçmiş dövlətlər xalqın sosial rifahının yaxşılaşdırılmasına dair yeni sosial islahatların aparılmasında maraqlı olurlar.Bu zaman daha müasir, innovativ üsüllardan istifadə etməklə sürətli və kefiyyətli nəticələrin alınması nəzərə çarpır.Ölkəmizdə bu cür islahatların aparılmasının nəticəsi olaraq, ASAN xidmət və DOST agentliklərinin fəaliyyətinin nümunə olaraq göstərmək olar. Bu nümunələr isə artıq dünya ölkələrində və sosial iş sahəsində elmi ədəbiyyata bəlli olan, eləcədə geniş tətbiq dairəsinə malik olan yeni sosial iş qaydalarını tələb edir.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra, ölkədə aparılan siyasi-iqtisadi, sosial-mədəni islahatlar nəticəsində əhalinin sosial rifahının yaxşılaşdırılması istiqmətində, xüsusiylə əhalinin həsas katoqoriyasının həyat şəraitinin yüksəldilməsinə daır sosial subyektlərin fəaliyyətində yeni canlanma müşahidə olunmağa başladı. Əhaliyə göstərilən sosial xidmətin yaxşılaşdırılmasına dair “ Sosial xidmət haqqında” qanun qəbul olundu. Bu qanun, ondan irəli gələn məsələlərin həll olunması üçün vacib olan kadr potensialının təmin olunmasına, eləcədə ixtisaslı mütəxəssislərin hazırlanması üşün elm ocaqlarında “sosial iş” ixtisasının açılmasına bu ehtiyacların ödənilməsini və sosial iş sahəsində müasir dövrün tələblərinə uyğun ixtisaslaşmanın formalaşmasına təkan verdi. Bekəliklə, sosial işdə umumi sosial yanaşma istiqamətindən yeni ixtisaslaşmış sosial yanaşma üzrə mütəxəssislərlə, işçilərlə əvəz olunmağa başlandı. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət istiqamətlərinə uyğun olaraq yaradılmış, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş **Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi – “DOST”** mərkəzlərində əhaliyə 124 adda sosial xidmətın göstərilməsi nəzərdə tutulmuşdur. Bu xidmət mərkəzlərinin fəaliyyətində könüllülərin iştirakı yuxarıda qeyd olunan könüllü fəaliyyətinin fərqli olaraq, daha həssas əhali qrupları ilə işləmək bacarığını, insansevərliliyi, ədalət və hümanist yanaşma xüsusiyyətlərini aşılamaqla əhalinin sosial həyat fəaliyyətində xüsusi yeri və rolu vardır.

Dost mərkəzində yuxarida qeyd olunan 124 adda sosial xidmətlərdən əlavə əlillərin və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların bu xidmətlərdən istifadənin maneəsiz əl çatan olması, müvafiq inzibati ərazi üzrə fəaliyyət göstərən tibbi-sosial ekspert komissiyalarının işi təşkil olunması, onların yerlə və mümkün tibbi ləvazimatlarla təchiz olunması, əlilliyi olan şəxslərin mümkün reabilitasiya vasitələri ilə təmin edilməsi, ilkin tibbi yardım göstərilməsi üçün lazımi şəraitin yaradılması, xüsusi proqramlar üzrə əlilliyi olan şəxslər, habelə işaxtaran və işsiz şəxslər üçün məşğulluq sahəsində peşə kurslar təşkil olunması nəzərdə tutulmuşdur.

Bildiyimiz kimi sosial iş cəmiyyət yarandığı gündən bu günə kimi müxtəlif formalarda özünü göstərmişdir. Ilkin olarq bu yardımlaşma, bir-birinə əl tutmaq daha sonralar isə ehtiyacı içində yoxsulluq səviyyəsində yaşayan, sağlamlıq imkanları məhduq olan insanların sosial

müdafiəsinin təşkili kimi dövlət siyasətinin tərkib hissəsi olub, onları təmin olunması öhdəliyini yaratmışdır.Zaman keçdikcə bu öhdəliklərin həyata keçirilməsi üçün lazımı subyetlərdə çalışan sosial iş və xidmət sahəsində kadr potensialinin təmin olunması məqsədiylə ixtisaslaşma, bilik və bacarıqlarının umumidən xüsusiyə doğru inkişaf etdirilməsi ehtiyacı duyuldu. Artıq sosial iş sahəsində çalışan sosial işçilərin xüsusi ixtisaslaşmaya – fərdi yanaşma, qrup və icma yanaşmaları, müxtəlif təşkilat və müəssisələr ilə əlaqəli şəkildə çalışmaq bacarığı, icmada olan sosial ədalətsizliyi və problemlərin aradan qaldırılması, sosial siyasət, planlaşdırma, sosial ünsiyyət formaları, sosial tələbatın ödəmə imkanları, əhalinin yoxsulluq səviyyəsini, sosial-tibbi xidmət, sosial-pedoqoji, sosial-iqtisadi və hüquqi xidmət əsasları və ədliyyə-penetisiar sosial xidmətin həyata keşirilməsi üçün daha yüksək səviyyəli umumi bilik və bacarıqlara malik mütəxəssislərin hazırlanmasına ehtiyac yarandı.

Sosial iş və xidmətin bir məslək kimi onun elmi və tarixi inkişaf mərhələlərində sosial işə ilkin olaraq *umumi yaxınlaşma*- yəni həm insanlar tərəfindən, həm də dövlət sübyektləri tərəfindən əhalinin həsas qruplarına umumi bir yardım etmək, sosial problemlərin təmin olunması yanaşması vardır. Bele bir ilk sosial umumi yaxınlaşma İngiltərədə “generic social work” adlanırdı və əsas yanaşma tərzi isə fiziki, ruhu xəstələrə və yoxsul adamlara yardım etmək idi.

Sosial işdə umumi yaxınlaşma- əsas etibariylə xidmətin və ya müdaxilənin hər hansı bir növünə yönəlir. Bu anlayışa görə sosial işçi sosial işin ya xidmətin ancaq bir növü ilə ya konkret fərd, ya qrup ya da icma ilə işləməsi nəzərdə tutulur. Sosial işçiyə müraciət edəm müraciətçinin qəbul olunması, problemin qiymətləndirilməsi və onun həllinə yönəlik müdaxilə üç mərkəzləşmiş halin yalniz biri ilə işləmək bacarığının olması anlamına gəlir. Bu sosial iş fərd, qrup və icma ilə ola bilər.

Sosial işin umumi yaxınlaşma formasında sosial işçinin fərdlə işlədiyi yönüm müraciətçiylə üz-üzə, tək və tək qurulan münasibət nəzərdə tutulur. Quplarla aparılan sosial işdə isə, oxşar və ortaq bir məqsədləri və ya problemləri olan bir neçə müraciətçilərlə sosial işçinin umumi yaxınlaşma ilə problemin həllinə səy göstərməsi başa düşülür. İcmai ilə aparılan sosial işdə isə sosial işçinin əsasən icmanın (cəmiyyətin) sosial maarifləndirilməsinə yönəlir.Burada məqsəd icmanın ehtiyaclarını öz bacarıqlarından istifadə etmək qaydasını anlatmaqla, var olan ehtiyatlardan istifadə etməyə yönəldilir.

Ölkəmizdə sovetlər dövründə əhalinin sosial rifahının yaxşılaşdırılmasına dair əmək pensiyası, sosial sığorta, əməyin qiymətləndirilməsinə görə, uşaqların sayına görə-qəhrəman ana, uşağa qulluq və 18 yaşa çatana kimi “uşaq pulu” adlanan bir çox sosial təminat formaları müəyyən olunmuşdur. Bundan əlavə əhalinin həssas və risk qruplarına aid olan təbəqəsiylə məşğul olan xüsusi xidmət mərkəzləri fəaliyyət göstərirdi. Bu xidmət mərkəzlərində çalışan sosial işçilər isə ixtisas baxımından nəinki bu günün tələblərinə cavab verə bilməz, hətda o dövrdə də sosial işin təməl dəyərləri, etik prinsiplərin və tətbiq qaydalarından uzaqda idi. Arzu olunan haldır ki, risk qrupuna daxil olan şəxslərin sosial işçilərin hümanist yanaşma, etik prinsplər və insan haqqlarına dayanan bütün qanunlarından istifadə etmək haqqlarının tanınması tam şəkildə təmin olunsun.Maddi qarşılıq gözləməyən könüllülərin hümanist fəaliyyət proqramları daxilində gələcəkdə əhalinin həsas qruplarına göstərilən xidmət formalarının səmərəliliyini artırmaq və şəffaflığın təmin olunması məqsədi ilə müvafiq sahədə infrastruktur obyektlərin və xidmətlərin monitorinqinin aparılmasında yaxından iştirak etsnilər.

## ƏDƏBİYYAT

1. “Sosial xidmət haqqında” Azərbaycan Respublikasının 2011-ci il 30 dekabr tarixli 275-IVQ nömrəli Qanun
2. “DOST” mərkəzlərində xidmətin göstərilməsi Qaydası. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli Fərmanı
3. M.V. Firsov, E.Q.Studentova. Sosial işin nəzəriyyəsi. Bakı-2018
4. http://sosial.gov.az/uploads/images/image_750x_5c389740106f3.pdf

## XÜLASƏ

Sosial dövlət prinsipləri ilə sosial-mədəni fəaliyyətin idarə edilməsi, sosial sferada yeni sosial xidmət sahələrinin təşkil olunması, ona yeni baxiş formalaşdırmaq günümüzün aktual problemlərindən biridir. Özünü idarəetmənin təmin edilməsi prinsipinə uyğun olaraq, risk qrupuna daxil olan əhali kotoqoriyasına göstərilən sosial xidmətin daha sadə və əlçatan olması cəmiyyətdə sosiallaşması prosesini və inkişafını sürətləndirir. Əhalinin sosial rifahının yaxşılaşdırılmasına yönəlmiş innovativ sosial islahatların aparılması, yaradilan yeni sosial mərkəzlərin sürətli fəaliyyəti sosial-ictimai təhlükəsizliyinin müdafiə olunmasına hesablanmışdır.

## РЕЗЮМЕ

Управление социальной и культурной деятельностью на основе принципов социального государства, создание новых областей социальных услуг в социальной сфере и формирование нового видения - одна из насущных проблем нашего времени. В соответствии с принципом самоуправления, простота и доступность социальных услуг для населения группы риска, ускоряет процесс социализации в обществе. Реализация инновационных социальных реформ, направленных на повышение социального благосостояния населения, быстрое функционирование новых социальных центров было призвано защитить социальное обеспечение.

## SUMMARY

Management of socio-cultural activities by social state principles, organization of new social services area in social sphere and forming a new approach to it is one of the urgent issues of nowadays. According to the self-management provision principle, accessibility and simplicity of social services provided to the population segment in risk category accelerates socialization procedure and its development in the society. Carrying out of innovative social reforms towards optimization of social welfare of population, rapid operability of newly established social centres have been designed to the protection of socio-cultural security.

# DÖVLƏT SİYASƏTİNİN İNKİŞAFINDA APARILAN SOSİAL İSLAHATLAR

***M.M.Abbasova f.ü.f.d.,***
***BDU-nun Sosioloji tədqiqatlar laboratoriyasının elmi işçisi***

***Açar sözlər***: sığorta, pensiya sistemi, investisiya, infrastruktur, bazar iqtisadiyyatı, sosial inkişaf prinsipləri, qanunvericilik, sosial sığorta, əmək pensiyası
***Ключевые слова***: страхование, пенсионная система, инвестиции, инфраструктура, рыночная экономика, принципы социального развития, законодательство, социальное страхование, трудовая пенсия
***Keywords***: insurance, pension system, investments, infrastructure, market economy, principles of social development, legislation, social insurance, labor pension.

Respublikamızda əhalinin sosial durumunun maddi vəziyyətinin yaxşılaşdırılması üçün daim müəyyən islahatlar həyata kecirilir. Respublikamızda aparılan sosial islahatların vacib istiqamətlərindən biri və ən esası pensiya sistemində aparılan islahatlardır.

Hazırda ölkəmizdə əmək pensiyaları sistemi çərçivəsində nəzərdə tutulmuş baza və sığorta hissələri müsbət nəticələrlə tədqiq olunsa da, əmək pensiyalarının qanunvericiliklə nəzərdə tutulmuş üçüncü elementinin - yığım hissəsinin fəallaşdırılması məqsədilə zəruri tədbirlərin həyata keçirilməsi gündəlikdə durur. Bununla yanaşı, pensiya münasibətlərinin könüllü pensiya sığortası və qeyri-dövlət pensiya təminatı kimi elementləri özündə cəmləşdirən islahat istiqamətinin reallaşdırılması ölkəmizin perspektiv sosial-iqtisadi tərəqqisində mühüm rol oynamalıdır.

Yeni sığorta-pensiya sisteminin fəaliyyəti üçün zəruri qanunvericilik bazası və müasir tələblərə cavab verən maddi-texniki baza yaradılsa da, sistemin işinin tam avtomatlaşdırılmış qaydada təşkili və onu çalışdıracaq kadr potensialının formalaşdırılması, eyni zamanda, fərdi uçotun və xüsusilə də sığorta olunanların məlumatlandırılması sisteminin inkişafı mühüm vəzifə olaraq qarşıda durur.

2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı (bundan sonra - Dövlət Proqramı) [1] qeyd olunan problemlərin kompleks həllinə yönəlmişdir və Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli 3043№li sərəncamı ilə təsdiq edilmiş, 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramında müəyyən olunmuş strateji məqsəd hədəf və göstəricilər nəzərə alınmaqla, ölkəmizdə sığorta-pensiya sistemində həyata keçirilən növbəti mərhələsini müəyyənləşdirir.

Azərbaycan Respublikasında bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olması və sosial iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələyə qədəm qoyması əhalinin maddi rifahının beynəlxalq standartlara uyğun mexanizmlər əsasında daha da yüksəldilməsinə şərait yaradır ki, bu da ölkənin iqtisadiyyatı ilə sosial həyatının bir-birinə bağlayacaq sığorta-pensiya sisteminin hərtərəfli inkişafını zəruri edir. Pensiya təminatında sığorta prinsiplərinin cücləndirilməsini və tədricən yığım komponentinin tətbiqinə keçidi nəzərdə tutmaqla, pensiya islahatlarının daha da dərinləşdirilməsi, aparılan islahatlar nəticəsində qurulmuş yeni sığorta pensiya sisteminin dayanıqlı və dinamik inkişafa nail olunması, bu zəmində vətəndaşların pensiya təminatının daha da təkmilləşdirilməsi dövlət proqramının əsas məqsədini təşkil edir.

Dövlət Proqraminin inkişafinda nəzərdə tutulan bir nece əsas vəzifələri vardir .Bunlardan aşağıdakılara diqqət yetirmək lazımdır:

- sığorta-pensiya sisteminin fəaliyyətində sığorta prinsiplərinin gücləndirilməsi və qeyri-sığorta xarakterli ödəmələçrn tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi;
- vətəndaşların 2006-cı il yanvarın 1-dən əvvəlki dövrdə qazanılmış pensiya hüquqlarının yeni əmək pensiyaları sisteminə daha sıx inteqrasiyasının təmin edilməsi;
- məcburi dövlət sosial sığortasının təkmilləşdirilməsi və könüllü pensiya sığortasının inkişaf etdirilməsi;
- əmək pensiyalarının yığım komponentinin fəallaşdırılması və qeyri-dövlət pensiya institutlarının formalaşdırılması və inkişaf etdirilməsi;
- bütövlükdə sığorta pensiya sisteminin cari ödəmə qabiliyyətinin, habelə orta və uzun müddətli maliyyə dayanıqlığının təmin edilməsi;
- sığorta-pensiya sisteminin fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqinə nail olunması, idarəetmənin tam avtomatlaşdırılması və fərdi uçot sisteminin əhatəli inkişafının təmin olunması.

Müəyyən edilmiş məqsəd və vəzifələrə uyğun olaraq Dövlət Proqramında 2009-2015-ci illərdə sığorta-pensiya sisteminin inkişafı aşağıdakı başlıca istiqamətlərdə aparılmışdır.

1. Sığorta-pensiya sisteminin fəaliyyət nin aktuar modellər əsasında təkmilləşdirilməsi. Sığorta-pensiya sisteminin perspektiv inkişafı istiqamətlərinin müəyyənləşdirilməsi aktuar hesablamalar əsasında proqnozlaşdırma işinin düzgün təşkilindən birbaşa asılıdır.

Bunun üçün makro-iqtisadi, demoqrafik və bilavasitə sistemin fəaliyyətini xarakterizə edən göstəricilərin dəyişməsinin əlaqəli şəkildə öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Xüsusilə sistemdəki bir sıra əlavə hüquq və imtiyazların dövri olaraq demoqrafik göstəricilərə uyğunlvşdırılması məqsədilə müvafiq mexanizmlərin tətbiqi təmin edilməlidir.

Yeni pensiya sisteminin tətbiqinədək təyin olunmuş pensiyaların sığorta olunanların əvvəlki sistemin fəaliyyəti dövründə qazanılmış pensiya hüquqlarının, qulluq stajına görə əlavələrin və sosial sığortaya əsaslanmayan digər ödənişlərin sistemin əlavə maliyyə yükünə çevrilməsi, dövlətin müəyyən etdiyi sosial hədəflərin həyata keçirilməsində zəruri olan dövlət büdcəsi transfertlərinin həcmi, məcburi dövlət sosial sığorta sistemində fərdi uçotun nəticəsi kimi gələcəkdə gözlənilən maliyyə tələbi, artan maliyyə tələbi ilə sosial sığortanın motivlərini uyğunsuzluğunun gözlənilməsi və digər problemlərin əlaqəli şəkildə öyrənilməsi, müvafiq təkliflərin göstərilən bütün amllər nəzərə alınmaqla hazırlanması mexanizmi qurulmalıdır.

Aktuar təhlillərin aparılması sahəsində beynəlxalq təcrübənin öyrənilməsinə, ayrı-ayrı mövzuların tədqiq olunması məqsədilə səriştəli beynəlxalq ekspert və məsləhətçilərin cəlb edilməsinə, inkişaf etmiş ölkələrin aktuar hesablamaların aparılması sahəsində təcrübəsinin Azərbaycanda daha sürətlə tətbiqinə xüsusi diqqət yönəldilməlidir.

2. Məcburi Dövlət sosial sığortası sahəsində fəaliyyətin təkmilləşdirilməsi. Azərbaycan respublikasında sığorta münasibətlərinə əsaslanan sığorta-pensiya sisteminin qurulması məcburi dövlət sosial sığortasının əhalinin sosial müdafiəsi sahəsindəki rolunu daha da artırmışdır. Mövcud sığorta-pensiya sisteminin dayanıqlı inkişafı məcburi dövlət sosial sığorta haqqları ilə sosial-sıorta ödənişləri arasında birbaşa əlaqənin təmin edilməsindən bilavasitə asılıdır. Eyni zamanda , artan maliyyə tələbi ilə sosial sığorta normativlərinin uyğunluğunun gözlənilməsi əsas vəzifələrdəndir.

Digər tərəfdən, işə götürən-işçi münasibətlərinin rəsmiləşdirilməsindən və əməyin ödənişinin təşkilindən mövcud olan problemlər qeyd olunan sahəyə öz mənfi təsirini göstərir ki, bu istiqamətdə müvafiq sağlamlaşdırma tədbirlərinin tətbiqi təmin olunmalıdır.

Məcburi dövlət sosial sığortası sahəsində fəaliyyətin təkmilləşdirilməsinin və bu sahədə şəffaflığın artırılmasının əsas istiqəamətlərindən biri kimi məcburi dövlət sosial sığorta haqqları hesabına ödənilən müavinətlərin təyin olunmasının və uçotunun avtomatlaşdırılması təmin edilməlidir.

3. Əmək pensiyası təminatının təkmilləşdirilməsi. Azərbaycanda beynəlxalq normalara uyğun təşkil olunmuş əmək pensiyaları sistemi fəaliyyət göstərir. Bu sistemdə pensiyaların məbləğinə təsir edən əsas göstəricilər kimi vətəndaşların fərdi şəxsi hesablarında əks olunan vəsaitlər və gözlənilən pensiya ödənişi müddəti nəzərdə tutulur. Sistemdəki bir sıra əlavə hüquq və imtiyazların da bu göstəricilər əsasında tənzimlənməsinin alternativ mexanizmlərinin müəyyənləşdirilməsi onun təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Bununla yanaşı yeni pensiya sistemnin fəaliyyətə başlamasından əvvəlki dövrdə qazanılmış pensiya hüquqlarının qiymətləndirilməsinin təkmilləşdirilməsi, pensiya təyinatının avtomatlaşdırılması, xarici ölkələrdə əmək miqrantları kimi fəaliyyət göstərən Azərbaycan Respublikası vətəndaşlarının gələcək pensiya təminatı üzrə müvafiq ölkələrlə sazişlərin hazırlanması və digər istiqamətlərdə tədbirlərin görülməsi təmin olunmalıdır. Eyni zamanda, yeni pensiya sisteminin fəaliyyətə başlamasından əvvəl və sonra pensiyaya çıxmış şəxslərin pensiya məbləğləri arasındakı fərqlərin tədricən aradan qaldırılması tədbirləri davam etdirilməlidir.

Bütün bunlarla yanaşı, əmək pensiyalarının mütərəqqi üsullarla ödənilməsi sisteminin daha da genişləndirilməsi mühüm məqsədlərdəndir. Bunun üçün pensiyaların plastik kartlarla bankomatlar vasitəsilə ödənilməsi sisteminin daim təkmilləşdirilməsi davam etdirilməli, bankomat və post terminallarla təchizat gücləndirilməli, ödənişlərdə çoxfunksiyalı çip kartlardan istifadə təmin olunmalı, ucqar kəndlərdə ödənişin mütərəqqi üsullarla aparılması üzrə müxtəlif ölkələrin təcrübəsi öyrənilərək tətbiq edilməlidir.

4. Dövlət sosial sığorta simtemində fərdi uçot. Dövlət sosial sığorta sistemində fərdi uçotun inkişafı və tətbiqi məqsədilə ötən dövr ərzində mühüm vəzifələr yerinə yetirilmişdir. Bu sahədə normativ-hüquqi bazanın yaradılması, zəruri infrastrukturun qurulması, qeydiyyatdakı bütün sığorta olunanlara fərdi şəxsi hesab açılaraq sığorta şəhadətnamələrinin paylanması təmin edilmişdir.

Perspektivdə sığorta olunanlara dair illik hesabatların qəbulu və müvafiq məlumatların fərdi şəxsi hesablarda əks etdirilməsi, bu məlumatların sığorta olunanlara çatdırılması mühüm vəzifələrdəndir. Bunun üçün sığorta olunanların fərdi məlumatlarının qorunması mexanizmlərin müəyyənləşdirilməli və hər bir sığorta olunan üzrə məlumatların təqdim edilməsində işə götürənlərin məsuliyyəti daha da artırılmalıdır.

Ölkədə yeni sığorta-pensiya siteminin tətbiqindən əvvəl sığorta olunanların qazanılmış əmək pensiyası hüquqları üzrə göstəricilərin fərdi şəxsi hesablara işlənilməsi təmin edilməlidir. Sığorta olunanların əvvəllər qazanılmış pensiya hüquqlarını müəyyənləşdirilməsinin yeni pensiya sisteminə uyğun şəkildə həyata keçirilməsi göstərilən istiqsmətdə işlərin sürətləndirilməsinə imkan verəcəkdir.

Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondunun sığorta olunanların fərdi uçotu üzrə regional mərkəzlərinin yaradılması və fondun fəaliyyətinin avtomatlaşdırılması başa çatdırılmalıdır [2].

5. Sığorta-pensiya sistemində yığım komponentinin tətbiqi. Əmək pensiyaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyi baza, sığorta və yığım hissələrindən ibarət olmaqla üçpilləli pensiya təminatını nəzərdə tutur. Ölkədə qurulmuş yeni sığorta-pensiya sistemi çərçivəsində əmək pensiyalarının baza və sığorta hissələrinin təyini və artırılması mexanizmləri uğurla tətbiq edilmişdir. Əmək pensiyalarının qanunvericiliklə müəyyən olunmuş üçüncü pilləsini, yəni yığım hissəsinin də tətbiqi qarşıda duran mühüm vəzifələrdəndir.

Sığorta-pensiya sistemində yığım komponentinin tətbiqi daha mürəkkəb mərhələ olmaqla, ölkədə investisiya mühitindən, maliyyə və qiymətli kağızlar bazarının inkişafvndan və sığorta pensiya sistemindən kənar digər amillərdən çox asılıdır.

Bunun üçün beynəlxalq təcrübə öyrənilməklə, əvvəlcə sosial sığorta haqqlarının fərdi hesabın yığım hissəsinə (fərdi yığım hesablarına) yönəldilməsi mexanizmləri və həmin

vəsaitlərin idarə olunması qaydaları düzgün müəyyən edilməli, bundan sonra sosial sığorta haqqlarının fərdi yığım hesablarına toplanmasına başlanılmalıdır.

Fərdi yığım hesablarında toplanan vəsaitlərin istifadə qaydalarını, idarəedici şirkətlərə olan tələbləri, həmçinin idarəedici şirkətlərin investisiya portfelinin sığortaolunanlar tərəfindən seçilməsi imkanını nəzərdə tutan normativ hüquqi baza yaradılmalıdır. Bundan sonra sosial sığorta haqqlarının fərdi yığım hesablarına toplanmasına, eləcə də həmin vəsaitlərin dövriyyəsindən əldə edilən gəlirlərin fərdi uçotuna başlanılması, habelə sosial sığorta haqqlarının fərdi yığım hesablarına toplanmasının stimullaşdırılması məqsədi ilə bir sıra əlavə mexmnizmlərin tətbiqi nəzərdə tutulur.

6. Qeyri-dövlət pensiya institutlarının inkişafı. Azərbaycanda qeyri-dövlət pensiya institutlarının formalaşdırılması və fəaliyyətinin inkişafı pensiyaçıların sosial müdafiəsi, eləcə də ölkədə maliyyə bazarının inkişafı baxımından çox əhəmiyyətlidir.

Bunun üçün vətəndaşlara əlavə pensiya təminatını nəzərdə tutan qeyri-dövlət pensiya fondlarının yaradılmasını və fəaliyyətini tənzimləyəcək qanunvericilik bazasının yaradılması vacibdir. Eyni zamanda, qeyri-dövlət pensiya fondlarının pensiya ehtiyatı vəsaitlərinin yerləşdirilməsi və yerləşdirilməsinə nəzarət qaydaları işlənib hazırlanmalı, qeyri-dövlət pensiyaların təyini, maliyyələşdirilməsi və ödənilməsi mexanizmləri müəyyən edilməlidir. Qeyri-dövlət pensiya fondlarının fəaliyyətini stimullaşdırmaq məqsədi ilə müxtəlif vasitələrlə yanaşı, onlar sığorta olunanların fərdi yığım hesablarında toplanan vəsaitlərin idarə olunmasında iştiraka cəlb edilə bilərlər.

Dövlət Proqramının həyata keçirilməsi üçün maliyyə mənbəyinin Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun büdcəsi və qanunvericiliyə uyğun digər mənbələr təşkil edir. Müasir dövrdə iqtisadiyyatın dövlət tənzimlənməsinin mühüm atributlarından biri də dövlətin sosial siyasətidir. Dövlətin sosial siyasəti isə əsasən əhalinin sosial müdafiəsi üzərində durur ki, onun da əsas istiqaməti əhalinin sosial müdafiəsini təmin etmək, dövlət təminta vasitəsilə əhalinin həyat səviyyəsindəki gərginlik meylldərinin aradan qaldırılmasından ibarətdir. Ölkə iqtisadiyyatında baş verən dəyişikliklərə tam uyğun olaraq sosialinfrastrukturun tənzimlənməsindən dövlətin rolu və funksiyası daha da genişləqndirilməlidir. Belə ki, bazar iqtisadiyyatına keçid respublikamızda sosial infrastrukturun sahələrinin səmərəli inkişafına geniş imkanlar yaratmışdır. Deməli, respublikanın hər bir konkret regionunda əhalinin sosial müdafiəsi real vəziyyətdən asılı olaraq düzgün müəyyənləşdirilməlidir. Belə ki, respublikada sosial infrastrukturun formalaşdırılması və inkişafı dövlətin apardığı sosial siyasət tam uyğun olaraq tənzimlənməlidir.

Göstərmək lazımdır ki, sosial infrastrukturun formalaşdırılması istiqamətində ən mühüm vəzifə hər bir regionda istehsal strukturunun bazar iqtisadiyyatı tələbləri əsasında təkmiloləşdirilməsidir. Respublikada əhalinin məşğulluq səviyyəsi, sıxlığı, cinsi, tərkibi, əhalinin həyat səviyyəsi, milli etnik xarakterli amillər sosial siyasətdə və infrastrukturun formalaşmasında nəzərə alınmalıdır. Qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrdə sosial infrastruktur sahələrinin yüksək inkişafını nəzərdə tutmaqla, eyni zamanda sosial yönümlü bazar iqtisadiyyatı modelinə daha çox üstünlük verilir. Bazar münasibətləri şəraitində sosial infrastruktur sahələrinin inkişafı, xüsusilə onun maliyyələşdirilməsi əsasən dövlət büdcəsi hesabına həyata keçirilir [3; 4; 5].

Məlumdur ki, geniş investisiya axınının əsas məqsədi lazımi mənfəət əldə etməklə yanaşı, əhalinin sosial vəziyyətini getdikcə yaxşılaşdırmaqdan ibarətdir. Məhz buna görə də respublikamızda investisiya qoyuluşlarının sosial yönümünü gücləndirmək lazımdır. Bu baxımdan xarici investorların fəaiyyəti nəticəsində strateji əhəmiyyət kəsb edən sahələrin xüsusilə, neft, qaz, kimya sənayesi sahələrinin sürətli inkişafının təmin etməklə yanaşı, həm də müvafiq sosial infrastrukturun formalaşdırılmasını da təşkil etmək lazımdır.

Müharibə zonası rayonlarında təsərrüfat fəaliyyəti dayandırılmış və sosial infrastruktur tamamilə dağılmışdır. Məlum olduğu kimi, respublikamızın 20% torpağının müvəqqəti olsa da erməni işğalçıları tərəfindən zəbt edilmişdir. Odur ki, hazırda Azərbaycanda öz doğma ata-baba yurdlarından zorla qovulan qaçqınların sayı milyondan çoxdur. Məhz buna görə də müasir müstəqillik şəraitində respublikada və xüsusilə onun tərkib hissəsi olan Dağlıq Qarabağ regionunda sosial infrastrukturun formalaşmasına və inkişafına böyük investisiya qoyuluşları tələb edilir.

Digər tərəfdən respublikada sosial infrastruktur sahələrinin inkişafı zəifləməklə, bu mühüm sahədə çalışanların sayı xeyli azalmışdır. Belə bir vəziyyət kənd yerlərində xüsusilə nəzəri cəlb edir. Belə ki, kənd və rayonlarda təhsil, səhiyyə, mədəniyyət və incəsənət sahələrində çalışan ixtisaslı mütəxəssislər çatışmır. Bunun nəticəsində bu mühüm sahələrdə çalışanların əksəriyyəti qeyri ixtisas sahiblərindən ibarətdir. Buna görə də ictimai tələbatla bağlı olan səhiyyə və təhsilin dövlət tərəfindən tənzimlənməsi zərurətə çevrilir. Onu da əlavə etmək lazımdır ki, hələ keçmiş ittifaqın mərkəzləşdirilmiş planlaşdırılması nəticəsində respublikanın daxili regionlarında sosial infrastruktur sahələri geniş inkişaf etməklə, bir birindən son dərəcə kəskin surətdə fərqlənirlər. Bu da investisiya qoyuluşlarına olan tələbatın artmasına səbəb olur.

Bazar iqtisadiyyatı hər bir ərazidə sosial-infrastruktur sahələrinin səmərəli inkişafına geniş imkanlar yaratmalıdır. Belə ki, hər bir konkret regionda əhalinin sosial müdafiəsi real vəziyyətdən asılı olaraq düzgün müəyyənləşdirilməlidir. Bu mürəkkəb və çoxcəhətli vəziyyəti tənzimləmək üçün makro və mikro səviyyələrdən asılı olaraq sosial infrastrukturun formalaşdırılması tamamilə yeni prinsiplərə əsaslandırılmalıdır. Ən başlıca prinsiplərdən biri əhalinin milli xüsusiyyətinin, təbii iqlims şəraitinin, sosial-iqtisadi inkişafın mövcud səviyyəsi hesab edilir.

Cəmiyyət miqyasında sosial infrastrukturun tərkib hissəsi hesab edilən sahələrin, xüsusilə, təhsilin, səhiyyənin və digər ictimai əhəmiyyəti yüksək olan sosial sferaların inkişafı dövlət büdcəsindən maliyyələşdirlməli və tənzilənməlidər. Beləliklə, iqtisadiyyatda baş verən köklü dəyişikliklər, tam uyğun olaraq hər bir sahə və regionlarda sosial inkişafın formalaşmasında və tənzimlənməsində dövlətin rolu və funksiyası daha da gücləndirilməlidir. Deməli, ölkədə bazar iqtisadiyyatının formalaşması, xüsusilə iqtisadiyyatın strateji sahələrində nəzərdə tutulan xarici investisiyalardan əldə edilən gəlirlərdən sosial infrastrukturun kompleks inkişafını təmin etmək üçün də istifadə edilməlidir.

Bütün bunlar onu göstərir ki, ölkəmizdə iqtisadi inkişaf sosial sahəyə bilavasitə əhəmiyyətli təsir göstərir. Bu mənada Azərbaycanda iqtisadiyyatda həyata keçirilən siyasət özünü qabarıq şəkildə sosialyönüsmlülük faktorunu ön plana çəkir, yəni Dövlət büdcəsi müzakirə edilib təsdiq edilərkən sosial yönümlülük prioritet olaraq qalır.

Azərbaycanda sosial uğurların əldə edilməsində sığorta-pensiya sistemində həyata keçirilən köklü islahatlarda mühüm rol oynayır. Hazırda Azərbaycanın beynəlxalq standartlara cavab verən müasir sığorta-pensiya modeli formalaşmışdır. Bu model hazırda dünyada mövcud olan sığorta - pensiya təminatı sisteminin ən mütərəqqi elementlərini özündə birləşdirir.

Belə ki, ödənilmiş məcburi dövlət sosial sığorta haqqlarının fərdi uçotu qurulmaqla vətəndaşların pensiya hüquqlarının həmin uçotun məlumatları əsasında müəyyənləşdirilməsi və beləliklə, pensiya təminatında sığorta prinsiplərinə keçid təmin edilmişdir.

Sistemdə ölkə iqtisadiyyatının inkişafına uyğun əmək haqqı fondu, bundan formalaşan sosial sığorta haqqları və həmin haqqlara görə təyin olunan pensiyalar həlqəsi qurulmuşdur ki, bu şəraitdən sosial sığortaya cəlb olunan əmək haqqlarının artımı pensiya artımlırını da şərtləndirir.

Bununla yanaşı uzunmüddətli dövr üçün pensiyaçıların etibarlı sosial müdafiəsinə nail olmaq məqsədilə milli peknsiya sisteminin inkişafında beynəlxalq tendensiyaların nəzərə alınması və pensiya təminatının daim yenilənən müasir tələblərə uyğunlaşdırılması zəruridir. Bu baxımdan ölkə prezidenti İlham Əliyevin imzaladığı 4 noyabr 2014-cü il sərəncamla təsdiq

olunun «2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası» mühüm əhəmiyyət kəsb edir [8]. Bu sənəd ölkəmizdə pensiya təminatı sisteminin formalaşmasında beynəlxalq inkişaf tendensiyalarının nəzərə alınması və pensiya təminatının daim yenilənən müasir tələblərə uyğunlaşdırılması, inkişaf etmiş ölkələrin bu sahədə təcrübəsindən istifadə edilməklə uzunmüddətli dövr üçün pensiyaçıların etibarlı sosial müdafiəsinə nail olması məqsədi daşıyır.

## ƏDƏBİYYAT


1. 2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı // http://www.e-qanun.az/framework/15995
2. Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondunun sığorta olunanların fərdi uçotu // http://www.e-qanun.az/
3. Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar dərin elmi əsaslara malikdir // https://www.economy.gov.az/article
4. Təhsil sahəsində aparılan islahatlar Azərbaycanın parlaq gələcəyinə hesablanıb // http://sesqazeti.az/news/interview/
5. İlham Əliyevin iqtisadi islahatları uzun müddət inkişafı təmin edəcək //https://modern.az/az/news
6. Sosial islahatlar: hədəflər və əldə olunan nəticələr // https://azadinform.az/
7. Kərimov İ. Azərbaycanda sosial rifahın və iqtisadi inkişafın təminatını cənab Prezidentin həyata keçirdiyi siyasi kurs təşkil edir // http://www.yap.org.az/az/view/
8. 2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası // https://president.az/articles/


## DÖVLƏT SİYASƏTİNİN İNKİŞAFINDA APARILAN SOSİAL İSLAHATLAR

***Abbasova M.***

### XÜLASƏ

Dövlət siyasəti sahəsindəki sosial islahatlar, dövlət sosial sığorta və pensiya siyasəti sahələrində təkliflərin hazırlanması və bu siyasətin həyata keçirilməsində iştirak, habelə hüquqi formasından və əmlakından asılı olmayaraq fiziki şəxslərin (sığortaçıların), sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin sığortası ilə əlaqədardır. Azərbaycan Respublikasının və ya xarici dövlətin qanunvericiliyinə uyğun olaraq yaradılmış hüquqi şəxslər. Sosial islahatlar hər bir nazirlik və idarənin səlahiyyətləri daxilində aparılır. Burada nəzarət icbari dövlət sosial sığortası, əmək pensiyaları və vəsaitlərin məqsədli şəkildə istifadəsi sahəsində qanunvericilik aktlarının icrasına nəzarəti həyata keçirir.

## СОЦИАЛЬНЫЕ РЕФОРМЫ В СФЕРЕ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ

***Аббасова М.***

### РЕЗЮМЕ

Социальные реформы в сфере государственной политики связаны с подготовкой предложений по направлениям государственного социального страхования и пенсионной политики и участие в реализации этой политики, а также страхованием физических лиц (страховщиков), лиц, занимающихся предпринимательской деятельностью, независимо от

их организационно-правовой формы и имущества, юридических лиц, созданных в соответствии с законодательством Азербайджанской Республики или иностранного государства. Социальные реформы осуществлятся в пределах полномочий каждого министерства и ведомства. Здесь провдится контроль контроль за исполнением законодательных актов в области общеобязательного государственного социального страхования, трудовых пенсий и использования средств по назначению.

## SOCIAL REFORMS IN PUBLIC POLICY

***Abbasova M.***

## SUMMARY

Social reforms in the field of public policy are related to the preparation of proposals in the areas of state social insurance and pension policy and participation in the implementation of this policy, as well as insurance of individuals (insurers), persons engaged in entrepreneurial activity, regardless of their legal form and property, legal entities established in accordance with the legislation of the Azerbaijan Republic or a foreign state. Social reforms are carried out within the powers of each ministry and department. Here, control is exercised control over the implementation of legislative acts in the field of compulsory state social insurance, labor pensions and the use of funds as intended.

# YAŞLILARLA SOSİAL IŞ

*Əliyev Rəcəbəli Hacıağa oğlu,*
*BDU-nun Sosioloji tdqiqatlar laboratoriyası, baş elmi işçi,*

***Açar sözlər***: yaçlılar, Azərbaycanda pensiya islahatı, sosial iş, sosial xidmət sistemi
***Keywords***: pensioners, pension reform in Azerbaijan, social work, social service system
***Ключевые слова***: пенсионеры, пенсионная реформа в Азербайджане, социальная работа, система социального обслуживания.

Yaşlılıq çağını hüquqi cəhətdən ölkədəki mövcud qanunlara əsasən təyin edilən pensiya yaş həddi ilə müəyyənləşdirilir.

Azərbaycanda sosial gerontoloji iş (yaşlılarla sosial iş) surətlə inkişaf edir.

Sosial gerontolji iş yaşlı insanların problemlərinin həll edilməsinə köməklik göstərilməsinə yönəlik tibbi-sosial, psixisosial və hüquqi-sosial tədbirlərin məcmusu kimi müəyyənləşdirilir. Sosial gerontoloji işdə müxtəlif profilli mütəxəssislər - tibb işçiləri, psixoloqlar, sosial işçilər, hüquqşünaslar fəal iştirak edirlər. Sosial gerontoloji iş mövcud üsul və vasitələrin yalnız nəzəri tərəflərinə əsaslanmır, eyni zamanda praktiki olaraq da onlardan istifadə edir. Bu vəzifəni həyata keçirmək bu sahədə çalışan professional tibb bacılarının, sosial işçilərin, psixoloq və psixoterapevtlərin, hüquqşünasların və könüllülük əsasında fəaliyyət göstərənlərin üzərinə düşür.

Ölkədə mövcud olan sosial gerentoloji iş Konstitusiya normalarına cavab verən normativ qanunvericilik sənədlərinə əsaslanır, onların təminatı isə beynəlxalq prinsiplərə cavab verən qanunvericilik əsasında həyata keçirilir.

Yaşlılarla iş aşağıdakı istiqamətlərdə aparılır:

~ tibbi sosial iş;
~ mənzil sosial işi;
~ hüquqi müdafiə.

Bu sahələrdən hər birində mütəxəssislər tərəfindən bir sıra texnologiyalardan istifadə edilir.

Sosial-psixoloji işin çoxsaylı texnologiyaları arasında sosial texnologiya daha çox öyrənilmişdir. Sosial xidmət (evdə, daimi yaşayış yerlərində və stasionar müəssisələrdə), müxtəlif növlü dövlət pensiya təminatı beləlerindəndir.

Yaşlı insanlara xidmət göstərən stasionar müəssisələrdə onlara geniş spektri əhatə edən tibbi və psixoloji xidmətlər təqdim edilir. Yaşlılarla tibbi-sosial iş məcburi tibbi sığorta çərcivəsində tibbi xidmət göstərilməsini həyata keçirir.

İnternat evlərində yaşayanlar səhhətlərinin vəziyyətinə görə qulluq ilə təmin edilirlər. Bunun üçün tibbi sosial ekspertiza təşkil edilir, tibbi-sosial ekspertiza mütəxəssisinin işləyib hazırladığı proqrama əsasən fərdi reabilitasiya tədbirləri aparılır. Stasionar müəssisənin administrasiyası yaşayış yerlərində ümumistifadə sanitar gigiyenik tələbatların təmin edilməsinə, ərzağın keyfiyyətinə nəzarəti həyata keçirir.

Psixososial yardım sistemində psixoloji konsultasiya və psixoterapiya əsas yer tutur.

Psixoloji konsultasiyanın aşağıdakı növlərindən istifadə edilə bilər: (1) -psixoloji konsultasiya - qocalığın qəbul edilməsinə və yeni həyat oriyentirlərinin axtarılmasına köməklik göstərilməsi: (2) psixoloji ailə konsultasiyası - yaşlı insanın sosial statusunun və ailə üzvlərindən hər birinin rolunun müəyyənləşdirilməsi məqsədilə yaşlı insanla yanaşı onun ailəsi ilə də işləməyi nəzərdə tutur: (3) profopuentasionar psixoloji konsultasiya - pensiyaya çıxdıqdan sonra professional qaydada özünü təyinetmə məsələləri üzrə konsultasiya: (4) fərdi psixoloji konsultasiya - qocalıq haqqında, qocalıq davranışlarının müxtəlif variantları haqqında biliklərin ötürülməsi ilə yanaşı, xüsusi situasiyalarda, (məsələn yaxının itirilməsi kimi məsələlərlə bağlı vəziyyətlərdə) konsultasiyanı da nəzərdə tutur.

Gerontoloji işdə psixo-terapevtik metodlardan aktiv şəkildə istifadə edilə bilər. Bu metodların arasında bioqrafik metod, xatirə-terapiya, art terapiya, kino terapiya, musiqi terapiyası, əmək terapiyası daha çox yayılmışdır.

Sosial-gerontoloji işin əsas istiqaməti yaşlı insanların hüquqi-sosial cəhətdən müdafiəsidir. Yaşlı vətəndaşların Azərbaycan vətəndaşı kimi yaşamaq, sosial təminat, informasiya almaq və öz hüquqlarını müdafiə etmək haqlarına sahibdirlər. Sosial müdafiə müəssisəsinin hüquqşünasları, sosial işçiləri mövcud hüquq normaları və onların realizasiyası vasitələri haqqında öz müştərilərini məlumatlandırmalıdırlar.

Konstitusiya hər bir kəsə hüquq və azadlıqlarının dövlət tərəfindən müdafiə olunması zəmanətini verir.

Bu zəmanət hər bir vətəndaşa Konstitusiya tərəfindən verilən hüquqi yardım ala bilmək haqqı ilə sıx surətdə bağlıdır.

Sosial-gerontoloji iş elə qurulmalıdır ki, yardım prosesi zamanı yaşlı insanın bərabər rola malik, fəaliyyət göstərən bir subyekt kimi qəbul edilməsinə xidmət etsin. Kliyentə aşılamaq lazımdır ki, məhz onun zəngin həyat təcrübəsi, müdrikliyi problemin həll edilməsinə kömək edən aparıcı vasitədir.

Pensiyaçılarla sosial iş necə həyata keçirilir?

Vətəndaşların pensiya təminatı dövlətin sosial təminatı sisteminə daxildir və Rusiyanın geniş əhali kütləsini əhatə edir. Aparılan tədqiqatlara əsasən Rusiya pensiyaçılarının hər beş nəfərindən biri işləyən pensiyaçıdır. Rusiyada onların ümuni sayı təqribən 8 milyona yaxındır. Pensiyaçıların dövlət sosial təminatı sisteminə pensiya təminatı, dövlət sosial yardımı və sosial xidməti daxildir.

Pensiyaçılar arasında əmək pensiyası hüququ olanlar (qocalığa görə, əlilliyə görə, ailə başçısının itirilməsinə görə əmək pensiyaları) və dövlət pensiya təminatının təyin etdiyi pensiya hüququ olanlar (qocalığa görə, siyasi, əlilliyə görə, xidməti müddətinə görə dövlət pensiyaları cə sosial pensiya) fərqləndirilir.

Pensiyaçılarla sosial iş aşağıdakı istiqamətləri əhatə edir:

~ pensiyaların təyin edilməsi, ödənilməsi, yenidən hesablanması və çatdırılması üzrə pensiya təminatı orqanlarının işlərinin təşkil edilməsi

~ əhalinin sosial müdafiəsi müəssisələrinin işinin sosial imtiyazlar, sosial xidmət, subsidiya və digər sosial yardım növləri üzrə təşkil edilməsi.

Yaşayış yerlərində pensiyaçılarla pensiya təminatı ilə bağlı məsələlər üzrə sosial işi RF-nın pensiya fondunun ərazi orqanları həyata keçirir. Pensiya təminatı məsələsinə ərizə vasitəsilə baxılır. Bunun üçün pensiya hüququ olan hər bir vətəndaş müstəqil şəkildə və ya özünün rəsmi nümayəndəsi vasitəsilə ərizə ilə müraciət etməlidir. RF-nin pensiya fondunun ərazi orqanlarında sənədlərin qəbulu və pensiyaların təyin edilməsi şöbəsinin mütəxəssisləri qəbul günləri keçirirlər.

Pensiya təminatı növləri arasında qocalığa görə əmək pensiyası daha geniş yayılmışdır.

Pensiyanın təyin edilməsi haqqında ərizəyə digər bütün lazımi sənədlərlə birlikdə 10 gün ərzində baxılır və qərar qəbul edilir. Ərizəçi lazımi sənədləri əksik təqdim etdiyi təqdirdə ona əlavə daha hansı sənədləri təqdim etməli olduğu barədə izahat verilir və 3 ay müddət qoyulur. Belə hallarda müraciət ərizənin verildiyi tarix müraciət günü kimi qəbul edilir. Vətəndaş pensiya orqanlarına həm poçtla, həm də qanuni nümayəndəsi vasitəsilə müraciət edə bilər.

Hər dəfə cari ayın pensiyası şəxsi hesaba köçürülməklə və çatdırılma yolu ilə ödənilir. Pensiyaçıların müdafiəsi və onların pensiya hüquqlarının təmin edilməsi məqsədilə pensiya şəxsən pensiyaçının özünə və ya notarial qaydada verilmiş etibarnamə təqdim edilməklə onun etimad etdiyi şəxsə təqdim edilir.

Azadlıqdan məhrum edilmiş məhkumlar arasında pensiya hüququ olan vətəndaşlar cəzalarını çəkdikləri müəssisənin yerləşdiyi bölgənin pensiya orqanına cəza müəssisəsinin

administrasiyası vasitəsilə müraciət etmək hüququna malikdirlər. Pensiya məhkumun şəxsi hesabına köçürülür və buradan dövlətin onun saxlanması üçün çəkdiyi xərclərin məbləği çıxılır. İslah müəssisəsindən çıxarkən həmin şəxs çıxılan və xərclənən vəsaitdən başqa pensiyanın qalan hissəsini bütünlüklə alır.

Psixiatriya müəssisəsində yerləşən pensiyaçıların pensiyası həmin müəssisənin ayrıca açılmış hesabına köçürülür. Pensiya məbləği müəssisənin rəhbəri tərəfindən yaradılmış və həmin rəhbərin sədrliyi ilə keçirilən komissiyanın çıxarmış olduğu qərara müvafiq qaydada pensiyaçının şəxsi ehtiyacları üçün istifadə edilir.

Pensiyaçılara aşağıdakı formada dövlət sosial yardımı göstərilir: sosial xidmət (sosial paket) və ya pul ödənişləri və natural kömək. Sosial xidmət paketinə şəhərkənarı dəmiryol nəqliyyatından və müalicə yerinə gedib-gəliş üçün şəhərlərarası nəqliyyatdan pulsuz istifadə, əlavə pulsuz tibbi yardım, həkimin (feldşerin) resepti əsasında lazımı dərman preparatları, tibbi ləvazimatlarla təminetmə, tibbi göstəricilər əsasında sanatoriya-kurort müəssisələrinə göndərişlə təminetmə daxildir.

Pensionerin sosial paketdən imtina etmək haqqı var. Bunun üçün hər il oktyabrın 1-nə kimi RF-nin Pensiya Fondunun ərazi orqanına ərizə verilməlidir. Ərizə verildikdən sonra növbəti ildən hər ay pensiyaçıya sosial paketin müntəzəm olaraq indeksləşdirilən dəyəri ödənilir. Hal-hazırda sosial paketin dəyəri 540 rubldur.

Yaşlı vətəndaşlar və əlillər, çətin həyat şəraitinə düşənlər, tənha ər-arvad cütlüklərinin kompleks yardıma - tibbi, psixoloji, sosial, hüquqi yardıma ehtiyacları var. Vətəndaşların müstəqil surətdə və ya qanuni nümayəndə vasitəsilə yaşayış yeri üzrə əhalinin sosial müdafiəsi müəssisələrinə müraciət etmək və lazımi sənədləri: ərizə, pensiya vəsiqəsi, əlillik haqqında arayış (əlillər üçün), pensiyanın məbləği haqqında arayış təqdim etmək hüququ vardır. Ərizəyə 10 gün müddətində baxılır.

Evlərdə sosial xidmət forması daha geniş yayılmışdır. Sosial işçinin vəzifəsi himayəsində olan vətəndaşı həftədə 2-3 dəfə ziyarət etmək və göstəriləcək sosial xidmətlər siyahısına müvafiq qaydada ona sosial-məişət xidməti göstərməkdir. Sosial xidmət pensiyaçının və ya onun qanuni nümayəndəsinin şəxsi razılığı əsasında daimi və ya müvəqqəti xarakterli ola bilər. Sosial işçilər öz fəaliyyətlərini qanunvericiliyə müvafiq qaydada, kliyentin maraqları çərçivəsində həyata keçirirlər.

60 yaşına çatmış kişilər, 55 yaşına çatmış qadınlar, 18 yaşdan yuxarı 1-ci və 2-ci qrup əlillər qanunla onları saxlamağa borclu olan əməkqabiliyyətli qohumları olmadığı təqdirdə sosial xidmətin stasionar müəssisələrində (internat evlərdə) yaşamaq hüququna malikdirlər. İnternat-evə qəbul edilmək üçün aşağıdakı sənədlər təqdim edilməlidir: şəxsi ərizə, yerli sosial müdafiə orqanı tərəfindən verilən göndəriş, tibbi kart, pensiya vəsiqəsi və ya təyin edilmiş və ödənilən pensiyanın məbləği haqqında pensiya orqanının verdiyi arayış.

Vətəndaşların pulsuz hüquqi yardım ala bilmələri prosesi aşağıdakıların yerinə yetirilməsini nəzərdə tutur: 1) pensiyaçı yaşadığı yer üzrə sosial müdafiə orqanlarına yazılı müraciət etməlidir; 2) ailənin (və ya tənha yaşayan vətəndaşın) adambaşına düşən gəlirinin miqdarı haqqında arayışın alınması üçün sənədləri toplamalı və lazım gələrsə gəlirlər haqqında təqdim edilən məlumatların yoxlanılması kommisiyasında iştirak etməlidir. Pulsuz hüquqi yardımın təqdim edilməsi haqqında qərarın qəbul edilmə müddəti 10 gündən 1 ayadək müddəti əhatə edir.

ƏDƏBİYYAT

1. 2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı // http://www.e-qanun.az/framework/15995

2. Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondunun sığorta olunanların fərdi uçotu // http://www.e-qanun.az/

3. Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar dərin elmi əsaslara malikdir // https://www.economy.gov.az/article

4. Лященко, А.И. Организация и управление социальной работой в России: Учебное пособие /А.И. Лященко. – М.: Аспект-Пресс, 1997. – 233 с.

5. Медведева, Г.П. Этика социальной работы: Учебное пособие для студ. высш. учеб. заведений. – М.: ВЛАДОС, 2002. – 208 с.

6. Менеджмент социальной работы. – М.: 2001. – 260 с.

7. Павленок П.Д. Введению в профессию «социальная работа». – М.: 1998. – 340 с.

8. Пантелеева, Т.С. Экономические основы социальной работы: Учебное пособие для студ. высш. учебн. заведений /Т.С. Пантелеева, Г.А. Червякова – М.: ВЛАДОС, 2001. – 157 с.

9. Теория и методика социальной работы /Под ред. И.Г. Зайнышева. – М.: 1994. – 360 с.

10. Теория и методология социальной работы /Под ред. С.И. Григорьева. – М.: 1994. – 280 с.

11. Теория и практика социальной работы: отечественный и зарубежный опыт. – М.: 1993. – 340 с.

## YAŞLILARLA SOSİAL IŞ

***R.Əliyev***

## XÜLASƏ

Azərbaycan cəmiyyətinin modernləşməsində yaşlı vətəndaşların sosial problemlərinin həllinin vacib təsirli mexanizmlərindən biri də onların sosial xidmətlərinin təşkilidir. Sosial, o cümlədən sosial və tibbi, psixoloji və pedaqoji, sosial və hüquqi xidmətlərin və maddi yardımın göstərilməsi, çətin vəziyyətlərdə olan vətəndaşların sosial adaptasiya və reabilitasiyası üçün sosial xidmətlərin xüsusiyyətləri nəzərdən keçirilir. Stasionar və qeyri-stasionar sosial xidmət müəssisələri tərəfindən çətin sosial-iqtisadi vəziyyətin aradan qaldırılmasına kömək göstərilir. Dövlət tərfindən yaşlı insanların həyat keyfiyyətinin yaxşılaşdırılmasına, həyat tərzinin optimallaşdırılmasına və psixoloji yardım və sağlamlığın qorunması ilə əlaqəli müxtəlif problemlərin həllinə şərait yaradılır.

## СОЦИАЛЬНАЯ РАБОТА С ПОЖИЛЫМИ ЛЮДЬМИ

***Алиев Р.***

РЕЗЮМЕ

Одним из важнейших механизмов решения социальных проблем пожилых людей при модернизации азербайджанского общества является организация их социальных услуг. Рассматриваются особенности социальных услуг, в том числе социально-медицинские, психолого-педагогические, социально-правовые услуги и материальная помощь, а также социальная адаптация и реабилитация граждан в трудных ситуациях. Стационарные и нестационарные поставщики социальных услуг оказывают помощь в преодолении сложных социально-экономических ситуаций. Государство создает условия для улучшения качества жизни пожилых людей, оптимизации их образа жизни и решения различных вопросов, связанных с психологической поддержкой и здравоохранением.

## SOCIAL WORK WITH OLDER PEOPLE

***Aliev R.***

## SUMMARY

One of the most important mechanisms for solving the social problems of older people during the modernization of Azerbaijani society is the organization of their social services. The features of social services, including socio-medical, psychological, pedagogical, social and legal services and material assistance, as well as social adaptation and rehabilitation of citizens in difficult situations are considered. Stationary and non-stationary social service providers assist in overcoming complex socio-economic situations. The state creates conditions for improving the quality of life of older people, optimizing their lifestyle and addressing various issues related to psychological support and health care.

# İQTİSADİYYAT, İDARƏETMƏ VƏ POLİTOLOGİYA

## AZƏRBAYCANDA İQTİSADİYYATININ ŞAXƏLƏNDİRİLMƏSİNDƏ REGİONAL SAHİBKARLIĞIN ROLU

***Kutais Sarıyev***
***BDU-nun İqtisadiyyat və idarəetmə kafedrasının dosenti***

***Açar sözlər:*** sahibkarlıq strategiyası, sahibkarlığın konseptual əsasları, innovativ sahibkarlıq.
***Ключевые слова:*** предпринимательской стратегии, концептуальные основы предпринимательства, инноватического предпринимательства.
***Key words:*** business strategy, business conceptual framework innavation business.

Müasir dövrdə Azərbaycanda sahibkarlıq strategiyası dövlətin iqtisadi siyasətinin ana xəttini təşkil edir. Ölkədə sahibkarlıq strategiyasının əsası ümummili lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş və məqsədyönlü siyasət nəticəsində ölkədə bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan milli iqtisadiyyatın formalaşmasına yol açılmışdır. Ardıcıl surətdə həyata keçirilən iqtisadi islahatlar ölkədə sahibkarlığın davamlı inkişafına əlverişli zəmin yaratmışdır. Belə ki, bu islahatlar nəticəsində ölkədə sahibkarlıq fəaliyyətinin, o cümlədən sahibkarlığın inkişafına dövlət himayəsinin gücləndirilməsi, sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması, dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi, lisenziya verilən fəaliyyət növlərinin sayının optimallaşdırılması və bu kimi digər vacib məsələlərin tənzimlənməsi ilə əlaqədar mütərəqqi hüquqi-normativ baza, institusional və iqtisadi mexanizmlər yaradılmışdır. Ölkədə həyata keçirilmiş geniş miqyaslı iqtisadi islahatlar nəticəsində Azərbaycanda sahibkarlar təbəqəsi formalaşmışdır. Hazırda özəl sektorun ümumi daxili məhsulda payı 81,9 faiz, vergi daxilolmalarında 70,4 faiz və məşğulluqda 73,4 faiz təşkil edir (4, s.1).

Ölkədə sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin daim yaxşılaşdırılması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksək keyfiyyətli, rəqabət qabiliyyətli məhsulların istehsal edilməsi Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindəndir.

Bu sahədə həyata keçirilən dövlət siyasəti növbəti mərhələdə də biznes və sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, dövlət himayəsinin təkmilləşdirilməsinə, dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsinə, bazar iqtisadiyyatının tələblərinə uyğun yeni təsisatların yaradılmasına və onların səmərəli fəaliyyətinin təmin edilməsinə yönəldiləcəkdir.

Gələcək dövr üçün sahibkarlığının inkişafı sahəsində dövlət siyasətinin aşağıdakı prioritet istiqamətlər üzrə həyata keçirilməsi nəzərdə tutulur:

- Sahibkarlıq fəaliyyəti sahəsində dövlət tənzimlənməsinin səmərəliliyinin artırılması;
- Lisenziyalar və icazələr sisteminin daha da təkmilləşdirilməsi;
- Sahibkarlığın, xüsusilə regional sahibkarlığın maliyyə təminatının təkmilləşdirilməsi və alternativ maliyyə mənbələrinin aşkar olunması;
- Kiçik və orta sahibkarların maliyyələşmə imkanlarının daha da genişləndirilməsi;
- Yeni fəaliyyətə başlayan sahibkarlara dəstək göstərilməsi;
- Aparıcı sahələrdə sahibkarlığın inkişafına yönəldilmiş təşkilati – iqtisadi tədbirlərin əhatə dairəsinin genişləndirilməsi;
- Ölkənin ixrac potensialının artırılması məqsədilə rəqabətqabiliyyətli məhsulların istehsalına daha çox diqqət yetirilməsi və xarici bazarlarda onların mövqelərinin möhkəmləndirilməsi;
- Ölkədə innovativ sahibkarlığın inkişafının daha da genişləndirilməsi və bu sferaya dövlət tərəfindən maliyyə dəstəyi edilməsi;
- Sənaye istehsalı sahəsində sahibkarlıq fəaliyyətinin inkişafına daha çox diqqət yetirilməsi;

- Istehsal sahibkarlığının dəstəklənməsi məqsədilə dünya praktikasında tanınmış modellərdən istifadə olunması, xüsusilə sənaye parkları, sənaye məhəllələri, biznes-inkubatorlar və s. yaradılması işlərinin davam etdirilməsi;
- Kiçik və orta sahibkarlığın dəskətlənməsi məqsədilə təsərrüfat subyektləri arasında əlaqələrin genişləndirilməsi;
- Sahibkarlıq subyektlərinə əlverişli biznes mühitinin yaradılması və həmin imkanlardan istifadə olunması;
- Dövlət-sahibkar münasibətlərinin ardıcıl olaraq təkmilləşdirilməsi;
- Kiçik və orta sahibkarların ixrac imkanlarının genişləndirilməsi məqsədilə mütəmadi olaraq tədbirlərin keçirilməsinə diqqət yetirilməsi;
- Ölkədə sahibkarlığın məsləhət, informasiya təminatı və kadr hazırlığı sisteminin təkmilləşdirilməsi;
- Sahibkarlığın istehsal, bazar və sosial infrastruktur sisteminin yaxşılaşdırılması, o cümlədən, müasir bazar infrastruktunun (maliyyə, bank və sığorta sisteminin, lizinq, françayzinq kimi xidmətlərin) imkanlarından istifadə olunması (7, s. 8, 9, 10).

Yaxın perspektivdə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən sahibkarlığın inkişafına dövlət dəstəyi sahəsində həyata keçiriləcək prioritetlər aşağıdakılardan ibarətdir:
- Qeyri-neft sektorunun şaxələndirilməsi və onun potensialından səmərəli istifadə olunması;
- İqtisadiyyatın prioritet sahələrində sahibkarlığın inkişafına daha çox üstünlük verilməsi;
- Qeyri-neft ixracın şaxələndirilməsi və artırılması ilə bağlı tədbirlərə maliyyə dəstəyinin göstərilməsi;
- Respublikanın dağ və dağətəyi rayonlarında, sərhəd və cəbhə bölgələrində, məcburi köçkün qəsəbələrində fermerlərin güzəştli kreditlərə olan ehtiyacına daha çox diqqət yetirilməsi;
- Sahibkarlığın inkişafının stimullaşdırılması tədbirlərinin davam etdirilməsi.

Azərbaycanın uzunmüddətli dövrdə dayanıqlı və tarazlı inkişafının təmin olunmasında iqtisadiyyata yönəldilmiş investisiyaların xüsusi rolu vardır. Bu məqsədlə investisiya mühitinin yaxşılaşdırılması aşağıda qeyd olunan vəzifələrdən daha çox asılıdır:
- Mülkiyyətin formasından asılı olmayaraq bütün investorlar üçün daha əlverişli rəqabət mühitinin yaradılmasına:
- Azərbaycanda xarici investisiyaların cəlbediciliyinin artırılması;
- Xüsusi mülkiyyətə əsaslanan təsərrüfat subyektlərinin dövlət tərəfindən müdafiə olunması;
- Invesitisiya obyektlərinin seçimi və təhlili məqsədi ilə onların məlumatlandırılması sisteminin təkmilləşdirilməsi;
- Investisiyaların əsasən qeyri-neft sektorunun və regionların inkişafına yönəldilməsi;
- Dövlətin regional investisiya siyasətinin təkmilləşdirilməsi;
- Ölkədə dövlətin investisiya siyasətinin sosial istiqamətinin daha da gücləndirilməsi;
- Ölkənin iqtisadi təhlükəsizliyinin milli iqtisadi mənafelərə uyğunlaşdırılması;
- Texnologiyaların və nanotexnologiyaların inkişafına investisiyaların cəlb olunması;
- Elm tutumlu investisiyalarının genişləndirilməsi;
- Ölkədə yaradıcılacaq sənaye parklarına yönəldilən investisiyaların həcminin artrılması;

Qeyri-neft sektorunun inkişaf etdirilməsi Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafının təmin olunması istiqamətində dövlət siyasətinin əsas prioritetidir. Qeyri-neft sənayesi sahəsində həyata keçirilən şaxələndirmə tədbirləri, investisiya mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın inkişafı, bu sahə üzrə rəqabətqabiliyyətli yeni-sahələrini müəyyənləşdirilməsi, eləcə də xarici ticarətin strukturunun təkmilləşdirilməsi strateji istiqamətlərdən biridir. Aparılan təhlillər göstərir ki, son illərdə ölkə iqtisadiyyatında həyata keçirilən islahatlar və düşünülmüş iqtisadi siyasət nəticəsində qeyri-neft sənayesinin inkişafı və onun ixracının genişləndirilməsi sahəsində ciddi nailiyyətlər əldə edilmişdir. Bu inkişafın davamlılığının təmin edilməsi, dünya iqtisadiyyatına inteqrasiya prosesində ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin artırılması və

ölkənin uzunmüddətli inkişaf strategiyasına uyğun olaraq qeyri-neft sahələrinin daha da inkişaf etdirilməsi məqsədilə müvafiq tədbirlər sistemi davam etdirilir. Ölkənin qeyri-neft sənayesi üzrə dünya bazarında rəqabətqabiliyyətli yeni sahələrin inkişafı, həmçinin müqayisəli üstünlüklərə malik olan qeyri-neft sənayesi məhsullarının istehsalının stimullaşdırılması istiqamətində dövlət dəstəyi daha da gücləndirilir. Özəl sektorun iştirakı ilə son məhsul istehsalına qədər texnoloji zəncir qurulmalı və qeyri-neft sənayesinin ixrac potensialı gücləndirilməlidir.

"Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, enerjidən səmərəli istifadə edən, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi, elmtutumlu və innovativ istehsalın genişləndirilməsi və yeni istehsal sahələri üçün ixtisaslı kadrların hazırlanması xüsusi rola malikdir.

Sənaye siyasətinin əsas istiqamətləri kimi sənayenin rəqabət qabiliyyətinin artırılması və potensialının gücləndirilməsi, sənaye müəssisələrinin fəaliyyətinin dəstəklənməsi, sənaye zonaları və klasterlərinin qurulması və sənayenin kadr potensialının və elmi təminatının gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Sənayedə strateji struktur siyasətinin aparılması istehsalın texniki cəhətdən modernləşdirilməsinə, regionlararası təsərrüfat əlaqələrinin təkmilləşdirilməsinə və yeni sənaye komplekslərinin və sənaye klasterlərinin yaradılmasının stimullaşdırılmasına yönəldiləcəkdir. Eləcə də, struktur siyasəti çərçivəsində daxili bazarın tələbatını ödəyən və ixracı mümkün olan innovasiya əsaslı məhsul və texnologiyaların yaradılmasına üstünlük verilməlidir.

Gələcək dövrdə prioritet, dayanıqlı artım potensialına malik olan sahələrin inkişafının dövlət dəstəklənməsinə xüsusi diqqət yetirilməlidir. Onlara aşağıdakıları aid etmək olar:

- sənaye sahəsində qəbul edilən bütün proqram və konsepsiyalarda yüksək texnoloji və elmtutumlu istehsal sahələrinin inkişafının dəstəklənməsi;
- müəssisələrin texniki-texnoloji cəhətdən yenidən qurulması, müasir idarəetmə metodlarının tətbiqi ilə bağlı işlərin davam etdirilməsi;
- idxalı əvəz edəcək və ixrac yönümlü məhsulların istehsalının stimullaşdırılması;
- müqayisəli üstünlüyə malik olan və rəqabətədavamlı sənaye məhsulları istehsalının genişləndirilməsi;
- sənaye sahələrində fəaliyyət göstərən müəssisələrdə beynəlxalq standartların tətbiqinə nail olunması;
- sənaye klasterlərinin və müasir tipli sənaye komplekslərinin, sənaye parklarının, yaradılması hərtərəfli dəstəklənməsi;
- iqtisadi rayonlar üzrə sənaye infrastrukturunun genişləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi;
- investisiya-innovasiya proseslərinin yeni texnologiyalara tətbiqinin stimullaşdırılması;
- investisiya mənbələrinin müəyyənləşdirilməsi və səmərəliliyinin artırılması istiqamətində işlərin davam etdirilməsi;
- sənayenin inkişaf tempinin və əmək məhsuldarlığının yüksəldilməsinin prioritetliyinin təmin edilməsi.

Ölkə iqtisadiyyatının qeyri-neft sənayesinin əsas sahələrindən biri olan kimya sənayesinin inkişaf etdirilməsi və ortamüddətli dövrdə onun potensialından səmərəli istifadə olunması prioritet üstünlüyə malikdir. Bu baxımdan qarşıda vəzifələrə aşağıdakıları aid etmək olar:

- kimya sənayesinin sahə və ərazi strukturunun təkmilləşdirilməsi;
- Sumqayıt Kimya Sənaye Parkının fəaliyyətinin genişləndirilməsi istiqamətində işlərin davam etdirilməsi;
- istehsal olunan məhsulların çeşidinin təkmilləşdirilməsi;

- məhsul istehsalının həcminin artırılması, həmçinin fəaliyyətdə olan müəssisələrin yenidən qurulması;
- kimya sənayesi müəssisələrində enerji istehlakının azaldılması;

Bunlarla yanaşı, maşınqayırma sənayesinin inkişafının sürətləndirilməsi, istehsal olunan məhsulların xarici bazarlara çıxarılmasının və rəqabətədavamlılığının təmin edilməsi məqsədilə aşağıdakı kompleks tədbirlər həyata keçirilməsi nəzərdə tutulur:

- maşınqayırma sənayesinin müasir texnologiyalarla təmin edilməsi;
- bu sahəyə müasir sertifikatlaşdırma və standartlaşdırma qaydalarının tətbiq olunması;
- maşınqayırma sənayesinin ekoloji standartlaşma sisteminin tətbiq edilməsi;

elmi-texniki potensialdan səmərəli istifadənin təkmilləşdirilməsi (8, s. 8, 9, 10, 11, 12).

Qeyri-neft sektorunun və regionların sosial-iqtisadi inkişafının prioritet istiqamətləri bir neçə dövlət proqramlarında, o cümlədən "2008-2015-ci illər üzrə Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı"nda, "Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üzrə Dövlət Proqramı"nda, 2013-2016-cı illər üçün Dövlət İnvestisiya siyasətində, habelə "2009-2013-cü illər üçün "Azərbaycan Respublikası Regionalarının Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı"nda öz əksini tapmışdır. 2013-2016-cı illərdə ölkədə dövlətin investisiya siyasətinin ana xəttini aşağıdakı prioritetlər təşkil edir:

- investisiya axının qeyri-neft sektorunun və regionların inkişafına yönəldilməsinin stimullşadırılması;
- regionlar arasında investisiyaların bölüşdürülməsinin optimallaşdırılması (balanslaşdırılması);
- ölkədə inestisiya fəaliyyətini sosial istiqamətinin daha da gücləndirilməsi;
- insan kapitalına, infrastruktura qoyulan investisiyaların prioritetliyinin təmin olunması;
- dövlətin investisiya siyasətinin tam şəffaflığının təmin edilməsi;
- ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasına nəzarətin gücləndirilməsi və s.

Özəl investisiyalar sahəsində siyasətin əsas istiqamətlərinə aşağıdakıları aid etmək olar:

- Azərbaycan müəssisələrinin investisiya cəlbediciliyinin daha da artırılması məqsədilə mühüm tədbirlərin həyata keçirilməsi;
- müəssisələrin texniki cəhətdən yenidənqurulması məqsədilə müasir texnoloji avadanlığın Azərbaycana gətirilməsi üçün xarici ticarət rejiminin təkmilləşdirilməsi;
- daxili investisiyalarla yanaşı birbaşa xarici investisiyaların ixracyönümlü rəqabət qabiliyyətli məhsul istehsal edən sahələrə yönəldilməsinə xüsusi diqqət yetirilməsi;
- xidmət sahələrində birbaşa xarici inevstisiyaların dövlət tənzimləmə rejiminin daha da təkmilləşdirilməsi;

**2004 – 2018-ci illərdə ölkə iqtisadiyyatına yönəldilmiş investisiyalar (mln. AZN)**

| 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2014 | 2016 | 2018 | 2004-2018 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 4249,3 | 5820,3 | 6733,4 | 7415,6 | 10353,9 | 13328,0 | 10475,0 | 14118,9 | 17048,8 | 20250,7 | 120678,5 |
| 938,3 | 1324,0 | 2104,9 | 2901,4 | 4626,7 | 7702, | 6079,9 | 7499,2 | 10199,0 | 12148,0 | 58444,6 |
| 3311,0 | 4496,3 | 4628,5 | 4514,2 | 5727,2 | 5625,8 | 4395,1 | 6619,7 | 6849,8 | 8102,7 | |

2018-ci ilin yanvar-mart ayları ərzində ölkənin qeyri-neft sektorunda 6644,1 milyon manatlıq əlavə dəyər yaradılmış və ümumilikdə onun 56,5 %-dən çoxu sosial və digər xidmətlər, ticarət, nəqliyyat vasitələrinin təmiri və tikinti sahələrinin payına düşmüşdür.

2018-ci ildə ölkə iqtisadiyyatının qeyri-neft sektorunda yaradılan əlavə dəyər əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11,4% artmışdır. Qeyri-neft sektorunda yaradılan əlavə dəyərin ÜDM-də xüsusi çəkisi əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,6 % artaraq 51,3% təşkil etmişdir. Qeyri-neft sektorunun inkişafında əsasən etibarilə Sənayenin bir sıra sahələrini, tikinti, rabitə, turizm, turizm xidməti və digərlərini göstərmək olar.

O cümlədən, qeyri neft sənayesi üzrə məhsul istehsalında mədənçıxarma səanyesi 1,4%, emal sənayesi 63,9%, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təhcizatı, tullantıların tənzimlənməsi isə 2,8% xüsusi çəkiyə malikdir.

2018-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 2902,2 milyon manat vəsait yönəldilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əsas kapitala yönəldilmiş vəsaitin həcmi 36,1% artmışdır.

Azərbaycanda müstəqilliyin ilkin dövrlərdə ölkə daxili maliyyə ehtiyyatlarının məhdud olması səbəbləri ölkənin istehsal və sosial strukturunun yenidən qurulmasında beynəlxalq maliyyə təşkilatlarının geniş maliyyə imkanlarndan maksimum səviyyədə faydalanmaq üçün bu təşkilatlarla müttəfiqlik etmişdir.

Həmin beynəlxalq maliyyə təşkilatlar tərəfindən açılan kreditlər, bazar iqtisadiyyatını formalaşdırmaq üçün xüsusi maliyyə mənbələridir. Xarici kredit almaqla yanaşı Azərbaycana beynəlxalq təşkilatlar tərəfindən edilən yardımlar da önəmli dərəcədə olduqca faydalıdır. Bunların arasında, Avropa İttifaqı tərəfindən edilən yardımlar və kreditlər xüsusi yer tutur. Avropa Yenidənqurma və İnkişaf Bankı, Yaponiya Beynəlxalq iqtisadi Müttəfiqlik Fondu kimi digər beynəlxalq maliyyə təşkilatlarından kredit alınmasına baxmayaraq, alınan xarici kreditlərdə əsas üstünlüyü BVF və Dünya Bankından alınan kreditlər təşkil edir.

Beynəlxalq maliyyə institutlarının Azərbaucana etibarlı tərəfdaş kimi yanaşmaları bu ölkədə əlverişli investisiya mühütinin mövcud olması ilə əlaqədardır.

İnvestisiya mühitinə təsir edən amillər çoxsaylı və müxtəlif aspektlidir. İnvestisiya mühiti ölkənin sahə sahə və regionlarına səmərəli investisiya qoyuluşlarının həyata keçirilməsinə mühüm təsir göstərir.

Bu baxımdan, ölkəmizdə xarici investisiyaların əlverişli şərtlərlə cəlb edilməsinin perspektivləri aşağıdakılardır:

- infrastruktur sistemlərinin inkişafına yeni yanaşmaların optimallaşdırılması;
- idxalı əvəz edən məhsulların istehsalı üçün iqtisadi və institusional mühitin dəstəklənməsi;
- xarici investisiyaların əsas regionların tarazlı inkişafına yönəldilməsi;
- ixrac potensialının genişləndirilməsi üçün tədbirlər kompleksinin hazırlanması və həyata keçirlməsi.

İnvestisiya mühitinin mövcud olması xarici və daxili investisiyaların sərbəst olaraq hərəkətini təmin edir və ölkənin sosial iqtisadi inkişafında öz rolunu göstərir. Bununla yanaşı, əlverişli investisiya mühitinin yaranması investisiya haqqında qanunların sərbəst olaraq reallaşmasına və ölkənin investisiya strategiyasının normal sürətdə həyata keçməsinə şərait yaradır. Gələcəkdə əlverişli investisiya mühitinin yaranması birbaşa xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb olunmasını stimullaşdırır və investorlar arasında rəqabət mübarizəsini daha da gücləndirir.

Sahə və regionlar üzrə investisiya qoyuluşlarının səmərəliliyinin artmasında investorlar arasında baş verən rəqabət mühitinin müxtəlif formalarının tətbiq olunması mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2013-2015-ci illər) Dövlət Proqramında qeyri-neft sektorunun inkişaf etdirilməsinə dair aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur.

- Ölkənin təbii və əmək potensialından səmərəli istifadə etməklə qeyri-neft sektorunun sürətli inkişafının təmin edilməsi;
- Müasir tipli infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində investisiya qoyuluşlarının həyata keçirilməsi;
- Sahibkarlıq mühitinin yaxşılaşdırılması və onun formalarının daha da inkişaf etdirilməsi;
- Qeyri-neft sektoru sahələrinin inkişafının dövlət tərəfindən stimullaşdırılması;
- Lizinq sisteminin və onun müasir formalarının daha da genişləndirilməsi ;

- Dağ və dağətəyi regionlarda əhalinin məşğulluğunu təmin etmək məqsədilə yerli təbii, iqtisadi, əmək potensialını nəzərə almaqla istehsal təyinatlı müəssisələrin yaradılmasına investisiya qoyuluşunu artırmaq.

Göstərilən problemlərin vaxtında həll olunması güclü maliyyə bazası tələb edir. Bunu nəzərə alaraq 2015-2018-ci il dövlət büdcəsində həmin problemlərin həll olunmasına xeyli dərəcədə vəsait ayrılması nəzərdə tutulmuşdur. Belə ki, 2013-2016-cı illərdə dövlət investisiya proqramı çərçivəsində ölkə iqtisadiyyatına 32,7 mlrd manat vəsait qoyulacağı proqnozlaşdırılır.

2018-cİ ildə qeyri-neft sektorunun 11,7% növbəti 3 ildə isə orta hesabla 7% artacağı gözlənilir. Proqnozlaşdırılan dövrdə qeyri-neft sektorunun ÜDM-də payının 47,6%-dən 70,6%-ə qədər artacağı nəzərdə tutulur. Faktiki materialların təhlili gələcəkdə Azərbaycanın sosial-iqtisadi inkişafında qeyri-neft sektorunun rolunun daha da artırılmasının və investisiya qoyuluşlarından səmərəli istifadə olunmasını bir daha təsdiq edir.

## ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. Bakı şəhəri 27 fevral 2014-cü il. № 118.
2. İ.H.Əliyevin Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının birinci ilinin yekunlarına həsr olunmuş konfransda nitqi. 27 yanvar 2015-ci il.
3. "Azərbaycan 2020: gələcəyə baxış, inkişaf konsepsiyası" Azərbaycan qəzeti, 5 dekabr 2012-ci il.
4. Nazirlər Kabinetinin 2015-cü ilinin sosial-iqtisadi inkişafının yekunları və 2016-cı ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası 15 yanvar 2015-ci il.
5. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı. Dövlət Proqramı (2009-2013-ci illər). Bakı 2009.
6. A.M.Məhərrəmov. Sahibkarlıq: nəzəriyyə və praktika. Bakı, 2007.
7. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının layihəsi, 27 fevral 2014-cü il.
8. Azərbaycan Respublikasında Sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramının layihəsi 1 mart 2014-cü il.

## ПРИОРИТЕТНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ПРЕДПРИНИМАТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНЕ

*Кутаис Сарыев*

## РЕЗЮМЕ

В статье комментируются основные направления и современные формы проявления стратегии предпринимательства в Азербайджане. Далее уделяется большое внимание основным этапом развития формирования инновацинного предпринимательства. Особенно, в статье исследуются приоритетные направления развития отраслей промышленности. Наряди с этим, в статье анализируются факторы, влияющие на пропорциональное раз развитие регионального предпринимательства и их отличительные особенности.

## RIORITY DIRECTIONS OF DEVELOPMENT OF ENTREPRENEURSHIP IN AZERBAIJAN

*Kutaisi Saryev*

## SUMMARY

The article commented on the main directions and forms of modern business strategy in Azerbaijan. Then a lot of attention is paid to the main stage of the formation of innovative business. Especially, the article examines the priority directions of development of the branches of disobedience. Along with this, the article analyzes the factors that influence the development of regional proportional times of business and their distinctive features.

# MÜASIR DÖVRDƏ AQRAR SAHƏNİN İNKİŞAFINDA İNNOVASİYA POTENSİALINDAN İSTİFADƏ OLUNMASI

***Həsənova Pəri Əmirəhməd qızı***
***BDU-nun İqtisadiyyat və idarəetmə kafedrasının professoru***
**p.hasanova@gmail.com**

***Açar sözlər***: texnologiya, innovasiya, aqrar sahə, iqtisadi potensial, eroziya, torpaq tədqiqatları, innovasiya potensialı
***Keywords***: technology, innovation, agrarian field, economic potential, erosion, soil research, innovation potential
***Ключевые слова***: технология, инновация, аграрная сфера, экономический потенциал, эрозия, исследование почвы, инновационный потенциал.

Müasir dövrdə ölkə regionlarının hərtərəfli inkişafının təmin edilməsi dövlətimizin iqtisadi siyasətinin əsas məqsədlərindən biridir. Aqrar sahənin mövcud iqtisadi potensialından səmərəli istifadə edilməsi böyük əhəmiyyət kəsb edir. Ölkənin dayanıqlı iqtisadi inkişafına nail olunması vacibdir. Bunun üçün də aqrar sahənin inkişaf etdirilməsi aqrşıda duran prioritet məsələlərdən biridir. Bu sahənin başlıca vəzifəsi daxili bazarın təminatını təmin etmək, yüksək keyfiyyətli məhsul istehsalına nail olmaqdır. Həmçinin xarici bazarlara kənd təsərrüfatı məhsulları ixrac etməkdir.

Ölkənin dayanıqlı iqtisadi inkişafını təmin etmək üçün regionların davamlı inkişafına nail olunmaq əsas şərtdir. Regionların iqtisadi inkişafının təmin olunması aqrar sahənin inkişaf etdirilməsini tələb edir. Buna nail olmaq üçün kənd təsərrüfatı məhsullarının istehsalı üzrə mövcud potensialın qiymətləndirilməsi və ondan səmərəli istifadə olunması kimi məsələlər mühüm əhəmiyyət kəsb edir.

Müasir şəraitdə aqrar sahənin iqtisadi potensialından səmərəli istifadə olunmasında dövlət tənzimlənməsi vacibdir. Ölkədə aqrar sahə və kənd təsərrüfatı istehsalının dövlət tənzimlənməsi bir çox qanunvericilik aktları vasitəsilə həyata keçirilir. Müasir iqtisadi münasibətlər şəraitində aqrar sahənin tənzimlənməsinin özünəməxsusluğu sahibkarlıq subyektlərinin müstəqilliyi və onların fəaliyyətinin dövlət müstəqilliyi və onların fəaliyyətinin dövlət tənzimlənməsi ilə səciyyələnir. Aqrar sahə üzrə qəbul edilən qanunlar sahibkarlığın geniş vüsət almasına şərait yaradır.

Müasir kənd təsərrüfatı: suvarma, gübrələmə, toxumçuluq və s. müxtəlif üsullar istifadə etməklə yüksək məhsuldarlıq əldə etmək məqsədi daşıyır. Bu gün elmi texniki tərəqqi sayəsində kənd təsərrüfatı fəaliyyəti müxtəlif ərazilərdə və müxtəlif şərlərlə həyata keçə bilər. Müasir texnologiya sayəsində, genlərin kəsişməsi səbəbindən məhsulların müxtəlifliyi artmaqdadır ki, bu da kənd təsərrüfatı istehsalında artımın baş verdiyi, amillərdən biridir.

Aqrar sahə ölkələrinin inkişaf səviyyəsindən asılı olmayaraq dövlətlərin iqtisadi həyatında mühüm yer tutur. Kənd təsərrüfatı fəaliyyəti geniş miqyaslı və ixtisaslaşdırılmış kənd təsərrüfatı müəssisələri tərəfindən müasir kənd təsərrüfatı metodları ilə həyata keçirilmişdir.

Texnologiya dövrü olan müasir dövrdə ETT-nin yeniliklərindən istifadə olunur və gələcəkdə daha çox istifadə olunması zəruri şərtlərdən biridir.

Kənd təsərrüfatının bütün sahələrində modernləşmə və yeni texnologiyadan istifadə geniş yayılmaqdadır. Xüsusilə kommunikasiya texnologiyaları kənd təsərrüfatının bütün sahələrində geniş istifadə olunur. Yeni texnologiyaların tətbiqi həm İEÖ-lərdə, həm də İEOÖ-lərdə geniş yayılmışdır. Informasiya və kommunikasiya texnologiyalarında baş verən inkişaflar kənd təsərrüfatına və texnologiyalarına təsir göstərmişdir. Bunun nəticəsində ağıllı maşın və maşın sistemləri ilə nəticələnmişdir.

Müasir dövrdə geniş istifadə olunan texnoloji yeniliklərə: kənd təsərrüfatı istehsalına dair texnoloji mobil aplikasiyalar (proqramlar), ağıllı suvarma sistemləri, sensor əsaslı texnologiya tətbiqləri, robot tətbiqləri və sürücüsüz texnologiyalar, heyvandarlıq texnologiyaları və s. aid etmək olar.

Aqrar sahə istehsalının innovasiya yönümlü inkişafı bu sahədə sosial-iqtisadi məsələlərin həlli üçün zəruri şərtdir. Regionun inkişafı məhsuldar qüvvələrin və istehsal münasibətlərinin qarşılıqlı təsirindən bilavasitə asılıdır. Müasir iqtisadi aləmdə innovasiyalar müəssisə və təşkilatların sosial iqtisadi inkişaf perspektivlərini müəyyən edən əsas amillərdən biridir. Innovasiyalar istehsalın səmərəsini, məhsulun keyfiyyətini və sahənin rəqabət qabiliyyətliyini artırmağın maddi əsası kimi çıxış edir. Bununla əlaqədar müasir iqtisadiyyat getdikcə daha artıq dərəcədə innovasiyalı yeniliklərin işlənib hazırlanması və təkmilləşdirilməsi ilə əlaqədar xüsusiyyətlər kəsb etməlidir.

Aqrar sahədə innovasiyaların mənimsənilməsi asan proses deyildir və bu çox zəhmət, qabiliyyət və dəyanət tələb edir. Innovasiyaların kənd təsərrüfatında mənimsənilməsinə mənfi təsir edən amillər də vardır. Bunlara: ərzaq məhsullarına daxili tələbatın azalması; dövlətin innovasiyaya laqeydliliyi; innovasiya infrstrukturunun zəifliyi; maliyyələşmə səviyyəsinin zəif olması və s.

Azərbaycanın əlverişli təbii-iqlim şəraitinə malik olması tarixən burada kənd təsərrüfatının inkişafını şərtləndirmişdir. Hələ qədim dövrlərdən Azərbaycanda əkinçilik, maldarlıq, ipəkçilik, meyvəçilik, heyvandarlıq və s. kimi sahələrlə məşğul olurdular.

Müasir dövrdə isə ölkəmiz çoxşaxəli və daha da inkişaf etmiş kənd təsərrüfatına malikdir. Belə ki, son onilliklər ərzində Azərbaycanda müxtəlif bitkiçilik məhsulları istehsalı (taxıl, pambıq, tütün, üzüm, meyvə, tərəvəz və s.), həmçinin heyvandarlıq sahələri (maldarlıq, qoyunçuluq, quşçuluq, baramaçılıq, arıçılıq və s.) üzrə əsaslı inkişaf baş vermişdir.

Eyni zamanda ölkəmizdə yerli kənd təsərrüfatı xammalı əsasında ənənəvi olaraq fəaliyyət göstərən və müəyyən səviyyədə inkişaf etmiş emal sənayesi də mövcuddur. Belə ki, Azərbaycanda kənd təsərrüfartının emalı sənayesi meyvə-tərəvəz konservləri və şirələri, pivə, şərab məhsulları, çay, ət məmulatları, süd məhsulları, tomat, bitki yağları, taxıl məhsullarının emalı: unüyütmə, yarma və qarışıq yem, çörək və makaron məmulatları, pambıq, yun, barama və gön-dəri xammalarının ilkin emalı, fermetləşdirilmiş tütün istehsalı kimi sahələr sürətli inkişafdadır. Bunlarla yanaşı, qeyd etməliyik ki, bir sıra çox qiymətli efirli, yağlı ərzaq, parfümeriya və təbii rəngləyici məhsullar: qızılgül, zeytun, balqabaq tumu, zəfəran istehsalı, gülçülüyün inkişafı, onların istehsalı və emalı xeyli artırmaq üçün imkan vardır.

Qloballaşan iqtisadi münasibətlərin müasir dövründə keyfiyyət amilinin innovasiyanın infrastruktur obyektinə çevrilməsi təsadüfi deyildir. Əvvəla, innovasiya yeni texnika, texnologiya, yeni daha yüksək keyfiyyətdə məhsul istehsalına yol açır. Yeni məhsulun daxili və xarici bazarlar kimi satış infrastrukturunda mövqeyi genişlənir. Ərzaq məhsullarının keyfiyyəti insanların sağlamlığı ilə bir başa əlaqədar olduğu üçün keyfiyyət dövlət nəzarətindədir.

Misal: Son illərdə Hollandiyadan gətirilmiş cins inəklər Zaqatala, Şəki, Lənkəran və digər rayonlarda məskunlaşdırılmışdır. Praktiki olaraq bu inəklər yeni şəraitə tez uyğunlaşmış və yerli inəklərlə müqaisədı 8-10 dəfə çox süd vermişdir. Ölkəmizə xaricdən ixracı olunan "Sandora" markalı şirə, əsasən Afrika ölkələrindən gətirilmiş apelsin, ananas, mandarin, banan püresi, şəkərlə konservləşdirilmiş limon şirəsi kimi xammaldan istehsal olunur. Vitaminlərlə zənginləşdirilmiş şirə məhsulu Rusiya, Orta Asiya, Qafqaz ölkələrində bazara sahib olur. Son illərdə yerli iş adamlarının Avstriya, İsveç, Bolqarıstan və digər ölkələrdən gətirdiyi texnoloji avadanlıqla işləyən "Gilan Holdinq" – Qəbələ konserv zavodu, "Saf MMC" Quba, Masallı, Xaçmaz konserv zavodunun yerli xammal əsasında istehsal etdiyi meyvə şirələri xaricdən gətirilən şirələrə rəqabətdə öz üstünlüyünü göstərir. İndi bu şirələr ABŞ, Almaniya, Rusiya, Gürcüstan, Orta Asiya respublikaları və digər ölkələrə ixrac olunur.

Dünyanın inkişaf etmiş ölkələrində innovasiya texnologiyalarının tətbiqinə dövlət qayğısı həmişə üstün mövqedədir. Bizim öz təcrübəmizdən görünür ki, dövlət tərəfindən indi innovasiyalara münasibətdə yaxşıya doğru addımlar atılır.

Hazırda ölkə prezdentinin göstərişi ilə kənd təsərrüfatının, emal sənayesinin inkişafı ən yeni innovasiya texnologiyaları əsasında qurulur ki, bunun sayəsində də istehsal olunmuş məhsulların xüsusi çəkisi ilbəil artır və xarici bazarlara çıxmaq imkanı artmağa balşayır.

Dövlət dəstəyi ilə xarici texnika və texnologiyalar əsasında emal sənayesi moderləşdirilir, daxili və xarici bazara yeni məhsullar çıxarılır, əvvəlki illərdən fərqli olaraq aqrar təsərrüfatlarda ərzaq emal sənayesində daha keyfiyyətli məhsulun istehsalına önəm verilir, məhsulun çeşidlənməsi, qablaşdırılması və saxlanmasına diqqət artırılır.

Dövlət keyfiyyətli kən təsərrüfatı məhsulu istehsalı siyasətini həyata keçirmək üçün münbit şəraiti təmin edir. Bazar infrastrukturunda eyni məhsulun bolluğu şəraitində azad rəqabət mühiti yaradılır, təklif olunan məhsulların keyfiyyəti dövlət nəzarəti ilə tənzimlənir, istehsal mühitinin ekoloji şəraitinin sağlam olması üçün investisiya qoyuluşunu artırılır, innovasiya texnologiyaları əsasında mineral və energetika resursları artırılır.

Bazar münasibətlərinin formalaşdığı müasir mərhələdə ölkənin ümumi inkişafına regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi yolu ilə nail olmaq mümkündür. Bununla əlaqədar olaraq sosial-iqtisadi inkişafın tələblərinə uyğun olaraq regional inkişaf siyasəti və regional inkişaf proqramları, onları tənzimləyən və idarəedən sistemlər formalaşmalıdır.

Son illər bu istiqamətdə Azərbaycan Respublikasında möhtəşəm siyasi və iqtisadi əhəmiyyətli tədbirlər həyata keçirilir və yüksək nəticələrə nail olunur.

Regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanmış məqsədyönlü siyasətin davamı olaraq “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” hazırlanmışdır.

III Dövlət Proqramının əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası, regionların sürətli inkişafı, iqtisadiyyatın diverfikasiyası, regionların sürətli inkişafı istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusi ilə kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarət olacaqdır. Dövlət Proqramında müəyyən edilmiş məqsədə nail olmaq üçün regionlarda infrastruktur təminatının, o cümlədən əhalinin kommunal xidmətlərlə təminatının daha da yaxşılaşdırılması, ixracyönümlü və rəqabətə davamlı məhsul istehsalı istiqamətində sahibkarlığın inkişafının sürətləndirilməsi, əhalinin, xüsusi ilə kənd əhalisinin məşğulluq səviyyəsinin artırılması və yoxsulluğun səviyyəsinin azaldılması istiqamətində tədbirlərin davam etdirilməsi kimi mühüm vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur.

## ƏDƏBİYYAT


1. Abbasov V.H. Aqrar sahədə iqtisadi tənzimlənmənin aktual problemləri. Bakı: 2012
2. Salahov S.V. Aqrar sahədə dövlət tənzimlənməsinin problemləri. Bakı: 2004.
3. Əhmədov G.Ə. Kənd təsərrüfatı innovasiyalarının tətbiqi istiqamətləri. Bakı: 2010.
4. “Aqrar islahatın əsasları haqqında” Azərbaycan Respublikasının qanunu. Bakı: 1995.


## MÜASIR DÖVRDƏ AQRAR SAHƏNİN İNKİŞAFINDA İNNOVASİYA POTENSİALINDAN İSTİFADƏ OLUNMASI

***Həsənova P.A.***

## XÜLASƏ

Müasir dövrdə regionların hər tərəfli inkişafı Azərbaycan dövlətinin iqtisadi siyasətinin əsasını təşkil edir. Aqrar sahədə dövlət rəhbəri tərəfindən həyata keçirilən iqtisadi tədbirlər ölkənin sosial-iqtisadi inkişafa nail olması üçün böyük təsir göstərir. Aqrar sahə maddi istehsalın

ən böyük sahələrindən biridir və ölkə iqtisadiyyatının inkişafında özünəməxsus rol oynayır. Müasir dövr texnologiya dövrüdür və müxtəlifliyindən asılı olmayaraq bu texnologiyalardan mümkün qədər səmərəli istifadə edilməlidir. Araşdırılan metod və modellər aqrar sahədə yüksək və ekoloji təmiz məhsulun istehsalında böyük rol oynayır. Bunun üçün də informasiya texnologiyalarının müasir innovativ üsulların tətbiqi böyük əhəmiyyət kəsb edir.

## ИСПОЛЬЗОВАНИЕ ИННОВАЦИОННОГО ПОТЕНЦИАЛА В РАЗВИТИИ АГРАРНОГО СЕКТОРА В СОВРЕМЕННУЮ ЭПОХУ

***Гасанова П.А.***

**РЕЗЮМЕ**

Комплексное развитие регионов в современную эпоху является основой экономической политики азербайджанского государства. Экономические меры, предпринимаемые главой государства в аграрном секторе, оказывают большое влияние на социально-экономическое развитие страны. Аграрный сектор является одним из крупнейших секторов материального производства и играет свою роль в развитии экономики страны. Современная эра – это технологическая эра, и независимо от ее разнообразия, эти технологии должны использоваться максимально эффективно. Изученные методы и модели играют важную роль в производстве высококачественных и экологически чистых продуктов в аграрном секторе. Для этого большое значение имеет использование современных инновационных методов информационных технологий.

## THE USE OF INNOVATIVE POTENTIAL IN THE AGRARIAN SECTOR IN THE MODERN EPOCH

***Hassanova P.A***

**SUMMARY**

Comprehensive regions in the modern epoch are driven by fundamental economic policies of the Azerbaijani state. Economical moorings, pre-eminence glossary in the agrarian sector, with the exception of the highland districts on social and economic development. The agrarian sector is moving away from the simple sectors of material production and the role played by economic economies. Modern era - the most technologically advanced era, and the unavoidable one or the other, is the most effective way to use the technology of meat. The proven methods and models play an important role in the production of high-quality and environmentally friendly products in the agricultural sector. There is a great deal of use of modern information technology in modern technologies.

# BEYNƏLXALQ HƏRBİ ƏMƏKDAŞLIQ AZƏRBAYCAN RESPUBLİKASININ KONSEPTUAL SƏNƏDLƏRİNDƏ

***General-mayor* Nəsibov Qədir Əşrəf oğlu**
***polkovnik Bəbir Quliyev* Şərqi oğlu**
***Fəlsəfə üzrə fəlsəfə doktoru, professor***
**b.quliyew@gmail.com**

***Açar sözlər:*** beynəlxalq münasibətlər, beynəlxalq hərbi əməkdaşlıq, Silahlı Qüvvələr, konseptual sənədlər, hərbi doktrina
***Ключевые слова:*** международные отношения, международное военное сотрудничество, Вооруженные силы, концептуальные документы, военная доктрина.
***Key words:*** international relations, international military cooperation, Armed Forces, conceptual documents, military doctrine.

Beynəlxalq münasibətlər sistemində bir-biri ilə münasibətə girən dövlətlər şəxsi məqsədlərə çatmaq üçün milli maraqları ilə müəyyən edilmiş xarici siyasət həyata keçirirlər. Bununla belə, beynəlxalq praktikada dövlətin xarici siyasətinin həyata keçirilməsində istifadə edilən müxtəlif cür vasitə və alətlər mövcuddur [6, c.236]. Onların sırasına şübhəsiz ki, müxtəlif ölkələr və onların birliyi (ittifaqları) arasında hərbi əməkdaşlıq aid edilir.

Məlumdur ki, beynəlxalq hərbi əməkdaşlıq müəyyən formada ilk antik dövlətlərin meydana gəlməsi ilə yaranıb və bu baxımdan dərin tarixi köklərə malikdir. Müasir beynəlxalq münasibətlər sistemində beynəlxalq hərbi əməkdaşlıq xüsusi yer tutur. Bir çox hallarda bu xarici ölkələrlə qarşılıqlı faydalı əməkdaşlığa imkan verən siyasi, diplomatik, iqtisadi və hərbi xarakterli tədbirlərin həyata keçirilməsi, dünyanın müxtəlif nöqtələrində tərəfdaşların axtarılıb tapılması ilə bağlıdır. Bu, sabit və davamlı beynəlxalq münasibətlər sisteminin yaranmasını və ölkənin hərbi təhlükəsizliyinə yönəlmiş hərbi təhdidlərə xəbərdarlıq etməyi, bununla belə ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsini, Silahlı Qüvvələrin quruculuq və inkişafı üçün əlverişli xarici şərtlərin təmin edilməsini şərtləndirir.

Hərbi əməkdaşlıq mehriban qonşuluq münasibətlərinin saxlanılmasına, etimad tədbirlərinin möhkəmləndirilməsinə, milli silahlı qüvvələrin yaradılmasına və müttəfiq dövlətlərlə geniş tərəfdaşlıq münasibətləri əsasında milli və birgə (qarşılıqlı) təhlükəsizliyin təmin edilməsinə yönəlib. Hərbi əməkdaşlıq sferasında tərəfdaşlıq münasibətləri adı altında dövlətlərin qarşılıqlı maraq və milli məqsədlərə nail olmasını təmin edən istiqamətlər və məsələlər üzrə konstruktiv qarşılıqlı təsirini nəzərdə tutur.

Hərbi sahədə dövlətlərin qarşılıqlı fəaliyyəti beynəlxalq münasibətlərin tərkib hissəsi kimi çıxış edir, sülhün və regional təhlükəsizliyin təmin edilməsinə yönəlib. Dövlətlər çoxtərəfli hərbi əməkdaşlığı aşağıdakı baza prinsiplərdən irəli gələrək həyata keçirirlər:

- hərbi əməkdaşlığın gələcək təkmilləşdirilməsinin əsası kimi hərbi sferada əldə edilmiş səviyyənin saxlanılması və inkişafı;
- hər bir dövlətin suverenliyinə qarşılıqlı hörmət, onun daxili işinə qarışmamaq və hərbi əməkdaşlığın həyata keçirilməsi zamanı bir-birinin maraqlarının nəzərə alınması;
- dövlətin çoxtərəfli hərbi əməkdaşlıqda iştirakının səviyyəsini sərbəst şəkildə müəyyən etməsi;
- çoxsəviyyəli və müxtəlif formatlı hərbi inteqrasiyanın tanınması;
- çoxtərəfli hərbi əməkdaşlıqda dövlətlərin milli maraqları ilə ümumi təhlükəsizlik prioritetlərinin bir araya gətirilməsi;
- qərarlarin qəbul edilməsində könüllülük və üzərinə götürülmüş öhdəliklərin yerinə yetirilməsində vicdanlılıq;

- silahlar üzərində nəzarət məsələsində beynəlxalq razılaşmalara riayət edilməsində səylərin koordinasiyası [7].

Baza prinsiplərdən irəli gələrək, hərbi əməkdaşlığın məqsədi dövlətlərin sabit inkişafının təmin edilməsində oynadığı rol ilə müəyyən edilir. Hərbi əməkdaşlığın əsas məqsədi hərbi sferada hər bir dövlətin təhlükəsiz inkişafı naminə dövlətlərin qarşılıqlı fəaliyyətlərinin gələcək təkmilləşməsindən ibarətdir.

Praktiki planda beynəlxalq hərbi əməkdaşlıq dövlətə imkan verir ki, onun iştirak etmədiyi hərbi-siyasi, iqtisadi blokların və digər strukturların yaranmasına qarşı daha effektli əkstəsir göstərsin, yaranmış böhran vəziyyətinə operativ reaksiya göstərsin, ölkənin öz beynəlxalq öhdəliklərinin yerinə yetirilməsi imkanlarını təmin etsin. Müxtəlif dövr ərzində beynəlxalq hərbi əməkdaşlığın əsas məqsədləri hesab edilib:

- xarici dövlətlərin ölkənin daxili işlərinə qarşısmasının qarşının alınması yolu ilə milli təhlükəsizliyin möhkəmləndirilməsi;
- beynəlxalq müqavilələrə riayət edilməsinə nəzarət;
- təhlükəli forma alan münaqişələrə xəbərdarlıq etmək;
- ümumbəşəri sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsində, hərbi təhdidlərə və təhlükələrə qarşı fəaliyyətdə dövlətlərin bütün səylərinin birləşdirilməsi.

Hərbi əməkdaşlığın əsas məqsədinin realizasiyasına tapşırıqların kompleks və mərhələli həlli ilə nail olunur və həmin tapşırıqlar arasında aşağıdakılar həlledici hesab edilir:

- dövlətlərin siyasi, iqtisadi və humanitar sahədə inteqrasiyasının uzunmüddətli strateji kursunun həyata keçməsinə zəmin yaradan təhlükəsiz və mehriban qonşuluğun inkişaf amillərinin formalaşdırılması;
- hərbi əməkdaşlıq və hərbi təhlükəsizliyin təmin edilməsi sferasında ümumi prioritetlərlə milli maraqların harmonik ahəngi;
- hərbi əməkdaşlığın beynəlxalq-hüquqi bazasının təkmilləşdirilməsi və onun realizə mexanizmlərinin təsirinin artırılması;
- hərbi əməkdaşlığın prioritet sahələrinin və istiqamətlərinin davamlı inkişafı;
- hərbi əməkdaşlığın yeni sahələrinin və istiqamətlərinin axtarışı və realizəsi;
- hərbi sferada birgə (birləşmiş) qarşılıqlı fəaliyyət sisteminin yaradılması və inkişafı;
- hərbi əməkdaşlığın realizəsinin effektivliyinin artmasına imkan verən onun yeni formalarının tətbiqi;
- hərbi qulluqçuların, vətəndaşların, hərbi xidmətdən tərxis olunanların, onların ailə üzvlərinin sosial təminatlarının təmin edilməsinə olan yanaşmaların koordinasiyası;
- humanitar sahədə (hərbi təhsil, mədəniyyət, idman, hərbi-elmi fəaliyyət, tibbi təbabət, arxiv işi, hərbi-memorial iş və s.) layihələrin birgə realizəsi;
- beynəlxalq terrorizmə və digər hərbi xarakterli təhdidlərə və müasir çağırışlara qarşı mübarizə naminə səylərin koordinasiyası;
- milli silahlı qüvvələrin inkişafı naminə xarici orduların təcrübələrinin öyrənilməsi və istifadəsi [7].

Bundan əlavə, beynəlxalq hərbi əməkdaşlığın rolu dünya nizamının iyerarxiyasında son illər baş vermiş dəyişikliklərə rəğmən artıb. Çoxqütblülüyün möhkəmlənməsi beynəlxalq münasibətlərin sistem transformasiyasının əhəmiyyətli amili hesab edilərək, öz ifadəsini beynəlxalq hərbi əməkdaşlıq sahəsində də tapır. Bərabərhüquqlu konstruktiv əməkdaşlığa yönəlmiş tələblər artıb.

Bütün bunlar beynəlxalq əməkdaşlıq sahəsində elmi cəhətdən əsaslandırılmış dövlət siyasətinin işlənilib hazırlanmasını, həmçinin müasir geosiyası şəraitdə onun effektli realizə mexanizmlərinin axtarılıb tapılmasını labüd edir. Xarici siyasətin tərkib hissəsi hesab edilən beynəlxalq əməkdaşlıq sahəsində dövlət siyasəti adı altında hərbi-siyasi, hərbi və hərbi-texniki sahələrdə digər dövlətlərlə münasibətlərin inkişafına yönəlmiş uzlaşdırılmış və vahid məqsədlərə

söykənmiş siyasi, iqtisadi, diplomatik, hərbi, təşkilatı, hüquqi, informasiya, xüsusi və digər tədbirlər məcmusudur.

Beynəlxalq hərbi əməkdaşlıq sahəsində dövlət siyasətinin işlənib hazırlanması və realizəsi prosesinin əsas subyekti Prezident, Parlament, Hökumət, Müdafiə naziri, Xarici işlər naziri, Dövlət Təhlükəsizlik Xidməti və s.-ri hesab edilir. Beynəlxalq hərbi əməkdaşlıq sahəsində ölkənin xarici siyasətinin normativ-hüquqi əsasını ölkə konstitusiyasının müvafiq müddəaları, qanunlar və Prezident sərəncamları təşkil edir.

Bununla yanaşı, müasir beynəlxalq şəraitin kəskinliyi və ziddiyyətli olması ölkələr arasında hərbi əməkdaşlığın yolunda maneə yaradır. Bu baxımdan dünya siyasətində öz mövqelərini möhkəmləndirmək, təhlükə və təhdidlərin artmasına təsirli əkstəsir göstərmək üçün beynəlxalq hərbi əməkdaşlığın bütün növlərini inkişaf etdirmək və genişləndirmək, regional və hərbi təhlükəsizlik problemlərinin birgə həllinə mümkün qədər daha çox iştirakçı cəlb etmək lazımdır. Hazırda hərbi əməkdaşlığın və tərəfdaşlığın qarşısında dayanan əsas məsələ tərəflərin bir-birinə etimadının olmamasıdır. Bunu beynəlxalq münasibətlərin aktorları arasında əlaqələrdə görmək olur. Misal qismində Rusia-NATO münasibətlərini qeyd etmək olar.

Hər bir dövlətdə olduğu kimi, Azərbaycan Respublikasının da beynəlxalq hərbi əməkdaşlığı konseptual sənədlərimiz olan “Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu”, Milli təhlükəsizlik haqqında Konsepsiya, “Azərbaycan Respublikasının Hərbi Doktrinası” və “Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi Strategiyası”nda öz əksini tapıb. “Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu”nun 5-ci maddəsində Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasının əsas prinsipləri müəyyənləşdirilib. Həmin prinsiplər arasında “Azərbaycanın beynəlxalq təhlükəsizlik sistemlərinə inteqrasiyası” ayrıca prinsip kimi yer alıb [5].

Şübhə yox ki, həmin maddədə ölkəmizin Avroatlantik məkana inteqrasiyasından söhbət gedir. Bu məsələ Azərbaycan Respublikasının Milli Təhlükəsizik Konsepsiyasının 4.1.2. maddəsində açıq şəkildə öz əksini tapıb [1]. Orada qeyd edilir ki, Azərbaycan Respublikasının Avropa və Avro-Atlantik siyasi, təhlükəsizlik, iqtisadi və digər strukturlara inteqrasiyası strateji məqsəd daşıyır.

Həmin Konsepsiyanın 4.2. maddəsində isə “NATO dövlətləri və digər tərəfdaş ölkələrlə qarşılıqlı faydalı əsaslara söykənən ikitərəfli və çoxtərəfli hərbi əməkdaşlığın həyata keçirilməsi” Azərbaycan Respublikasının milli müdafiə siyasətinin əsasını təşkil edən amillərdən hesab edilir.

“Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu”nun 19.2.8. və 19.3.-cu maddələrində hərbi sahədə milli təhlükəsizliyin təmin olunması istiqamətində aşağıdakı fəaliyyətlər öz əksini tapıb:

- Azərbaycan Respublikasının hərbi sahədə milli təhlükəsizliyinin təmin olunması məqsədilə xarici ölkələr və beynəlxalq təşkilatlarla əməkdaşlığın həyata keçirilməsi;
- Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması tələblərinə uyğun olaraq hərbi və hərbi-texniki sahədə müqavilələrin bağlanması və yerinə yetirilməsi [5].

Azərbaycan Respublikasının beynəlxalq hərbi əməkdaşlığına “Azərbaycan Respublikasının Hərbi Doktrinası”nda da xüsusi diqqət yetirilib. Belə ki, doktrinada zəruri və səmərəli müdafiə yetərliyi prinsipi irəli sürülüb və müdafiə siyasətinin əsas prinsipləri öz əksini tapıb. Bu prinsiplər arasında beynəlxalq hərbi əməkdaşlığı əks etdirən “tərəfdaşlar ilə hərbi və hərbi-texniki əməkdaşlığın inkişaf etdirilməsi” fikri də yer alıb [2].

Doktrinanın 35.5.-ci maddəsində ikitərəfli və çoxtərəfli hərbi-siyasi əməkdaşlığın gücləndirilməsi və beynəlxalq təhlükəsizliyə töhfə verilməsi sahəsində aşağıdakı tədbirlərin görülməsi vacib sayılır:

–tərəfdaş dövlətlərlə ikitərəfli və çoxtərəfli hərbi-siyasi əməkdaşlığın davam etdirilməsi;

–təhlükəsizliyin bölünməzliyi prinsipini nəzərə alaraq, Azərbaycan Respublikasının yerləşdiyi regionun da daxil olduğu Avro-Atlantik məkanda təhlükəsizlik sisteminin yaradılması

üzrə səylərin dəstəklənməsi, NATO ilə qarşılıqlı maraqlar əsasında əməkdaşlığın davam etdirilməsi;

–müharibələrin və silahlı münaqişələrin qarşısının alınması, sülhün dəstəklənməsi və ya bərpası ilə bağlı dünya birliyi və onun təhlükəsizlik strukturları ilə əməkdaşlığın davam etdirilməsi;

–kütləvi qırğın silahlarının yayılmasının, işlənib hazırlanmasının, istehsalının, toplanmasının, əldə edilməsinin, saxlanılmasının və ötürülməsinin qarşısının alınmasında iştirak edilməsi;

–terrorçulupun bütün növləri ilə mübarizədə beynəlxalq birliyin səylərinin dəstəklənməsi [2].

Doktrinanın həmin maddəsinə istinadən demək olar ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyi dünyanın 30-dan artlq ölkəsi: Türkiyə, ABŞ, Almaniya, Böyük Britaniya, İtaliya, Pakistan, Çin, Rusiya, İran, Ukrayna, Belarus, Moldova, Polşa, Rumıniya, Bolqarıstan, Qazaxıstan, Qırğızıstan, Latviya, Litva, Estoniya, Macarıstan, Gürcüstan, Özbəkistan, Tacikistan, İordaniya, Bəhreyn, Fransa, Çexiya, Sloveniya, Serbiya, Xorvatiya, Koreya Respublikası, Səudiyyə Ərəbistanı və digər xarici ölkələrlə hərbi, hərbi-siyasi və hərbi-texniki sahələrdə, həmçinin bir sıra beynəlxalq təşkilatlarla müxtəlif istiqamətlərdə mövcud olan əməkdaşlığı ikitərəfli və çoxtərəfli əsasda ildən-ilə genişləndirərək inkişaf etdirir.

Beynəlxalq hərbi əməkdaşlıq aşağıda göstərilən əsas fəaliyyət sahələri vasitəsilə həyata keçirilir [4]:

*Müdafiə və təhlükəsizlik:*

- təhlükəsizlik üzrə əməliyyatlar (məsələn, dəniz təhlükəsizliyi, terrorizmə qarşı mübarizə qabiliyyətlərinin inkişaf etdirilməsi və s.);
- xüsusi əməliyyatlar (xüsusi təyinatlı qüvvələrin gücləndirilməsi);
- kiber-təhlükəsizlik;
- enerji təhlükəsizliyi;
- informasiya təhlükəsizliyi;
- qeyri-döyüş təxliyə əməliyyatları;
- təlimlərin keçirilməsi;
- hava məkanının təhlükəsizliyi (Hərbi hava və hava hücumundan müdafiə).

***Çoxtərəfli hərbi əməkdaşlıq***

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi region və region xaricindəki strateji tərəfdaş ölkələrin Silahlı Qüvvələri ilə regional təhlükəsizliyin təmin olunması, beynəlxalq strateji əhəmiyyətli layihələrin mühafizəsi və beynəlxalq təhlükəsizliyə töhfə vermək məqsədilə Azərbaycan-Türküyə-Gürcüstan, Azərbaycan-Türkiyə-Pakistan və Azərbaycan-Rusiya-Qazaxıstan olmaqla çoxtərəfli əməkdaşlıq həyata keçirir.

Mövcud vasitələr, müvafiq plan və proqramlardan istifadə etməklə regionda qarşılıqlı maraqlar əsasında əməkdaşlığın genişləndirilməsi, Silahlı Qüvvələr arasında uyarlılıq və qarşılıqlı fəaliyyət qabiliyyətinin yüksəldilməsi və buna nail olmaq üçün çoxtərəfli birgə təlimlərin keçirilməsi, hərbi təhsil müəssisələrində qarşılıqlı tələbə və mütəxəssislərin hazırlanması çoxtərəfli hərbi əməkdaşlığın əsas istiqamətləridir.

Çoxtərəfli əməkdaşlıq çərçivəsində fövqəladə hallar zamanı qarşılıqlı fəaliyyət və fəlakətin nəticələrinin aradan qaldırılması, axtarış və xilasetmə, dəniz təhlükəsizliyi, neft və qaz boru xətlərinin, enerji və nəqliyyat infrastrukturlarının mühafizəsinin təşkili və gücləndirilməsi məqsədilə çoxtərəfli birgə təlimlər həyata keçirilir.

***İkitərəfli hərbi əməkdaşlıq***

İkitərəfli Hərbi Əməkdaşlıq Azərbaycan Respublikası Silahlı Qüvvələri ilə xarici dövlətlərin Silahlı Qüvvələri və hərbi sənaye kompleksləri arasında ikitərəfli əsasda aparılır. Bu əməkdaşlıq

hər iki tərəfin maraqlarına xidmət etməlidir. Hazırda dünyanın qırxa yaxın ölkəsi ilə ikitərəfli əsasda hərbi əməkdaşlıq həyata keçirilir. İkitərəfli hərbi əməkdaşlığın üsulları aşağıdakılardır:

- **Xarici ölkələrin Silahlı Qüvvələri ilə əməkdaşlıq** - Azərbaycan Respublikası Silahlı Qüvvələri ilə xarici ölkələrin Silahlı Qüvvələri və ya güc strukturları arasında həyata keçirilir. Əməkdaşlıqda maraqlı olan ölkə ilə illik əsasda ikitərəfli hərbi əməkdaşlıq planı və ya proqramı hazırlanır, imzalanır və həyata keçirilir.
- **Strateji hərbi əməkdaşlıq** - Azərbaycan Respublikası ilə strateji tərəfdaşları arasında müdafiə sahəsində, xarici ölkələrin Silahlı Qüvvələri ilə əməkdaşlıq hədəflərinə əlavə olaraq aşağıdakılara nail olunması üçün ən yüksək səviyyədə həyata keçirilir:
- tərəflərin maraqlarının bütün platformalarda qarşılıqlı müdafiəsi;
- təhlükəsizliklə əlaqədar ortaya çıxan potensial təhdidləri müəyyən etmək və onlara qarşı mübarizə aparmaq üçün birgə fəaliyyət;
- dünyada və regionda təhlükəsizlik və sabitliyin təmin olunmasına birgə töhfə vermək;
- müdafiə sənayesi və texnologiya bazasını inkişaf etdirmək üçün birlikdə işləmək, təchizat və texnologiyaların əldə edilməsi üzrə birgə layihələrin həyata keçirilməsi;
- birgə təlimlərin keçirilməsi;
- tərəflər arasında hərbi-siyasi məsləhətləşmələr aparmaq, qarşılıqlı maraqları təşviq etmək üçün müştərək maraq sahələrini araşdırmaq, müzakirə etmək, qəbul edilən müştərək qərarların icra vəziyyətini nəzərdən keçirmək üçün Yüksək Səviyyəli İclas və görüşlərin keçirilməsi;
- kadr mübadiləsi (mütəxəssis, qərargah zabiti, müəllim və sairə);
- məlumat mübadiləsi.

Hərbi Doktrinanın 61-ci maddəsində isə Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin cari mərhələdə və ortamüddətli perspektivdə əsas quruculuq, inkişaf və hazırlıq prioritetləri müəyyən edilib. Həmin prioritetlər aşağıdakılardır:

– NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində NATO ilə mümkün olan tərəfdaşlıq vasitələrindən, o cümlədən Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planından istifadə edilməsi;

– beynəlxalq əməkdaşlıq formatında əməliyyat uyarlılığına nail olunması, sülhməramlı fəaliyyətdə iştirak edilməsi, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində tədbirlərin, beynəlxalq əməliyyat və təlimlərin həyata keçirilməsi üçün xüsusi seçilmiş şəxsi heyətin hazırlanması [2].

2011-ci ildə Azərbaycan Respublikasının Qoşulmama hərəkatına qoşulması Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin cari mərhələdə və ortamüddətli perspektivdə əsas quruculuq, inkişaf və hazırlıq prioritetlərinə zəruri dəyişikliklərin edilməsinə rəvac verib. Belə ki, 2008-ci ildə Rusiya-Gürcüstan müharibəsindən sonra Qərbin regionda təsir imkanlarının zəifləməsi Azərbaycanın öz milli və hərbi təhlükəsizliyini NATO ilə əməkdaşlıq ucbatından riskə qoymaq istəmir. Digər tərəfdən strateji seçimin birmənalı olaraq Rusiyanın lehinə edilməsi də milli maraqlarımıza tam cavab vermir. Nəzərə almaq lazımdır ki, Rusiyanın Ermənistanla sıx hərbi tərəfdaşlıq münasibətləri mövcuddur. Belə olan təqdirdə, heç bir hərbi bloka qoşulmadan və ya hegemon dövlətə sığınmadan öz təhlükəsizliyini təmin etmək daha məqsədyönlü hesab edilir.

Azərbaycan Ordusunun beynəlxalq hərbi əməkdaşlığının həyata keçirilməsində Hərbi Dəniz Qüvvələrimiz də mühüm rol oynayır. Bu heç şübhəsiz, Xəzər dənizinin hüquqi statusu ərtafında uzun müddət davam etmiş sahilyanı dövlətlərin fərqli, bəzən isə qərəzli siyasətlərindən irəli gəlmişdir. Nəhayət, 2018-ci ilin yayında beş Xəzəryanı dövlət arasında Xəzərin statusunun tənzimlənməsinə dair beynəlxalq-hüquqi sənəd imzanlandı. Bununla belə, 2013-cü ildə qəbul etdiyimiz “Dəniz təhlükəsizliyi strategiyası” adlı sənədimizdə beynəlxalq hərbi əməkdaşlığının həyata keçirilməsində bir sıra maddələr yer alıb.

Həmin strategiyanın 5.5.-ci maddəsində qeyd edilir ki, Xəzər dənizinin təhlükəsizlik

mühitinə olan təhdidlər sahilyanı dövlətlərə təsir edə bilər. Bu təhdidlərə qarşı vaxtında tədbir görülməsi məqsədi ilə dəniz təhlükəsizliyinin təmin olunması sahəsində qarşılıqlı beynəlxalq fəaliyyəti genişləndirmək məqsədəuyğundur. Dəniz Təhlükəsizliyi Strategiyası dənizdə terrorçuluğun və digər cinayət fəaliyyətinin qarşısının alınmasında maraqlı olan dövlətlərin əməkdaşlığı imkanlarını nəzərdə tutur [3].

Həmin strategiyanın 5.5.1.-ci maddəsində Xəzər dənizində təhlükəsizliyin təmin edilməsi üçün sahilyanı dövlətlərin iştirakı ilə aşağıda göstərilən üç əsas tədbirin həyata keçirilməsi vacibliyi xüsusilə qeyd edilir:

– mövcud təhdidlər və onların prioritetlər üzrə sıralanmasında Xəzəryanı dövlətlərin ümumi fikir vahidliyinin yaradılması və dövlətlərarası səylərin birləşdirilməsi (5.5.1.1-ci maddə);

– bütün Xəzəryanı dövlətlər tərəfindən terror aktları və digər cinayət fəaliyyətinə vaxtında və effektiv cavab verilməsi üzrə öhdəliklərin tam yerinə yetirilməsinə zəmanət verən yeni təşəbbüslərin irəli sürülməsi (yeni təşəbbüslər Beynəlxalq Dəniz Təşkilatı, Ümumdünya Gömrük Təşkilatı, Beynəlxalq Kriminal Polis Təşkilatı - İnterpol və Beynəlxalq Standartlar Təşkilatı kimi beynəlxalq təşkilatların xətti ilə diplomatik və digər kanallar vasitəsilə həyata keçirilməlidir) ( 5.5.1.2-ci maddə);

– gəmilərin qeydiyyatının, hərəkət istiqamətinin, gəmi sahiblərinin, gəmilərdə olan yüklərin xüsusiyyətinin və gəmilərin heyətinin tərkibinin şəffaflığı məsələlərini nizamlayan dövlətlərarası məlumat mübadiləsi prosedurlarının təkmilləşdirilməsi (5.5.1.3.-cü maddə) [3];

Bundan əlavə həmin strategiyanın 5.5.2.-ci maddəsində "qeyd edilir ki, Azərbaycanın Xəzər dənizinin təhlükəsizliyinə məsul qurumları ilə sahilyanı dövlətlərin müvafiq qurumları arasında beynəlxalq terrorçuluq fəaliyyətinin və digər təhdidlərin təsirinin azaldılması və ticarətin genişləndirilməsi kimi məsələlər üzrə mövcud əlaqələndirmə mexanizmlərinin inkişaf etdirilməsi və yenilərinin yaradılması zəruridir [3].

Xəzər dənizinin statusuna dair Konvensiyanın imzalanmasına baxmayaraq onu təhdidlər sırasından birdəfəlik silmək hələ tezdir. Belə ki, həmin Konvensiyaya əsasən Xəzərin üst səthi iştirakçı-dövlətlər arasında bölünüb, dənizin təkinin və dibin bölünməsi ilə bağlı suallara aydınlıq gətirməyib. Bu isə istənilən an Cənubi Qafqaz və Xəzər regionunda yeni münaqişə ocaqlarının yaranmasına gətirib çıxara bilər.

Araşdırma zamanı bu qənaətə gəlmək olur ki, Azərbaycan Respublikasının milli və hərbi təhlükəsizliyinin təmin edilməsində beynəlxalq hərbi əməkdaşlıq mühüm yer tutur. Nə qədər ki dövlət var, onun milli maraqlarının həyata keçirilməsi zamanı obyektiv və subyektiv maneələrin olacağı inkaredilməzdir. Məhz bu səbəbdən ordunun müdafiə qabiliyyətinin daim yüksəldilməsi danılmaz həqiqət olaraq qalacaq. Xüsusən də ərazisinin 20 faizi erməni işğalında olan bir ölkə üçün Silahlı Qüvvələrin daim hazır vəziyyətdə olması və yaxşı təlim görmüş ordu kimi formalaşması ən mühüm amildir. İşğal faktına son qoyulmayanadək Azərbaycan Respublikasının müdafiə qabiliyyətinin təkmilləşəcəyi və bu istiqamətdə Müdafiə Nazirliyi beynəlxalq hərbi əməkdaşlıq fəaliyyətin davam etdirəcəyi istisna edilmir.

Bundan əlavə, qeyd etmək istərdim ki, konseptual sənədlərimizin qəbulundan bir xeyli vaxt keçib. Bu müddət ərzində yaşadığımız regionda bir sıra əhəmiyyətli geosiyasi hadisələr: Rusiyanın Gürcüstana və Ukraynaya hərbi müdaxiləsi, ABŞ və Qərbin Cənubi Qafqazda təsir imkanlarının zəifləməsi, Azərbaycanın "Bitərəf ölkələr" blokuna qoşulması, Ermənistanda və Gürcüstanda hakimiyyət dəyişikliyi, "Dördgünlük Aprel savaşı", Xəzərin statusunun həllinə dair Konvensiyanın qəbul edilməsi baş verib. Bu hadisələr regionun təhlükəsizik mühitinə, dövlətlərin xarici-siyasi davranışına və hərbi-strateji vəziyyətə ciddi təsir göstərib. Məhz bu dəyişikliklərin ölkənin mili təhlükəsizlik konsepsiyasında və hərbi doktrinasında nəzərə alınması mütləqdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli sərəncamı ilə təsdiq edilmişdir
2. Azərbaycan Respublikasının Hərbi Doktrinası 2010 // https://president.az
3. Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi Strategiyası. 2013
4. İkitərəfli və çoxtərəfli hərbi əməkdaşlıq - AZƏRBAYCAN ...
5. https://mod.gov.az/.../ikiterefli-ve-coxterefli-herbi-emekdasli.
6. «Milli təhlükəsizlik haqqında» Azərbaycan Respublikasının 29 iyun 2004-cü il tarixli Qanunu // https://president.az
7. Головина А. А. Локтионов О. Государственная политика в области международного военного сотрудничества: выработка, реализация и перспективы. // https://cyberleninka.ru/.../
8. Интернет портал СНГ. Военное сотрудничество государств ... // www.e-cis.info/page.php?id=18754


## BEYNƏLXALQ HƏRBİ ƏMƏKDAŞLIQ AZƏRBAYCAN RESPUBLİKASININ KONSEPTUAL SƏNƏDLƏRİNDƏ

### XÜLASƏ

***Quliyev B.Ş., Nəsibov Q.A.***

Məqalə Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinin təmin edilməsində beynəlxalq hərbi əməkdaşlığın yeri və rolundan bəhs edir. Məqalədə beynəlxalq hərbi əməkdaşlığın məqsəd və vəzifələri, prinsipləri, həmçinin konseptual sənədlər kontekstində təhlili öz əksini tapıb.

## РОЛЬ И МЕСТО МЕЖДУНАРОДНОГО ВОЕННОГО СОТРУДНИЧЕСТВА В ОБЕСПЕЧЕНИИ ВОЕННОЙ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНА

***Кулиев Б. Ш., Насибов Г.А.***

### РЕЗЮМЕ

В статье рассматриваются роль и место международного военного сотрудничества в обеспечении военной безопасности Азербайджанской Республики. В статье отражены цели, задачи и принципы международного военного сотрудничества, а также его анализ в контексте концептуальных документов.

## THE ROLE AND PLACE OF INTERNATIONAL MILITARY COOPERATION IN ENSURING THE MILITARY SECURITY OF AZERBAIJAN

***Guliev B. Sh., Nasibov Q.A.***

### SUMMARY

The article deals with the role and place of international military cooperation in ensuring the military security of the Republic of Azerbaijan. The article reflects the goals, objectives and principles of international military cooperation, as well as its analysis in the context of conceptual documents.

# ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSININ BEYNƏLXALQ HÜQUQ MÜSTƏVİSİNDƏ QİYMƏTLƏNDİRİLMƏSİ

***Polkovnik Nəbi Hacıyev***
***Silahlı Qüvvələrin Hərbi Akademiyası***
***nebi-akademiya@mail.ru***

***Açar sözlər:*** Beynəlxalq silahlı münaqişə, silahlı təcavüz, müharibə, işğal, Cenevrə Konvensiyaları.
***Ключевые слова:*** международный вооруженный конфликт, вооруженная агрессия, война, окупация, Женевские Конвенции.
***Keywords:*** International armed conflict, military aggression, war, occupation, Geneva Konventions.

**Giriş.**

Ermənistanın Azərbaycan Respublikasına qarşı silahlı təcavüzü həm beynəlxalq hüququn, həm də beynəlxalq humanitar hüququn imperiativ norma və prinsiplərinin kobud şəkildə pozulması ilə xarakterizə olunur. Bu təcavüz aktını həyata keçirərkən, Ermənistan beynəlxalq humanitar hüquq normalarına və prinsiplərinə nə özü əməl etmiş, nə də ki, hərtərəfli yardım etdiyi Dağlıq Qarabağda və onun ətrafında yerləşən rayonlarda işğalçılıqla məşğul olan separatçı erməni hərbi dəstələrindən bunu tələb etmişdir.

Məqalənin yazılmasında məqsəd Ermənistanın Azərbaycana qarşı törətdiyi silahlı təcavüzün beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn tələblərinə əsasən tövsif edilərək onun "Beynəlxalq silahlı münaqişə" olduğunu sübut etməkdir.

**Əsas hissə.**

Tarixin bütün mərhələlərində münaqişələr və müharibələr olmuşdur. Müharibələr münbit torpaqlar, mühüm ticarət yollarına nəzarət etmək uğrunda aparılmış, maddi, dini, etnik və digər səbəblərdən meydana gəlmişdir.

Adətən müharibələr ədalətli və ədalətsiz kimi təsnif edilir. İşğalçı müharibələr ədalətsiz, işğalçılara qarşı aparılan müharibə isə ədalətli müharibə hesab edilir.

Beynəlxalq humanitar hüquq sistem olaraq meydana gəlməzdən əvvəl onun başlanğıc nöqtəsi kimi, 1863-cü ildə Anri Dünan və dostları tərəfindən müharibə yaralılarına yardım naminə beynəlxalq komitə olan "Beşlər Komitəsinin" yaradılmasını, 1876-cı ildə həmin komitənin Beynəlxalq Qırmızı Xaç komitəsinə çevrilməsini və 1864-cü ildə Cenevrə Konvensiyasının qəbulunu düşünmək yanlış olardı [ 2, s.11].

Bütün dövrlərdə aparılmış müharibələrdə müəyyən qanunauyğunluqlar olmuşdur.

Müasir Beynəlxalq humanitar hüququn yaranmasına qədər hərbi əməliyyatları tənzimləmək üçün çoxsaylı davranış qaydaları, sazişlər, mətnlər mövcud olmuşdur. Müsəlman və Xristian dini inanclarının müqəddəs kitabları olan "Qurani Kərimdə" və "Bibliyada" hətta müharibə zamanı düşmənə hörmətlə yanaşılması təbliğ edilmişdir.

Ərəblərin indiki İspaniya ərazilərini idarə etdiyi vaxtlarda, XIII-cü əsrin sonuna yaxın yazılmış mətn olan "Viqayet" müharibənin aparılmasına dair məcəllə olmuşdur. Orta əsrlər Avropasında cəngavərlərdən zəiflərə və özlərini müdafiə edə bilməyənlərə hörməti təmin edən şərəf məcəlləsinə əməl etmək tələb olunurdu [2, s.13].

"Beynəlxalq humanitar hüquq" anlayışı ilk dəfə elmə XIX əsrin 50-ci illərində İsveçrəli alim Jan Simon Pikte tərəfindən gətirilmişdir. Beynəlxalq hüququn bu sahəsi həm də "silahlı münaqişələr dövründə tətbiq edilən hüquq"; "müharibə hüququ"(jus in bello), "silahlı münaqişələr hüququ", "müharibə qanun və adətləri" və s. kimi ifadə olunur.

"Beynəlxalq humanitar hüquq - silahlı münaqişələr zamanı tətbiq olunan, döyüş aparılmasının müəyyən üsul və metodlarının tətbiqini qadağan edən və ya məhdudlaşdıran və silahlı münaqişə dövründə fərdin hüquqlarının qorunmasına yönəlmiş beynəlxalq-hüquqi normaların məcmusuna deyilir" [1, s.182].

Beynəlxalq humanitar hüququn mövqeyi müharibəni qadağan etmək deyil, artıq başlamış müharibənin səbəbi araşdırılmadan orada müəyyən qayda-qanunun yaradılmasıdır.

"Müharibə qurbanlarının müdafiəsinə dair" 12.08.1949-cu il tarixli Cenevrə Konvensiyaları və onlara 08.06.1977-ci il tarixdə əlavə olunan "Beynəlxalq silahlı münaqişə qurbanlarının müdafiəsinə dair" I protokol və "Qeyri-beynəlxalq xarakterli silahlı münaqişə qurbanlarının müdafiəsinə dair" II protokol qəbul edildikdən sonra istər beynəlxalq silahlı münaqişələr, istərsə də qeyri beynəlxalq silahlı münaqişələr beynəlxalq humanitar hüququn tələblərinə uyğun olaraq aparılmalıdır.

Beynəlxalq humanitar hüququn əsas təsir dairəsi beynəlxalq silahlı münaqışələrdir. "Müharibə qurbanlarının müdafiəsinə dair" 12.08.1949-cu il tarixli Cenevrə Konvensiyalarında qəbul edilmiş maddələrin mütləq əksəriyyəti "beynəlxalq silahlı münaqışələrə" aiddir.

"Beynəlxalq silahlı münaqişə, müharibənin elan olunub-olunmamasından, xarakterindən və tərəflərin müharibə vəziyyətini tanıyıb-tanımamasından asılı olmayaraq, iki və ya daha artıq dövlət arasında baş verən silahlı hərbi münaqişə kimi başa düşülür" [1, s.185].

Cenevrə Konvensiyalarına I Əlavə protokolun 1-ci maddəsinin 4-cü bəndinə əsasən öz müqəddəratını təyin etmək hüququnu həyata keçirmək üçün müstəmləkə hökmranlığına, xarici işğala və irqçi rejimlərə qarşı xalqların apardıqları silahlı mübarizə də "beynəlxalq silahlı münaqişə" hesab edilir [3, s.196].

Cenevrə Konvensiyalarının ümumi 3-cü maddəsində Beynəlxalq humanitar hüququn "Qeyri-beynəlxalq əhəmiyyətli (ölkənin sərhədləri pozulmadan baş verən, ölkədaxili) silahlı münaqişələrə" də şamil edilməsi göstərilmişdir.

Cenevrə Konvensiyalarına II əlavə protokolun 1-ci maddəsinin 1-ci bəndində bu cür silahlı münaqişələrin səciyyəvi cəhətləri dəqiqləşdirilmişdir:

1) dövlətin ərazisində baş verir;

2) dövlətin silahlı qüvvələri ilə məsul komandanlıq altında olan və bu ərazinin bir hissəsi üzərində nəzarət həyata keçirən, bunun sayəsində aramsız və əlbir hərbi əməliyyatlar aparmaq və bu protokolu tətbiq etmək imkanına malik olan hökumət əleyhinə silahlı qüvvələr və ya digər mütəşəkkil silahlı qruplar arasında olan bütün silahlı münaqişələrə tətbiq edilir.

3) Bu protokol iğtişaşlar, ayrıca və nizamsız zorakılıq aktları və digər oxşar xarakterli hallar kimi daxili nizamsızlıq və gərginlik hallarına, onlar silahlı münaqişə olmadıqlarına görə şamıl edilmir [3, s.265,266].

"Cenevrə Konvensiyaları üçün ümumi olan 3-cü maddədə dövlətlərin suverenliyi və ərazi bütövlüyü baxımından belə bir mühüm müddəa təsbit olunmuşdur ki, müvafiq beynəlxalq humanitar hüquq normalarının tətbiqi münaqişədə olan tərəflərin hüquqi statusuna heç bir xələl gətirmir" [1, s.186].

BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində deyilir ki, Birləşmiş Millətlər Təşkilatının bütün üzvləri "öz beynəlxalq münasibətlərində, hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və ya Birləşmiş Millətlər Təşkilatının məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinirlər" [1, s.316]. BMT Nizamnaməsində "Güc" ifadəsi şübhəsiz hərbi gücü xarakterizə edir.

Beynəlxalq hüquq yalnız iki halda silahlı gücün tətbiq edilməsinə imkan verir:

1. "Özünümüdafiə. Dövlət silahlı basqından özünü müdafiə etmək məqsədilə fərdi qaydada və ya başqa dövlətlərlə birgə və proporsionallıq prinsipinə əməl etmək şərtilə güc tətbiq edə bilər. BMT Nizamnaməsinin 51-ci maddəsində deyilir: Bu Nizamnamənin heç bir müddəası, əgər Birləşmiş Millətlərin üzvünə qarşı silahlı basqın baş verərsə, Təhlükəsizlik Şurası tərəfindən

beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün zəruri olan tədbirlər görülənə qədər, ayrılmaz xarakter daşıyan fərdi və ya kollektiv özünümüdafiə hüququna xələl gətirmir".

2. "Sülhə təhlükə, sülhün pozulması və ya təcavüz aktı olduqda, BMT Təhlükəsizlik Şurasının qərarına əsasən, BMT Nizamnaməsinin 42-ci maddəsinə müvafiq olaraq, BMT Təhlükəsizlik Şurası hava, dəniz və ya quru qüvvələrinin vasitəsilə beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması və ya bərpası üçün zəruri ola bilən tədbirlər görə bilər" [1, s.34,35].

Beynəlxalq hüququn "Güc tətbiq etməmək və ya güclə hədələməmək" prinsipinin ən ağır şəkildə pozulması silahlı təcavüzdür.

"Beynəlxalq Silahlı Münaqişə" anlayışının məna yükünü tam dərk etmək üçün təcavüz anlayışının şərhinin verilməsi zərurıdir.

"Təcavüz" anlayışı BMT Baş Assambleyasının 14 dekabr 1974-cü il tarixli XXIX sessiyasında qəbul olunmuş 3314 saylı qətnamə ilə rəsmiləşdirilmişdir. Həmin qətnaməyə görə aşağıda qeyd olunan aktlardan hər biri təcavüz sayılır:

1) bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin ərazisinə soxulması və ya basqın etməsi, yaxud hər hansı hərbi işğal;

2) bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin ərazisini bombardıman etməsi və ya onun ərazisinə qarşı hər hansı silahı tətbiq etməsi;

3) bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin liman və ya sahillərini blokadaya alması;

4) bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin quru, dəniz və ya hava qüvvələrinə, yaxud dəniz və hava donanmasına basqın etmısi;

5) bir dövlətin,başqa bir dövlətin ərazisində onunla razılaşma əsasında yerləşən silahlı qüvvələrinin bu razılaşmanın şərtlərini pozmaqla istifadə edilməsi və habelə həmin silahlı qüvvələrin bu razılaşmanın xitam olunmasından sonra göstərilən ərazidə qalmaqda hər hansı formada davam etməsi;

6) dövlətin öz ərazisini, həmin ərazini üçüncü bir dövlətə qarşı təcvüz aktı törətmək üçün istifadə edən başqa bir dövlətin sərıncamına verməsi;

7) bir dövlət tərəfindən və ya həmin dövlətin adından başqa bir dövlətə qarşı hərbi əməliyyatlar həyata keçirən silahlı bandaların, qrupların, qeyri-nizami qüvvələrin və ya muzdluların göndərilməsi [1, s.34,35].

BMT Nizamnaməsinin 39-cu maddəsi təcavüz aktının aşkarlanmasını və təsdiq edilməsini BMT Təhlükəsizlik Şurasının müstəsna səlahiyyətinə aid hesab etmişdir. Təhlükəsizlik Şurasının bu səlahiyyəti, "Təcavüzün tərifi haqqında" qətnamədə və "Beynəlxalq Cinayət Məhkəməsinin" nizamnaməsində təsbit olunmuşdur.

BMT Təhlükəsizlik Şurasının ona verilmiş mütləq səlahiyyətlərdən ədalətlə deyil, ikili standartların tətbiqi ilə istifadə etməsi nəticəsində dünyada bəzi ölkələrin digərlərinə qarşı etdiyi təcavüz aktları (basqınlar, bombardımanlar, işğallar, liman və sahillərin blokadaya alınması və.s.) bu orqan tərəfindən düzgün tövsif edilməmişdir. Buna ən bariz nümunə kimi Ermənistanın Azərbaycana qarşı törətdiyi silahlı təcavüz aktını göstərmək olar.

SSRİ rəhbərliyi 1980-ci illərin sonlarına doğru respublikalarda xalqların azadlıq istəklərini boğmaq və ittifaqın labüd dağılma prosesini ləngitmək və ya qismən dayandırmaq məqsədilə bəzi respublikalarda süni münaqişə ocaqları yaratmışdı. Kreml bu yolla respublikaların diqqətini münaqişələrə yönəldərək öz hakimiyyətini qoruyub saxlamaq istəyirdi. Moskvanın şovinist Ermənistandan istifadə etməklə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində və onun ətrafında erməni separatçılarının iştirakı ilə başlatdığı proseslər bu siyasətin tərkib hissəsi idi.

1987-ci ildən etibarən azərbaycanlılar tarixən yaşadıqları indiki Ermənistan və Dağlıq Qarabağ Muxtar Vilayətində açıq şəkildə ermənilərin təzyiqlərinə məruz qalmışdılar. Bu fəaliyyətə yerli hüquq mühafizə orqanları və onların açıq-aşkar dəstəklədikləri qeyri-formal

silahlı cəza dəstələri cəlb edilmişdi. Onlara qarşı hər hansı bir müqavimətin göstərilməsi isə insanların döyülərək şikəst edilməsi və ya işgəncə verilərək öldürülməsi ilə nəticələnirdi. Ermənistanda yaşayan azərbaycanlılar həyati təhlükə ilə üz-qzə qaldıqları üçün doğma torpaqlarını tərk edərək Azərbaycana sığınırdılar. Eyni zamanda azərbaycanlı əhali ermənilər tərəfindən Xankəndindən də zorla çıxarılırdılar. Azərbaycanlılar Ermənistan rəhbərliyinin birbaşa iştirakı və dəstəyi ilə Ermənistan ərazisindən tam çıxarılmış və həmin ərazilərdə ermənilərin 1988-ci ilin əvvəllərindən 1991-ci ilin avqustuna qədər apardığı "etnik təmizləmə" prosesi "uğurla" başa çatdırılmışdır.

1988-ci ilin əvvəllərində ermənilər İrəvanda və Xankəndində Dağlıq Qarabağın Azərbaycan Respublikasından ayrılaraq Ermənistana birləşdirilməsi tələbi ilə nümayişlərə başladılar. 1988-ci il fevral ayının 13-də Xankəndində ermənilərin ilk nümayişi keçirildi. Fevral ayının 20-də Dağlıq Qarabağ Muxtar Vilayətinin rəhbərliyi bu ərazinin Ermənistanın tabeçiliyinə verilməsi xahişi ilə Azərbaycan rəhbərliyinə rəsmi müraciət göndərdi. Eyni zamanda millətçi silahlı dəstələr yaradan ermənilər azərbaycanlı əhaliyə qarşı basqınlar təşkil etməyə başlamışdılar. Ermənilərin bu tələblərinə qarşı Əskəran şəhərində dinc aksiya keçirən azərbaycanlıların erməni cəza dəstələri tərəfindən odlu silahlardan atəşə tutulması nəticəsində 2 nəfər öldürülmüş və 19 nəfər yaralanmışdır [7, s.32].

1989-cu il dekabrın 1-də Ermənistan Ali Soveti və Dağlıq Qarabağda yaradılmış qondarma "milli şura" birgə qətnamə qəbul etdilər. Qeyri qanuni qətnamədə göstərilirdi ki, onlar "Ermənistan SSR və Dağlıq Qarabağın birləşməsini elan edirlər və həmin andan başlayaraq, Dağlıq Qarabağ əhalisi Ermənistan SSR vətəndaşlarının bütün hüquqlarına malik olurlar" [7,s.38]. Birbaşa sovet rəhbərliyinin fəaliyyətsizliyi, bəzən isə açıq himayədarlığı sayəsində DQMV-nin iqtisadiyyatının və digər fəaliyyət sahələrinin faktiki olaraq Ermənistana istiqamətləndirilməsi baş verdi. Qırx iki gün müddətində DQMV-nin müəssisələri Ermənistanın müvafiq nazirlik və idarələrinin tabeliyinə verildi. Eyni zamanda Ermənistan SSR-nin bəzi hərbi hissə rəhbərlərinin və mərkəzi orqanlarının himayədarlığı ilə Azərbaycanın digər ərazilərinə silahlı qüvvələr göndərərək, açıq hərbi təcavüzə başladı [5,s.838]. Bu da öz növbəsində Dağlıq Qarabağda onsuz da ağır durumda olan azərbaycanlıların vəziyyətini son dərəcədə pisləşdirdi.

Azərbaycanlıların yaşadığı kəndlərə erməni hücumları irimiqyaslı və nizamlı şəkil aldı. Sovet rəhbərliyi Dağlıq Qarabağda baş verən qanunsuzluqlara və terrora, azərbaycanlılara qarşı törədilən soyqırımına göz yumurdu [8,s.51]. Azərbaycan rəhbərliyi isə öz doğma xalqının məruz qaldığı silahlı təcavüzü görmək istəmir və bunun qarşısının alınması üçün heç bir əməli tədbirə əl atmayaraq, gözləmə mövqeyi tutub hələ də mifik xalqlar dostluğu anlayışı ilə yaşayırdı. İtirilən zaman isə düşmənin xeyrinə işləyirdi. Nəticədə Azərbaycan xalqı Kremlə və yerli rəhbərliyə inamını tam itirmiş və xalq arasında onlara qarşı ciddi narazılıq yaranmışdı. Azərbaycanlıların taleyinə bu cür biganə münasibət onların etirazına səbəb olmuşdu. Bu etirazlar aramsız keçirilən mitinqlərlə müşayət olunmağa başladı. Yanvarın 10-da SSRİ Ali Soveti Rəyasət Heyəti nəhayət Ermənistan SSR Ali Sovetinin 1 dekabr 1989-cu il tarixli qərarının SSRİ Konstitusiyasının 74-cü maddəsinə uyğun olmadığı haqqında qəraq qəbul etdi. Qəbul olunmuş bu qərar heç bir əhəmiyyət kəsb etmədi və azərbaycanlılara qarşı erməni terroru daha da gücləndi [8,s.51].

1990-cı il yanvar ayının 19-20-də Azərbaycanda xalqın azadlıq istəklərini boğmaq və haqlı etirazlarına son qoymaq məqsədilə dinc əhaliyə qarşı Sovet ordusu tərəfindən törədilən "Qanlı Yanvar" terrorundan sonra respublika ərazisində sərt fövqəladə vəziyyət rejimi tətbiq edildi. Sovet ittifaqı rəhbərliyi tətbiq edilmiş fövqəladə vəziyyətdən məqsədyönlü şəkildə sui-istifadə edərək, Azərbaycanın Ermənistanla həmsərhəd rayonlarında, xüsusən də Naxçıvan M.R.-da, Dağlıq Qarabağ və onun ətrafındakı rayonlarda əhalidən ov tüfənglərini, hərbi hazırlıq dərslərinin keçirilməsi üçün orta məktəblərin balansında olan kiçikçaplı tüfəngləri və azsaylı avtomat silahlarını müsadirə edərək, azərbaycanlı əhalini tam təchizatlı silahlı təcavüzkar

Ermənistan silahlı dəstələri qarşısında əliyalın qoymuşdu. Fövqəladə vəziyyət rejiminin Ermənistana şamil olunmamasından məharətlə istifadə edən Ermənistan rəhbərliyi isə işğalçı və ilhaqçı niyyətlərini gizlətmir və genişmiqyaslı silahlanma işlərini davam etdirirdi.

Azərbaycanlılara qarşı qızğın silahlanma prosesində Ermənistana ermənipərəst SSRİ rəhbərliyi və xarici erməni diasporaları yaxından kömək edirdi.

Silahlanma 1990-cı ilin ortalarında yüksək həddə çatmış, artıq çoxsaylı silahlı dəstələr "fəaliyyətə" başlamışdı. Həmin silahlı dəstələr müxtəlif çaplı atıcı silahlara, ağır artilleriyaya, tank və digər zirehli texnikaya, hava hücumundan müdafiə vasitələrinə və hərbi hava qüvvələrinə malik idilər.

Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü 1990-cı ilin yanvar ayının 18-də Naxçıvan Muxtar Respublikasının Kərki kəndinin işğal edilməsi ilə başlandı. Təxminən həmin vaxtlar Goranboy rayonunun bəzi kəndləri ermənilər tərəfindən vertolyotlardan atəşə tutuldu. Mart ayının 24-də və avqust ayının 20-də Ermənistan ordusu Qazax rayonunun Bağanis Ayrım kəndini işğal edərək kənd sakinlərinin bəzilərini evlərdə diri-diri yandırdılar və kəndi xarabalığa çevirdilər. Qazax və Tovuz rayonlarının Ermənistanla sərhədboyu yaşayış məntəqələri güclü top atəşinə tutuldu [7, s.37;39;40].

1991-ci ilin aprel ayının 30-dan may ayının 15-nə qədər Azərbaycan Respublikası daxili işlər nazirliyinin nəzdində fəaliyyət göstərən xüsusi təyinatlı milis dəstəsi Çaykənd, Qarabulaq, Hadrut istiqamətlərində ermənilərə məxsus bir sıra bazaları dağıtmağa və Ermənistandan göndərilən 11 milisi məhv etməyə müvəffəq oldular. Bunun ardınca xüsusi təyinatlı milis dəstəsi Goranboy rayonu ərazisində ermənilərlə döyüşlərə başladı. Keçirilmiş uğurlu əməliyyatlar nəticəsində Manaşid, Buzluq, Erkəc kəndlərində ermənilərə məxsus bazalar dağıdıldı. Azərbaycan tərəfindən keçirilən bu uğurlu əməliyyatlar nəticəsində işğalçı Ermənistan qüvvələri geri çəkilmək məcburiyyətində qaldılar. Azərbaycanın Ermənistanla sərhədboyu ərazilərinin tam nəzarətsiz qalmasından istifadə edən Ermənistan 1991-ci ilin payız aylarında Dağlıq Qarabağ ərazisinə çoxsaylı qoşun kontingenti, silah və texnika göndərməyə və Goranboy, Xocavənd, Hadrut rayonlarında yaşayış məntəqələrinə hücumlar təşkil etməyə başladılar. Bu hücumlar nəticəsində Dağlıq Qarabağda azərbaycanlılar yaşayan kəndlərin çox hissəsi erməni silahlı dəstələrinin nəzarəti altına keçdi.

"1988-1991-ci illərdə, yəni hadisələrin başlanğıcından SSRİ-nin süqutuna qədər olan dövrdə Sovet İttifaqının hakim dairələri tərəfindən himayə edilən Ermənistan Azərbaycana qarşı açıq-aşkar təcavüzkarlıq siyasəti yeritmiş, nəticədə minlərlə dinc sakin qətlə yetirilmiş, çoxlu yaşayış məntəqələri dağıdılmış, talan edilmiş və yandırılmışdır" [5, s.839].

Sovetlər birliyi 1991-ci il dekabr ayının 8-də Belovejskdə Rusiya, Ukrayna və Belarus rəhbərlərinin (Belorusiya) əldə etdikləri razılaşma əsasında süqüta uğradıqdan sonra digər on üç respublika kimi Azərbaycan və Ermənistan da müstəqillik əldə etdilər. Bundan sonra Ermənistanın Azərbaycana qarşı silahlı müdaxiləsi iki respublika arasında müharibəyə çevrildi. Bu isə beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn imperiativ xarakter daşıyan prinsip və normalarına əsasən ədalətlə tövsif edildikdə "beynəlxalq silahlı münaqişənin" başlanması demək idi.

Ermənistan cəzasızlıqdan istifadə edərək, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərini kobud və saymazyana bir surətdə pozaraq Azərbaycana qarşı silahlı təcavüzü genişləndirərək, ərazilərini işğal etmişdir. Hərbi əməliyyatlara birbaşa Ermənistanın müdafiə nazirliyi tərəfindən rəhbərlik edilir və Dağlıq Qarabağda "Ermənistanın ekspedisiya korpusu" hərbi birləşməsi fəaliyyət göstərirdi [7, s.42].

Dağlıq Qarabağda fəaliyyət göstərən bütün erməni silahlı dəstələri vahid komandanlıq altında birləşdirilərək korpusun tabeçiliyinə keçirilmişdi. Azərbaycan torpaqlarının işğal olunmasında Rusiyanın Ermənistana göstərdiyi hərtərəfli köməkliyi də qeyd etməmək mümkün deyil. Belə ki, yeni yaranan Azərbaycan ordusu cəbhədə təkcə Ermənistan silahlı qüvvələri ilə

deyil, həm də B.N.Yeltsinin rəhbərlik etdiyi Rusiyanın nizami ordularına qarşı mübarizə aparırdı. Bu haqda faktlar müharibə dövründə tanınmış rusiyalı telejurnalist Aleksandr Nevzorov tərəfindən Sərsəng su anbarı ətrafında gedən ağır döyüşlərdə videolentə alınmış və dünya ictimayətinə çatdırılmışdır. SSRİ rəhbərliyi tərəfindən Azərbaycanda fövqəladə vəziyyət rejiminin tətbiq edilməsi nəticəsində əhalidən ov tüfənglərinin belə yığılması ermənilərin cəbhədə üstünluyü getdikcə ələ almaları ilə müşahidə olunurdu. Azərbaycanda silah, sursat çatışmazlığı ciddi şəkildə hiss olunurdu. Hüquq mühafizə orqanlarının zəif təchizatlı azsaylı qüvvələri ilə iri miqyaslı döyüş əməliyyatları aparmaq çox çətin idi. Nizami ordu quruluşu prosesi isə çox ləng gedirdi. Belə ki, 1991-ci ilin sonu - 1992-ci ilin əvvəllərində yeni yaradılmış Müdafiə nazirliyinə tabe olan şəxsi heyətlə tam komplektləşdirilməmiş yalnız bir tabor yaratmaq mümkün olmuşdur. Çətin vəziyyətdən çıxış yolu kimi cəbhə bölgələrində Müdafiə nazirliyi tərəfindən yerli özünümüdafiə dəstələrinin yaradılmasına başlanıldı. Azərbaycan Xalq Cəbhəsi üzvlərindən ibarət könüllü taborlar yaradılıb cəbhə bölgələrinə göndərilirdi. Bütün bu hazırlıqlarla yanaşı, Azərbaycanın cəbhə bölgəsində yerləşməyən şəhər və rayonlarında da yeni könüllü taborlar yaradılıb cəbhəyə göndərilməyə başladı.

SSRİ süquta uğramamışdan əvvəl Ermənistanda və Dağlıq Qarabağda yerləşən sovet hərbi hissələrinin və xarici ölkələrdəki erməni diasporlarının hərtərəfli yardımları hesabına külli miqdarda silah, sursat, döyüş texnikası əldə etmələri, əldə olunmuş texnikalardan istifadə edə bilən hazırlıqlı heyətlərin olması ermənilərə döyüşlərdə üstünlük qazanmağa xeyli kömək edirdi. 1991-ci ilin sonlarında Azərbaycan tərəfi az da olsa döyüşən qüvvələrin hərbi geyim, silah, sursat, hərbi texnika ilə təmin olunmasına nail ola bilmişdi. Azərbaycan qüvvələri 1991-ci ilin dekabr ayının 30-31 də hücuma keçərək Kərkicahan qəsəbəsini işğaldan azad etdilər. Şuşa şəhəri yaxınlığında yerləşən Daşaltı kəndini ələ keçirmək məqsədilə Azərbaycan qüvvələrinin 1992-ci ilin yanvar ayının 25-26-da keçirdiyi uğursuz hərbi əməliyyat Ermənistan qüvvələrinin Dağlıq Qarabağda yenidən fəallaşması və yanvar ayının sonlarına doğru bütün yaşayış məntəqələrinin işğal edilməsi ilə nəticələndi.

Yanvarın 15-də, Ermənistan işğalçı ordusu Rusiyanın 366-cı motoatıcı alayının hərtərəfli dəstəyi ilə Kərkicahan qəsəbəsini, fevral ayının 10-da isə Malıbəyli və Quşçular kəndlərini işğal etdilər. Hücum zamanı 100 nəfərdən çox azərbaycanlı öldürülmüş, 140 nəfərdən çox insan yaralanmış və əsir götürülmüşdü [6, s.192]. İşğalın miqyası getdikcə böyüməyə başlamışdı. Fevralın 17-də Ermənistan hərbi birləşmələri Xocavənd rayonu Qaradağlı kəndini işğal edərkən nə “Müharibə qurbanlarının müdafiəsinə dair” Cenevrə Konvensiyalarına nə də ki, Beynəlxalq humanitar hüququn prinsip və əsas normalarına əməl etməyərək, əliyalın kənd sakinlərinin və artıq kombatant olmayanların böyük əksəriyyətini xüsusi amansızlıqla qətlə yetirmiş, sağ qalanları isə əsir və girov götürmüşdürlər. Rəsmi statistikaya görə 92 nəfər özünümüdafiə taborunun döyüşçüsü və 54 dinc sakin öldürülmüş və silos quyusuna atılmış, 117 nəfər dinc sakin girov götürülərək onların 77 nəfəri yenə də xüsusi amansızlıqla qətlə yetirilmişdir. Kəndin yaxınlığındakı fermada isə 6 nəfər kənd sakini diri-diri yandırılmışdır [6 , s.192].

Artıq Xocalı şəhəri istiqamətində mühasirə həlqəsi daralmaq üzrə idi. Xocalının ətraf aləmdən təcrid olunmasına səbəb isə Şuşa şəhərinin ətrafındakı kəndlərin işğal olunması olmuşdu. Ermənilər əldə etdikləri müasir hava hücumundan müdafiə vasitələri ilə Xocalı aeroportunun fəaliyyətini iflic etmişdilər. Məcburi surətdə bütün uçuşlar dayandırılmışdı. Ermənistan işğalçı ordusu 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə güclu artilleriya hazırlığından sonra, Rusiyanın əliqanlı 366-cı alayının şəxsi heyət, silah, sursat, hərbi texnika baxımından tam dəstəyini almaqla Xocalı üzərinə hücuma keçdilər. Şəhərin və aeroportun azsaylı və zəif təchizatlı müdafiəçiləri, ölümlərindən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş polis mayoru Əlif Hacıyev və Tofiq Hüseynovun rəhbərliyi altında əsl mərdlik və rəşadət nümunəsi göstərərək son damla qanlarınadək döyüşmələrinə baxmayaraq işğalın qarşısını ala bilmədilər. Ermənistan hərbi birləşmələri Qaradağlıda olduğu kimi, Xocalıda da müharibə

qanunlarına əməl etmədilər. Xocalının işğalı zamanı 613 nəfər dinc sakin, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi amansızlıqla, işgəncələrlə öldürülmüş, insanların başları kəsilmiş, gözləri çıxarılmış, sağ ikən yandırılmış, hamilə qadınların qarınları süngü ilə deşik-deşik edilmişdir. Qanlı aksiya zamanı 1275 nəfər əsir götürülmüş, 150 nəfər itkin düşmüş, 487 nəfər şikəst olmuşdur. Kütləvi qırğınlar zamanı 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə bir valideynini itirmiş, 56 nəfər işgəncələr verilərək öldürülmüşdür [4, s.58].

Cinayətkar Ermənistan rəhbərliyi Azərbaycan torpaqlarına silahlı təcavüz edərkən insanlıqdan kənar, qana susamış ordusundan müharibə qayda və qanunlarına əməl etməyi heç bir zaman tələb etməmiş, əksinə onlara yerli əhaliyə ağlasığmaz işgəncələr verməyi, onlarla qeyri insani rəftar etməyi, ancaq öldürməyi, əsir və girov götürməyi təbliğ etmişdi. Bu təbliğat və təşviqatın "bəhrəsini" onlar artıq Qaradağlıda və Xocalıda əldə etməyə başlamışdılar. Artıq BMT üzvü olan işğalçı Ermənistanın hərbi birləşmələri "əldə etdikləri asan qələbələrdən ruhlanaraq" 1992-ci il mart ayının 12-də Sırxavənd, Qaraşlar, Bəşirlər, Baş Güneypəyə, Orta Güneypəyə, Xatınbəyli, Manikli kəndlərini də işğal edərək yerlə yeksan etdilər. Ermənistan işğalçı ordusu 1992-ci il aprel ayının 7-də Kəlbəcər rayonunun Ağdaban kəndinə soxularaq kəndi talan edərək yandırmış, 67 nəfər kənd sakinini xüsusi amansızlıqla qətlə yetirmiş, onlardan 90-100 yaşlı 8 qoca, 2 uşaq, 7 qadın isə diri-diri yandırılmışdır [7, s.50].

Cəbhənin Qazax rayonu istiqamətində də vəziyyət ağır idi. Belə ki, Ermənistan işğalçı ordusu 1992-ci ilin mart-iyun aylarında Qazax rayonunun Xeyrimli, Aşağı Əskipara, Barxudarlı, Sofulu, Qızıl Hacılı, Yuxarı Əskipara kəndlərini də ələ keçirməyə müvəffəq oldu.

Həmin vaxtlar Bakıda baş verən hakimiyyət uğrunda qarşıdurmalardan məharətlə istifadə edən ermənilər Şuşa istiqamətində mühasirə həlqəsini artıq daraltmağa başlamışdılar. Ermənilər təbii müdafiə mövqeyinə malik bölgə üzərində strateji əhəmiyyəti olan şəhərin dəyərini yaxşı başa düşürdülər. Şəhər artıq işğal təhlükəsi ilə üz-üzə qalmışdı. Azərbaycan respublikasının mövcud siyasi rəhbərliyinin cəbhədə baş verən prosesləri vaxtında qavrayıb düzgün reaksiya verə bilməməsi səbəbindən Şuşa şəhəri may ayının 8-də, Laçın rayonu isə may ayının 18-də işğal olundu. Laçın rayonunun işğalı nəticəsində Ermənistanla Dağlıq Qarabağ arasında strateji əhəmiyyətə malik olan dəhliz açılmış oldu. Ermənistanın bu uğurlardan istifadə edərək hücumlarını genişləndirmək cəhdinə Azərbaycan tərəfi ağır əks zərbələrlə cavab verdi. 1992-ci ilin yayında düşmənin qarşısında silah, sursat, hərbi texnika ilə təchizatsız Azərbaycan hərbi birləşmələri deyil, artıq uğurlu hücum əməliyyatları apara bilən qüvvələr var idi. 1992-ci ilin avqust ayının 8-də Azərbaycan hərbi birləşmələri Gədəbəy rayonu üçün ciddi təhlükə yaradan Başkənd qəsəbəsini ermənilərdən təmizləməyə müvəffəq oldular.

Azərbaycan ordusunun cəbhənin bütün istiqamətlərində apardığı uğurlu hərbi əməliyyatlara baxmayaraq, ermənilər Rusiya ordusunun yaxından ıştirakı ilə 1993-cü il aprel ayının 2-də Kəlbəcər rayonunu işğal etdilər. Həmin ilin yayında Azərbaycanda yenə siyasi vəziyyət gərginləşməyə başladı. Hakimiyyət uğrunda gedən çəkişmələr tam surətdə işğalçı ilə mübarizə aparmağa və birdəfəlik olaraq işğala son qoymağa imkan vermirdi. Nizami ordu quruculuğu prosesi həddindən artıq ləng getdiyi üçün məcburi surətdə cəbhədə könüllü dəstələrdən istifadə olunurdu. Bu qüvvələr ilk yaradılış dövrlərində yüksək vətənpərvərlik hissi ilə döyüşlərə atılıb qələbələr əldə etmələrinə baxmayaraq, bəziləri ordunun ən vacib elementi olan vahid komandanlıq prinsipini qəbul etmək istəmirdilər. Onlar artıq yarı siyasi, yarı hərbi quruma çevrilmişdilər. Həmin dövrdə isə separatizmə meylli müəyyən qüvvələr bundan istifadə etməyə çalışırdılar. Bu hal isə cəbhədə öz bərpaolunmaz mənfi təsirlərini qısa müddət ərzində göstərməyə başladı. Azərbaycan ordusunun rəşadətlə döyüşməsinə baxmayaraq 1993-cü il ərzində bir birinin ardınca Ağdam (23.07.1993), Füzuli (23.08.1993), Cəbrayıl (23.08.1993), Qubadlı (31.08.1993), Zəngilan (29.10.1993) rayonları Ermənistan tərəfindən işğal olundu [5, s.843].

Ümummilli lider Heydər Əliyevin 15 iyul 1993-cü ildə hakimiyyətə gəlişindən sonra həm respublika idarəetməsində həm də orduda bir sıra müsbət yönümlü islahatların aparılması nəticəsində 1993-cü ilin sonları-1994-cü ilin əvvəllərində cəbhədə vəziyyət nisbətən stabilləşməyə başladı. Artıq işğalçı Ermənistanın qarşısında vahid komandanlıq prinsipləri ilə idarə olunan, yüksək nizam-intizama malik döyüş qabiliyyətli Azərbaycan ordusu var idi. Nizami və peşəkar ordu quruculuğu prosesi tam gücü ilə işə düşmüşdü. Azərbaycan ordusu cəbhənin Füzuli-Beyləqan, Ağcabədi, Tər-tər-Bərdə istiqamətlərində ermənilərin çoxsaylı hücumlarının qarşısını almış, xeyli sayda canlı qüvvəsini, zirehli və digər texnikasını məhv etmişdi. Ordumuzun uğurlu əks hücumu ilə Füzuli, Cəbrayıl, Tər-tər rayonları istiqamətində ciddi uğurlar əldə olundu [7, s.65]. Azərbaycan tərəfinin hərbi uğurlarından qorxuya düşən işğalçı Ermənistan himayədarı Rusiyadan Azərbaycanı atəşkəs haqqında saziş bağlamağa razı salmağı xahiş etdi. Rusiyanın təkidi ilə 12 may 1994-cü ildə Azərbaycanla Ermənistan arasında atəşkəs haqqında saziş imzalandı.

“Müharibə nəticəsində Azərbaycanın infrastrukturuna, o cümlədən insan resurslarına, maddi və mənəvi həyatına böyük zərbə vuruldu. Bu müharibədə 20 min nəfər azərbaycanlı həlak oldu, 100 min nəfər yaralandı, 5 min nəfər əlil oldu, 4861 nəfər isə əsir və girov götürüldü” [8, s.62]. Əsirlərdən 783 nəfəri bu günə qədər əsirlikdə qalmaqdadır. Beynəlxalq Qırmızı Xaç Komitəsinin məlumatına görə 439 nəfər əsirlikdə ağır işgəncələrə məruz qoyularaq öldürülmüşdür [6 , s.203]. Erməni cəlladları tərəfindən əsirlərin sayı, saxlanma yeri və vəziyyətləri beynəlxalq təşkilatlara bildirilmir, əsirlərlə qeyri insani davranılır, ləyaqətləri alçaldılır, onlara ağlasığmaz işgəncələr verilir.

1992-ci il martın 2-də BMT-yə tamhüquqlu üzvlüyə qəbul olunan Ermənistan Azərbaycana qarşı apardığı işğalçı müharibədə üzvü olduğu təşkilatın nizamnaməsinə və beynəlxalq hüquq normalarına əməl etməmişdir. Belə ki, Ermənistan silahlı birləşmələrinin azərbaycanlı mülki əhaliyə və mülki obyektlərə qarşı hücumu nəticəsində beynəlxalq humanitar hüququn və insan haqlarının, xüsusilə də "Quruda müharibə aparma qanunları və adətləri haqqında" 1907-ci il Haaqa Konvensiyasının, "Müharibə vaxtı mülki əhalinin müdafiəsi haqqında" və "Beynəlxalq silahlı münaqişələrin qurbanlarının müdafiəsi haqqında" 12. 08.1949-cu il Cenevrə Konvensiyalarının tələbləri ciddi şəkildə pozulmuşdur. Beynəlxalq humanitar hüququn norma və prinsipləri hərbi əsirlərlə hörmətlə rəftar edilməsini tələb edir. Hərbi əsir düşmən dövlətə mənsub olduğuna görə onun hər hansı cəzaya məruz qalması, ona qarşı qəsdən işgəncələrin törədilməsi, amansız dustaqetmə, qidadan məhrumetmə, xəsarətlərin yetirilməsi, öldürmə, o cümlədən qisasçılıq və digər qeyri-insani yöndə hərəkətlərin həyata keçirilməsi yolverilməzdir. Hərbi əsirlərlə rəftara dair 1949-cu il Cenevrə Konvensiyasının 13-cü maddəsi onlarla humanistcəsinə rəftar edilməsini, 130-cu maddəsi isə işgəncə və digər amansız rəftarı hərbi cinayət hesab edir (3, s.58, 105).

Tədqiqatlar göstərir ki, işğal nəticəsində Azərbaycan iqtisadiyyatına ciddi maddi ziyan dəymişdir. Silahlı təcavüz nəticəsində respublikanın 17 min kvadrat klometrlik ən məhsuldar torpağı işğal edilmişdir. Ermənistanın işğal etdiyi ərazilərdə 900 yaşayış məntəqəsi, 7 min sənaye və kənd təsərrüfatı obyekti, 131 min ev, 1025 məktəb, 798 səhiyyə ocağı, 800 km. avtomobil yolu, 160 körpü, 23 min km su və 15 min km. elektrik xətti təcavüzün qurbanı olmuşdur. Bundan əlavə, 280 min hektar meşə, 1200 irriqasiya sistemi işğalçıların əlinə keçmişdir. Təcavüzkarlar işğal edilmiş ərazilərdə olan 22 muzeyi, 4 rəsm qalereyasını, tarixi əhəmiyyəti olan 9 sarayı qarət etmiş və yandırmışdılar. Nadir tarixı əhəmiyyətli 40 min muzey sərvəti və ekspanatı talan olunmuş, 44 məbəd və 9 məscid dağıdılmışdır. 927 kitabxana və orada saxlanılan 4,6 milyon kitab və qiymətli tarixi əlyazma məhv edilmişdir. İşğalçılar tərəfindən 220 min baş iribuynuzlu mal-qara Ermənistana aparılmışdır. Ümumiyyətlə, sonadək dəqiqləşdirilməmiş məlumatlara görə mənəvi-psixoloji zərbələrdən əlavə, Azərbaycan öz iqtisadi potensialının 16 faizini itirmiş və ölkəmizə 60 milyard ABŞ dollarından artıq ziyan dəymişdir.

Oğurlanmış və məhv edilmiş tarixi-mədəni sərvətlərimizin dəyərini isə maddiyyatla ölçmək mümkün deyildir [6, s.204].

Ermənistanın işğal etdiyi ərazilərdə Azərbaycan xalqının tarix və mədəniyyət abidələrini dağıtması və qəsdən korlaması kimi əməlləri Mədəni irsin qorunmasına dair 1954-cü il Haaqa Konvensiyasının, Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında 1970-ci il Paris Konvensiyasının, Arxeoloji İrsin Mühafizəsi haqqında 1992-ci il Avropa Konvensiyasının, YUNESKO-nun Ümumdünya mədəni və təbii irsin muhafizəsi haqqında 1972-ci il Konvensiyasının müddəalarının ciddi surətdə pozulması ilə müşayət edilmişdir.

Ermənistan 25 ildən artıqdır ki, məqsədləri dünyada sülhün və təhlükəsizliyin bərpasına xidmət etmək olan nüfuzlu beynəlxalq təşkilatların mövqesizliyindən istifadə edərək onların gözü qarşısında heç kimə məhəl qoymadan işğala məruz qoyduğu torpaqlarımızın yeraltı və yerüstü sərvətlərini talayır. İşğal nəticəsində 1 milyon nəfərdən artıq azərbaycanlı illər boyu çadırlarda və dəmir yük vaqonlarında dözülməz şəraitdə məşəqqətli qaçqın həyatı yaşamağa məcbur olmuşdur.

Azərbaycan respublikasının suverenliyi və ərazi bütövlüyünün Ermənistanın silahlı təcavüzü nəticəsində pozulmasına yalnız məntiqə sığmayan və heç bir dəqiq ünvana yönəlməyən 822 (30.04.1993 Kəlbəcər rayonunun işğalı ilə əlaqədar), 853 (29.07.1993 Ağdam rayonunun işğalı ilə əlaqədar), 874 (14.10.1993 Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının işğalı ilə əlaqədar), 884 (11.11.1993 Zəngilan rayonunun işğalı ilə əlaqədar) saylı qətnamələrin verilməsi ilə kifayətlənən BMT bilərəkdən münaqişənin həllini bu günə qədər uzadaraq Azərbaycanın işğalla barışmasını və faktiki durumu qəbul etməsini istəyir. Belə ki, Azərbaycanla Ermənistan arasında atəşkəs haqqında saziş imzalandığı vaxtdan 25 ildən artıq vaxt keçməsinə baxmayaraq işğalın aradan qaldırılması məqsədilə İslam Əməkdaşlıq Təşkilatından başqa heç bir nüfuzlu beynəlxalq təşkilat təcavüzkara qarşı əməli tədbir görməyə çalışmamışdır. BMT isə əsrin dörddə birindən artıq bir vaxtı ancaq münaqişənin fəaliyyətsiz və səlahiyyətsiz ATƏM-in və 1995-ci ildən ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi çərçivəsində dinc yollarla aradan qaldırılması barədə məsləhətlər verməklə kifayətlənir. Bu müddətdə müxtəlif formatlarda Azərbaycan və Ermənistan rəhbərliyi arasında keçirilən saysız-hesabsız nəticəsiz görüşlər isə işğal altında olan torpaqların sülh yolu ilə işğaldan azad olunması üçün heç nə vəd etmir.

Beynəlxalq hüquq normaları isə Azərbaycanın itirilmiş ərazi bütövlüyünü və suverenliyini işğalçıya qarşı müharibə aparmaq yolu ilə bərpa etmə hüququnu qadağan etmir.

**Nəticə.** Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü BMT Baş Assambleyası tərəfindən 14 dekabr 1974-cü ildə tərifi verilən "Təcavüzün tərifinin" yeddi bəndindən üçü istisna olmaqla (üçüncü,beşinci və altıncı), digər dörd bəndi ilə identiklik təşkil edir.

Aydın görünən bu silahlı təcavüz aktları nəticəsində Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü pozularaq, ərazisinin 20 faizi işğal olunmuşdur. BMT Təhlükəsizlik Şurasının, işğalla əlaqədar olaraq qəbul etdiyi dörd qətnamənin (822, 853, 874 və 884) heç birində Ermənistanın təcavüzkar dövlət olması barədə heç nə deyilmir. Belə ki, Təhlükəsizlik Şurasının daimi üzvü olan beş böyük dövlət (ABŞ, Rusiya, Çin, Fransa və Böyük Britaniya) Ermənistanı təcavüzkar dövlət kimi tanımaq istəməyərək, münaqişənin miqyasını bilərəkdən süni surətdə kiçildərək, "beynəlxalq silahlı münaqişə" səviyyəsindən "qeyri beynəlxalq" xarakterli (ölkənin sərhədlərini pozmayan, xaricdən heç bir müdaxilə olmadan ölkədaxilində baş verən) silahlı münaqişə səviyyəsinə endirmiş, BMT Nizamnaməsinin onlara verdiyi səlahiyyətlərdən istifadə edərək təcavüzkara qarşı təsir etmə imkanları olduğu halda heç bir tədbir görməmiş və münaqişənin ATƏM, daha sonra ATƏT çərçivəsində atəşkəs və danışıqlar yolu ilə həllini məsləhət görmüşlər. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini dərindən təhlil edərkən, münaqişənin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi və ətrafında yerləşən rayonlarda yerli erməni silahlı dəstələri ilə azərbaycanlı silahlı dəstələri

arasında etnik zəmində baş verən silahlı münaqışə kimi qələmə verilməsi tam aydınlığı ilə görünür.

Məqsədli şəkildə Ermənistan bu münaqişədən kənarda göstərilmiş və ondan Dağlıq Qarabağ bölgəsi və onun ətrafında yerləşən rayonlardakı erməni silahlı dəstələrinə "qətnamələrin" tələblərinə riayət etmələri üçün çağırış etməsi istənilmişdir. BMT bu günə qədər Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzünə göz yumur, münaqişənin Minsk Qrupu çərçivəsində dinc yolla həll olunmasını məsləhət görməklə, öz missiyasını bitmiş hesab edir. BMT-nin bu mövqeyinə Ermənistanı və onun cinayətkar rəhbərliyini ədalət mühakiməsindən yayındırmaqdan və Azərbaycana qarşı qərəzli mövqe tutmaqdan başqa heç bir ad vermək olmaz.

## ƏDƏBİYYAT

1. Hüseynov L.H Beynəlxalq hüquq. Bakı: Qanun Nəşriyyatı, 2012, 368 səh.

1. 2.Beynəlxalq Humanitar Hüquq. Bakı: "BQXK" Azərbaycan nümayəndəliyi nəşriyyatı, 2016, 96 səh.

2. 3.1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyaları və onlara əlavə protokollar. Bakı: "BQXK" Azərbaycan nümayəndəliyi nəşriyyatı, 2015, 328 səh.

3. 4.Süleymanov E, Süleymanov V. Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələr.Bakı: "CBSpolygraphic production " nəşriyyatı, 2012,181s.

4. 5.Həsənov Ə.M. Azərbaycan Geosiyasəti. Bakı, "Zərdabi LTD" MMC, 2015. -1056 s.

5. 6.Məmmədov N. Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal (XX yüzillik). Bakı, "Təhsil", 2009, 272 səh.

6. 7.Akif Nağı. Qarabağ müharibəsi (qısa tarix). Bakı, "Namiq Həbibov mətbəəsi", 2011, 112 səh.

7. 8.Mirzəzadə A. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tarixi, mövcud durum və həlli perspektivləri. Bakı, "Azərbaycan Nəşriyyatı", 2015, 208 səh.

## ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSININ BEYNƏLXALQ HÜQUQ MÜSTƏVİSİNDƏ QİYMƏTLƏNDİRİLMƏSİ

***Polkovnik Nəbi Hacıyev***

### XÜLASƏ

Məqalə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməsindən və bu silahlı təcavüzün həqiqi beynəlxalq hüquqi qiymət almamasından bəhs edir. Müəllifin fikrincə, BMT tərəfindən bu vaxta qədər Ermənistanın təcavüzkar dövlət kimi tanınmaması və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn tələblərinə əsasən "beynəlxalq silahlı münaqişə" kimi qəbul edilməməsi səbəbləri subyektiv geosiyasi maraqlardan və ikili standartlardan qaynaqlanır.

## ОЦЕНКА АРМЯНО-АЗЕРБАЙДЖАНСКОГО НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА В КОНТЕКСТЕ МЕЖДУНАРОДНОГО ПРАВА

***Полковник Наби Гаджиев.***

### РЕЗЮМЕ

В статье говорится о продолжающейся вооруженный агрессии Армении против Азербайджана и о том, что эта агрессия не получила подлинной международно-правовой оценки. По мнению автора, причины, по которым ООН не признает Армению как

агрессивное государство, а также то, что Армяно-Азербайджанский Нагорно-Карабахский конфликт не был признан "международным вооруженным конфликтом" в соответствии с международным правом и международным гуманитарным правом, проистекают из субъективных геополитических интересов и двойных стандартов.

## ASSESSMENT OF THE ARMENIAN-AZERBAIJAN NAGORNO-KARABAKH CONFLICT IN THE CONTEXT OF INTERNATIONAL LAW

***Colonel Nabi Hajiyev***

### SUMMARY

The article refers to the continuing military aggression of Armenia against Azerbaijan and that this aggression has not received a genuine international legal assessment. According to the author, the reasons why the UN does not recognize Armenia as an aggressive state, as well as the fact that the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict was not recognized as an "international armed conflict" in accordance with international law and international humanitarian law, stem from subjective geopolitical interests and double standards.

# MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFI

***Kərimov Nail Natiq oğlu***
***Azərbaycan Turizm və Menecment Universiteti***
***Elmi Rəhbər : E. Süleymanov***
***nailkerimov027@gmail.com***

***Açar sözlər:*** Qeyri-neft sektoru, iqtisadiyyat, manat, kapital, **yerli istehsal**
***Ключевые слова:*** ненефтяной сектор, экономика, манат, капитал, местное производство.
***Key words:*** non-oil sector, economy, manat, capital, local production.

Azərbaycanda qeyri-neft sektorunun davamlı inkişafı, ölkə iqtisadiyyatının ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyətli məhsulların istehsalının artırılması, məşğulluğun təmini kimi mühüm məsələlərin inkişafını stimullaşdıracaq istiqamətində həyata keçirilən tədbirlər gələcəkdə də davam etdiriləcəkdir.

**Kənd, meşə və balıqçılıq təsərrüfatları.** 2018-ci ilin yanvar-iyun aylarında kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 3206,1 milyon manat təşkil etmişdir ki, onun da 1774,8 milyon manatı və ya 55,4 faizi heyvandarlıq, 1431,3 milyon manatı və ya 44,6 faizi isə bitkiçilik məhsullarının payına düşür. Keçən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 7,6 faiz, o cümlədən bitkiçilik məhsulları üzrə 14,6 faiz, heyvandarlıq məhsulları üzrə 2,5 faiz artmışdır.

Cari ilin yanvar-iyun aylarında kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində əsas kapitala yönəldilmiş ümumi vəsait əvvəlki ilin müvafiq dövrünə nisbətən 73,7 faiz artaraq 188,4 milyon manata çatmışdır.

**Bitkiçilik**. Ölkədə yaz tarla işləri başa çatmışdır. Cari il iyun ayının 24-ü vəziyyətinə 450,8 min hektar sahədə yazlıq bitkilərin əkini aparılmışdır. Bu dövrdə 42,6 min hektar dənli və dənli paxlalı bitkilər (qarğıdalısız), 34,3 min hektar qarğıdalı, 59,3 min hektar kartof, 69,2 min hektar tərəvəz bitkiləri, 20,9 min hektar bostan bitkiləri, 132,5 min hektar pambıq, 8,6 min hektar şəkər çuğunduru, 11,5 min hektar dən üçün günəbaxan, 3,4 min hektar tütün, 61,7 min hektar çoxillik otlar, 1,7 min hektar birillik otlar, 5,1 min hektar sair yazlıq bitkilər əkilmişdir.

Respublikada əsas bitkiçilik məhsullarının yığımı davam edir və 2018-ci il iyul ayının 1-nə kimi sahələrdən 593,3 min ton və ya keçən ilə nisbətən 5,8 faiz çox tərəvəz, 304,3 min ton və ya 6,9 faiz çox kartof, 103,5 min ton və ya 7,3 faiz çox meyvə və giləmeyvə, 975,1 ton və ya 8,2 dəfə çox tütün yarpağı və 360,7 ton və ya 10,5 faiz çox yaşıl çay yarpağı yığılmışdır. Bundan başqa, hesabat dövründə 39,9 min ton bostan məhsulları toplanmışdır.

İyulun 1-i vəziyyətinə qarğıdalı daxil olmaqla 1806,2 min ton (keçən il 1393,6 min ton) dənli və dənli paxlalı bitkilər yığılmışdır.

2018-ci il iyul ayının 1-nə ölkədə ümumi sahəsi 1,3 min hektar olan 2907 istixana fəaliyyət göstərmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə istixanaların ümumi sayında 4,2 faiz, onların sahəsində isə 6,8 faiz artım olmuşdur.

2017-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-iyun aylarında istixanalarda yetişdirilən pomidorun istehsalı 4,3 faiz artaraq 173,1 min ton, xiyarın istehsalı isə 2,7 faiz artaraq 7,8 min ton olmuşdur.

**Heyvandarlıq.** 2018-ci ilin birinci yarısında ölkə üzrə diri çəkidə 245,2 min ton ət, 1016,8 min ton süd və 887,4 milyon ədəd yumurta və 14,5 min ton yun istehsal edilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 3,1 faiz, süd istehsalı 1,3 faiz, yumurta istehsalı 0,9 faiz artmışdır.

Bundan başqa, ölkədə 514 ton barama istehsal olunmuşdur ki, bu da son 20 ilin ən yüksək göstəricisidir.

2018-ci il iyulun 1-i vəziyyətinə ölkə üzrə 2691,3 min baş iribuynuzlu mal-qara, o cümlədən 1290,7 min baş inək və camış, 8649 min baş qoyun və keçi mövcud olmuşdur. İribuynuzlu mal-qaranın 48,0 faizini inək və camışlar təşkil edir.

Cari ilin yanvar-iyun aylarında quşçuluq fabriklərində diri çəkidə 39,4 min ton quş əti və 338,9 milyon ədəd yumurta istehsal olunmuşdur. Ümumilikdə fabriklər üzrə cəmi quşların sayı 9760,8 min baş olmuş, hər yumurtlayan toyuqdan orta hesabla 99 ədəd yumurta alınmışdır.

İqtisadiyyatın aparıcı sahələrindən olan aqrar sektorun innovativ inkişafını təmin etmək məqsədilə aqroparkların yaradılması xüsusi əhəmiyyət kəsb edir. Artıq Xaçmaz, Şəmkir, Cəlilabad və Goranboy rayonlarında aqroparklarda 1-ci mərhələ üzrə işlər başa çatdırılmışdır. Bundan başqa, ümumi dəyəri 1 milyard manatdan çox olan 30 rayon üzrə 192 min hektar ərazidə 45 aqroparkın yaradılması üzrə işlər sürətlə davam etdirilir. Aqroparklarda zəruri infrastrukturun yaradılmasına 207 milyon manat dövlət əsaslı vəsait qoyulmuş, 111 milyon manat dövlətin güzəştli krediti, dəyəri 564 milyon manat olan 25 layihəyə investisiya təşviqi sənədi verilmişdir. Azərbaycanın iqtisadi potensialının davamlı olaraq artmasında qeyri-neft sektorunun mühüm bir qolu kimi aqrar sektorun rolunu xüsusi qeyd etmək lazımdır. Son illərdə ölkə miqyasında böyük potensiala malik aqrar sektor yeni yanaşmalar əsasında inkişaf etdirilir, burada əmək tutumu böyük, gəlir imkanları geniş olan bitkilərin becərilməsi diqqət mərkəzində saxlanılır. Artıq respublikamızda dövlət dəstəyi hesabına yaradılan 32 fermer təsərrüfatı uğurla fəaliyyət göstərir. Bu təsərrüfatlarda məhsuldarlıq əhəmiyyətli dərəcədə artıb. Ölkədə dəyər zəncirinin bütün halqalarını özündə birləşdirən aqroparkların yaradılması güclü şəkildə təşviq edilir. Perspektivdə ölkədə bitkiçilik və heyvandarlıq üzrə aqroparkların sayını 45-ə çatdırmaq hədəflənib. Aqroparklarda zəruri infrastrukturun yaradılmasına 207 milyon manat dövlət əsaslı vəsait qoyulub, 111 milyon manat dövlət güzəştli krediti və dəyəri 564 milyon manat olan 25 layihəyə investisiya təşviqi sənədi verilib. Bu ilin birinci yarısında isə kənd təsərrüfatı 7,6 faiz artıb. Bu sahədə artım dinamikası ildən ilə yüksəlir. Ona görə də, aqrar sahənin potensialından daha səmərəli istifadə etmək əsas hədəflərdən biridir.

Ölkəmizdə qeyri-neft iqtisadiyyatının inkişafına göstərilən dəstək tədbirləri öz müsbət nəticələrini verir. Bunu 2018-ci ilin arxada qalan 6 ayının göstəriciləri də təsdiqləyir. Cari ilin birinci yarısında respublikamızda neftdənkənar iqtisadiyyat üzrə daha yüksək göstəricilər əldə olunub.

Hazırki şəraitdə hər bir ölkənin gücü, ümumi iqtisadi potensialı, qlobal miqyasdakı yeri bir sıra digər parametrlərlə yanaşı, eyni zamanda, sənaye inkişafı ilə ölçülür. Güclü sənaye potensialına malik olan ölkələr həm daxili tələbatlarını yerli istehsal hesabına ödəyərək maliyyə vəsaitlərini qoruyurlar, həm də xarici bazarlarda böyük həcmlərdə məhsullarla təmsil olunaraq özlərinə valyuta axınını təmin edirlər. Sənaye sektorunun inkişafının iqtisadi-siyasi önəmi ilə yanaşı, sosial əhəmiyyəti də kifayət qədər böyükdür. Belə ki, yüksək əmək tutumuna malik sənaye istehsalatları əhalinin məşğulluğunun təmin olunmasında və beləliklə də, yoxsulluğun aradan qaldırılmasında mühüm rol oynayırlar.

Ölkədə qeyri-neft sənayesinin inkişafında son illərdə bütün respublika boyu yaradılan müasir infrastruktur fundamental amillərdən biri qismində çıxış edir. Sənaye inkişafını güclü infrastruktur təminatı olmadan təsəvvür etmək mümkün deyil. Son illərdə əsaslı dövlət vəsaiti qoyuluşu hesabına Azərbaycan infrastruktur təminatı baxımından dünyanın ən qabaqcıl ölkələri səviyyəsinə yüksəlib ki, bunun da sayəsində respublikamızda sənaye quruculuğu üçün geniş perspektivlər açılıb.

Respublikamızda müasir çağırışlar nəzərə alınmaqla qeyri-neft sənayesinin inkişafına göstərilən diqqət öz bəhrəsini verir. Əlamətdar haldır ki, son illərdə Azərbaycanda ən yaxşı inkişaf göstəriciləri məhz qeyri-neft sənayesində qeydə alınır.

Bütövlükdə, son 15 ildə respublikamızda sənaye istehsalı 2,7 dəfə artıb. Hazırda ölkənin qeyri-neft sənayesində buraxılan ət və süd məhsulları, duz, meyvə və tərəvəz konservləri,

mineral sular, sement və klinkerlər, gips, əhəng, alçipan, kərpic, betondan tikinti blokları, armatur, alüminium və ondan alınan məmulatlarla ölkənin özünütəminetmə səviyyəsi digər sənaye məhsulları ilə müqayisədə daha yüksəkdir. Hazırda respublikamızda sənayenin qeyri-neft sektorunda bir sıra yeni irimiqyaslı layihələr həyata keçirilir. Şübhə yoxdur ki, yeni layihələr hesabına perspektivdə neftdənkənar sənaye sektorunda istehsal imkanları daha da artacaq.

2018-ci ilin 6 ayı ərzində layihələrin ümumi dəyəri 468 milyon manat olan 611 sahibkara geri qaytarılan vəsaitlər hesabına 100 milyon manat (o cümlədən, 560 kiçik həcmli layihəyə 6.4 milyon manat) güzəştli kredit verilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1.6 dəfə çoxdur. Bu kreditlər hesabına ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 dəfə çox olmaqla 7 mindən çox yeni iş yerinin açılması imkanı yaranmışdır. Kreditlərin 72%-i regionların, 28%-i isə Bakı şəhərinin qəsəbələrinin, 68%-i aqrar sektorun, 32%-i müxtəlif sənaye və digər sahələrin payına düşür.

**Yerli istehsalın qorunması və ixracın təşviqi üzrə tədbirlər.** Yerli istehsalın qorunması, qeyri- neft ixracının artırılması və ixracın diversifikasiyasının təmin edilməsi məqsədi ilə 84 mal mövqeyi üzrə idxala iki il müddətinə spesifik rüsumlar tətbiq edilmişdir.

İdxal gömrük rüsumlarında azpilləli sistemə keçid təmin edilmişdir. 3661 mal mövqeyi üzrə idxal rüsumları azaldılmışdır. 690 mal mövqeyi üzrə idxal rüsumları artırılmışdır. Artımın əsas səbəbi ölkədə istehsalı olan yerli malların xarici təsirlərdən qoruması məqsədilə edilmişdir.

**Tikinti.** Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2018-ci ilin yanvar-iyun aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 6331.7 milyon manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 14.1 faiz az vəsait yönəldilmişdir. Bu azalma neft sektoruna yatırılmış investisiyaların azalması ilə bağlı olmuş, qeyri-neft sektoruna yönəldilmiş vəsaitin həcmi isə 21.5 faiz, o cümlədən qeyri-neft sənayesinə qoyulmuş investisiyalar

72.8 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 4555.2 milyon manatı və ya 72.0 faizi məhsul istehsalı obyektlərinin, 1312.7 milyon manatı (20.7 faizi) xidmət sahələri üzrə obyektlərin, 463.8 milyon manatı (7.3 faizi) isə ümumi sahəsi 946.4 min kvadrat metr olan yaşayış evlərinin tikintisinə sərf olunmuşdur.

Ümumi sərmayənin 49.8 faizi dövlət, 50.2 faizi qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 72.9 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir.

Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin dəyəri ümumi sərmayənin 54.3 faizini təşkil etmişdir.

2018-ci ilin yanvar-iyun ayları ərzində iqtisadiyyatda əsas kapitala qoyulmuş cəmi investisiyaların 55.4%-i və ya 3505.0 milyon manatı qeyri-neft sektoruna yönləndirilmişdir. Əsas kapitala qoyulmuş investisiyaların 11.7%-i, qeyri-neft sektoruna yönləndirilən investisiyaların isə 21.1%-i və ya 739.7 milyon manatı qeyri-neft sənayesi bölməsinin inkişafında istifadə edilmişdir.

2018-ci ilin yanvar-iyun aylarında Naxçıvan Muxtar Respublikasında Təmizləyici Qurğular Kompleksi, Naxçıvan Müəllimlər İnstitutunun yeni binası, 922 şagird yerlik 3 ümumtəhsil məktəb binası və bir növbədə gəlişlərin sayı 15 nəfər olan ambulatoriya-poliklinika müəssisəsi, Bakı şəhərində

Yüksəkgərginlikli avadanlıqlar zavodu, 110/35/10 kilovoltluq “Yasamal-1” və “Qobu”, 35/10-6 kilovoltluq 120 saylı elektrik yarımstansiyaları, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi, Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin yeni binası, Bona Dea Beynəlxalq Hospitalı, Mingəçevir şəhərində Mingəçevir Sənaye Parkında “Mingəçevir Tekstil” MMC-nin iplik istehsalı üzrə iki müəssisəsi, Naftalan şəhərində Naftalan şəhər Mərkəzi Xəstəxanası, Goranboy rayonunda “Region Aqropark”, Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsi, 110/35/10 kilovoltluq “Dəliməmmədli” elektrik yarımstansiyası,

Dəlimәmmәdli-Quşçular-Fәxralı-Qurbanzadә- Alpout avtomobil yolu, Xaçmaz rayonunda "Azərxalça" ASC-nin Xaçmaz filialı, Neftçala rayonunda Neftçala Sənaye Məhəlləsində "Xəzər" avtomobil zavodu və s. obyektlər istifadəyə verilmişdir.

**Nəqliyyat.** Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2018-ci ilin yanvar-iyun ayları ərzində nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 110.2 milyon ton yük daşınmış və 2017-ci ilin müvafiq dövrünə nisbətən 1 faiz artım müşahidə olunmuşdur. Yüklərin 3.9 faizi dəniz, 6.1 faizi dəmir yolu, 0.1 faizi hava, 63.9 faizi avtomobil nəqliyyatı, 26.0 faizi isə boru kəməri ilə daşınmışdır.

Şimal-Cənub nəqliyyat dəhlizi vasitəsi ilə dəmir yolu ilə daşınan ümumi yükün həcmi cari ilin yanvar-may aylarında ötən ilin analoji dövrünə nisbətən 76 min ton artmışdır. Bu dövrdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanında aşırılan yüklərin həcmi keçən ilin analoji dövrünə nisbətən 8 faiz artmış, ümumilikdə isə ölkə ərazisindən daşınan tranzit qeyri-neft məhsulları müvafiq olaraq 9 faiz artaraq 805 min ton olmuşdur. Son illərdə respublikamızda Prezident İlham Əliyevin təşəbbüsünə əsasən sənaye parklarının və sənaye məhəllələrinin yaradılması geniş vüsət alıb.Ölkədə sənaye parklarının və sənaye məhəllələrinin yaradılması ilə Azərbaycanda sənayenin inkişafında keyfiyyətcə yeni mərhələnin açıldığını söyləmək mümkündür. Bu amil ölkədə qeyri-neft sektorunun inkişafında mühüm rol oynayır. Sənaye məhəllələri və parkları üçün infrastruktur təminatı bir qayda olaraq dövlət vəsaiti hesabına yaradılır. Ümumiyyətlə, investorların sənaye məhəllələrinə və parklarına cəlb edilməsi məqsədilə reallaşdırılan təşviq tədbirlərinin miqyası kifayət qədər genişdir. İş adamları da yaradılan əlverişli şəraitdən, dövlət dəstəyindən maksimum dərəcədə bəhrələnməyə çalışırlar. Bu dövlət-özəl sektor əməkdaşlığının nəticəsidir ki, sənaye parklarının yaradılması artıq öz səmərəsini verir.

**Turizm.** Dövlət Statistika Komitəsinin məlumatına görə, 2018-ci il yanvar-iyun ayları ərzində turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində yaradılmış əlavə dəyər əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 7.4 faiz artaraq 926.3 milyon manata çatmış və qeyri-neft ÜDM-də xüsusi çəkisi 4.5 faiz təşkil etmişdir.

2018-ci ilin I yarımilliyi ərzində Azərbaycana gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı 1325,0 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,2 faiz çox olmuşdur. Gələnlərin 30,5 faizi Rusiya Federasiyası, 21,1 faizi Gürcüstan, 11,1 faizi İran, 10,8 faizi Türkiyə, 3,6 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,1 faizi İraq, 2,0 faizi Ukrayna, 18,7 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur.

2018-ci ilin I yarımilliyi ərzində "ASAN VİZA" sistemi vasitəsilə Azərbaycana səfər etmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə 265899 elektron viza verilmişdir. Elektron viza üçün müraciət etmiş vətəndaşların sayına görə ilk 3 yeri İran, Pakistan və Hindistan tutmuşdur.

**İnformasiya və rabitə.** Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2018-ci ilin yanvar-iyun ayları ərzində informasiya və rabitə müəssisələri 865.9 milyon manatlıq xidmət göstərmişdir ki, onun da 72.2 faizi əhali tərəfindən istehlak olunmuşdur. 2017-ci ilin eyni dövrü ilə müqayisədə informasiya və rabitə xidmətlərinin dəyəri real ifadədə 4.9 faiz artmış, bu sahədə əldə edilmiş gəlirin 80.9 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

Xidmətlərdən əldə edilən gəlirin 48.5 faizi və ya 419.7 milyon manatı mobil telefon rabitəsi sahəsində formalaşmışdır.

## ƏDƏBİYYAT

1.Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı. AR Prezidentinin 27.02.2014-cü il tarixli 118№-li Fərmanı ilə təsdiq edilib. Bakı. 2019.

2.Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydalarının təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında AR Prezidentinin Fərmanı, 14 may 2010-cu il, Bakı.

3. Aliyev İ. Ölkədə qeyri-neft sənayesinin inkişaf strategiyası. http:// www.yeniazerbaycan.com (12.04.2014).

4. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

5. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər).

## XÜLASƏ

Prezident İlham Əliyevin rəbərliyi ilə həyata keçirilən islahatlar onu fikirləşməyə əsas verir ki, bir neçə ildən sonra Azərbaycan iqtisadiyyatı neft sektorundan asılılığı mimimum dərəcədə olan dövlətlər sırasında olacaqdır.Bəli, hal-hazırda ümumi iqtisadiyyatda müəyyən geriləmələr var, ancaq bu, ilk növbədə neftin dünya bazarlarındakı qiymətlərinin kəskin düşməsi və onun hasilatının azalması ilə bağlı olan bir məsələdir. Cari ilin birinci yarısında iqtisadiyyatın qeyri-neft sektorunun əksər aparıcı sahələrində isə nəticələr pozitivdir. Əgər keçən illə müqayisədə qeyri-neft sənayesi, kənd təsərrüfatı istehsalı, nəqliyyat, informasiya və rabitə xidmətləri, pərakəndə ticarət və s. sahələr üzrə ciddi irəliləyişlər ola bilibsə, bu, o deməkdir ki, dövlətimiz postneft dövrünün nəbzini vaxtında və çox dəqiq tuta bilib və onun bu dövrdə apardığı islahatlar mövcud vəziyyətə tam adekvat islahatlardır.

Bunun belə olduğunu və Azərbaycan hökumətinin postneft dövründə apardığı iqtisadi islahatların əhəmiyyətini dünyanın iki ən böyük maliyyə institutunun - Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının rəhbərlikləri də artıq rəsmi bəyan ediblər və onlar tərəfində də təsdiq edilmişdir ki, davamlı surətdə həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində qısa müddət ərzində neft sənayesindən asılılıq minimuma enəcəkdir. Hal - hazırda Azərbaycan bu yolda daha inamla irəliləmək və postneft dövrünün islahatlarını maksimum qısa zaman kəsiyində başa vurmağı hədəfləyir. Ölkə Prezidentinin qeyd etdiyi kimi, islahatların əsas hədəfi bir neçə il ərzində dövlət büdcəmizin gəlirlərini qeyri-neft sektoru hesabına təmin etmək olmalıdır. Bu baş verdikdən sonra isə dünya bazarlarında neftin qiymətlərinin dəyişməsinin heç bir əhəmiyyəti olmayacaq.

## SUMMARY

The reforms carried out under the leadership of President Ilham Aliyev give reason to think that in a few years the economy of Azerbaijan will be among the countries with the highest degree of dependence on the oil sector.Yes, there are certain regressions in the general economy at the moment, but this is primarily due to a sharp drop in oil prices in the world markets and a decrease in its production. In the first half of this year, the results in most leading sectors of the non-oil sector of the economy are positive. If compared to last year, non-oil industry, agricultural production, transport, information and communication services, retail trade, etc. if there can be serious progress in the field, it means that our state has managed to keep the pulse of the post-oil period in time and accurately, and the reforms it has carried out in this period are fully adequate reforms.

The leaders of the two largest financial institutions of the world - the International Monetary Fund and the World Bank-have already officially declared that as a result of the ongoing socio-economic reforms, dependence on the oil industry will be minimized in a short period of time. At present, Azerbaijan aims to move on this path more confidently and complete the reforms of the

post-oil period in the shortest possible time. As noted by the president of the country, the main goal of the reforms should be to ensure the revenues of the state budget at the expense of the non-oil sector for several years. After this, the change in oil prices on the world markets will not be of any importance.

## РЕЗЮМЕ

Проведенные под руководством Президента Ильхама Алиева реформы дают основания полагать, что через несколько лет экономика Азербайджана войдет в число стран с наибольшей степенью зависимости от нефтяного сектора.Да, определенные регрессии в экономике в целом на данный момент есть, но это связано в первую очередь с резким падением цен на нефть на мировых рынках и снижением ее добычи. В первом полугодии текущего года результаты по большинству ведущих отраслей ненефтяного сектора экономики положительные. По сравнению с прошлым годом это ненефтяная промышленность, сельскохозяйственное производство, транспорт, информационно-коммуникационные услуги, розничная торговля и др. если есть серьезный прогресс в этой области, значит, наше государство сумело вовремя и точно держать пульс постнефтяного периода, и реформы, которые оно провело в этот период, являются вполне адекватными реформами.

Лидеры двух крупнейших финансовых институтов мира-Международного валютного фонда и Всемирного банка-уже официально заявили, что в результате проводимых социально-экономических реформ зависимость от нефтяной отрасли будет сведена к минимуму в короткие сроки. В настоящее время Азербайджан стремится двигаться по этому пути более уверенно и завершить реформы постнефтяного периода в кратчайшие сроки. Как отметил президент страны, главной целью реформ должно стать обеспечение доходов государственного бюджета за счет ненефтяного сектора в течение нескольких лет. После этого изменение цен на нефть на мировых рынках не будет иметь никакого значения.

# MƏDƏNİ İRS TURİZMİNİN TURİZM BÖLGƏLƏRİNƏ TƏSİRİ

***İlkin Mürsəlli***
***Azərbaycan Turizm və Menecment Universiteti, Magistrant***
***ilkinmursalli@gmail.com***
***Rəyçilər: i.ü.f.d., dos. Arzu A. Hüseyn***
***Menecment kafedrasının müəllimi: Səbinə A. Cumazadə***

***Açar sözlər:*** Turizm, mədəni irs turizmi, turizm bazarı, Lijianq, destinasiya.
***Ключевые слова:*** Туризм, культурное наследие туризм, туристический рынок, Лицзян, туристическое направление.
***Key words****:* Tourism, cultural heritage tourism, tourism market, Lijiang, tourism destination.

Bildiyimiz kimi, mədəni irs turizmi beynəlxalq turistlər üçün ən böyük cəlbedici turizm məkanlarıdır, bu isə öz növbəsində xarici gəlir mübadiləsinin əsas mənbəyidir. Ancaq, metal sikkənin 2 üzü olduğu kimi, mədəni irs turizmi də ziddiyyətli bir məfhumdur. Xüsusilə, davamlı mədəni irs baxımından, turizm hər iki tərəfi iti olan qılınca bənzəyir [8, s.69-85] və iqtisadi gəlirlər getdikcə artsa belə, mədəni irs turizminin inişaf kursu üzərində heç vaxt çəkilməyən bulud kölgəsinə oxşayan mənfi təsirlər yaradır. Məsələn, bir çox mədəni irs bölgələrində turizmin inkişafı zamanı iqtisadi böyümə və böyük sosial inkişaf əldə edilən kimi, bunu bəzi sosial təzyiq və ətraf mühit problemləri izləmişdir. Bəzi məkanlarda turist izdihamı nəticəsində yerli əhaliyə və məskunlara kəskin təsirlər yaranır və yerli fərqləndirici xüsusiyyətlər yox olmaq təhlükəsi ilə üzləşir. Bəzi agentliklərin etik olmayan fəaliyyətləri nəinki mədəni varlıqların uyğun olmayan şəkildə istifadəsinə və istismarına icazə verir, hətta bunu təşviq edir və nəticədə bu, varlıqların məhvinə və yerli gözətçilərlə, adət-ənənə daşıyıcıları ilə konfliktlərin yaranmasına səbəb olur.

Mədəni irs turizmi ətraf mühiti çirkləndirərək, təbii köhnəlməni sürətləndirərək və digər mənfi təsirlər göstərərək, irs bölgələrinə hörmətsizlik yaradır və bu da öz növbəsində, turizm sahəsində mədəni irs turizminin inkişafında əsas problemə çevrilir. Bir çox hallarda, Dünya Mədəni İrsi siyahısına təyin edilmək, sadəcə beynəlxalq maliyyə dəstəyi almaqla əlaqəlidir və marketinq məqsədləri üçün ideal vasitədir [11, s.7-8]. Belə ki, xüsusilə çox mədəniyyətli konteksdə, həyatı vacib cəhətləri qoruyaraq mədəni irs turizmini inkişaf etdirmək, turizmin inkişafında böyük praktiki əhəmiyyətə malikdir.

Bu məqalədə mədəni irs turizminin turizm destinasiya olan mənfi təsirlərinin araşdırılması üçün dünyanın ən məşhur mədəni irs turizm destinasiyalarından biri olan Çinin Lijianq şəhəri əsas götürülmüşdür.

Lijianq Çinin cənub-qərbində, Yunnan əyalətinin şimal-qərbində yerləşir. Lijianqın Köhnə Şəhəri (Old City) 1997-ci ildə UNESCO-nun Dünya Mədəni İrsi siyahısına salınmışdır.

Lijianqda turizm sənayesi zəngin milli resurslar sayəsində sürətli şəkildə inkişaf etmişdir. Hal-hazırda, Lijianqdakı qədim ənənəvi musiqi növləri olan Naxi və Donqba mədəniyyəti dünyada ən təsirli turizm brendləridir [2].

Mədəniyyət mirası mədəni irs turizminin ən vacib aspektidir. Mədəni irs üçün tələb edilən quruluş daşıyıcıdan, ardıcıl formadan, orijinallıq və çəkmə-itələmə gücünün əks etdirilməsindən ibarətdir. Təəssüf ki, turizmin inkişafının bütün faydalarına baxmayaraq, mədəni irs turizminin sürətli inkişafı mədəni irs üçün dialekt, həyat tərzi, mədəni orijinallıq, şəhər funkisyası, turizm sənayesinin idarə edilməsi və başqa mövzularda çoxlu təzyiq və təhlükələr yaratmışdır. Bu təhlükələr aşağıdakı kimidir:

a) – Naxi dili və Donqba yazısı yox olmanın astanasındadır. Naxi etnik qrupu Şimal-qərbi Çinin qədim Qianq etnik qrupunun bir qolu olmaqla, Lijianq bölgəsində Tanq Sülaləsinin

dövründə, 3-cü əsrdə məskunlaşmışdır. Naxi xalqı "Donqba yazısı" adlanan özlərinin şəxsi heroqlif yazısını yaratmışdılar. Bu yazı növü heroqlif simvollarından, fonetik simvollardan və əlavə simvollardan təşkil olunmuşdu. Donqba yazısı hazırda dünyada istifadə edilən yeganə fikri yazı növüdür [3].

Naxi dili intellektual inkişaf üçün maneə hesab edildiyindən, Naxidə doğulan və yaşayan uşaqların çoxu Mandarin və digər Çin dialektlərini öyrənməyə daha həvəslidirlər. Daxili turizm partlayışı da yerli dili öyrənməyə olan motivasiyanın azalmasına səbəb olduğu üçün, hazırda Naxi dilində danışa bilən və Donqba yazısını yaza bilən cəmi 300-ü keçməyən və çoxu qoca nəslə aid olan Naxi qrupu vardır. Sadəcə, bu yaşlı nəsil sayəsində onların gözəl folklor əfsanələri və tarixi rəvayətləri ötürülə bilir, lakin onlar qocalır və bir gün əlbəttə bu dünyadan köçüb gedəcəklər, əgər heç bir qabaqlayıcı tədbir alınmasa, bu dəyərli dil və mədəni ənənələr onlarla birgə qəbirə gedəcək.

b) – Orijinallığın azalması – Naxi mədəniyyətinin həddən artıq kommersiyalaşdırılması onun orijinallığının azalmasına gətirib çıxarmışdır. Lijianqın Köhnə Şəhərində turistlər hər yerdə balqabaqdan hazırlanan fleytalarda səsləndirilən Day musiqiləri və əslində Quanqzhou, Venzhou və başqa yerlərdə istehsal olunan Miao naxışları və Bai kostyumları ilə əhatə olunurlar. Etnik rəqslər daha çox ümumi mədəni performans kimi qəbul edilsə də, orijinallığın azalması o mənanı verir ki, bu daha çox turistləri əyləndirmək məqsədi daşıyır və həmçinin, ənənəvi Naxi pəhrizi də daha sıxıcı və aşağı keyfiyyətli olmağa başlayıb. Donqba mədəniyyətinin sui-istifadəsi də Lijianqda mədəni orijinallığın əsas təhlükələrindən biridir. Şükür və uğurla bağlı olan Donqba simvolları turistləri cəlb etmək üçün fərqləndirici məhsulların üzərində çap edilir, lakin qısa səyahət zamanı turistlərin bu saf simvollara sadəcə baxmaqla həqiqi dəyərini başa düşmələri mümkün deyildir. Buna görə də, Köhnə Şəhər cansız mədəni muzeyə çevrilmək təhlükəsi ilə qarşı-qarşıyadır [14, s.9-11].

c) – Həddən artıq turist axınları – Lijianq şəhərinin turizm bazarının quruluşu beynəlxalq turistlərinin üstünlük etdiyi destinasiyadan daxili turistlərin dominant olduğu destinasiyaya doğru dəyişmişdir. Turistlərin çoxu sadəcə bayram günləri səyahət etdiyi üçün qeyri-taraz səyahət mövsümləri də əsas problemlərdən biridir. Lijianq Çində ən məşhur mədəni irs turizm bölgəsi olduğu üçün, durğunluq və həddən artıq fəallıq dövrü problemi daha şiddətlidir. Statistikaya görə, 2010-cu ildə Milli Gün Bayramında Lijianqın Köhnə Şəhərində 7 gün ərzində 84.995 turist adambaşı 12.60 ABŞ dolları xidmət haqqı ödəmişdir.

d) – Dəyişən sakinlər və şəhər funksiyası – Köhnə şəhərin sakitliyi və rahatlığı bu kiçik şəhərə turist izdihamının axması ilə yoxa çıxdı. Yerli əhali şəhərdən köçüb getdi və hal-hazırda Köhnə Şəhərdə cəmi 6.200 evdə yaşayış var, halbuki, 1996-cı ildə bu rəqəm 30.000 ev idi. Yerli sakinlər adətən evlərini xarici ticarətlə məşğul olanlara turist mağazası kimi icarəyə verirlər və ya turistlər üçün qalmaq yeri kimi dizayn edirlər. Dövlət statistikasına görə, Lijianqdakı Köhnə Şəhərdəki yerli əhalinin 70%-i kənardan gələnlərdir. Şəhərin "ürəyi" Meydan Küçəsi turistlərin istirahət və alış-veriş məntəqəsinə çevrilib. Folklor tamaşaları və qonşularla ünsiyyət üçün yerlər də həmçinin turistlər tərəfindən "işğal" edilib. Yerli əhali üçün olan biznes və xidmət infrastrukturları da turist icması və bahalı yeməkxanalara çevrilib ki, bu da öz növbəsində yaşayış qiymətlərini qaldırıb və yerli əhalinin şəhərdən kənara doğru miqrasiyasına güclü təkan verib.

e) – Turizm sənayesinin idarə edilməsinin aşağı səviyyədə olması – Yunnan yarımadasının əsas turizm mərkəzi olduğu üçün Lijianqın normalda gözəl əhatəsi və əla idarəetmə sistemi olmalıdır. Buna baxmayaraq, bəzi ərazilərdə, yaşıl sahələrin az olması, həddən artıq tullantıların mövcudluğu və su hövzələrinin çirklənməsi hələ də əsas problemlərdən biridir. İqtisadi təsirlər, inkişaf edən turizm nöqtələrindən və turizm məhsullarından müdafiə olunmaqdan və sosial təsirlərdən daha çox vurğulanır və bu mövzuları hələ də bəzi söz sahibləri və idarəedici şəxslər lazımsız hesab edir. Daxili nəqliyyatın idarə edilməsi isə ayrıca mövzudur. Lijianq dəmiryolu

stansiyasındakı taksi sürücülərinin çoxu Köhnə Şəhərə qədər olan 8 km-lik yol üçün taksidəki sabit qiymət göstəricilərinə baxmadan xarici turistləri sıxışdırır və onlardan fantastik məbləğdə xidmət haqları tələb edirlər. Digər əsas problemlərdən biri də, ictimai avtobusların adətən vaxtında gəlməmələridir. Şübhəsiz ki, inkişaf etdirilməmiş daxili nəqliyyat şəbəkəsi Lijianqın turizm imicini korlaya və turistlərin məmnuniyyətini azalda bilər [7, s.11].

Təbiət əsaslı turizmlə müqayisədə, mədəni irs turizmi daha mürəkkəb bir qavramdır. Qonşuluqların iqtisadi inkişafı üçün ictimaiyyət əsaslı mədəni irs turizm modelinin əsası Vaşinqtonda qoyulmuşdur. Model açıq-aydın bəyan edilmiş missiyanın, potensial partnyorların, mədəni icmanın xaricdə təhsilinin, aktivlərin bölüşdürülməsinin, elmi araşdırmaların, siyasi dəstəyin, əsas tərəfdaşlıqların, strateji planın və davamlı maliyyə dəstəyinin mərkəzləşdirilmiş koalisiyasından ibarətdir.

Dövlətin mədəni irs turizminin dayanıqlı inkişafını təmin etməsi üçün 3 mərhələli prosesi icra etməsi tələb olunur: dəstək, iştirak və balans. Dəstək deyilərkən, maliyyə, təhsil, elmi, siyasi, qanuni tənzimləmə, strateji və planlaşdırma dəstəyi nəzərdə tutulur. Müsbət mənada iştirak mərhələsində isə yerli camaatın, yerli idarəetmənin, turizm operatorlarının və turistlərin iştirakı təmin edilməlidir. Balans mərhələsində isə faydaların bölüşdürülməsi, gücün ədalətli şəkildə verilməsi, mədəni tolerans, resurslara nəzarət və koordinasiya məsələlərində balansın təmini nəzərdə tutulur [4, s.39-54].

Lijianq mədəni irs turizm bölgəsində olan problemlər və onların idarə edilməsi yolları Azərbaycanda olan mədəni irs turizmi bölgələri üçün də xarakterik sayıla bilər. Azərbaycandakı mədəni irs turizm cəlbediciləri kimi Bakıdakı İçərişəhər Qala Divarları, Qız Qalası, Şirvanşahlar Sarayı və Karvansara kompleksi, Atəşgah Kompleksi, bölgələrdə Lahıcın qədim misgərlik məskəni, Şəki Xan Sarayı və s. kimi çoxlu nümunələr göstərmək olar. Bu turizm destinasiyalarının idarə edilməsi, problemlərin həlli və turistlərin sayının artırılması üçün yuxarıda Lijianq faktında təklif olunan həllərdən yararlanmaq mümkündür. Yəni, dövlətin birbaşa müdaxiləsi ilə yerli icmalarla, turizm agentlikləri və digər turizm xidmət qurumları ilə, sahibkarlarla partnyorluq təşkil edilərək, lazım olarsa, xarici mütəxəssislərin də köməyindən faydalanaraq, həm bütün tərəflərin fayda götürəcək şəkildə iştirakını təmin etmək, həm ümumi olaraq turizmin inkişafını təmin etmək, həm də yerli mədəniyyəti və tarixi abidələri qoruyaraq bu inkişafı dayanıqlı hala gətirmək mümkündür.

**Məqalənin aktuallığı.** Mədəni irs turizminin turizm sənayesindəki payının yüksək olmasına baxmayaraq, turizm bölgələrinin inkişaf etdirilməsi zamanı onun mənfi tərəfləri də diqqətə alınmalıdır. Bu baxımdan məqalə aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, dünyanın ən böyük mədəni irs turizm bölgəsi olan Çinin Lijianq şəhəri əsas götürülərək, mədəni irs turizminin mənfi tərəfləri sistemli şəkildə təhlil edilmiş və onların həll yolları barədə məlumat verilmişdir.

**Məqalənin praktiki əhəmiyyəti və tətbiqi.** Məqalədə mədəni irs turizminin problemləri və onların həll yolları verildikdən sonra, bu turizm sahəsinin Azərbaycanda inkişaf potensialı və problemlərinin həlli üçün təkliflər verilmişdir. Bu baxımdan məqalə praktiki əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT


1. Falade J., Aribigbola A. Rapid urban sector profiling for sustainability studies (RUSPS) in developing countries: Implications for urban planning in Ondo state, Nigeria. // Theoretical and Empirical Researches in Urban Management, 2010, 5 (14), pp. 82-94.

2. Guan G. The Old Town of Lijiang, etc. are awarded with 5A tourist attraction. // http://www.xinhua.net, 2011.

3. Halena. Naxi nationality // from Hudong encyclopedia: http://www.hudong.com, 2010.

4. Huibin X., Marzuki A., Abdul Razak A. Protective Development Of Cultural Heritage Tourism: The Case Of Lijiang, China. // Theoretical and Empirical Researches in Urban Management , Vol. 7, No. 1, 02/2012, pp. 39-54.
5. Li H. Positive research on domestic visitor's spatial behavior in ancient town of Lijiang // Sichuan University, Chengdu, China, 2005.
6. Mattix C. Using legal tools to preserve heritage sites. // In W. Nuryanti (Ed.), Heritage, tourism and local communities, 2010, pp. 109-123. Yogyakarta: Gadjah Mada University Press.
7. Niu Y. To discuss about these issues between tourism development in Lijiang and national culture protection. // Consume Guide, 2008, 58(23), p. 11.
8. Popescu R. I., Corbos R. A. The role of urban tourism in the strategic development of Brasov area. // Theoretical and Empirical Researches in Urban Management, 2010, 7 (16), pp. 69-85.
9. Smith K.S. Cultural heritage tourism in Washington, DC: A community-based model for neighborhood economic development. // Global Urban Development, 2008, 4(1), pp. 1-13.
10. Tao W., Cen Q. Comparative study on tourism development mode in historic towns: Venice and Lijiang // City Planning Review, 2006, 30(5), pp. 76-82.
11. Timothy D.J. Cultural heritage and tourism in the developing world: a regional perspective (Vol.10): Taylor & Francis, 2009.
12. Zhang Z., Lu Y. Folk culture and tourism development in the Old Town of Lijiang // China CollectiveEconomy (19), 2008, pp.139-140.
13. Zheng N. Changing on the trip of the Old Town of Lijiang // from Nssay Net: Retrieved from http://www.sanwen.net/subject/104613/, 2011.
14. Zong X. Tourism development and cultural transition: a case of Naxi culture in Naxi nationality autonomous county in Yunnan province. // Minzu University of China, Beijing, China, 2010.

## XÜLASƏ

Turizm sənayesinin ən geniş yayılmış növlərindən biri olan mədəni irs turizmi dünyada turistlərin ən çox üstünlük verdiyi turizm cəlbedicilərini öz əhatə dairəsinə almaqla, ən əhəmiyyətli gəlir qaynağına çevrilmişdir. Ancaq mədəni irs turizmi ziddiyətli bir məfhumdur. Yüksək gəlirlilik iqtisadi inkişafa səbəb olsa da, müxtəlif mənəvi, sosial, ekoloji problemləri də öz bərabərində gətirir. Bu məqalədə Çinin ən bəyük mədəni irs turizm məkanı olan Lijianq şəhəri əsas götürülməklə, mədəni irs turizminin inkişafı və onun turizm bölgəsinə mənfi təsirləri təhlil edilmişdir.

## РЕЗЮМЕ

Культурное наследие туризм, один из самых распространенных видов туристической индустрии, стал важнейшим источником дохода для туристов, охватывая самые популярные туристические направления в мире. Тем не менее, культурный туризм наследия является спорным понятием. Хотя высокие доходы приводят к экономическому росту, это также вызывает различные моральные, социальные и экологические проблемы. В данной статье анализируется развитие туризма с культурным наследием и его негативное влияние на туристические направления на основе города Лицзян, крупнейшего туристического направления в Китае.

## PSİXOLOGİYA

# TELEVİZİYA- GENDER STEREOTİPLƏRİNİN FORMALAŞMASINA TƏSİR GÖSTƏRƏN AMİL KİMİ

***Quliyeva Gülnarə***
***BDU- nun II kurs magistrantı***
***gulnara.qva@gmail.com***

***Açar sözlər:*** gender rolları, televiziya, reklam, gender stereotipləri, gender bərabərliyi, ictimai fikir
***Key words:*** gender roles, television, advertisement, gender stereotypes, gender equality, public opinion
***Ключевые слова:*** гендерные роли, телевизия, реклама, гендерные стереотипы, гендерные равенство, общественое мнение

Televiziyanın həyatımıza daxil olması sosializasiya prosesinə də öz təsirini göstərdi. Britaniyalı jurnalist Martin Esslin (8) bütün texnoloji dəyişikliklərdə olduğu kimi televiziyanın da ilk meydana gəldiyi vaxtlarda kiçik bir yenilik kimi görüldüyünü qeyd edirdi. Buna baxmayaraq televiziya qısa müddət ərzində cəmiyyətdə sosial, mədəni və intellektual sferanın olduqca təsirli amilinə çevrilmişdir. Televiziya dedikdə yalnız məlumat çatdırmaq mexanizmi nəzərdə tutulmur. Daha geniş mənada desək televiziya insanların davranış və düşüncələrində dəyişikliklərə səbəb ola biləcək mühüm təsiretmə mexanizmlərindən biridir (8, s. 5).

Televiziyanın sosial münasibətlərə təsirini inkar etmək olmaz. İnsanlar ətraf aləm, xüsusən də digər insanlar haqqında informasiya əldə etməyə meyillidirlər. Televiziyada təqdim olunan müxtəlif məzmunlu veriliş və proqram nümunələrini izləyən tamaşaçı müəyyən düşüncə və davranış formaları əldə edir. Bu düşüncə və davranış formaları bəzi hallarda reallıqla uyğunlaşsa da, bəzi hallarda isə qeyri- real olan düşüncə qəlibləri formalaşdırır. Formalaşmış qeyri- real düşüncə qəlibləri isə stereotip anlayışının yaranmasına səbəb olur (6, s. 37).

Stereotiplə bağlı ilk elmi- nəzəri baxış Walter Lipmannın "İctimai fikir" (Public Opinion) kitabında öz əksini tapmışdır. Məşhur jurnalist Walter Lippmann belə qeyd edirdi: " İnsanların ictimai reallığa reaksiya olaraq necə davrandıqlarını deyə bilmərik. Bizim tək bildiyimiz insanların əskik və qeyri- kafi təqdim edilən rəsmə reaksiyasıdır". O, streotip terminini "beynimizdə mövcud olan kiçik şəkillər" kimi xarakterizə edirdi. Müəyyən bir mədəniyyətdə bu şəkillər yüksək dərəcədə oxşarlıq təşkil edir. Stereotipləşdirmə yalnız müəyyən kateqoriyalardan ibarət deyildir. Setreotip, aralarındakı fərqləri göz önünə almadan bir qrupun bütün üzvlərinə eyni xarakteristik xüsusiyyətləri aid edərək, ümumiləşdirmə aparmaqdır (9, s. 33).

Həmçinin, stereotipləşdirmənin emosianal deyil, idrak prosesinə əsaslanan bir proses olduğunu da qeyd etmək olar. Stereotipləşdirmə insanların dünyaya baxışını asanlaşdıran bir prosesdir və hər kəs bunu müəyyən dərəcəyə qədər edir. Gordon Allport stereotipləşdirməni "minimum səy qanunu" olaraq adlandırır.(4, s.64) Allporta görə dünya o qədər qarışıqdır ki, hər hadisə ilə bağlı yüksək dərəcədə diqqətli bir münasibət yaratmaq üçün heç bir şansımız yoxdur. Buna görə də bir tərəfdən sistemli, doğru məlumatlara əsaslandığımız halda, bəzi hallarda bəsit, əsası olmayan inanclarla kifayətlənərək zaman və enerjimizi daha sərfəli istifadə edirik. Beləliklə, deyə bilərik ki, streotip insan qrupundakı fərdlərin şəxsi xüsusiyyətini görməmizə maneə törədir, haqsızlıq və potensial istismar hallarına səbəb olur (5, s.136).

Stereotiplərin daha çox gözə çarpan formalarından biri gender stereotiplərində meydana gələn gender fərqlilikləridir. Qlobal bir şəkildə qadınların kişilərə nisbətən daha sevgi dolu və daha az iddialı olduğu düşünülür. Bu cür təsəvvürlər bütünlükdə gender rolları ilə əlaqəli ola

bilər. Cəmiyyətdə əsasən belə fikirlər dolaşır ki, qadınlar yuvanı quran "dişi quşdur", bu səbəblə də qadınlar kişilərə nisbətən daha şəfqətli və nəvazişli olmalıdırlar.

Gender anlayışını analiz edərkən ilk öncə bu anlayış ilə sıx qarşılaşdırılan cinsiyyət anlayışını izah edək. İngilis sosioloqu Anthony Giddens bu iki anlayışın bir- birindən kəskin fərqləndiyini qeyd edirdi. Cinsiyyət anlayışı əsasən bir fərdin bioloji, fizioloji və genetik xüsusiyyətlərini açıqlamaqda istifadə edilir (4,s. 126).Gender sözü ilk dəfə Ann Oukli tərəfindən qadın və kişilərin bioloji və sosial xarakterini təsvir etmək üçün istifadə edilmişdir. Genderin ən sadə təsnifatı Ann Oukli tərəfindən belə verilmişdir: İnsanlar dişi və erkək doğulurlar, qız və oğlan kimi böyüməyi öyrənirlər, qadın və kişi kimi yetişirlər (Ann Oakley, 1972). Onlara cinslərinə uyğun davranış, inam, münasibət, rollar, fəaliyyət və başqaları ilə necə dolanmaq təlqin edilir. Bu öyrədilmiş davranışlar gender identikliyini yaradır və gender rollarını təyin edir. Qadın və kişilərin cəmiyyətdə oynadıqları rollar- həm bioloji, həm də sosial rollar çox önəmlidir, lakin sosial rollar bioloji rollardan daha çox əhəmiyyət kəsb edir. Həm bioloji, həm sosioloji rollar- mədəniyyətə, dini coğrafi şəraitə görə dəyişə bilər (1, s. 13).

Televiziya insanların dünya ilə bağlı məlumatları gücləndirən stereotiplərlə doludur. Stereotiplər həqiqətə çox yaxın deyildir. Tipik bir kişi stereotipi məcaranı sevən, hökm edən, ağıllı və sarsılmaz bir "həqiqi kişi"dir. Cinsiyyət rolları ilə bağlı belə stereotiplər izləyicilərin asanlıqla müəyyən edə biləcəyi və bağlana biləcəyi surətlərdir. Beləliklə, bu təhlükəni də özü ilə gətirir və izləyicilərin kişi və ya qadınlarla bağlı təsəvvürlərinə təsir edir. İnsanlarda kişilərin və ya qadınların kim ola biləcəyi və ya nə edə biləcəkləri ilə bağlı düşüncələrinə sərhəd qoyur, gözlənti və davranışlarına təsir edir. Bütün kişilər "lider", "aqressiv" , "bağımsız", "risk alan" və s. olmadığı kimi bütün qadınlar da "anlayışlı", "sadiq", " duyğusal " və s. deyildir. Televiziya ənənəvi stereotipləri gücləndirir və reallıq kimi bizə təqdim edir (3, s. 4).

Televiziya proqramlarının bir çoxunda, xüsusilə əyləncə və yarışma proqramlarında qadınların köməkçi rol aldıqları və əsasən vücudlarını nümayiş etdirərək proqramın baxılma reytinqini artırma məqsədinə xidmət etdikləri müəyyən edilmişdir. Bu araşdırma Archer tərəfindən aparılmışdır. Televiziya proqramlarında qadınların daha çox vüdudlarını nümayiş etdirməsi Archer və tərəfdaşlarının irəli sürdüyü face-ism halı ilə əlaqəlidir. Face-ism termini medyada kişilərin zehinləri ilə daha çox və bədənləri ilə daha az təsvir edilməsinə qarşılıq, qadınlarda isə bunun tam tərsi olaraq daha çox vücudları ilə, daha az zehinləri ilə təsvir edilməsini ifadə edir (10).

Reklamlar da gender rolları baxımından araşdırılmışdır. Son dövrlərdə reklamlarda cinsiyyət qəliblərinin azaldığı müəyyən edilmişdir. Qadınlar müxtəlif rollarda və kişilər də uşaqlarının baxımı ilə maraqlanarkən əks edilməyə başlanmışdır. Lakin təəssüflər olsun ki, bu stereotiplər yox olmuş deyildir. Amerikada aparılan araşdırmalara görə günün fərqli saatlarında bu saatlardakı izləyici kütləsinin xüsusiyyətləri diqqətə alaraq fərqli reklamlar nümayiş edilir. Gündüz saatlarında qadınlara istiqamətlənmiş və qadınlıq stereotipləri əsasında, həftə sonlarında kişilərə istiqamətlənmiş və kişilik stereotipləri əsasında reklamlar göstərilərkən axşam saatlarında bərabərliyi qorumaq şərtilə reklamlar göstərilir (4, s. 129).

İngilis dilindən belə bir məsəl var: " Söz bir fikri ifadə edər, şəkil min ". Biz kütləvi informasiya vasitələri ilə beynimizdə kişi və qadın stereotiplərini formalaşdırırıq. A. Lebedev-Lyubimovun fikrincə, reklamlardan çox istifadənin əsas səbəblərindən biri reklamın güclü psixoloji təsir göstərmə imkanının olmasıdır. Psixoloqlar tədqiq etmişlər ki, insanın əsas diqqəti reklam olunan obyektin üzərində cəmlənir. Psixoloqlara görə, reklamın təsirinin ən mühüm mexanizmlərindən biri sərbəst ixtiyari diqqətin qeyri- ixtiyari diqqətə çevrilməsidir. Keniq hesab edir ki, reklam obyektinə diqqət insanın iradəsi təsir etmədən baş verir və reklamdan alınan təsir müşahidəçinin şüuruna daxil olur və ona təsir göstərir. Gender rollarının reklamlarda öz əksini tapması insanların beynində qeyri- iradi olaraq stereotiplər formalaşdıraraq onların davranış tərzinə də təsir göstərir (2, s.280).

İctimai dəyərlər cinsiyyət fonunda müxtəlif formalarda analiz edilir. Əsasən mövcud cəmiyyətdə qadınlar dəyərlərin yükləndiyi, kişilər isə dəyərləri yükləyən mövqedədirlər. Bununla yanaşı belə fikir də mövcuddur ki, cəmiyyətdə qadın daha çox ev daxilində işlər ilə dəyər qazana bilər. Bunun nəticəsində də, qadına istiqamətli ictimai dəyərlərin göstəriciləri; yaxşı bir ana, həyat yoldaşı, ev qadını olması, həm yoldaşına, həm də uşaqlarına lazımlı zamanı ayırmasıdır. Yaxşı, pis, gözəl, çirkin, əxlaqlı, əxlaqsız, arzu edilən və ya edilməyən kimi göstəricilər qadına istiqamətlənən anlayışların ən başınadadır. Yəni qadın yaxşıdır, gözəldir, əxlaqlıdır, arzu ediləndir. Əgər qadın bu göstəricilərdən kənardadırsa ya cəmiyyətdən kənar edilir, ya da əksik bir varlıq kimi qəbul edilir. Sosial öyrənmə nəzərəriyyəsinə görə insanlar sosial əhatədə gördükləri hər şeyi təqlid edərək öyrənirlər. Uşaq özünə nümunə olan şəxsləri (ana, ata, müəllim və s.) təqlid edərək öz cinsiyyət davranışlarını formalaşdırır. Oğlanlar "kişi kimi" , qızlar "qız kimi" davrandıqları zaman mükafatlandırılırlar. Cəmiyyət tərəfindən qəbul edilən cinsiyyət rolları uyğun gəlmədikdə isə cəzalandırılırlar. Günümüzdə sosial öyrənmə nəzəriyyəsinə ən çox təsir göstərən faktorlardan biri televiziyadır. Televiziya ailə kimi uşağın kiçik yaşlardan etibarən birlikdə olduğu bir kütləvi informasiya vasitəsidir. Cinsiyyət rolları tərəfdən baxdıqda televiziya tipik qadınlıq və kişilik modellərini proqramlar vasitəsilə insanlara çatdırır və mövcud stereotipləri daha da möhkəmləndirir.

Televiziyada gender problemini araşdırarkən belə bir qarara gəlmək olar ki, kişilərin həyat və fəaliyyəti ictimai sfera ilə, qadınlarınkı isə daha çox özəl həyatla (ailə, ev, uşaqların tərbiyəsi və s) bağlıdır. Reklamlar zamanı da kişi və qadın rollarına diqqət yetirsək bunu görmək olar. Bu cür təqdimatlar isə insanların davranışına neqativ təsir edir. Əslində ən önəmli məsələlərdən biri KİV-in də köməyi ilə insanların ənənəvi qadın və kişi rolları haqqında fikirlərini dəyişməkdir. Belə ki, hər hansı bir proqram zamanı kişilər daha çox biznes məhsulları və isvestisiyalarla bağlı işlərdə, qadınları ev işləri görən kimi təqdim etməkdənsə, hər hansı bir vəzifədə, məsələn, hüquq məsləhətçisi rolunda kişi təqdim edilərkən onun opponenti kimi də qadın təsvir edilməsi və bu kimi digər obrazların təqdim edilməsi gender bərabərliyinin təmin olunmasında ənənəvi ideyaların transformasiya olunmasını istiqamətləndirə bilər. Reklamlar zamanı o qədər seksist ismarışlar ötürülür ki, qadınlar özləri də hiss etmədən bəzi gender stereotiplərinin yaradıcısı olurlar. Məsələn, qadın paltaryuyan maşından istifadə edərkən hər hansı bir problemlə üzləşir və həmin maşının istehsalçı firmasından yardım istəyir. Firmanın kişi nümayəndəsi öz iti ağlı ilə maşını dərhal təmir edir və qadını problemdən azad edir. Belə vəziyyət bioloji cinslərin əsas götürülüb heteroseksual patriarxal ideologiyanın formalaşmasına şərait yaradır (1, s.46) .

Bütün bu fikirlərə əsasən deyə bilərik ki, dünyanın əksər televiziya proqramlarında ən ideal qadın obrazı evdar qadın kimi, ən ideal kişi obrazı isə vəzifədə, ən mühüm işləri görməyə qadir olan obraz kimi təqdim edilir. Halbuki, cinsindən asılı olmayaraq qabiliyyəti, yaradıcılığı olan hər bir kəs həmin vəzifənin öhdəsindən gələ bilər. Bu mövzunun da əsas məqsədlərindən biri gender bərabərliyi daxilində mövcud gender stereotipləri problemini araşdırmaqdır. Hal- hazırda cəmiyyətdə insanlara bir başa və yaxud dolayı yol ilə təsir göstərə bilən kütləvi informasiya vasitələri aktual mövzulardan biridir. KİV-in bir hissəsi olan televiziya kanalları informasiya ötürən zaman bu prosesə daha diqqətli və xüsusi münasibət bəsləməlidir.

## ƏDƏBİYYAT


1. Ağayev K.C. Azərbaycanda gender məsələləri. Bakı: Qərb universiteti, 2014, 416 s.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Dərslik. Bakı: Qapp- Poliqraf koprorasiyası, 2003, 356 s.
3. Aronson E., Timothy D., Akert M. Sosyal psikoloji, 1. basım, 2012, 1092 s.
4. Dumanlı D. Reklamlarda toplumsal cinsiyet kavramı ve kadın imgesinin kullanımı: bir içerik analizi. Yalova sosyal bilimler dergisi, Sayı: 2, 2011, 17-26 s.

5. Dökmen Z. Toplumsal Cinsiyyet: sosyal psikoloji açıklamalar. Istanbul: Remzi Kitabevi, 2009, 244 s.
6. Kıran E. Televizyon reklamlarında gizlenmiş toplumsal cinsiyet rolleri: sosyal bilim metinleri dergisi, 2016, 137 s. https://www.academia.edu/37794287/HIDDEN_GENDER_STEREOTYPES_in_TV_COMMERCIALS
7. Yaktil G. Cinsiyyet roller ile ilgili stereotiplerin televizyonda sunumu. Istanbul, Kurgu Dergisi, Sayı: 17, 2014, 43 s.
8. Martin E. TV- Beyaz Camın Arkası, İstanbul: Pınar Yayınları, 135 s.
9. Wood J. Gender Media The Influence of Media on Views of Gender. Department of Communication, University of North Carolina at Chapel Hill. Article 7. Page 41.
10. http://hayalbemol.blogspot.com/2011/05/face-ism.html

## TELEVISION- IS ONE OF THE IMPACTING FACTOR TO THE FORMATION OF GENDER STEREOTYPES

### SUMMARY

In the article, the relevance of the media is reflected in the simultaneous impact of television on the formation of gender stereotypes. Existing gender stereotypes are one of the most pressing issues of the era. At the time when information flows are so powerful, television has a direct and indirect effect on the thinking and behavior of people. In the article is addressed all these influences from a gender perspective, focusing on the role and gender stereotypes.

## ТЕЛЕВИДЕНИЕ КАК ФАКТОР, ВЛИЯЮЩИЙ НА ФОРМИРОВАНИЕ ГЕНДЕРНЫХ СТЕРЕОТИПОВ

### РЕЗЮМЕ

В статъе актуалъностъ СМИ отражается в одновременном влиянии телевидения на формирование гендерных стереотипов. Существующие гендерные стереотипы являются одной из наиболее актуалъных проблем эпохи. В то время, когда информационные потоки настолъко мощны, телевидение оказывает прямое и косвенное влияние на мышление и поведение людей. В статъе рассматриваются все эти влияния с гендерной точки зрения, с акцентом на ролъ и гендерные стереотипы.

# YENİYETMƏLİK DÖNƏMİ VƏ ONUN ÜMUMİ XÜSUSİYYƏTLƏRİ

***Yusifli Vüsalə Rəsul qızı***
***BDU - nun II kurs magistrantı***
***vusale.yusifli.95@mail.ru***

***Açar sözlər:*** inişaf psixologiyası, yeniyetməlik dövrü, emosional inkişaf, əxlaqi inkişaf, sosial inkişaf
***Ключевые слова:*** психология развития, подростковый период, эмоциональное развитие, развитие нравственности, социалное развитие
***Key words:*** developmental psychology, adolescence period, emotional development, morality development, social development

Fərd - uşaqlıqdan yaşlılığa qədər gedən yaşam cizgisi üzərində bir-birindən fərqli inkişaf dövrlərindən keçir. O, keçdiyi bu dövrlər içərisində bir - biri ilə eyni olmayan fizioloji və psixoloji bəzi özəllikləri özündə göstərir. Bu yaşam cizgisini - uşaqlıq, yeniyetməlik, gənclik, yetkinlik və yaşlılıq kimi dövrlərə ayıraraq öyrənmək olar. lakin belə bir sinifləmə olmasına baxmayaraq, bəhs etdiyimiz mövzunun "insan" olduğunu nəzərə alsaq bu periodların başlanğıc və bitiş yaş sərhədlərini dəqiq müəyyən etmək çox çətindir. Lakin insan üzərində aparılan tədqiqatların gətirdiyi məcburiyyətdən asılı olaraq müəyyən yaş siniflədirilməsi təyin edilmişdir.

Yeniyetməlik dövrü - uşaqlıq dövrünün bitişi ilə fərdin fizioloji olaraq inkişafını tamamladığı zamana qədər gedən inkişaf dövrüdür. Bu dövr qızlarda aybaşı tsiklinin olması və süd vəzilərinin böyüməsi ilə, oğlanlarda isə üzdə tüklərin çıxması və səsin qalınlaşması ilə başlayan və ümumiklikdə 13 - 22 yaş aralığını əhatə edən inkişaf dönəmidir. UNESCO - nun ifadəsinə görə isə, fərdin təhsil aldığı və həyatını qazanmağa çalışdığı üçün iqtisadi olaraq müstəqil olmadığı və ailə vəziyyətinin evli olmadığı inkişaf dönəmidir. Yeniyetməlik dövrü UNESCO - nun bu ifadəsində 15 -25 yaşları arası, Amerika Birləşmiş Ştatlarının ifadəsində isə bu yaş aralığı 12 - 25 arası olaraq göstərilir.

Bəzi qaynaqlarada uşaqlıqdan yeniyetməliyə keçid dövrünün 10 - 15 yaşların; əhatə etdiyi qeyd olunsa da, bu rəqəmlər şərti xarakter daşıyır. Çünki yeniyetməliyin başlanğıcı irqdən, iqlim şəraitindən, qidalanmadan və sair kimi faktorlardan asılı olaraq dəyişə bilər. Mülayim iqlim qurşaqlarında qızlar 8 -10 yaşları arasında yeniyetməliyə qədəm qoyduğu halda, qütblərdə yaşayan Eskimoslarda bu 20-li yaşlara qədər gəlib çatır. Bəzi çalışmalarda yeniyetməlik və gənclik anlayışları eyniləşdirilir. Lakin qeyd etmək lazımdır ki, yeniyetməlik - inkişaf dövrləri içərisində xüsusilə fizioloji və psixoloji dəyişikliklər daha çox yaşandığı bir dönəmdir. Gənclik isə yeniyetməlik dövrünü də özündə əhatə edən və üst yaş sərhədinin daha geniş olduğu bir dövrdür. Bu aspektdən yanaşdıqda gənclik dönəmi - yeniyetməliyi də ələ alan və xrolonoji olaraq onun xüsusiyyətllərini özündə ehtiva edən bir dövrdür.

Yeniyetməlik dövründə fizioloji və cinsi inkişaf - cinsi orqanlardakı inkişafa, ikincil cinsi əlamətlər də qoşulur. Yeniyetməlik dövründə oğlan və qızlar arasında meydana gələn bu cinsi fərqlər başqa heç bir dövrdə özünü bu qədər büruzə vermir. Qızlarda aybaşı tsiklinin başlaması, süd vəzilərinin böyüməsi və çanaq nahiyəsinin genişlənməsi, oğlanlarda isə səsin qalınlaşması, üzdə tüklərin çıxmağa başlaması kimi fizioloji dəyişikliklər müşahidə olunur. Bu dönəmi müəyyən etmədə yaş faktoru da xüsusi rol oynayır. Qızlar oğlanlara nisbətdə iki il öncə bu dövrə qədəm qoyur və daha erkən cinsi inkişafını tamamlayır. Boy artımının ən yüksək olduğu yaşlar isə qızlar üçün 11 - 12, oğlanlar üçün isə 13 - 15 yaş aralığıdır. Bu dövrdə əsas inkişaf 12 - 16 yaş aralığını əhatə edir. Bu zaman o yaşadığı cəmiyyətin təqdim etdiyi ideal bədən quruluşunun təsiri altında qalaraq "bədən forması" anlayışını dərk etməyə başlayır. Burada, ideal bədən quruluşu - ailə, yaxın ətraf mühit və cəmiyyət tərəfindən müəyyən edilir. Bununla yanaşı,

televiziyalarda verilən davamlı olaraq nümayiş etirilən reklamlar və eləcə də, tanınmış simaların bədən quruluşları yeniyetmələrdə bu anlayışı formalaşdıran amillər sırasındadır.

Yeniyetməlik dövründə emosional inkişaf - bu dövrdə yeniyetmədə davamlı olaraq duyğusal dalğalanmaların artdığı dövrdür. Qarşı cinsə aşiq olma, xəcalət hissi, çəkingənlik, davamlı olaraq xəyal qurma, yalnız qalma istəyi, təhsilə qarşı istəksizlik və tez həyəcanlanma kimi duyğular üstünlük təşkil edir. Edilən araşdırmalardan məlum olmuşdur ki, yeniyetmələrdə bu duyğusal problemlərin - onların aid olduğu yaş qrupundan, məktəbə davam edib etməmələrindən, ailənin onlara qarşı tutumundan, ətraf mühitin bu uşaqları necə qəbul etmələrindən və həmçinin, bu yeniyetmələrin zəka səviyyələrindən asılı olaraq dəyişiklik göstərdiyi müəyyən edilmişdir. Digər yandan isə bu sahədə edilən çalışmalarda yeniyetmələrin daha çox gələcək həyatları ilə bağlı narahatlıq yaşadıqları, təhsil alan yeniyetmələrdə isə istədikləri təhsili almaq imkanlarının olub - olmaması və sevdikləri peşə sahəsində fəaliyyət göstərib - göstərməyəcəkləri narahat edir.

Yeniyetməlik dönəmində əxlaqi inkişaf - fərdlərin əxlaqi inkişaflarını açıqlamağa çalışan birçox əxlaqi inkişaf nəzəriyyəsi yaradılmışdr. Bu nəzəriyyələrdən ən çox bilinənləri psixoanaliz, Piaget və Kohlbergin əxlaqi inkişaf nəzəriyyələridir. Bu nəzəriyyələr fərdin əxlaqi inkişaflarının səbəbləri üzərində bəzi görüşlər formalaşdırmışlar. Yeniyetməlik dönəmində tam mənasında formalaşmış əxlaq anlayışında danışmaq düzgün olmaz.

Digər yanda bu mərhələdə əxlaqi inkişaf ilə dini inkişaf paralel formalaşmaqdadır. Bunların paralel olaraq inkişaf etməsi həm bir - birini dəstəkləyir, həm də fərdi daha da yetkinləşdirir. Bu mərhələdə yeniyetmədən öz doğrularını tapmasını istəmək xarici mühitin təsirini azaldaraq onun vicdanının inkişaf etməsinə şərait yaradır. Buna əsasən də demək olar ki, insanların əxlaq anlayışı mövzularında ən həssas olduqları mərhələ yeniyetməlik illəridir. Bunu qeyd etmək lazımdır ki, əxlaq sistemini bu yaş dövründə olan uşaqlara basqı altında aşılamağa çalışmaq heç də məqsədəuyğun deyildir. Bunun yerinə onlara fikirlərindəki tutarsızlıqları göstərmək, qəbul edilənlə onların düşüncələri arasındakı fərqləri görmələrinə şərait yaratmaq - onda bu anlayışların yenidən formalaşmasına gətirib çıxaracaqdır.

Yeniyetməlik dönəminin ən diqqətə çarpan əxlaqi davranş xüsusiyyətinin öz - özünü idarə etmə qabiliyyətinin olduğunu demək mümkündür. Yeniyetməlik zamanında əxlaqi inkişaf ilə şəxsiyyətin inkişafı arasında sıx əlaqə vardır. çünki əxlaq anlayışının formalaşması onun özünü düzgün dəyərləndirə bilməsinə, özünü qəbul edə bilməsi kimi önəmli faktorların uyğun qaydada inkişafına səbəb olur. Yeniyetmə artıq bu əxlaq normalarına cəzadan qorxduğu üçün deyil, əməl olunması vacib olduğuna görə riayət edir. Bu da zamanla onda daxili alışqanlıq yaradır. Bu anlayışı özündə möhkəmləndirən yeniyetmələrdə vəfa, sədaqət kimi önəmli olan insani duyğular formalaşır. Bu dövrdə onlarda haqq və ədalət anlayışı düşüncəsi də özünü qabarıq şəkildə göstərməyə başlayır. Onlar haqsızlıq edən və ya insanlara bərabər səviyyədə yanaşmayan insanlara qarşı sərt şəkildə qarşı çıxırlar. Lakin yeniyetməliyin son dövrlərində bu aqressivlik tədricən azalmağa başlayır. Əxlaqi tiplərə görə sinifləndirsək - inadkar, öz - özünü idarə edə bilən, itaətkar kimi yeniyetmə qruplarını ayırmaq olar.

Yeniyetmələrdə əxlaqi inkişafın əlamətləri onun başda ailəsi olmaqla yanaşı, çevrəsindəki digər insanlarla münasibətində özünü büruzə verir. O, valideynlərinin davranışlarını tənqid edir, eləcə də öz şəxsiyyətinin inkişafını tamamlamaq üçün ətrafında olan dəyər verdiyi insanların dedikləri və davranışları arasındakı mütənasibliyə diqqət edir. Məsələn, dürüstlükdən danışan birinin öz mənfəəti üçün etdiyi davranışları görsə, bunun öz doğruları ilə uyğun olmadığını anlayar və qarşı çıxar.

Yeniyetməlik dönəmində sosial inkişaf - məlum olduğu kimi fərdin sosiallaşması ilk olaraq ailədən başlyır. Buna əsasən demək olar ki, yeniyetmənin sosiallaşması əslində uşaqlıq dönəmindən başlayır və yeniyetməlik dövründə ailənin xaricinə çıxaraq məktəblə, həmçinin

dostlar qrupu ilə davam etməkdədir. Bu sosiallaşma müddəti içərisində də yeniyetmə hər hansı bir çətinliklə qarşılaşmağına baxmayaraq ailəsini ilk müraciət qaynağı olaraq görməlidir.

## ƏDƏBİYYAT


1. Qədirov Ə. Ə. Yaş psixologiyası. Bakı. Maarif. 2008
2. World Health Organization. Adolescent development.
3. American Academy of Pediatrics. Stages Adolescence.
4. American Academy of Child & Adolescent Psychiatry. Adolescent Development


## РЕЗЮМЕ


Подростковый период, как период детства, зрелости и пожилого возраста, является периодом развития, который следует изучать с разных точек зрения. Эта статья, целью которой является описание периода юности с различными аспектами развития в контексте психологии развития, была представлена с кратким определением периода юности. Впоследствии подростковый период пытались изучать с разных точек зрения, таких как физическое и сексуальное развитие, эмоциональное развитие, нравственное развитие, социальное развитие, развитие личности, развитие психического здоровья и ориентация на карьеру. Развитие личности и психического здоровья были изучены в некоторых деталях, потому что их значение в этот период и задачи развития были упомянуты в контексте психического здоровья. В заключении были сделаны некоторые предложения родителям и педагогам относительно этого периода.


## SUMMARY


Adolescence period like childhood, adulthood and elderly periods is a developmental period which should be studied from different point of views. This article that aims ton describe adolescence period with various developmental dimensions in the context of developmental psychology, was introduced with a brief definition of adolescence period. Subsequently, the adolescence period was tried to study from different points of view such as physical and sexual development, emotional development, moral development, social development, personality development, mental health development and orientation to career. Personality and mental health development were studied in some detail because of their mportance in this period and developmental tasks were mentioned in the context of mental health. In the conclusion some suggestions were done to parents and educationalists concerning this period.

# YENİYETMƏLƏRDƏ HÜQUQAZİDD DAVRANIŞIN FORMALAŞMASININ PSİXOLOJİ TƏHLİLİ

***Ağazadə Tamilla Zaur qızı***
***BDU-nun II kurs magistrantı***
***Elmi rəhbər: Azər Mustafayev***
***tamillaaghazada@gmail.com***

***Açar sözlər:*** sosial norma, delikvient davraniş, addiksiya, deviant davraniş, deviasiya.
***Ключевые слова:*** социальная норма, деликвентное поведения, аддуикция, девиатное поведение, девиация.
***Key words:*** social norm, deficient behaviors ,addiksiya, deviant behaviors, deviously.

Hüquqazidd davranışlı yeniyetmələrin əksəriyyətində ictimai qiymətli, yüksək ideallar mövcud deyil. Onlarda intellektual və ümumi inkişaf çox aşağı səviyyədədir. Hüquq düşüncəsindəki nöqsanlardan başqa, psixoloji və sosial-psixoloji xarakterli çatışmazlıqlar davranışda müəyyən məna kəsb edir. Bu mənada acgözlük, mərhəmətsizlik, qərarsızlıq, eqoizm, həddindən ziyadə şöhrətpərəstlik, qəddarlıq, intellektual kütlük, qısqanclıq kimi hisslər xüsusi rol oynayır. Sosial tədqiqat materialları göstərir ki, xuliqanlıqda ittiham olunanların 44,2%-i bu cinayəti inciklik və intiqam hissi, 6,6%-i qısqanclıq hissinin təsiri altında törədiblər. 28,2%-inin isə zərərçəkənə qarşı şəxsi qərəzliyi vardı. Psixoloji nöqsanlar da cinayətin törədilməsinə xidmət edə bilər. Belə ki, onlar keçmiş təsirlərlə determinasiya olunmaqla sosial-psixoloji proseslərin, vəziyyət və keyfiyyətlərin mürəkkəb sistemində müəyyən dəyişikliklər yaradır. Doğrudur, bu sistemin müxtəlif komponentləri insanın davranışında, onda ayrı-ayrı nöqsanların yaranmasında heç də eyni rol oynamır. Bunlardan bir qismi müvəqqəti psixoloji proseslər və vəziyyətlərdir. Onlar müsbət təsirə daha çox və asan məruz qalırlar. Sonda isə normallaşdırılır. Digərləri isə davranışın əsas xətləri hesab olunur, tədricən mənəvi simanın əsas xüsusiyyətlərinə çevrilir və onların aradan qaldırılması üçün uzunmüddətli təsir tələb edir. Məhz sosial-psixoloji keyfiyyətlərin məcmusu ilə insanın davranışı xarakterizə olunur.

İndiyə qədər biz ümumilikdə hüquqazidd davranışlı yeniyetmələr haqqında danışırdıq. Burada həmin ifadənin geniş məzmunu nəzərdə tutulur. Yəni həm cinayət törədərək məsuliyyətə cəlb olunan, həm də cəlb olunmayan yeniyetmə haqqında danışılırdı. Axı hüquqazidd davranışlı yeniyetmələr onların törətdikləri cinayətin üstü açılmayan zamanı da mövcuddur. Təbii ki, məhkəmə psixologiyasını bir tərəfdən cinayətin törədilməsi ilə bağlı olan sosial-psixoloji hadisələr, cinayətkar fəaliyyətində və ya fəaliyyətsizliyində antisosial istiqamətin formalaşdırılması və reallaşdırılmasının sosial-psixoloji və psixoloji qanunauyğunluqları, digər tərəfdən isə cinayətkar şəxsiyyətin keyfiyyət və xüsusiyyətləri maraqlandırır. Hüquqazidd davranışlı yeniyetmələrin şəxsiyyətinin əsaslı şəkildə öyrənilməsi zəruriyyəti məhkəmə-hüquq və məhkəmə-prosessual qanunvericiliyinin tələbatlarından irəli gəlir. Eyni zamanda, bu, istintaq və məhkəmə təcrübəsinin zəruri ehtiyacları ilə izah olunur. Çünki hüquqazidd davranışlı yeniyetmələrin şəxsiyyəti haqqında məlumatların toplanması müstəntiq və hakimlərə istintaq və məhkəmə işlərinin keçirilməsinin daha əlverişli, effektli üsul və vasitələrini müəyyən etməyə imkan verir.

Qeyd edək ki, hüquqazidd davranışlı yeniyetmələrin şəxsiyyətinin psixoloji keyfiyyətlərinin öyrənilməsi ittihamın irəli sürülməsi məsələsini daha dərindən, hərtərəfli və obyektiv həll etməyə, törədilən cinayəti daha düzgün qiymətləndirməyə, cinayətkara ədalətli cəza ölçüsünü müəyyən etməyə, ən əsası isə şəxsiyyətin məhkəmə-prosessual fəaliyyətin subyekti qismində iştirakından asılı olaraq onun psixoloji və sosial- psixoloji keyfiyyətlərində baş verən dəyişiklikləri müəyyən etməyə imkan verir. Psixoloji ədəbiyyatda qeyd olunur ki, bu

keyfiyyətlərin (xüsusiyyətlərin) öyrənilməsi istintaq işləri aparılan müddətdə iştirakçıların davranışını düzgün qiymətləndirməyə və onlara fərdi-psixoloji yanaşmanı müəyyən etməyə kömək edəcək.

Bu xüsusiyyətlərin müəyyənləşdirilməsi zamanı aşağıda qeyd etdiyimiz məsələlərə xüsusi diqqət yetirilməlidir:

- Müəyyən psixoloji vəziyyətlərin yaranmasına gətirib çıxaran prosessual hal;
- Şəxsin xarakterinə təsir göstərə bilən müəyyən psixoloji keyfiyyətlərin mövcudluğu;
- Törədilmiş cinayətə, istintaq və məhkəmə işinə, məhkəmə-prosessual fəaliyyətin digər subyektlərinə münasibət;
- Baş verə biləcək nəticələrin təhlükəsinin dərki, müəyyən daxili gərginlik.

Bu prosesin bütün mərhələlərində hüquqazidd davranışlı yeniyetmələrin davranışı onun şəxsiyyətinin bütün tərəflərinin (fikir, hiss, xarakter, iradə, bacarıq, maraq, əxlaq normaları və dünyagörüşü və s.) qarşılıqlı əlaqəsinin nəticəsidir.

Bütün bu tərəflər cinayət məsuliyyətinə cəlb olunan yeniyetmənin şəxsiyyətinin düşdüyü vəziyyətin prizmasından təzahür olunur. A.F.Koninin fikrincə, unutmaq olmaz ki, hüquqazidd davranışlı yeniyetmələr demək olar ki, heç vaxt sakit vəziyyətdə olmur. Qapalı həbsxana şəraitində uzun həftələrin, ayların intizarı məhkəmə hökmü qarşısındakı qorxu, özünə və yaxınlarına görə keçirdiyi xəcalət hissi müttəhim yerində əyləşən adama sarsıdıcı və ya həyalandıncı şəkildə təsir edir.

L.E.Vladimirov isə yazır ki, hüquq pozuntusu onu törədəni rahat buraxmır. O, mənəvi sakitliyini itirir, törətdiyi əməl haqqında fikirlə yatıb-oyanır. Mən elə bir insan tanımıram ki, cinayət vasitəsilə xoşbəxtliyə nail olsun.

Artıq qeyd etdiyimiz kimi, bəzi ədəbiyyatlarda çox düzgün göstərilir ki, hüquqazidd davranışlı yeniyetmələrin şəxsiyyətinin tam öyrənilməsi, onun törətdiyi cinayətin düzgün müəyyən olunması, cəzanın müəyyənləşməsi və onun yenidən tərbiyəsinin effektliyi bir-birindən asılıdır. Bu, nəhayət, cinayətkarın ilkin istintaq və məhkəmə zamanı aparılan işin daha düzgün taktikasının seçilməsinə, müdafiənin təşkil olunmasına imkan verir. Bununla belə prosessual və məhkəmə-psixoloji ədəbiyyatda hüquqazidd davranışlı yeniyetmələrin şəxsiyyətinin öyrənilməsi proqramı hələ ki, mövcud deyil. Güman edirik ki, bu proqram bir neçə istiqamətdən, hər şeydən əvvəl yeniyetmədə cinayətkar niyyətlərin yaranması və onun xarakterinin, istiqamətinin öyrənilməsindən ibarət olmalıdır. Hüquqazidd hərəkətlərin psixoloji və sosial-psixoloji əsaslarının təhlilində yönəlişlər (ustanovkalar) çox vacib yer tutur. Bu, ilk növbədə onunla izah olunur ki, yönəlişlər davranışı müəyyən edir. Çünki o, qoyduğu məqsədə nail olmağa çalışan yeniyetmənin fəallığını əks etdirir.

Proqramın ikinci hissəsi konkret cinayətkar yeniyertmə şəxsiyyətinin xüsusiyyətlərinin, onların cəmiyyətdə ideal davranış normaları ilə müqayisəsi nöqteyi-nəzərindən öyrənilməsinə həsr olunmalıdır. Bu mənada söhbət bir tərəfdən cinayətkar şəxsiyyətinin müsbət keyfiyyətləri, digər tərəfdən isə onda baş verən davranış qüsurları haqqında gedə bilər. A.V.Dulov çox düzgün qeyd edir ki, cinayətkarın şəxsiyyətinin müsbət xüsusiyyətləri də var. İstintaq prosesi, baş verən hallar, münasibətlər cinayətkarın şəxsiyyətinin müsbət keyfiyyətlərinin aşkar olunmasına, möhkəmlənməsinə və inkişaf etdirilməsinə xidmət etməlidir.

Eyni zamanda, cinayətkar yeniyetmə şəxsiyyətinin yaranmasına gətirib çıxaran nöqsanlar kompleksi, ən əsası isə sabit nöqsanlar hərtərəfli öyrənilməlidir. A.Q.Kovolyov bu növ nöqsanlara hərislik, insan həyatına tam biganəlik, kobudluq, əsəbilik, həyata laqeyd münasibət, intellektual kütlük, qəddarlıq və başqalarını aid edir. Alimlər bu kimi halları sosial-psixoloji nöqsanlar hesab edirlər. Psixoloji proseslərə gəlincə, onlar normada qalır. Çünki biz cinayətkarın şəxsiyyətinin yaddaşında, zehnində, təxəyyülündə, emosiya və iradi hərəkətlərində heç bir nöqsanın şahidi olmuruq. Düzdür, bəzi cinayətkarlarda professional müşahidə qabiliyyəti və təfəkkürü daha çox inkişaf edir.

Elmi ədəbiyyatda hüquqazidd davranışlı yeniyetmələrin şəxsiyyəti üçün xarakterik olan sosial-psixoloji cəhətləri ümumiləşdirmək haqqında fikirlərlə rastlaşırıq. Bunlara işin nəticəsi ilə maraqlanmaq və bununla bağlı olan fəal və ya passiv davranış, baş verə biləcək nəticələr qarşısındakı qorxu hissi, ruh düşkünlüyü, əksər hallarda könüllü olaraq öz günahını etiraf etməmək istəyi, həddən ziyadə əsəbilik, əsəbi gərginlik, diqqətin kəskinləşməsi və s. aiddir. Bu cəhətlər bir çox amillərdən asılıdır. A.V.Dulov onları fərqləndirərkən şəxsi keyfiyyətləri, törədilən cinayətlə bağlı situasiyanın yeniliyini, törədilən cinayətə münasibəti, seçilmiş davranış xəttini, yaranan psixoloji münasibətlərin xüsusiyyətlərini, işin materialları haqqında xəbərdarlıq dərəcəsini, istintaq prosesində yaranan halları fərqləndirir.

Bununla da ilkin istintaq prosesində cinayətkarın şəxsiyyətinin sosial-psixoloji xüsusiyyətlərinin özünü göstərməsi, onun prosessual vəziyyəti, istintaqın gedişinin şərtləri, ilkin istintaq zamanı onda yaranan narahatlıq dərəcəsi ilə müəyyən olunur. Bütün bunlar müstəntiqdən cinayətkarın şəxsiyyətinə qarşı fərdi psixoloji yanaşma tələb edir. Cinayətkar şəxslə işin bu mərhələsində müstəntiqin əsas vəzifəsi onun davranışında, mülahizələrində, insanlara münasibətində, ictimai və hüqüq qaydalarına münasibətində olan bütün özünəməxsusluqları nəzərə almaqdan ibarətdir. Ancaq bütün gördüklərini və eşitdiklərini işin materialları və şəxsi keyfiyyətlərlə təhlil edib, müqayisə aparmaqla hüquqazidd davranışlı yeniyetmələrin şəxsiyyəti haqqında düzgün və obyektiv nəticə çıxarmaq olar. Buna görə də ilkin istintaq zamanı sakitlik, təmkin, hüquqazidd davranışa yol verən yeniyetməyə diqqət göstərmək lazımdır. İstintaqın aparılması öz-özlüyündə konkret hüquqazidd davranışlı yeniyetmələrin şəxsiyyətinə güclü qıcıqlandırıcı ola bilər.

Hüquqazidd davranışlı yeniyetmələrin şəxsiyyətinin psixoloji xarakteristikası hüquqi, sosial-psixoloji ədəbiyyatda dəfələrlə müzakirə olunan cinayətkarın şəxsiyyətinin məhkəmə tədqiqatının məqsədləri və həcmi ilə bağlı məsələ də böyük əhəmiyyət kəsb edir.

Bizi daha çox məhkəmə təhqiqatı zamanı hüquqazidd davranışlı yeniyetmələrin şəxsiyyətinin psixoloji və sosial-psixoloji cəhət və keyfiyyətlərinin öyrənilməsinin həcmi məsələsi maraqlandırır.

Hüquqazidd davranışlı yeniyetmələrin şəxsiyyətinin sosial-psixoloji keyfiyyətlərinin öyrənilməsi konkret cinayət işinin məhkəmə tədqiqatında əhəmiyyətli yer tutmalıdır. Sözsüz ki, hüquqazidd davranışlı yeniyetmələrin şəxsiyyətinin həm ilkin istintaq prosesində, həm də məhkəmədə - psixoloji və sosial-psixoloji təhlili ancaq o vaxt qiymətli ola bilər ki, bu bütün iş materiallarının əsasında və onlarla sıx əlaqəli şəkildə həyata keçirilsin. Məhz bu cür psixoloji və sosial-psixoloji təhlil məsələnin həllinə səbəb ola bilər. A.F.Kon qeyd edirdi ki, qanun tələb edir ki, güzəştlər baş verən hadisələrə əsaslanmalıdır. Amma bütün bunların arasında ən əsas yer tutan cinayətkarın özüdür. Buna görə də əgər onun həyatında, şəxsiyyətində, hətta xarakterinin zəif cəhətlərində siz güzəşt üçün əsas tapa bilsəz, ittihamın sərt səsinə mərhəmət səsini də əlavə edə bilərsiz.

Hüquqazidd davranışlı yeniyetmələrin şəxsiyyətinin psixoloji və sosial-psixoloji xarakteristikası, ilk növbədə, cinayət tərkibi ilə sıx əlaqəli şəkildə tədqiq olunan və müəyyən şəraitdə özünü göstərən şəxsi keyfiyyətlərin qiymətləndirilməsini nəzərdə tutur. Düzdür, məhkəmə tədqiqatı zamanı da cinayətkarın şəxsiyyətinin sosial-psixoloji xarakteristikası məhkəmə tərəfindən psixoloji xarakteristika ilə yanaşı nəzərdən keçirilir.

Hüquqazidd davranışlı yeniyetmələrin şəxsiyyətinin vacib sosial-psixoloji əlamətləri eyni zamanda, onun psixoloji qiymət göstəricisi hesab olunur və əksinə, cinayətkarın şəxsiyyətinin iradə, temperament, xarakter və digər psixoloji keyfiyyətlərinin aşkar və tədqiq edilməsi insanın əsl sosial-psixoloji məğzini qiymətləndirməyə imkan verir. Burada hüquqazidd davranışlı yeniyetmələrin şəxsiyyətinin xarici-sosial və psixoloji keyfiyyətlərini tədqiq etməklə yanaşı, onun daxili dünyası ilə də tanış olmaq, keçmiş həyatından tədqiq oluna biləcək hər şeyi (sözsüz ki, əgər bu hadisələrin törədilən cinayətlə əlaqəsi varsa) cinayət faktı ilə tutuşdurmaq lazımdır.

Əsas məsələ cinayət səbəblərinin dərindən təhlili, fərdi-psixoloji keyfiyyətləri nəzərə almaqla cinayətkarın şəxsiyyətinin davranışının qiymətləndirilməsidir. Məhz bu cür yanaşma işi hərtərəfli, tam, obyektiv tədqiq etməyə, cəzanı qanuni və məqsədyönlü şəkildə tətbiq etməyə, cinayətin törədilməsinə gətirib çıxaran səbəblərin aradan qaldırılmasına kömək edəcək. Hüquqazidd davranışlı yeniyetmələrin şəxsiyyətinin psixoloji cəhət və xüsusiyyətlərinin, cinayət törədilən zaman onun psixoloji vəziyyətinin hərtərəfli öyrənilməsi cinayətin növünü düzgün müəyyən etməyə imkan verir.

Əgər söhbət hüquqazidd davranışlı yeniyetmələrin sosial-psixoloji xüsusiyyətlərindən gedirsə, problem iki aspektdən öyrənilməlidir. İlk növbədə, cinayətkarın şəxsiyyətinin psixoloji xarakteristikası sözün geniş mənasında tədqiq olunmalıdır. Öyrənilməsi lazım olan digər məsələ cinayət törədən şəxsin məhkəmədəki davranışının psixoloji təhlilidir.

Hüquqazidd davranışlı yeniyetmələrin şəxsiyyətinin psixoloji və sosial-psixoloji xüsusiyyətlərini xarakterizə edən başqa bir amil tətbiq oluna biləcək cəzanın təhlükəsinin dərki, müəyyən daxili gərginlik hesab olunur. Cinayət məsuliyyətinə cəlb olunanın davranışının psixoloji təbiəti ondan ibarətdir ki, irəli sürülən ittihamlardan məyus olmuş insan, bir qayda olaraq, baş verənlərin xəcalətini yaşayır. Təcrübə göstərir ki, insan nə dərəcədə ağır cinayət törətməsinə baxmayaraq, başqalarının gözündə daha yaxşı olmağa çalışır. Cəzanın qorxusu, ondan qaçmaq istəyi məhkəmənin istintaq prosesində imkan daxilində aradan qaldırdığı daxili gərginliyi yaradır.

Biz hüquqazidd davranışlı yeniyetmələrin şəxsiyyətinin formalaşmasına təsir edən yalnız bəzi sosial - psixoloji mexanizmlərə toxunduq. Bu məsələlərin öyrənilməsi cinayətkarlıqla mübarizənin yeni yollarının axtarılıb tapılmasına, istintaq işlərinin dərindən və hərtərəfli, obyektiv aparılmasına, cinayətin baş verməsinə gətirib çıxaran səbəblərin aradan qaldırılmasına köməklik edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı, Hüquq ədəbiyyatı, 2005
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. Bakı, Hüquq ədəbiyyatı, «DİGESTA», 2001.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, Hüquq ədəbiyyatı, 2005.
4. Əliyev. B. H. Məhkəmə - psixoloji ekspertizası. Bakı, BDU, 1994.
5. Əliyev. B.H. Cinayət və mülki prosesdə məhkəmə - psixoloji ekspertizası problemləri. Bakı, 1996
6. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Bakı, Hüquq ədəbiyyatı, 2002.


## РЕЗЮМЕ


В этой статье обсуждается появление незаконных форм поведения подростков и их психологический анализ.


## SUMMARY


This article discusses the emergence of illegal behaviors of adolescents and their psychological analysis.

# TƏLƏBƏLƏRİN İDRAK FƏALLIĞININ ÜMUMİ SƏCİYYƏSİ

***p.ü.f.d. Kamilə Kazımova***
***BDU-nun psixologiya kafedrasının baş müəllimi***
***Hüseynzadə Müjgan Vəli qızı***
***BDU-nun II kurs magistrantı***
**mujgan.huseynzade1997@gmail.com**

***Açar sözlər:*** tələbələr, idrak fəallığı, dərs, müəllim, təlim, metod.
***Клочевые слова:*** студенты, познавательная деятельность, урок, учител, обучение, метод.
***Key words:*** students, cognitive activity, lesson, teacher, training, method.

Yeni proqramlar yalnız sistemin, məzmunun dəyişdirilməsini deyil, həm də tələbələrdə idrak proseslərinin maksimum dərəcədə inkişaf etdirilməsini vacib bir məsələ kimi qarşıya qoyur.

İdrak fəallığının artması ilə qazanılan biliklər tələbələrin yaddaşında uzun müddət qalır və onlar tərəfindən hər hansı bir təcrübə kimi istifadə olunur. İdrak fəallığının artmasına isə müasir təlim metodları effektiv təsir göstərir.

Bu gün məlumatlarla bağlı mənbələr çox olduğu üçün artıq bilik mənbəyi kimi əsas olan müəllim və dərslik bizi tam şəkildə qane etmir. Bu səbəbdən müasir təlimin başlıca vəzifələrindən biri öyrənməyi öyrətməkdir, yəni tələbələri bilikləri müstəqil əldə etməyə yiyələndirməkdir [3, s.217]. Beləliklə, bu həm də idrak fəallığını artırır. Eyni zamanda, şəxsiyyətyönümlü belə tədris prosesi inkişaf proseslərinin keyfiyyətinə də müsbət təsir edəcək və idraki və sosial fəallığı artırmaqla, şəxsiyyətin dəyərlərini və vərdişlərini formalaşdıracaq. Bunların nəzərə alınması idrak fəallığına əsaslı təsir edir. Belə ki, məhz məhsuldar, yaradıcı təfəkkürü və yeni biliklərə müstəqil yiyələnmə üsullarını özündə birləşdirən fəal (interaktiv) təlim texnologiyalarına üstünlük verməyi tamamilə zəruri edir.

Hazırkı dövrdə dərslər idrak fəallığının artırılması istiqamətinə yönəlməlidir. Çünki uzun illərdən bəri diqqət başlıca olaraq müəyyən vərdişlərin aşılanmasına yönəlirdi. Nəticədə müəyyən qaydalar, qanunlar tələbələr tərəfindən o qədər də şüurlu surətdə mənimsənilmir, dəfələrlə təkrarlar sayəsində mexaniki surətdə (hafizəyə əsaslanaraq) əzbərlənilirdi. Buna görə də tələbələrin hafizəsi müəyyən dərəcədə inkişaf etsə də onlarda ən mühüm idrak prosesi olan təfəkkür əsaslı dərəcədə inkişaf etmirdi. Tələbə oxunmuş materialdan müəyyən nəticə çıxartmağı, onu bu və ya digər nöqteyi-nəzərdən qiymətləndirməyi tələb edən suallarla rastlaşdıqda çaşıb qalırdı. Müasir dövrdə bundan əlavə tələbələrin ədəbiyyatlarla işləyə bilməməsi problemi də vardır. Tələbələrin əksəriyyəti sadəcə verilən mühazirəni öyrənməklə kifayətlənirlər. Buna görə də hazırkı dövrdə təlim prosesində əsas elmi məlumatlar verilməklə yanaşı, tələbələrdə müstəqil ədəbiyyatlardan istifadə etmək, müşahidəçilik, tənqidi təfəkkür kimi və s. kimi idrak qabiliyyətlərinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməlidir.

Tələbələrin fəallığını təmin etmək üçün müşahidə zəruri amildir. Onların fəallığı, əsasən, iki şəkildə özünü biruzə verir: bunlardan biri idraki fəallıqdır. İdraki fəallıq prosesində müxtəlif müqayisələrdən, ziddiyyətlərdən, ümumiləşdirmələrdən geniş istifadə edilir. Digəri isə hərəki fəallıqdır. Bu zaman tələbə cisimlə əməli surətdə təmasda olmağa meyil edir; məsələn, əgər müşahidə obyekti mexanizmdirsə, onu hərəkətə gətirməyə, işləmə prinsipini öyrənməyə, onun hissələrinin, bu hissələr arasındakı münasibəti və s. müəyyən etməyə çalışır [1, s.195]. Təlim materialının həvəslə mənimsənilməsi idrak fəallığının nəticəsidir. Təlim materialının mənimsənilməsinin əsas şərti tələbələrdə öyrənməyə müsbət münasibətin formalaşdırılmasıdır və bu fəallığı şərtləndirən amillərin təlim prosesində nəzərə alınmasının zəruri şərtlərindən biridir. Tədris prosesi tələbənin təbiətən malik olduğu öyrənmək meyilləri, həvəsi ilə əlaqələndirilərsə, bu, təlim materialının daha yaxşı anlaşılmasına kömək edər. Bilmək hələ hər şey demək deyildir.

Biliyi təcrübəyə tətbiq etmək indiki şəraitdə əsasdır. Bu zaman tələbənin müstəqil fəaliyyətdə informasiyaların təhlil və tərkibinə, qərarlar qəbul etməsinə, həyata keçirməsinə hazır olması da vacibdir və idrak fəallığına şərait yaranır. Bu baxımdan müəllimin mövqeyi ancaq öyrətmək, fənnə həvəs, maraq oyatmaq, informasiya mənbəyi deyil həm də informasiya almanın təşkilatçısına, idraki fəaliyyətə təhrik edən mənəvi və zehni impulsa çevrilir, bir sözlə müəllim fasilitator (bələdçi) tələbə isə tədqiqatçı mövqeyində iştirak edir.

Tələbələrin idrak fəallığı öyrənmənin hərəkətverici qüvvəsini təşkil edir [3, s.105]. Tələbələrdə öyrənməyə tələbatın formalaşdırılması müəllimin pedaqoji ustalığından, öyrədənin öyrənənlərə hörmət və tələbkarlığa əsaslanan münasibətindən, təlimin metod və üsullarının düzgün seçimindən, tələbələrdə öz qüvvələrinə inamın aşılanmasından və s. asılıdır. Təlim prosesinin emosionallığı şəraitində tələbələrdə idrak fəaliyyətinə maraq və daxili tələbat yaranır. Bunun üçün müəllimlər müxtəlif didaktik metod və üsullardan istifadə etməlidir. Müəllim "müqayisə edin", "ümumiləşdirin", "təhlil edin", "fərqləndirin" kimi produktiv fəallığa təhrik edən suallar hazırlayaraq düşündürməyə vadar edən tapşırıqlar verməlidir. İdrak fəallığına nail olmağın ən vacib yollarından biri müəllimin dərsə maraq formalaşdırmasıdır ki, bunu sadə priyomların növbələşdirilməsi, digər fənlərə inteqrasiya, müəllimin fəallığı, emosionallığı, dərs boyu maraqlı fakt və misalların, nümunələrin çəkilməsi ilə nail olmaq olar. Problemli situasiyalarda yaranan emosiyalar əqli ehtiyatların səfərbərliyini təmin edir, idrak prosesini fəallaşdırır, diqqətin uzun müddətə dərs prosesinə mərkəzləşməsinə imkan yaradır, mənimsəmə fəal xarakter daşıyır. Belə ki, idrak fəallığına əsaslı şəkildə təsir göstərən amillərdən biri də müəllimin istifadə etdiyi didaktik metod və üsullardır.

Müəllimlər tələbələrdə idrak fəallığını artırmaqdan əvvəl, onlara qarşılarına müəyyən problemli situasiyalar qoymaqla, həmin problemli situasiyanın həlli yollarını , üsullarını tapmaq bacarığını aşılamalıdırlar. Bu məqsədlə tələbələrdə hər şeydən əvvəl, dərin müşahidəçilik, məsələnin mahiyyətinə nüfuz etmək qabiliyyəti inkişaf etdirilməlidir.

Təlim prosesində tələbələrin tədqiqatçı mövqeyinin və idrak fəallığının aparıcı qüvvəsi olan təlimin problemli - dialoji şəkildə qurulması yeni psixoloji mexanizmlərə: problem situasiyanın yaradılması, dialoq və əməkdaşlığın zəruriliyi, şagird-tədqiqatçı, müəllim-bələdçi, psixoloji dəstək, hörmət və etibar və s. əsaslanır [2, s.95].

Təlim prosesində tələbələrin təfəkkür proseslərinin fikri fəaliyyətə cəlb edilməsində müəllimin suallarının böyük əhəmiyyəti vardır. Bəzi müəllimlər tələbələrin yaradıcı düşüncəsinə inanmır, onlara həddindən artıq bəsit və heç bir fikri axtarış aparmadan cavab verməsi mümkün olan suallar verirlər. Təcrübəli müəllimlər isə tələbələrdən tələb edirlər ki, verdikləri hər bir cavabı əsaslandırsınlar, sübutlar gətirsinlər, müvafiq nəticələr çıxarsınlar. Belə müəllimlərin sualları tələbələri idrak fəallığına sövq edir.

Müəllim suallar vasitəsilə həm tələbələrin təlim materialını necə mənimsədiklərini yoxlayır, həm də onların biliklərini dərinləşdirir. Suala cavab axtarmaq prosesində hər bir tələbənin idrak fəallığı və müstəqilliyi təzahür edir, sual vasitəsilə tələbənin oxuğu materialı şüurlu surətdə mənimsətmək, orada olan fikirləri və bunlar arasındakı əlaqələri başa salmaq, tələbəni yeni nəticələrə gətirmək mümkündür. Suallarla idrak fəallığının tələbələrdə necə inkişaf etdiyini də müəyyən etmək olar.

Təlim təcrübələrində bəzən dərsin motivasiya hissəsində, tədqiqat sualı və ya test tapşırıqlarında verilən sualların qoyuluşu məzmunun tam açılmasında lazımi nəticəni vermir. Dərsin motivasiya mərhələsində ortaya qoyulmuş problem və onun həlli tələbatı fəal dərsdə təfəkkür prosesini işləməyə və tələbələrin idrak fəallığını artırmağa sövq edir.

Müəllim tələbə qarşısında problemi ustalıqla qoymağı, onun idrak fəallığına və tədqiqat fəaliyyətinə rəhbərlik etməyi bacarmalıdır. Müəllim tələbənin daxili aləmini görməyi, tələbələrinin qarşılaşdığı vəziyyətin problemliliyini dərindən hiss etməyi, təlim prosesində

təşkilatçı, əlaqələndirici və tərəfdaş funksiyalarını yerinə yetirməyi, həll yollarını axtararkən tələbələrin buraxdıqları səhvlərə qarşı dözümlü olmağı bacarmalıdır.

Birləşdirilmiş dərslər, praktiki məşğələlər, debatlar, rollu oyunlar və s. mənbələrlə tənqidi - təhlili işin təşkili üçün, qrup tədqiqatlarının və işgüzar ünsiyyətin aparılması üçün çox faydalı və rahat formalardır. Bunlar öz növbəsində tələbələrin idrak fəaliyyətini fəallaşdırır, yaradıcı imkanlarının inkişafına və keçmişə öz münasibətlərinin formalaşmasına imkan yaradır.

Təlim prosesində tələbələrin idrak fəallığını artırmağa şərait yaratmaq üçün problemli situasiya yaratmaq da çox əhəmiyyətlidir. Bu halda tələbələr verilmiş problemlə bağlı çıxış yolu axtarmağa daha fəal surətdə qoşulur, bunu həll etmək üçün dərindən düşünməli olurlar. Onlar faktları ölçür-biçir, qarşılaşdırır, hansı faktın nə ilə əlaqədar olduğunu müəyyən etməyə, hər bir həyati faktı müəyyən nöqteyi-nəzərdən qiymətləndirməyə cəhd göstərir, nəhayət, hər hansı bir fikrə gəlirlər. Bu isə idrak fəallığının gedişatını göstərir.

Təlimin əsas üstünlüyü – biliklərə yiyələnmək həvəsinin yaradılmasıdır. Bu da idrak fəallığının inkişafında tələbələrin təfəkküründə gerçək ziddiyyətlərin həlli imkanlarına əsaslanır. Biliklər "hazır" şəkildə deyil, onların müstəqil surətdə kəşfi prosesində, mənimsənilir, yəni mənimsəmə prosesi passiv deyil, fəal xarakter daşıyır. Əgər tələbə öz istəyinə və öz fəaliyyətinə əsasən yeni bilikləri kəşf edirsə, onda o, dərsə yaradıcı və maraqla yanaşır, əldə etdiyi bilikləri uzun müddətə və möhkəm mənimsəyir. Bütün bunlar həm idrak fəallığının inkişafını şərtləndirir həm də tələbələrin passivliyinin aradan qaldırılmasına lazım olan təfəkkür xüsusiyyətlərinin və yaradıcılığın formalaşdırılması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. Tələbələrin idrak fəallığı, təlim motivasiyası və təfəkkürə əsaslanaraq biliklərin müstəqil, məhsuldar və yaradıcı şəkildə əldə edilməsi, eləcə də mənimsənilməsi sayəsində təlim səmərəliliyinin artırılması həyata keçirilir.

Mütəxəsssislərin fikrincə, fəal təlimin əsas üstünlüyü ondan ibarətdir ki, tələbələrin idrak fəallığını artırır, onları düşündürür, müstəqil qərarlar çıxarmağa yönəldir. İdrak fəallığının inkişafı gedişində tələbələrin məntiqi, tənqidi, yaradıcı təfəkkürü inkişaf edir [5, s.156].

Təlim prosesində idrak fəallığının nəticəsində:

- biliklər daha müstəqil, sərbəst qavranılır və mənimsənilir;
- məntiqi, tənqidi və yaradıcı təfəkkür, habelə problemlərin həlli və qərar qəbul edilməsi üzrə vərdişlər formmalaşdırılır;
- elmi-tədqiqat vərdişləri formalaşdırılır;
- qarşılıqlı hörmət hissi və əməkdaşlıq vərdişləri aşılanır [4, s.168].

Belə nəticəyə gəlmək olar ki, fəal (interaktiv) təlim tələbələrin idrak fəallığına əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Fəal təlim müasir prinsiplərə əsaslanmaqla tədrisin və idrak fəallığının artırılmasının təşkili və idarə olunması metodlarının məcmusudur.

Müasir təlim metodlarının tətbiqi ilə tələbələrə müstəqil düşünmək, sərbəst işləmək, problemin həllinə dair fikir söyləmək, münasibət bildirmək, fərziyyələrini bildirmək, qərar qəbul etmək, yaradıcı fəaliyyət göstərmək, məntiqi, tənqidi təfəkkürünü inkişaf etdirmək imkanları yaradılır. Beləliklə bütün yuxarıda sadalananların hamısı təlim prosesində həyata keçirilməsi vacib şərtlərdəndir ki, butün bunlar da tələbələrdə idrak fəallığının inkişafının yaxşılaşdırılmasına kömək edir.

## ƏDƏBİYYAT

1. Bayramov Ə., Əlizadə Ə. Psixologiya, Bakı: 2009.
2. Əliyev B.H., Əliyeva K.R., Cabbarov R.V. Pedaqoji psixologiya, Bakı: 2011.
3. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri, Bakı: 2004, 431s.
4. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları, Bakı: Adiloğlu, 2003, 282s.

5. İsmixanov M.A., Bəxtiyarova R.Ə. Ali məktəb pedaqogikası , Bakı: 2016, 235s.

## TƏLƏBƏLƏRİN İDRAK FƏALLIĞININ ÜMUMİ SƏCİYYƏSİ

## XÜLASƏ

Məqalədə tələbələrin idrak fəallığı və onun ümumi səciyyəsindən bəhs olunmuşdur. Tələbələrdə idrak fəallığı anlayışının mahiyyəti açıqlanmış və idrak fəallığına təsir edən amillər geniş təhlil olunmuşdur. Qeyd olunur ki, tələbələrin idrak fəallığı və onun inkişafı dərsin təşkilindən və istifadə olunan metodlardan çox əsaslı şəkildə bağlıdır. Həmçinin tələbələrin idrak fəallığının inkişafı və müasir təlim metodlarının rolu xüsusi vurğulanmışdır.

## ОБЩАЯ ИНСПЕКЦИЯ ДЕЯТЕЛЬНОСТИ СТУДЕНТОВ

## РЕЗЮМЕ

В статье рассматривается познавательная деятельность студентов и их общий характер. Раскрыта сущность познавательной деятельности у студентов, а также проанализированы факторы, влияющие на познавательную деятельность. Отмечено, что познавательная деятельность студентов и их развитие сильно зависят от организации курса и используемых методов. Была подчеркнута роль современных методов обучения и развития познавательной активности студентов.

## GENERAL CHARACTERİSTİC OF COGNİTİVE ACTİVİTY OF STUDENTS

## SUMMARY

The article deals with students' cognitive activity and their general character. The essence of cognitive activity in students was explained, and the factors influencing cognitive activity were widely analyzed. It is noted that students' cognitive activity and their development are strongly dependent on the organization of the course and the methods used. The role of modern teaching methods and the development of cognitive activity of students was emphasized.

# YENİYETMƏLƏRDƏ "MƏN KONSEPSİYASI"NIN FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ

***Nayim Səmədzadə***
***BDU-nun II kurs magistrantı***
***naim.semedzade@icloud.com***

***Açar sözlər:*** yeniyetmə, "Mən" konsepsiyası, özünəhörmət, şəxsiyyət, yaradıcı drama, təlim, tərbiyə
***Ключевые слова:*** подростковый, Концепция "Я", самооценка, личность, творческая драма, обучение, воспитание
***Key words:*** adolescence, The concept of "I", self-esteem, personality, creative drama, training, upbringing.

Yeniyetməlik dövrü, insan həyatında mürəkkəb bir mərhələ olmaqla mühüm və çətin bir yaş dövrünü əhatə edir. Bu yaş dövrü, gəncin cinsi, zehni, fiziki, ictimai və psixoloji inkişafı baxımından araşdırılmalıdır.

Görkəmli tədqiqatçı J.F.Adamsa görə, yeniyetməlik əsasən hormonal və fiziki yetkinləşməni də özündə ehtiva edir. Bu dövr 10-11 yaşlarından başlayaraq 14-15 yaşa qədər davam edir. Bəzi tədqiqatçıların fikrincə isə bu dövr hətta 18-20 yaşa qədər davam edə bilər. Bu yaş aralığı, xronoloji cəhətdən də baxıldığında çox qısa bir zaman kəsiyini əhatə edir. İlkin əkinçilik və şəhər mədəniyyətlərində, çox erkən yaşlarda yeniyetmənin töhfəsinə ehtiyac duyulmuş və yetkinlik məsuliyyətlərini almışdır. Oğlan və qızlarda yeniyetməliyə giriş və bu dövrün bitməsi fərqli əlamətlər kəsb edir. Bu yaş dövrü ilə bağlı elmi ədəbiyyatda çox saylı tədqiqatlar mövcuddur. Bu istiqamətdə aparılmış tədqiqatların təhlilindən çıxış edərək, onları iki istiqamətdə ayırmaq mümkündür. Birinci istiqamətin nümayəndələri yeniyetməliyi konflikt dövrü olaraq izah edərkən, digər bir qismi də bu dövrün fırtınalı və stressli olduğunu qəbul etmir. Avtoritarlığa qarşı olma, söz dinləməmə, itaətsizlik, tənqid, səhv tapmaq gəncin bu yaş dövründə özünü göstərir. İnkişaf dövründə valideyn tərəfindən, bəzən yetkin, bəzən bir uşaq kimi qavranılan gənc nə zaman və necə davranılacağını bilməz. İnkişafda olan bədəninə, cinsi və emosional dəyişiminə uyğunlaşa bilməyərək şəxsiyyət qarışıqlığına düşə bilər. Valideynin təzyiqli və intizamlı davranmaqdan çox, gəncə qarşı sevgi göstərən, güvən verən bir mövqeyin ortaya qoyulması şəxsiyyətinin inkişafını asanlaşdıracaqdır. Yeniyetməliyi 5 inkişaf məsələsi baxımından araşdırmaq lazımdır:

* Fiziki
* "Mən"in psixologiyası və inkişafı
* Şəxsiyyətin inkişafı
* Əxlaqi inkişaf
* Cinsi rolunun inkişafı

Yeniyetməliyin inkişaf problemləri mexaniki bir şəkildə aradan qaldırılmalı olan maneələr deyildir. Bu vəzifələr, daha dərin şəkildə yüksək şəxsiləşdirilmiş təcrübələrdir. Bu inkişaf vəzifələrinin hər biri, yeniyetmənin özünü fərd olaraq müəyyənləşdirməsinə və mənlik anlayışı və özünəhörmətin inkişaf edəcəyi təsvir oluna bilər (1, 107-116 s.).

Yeniyetməlik dövrü yeniyetmələr üçün yolunda gedərsə bir yeniyetmənin çox tərəfli konfliktlərini həll etmə cəhdi sağlam bir şəxsiyyət hissi ilə təsvir edilər. Buna görə, bu yaş dövründəki konflikt sağlam formada həll edilə bilərsə, bu inkişaf ilə nəticələnər.

"Şəxsiyyət" S. Budak'ın psixologiya lüğətində aşağıdakı kimi müəyyən edilmişdir:

"Şəxsiyyət" – "Mənliyimiz mövzusunda dünən, keçən il, ondan əvvəlki il və s. kimsək yenə o, olduğumuz yolundakı subyektiv bütövlük, ardıcıllıq və süreklilik duyğusu deyə" təsvir edilir.

Yeniyetmə şəxsiyyətinin formalaşmasında ana-ata və daha sonra məktəbin təsirləri araşdırılmışdır. Yeniyetmə məktəbdə və evdə sorğulayan, nüfuza qarşı gələn, qaydaları rədd edən, ancaq öz qaydalarına sahib olan fərddir (2, s. 154).

**Yeniyetmənin "Mən"inin İnkişafı:**

"Mənlik" S. Budak-ın psixologiya lüğətində, 5 başlıqda təsvir edilir:

1 - Ən ümumi mənada; İnsanın özünü başqa hər kəs və hər şeydən ayrı bənzərsiz və bir bütövlük kimi hiss etməsi, bunun şüurunda olması və bu şəkildə dərk olunan universal varlıq şəklində təsvir ediləbiləcək olan "mənlik anlayışı" fəlsəfədə olduğu kimi psixologiyada da başlıca yer tutur. Fəlsəfi yönümdən asılı olaraq tərifi dəyişsə də, hamısında ortaq element, öz varlığının şüurunda olmaq və könüllü fəaliyyət qabiliyyətidir.

2 - Bilinən, xatırlanan, hiss edilən, görünən və s. şeydən fərqli olaraq bilən, xatırlayan, arzulayan, əzab çəkən - *Eqo;* Hər cür subyektiv yaşantının altında yatan bütövləştirici prinsip – *Ruh.*

3 - İnsanda anadangəlmə olduğuna və özünü reallaşdırmağa, qüsursuzluğa, mükəmməlliyə və s. çatmaq istiqamətində insan instinktlərinə inanılan əsas, universal potensial. Bu tərif daha çox A.H.Maslow və K.Horney kimi humanistlərin tərifidir.

4 - Bu universallığa yaxın bir şey də Yung tərəfindən təsvir olunmuşdur. Yung-a görə "mənlik" eqonun şablonudur. Ortaq şüur xaricində yerləşən mərkəzi, toplayıcı, rəhbərlik kimi ilk tip və digər tipləri daxildir. Bu tərifə görə mənlik, ruhun özəyidir, inkişafın ilk tipidir.

5 - İnsanın özü ilə əlaqəli hisslərini, düşüncələrini, duyğularını sintezləşdirib bütövləşdirən quruluş, sosial qarşılıqlı təsirlə formalaşan özünə münasibətin obrazıdır ( 2, 123-124s.).

Mənlik anlayışının inkişafı, fərdin ətrafı ilə olan əlaqəsi, rabitə və həyatlarının qavrayış formalarına görə yaranan və davamlı dəyişiklik göstərən bir prosesdir. Digər insanlar tərəfindən daim müsbət olaraq dəyərləndirilmə və qəbul olunma ehtiyacı, yaşantıların qavrayış formasına əhəmiyyətli dərəcədə təsir göstərir. Xüsusilə özünə yaxın olan şəxslərin mövqeyi fərd üçün çox əhəmiyyətlidir. Bu məsələdə onu məmnun edən və ya hüsrana uğradan cürbəcür yaşantılar nəticəsi fərd, özünə dəyər vermə duyğusunu yaradır. Bu hiss digər insanların özünü qiymətləndirmələrinin nəticəsi olaraq və öyrənilərək inkişaf edir. Fərdin özünə olan özünəinamı və özünəhörməti bir dəfə yarandıqdan sonra, digər insanların özünüqiymətləndirmələrindən çox əziyyət çəkmədən varlığını davam etdirir və fərdin bütün davranışlarını təsiri altına alır.

Mənlik anlayışının emosional, davranışsal olaraq 3 ölçüsü vardır (M. Pişkin, 2000: 97s.).

Mənlik anlayışı mənliyin davranış tərəfidir. Mənlik hörməti isə mənliyin emosional tərəfidir (James F. Adams, 1968: 117s.).

Şəxsiyyət isə mənliyin ictimai yanıdır (2, s.451).

Mənlik anlayışını müəyyən mənada ideal mənlik, mənlik obrazı və özünə hörmət anlayışını içinə alan şaxəli bir anlayış olaraq görə bilərik.

Mənlik obrazı fərdin "nə olduğunu" , ideal mənlik "fərdin arzu etdiyi məni" özünə hörmət isə "fərdin nə olduğu ilə nə olmaq istədiyi" arasındakı fərqə dair fərdin duyğularını göstərir (3, s.97).

M. Rozenberqə görə özünəhörmətin yaranmasına təsir edən dörd faktor var:

1. Özünə hörmət fərdin yaxın ətrafındakı digər insanlarla müqayisələrdən təsirlənir. Bu müqayisələr fərdlər tərəfindən qoyulan standartlara əsasən aparılır və bunun nəticəsi olaraq fərd, özünə qarşı müsbət və ya mənfi münasibət inkişaf etdirir.

2. Şəxs, başqalarının ona qarşı mövqelərindən dərin bir şəkildə təsirlənərək başqalarının qiymətləndirmələrini öz mənlik hörmətinin bir hissəsi kimi qəbul edir. İctimai münasibətlərin və dəyərlərin mənimsənilməsi də mənlik hörmətinə təsir göstərir.

3. Fərdin əhəmiyyət verdiyi sahələr və xüsusiyyətlər mənlik hörmətinə təsir edən amillərdən biridir. Əgər fərd müəyyən bir sahəyə yada xüsusiyyətə əhəmiyyət vermirsə, başqa sözlə, bu sahə, psixoloji mərkəzlərdə deyilsə fərdin özünə hörmətinə təsir göstərməyəcəkdir.

4. Fərdin uğur yada uğursuzluğunu qavrayış tərzi mənlik hörmətinə təsir edən digər bir amildir. Uğurunun səbəblərini öz davranışları ilə açıqlayanda özünə hörməti müsbət istiqamətdə təsirlənəcəkdir.

İnsan müəyyən dövrlər ərzində inkişaf edər, dayanar və çökər; uşaqlıq, yetkinlik, yaşlılıq kimi tanınan bu dövrlər, bir-birindən kəskin sərhədlərlə ayrılmamışdır. Bir əvvəlki dövr bir sonrakı dövrə təsir göstərir. Buna görə də uşaqlıq gəncliyi, yeniyetməlik də yetkinliyi yaradır.

Fərdin hər yaş dövründəki inkişafı çox əhəmiyyətlidir, ancaq yeniyetməlik dövrü təhsil həyatının böyük əksəriyyətini əhatə edir ki, bu dövrdə məktəb və təhsil həyatlarının gəncin özünəhörmət, ya da mənlik inkişafındakı rolu danılmazdır.

Fərdin mənliyini digərləri ilə müqayisə etməsi, yeniyetmələrin sahib olmaq istədiyi mənliyi, özlərindən etmələri gözlənilən ictimai gerçəkliyə qarşı sınamalarına icazə verən mühüm və davamlı bir prosesdir. Bu proses həyat boyu davam edir amma yeniyetməlik illərində daha çox enerji və sıxlıq daşıyır.

Bəzi yeniyetmələr, sabit və ardıcıl mənlik anlayışı üçün bir əsas təşkil edən emosional alt quruluşu təchizatçı müsbət həyat təcrübəsindən uzaqdır. Erik Erikson, özləri haqqındakı utanc və inamsızlıq hissləri, davranışlarına dair günah duyğularıyla və istedadları ilə bağlı alçaqlıq hissinə malik olaraq böyüyən gənclərin, yeniyetməlik dövründə olması lazım olandan daha çox şəxsiyyət qarışıqlığı yaşayacaqlarını demişdir (1, s. 122).

Özünəhörmət səviyyəsi yüksək tələbələr, istər sosial əlaqələrində, istərsə də məktəb işlərində daha çalışqandırlar. Yeni şeylər öyrənməyə daha maraqlıdırlar və yeni hallarla rastlaşmaqdan çəkinmirlər. Özünəhörmət səviyyəsi aşağı tələbələrdə isə; bunun əksinə, özlərinə daha az etimad göstərər və onlardan tələb olunanları bacara bilməyəcəkləri duyğusunu daha sıx yaşayırlar.

Fərdin müəyyən bir sahə ilə əlaqədar özünəhörmət səviyyəsinin aşağı olması, onun gerçək özünəhörmət səviyyəsinə o qədər də çox təsir göstərməyəcək. Çünki hər bir fərdin malik olduğu yüzlərlə, hətta minlərlə xüsusiyyət vardır və hər birimiz hər gün bir o qədər fərqli situasiyalardan qaçmamız mümkün olduğu üçün bu vəziyyətin üzərimizdə yaratdığı mənfi təsiri bir şəkildə kompensasiya etmək mümkündür. Ancaq uğursuz olduğumuz və özümüzü yetərsiz qəbul etdiyimiz bir hal ilə tez-tez üzləşiriksə və özümüzü pis hiss etdiyimiz bu vəziyyət və hadisədən qaçmağımız bir şəkildə mümkün deyilsə, nəhayət bu vəziyyətə dair spesifik özünəhörmətimiz bizim ümumi özünəhörmət səviyyəmizə mənfi şəkildə təsir edə bilər (3, 103-104s.).

**“Mən”in inkişafında dramın bir üsul kimi istifadəsi:**

Özünəhörmət inkişafında məktəb və ailənin çox mühüm bir rolu vardır. Ana, ata mövqeləri uşağın hörmət səviyyəsinin aşağı və ya yüksək olmasında mühüm bir faktordur. Şagirdlərin özünəhörmət səviyyələrinin keçid dövrlərində və kritik yaş aralıqlarında düşdüyü aparılan tədqiqatlar ilə sübut olunmuşdur. Yeniyetməlik dövrü çox kritik bir keçid nöqtəsi olduğu üçün bu dövr də gəncin şəxsiyyətini tapmasına dəstək olacaq işlərə yönəldirilməsi vacibdir.

Müəllimlər şagirdlərin bilik və bacarıqlarını yüksəltmək kimi ən əsas vəzifələri yanında, onların psixi sağlamlığını qorumaq və inkişaf etdirmək kimi vəzifələrində olduğunu unutmamalıdır, çünki psixi sağlamlığı yerində bir cəmiyyət yaratmaq hədəfi ancaq özünə güvənən, özü haqqında müsbət düşünən və özünə hörmət səviyyəsi yüksək insanlar yetişdirməklə baş verir. Məktəbdə "psixi - sağlamlığı" qoruyan tədbirləri sinif müəllimləri ilə psixoloji məsləhətçilərin əməkdaşlığı çərçivəsində etmələri lazımdır. Bu məsələdə psixoloji məsləhətçilərin istifadə etdiyi üsullara əlavə olaraq, yaradıcı drama bir intizam olaraq tətbiq edildiyində uşaqlarda psixi sağlamlığı qoruyacaq. Yaradıcı drama tədbirlərinin tələbəyə qazandırdıqları saymaqla bitməyəcək. Özünəhörmətinin inkişafı ilə bağlı görülən yaradıcı drama tədbirləri və sinif rəhbərlik proqramında yer alan tədbirlər şagirdin özünü tanıması, dərk etməsi və mənliyinin ölçülərini fərq etməsinə yardımçı olacaqdır. Məktəbimizdə yaradıcı dramı istifadə edən müəllimlərin və psixoloji məsləhətçilərin sayı artdıqca xoşbəxt, özünü bilən və tanıyan

şagird sayı da artmağa başlayacaqdır. Bu barədə yeni işlərin aparılacağı və sahəyə qatılacağı ümid edilir. Dram təhsili alan şagirdlərimizin də fərqi başa düşülür. Mühakimə edən, sınaq yolu ilə öyrənən və öyrənmələri zamanında da bacarıqlarını daha çox inkişaf etdirəcək və özünəhörmət səviyyəsi artacaq. Həmçinin kiçik yaşlardan etibarən alınan dram dərsləri, dramın bir intizam kimi istifadə edilməsi də fərdi inkişaf və özünəhörmət səviyyəsində artımı təmin edəcəkdir.

## ƏDƏBİYYAT

1. Adams J. F. (1968) "Understanding Adolescence" Allyn and Bacon Publisher; 1st Printing edition; ISBN-13: 978-0470869208;
2. Budak S. (2000) "Psikoloji Sözlüğü" Ankara: Bilim ve Sanat Yayınları;
3. Pişkin M. (2000) "Özsaygı Geliştirme Eğitimi İçinde: İlköğretimde Rehberlik" (S.95-123). Ankara: Nobel Yayınları;

## XÜLASƏ

Məqalədə müxtəlif dövrlərdə aktual problemlərdən biri olan yeniyetməlik yaş dövrü haqqında danışılır. Məqalə yeniyetmələrdə "Mən konsepsiyası" nın formalaşması xüsusiyyətlərinə həsr olunub. Ailənin, ətraf mühitin və digər amillərin yeniyetmənin "Mən"inin inkişafında oynadığı rol, onun özünəhörmət səviyyəsinin müsbət və ya mənfi istiqamətdə inkişaf etməsi kimi problemlərə toxunulub.

Burada James, Rozenberg, Cooley, Budak kimi tədqiqatçıların, "Mən"in inkişafı ilə bağlı fikirləri, özünəhörmət səviyyəsinin formalaşması ilə əlaqəli tədqiqatlarından istifadə olunmuşdur. Son olaraq, "Mən"in inkişafında yaradıcı dramın bir üsul kimi istifadəsi vurğulanmışdır.

## SUMMARY

The article talks about the adolescent age, one of the most pressing problems of different times. The article is devoted to the peculiarities of forming the concept of "I conception" in adolescents. The role of family, environment, and other factors in the development of the "I" of adolescents has been touched upon, such as the development of positive or negative self-esteem.

Here are used by researchers like James, Rosenberg, Cooley, Budak, and the research on the development of the "I" and the formation of self-esteem. Finally, the use of creative drama as a method in the development of "I" was emphasized.

## РЕЗЮМЕ

В статье рассказывается о подростковом возрасте, одной из самых актуальных проблем разных времен. Статья посвящена особенностям формирования «Я концепции» у подростков. Была затронута роль семьи, окружающей среды и других факторов в развитии «Я» подростков, таких как развитие положительной или отрицательной самооценки.

Здесь используются такие исследователи, как Джеймс, Розенберг, Кули, Будак, и исследования по развитию «Я» и формированию самооценки. Наконец, использование творческой драмы как метода в развитии «Я» было подчеркнуто.

# CİZGİ FİLMLƏRİNİN UŞAQ ŞƏXSİYYƏTİNİN İNKİŞAFINDA ROLU

***Abbaszadə Ülfət Nəsimi qızı***
***BDU-nun II kurs magistrantı***
***Elmi rəhbər: dos Cabbarova Lalə***
***ulfetpsixologiya@gmail.com***

***Açar sözlər:*** cizgi filmi, animasiya, şəxsiyyətin formalaşması, məktəbəqədər yaş dövrü, sosial inkişaf, tərbiyə.
***Ключевые слова:*** мультфильм, анимация, формирование личности, дошкольный возрасть, социальное развитие, воспитание
***Key words:*** cartoon, animation, personality formation, preschool age, social development, upbringing

Müasir dövrümüzdə cizgi filmləri məktəbəqədər yaşlı uşaqların inkişafında, şəxsiyyətinin formalaşmasında çox mühüm yer tutur. Cizgi filmi (latın dilindən.

Muitiplication – vurma, artırmaq, böyütmək, çoxaltmaq) hərəkətli görüntülərin ardıcıllığından istifadə edərək, bir-birini müəyyən bir tezliklə əvəz edən illüziyalar toplusudur.

Məktəbəqədər yaşlı uşaqlar cizgi film izləyərkən tez – tez dəyişən, parlaq görüntülər onların diqqətini cəlb edir. Bəzən uşaqlar cizgi filmin mənasını anlaya bilməsə də, filmin əhvalını, intonasiyasını, oradakı bəzi sözləri yadda saxlaya bilir. Adətən uşaqlar filmdəki məlumatları hərfi mənada qəbul edirlər, onlar yumoru başa düşmürlər, həqiqətlə yalanı fərqləndirməkdə çətinlik çəkirlər. Burada ən başlıca məqam cizgi filmin uşağın yaş xüsusiyyətlərinə uyğun seçilməsidir. Cizgi filmləri uşağın yaşına uyğun olmalıdır, bu yaş qrupuna aid olan problemləri və onların həlli yollarını əhatə etməlidir.

Üç yaşdan kiçik uşaqların yaş xüsusiyyətləri onlara eyni vaxtda cizgi filmini dinləməyə və seyr etməyə imkan vermir. Bu zaman uşağın diqqəti, əsasən, ekranda dəyişən əlvan rənglərə yönəlir. Təqdiqatlar göstərir ki, belə kiçik yaşlı uşaqların uzun müddət cizgi film izləməsi gələcəkdə nitq qüsurlarına, görmə və motor bacarıqlarının zəifləməsinə və hətta artıq çəki problemlərinə gətirib çıxara bilər [7, s.36-38].

Kiçik yaşlı uşaqların özünü dərk etməsində və yaşıdları ilə ünsiyyət qurmasında cizgi filmləri mühüm rol oynayır. Cizgi filmlərinin personajları uşağa xarici dünya ilə qarşılıqlı əlaqə yollarını göstərir. Özünü sevimli qəhrəmanları ilə müqayisə edərək uşaqlar özünü qiymətləndirməyə çalışır, arzularını və qorxularını kəşf edirlər. Cizgi filmində baş verən hadisələr uşaqların düşüncə və təxəyyülünü inkişaf etdirir və dünyagörüşünün formalaşmasında zəngin mənbə rolunu oynayır [4, s.152].

Məktəbəqədər yaşlı uşaqların psixoloji xüsusiyyətləri və yaş göstəriciləri nəzərə alınaraq doğru cizgi filmin seçilməsi onun inkişafında vacib məqamlardan biridir. Doğru seçilmiş cizgi film uşaqda sujeti qavramaq və məntiqi düşünmək bacarığı formalaşdırır. Eyni zamanda valideynlər cizgi film seçərkən oradakı tərbiyənin təsir vasitələrinə xüsusi diqqət yetirməlidirlər. Cizgi film personajları uşaqlar üçün tərbiyəvi nümunə xarakteri daşıyır. Həmçinin cizgi film izləmək uşaqların vizual və eşitmə diqqətini artırır, onların inkişafına töhfə verir. Cizgi filmlərinə valideynlərlə birgə baxmaq uşağın nitqini inkişaf etdirən yeni, maraqlı mövzular tapmağa kömək edir [2, s. 764-767].

Cizgi film xarakterlərinin müəyyən bir kateqoriya daxilində canlandırıldığını irəli sürən Rigel bu kateqoriyaları belə ifadə edir: birinci kateqoriyada, çox kanallı televizor və ya en yeni kompyuter oyunlarına daha çox marağı olan uşaqların müasir texnologiyanı daha sürətli öyrənməsini təmin etmək məqsədilə, texnologiyanın uşaqlar üzərindəki qüvvətli təsirini, gücünü və önəmini ön plana çəkən cizgi filmər yer alır. İkinci kateqoriyada “Heidi”, “Şeker kız Candy”

və “Şila” kimi həssas məzmunlu cizgi filmlər yer alarkən, üçüncü kateqoriyada uşaqları həyata hazırlayan, mənəvi dəyərləri ön planda tutan cizgi filmlər mövcuddur. Yuxarıda qeyd olunan üç kateqoriya ilə yanaşı, birbaşa təlim məqsədli cizgi filmlər də vardır. Bu növ cizgi filmlər təlimi dərs formasından çıxarıb, televizor ekranında daha rəngli və yadda qalan hala gətirir. Buna misal olaraq “Caillou” cizgi filmini göstərmək olar.

Aparılan araşdırmalara əsasən televizorun uşaqların fiziki inkişafına təsir göstərdiyi, düşünmə və nitq qabiliyyətlərinin formalaşmasında mühüm rol oynadığı məlum olmuşdur [3, s. 207]. Belə ki, danışmağı öyrənmədən televizora baxan uşaqlar oxumağı öyrənməyə həvəsli olmurlar. Dörd yaşındakı uşaqlar cizgi film qəhrəmanlarının gerçək olmadığını qavramaqda çətinlik çəkirlər. Məktəbəqədər yaşlı uşaqlar izlədikləri, gördükləri, eşitdikləri hər şeydən mənfi və ya  müsbət olaraq təsirlənirlər. Televizorda izlədikləri cizgi film personajlarını sanki gerçək olaraq qəbul edir, eyni hərəkətləri etməy ə və personajlara oxşar davranmağa meyl edirlər [1, s. 281-297].

Diqqəti cəlb edən məqamlardan biri isə uşaqların həddindən artıq cizgi film izləməsinin, onları dərs oxumaqdan, kino və teatra getməkdən, hətta oyun oynamaqdan belə məhrum etməsidir. Bu halda uşağın sosial münasibətləri zəifləməkdə və uşaq içinəqapalı bir vəziyyətə düşməkdədir. Cizgi filmlər izlənərkən tez –tez reklamlarla bölünməsi diqqətin davamlılıq müddətinin azalmasına, diqqətin mərkəzləşməsinin pozulmasına səbəb olmaqdadır. Qeyd olunan mənfi təsirlərin bəzilərinin qarşısı alına bilsə də, bir çox mənfi təsirlərə yerindəcə müdaxilə etmək mümkün deyildir.

Cizgi filmlərinin uşaqlar üzərindəki təsirlərini bir çox müxtəlif mövzu baxımından dəyərləndirmək mümkündür. Uşaq şəxsiyyətinin formalaşmasında mühüm amillərdən biri olan güvən duyğusu mövzusu, bəzən cizgi filmlərdə düzgün əksini tapa bilmir. Belə ki, uşaqlar bu zaman dünyanın çox təhlükəli bir yer olduğunu, düşmənlərin hər yerdə olduğunu düşünə bilərlər. Silahların ön planda olduğu cizgi filmlər seyr edən uşaqlar, özünü güvəndə hiss etmək üçün silahlara ehtiyac olduğunu düşünməyə meylli olurlar. Bu halın əksinə olaraq, uşaqların öz güvəninin düzgün formalaşması üçün cizgi filmlərdə insanların bir-birinə güvəni və yardımlaşması ön plana çəkilməlidir.

Məktəbəqədər yaşlı uşaqların cinsi tərbiyəsi mövzusuna diqqət yetirdikdə, üç yaşlı uşaqların artıq öz cinsini dərk edə bilməsinin və qarşı cinsdən ayıra bilməsinin şahidi oluruq. Cinsiyyət ayrımının həddindən artıq ön planda olduğu cizgi filmlər uşağın cinsi tərbiyəsinin formalaşmasında mənfi rol oynayır. Belə hallara misal olaraq, cizgi filmlərdə kişilərin daha güclü göstərilməsini, şiddət yolu ilə dünyanı qoruduqlarının əks olunmasını qeyd etmək olar. Bunun müqabilində qızların daha aciz və dünyadakı hadisələrə maraqsız göstərilməsi uşaq şəxsiyyətinin bir tərəfli formalaşmasına səbəb ola bilər. Psixoloqların fikrincə, cizgi filmlərdə uşaqlar davranışlar, münasibətlər və bacarıqlar baxımından geniş, kompleks bir müxtəlifliyə sahib xarakterlər izləməlidirlər. Hər iki cinsiyyətin hər birinə ayrılıqda xas olan davranışları aydın görməlidirlər.

Cizgi film izləyən uşaqlar orada əks olunan qarşılıqları münasibətləri nümunə götürərək sosiallaşmağa çalışır, ilkin sosial məsuliyyətlər qazanırlar. Uşaqların cəmiyyətin əxlaqi dəyərlərinin düzgün anlaması üçün, cizgi filmlərdə başqa insanlara qarşı məsuliyyətli və əxlaqlı davranan, mədəniyyət və hörmət göstərən personajlar görməsi vacib şərtdir. Bəzən cizgi filmlərdə “pis adamlar” ın zərər görməsinin vacib olduğu əks olunur, “yaxşı insan” və "pis insan” anlayışları kəskin sərhədlərlə fərqləndirilir. Əslində isə cizgi filmlər uşaqların empatiya duyğusunun yaranmasına və inkişafına kömək etməlidir, qarşısındakı insanı dinləmə və anlama qabiliyyətinin formalaşmasına təkan verməlidir [2, s. 764-767].

Cizgi filmlərdə diqqət çəkən və uşaq psixologiyasına dərindən təsir edən mövzulardan biri də insanlar arasında irqi və etnik fərqlərin düzgün əks olunmamasıdır. İnsanlar arasındakı

müxtəlifliklər uşağa onun anlaya biləcəyi formada göstərilmədikdə uşaqlar fərqli insanlara şiddət tətbiq etməyin doğru olduğunu düşünə bilərlər [6, s. 49-58].

Müasir dövrümüzdə cizgi filmlərin bolluğu şəraiti valideynlərə geniş seçim imkanı təqdim edir. Burada vacib məqamlardan biri cizgi filmi valideynin özünün seçməsi yoxsa uşağın kortəbii şəkildə cizgi filmlər izləməsidir. Psixoloqlar cizgi filmlərin düzgün seçilməsi üçün valideynlərin uşaqlardan əvvəl seçdikləri cizgi filmə baxmaqlarını məsləhət görürlər. Bu zaman valideyn müvafiq cizgi filmin uşağın yaş xüsusiyyətlərinə uyğun olub- olmadığını təyin edə bilər. Cizgi filmin valideynlərlə birgə izlənilməsi isə yarana biləcək mənfi təsirlərə və uşağın səhv anlaması hallarına yerindəcə müdaxilə etmək imkanı verir. Cizgi filmlərin seçilməsi və izlənilməsinə valideyn nəzarəti müsbət təsirlərin ön plana çəkilməsi, mənfi təsirlərin azaldılmasında mühüm rol oynayır. [5, s. 189]

Hər bir millətin, ümumilikdə isə bütün dünyanın gələcəyi ən dəyərli varlıqlarımız olan uşaqlardır. Cizgi filmlər uşaqların yaşlarına, inkişaf xüsusiyyətlərinə uyğun seçilməlidir. Cizgi filmlərin məzmunu və izlənmə müddəti valideynlər tərəfindən nəzarət edilməsi vacib ünsürlərdəndir.

## ƏDƏBİYYAT

1. Oruç, C., Tecim, E. ve Özyürek, H. "Okul öncesi dönem çocuğunun kişilik gelişiminde rol modellik ve çizgi filmler. Ekev Akademi Dergisi (2011)" s. 281-297.
2. Erdoğan, S. Erken çocukluk döneminde televizyonun sosyal gelişime ve değerler eğitimine etkisi. International Conference on New Trends in Education and Their Implications (2010, November). P. 764-767.
3. Мухина В. А. «Возрастная психология» - Издательство: Академия (Academia), 2012 г. – 207 с.
4. Авдеев Д. А. Как сохранить душевное здоровье ребенка. М. :Софтиздат, 2012, 152с.
5. Ньюфелд Г. «Не упускайте своих детей» - Издательство: Ресурс, 2012 г. – 189 с.
6. И.Н. Тимошиной, А. В. Морозовой «Влияние мультфильмов на психическое развитие ребенка» // Справочник педагога-психолога. Детский сад.- 2013. - №5.- 49-58 с.
7. Коростелева Н. А., Постнова В. В., Бондаренко В. В. Влияние современных мультфильмов на социальное развитие детей дошкольного возраста // Вопросы дошкольной педагогики.- 2015.-№3.- 36-38 с.

## XÜLASƏ

Yazdığımız məqalədə cizgi filmlərinin uşaq şəxsiyyətinin inkişafında rolu və uşaqların psixoloji xüsusiyyətləri və yaş göstəriciləri nəzərə alınaraq doğru cizgi filmin seçilməsinin əhəmiyyəti nəzərdən keçirilməlidir.

## РЕЗЮМЕ

В написанной нами статье рассмотрены роль мультфильмов в развитии личности ребенка и важность выбора правильного мультфильма на основе психологических особенностей и возраста детей.

## SUMMARY

In the article we wrote considering the role of cartoons in the development of a child"s personality and the importance of choosing the right cartoon based on the psychological features and age of the children.

# TƏLƏBƏLƏRİN İDRAK FƏALLIĞINA TƏSİR EDƏN ƏSAS AMİLLƏR

***Quliyeva Sevinc Yəhya qızı***
***BDU-nun Psixologiya kafedrasının dosenti***
**seva69aliyeva@mail.ru**

***Açar sözlər:*** idrak fəallığı, idrak marağı, koqnitiv struktur, idrak həvəsi, hafizə, yaddasaxlama
***Ключевые слова:*** познавательная активность, познавательный интерес, когнитивная структура, когнитивное желание, память, запоминание
***Key words:*** cognitive activity, cognitive interest, cognitive structure, cognitive desire, memory, memorization.

Müasir dövrdə təhsil sisteminin vəzifələri gündən-günə dəyişir. Hazırda bu vəzifələr içərisində təhsil subyektlərini dünya mədəniyyətinə və bəşəri dəyərlərə, daim dəyişən reallıqlara uyğunlaşdırmaq, elmi texniki yeniliklərə özünü yaradıcı şəkildə uyğunlaşma etdirmək, yeni fəaliyyət sahələrini asanlıqla mənimsəmək bacarıqlarına malik olan şəxsiyyətlər formalaşdırmaq ön planda durur. Özünə güvənərək təbiətdə və cəmiyyətdə baş verən hadisələrə, şəxsi həyatında üzləşdiyi çətinliklərə fəal münasibət hələ kiçik yaşlarından formalaşaraq gənclik dövründə daha kamil mərhələyə çatır. Bu prosesdə şəxsiyyətin idrak fəallığı mühüm rol oynayır. “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 4.0.1., 4.0.2., və 4.0.3. -cü maddələrində təhsilin əsas məqsədinə aşağıdakılar daxil edilmişdir: “Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək; milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq; sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq” (7, s. 5).

Qanunda təhsil sisteminin qarşısında duran bu mühüm məqsədi həyata keçirməkdən ötrü tələbələrin potensial fəallığını təmin etmək, həmin prosesi stimullaşdıran psixoloji determinantları, eləcə də özünüqiymətləndirmə amilini öyrənmək vacib məsələdir. İdrak fəallığının psixoloji aspektdə tədqiqi həm də ona görə vacibdir ki, o, məşğələlərin keçirilməsinin daha səmərəli, fəal metod, vasitə və formalarının aşkarlanmasına kömək edir. Bu mənada tələbə şəxsiyyətinin idrak fəallığının inkişafı problemi də aktualdır. Psixologiyada şəxsiyyətin fəallığı problemini öyrənərkən fəaliyyət anlayışına ayrılıqda baxılır (C.Bruner, J.Piaje, B.Q.Ananyev, L.S.Vıqotski, S.L.Rubinşteyn, A.N.Leontyev, C.Gilford və b.). İnsanı öyrənən hər bir elm fəallığa bu elmin vəzifələrinə uyğun gələn tərəfdən yanaşır. Müasir psixologiyada fəallığın mahiyyəti, növləri, xüsusiyyətlərini, şəxsiyyətin fəallığının inkişafının üsul və vasitələrini aşkarlamaq xüsusilə vacibdir. İdrak fəallığının təhsilalanların idrakının inkişafında vacib hərəkətverici qüvvə olması fikri klassiklərdən J.J.Russo, Y.A.Komenski və K.D.Uşinskinin əsərlərində vurğulanır. Vürsburq məktəbinin nümayəndələri, O.Külpe və onun ardıcılları isə şüurun məzmununu anlamaq üçün fikri əməliyyatların baş verdiyi məqamları aydınlaşdırırlar. Daha sonralar əqli və xarici-praktik hərəkətlərin qarşılıqlı əlaqəsi nəzəri və eksperimental şəkildə C.Bruner, J.Piaje, B.Q.Ananyev, L.S.Vıqotski, C.Gilford, M.İ.Pozner və b. tədqiqatlarında aşkar edilmişdir. Q.Ollport, R.Kettel, H.Ayzenk, R.Berns, S.L.Rubinşteyn, İ.S.Kon, D.İ.Feldşteyn, R.V.Qabdreyev, A.V.Smirnov, Y.E.Jestokova, R.H.Qədirova, S.M.Məcidova, L.D.Oleynik və b. şəxsiyyətin idrak fəaliyyətinin səbəbləri, kateqoriyaları və qanunauyğun inkişafla əlaqəsini göstərirlər.

XX əsr tədqiqatçılarından V.V.Davıdov, L.V.Zankov, Ə.S.Bayramov, Ə.Ə.Qədirov, Ə.Ə.Əlizadə, E.M.Quliyev - idrak prosesləri, təfəkkür müstəqilliyinə yaradıcılıq, N.F.Talızina, İ.V. Dubrovina, N.A.Mençinskaya - təlim hərəkətlərinin icrası qismində problemə münasibət bildirirlər. Təlim şəraitində idrakın fəallaşdırılması D.B.Boqoyavlenskaya, N.F.Talızina, D.İ.Feldşteyn, A.A.Rean, Q.İ.Şukina, E.V.Bəylərov, Z.A.Veysova və b. tədqiqatların predmeti olmuşdur. Psixologiyada hər hansı psixoloji hadisənin və prosesin, o cümlədən idrak fəallığının strukturuna onun hissələri və elementlərinin qarşılıqlı, vahid quruluşu kimi baxılır. Elementlər bir-biri ilə sıx, qanunauyğun əlaqədədir. Quruluşdakı hər bir element özünün yerinə, sahəsinə, xassəsinə malikdir. Quruluş anlayışı psixoloji sistemin daxili qurulma formasıdır. Bununla yanaşı, dərketmə insan fəaliyyətinin duyğu, qavrayış, hafizə, təxəyyül, təfəkkür kimi idrak proseslərini ehtiva edən inteqrativ qurulmadır.

İdrak fəallığının məqsədlərinin bir sıra xarici aspektləri vardır. İdrakın fəallaşdırılmasının məqsədi ideal şəkildə düşünülmüş nəticəyə yönəlmədir. Bu zaman müəllim və tələbələr birgə fəaliyyət göstərərək fəallıq üçün optimal şərait yaratmağa çalışırlar. Tələbələrin qarşısında peşə fəaliyyəti ilə bağlı aydın, dəqiq və konkret məqsəd qoyulduqda idrakın fəallıq istiqaməti aydınlaşır. Tələbələrdə gələcək peşəsinə sabit münasibət,peşəsi haqqında adekvat və hərtərəfli təsəvvürlər təlim fəaliyyətində formalaşaraq idrak fəallığını artırır.Bir çox ədəbiyyatlarda qeyd olunur ki, təlim tapşırıqları tələbələrin məlumatı yadda saxlamasına, anlamasına, yada salmasına hafızəsinin strukturlaşmasına, eyni zamanda məqsədyönlü aktuallaşdirmasına istiqamətlənir və onların arasındakı bağlılıq problemli məsələ həlli zamanı yaranır. İdrak fəallığının məqsədi tələbənin dərketmə maraqlarında təzahür edir. Bu maraqlar ontogenetik mənşəyə malik olur. Tələbə artıq peşə seçimini dərketmə maraqlarına görə etdiyindən onun idrak fəaliyyəti də bu istiqamətə yönəlir. İdrak fəaliyyətinin nəticəliliyinə təsir göstərən idrak marağını araşdıran Q.İ.Şukina onun mərhələli olduğunu göstərir ( 13,s. 93). İdrak marağına insanda koqnitiv köməksizlik hissinin olması ləngidici təsir göstərir. Bu hissin təsiri ilə idrak fəaliyyətinə maraq zəifləyir, bəzən ümumiyyətlə itir. Buna səbəb bəzən fəallıq marağının itməsi, bəzən isə fəaliyyətin nəticələrinin avtoritet şəxslər tərəfindən neqativ qiymətləndirilməsidir (9, s.91). Ən yüksək səviyyədə idrak marağı vasitəli xarakter daşıyır. O, tələbələri səbəb-nəticə əlaqələrinin öyrənilməsinə, predmet və hadisələrin qanunlarını müəyyən edən mövcud daxili xassə və keyfiyyətlərinin dərkinə təhrik edir. Bu səviyyədə biliklərin mənimsənilməsi nəinki təsviri, həm də izahlı xarakter daşıyır.

İdrak fəaliyyətinin struktur komponentləri arasında idrak həvəsini qeyd etmək olar. Çünki idrak həvəsi nə qədər davamlıdırsa, sönmürsə, tələbəni yeni fəaliyyətə stimullaşdırırsa, deməli bu, özünü ya adekvat, ya da yüksək qiymətləndirmədən doğur. Özünüqiymətləndirməsi zəif olan insanda idrak həvəsi situativ və keçicidir. İdraki hərəkətlərin müxtəlifliyi idrak fəallığının xüsusi forması kimi şəxsiyyətin həvəsini təmin edir. İdrak həvəsi, marağı idraki məsələlərin yeni həll imkanları və vasitələrini axtarmaq, fəaliyyətin yeni formalarını mənimsəmək meylində əks olunur. İdrak fəallığının reallaşma formaları kimi idrak marağı və həvəsi şəxsiyyətin dərketməyə meylini təmin edir. İdrak marağı və həvəsi olan subyektlər ətrafın mənimsənilməsinə meyllidirlər. Onlarda idrak tələbatı aydın ifadə olunur.

N.Q.Morozovanın fikrinə görə, idrak marağı idrak həvəsi kimi də çıxış edir.İdrak həvəsi təhsil alanların idrak maraqları kimi də qəbul oluna bilər (12). Bir sıra tədqiqatçılar (D.E.Berlayn, L.İ.Arcanova, V.V.Davıdov və b.) idrak həvəsini idrak motivasiyası və idrak fəallığı ilə qarşılıqlı əlaqədə nəzərdən keçirirlər (14). D.E.Berlayn idrak həvəsini motivasiyanın şərti, lazımi informasiyanın əldə olunması üçün idrak fəaliyyətinin yerinə yetirilməsinə meyl kimi təyin edir. Həvəs onda biliklərin axtarışında reallaşan perseptiv (bələdçilik-tədqiqatçılıq) və idraki fəaliyyət qismində çıxış edir. Yəni, idrak həvəsi dərketmənin motividir. O, fəal fikri prosesin oyadıcısıdır (14, s. 22).

V.V.Davıdov təhsilalanların psixi inkişaf xüsusiyyətlərini nəzərdən keçirərək idrak həvəsini təlim fəaliyyətinin gerçəkləşməsində formalaşan hisslərdən biri adlandırır (11, s. 382). L.İ.Arcanova idrak həvəsini intellektual hisslərə aid edir. O, idrak həvəsini "biliklərə olan mürəkkəb sevgi hissi" adlandıraraq hesab edir ki, həvəs əqli iş prosesində meydana çıxaraq ən yeni bilikləri qazanmaq meylində təzahür edir (14, s. 19).

A.Bandura və C.Rotter idraki həvəsi yaradıcı şəxsiyyəti xarakterizə edən vacib keyfiyyət hesab edirlər. Belə şəxsiyyəti nəinki yalnız faktlar, həm də onların dəyərliliyi, istifadə imkanları maraqlandırır (8). Ə.S.Bayramov və Ə.Ə. Əlizadə xarakterin strukturunda xüsusi intellektual keyfiyyətlərin tədqiqində idrak həvəsini də ayırır və onun göstəricilərini müəyyən edirlər. "Bunlar insanın fəaliyyətə münasibətində özünü biliklərin qazanmasına, bu bilik və vərdişlərə yiyələnən zaman düşünməyə meyl və tələbat kimi göstərir. Biz onları şəxsiyyətin məsuliyyəti, intizamlılığı və s. xarakter xüsusiyyətləri qismində qəbul edirik" (2).

B.H.Əliyev və R.V. Cabbarov idrak həvəsini şəxsiyyətin özünüreallaşdırma tələbati ilə əlaqələndirərək təhsildə həmin tələbatın ödənilməsinin vacibliyini göstərirlər. Müəlliflərin qənaətinə görə, idrak fəallığı da bu zəmində yaranır (3). İdrak fəaliyyətində insanın öz qabiliyyətləri haqqında təsəvvürlər böyük əhəmiyyət kəsb edir.

Tələbənin təlim fəaliyyətində fəallığın strukturunda reproduktiv və yaradıcı fəallıq da ayırd edilir. Ali məktəbdə təlim fəaliyyətini tələbənin reproduktiv fəallığı, icraçılıq fəaliyyəti olmadan təsəvvür etmək mümkün deyil. Burada söhbət tələbənin reproduktiv və yaradıcı fəallığının daha optimal uyğunluğundan, onun idrak fəallığının pedaqoji aspektdə məqsədyönlü şəkildə təşkilindən gedir. Tələbənin idrak fəallığında onun öyrənilən materiala münasibəti, mənimsəmə həvəsi, fəaliyyət şəraiti, fəaliyyət üslubu, yaradıcılıq elementlərinin aktuallaşma dərəcəsi, yenilik elementlərinin olması ilə əlaqəli komponentlər üstünlük təşkil edir.

İdrak fəalliqinda məhz hafizənin fəallığı yaddasaxlamanın möhkəmlənməsinə zəmin yaradır. Tələbələrin təlim tapşırığını həll edən zaman idrak fəalliğini artıran yaddasaxlamanın üsulları ön plana kecir. Mətnin yaxşı yadda saxlanması üçün onun məna əlaqələrinə xüsusi fikir verilməlidir. Çunki mənalı mətnlərdə söz və çümlələr deyil, əsasən onların ifadə etdiyi fikir, ideya yadda qalır. Həmin fikir, ideya isə materialın mahiyyətini ifadə edir. Mahiyyəti başa düşdükdən, anladıqdan, onu öz dilinə tərcümə etdikdən sonra öyrənmə səmərəli olur. Oxunan və ya öyrənilən materialı insanın "öz dilinə tərcümə etməsi" onu dönə - dönə təkrar etməkdən daha faydalıdır. Buna görə də tələbənin özünün fikirləşib tapdığı, özü gətirdiyi misallar, ifadələr daha yaxşı yadda qalır. Həmin fikir, ideya isə materialın mahiyyətini ifadə edir. Mahiyyəti başa düşdükdən, anladıqdan, onu öz dilinə tərcümə etdikdən sonra öyrənmə səmərəli olur. Bundan əlavə yadda saxlanılan materialın nə dərəcədə anlaşıqlı olması öyrənmənin xarakterinə təsir göstərir. Anlaşılan material mənali, anlaşilmayan, çətin material mexaniki oyrənməni tələb edəcəkdir.

Bəzən tələbə dərs materialını oyrənərkən faktik materiala çox diqqət yetirir, yəni materiali olduğu kimi yadda saxlamağa can atır, onu təhlil etmək, ümumiləşmiş nəticələr çıxarmaq məsələlərinə diqqət yetirmir. Belə olduqda mexaniki təkrarlar və onların kəmiyyəti ön plana keçəcəkdir. Hələ klassik psixologiyada müəyyənləşdirilmiş aşağdaki cəhətlərə diqqət yetirək. Eksperimentlər göstərmişdir ki, insanın 6 mənasız kəlməni yadda saxlaması üçün əqər bir təkrar kifayət edirsə, 12 mənasız sözü yadda saxlamaq üçün 14 -15, 36 mənasız sözü hadda saxlamaq üçün 55 təkrar lazımdır. Alman psixoloqu Ebbinhauz öz üzərində qoyduğu təcrübələr sayəsində müəyyən etmişdir ki, şeri mənasız sözlərə nisbətən 9 – 10 dəfə tez öyrənmək mümkündür. Buna görə də materialın yaxşı yadda saxlanması üçün onun məna əlaqələrinə xüsusi fikir verilməlidir. Çunki mənalı mətnlərdə söz və çümlələr deyil, əsasən onların ifadə etdiyi fikir, ideya yadda qalır. Həmin fikir, ideya isə materialın mahiyyətini ifadə edir. Mahiyyəti başa düşdükdən, anladıqdan, onu öz dilinə tərcümə etdikdən sonra öyrənmə səmərəli olur. Yaddasaxlamada məna əlaqələrinə istinad etmək çox vacibdir.. Belə olduqda mexaniki təkrarlar və onların kəmiyyəti ön

plana keçəcəkdir. Təcrübələrdən aydındir ki, tələbə kitabda yazılanı eynən, hərfən nağıl edirsə, bu onun həmin materialı şüurlu surətdə mənimsəmədiyini,yaxud mexaniki yadda saxlamasına əsas verir.

Yaddasaxlamada məna əlaqələrinə istinad etmək çox vacibdir. Yaddasaxlamanın, yəni mnemik fəaliyyətin müvəfəqiyyətli cərəyanı bir sıra amillərdən asılıdır: qarşıya qoyulan məqsədin xarakterindən, materialın anlaşılması dərəcəsindən, fikri fəallığın səviyyəsindən, təkrarların təşkilindən. Deməli, yaddasaxlamanın səmərəliliyi öyrənilən materialın xarakterindən və düzgün istifadə olunan mnemik priyomlardan, başqa sözlə,idrak fəallığından asılıdır. Beləlıklə, deməkolarki, tələbələrin idrak fəallığının obyekti onların peşə üzrə bilik və bacarıqlara yiyələnmək üçün həyata keçirdikləri dərketmə fəaliyyətidir. Tələbənin idrak fəallığı təlim hərəkətləri vasitəsilə baş verir. Hərəkət özü - prosesdir. Onu tələbənin peşə motivləri qidalandırır. Motivlər hərəkətin predmetinə uyğun gəlmədikdə, idrak fəallığı epizodik xarakter daşıyır.

Motivləşmiş hərəkətlərin baş verməsi yaradıcı fəallıqla xarakterizə olunur. Bu zaman tələbə cəhd göstərir, nəyisə yadda saxlayır, yada salır, diqqətini mərkəzləşdirir, yeni bilik əldə edir, onu tətbiqetmə bacarıqlarına yiyələnir, hansısa material üzərində işləyir, kompüterdə axtarışlar aparır, tapşırıqları həll edir. Tələbələrin idrak fəallığının inkişafında onların təlim fəaliyyətinin təşkili formaları, tədris və öyrənmə metodları vacib rol oynayır, lakin heç də məşğələlərin bütün formaları və ya metodu tələbələrin idrak fəallığını şərtləndirmir. Ona görə də təlim məşğələlərinin təşkilinin fəal formalarından istifadə etmək vacibdir,artıq gənclik yaşının dərketmə imkanlarına, intellektual bacarıqlara yiyələnmiş tələbələr özlərinin əqli imkanlarına koqnitiv səviyyədə yanaşırlar. Belə ki, onlar özləri informasiyaları qəbul etmək,yadda saxlamaq,yada salmaq, onlara seçici yanaşmaq, üzərində işləmək, nəticəyə gəlmək, qərar vermək kimi mürəkkəb prosesləri icra edirlər.

Beləliklə, peşəkar səriştə idrak fəallığı sayəsində əldə edilir və fəaliyyətin nəticəsini təmsil edir. İdrak fəallığında mərkəzi məqam bilik və hərəkətə ehtiyacdır.

## ƏDƏBİYYAT


1. Bayramov Ə.S. Əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri. Bakı: Maarif, 1967, 350 s.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 2003, 534 s.
3. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı: Təhsil, 2008, 134 s.
4. Əlizadə Ə.Ə. İdrak prosesləri və hisslər. Psixopedaqoji məsələlər. Bakı: ADPU-nun mətbəəsi, 2006, 345 s.
5. Əmrahlı L.Ş, Əliyeva L.M. Təlim fəaliyyəti və psixi inkişaf. Bakı: Heroqlif,2014, 180 s.
6. Həmzəyev M.Ə., Babayev Ş.M., Şükürova N.M. Təlim psixologiyasının bəzi мəsələləri. Bakı: Maarif, 1963, 105 s.
7. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2009, 105 s.
8. Бандура А.,Роттер Дж. Социально-когнитивное направление в теории личности// Теории личности. СПб.: Питер, 1997, с. 373-431
9. **Габдреев Р.В., Смирнов А.В. Формирование мотивации учебно-познавательной деятельности студентов вуза // Образование и саморазвитие, 2008, № 10, с. 227-233**
10. Гилфорд Дж. Три стороны интеллекта // Экспериментальное исследование психологии творческого мышления. Под ред. А.М.Матюшкина. М.: Прогресс, 1965, с. 433-457
11. Гусейнов Э.Б. Свобода и самосознание сущность. Баку: Елм, 2010, 180 с.
12. Морозова Н.Г. Учителю о познавательном интересе. М.: Знание, 1979, 46 с.

13. Щукина А.И. Формирование познавательных интересов учащихся. М.: Учпедгиз, 1962, 229 с.
14. http://lib.mgppu.ru/ opacunicode_berlayn

## TƏLƏBƏLƏRİN İDRAK FƏALLIĞINA TƏSİR EDƏN ƏSAS AMİLLƏR

### XÜLASƏ

Yüksək texnologiyaların meydana çıxması və sürətli inkişafı, istehsalın texniki təchizatı səviyyəsinin artması, yerli istehsalın və xidmət sektorunun rəqabət qabiliyyətinə nail olmaq ehtiyacı səbəbindən, elm və texnikanın yüksək inkişaf templərinin təmin edilməsi təhsil sistemindən şəxsiyyətin inkişafı üçün şərait yaratmağı tələb edir. İctimai həyatda, bu günün tələblərinə cavab verən, fəal bir idrak fəaliyyətinə sahib olan, peşə mükəmməlliyi səviyyəsində məhsuldar fəaliyyət göstərə bilən bir insana-şəxsiyyətə ehtiyac duyulur. Təhsil prosesində şəxsiyyətin formalaşması onun təlim fəaliyyətindəki idrak fəallığı ilə əlaqələndirilir. Ölkənin inkişafı tələbələrin gələcək işlərinin əsaslarının dərk etmə prosesində necə fəal olmalarından asılıdır. Buna görə təlim prosesində tələbələrin idrak fəallığına təsir edən amillərin öyrənilməsi aktual problemdir.

Bu, xüsusən də çoxdan inkişaf etmiş tədris metodlar sistemi və prinsip etibarilə təlimlərin məzmunundan fərqli olaraq dəyişməməsi ilə əlaqədardır. İdrak fəallığı problemi J. Brunner, JL.S.. Vygotski, S.L.Rubinsteinin əsərlərində təqdim olunur; problemin nəzəri əsasları B.Q. Ananyev, S.V. Gerasimov, A.F. Lazurski, M.I. Lisina, B.F. Lomova, C.Gilford, S.D. Smirnova, G.I. Schukina və başqaları; Koqnitiv fəaliyyət probleminin nəzəri əsasları A.S.Bayramov, A.A. Kadırov, A.A. Əlizadə, L.V.Zankova, E.M. Kuliyev, A.A. Verbitsky, D.B. Godovikova, N.F. Talyzina, I.V. Dubrovina A.A. Leontyev, N.A. Menchinskaya, D. B. Elkonin tərəfindən öyrənilmışdır. Tələbələrin idrak fəallığı müxtəlif aspektdən D. B. Bogoyavlenskaya, N. F. Talyzina, D. I. Feldstein, E. V. Beilerov, Z. A. Veisova və başqaları tərəfindən öyrənilmişdir.Beləliklə, peşəkar səriştə idrak fəallığı sayəsində əldə edilir və fəaliyyətin nəticəsini təmsil edir. İdrak fəallığında mərkəzi məqam bilik və hərəkətə ehtiyacdır.

## ОСНОВНЫЕ ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ПОЗНАВАТЕЛЬНУЮ АКТИВНОСТЬ СТУДЕНТОВ

### РЕЗЮМЕ

Появление и стремительное развитие высоких технологий, рост уровня технической оснащенности производств, обеспечение высоких темпов развития науки и техники, обусловленные необходимостью достижения конкурент оспособности отечественного производства и сферы услуг, требуют от системы образования создания условий для развития личности. В общественной жизни востребована личность, отвечающая запросам современности, с выраженной познавательной активностью, способная к производственной деятельности на уровне профессионального мастерства. Становление личности в образовательном процессе связано с ее познавательной активностью в учебной деятельности. От того, насколько студенты будут проявлять активность в процессе постижения основ своей будущей работы, зависит развитие всей страны. Следовательно, изучение факторов, способствующих развитию познавательной активности студентов в процессе обучения в вузе, является актуальной проблемой.

Это, в частности, обусловлено тем, что система многих существующих методов обучения сложилась давно и в принципе не менялась в отличие от содержания

обучения. Проблема познавательной активности представлена в работах Дж.Бруннера, ЈІ.С. Выготского, С.ЈІ. Рубинштейна и др.; теоретические основы проблемы активности представлены в трудах Б.Г. Ананьева, С.В. Герасимова, А.Ф. Лазурского, М.И. Лисиной, Б.Ф. Ломова, Ч.Гилфорд, С.Д. Смирнова, Г.И. Щукиной и др.; теоретические основы проблемы познавательной активности раскрыты в работах А.С.Байрамова, А.А.Кадырова, А.А.Ализаде, Л.В.Занкова, Э.М.Кулиев, А.А. Вербицкого, Д.Б. Годовиковой, Н.Ф.Талызина, И.В.Дубровиной А. А. Леонтьева, Н.А.Менчинской, Д.Б.Эльконина и др. Разные аспекты познавательной активности студентов изучали Д.Б.Богоявленская, Н.Ф.Талызина, Д.И.Фельдштейн, Э.В.Бейлеров, З.А.Вейсова и др. Таким образом, профессиональная компетентность достигается за счет познавательной активности, т.е. представляет собой результат деятельности. Центральным моментом в познавательной активности являются потребности в познании и движении.

## KEY FACTORS INFLUENCING THE COGNITIVE ACTIVITY OF STUDENTS


### SUMMARY

The emergence and rapid development of high technologies, the increase in the level of technical equipment of production, the provision of high rates of development of science and technology, due to the need to achieve competency in the domestic production and service sectors, require the educational system to create conditions for personal development. In public life, a person is needed that meets the needs of the present, with a pronounced cognitive activity, capable of productive activities at the level of professional excellence. The formation of personality in the educational process is associated with its cognitive activity in educational activities. The development of the whole country depends on how students will be active in the process of understanding the basics of their future work. Therefore, the study of factors contributing to the development of cognitive activity of students in the learning process at the university is an urgent problem.

This, in particular, is due to the fact that the system of many existing teaching methods has developed long ago and, in principle, has not changed, unlike the content of training. The problem of cognitive activity is presented in the works of J. Brunner, JI.C. Vygotsky, C.JI. Rubinstein and others; The theoretical foundations of the problem of activity are presented in the writings of B.G. Ananyeva, S.V. Gerasimova, A.F. Lazursky, M.I. Lisina, B.F. Lomova, C.Gilford, S.D. Smirnova, G.I. Schukina and others; The theoretical foundations of the problem of cognitive activity are disclosed in the works of A.S. Bairamov, A.A. Kadyrov, A.A. Alizade, L.V. Zankova, E.M. Kuliev, A.A. Verbitsky, D.B. Godovikova, N.F. Different aspects of the cognitive activity of students were studied by D. B. Epiphany, N. F. Talyzina, D. I. Feldstein, E. V. Beilerov, Z. A. Veisova and others. Thus, professional competence is achieved through cognitive activity, t .e. represents the result of an activity. The central point in cognitive activity is the need for knowledge and movement.

# SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQLARIN VALİDEYNLƏRİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***İsayev Elmin Mahir oğlu***
***BDU-nun II kurs magistrı***
***nesibovtogrul@gmail.com***

***Açar sözlər:*** uşaqlar, sağlamlıq, psixi sağlamlıq, sağlamlıq məhdudiyyətli, atipik uşaqlar, valideynləri maarifləndirmə, psixoloji xüsiyyətlər.
***Ключевые слова:*** дети, здоровье, психическое здоровье, ограничение здоровья, атипичные дети, просвещение родителей, психологические особенности.
***Key words:*** children, health, mental health, health restriction, atypical children, awareness of parents, psychological features.

BMT-nin verdiyi məlumata görə dünyada psixi və fiziki inkişafında problemləri olan insanların sayı təxminən 450 milyondur (bunlardan 200 milyonu uşaqlardır).

Sağlamlıq imkanları məhdud uşaqların sayı davamlı olaraq artır. Onların sayının artmasına səbəb ekoloji şəraitin pozulması, gələcək valideynlərin, ilk növbədə gələcək anaların səhhətinin pisləşməsi, bir sıra həll olunmamış sosial iqtisadi problemlər və s.-dir

Hal-hazırda respublikamızda sağlamlıq imkanları məhdud uşaqların sayı 62000–i ötmüşdür. Onlardan 1105–i xüsusi məktəblərdə, 2725-i xüsusi məktəb – internatlarda təlim - tərbiyə alır; 9355 uşaq ev təhsilinə cəlb olunub 298 uşaq isə inklüziv təhsillə əhatə olunublar.

Hazırda dünyada xüsusi qayğıya ehtiyacı olan uşaqların sosiallaşma problemi prioritet məsələyə çevrilib. Qeyd etmək lazımdır ki, bu problem ölkəmizdə həm aktual, həm də həll olunmamış problemdir.

Əlil insanlar, xüsusilə də uşaqlar psixoloji, mənəvi və emosional cəhətdən ağır vəziyyətdə olurlar. Bu kateqoriyadan olan uşaqlar insanlarla ünsiyyətdə olmağı və məişətdə fəaliyyət göstərməyi öyrənməlidirlər, lakin mövcud olan qüsurları onların hər hansı bir fəaliyyəti tam yerinə yetirməyə imkan vermir.

Sağlamlıq imkanları məhdud uşaqları olan ailələr xüsusi statuslu ailələrdir. Onların problemləri təkcə ailənin bütün üzvlərinin şəxsi xüsusiyyətləri və qarşılıqlı münasibətlərin xarakteri ilə təyin edilmir, həm də ailənin cəmiyyətə qarşı qapalılığı ilə, ünsiyyət məhdudiyyəti ilə, əksər hallarda ananın iş yerinin olmaması və s. ilə müəyyən olunur.

Sağlamlıq imkanları məhdud olan uşaqların valideyinlərinin üzərinə qulluqla bağlı çox böyük yük düşür. Çoxsaylı tədqiqatlar nəticəsində müəyyən olmuşdur ki, bu kateqoriyadan olan uşaqların valideynləri emosional gərginlik, həyəcan, günah hissi və s. mənfi emosialar keçirirlər və xroniki stress vəziyyətində olurlar. Bütün bunlar valideyinlərin uşaqlarına olan münasibətinə təsir edir (əksər hallarda pisləşir). Beləliklə uşaqlara olduğu kimi, valideyinlərə də psixoloji yardım və dəstək vacibdir. [6, s.5]

Ailədə sağlamlıq imkanları məhdud uşağın olması bütün cəmiyyətimiz üçün ağır bir vəziyyətdir. Bu vəziyyəti yüngülləşdirmək sosial pedaqoq-psixoloqun vəzifəsidir.

Valideynlərin, xüsusilə də ananın borcu uşağı sakitləşdirmək, onun həyəcanını azaltmaq, ailədə müsbət atmosfer yaratmaqdır. Bu sahədə sosial pedaqoq-psixoloqun köməyinə ehtiyac var.

Valideynlər sağlamlıq imkanları məhdud uşagın ailədə doğulmasına reaksiyalarına görə 3 tipə ayrılırlar:

- Mövcud problemi anlayıb qavramamasıyla bağlı passiv reaksiyalı ailələr;
- Hiperaktiv reaksiyalı ailələr; burada valideynlər səylə uşağı müalicə edir, bahalı dərmanlara üstünlük verir, bahalı klinikalara müraciət edirlər və s.;

- Orta mövqeli ailələr: bütün təlimatların ardıcıl icrası.

Ailədə sağlamlıq imkanları məhdud uşağın dünyaya gəlməsi hər zaman bütün ailə üzvləri üçün ağır psixoloji stressdir. Əksər hallarda ailə münasibətləri zəifləyir, atipik uşağa qarşı daimi həyəcan və çaşqınlıq hissi, ruh düşgünlüyü ailənin dağılmasına səbəb olur; yalnız ailələrin çox az bir qismi hadisə üzündən birləşirlər.

Statistik məlumatlara əsasən, sağlamlıq imkanları məhdud uşaqların bir qismi körpələr evinə verilir. Bunun əsas səbəbi valideynlərin belə problemli uşağı maddi imkansızlıq ucbatından müalicə və tərbiyə etməyə hazır olmamasıdır. Başqa bir səbəb cəmiyyət belə problemli uşaq böyüdən ailəyə birmənalı münasibət bəsləmir, və bu da valideynləri belə bir addım atmağa məcbur edir.

Hələ indi də bəziləri belə fikirləşirlər ki, sağlamlıq imkanları məhdud uşaqlar "başqaları", onları nəzərə almırlar, onlara neqativ yanaşırlar. Belə uşaqlar da bu cəmiyyətin üzvləridirlər, onlar da bizlərdən biridirlər, amma bir qədər fərqlidirlər və belə uşaqların və insanların cəmiyyətə inteqrasiyasına daha çox diqqət yetirmək lazımdır.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların izolyasiya səbəblərindən biri - psixofiziki çatışmazlıqlar haqda mövcud stereotip təsəvvürlərin olmasıdır. Onlara küçədə, mədəniyyət ocaqlarında və s. az rast gəlirik. Təhsilə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqlar məktəb internatlarda, o biriləri isə bütün günlərini evdə keçirirlər.

İnteqrasiyanın məhdudluğundan, maarifləndirmə aşağı olduğundan cəmiyyətdə belə uşaqlara münasibət də fərqlidir: bəziləri onlara qarşı laqeyddirlər; bəziləri passiv mövqe tutur və onlara yazığı gəlir; məlumatlı olan və azlıq təşkil edənlər isə şəfqətli və fəaldırlar.

İnteqrasiya nəticəsində xüsusi qayğıya ehtiyacı olan uşaqlarda ünsiyyət təcrübəsi artır, kommunikasiya və şəxsiyyətlərarası əməkdaşlıq bacarıqları formalaşır. Bütün bunlar uşaqların adaptasiya imkanlarını artırır.

Deməli, məktəb anormal uşağın ailədəki tərbiyəsini davam etdirməlidir. Uşaqların dünyagörüşünün, mənəvi aləminin formalaşmasında bir vətəndaş kimi yetişməsində xüsusi məktəblər geniş imkanlara malikdir. Əyani əşyalar, gördükləri və işlədikləri alətlər, uşaqların şüuruna çox təsir edir, onları əməyə və peşəyönümünə istiqamətləndirir. Bu da onların cəmiyyətdən təcrid olunmamalarına öz müsbət təsirini göstərir. Beləliklə, əmək normal insanların həyatında nə dərəcədə mühüm yer tutursa, qüsurlu uşaqların həyatında daha müsbət əhəmiyyət kəsb edir.

Qüsurlu uşaqlarla aparılan əmək işləri gələcəkdə onların müstəqil yaşamaları üçün, özlərini işlə təmin etmələri üçün ilkin zərurətdir. Əmək dərsləri didaktik baxımdan düzgün təşkil edilməli, onun səmərə və keyfiyyətinin artırılması üçün müsbət emosiyalar aşılayan vasitə və yollardan istifadə olunmalıdır.

Daim həkimləri problemli uşaqlarm valideynlərlə ünsiyyəti maraqlandırıb. Ana olmuş istənilən qadına uşağın bir yaş dövrünə qədər müxtəlif gərginliklərə tab gətirmək lazım olur. Uşağın ciddi pozulmaları olduğunu bilən analar üçün xüsusən çətin olur. Şüuraltı öz övladını sağlam, şən görmək istəyən ana daim şəxsiyyətdaxili konflikt yaşayır. Bunun nəticəsində onlarda şüursuz şəkildə neqativ hisslər, dağıdıcı davranış strategiyası formalaşır; bu da öz növbəsində uşaqla, ailənin başqa üzvəri ilə və ən əsası özüylə münasibətlərin ağırlaşmasına gətirib çıxarır. İ.V.Karpenkovanın (2001) fikrincə onlardan əsasları aşağıdakılardır:

1. Günah hissi; "Uşağımın problemi olmağında mən günahkaram". Bunun nəticəsi olaraq – özünə qiymətin kəskin aşağı düşməsi, özünə, öz gücünə əminliyin itməsi baş verir;

2. "Həyata inciklik" hissi. "Mənimlə baş verənlərdə başqaları (akuşer, həyat yoldaşı, irsiyyət, maddi sıxıntı və s.) günahkardır". Bu mövqeyin nəticəsi olaraq özünəqiymət hissi qeyri adekvat olur, somatik xəstəliklər ola bilər;

3. Uşaqdan imtina və ya ondan uzaqlaşma. Burada valideyinlər uşağın xəstə olmağını inkar edirlər.

Problemli uşağı olan hər bir valideyində göstərilən pozisiyalar bu və ya digər dərəcədə müşahidə olunur. Qeyd etmək vacibdir ki, bunlar şüursuz proseslərdir, və buna görə də problemli uşağı olan valideyni bu münasibətinə görə günahlandırmaq olmaz. Bəzi analar, öz problemlərini dərk edərək, "yeni həyata", yəni problemli uşaqla həyata uyğunlaşmağa çalışırlar. Əksər analar, öz maraqlarından imtina edərək, həyatlarını bu uşaqlara həsr edirlər. Yalnız insan təbiəti elə qurulub ki, müntəzəm olaraq öz şəxsi tələbatlarını təmin edə bilmirsə, onda özündən, həyatdan narazılıq hissi formalaşır. Bu hissdə həmçin müxtəlif neqativ nəticələr yaradır (insanın səhhəti ilə bağlı problemlər, əsəbililik, ünsiyyətdə çətinlik və s.). [1, s.253].

A. İ.Taşevanın (1998) apardığı psixoloji tədqiqatlar nəticəsində sağlamlıq imkanları məhdud uşaqları olan valideynlərin bir sıra psixoloji xüsusiyyətlərini qeyd etmək olar:

- uşağın xəstəliyi, müalicəsi, problemləri ilə bağlı yaranan xroniki stress;
- narahatlıq;
- praktiklik;
- yüksək həyəcan;
- zəiflik, emosional strukturların zərifliyi;
- özünəqiymətin aşağı olması.

A.İ.Taşevanın apardığı tədqiqatlarda, demək olar ki, bütün tədqiq olunan ana və atalar (daim uşaqlarına qulluq edən) aşağıdaki hissləri keçirirlər:

- xəstə qarşısında günahkarlıq hissi;
- aylarla keçməyən nevrotik yorğunluq;
- daxili boşluq hissi;
- qıcıqlanma və s.

E. A. Ekjanovanın 6–18 yaş arasında uşaqları olan 420 ailə ilə apardığı sorğu nəticəsində, uşağa və onun problemlərinə münasibətdə valideyinlər 3 qrupa ayırmışdırlar:

1. Uşağın problemlərini kifayət qədər adekvat qarşılayan valideyinlər (18%), bu ailələr tam ailələrdir (73%), münasibət müsbət, xeyixah, emosional dolğundur; ailələr ünsiyyətə açıq olurlar, bu cür problemləri olan ailələrə köməklik etməyə hazır olurlar.

2. Uşağın problemlərindən çaşqınlıq hiss edən ailələr (52%); dövlət strukturlarıyla əlaqələr vaxtı neqativ təəsuratlar onların fəallığını azaltmışdır; onları əhatə edən insanlarla bağlı tipli ünsiyyət müşahidə–olunur. Problemli uşaqlarının tipik uşaqlarla ünsiyyətdə olmaları onlara müsbət təsir etməyəcək kimi fikirlər; uşağın şəxsi pozitiv inkişafınn inkarı.

3. Uşağın özünə və problemlərinə mənfi reaksiyalı ailələr (30%); problemlərin başqa insanların üzərinə atılması; uşağın ehtiyaclarına məhəl qoyulmaması.

O.B.Çarova və E.A. Savinanın (1999) apardıqları tədqiqatlarda əqli geriliyi olan uşaqların valideyinlərinin mövqeləri və onun uşağa olan reaksiyaları əks olunur. Öz tədqiqatlarında onlar "valideyin münasibətlərinin sorğusundan" və PARİ (parental attidude research instrument) valideyinlərin uşaqlarına olan münasibətlərinin öyrənilməsi metodikasından istifadə etmişdirlər. Nəticələrə görə, qeyd etmək olar ki, atipik uşaq ana tərəfindən emosional ünsiyyətdən məhrum olunur; uşaq infantil, bacarıqsız; uyğunlaşmağı bacarmayan, əzab çəkən, aqressiv və s. kimi qəbul olunur. Sorğu nəticələrinin analizi göstərir ki, çox vaxt analar bu uşaqlara qarşı hansı dərəcədə tələbkar olmalarını müəyyən etməkdə çətinilik çəkirlər. Əqli geriliyi olan uşaqların davranışlarına analarının tipik reaksiyası kimi daim onları qorunma hissini qeyd etmək olar (18%), uşağa yazığı gəlib onu gözdən qoymamaq (15%), bununla bərabər qıcıqlanma reaksiyası da qeyd olunur (12%), cəzalandırmaq hissi (11%), uşağa qarşı biganəlik (16%). Dərd və əzab çəkən valideyinlərdə azlıq təşkil etmir (15%). Atipik uşaqları olan valideyinlərin dominant hissləri kimi dərd, depressiya, günahkarlıq, utanclıq hisslərini qeyd etmək olar. [1, s.256].

Beləliklə, sağlamlıq imkanları məhdud uşaqları olan valideyinlərə, onların emosional vəziyyətinin stabilləşməsi üçün, dezadaptasiyanın qarşısının alınması üçün, yaxın insanlarla

ünsiyyətin yaxşılaşdırılması və öz uşağına olan münasibətin dəyişdirilməsi üçün psixoloji köməyin əhəmiyyəti böyükdür.

## ƏDƏBİYYAT


1. Xüsusi psixofiziki inkişafa malik uşaqların tərbiyə və təlimi. Bakı: 2016
2. Şəfiyeva E.İ. Uşaqlarda anomal psixi inkişaf. Bakı: 1997
3. Yaşin Ü. Özürlü Çocuk Aileleri Dayanışma Organizasyonu Bilimsel Toplantıları. Türkiye: 1995
4. Xəlilov H. Uşaq və yeniyetmələrin inkişafının social-psixoloji məsələləri. Bakı: 2010
5. Qədirov Ə. Yaş psixologiyası. Bakı: 2003
6. İnklüziv təhsil: təcrübə və qarşıda duran vəzifələr» V Elmi-praktiki konfransın məqalələr toplusu. Bakı: 2011
7. Gənc ana və uşaqların maarifləndirilməsi. Bakı: 2015


## ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ РОДИТЕЛЕЙ ДЕТЕЙ С ОГРАНИЧЕННЫМИ ВОЗМОЖНОСТЯМИ ЗДОРОВЬЯ

***Исаев Эльмин***

## РЕЗЮМЕ

Родители детей с ограниченными возможностями здоровья в большинстве случаев не знают как себя вести в таком состоянии. В большинстве случаев такое состояние создаёт большие препятствия для атипичного ребёнка в его социализации и интеграции в общество. Обычно такие дети заканчивают в одной закрытой на замок комнате или лечением в психиатрической больнице. Практика показывает, что сотрудничество нормальных и анормальных детей помогает принятию атипичных детей, как равных членов общества, созданию чувств, как терпеливость, мышление о других, человечность и эмпатия.

## PSYCHOLOGICAL FEATURES OF PARENTS OF CHILDREN WITH RESTRICTED HEALTH OPPORTUNITIES

***Isayev Elmin***

## SUMMARY

Parents of children with restricted health opportunities in most cases do not know how to behave in such situation. In most cases such situation creates obstacles for atypical child in his socialization and integration into society. Usually these children end up in a locked room or with treatment in a mental hospital. Experience shows that cooperation of normal and abnormal children helps to acceptance of atypical children as equal members of society, to creation of feelings like patience, thinking about others, humaneness and empathy.

# BÖYÜK MƏKTƏBLİLƏRİN PEŞƏ SEÇİMİ PROSESİNDƏ AİLƏNİN ROLU

***p.ü.f.d. Piriyeva Elnarə Abbas qızı***
***BDU-nun Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi***
***Qəhrəmanova Fatimə Afil qızı***
***BDU-nun II kurs magistrantı***

***Açar sözlər:*** böyük məktəbli, peşə seçimi, peşə, karyera, ailə, ailənin təsiri
***Ключевые слова:*** старшеклассник, выбор профессии, профессия, карьера, семья, влияние семьи
***Key words:*** high school student, profession choice, profession, career, family, influence of family.

İnsanın öz maraq və qabiliyyətlərini müəyyənləşdirmədən, peşələrlə bağlı kifayət qədər məlumata yiyələnmədən düzgün peşə seçimi etməsi çətindir. Böyük məktəblilərin bu mühüm qərarı verdikləri müddətdə ailənin üzərinə böyük iş düşür. Ailə fərdin bütün davranışlarında olduğu kimi peşə seçiminə də təsir göstərən mühüm amildir. Uzun illər ailənin peşə seçiminə təsiri ilə bağlı tədqiqatlar aparılmışdır. Roenin karyeranın inkişafında ailənin təsiri ilə bağlı apardığı ilkin tədqiqatlardan başlayaraq, bu sahədə aparılan digər araşdırmalar peşə psixologiyasında mühüm yer tutmuşdur. Chope iddia edirdi ki, karyera məsləhətçilərinə yardımçı olan, ailə amilinə diqqət çəkən nəzəriyyələr əvvəllər də mövcud olmuşdur. Bowlbyın bağlılıq nəzəriyyəsi karyera məsləhətçilərini ailələrin quruluşunu araşdırmağa yönləndirmişdir. Peşə seçimi ilə bağlı qərar verməli olan məktəblinin sərbəst qərar verə bilməməsi, qərarlarını başqalarının öhdəsinə buraxması, seçim və planlarında başqalarının gözləntilərinə üstünlük vermə məcburiyyətini hiss etməsi, məsuliyyət götürməkdən boyun qaçırma, öz yerinə başqalarının qərar verməsini gözləmələri başqalarına bağlılığın göstəricisidir. Bu cür fərdlərin ilk bağlılıq obyektləri valideynləridir. Qərar verərkən başqalarının fikirlərinə görə hərəkət etmək ən çox seçimlə bağlı məlumat əskikliyi olduğu zamanlarda baş verir. Eyni zamanda Bratcher tərəfindən aparılan başqa bir iş isə, ailənin sahib olduğu miflər, qaydalar, sərhədlərin insanın peşə seçiminə təsir göstərən ən vacib faktorlar olduğunu irəli sürərək, bunların mümkün ola biləcək təsirlərini təhlil edib, məsələnin öyrənilməsinə fərqli aspektdən yanaşmışdır [3, s.197].

Ailə böyük məktəblilərin peşə seçiminə ən çox təsir göstərən amillərdən biridir. Ailənin strukturu, üzvlərinin ailədə rolu, onlar arasındakı münasibətlər, davranışın əsasında duran dəyərlər peşə seçiminə təsir göstərir. Peşəyə qərarvermə prosesi boyunca, ailə gənclər üçün dəstək və stabillik elementini təmsil edir. Çünki, düzgün peşə seçimi etmək üçün peşələrlə bağlı məlumat toplamağa (peşə vəzifələrini yerinə yetirmək üçün qoyulan tələblər və s.); peşə maraqlarının, bacarıqlarının müəyyənləşdirilməsi üçün köməyin təmin edilməsi; bu xüsusiyyətlərə əsasən peşəyə qarşı istək yaratmaq; seçilmiş peşəyə yiyələnmək və inkişaf etmək üçün planlar hazırlamağa ehtiyac duyulur. Bu baxımdan, ailənin peşələrlə bağlı bilikləri, inanc və dəyərləri uşaq üçün vacib mənbədir. Bunların uşağa ötürülməsi isə valideynlərin ünsiyyət bacarığından və bunun üçün uşağa vaxt ayırmasından asılıdır.

Valideynlər və uşaqlar arasında qarşılıqlı münasibətlərin təbiəti peşə seçiminin araşdırılmasının əsasını təşkil edir. Valideyn-övlad münasibətlərinin keyfiyyəti, açıq ünsiyyət, etibarlı dəstək peşə istəklərinin, gələcək planların, peşə seçimində qarşıya çıxa biləcək maneələrin öncədən qavranılmasına təsir göstərir [4, s.3407].

Uşağın inkişaf dövrü ərzində valideynlər onun üçün həm emosional dəstək mənbəyi kimi, həm də qərarlarına təsir göstərən şəxsi keyfiyyətlərin modeli kimi çıxış edən ən vacib insanlardır. Valideynlər həm də uşağın həyatda qarşılaşdığı problemlərin həllində məsləhətçi, məlumat və həyat təcrübəsi mənbəyidir. Uşaq böyüdükcə valideynlərin bu funksiyalarının nisbəti və psixoloji əhəmiyyəti dəyişir. Erkən gənclik dövründə ailə peşə seçimi ilə bağlı olaraq xüsusi əhəmiyyətə

malikdir. Gənclərin peşə seçimi prosesinin tədqiqi zamanı ailənin təsirinin iki istiqamət üzrə olduğu müəyyənləşdirilmişdir. Bunlardan birincisi obyektivdir və daha çox valideynlərin təhsil səviyyəsi, maddi vəziyyət, uşaqların doğum ardıcıllığı kimi amillərlə bağlıdır. Uşaqların bilik və intellektual səviyyəsi ailənin təhsil səviyyəsindən çox asılıdır. Bu da davamlı təhsil planlarını və peşə məqsədlərini həyata keçirmənin uğurunu müəyyənləşdirir. Ailənin gənc nəslə təsirinin ikinci istiqaməti isə, ailə tərbiyəsi, ailədaxili ünsiyyət, sosial təcrübənin müəyyən stereotiplər formasında, o cümlədən, peşə sahələri ilə əlaqəli şəkildə ötürülməsindən ibarətdir.

Müəlliflər peşə seçimi prosesinə təsir edən aşağıdakı ailə amillərini nəzərdən keçirmişlər:

- Valideynlərin təhsil səviyyəsi (Çuprov, 2001; Konje, Ossovski)
- Ailənin maddi vəziyyəti (Şurigina, 1999),
- Ailə münasibətlərinin xarakteri (Roe) [2, s.99]

Peşə seçimində ailənin təsiri müxtəlif formalarda ola bilər:

a) Ailələrin maddi imkanları və mədəni səviyyəsinin məktəblinin peşə seçiminə mənfi və ya müsbət yöndə təsir göstərdiyi məlumdur. Müəyyən edilmişdir ki, maddi və mədəni səviyyəsi yüksək olan ailələrdə gənclər qabiliyyət və maraqlarına uyğun peşə seçimi etmək şansına sahibdir və onlar ailələrindən dəstək görürlər. Maddi və mədəni imkanları əlverişsiz olan ailələrdə isə, gənclər qısa müddətdə böyük qazanc əldə edə biləcəkləri və nüfuz qazana biləcəklərini düşündükləri peşələrə yönəlirlər.

b) Avtoritar ailələrdə bəzən gəncə valideynin peşəsini davam etdirməsi və ya valideynə işində kömək etməsi üçün təzyiq göstərilir. Bu ailə modelində fərdin peşə ilə uyğunluğu nəzərə alınmadığından, gəncin peşədə uğur qazanması və xoşbəxtliyi düşünülmür. Burada vacib olan ailənin istəklərinin reallaşması və ailənin seçdiyi peşənin gənc tərəfindən mənimsənilməsidir. Uşaq kiçik yaşlarından valideynin peşəsini seçməyə istiqamətləndirilir. Təzyiq göstərilən gənc ya valideynin peşəsini seçir, ya da ailəsinə müqavimət göstərərək arzuladığı peşəyə yiyələnmək üçün bu mühitdən uzaqlaşır.

c) Bəzi ailələr öz həyatlarında edə bilmədiklərini övladlarının həyatında gerçəkləşdirməyə çalışırlar. Ata daxil ola bilmədiyi bir peşə sahəsində oğlunu görmək üçün təzyiq göstərir. Ana özü oxuyub işləyə bilmədiyi üçün qızını oxumağa, peşəyə yiyələnməyə məcbur edir. Bu halda da məktəblinin maraq və qabiliyyətləri nəzərə alınmır. Belə ailələr üçün vacib olan valideynlərin arzularının gerçəkləşdirilməsidir.

d) Başqa ailələrsə, çox kiçik yaşlarından uşağa bəzi peşələrin vacib və nüfuzlu, bəzilərinin isə lazımsız olduğunu söyləyir. Bu da ailə daxilində peşələrlə bağlı yanlış təsəvvürün yaranmasına səbəb olur. Bununla da, ailə dolayı yolla övladının peşə seçiminə təsir göstərmiş olur. Əslində, peşə seçimində diqqət yetirilməli olan vacib məsələ peşənin nüfuzu deyil, onun fərdə uyğun olub-olmamasıdır.

e) Bəzi ailələrdə müşahidə olunan yanlış davranış da gəncin tamamilə dəstəksiz, köməksiz buraxılmasıdır. Uşaqlarına bu məsələdə başçılıq edə bilməyən ailələr onların peşə seçiminə biganə qalmaqla məsuliyyətdən azad olduqlarını düşünürlər.

f) Uşaqların inkişafına mənfi təsir göstərən bu ailələrdən başqa peşə seçimində övladına yol göstərməyə çalışan, onun qabiliyyət, bilik, bacarıq və maraqlarını nəzərə alaraq, onlara başçılıq edən, heç bir fədakarlıqdan qaçmayan ailələr də var. Hətta öz arzu və maraqlarına uyğun olmasa da, övladının seçimini təsdiqləyən və ona dəstək olan ailələr də az deyil. Sayları az olsa da, peşə seçimi ilə bağlı məlumatlı olan, uşaqların peşə seçiminə müsbət yöndə təsir göstərən bu ailələrin olduğunu inkar etmək olmaz [1, s.27].

Valideynlərin peşə seçimi prosesi, peşə seçimində qabiliyyət, maraq, dəyərlər kimi amillərin əhəmiyyəti və peşələrin xüsusiyyətləri ilə bağlı məlumatları artdıqca uşaqları daha düzgün istiqamətləndirə bilirlər. Ailənin uşağın bacarıqlarından artıq nəticə gözləməsi və bu nəticəyə çatmaq üçün ona təzyiq göstərməsi, onun istəklərinə əhəmiyyət vermədən öz arzularına uyğun peşəyə yönləndirmək istəməsi məktəblilərdə psixoloji gərginlik yaradır və peşə seçimi prosesini

daha da çətinləşdirir. Valideynlərin gözləntiləri uşağın real imkanlarına uyğun olmadıqda uşaq həvəsdən düşür. Belə olan halda uşağın müvəffəqiyyət səviyyəsi daha da enir. Ailə uşağın qabiliyyətlərinin olmadığı, çətinlik çəkdiyi vəziyyətlərdə də ona dəstək olmalıdır. Valideynlər övladlarını yaxşı tanıdıqda, onların qabiliyyətlərinə uyğun olaraq yetişməsi, inkişaf etməsi və gələcəkdə yaxşı bir peşəyə yiyələnməsi üçün düzgün istiqamətləndirə bilir. Ailə öz maraqları və uşağın bacarıq və istəkləri arasında tarazlığı qorumağı bacarmalıdır. Övladlarında məsuliyyət hissi formalaşdırmaq istəyən, ailədə demokratik mühit yaratmağa çalışan valideynlər övladlarının qərarlarına ciddi yanaşmalıdırlar. Övladların fikirləri nəzərə alınmayan ailələrdə bir müddət sonra münasibətlərin pozulduğunu görmək olar. Verdikləri qərarın valideynləri tərəfindən dəstəklənməsi uşaqlarda özünəinamı artırır. Buna görə də uşağın fərdi xüsusiyyətlərinə uyğun seçim etməsinə şərait yaradılmalıdır.

## ƏDƏBİYYAT

1. Razon N. Meslek seçimi ve mesleğe yönelme. Eğitim ve Bilim dergisi – Ankara, 1983
2. Головей Л.А., Данилова М.В. Профессиональное развитие личности: начало пути. Эмпирическое исследование. М.:Нестор-История, 2015
3. Nadya A. F. Family Influence on Career Decision Making. Journal of Career Assessment, 2015
4. Ramona P., Loredana D. The impact of family influence on the career choice of adolescents. Procedia - Social and Behavioral Sciences, 2010

## BÖYÜK MƏKTƏBLİLƏRİN PEŞƏ SEÇİMİ PROSESİNDƏ AİLƏNİN ROLU

### XÜLASƏ

Məqalədə böyük məktəblilərin peşə seçimi prosesində ailənin rolu qeyd olunmuşdur. Uşağın maraqlandığı peşələrlə bağlı məlumat toplamaq və bu peşələri tanımasına kömək etmək hər bir ailənin borcudur. Valideynlər övladlarında müşahidə etdikləri qabiliyyətləri və onun hansı peşə sahəsində uğurlu ola biləcəyi ilə bağlı fikirlərini uşağa bildirməli, lakin, təzyiq göstərməməlidir.

## РОЛЬ СЕМЬИ В ПРОЦЕССЕ ВЫБОРА ПРОФЕССИИ СТАРШЕКЛАССНИКОМ

### РЕЗЮМЕ

В статье подчеркивается роль семьи в процессе выбора профессии старшеклассника. Семья несет ответственность за сбор информации о профессии, которой заинтересован дитя, и за то, чтобы помочь им распознать эти профессии. Родители должны рассказать своим детям о навыках, которые они наблюдают, и о профессии, в которой они могут преуспеть, но не должны оказывать на них давление.

## THE ROLE OF THE FAMILY IN THE HIGH SCHOOL STUDENTS' PROFESSION CHOOSING PROCESS

### SUMMARY

The article highlights the role of the family in the process of high school students' profession choice. The family is responsible for collecting information about the professions in which the child is interested, and for helping them recognize these professions. Parents should tell their children about the skills they observe and the profession they can be successful in, but should not put pressure on them.

## PEDAQOGİKA, FİLOLİGİYA

# TƏHSİL SOSİALLAŞMA İNSTİTUTU KİMİ

***pedaqoq.ü.f.d. Məlahət Nuriyeva***
***Gender və tətbiqi psixologiya kafedrasının müəllimi***

***Açar sözlər:*** təhsil, sosiallaşma, vətəndaş təhsili, mənəvi dəyərlər,vətəndaş tərbiyyəsi,pedoqoji proses
***Ключевые слова***: образование, социализация, гражданское воспитание, нравственные ценности, гражданское воспитание, педагогический процесс.
***Keywords:*** education, socialization, civic education, moral values, civic education, pedagogical process.

İnsanın sosiallaşması müxtəlif sosiallaşma institutlarının təsiri altında baş verir. Təhsil müəssisələri əxlaqın formalaşmasında, sosial cəhətdən əhəmiyyətli rolların inkişafında kömək edirlər. Buna görə məktəbin tərbiyəsi və sosiallaşması proqramı çox vacibdir. Müəllimlərin vəzifəsi yalnız uşaqlara müəyyən bilik vermək deyil, həm də onlara cəmiyyətdə uyğunlaşmağa kömək etməkdir. Bu məqsədlə, məktəbdənkənar fəaliyyətlər sistemi, dairə işləri, müəllimlərin və digər sosial qruplarla qarşılıqlı əlaqəsi inkişaf etdirilir.

Qeyd etdiyimiz kimi,insanın sosiallaşmasına təsir baxımından ailədən sonra ikinci yerdə olan sosiallaşma institutları təhsil müəssisələridır. Təhsil müəssisələrində baş verən ictimai təhsildə şəxsin bacarıqlarını, qabiliyyətlərini, dəyərlərini, biliklərini, davranış nümunələrini, münasibətləri, insanların yaşadığı cəmiyyət üçün çox vacib olan inkişaf etdirmək üçün şərait yaradır.

YUNESKO-nun müəyyən etdiyi beynəlxalq tərifə görə isə, təhsil şəxsiyyətin bacarıq və davranışlarının təkmilləşdirilməsinin elə bir prosesi və nəticəsidir ki, bu zaman o, əqli yetkinlik və fərdi inkişafa nail olur.Təhsil dedikdə yalnız formal təhsil, yəni məktəb və ya universitet təhsili nəzərdə tutulmur. Təhsil həyatın müxtəlif çağırışlarına hazırlıq üçün uzunmüddətli və çoxşaxəli öyrənmə prosesidir. Başqa sözlə, təhsil fərdlərə ötürdüyü əsaslı bilik və bacarıqlarla onların öz arzu və amallarını necə ifadə etməsini və həyata keçirməsini müəyyənləşdirir, həm də onları öz icmalarının həyatında fəal iştirak edən düşüncəli vətəndaş kimi yetişdirir. 1916-cı ildə nəşr edilmiş "Demokratiya və Təhsil" əsərində amerikalı ictimai xadim və filosof Con Dyui yazırdı ki, ən geniş anlamda təhsil həyatın sosial davamı üçün bir vasitədir. O qeyd edirdi ki, "sosial qrupun hər bir üzvünün doğuluş və ölümünün qaçılmazlığı" təhsili labüd edir, zira bu bioloji dövriliyə baxmayaraq, qrupun həyatı davam etməlidir."

Təhsilin sosial əhəmiyyətinin digər bir göstəricisi ondan ibarətdir ki, cəmiyyət hər hansı böhranla üzləşdikdə, bu ilk növbədə öz əksini məhz təhsil sahəsində göstərir; təhsil və müəllimlər böhranın şiddətini üzərinə götürən ilk əzabkeş olurlar.

İndiki dövrdə təhsilin rolu və əhəmiyyəti daha fərqlidir. 21-ci əsrin tarixi çözələndikcə, müasir həyatın panoramında iki dominant dinamikanı müşahidə edirik: bunlardan biri informasiya texnologiyalarının diffuziyası, digəri isə kapitalın diffuziyası ilə müşayiət olunan iqtisadi qloballaşmadır. Yaşadığımız informasiya dövründə yeni faktlar və bilgilər sürətlə həyatımıza daxil olur. Cəmi bir neçə il bundan əvvəl öyrəndiyimiz bilgilər öz əhəmiyyətini itirir, bu yaxınlara kimi həqiqiliyinə əmin olduğumuz köhnə biliklərin yanlışlığı sübut olunur, dünya görüşümüzü kökündən dəyişə biləcək yeni biliklər meydana atılır. Yeni məlumatlara çıxışı olan insanların sayı da həndəsi silsilə sürəti ilə artmaqdadır. Elmi biliklərin yaradılmasının bugünkü tempi ilə biliklərin diffuziya dərəcəsi hətta "bilmək", "səriştəli olmaq" və "öyrənmək" kimi

ənənəvi anlayışların özünü belə sual altına qoyur: XXI əsrdə artıq kimsə nəyisə tam bilməsinə arxayın ola bilməz.İndiyədək təhsil Sosiallaşma institu kimi təhsilin qarşısında duran vəzifələr.

Bu gün Azərbaycanda əhalinin 80 faizi internet istifadəçisidir. Sosial şəbəkələrdə istifadəçilərimizin sayı 3 milyon nəfərə yaxındır. Bu istifadəçilər arasında orta məktəbdə oxuyan şagirdlər və məktəbi qutaran gən insanlar var. Bu gün internetin bizə verdiyi üstünlüklə yanaşı mühüm bir problem ortaya çıxardı ki, buda şagirdlər arasında sosiallaşmanın çox aşağı səviyyədə olmasıdır. Müşahidələrimiz göstərir ki, bu gün orta məktəb şagirdləri bir-birilə danışanda daha çox telefon və sosial şəbəkələrdən istifadə edirlər.

Təhsil geniş fenomendir. O, sistem kimi, dəyər kimi, pedaqoji proses kimi, nəticə kimi və sosial-mənəvi inkişaf prosesi kimi bir sıra çoxaspektli funksiyaları yerinə yetirir. Təhsil həm də vətənimizin gələcəyi üçün heç nə ilə müqayisə olunmayan yaxşı sərmayədir.

Vətəndaş təhsili və tərbiyəsi şəxsiyyətin baza mədəniyyətinin məzmununda xüsusi yer tutur. Vətəndaş tərbiyəsi nəzəriyyəsinin əsasları hələ XIX əsrdə alman pedaqoqu G.Kerşenşteyner tərəfindən işlənilmişdir. Lakin onun mahiyyəti və məzmunu ona bugünkü yanaşma, müasir baxışla ziddiyyət təşkil edir. Kerşenşteyner xalq məktəblərinin quruluşu, oradakı işin məzmunu və yollarını da işləyib hazırlamışdır.

Rus ədib və maarifçilərindən A.N. Radişşev, N.Q. Çernışevski, N.A. Dobrolyubov, A.İ. Gertsen və b. bu sahədə mühüm fikirlər söyləmiş, əsərlərində onun məqsəd və vəzifələrini göstərmişlər.

Azərbaycan xalqının milli özünüdərk, özünütəsdiq və müasir mədəniyyətə yiyələnməsi yolunda mübarizə aparan M.F. Axundzadə, insan şəxsiyyətini, mənəvi inkişafı, şəxsiyyətin formalaşması, şəxsi ləyaqət hissinə malik olmağı insanın ən mühüm mənəvi sərvəti olduğunu dönə - dönə qeyd edən A.Bakıxanov, xalqın maariflənməsi yolunda xüsusi xidmətləri olan milli mətbuatımızın banisi

H. Zərdabi ana dilimizdə ilk dərsliyin müəllifi, azərbaycanlı müəllimlərin hazırlanmasında misilsiz xidmətləri olan A.O. Çernyayevski, milli musiqimizin banisi, ilk "Hesab məsələləri" dərsliyinin müəllifi Ü.Hacıbəyli, Azərbaycanda maarifin, məktəbin, təhsilin inkişafında əvəzsiz xidmətlər göstərən Qori Müəllimlər Seminariyasının ilk məzunları F. Köçərli, S. Vəlibəyov, R. Əfəndiyev, N. Nərimanov, C. Məmmədquluzadə, M. Mahmudbəyov və onlarca başqaları, ana dilimizdə ilk məktəblərin yaradıcıları S.Ə.Şirvani, M.M.Nəvvab, M.T.Sidqi, M.İ. Qasir böyük şəxsiyyətlər olmuşlar. Bütün həyatını vətənimizin tərəqqisinə, xalqımıza, onun xoşbəxt gələcəyinə həsr etmiş əsl vətəndaş və böyük şəxsiyyət, xalqımızın Ümummilli Lideri, Böyük Öndər Heydər Əliyevin həyatı və fəaliyyəti bu gün gənc nəslin formalaşmasında, eyni zamanda vətəndaşlıq tərbiyəsində ən gözəl nümunə və örnəkdir.

Vətəndaş tərbiyəsinin məqsədi insanda cəmiyyətin mənəvi ideyalarının və vətənə münasibət hissinin formalaşdırılmasıdır.Vətəndaş tərbiyəsi vətəndaş təhsili ilə sıx surətdə bağlıdır. Bunlar bir-birinə təsir göstərməklə yanaşı, həm də biri digərinin nəticəsi kimi də özünü göstərir. Lakin respublikamızda vətəndaşlıq tərbiyəsi haqqında professor Əjdər Ağayev, Hamlet İlyasov və digər bir sıra pedaqoqlar tərəfindən müəyyən tədqiqatlar aparılsa da, nədənsə vətəndaş təhsili probleminə az toxunulmuşdur.

"Təhsil Haqqında Azərbaycan Respublikasının Qanunu"nda təhsilin məqsədləri çox aydın şəkildə öz ifadəsini tapmışdır:

1) Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqlarına və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

2) milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran nəzəri və praktiki biliklərə yiyələnən müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadr hazırlamaq;

3) sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq.

ABŞ-ın 35-ci prezidenti Con Kennedi demişdir: "Vətənin sənin üçün nə edə biləcəyini soruşma, vətənin üçün sənin nə edə biləcəyini özündən soruş". Bəli, hər bir azərbaycanlı, Azərbaycan vətəndaşı özünü daim belə bir suala cavab verməyə borclu hesab etməlidir ki, bir vətəndaş kimi Vətən üçün nə etmişəm? Və bu suala özünün fəaliyyəti ilə cavab verməyə çalışmalıdır. Vətəndaş təhsili vətəndaş şüurunun, hüquqi və mədəni davranış normalarının, milli və ümumbəşəri mədəniyyətin, ölkəmizin nailiyyətləri haqqında biliklərin formalaşmasını özündə birləşdirən sistemli təhsildir.

Vətəndaş təhsilinin mahiyyəti, məqsədi, vəzifələri və məzmunu olduğu kimi, onun nə ilə nəticələnməsi də vardır. Fikrimizcə, onun əsas nəticəsi bundan ibarətdir ki, zamanından və kimliyindən asılı olmayaraq, hər bir azərbaycanlı Ulu Öndər H.Əliyevin "Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam" kəlamını qürurla, fəxrlə deyə bilsin və azərbaycanlı olduğundan fərəh duysun.

Dünya təhsilində mövcud olan sistemlərdə mütəmadi islahatların aparılması təhsilin təşkilinin yenidən qurulması bu sahədə yeni tələbləri ödəyə biləcək, alterativ sistemin yaradılmasına və onun tətbiqinə gətirib çıxarır. Lakin aydındır ki, aparılan islahatlar da təhsildə başlıca element olan şəxsiyyətin inkişafının ayrı- ayrı aspektlərini və pedaqoji fəaliyyətin təşkilini, eləcə də onun psixoloji elementlərini nəzərə almasa istənilən nəticəni verə bilməz.

Şəxsiyyətyönümlü təhsilin məqsədi fəaliyyət və şəxsiyyət keyfiyyətlərinin aşkar olunması və onların məqsədyönlü inkişafı, sosial mədəni normaları özündə ehtiva edən, sosial əhəmiyyətli davranış formasına çevrilməsi üçün zəruri şəraitin yaradılmasıdır.

Buna görə də təhsilin məqsədini xarakterizə edən amillər kimi uşaqlara həssaslıq, estetik və bədii zövq, əxlaqi-mənəvi keyfiyyətlər,fiziki mədəniyyət, özünəxidmət bacarıqlarını aşılamaqdır.Təhsildə şəxsiyyətin inkişaf etdirilməsi üçün təlimin təşkilində aşağıdakı məqamları nəzərə almaq lazımdır:

-təhsildə idrak prosesləri ilə bərabər,emosional sferanın da inkişaf etdirilməsi.

-çətin situasiyalara qarşı dözümlülüyün yaradılması;

-özünəhörmətin və özünəmünasibətin inkişaf etdirilməsi

-həyata optimist, insanlara pozitiv münasibətin formalaşdırılması;

-müstəqillik hissinin inkişaf etdirilməsi;

-özünügerçəkləşdirmə motivinin yaradılması; (1, s.123)

Bu göstərilən fikirlər şagird və tələbə şəxsiyyətinin inkişafına təsir göstərən mühüm amil kimi pedaqoji fəaliyyətin psixoloji əsasını təşkil edir.

Şagirdlərin maddi və psixoloji vəziyyəti pedaqoji prosesinin inkişafına böyük təsir göstərir. Ailə vəziyyəti, ailənin maddi durumu sinifdə şagirdlərin davranış və ünsiyyət mədəniyyətinə də böyük təsir göstərir, hətta vahid məktəbli formasının olmaması belə sinfi seçkiliyə gətirib çıxara bilir. Uşaqların vaxtında və lazımınca qidalanmaması, mövsümə uyğun geyimlərlə, lazım olan məktəb ləvazimatı ilə, təlim üçün yararlı müasir texniki avadanlıqla təmin olunmaması onun nailiyyət və keyfiyyətinə təsir edir.

Müasir təlimin təşkilinə verilən tələblərdən biri kimi bərabər təlim şəraitinin yaradılmasında sosial- psixoloji mühitin təşkilinə də böyük önəm verilir və demək olar təlim prosesinin sonrakı nailiyyəti bu mühitin düzgün təşkilindən çox asılıdır. Sosiallaşma nəticəsində fərd özünün daxil olduğu sosial qrupda olan davranış normalarını mənimsəyir. Şəxsiyyətin sosiallaşmasında şəxsi nümunələr, normal həyat tərzi, normal məişət, xoş ailə münasibətləri, yaxşı yoldaşlar, bilikli müəllimlər, onu əhatə edən insanların ona qayğısı və s. müsbət rol oynayır. Sosial- psixoloji mühitə şagirdin həm digər insanlarla, həm də öz daxili aləmi ilə təlimə həvəsinin formalaşmasına təsir edən qarşılıqlı əlaqələrin bütün növləri aiddir: "şagird-şagird", "müəllim-şagird", "müəllim-şagird-valideyn", "müdriyyət-şagird-valideyn", "dostlar-şagird".

Şagird üçün sosial mühit dedikdə mürəkkəb sosial-psixoloji atmosferin təzahür etdiyi məktəb sinfidə başa düşülür. Bu zaman qrup üzvlərinin davranış və fəaliyyətinin uzlaşmasına gətirib çıxaran qrup inteqrativliyi, sinfin məqsədlərini, maraqlarının və əxlaqi dəyərlərinin məcmusu, intellektual bilik, yəni sinfin ümumi rəyinin formalaşmasına xidmət edən tez və asan şəkildə ümumi dil tapa bilmə qabiliyyəti nəzərə alınır.

Bir çox hallarda müəllim şagirdləri idrak səviyyəsi baxımından qarışıq qruplarda fəaliyyətə cəlb edə bilər. Bu zaman müəllimin bircə təlimatı qrup daxilində güclü şagirdlərin zəif şagirdlər öyrətməsini təmin edə bilər. Müəllim tapşırığın icrası ilə bağlı təlimatlar verərkən xüsusi ilə qeyd edirki qrup işini təmin edəcək şəxsi o özü müəyyənləşdirəcək. Onların birgə fəaliyyətinin nəticəsini kimin təqdim edəcəyi məlum olmadığından güclü şagirdlər məsələnin incəliklərini aşağı idrak səviyyəsi nümayiş etdirən yoldaşlarına səylə öyrədirlər. Bu zaman bütün şagirdlərin təlimə bərabər cəlb edilməsi təmin olunmaqla bərabər, şagirdlərdə digər insani dəyərlərdə formalaşır.Bu da birgəfəaliyyət, əməkdaşlıq, qayğıkeşlik, dəstək, özgəsinin uğuruna sevinmək və s-dir.

Şagirdlərin maraqlarının nəzərə alınmasıda onların təlimə cəlb edilməsi və nəaliyyətlərinin yüksəldilməsində mühüm amillərdən hesab edilir. Buna görə də müəllim hər bir şagirdi tədqiqat obyektinə çevirməli və onların maraqlarını öyrənməlidir. Tapşırıqlar məhz bu baxımdan tərtib edilməlidir. Maraqları üst-üstə düşən uşaqların birgə fəaliyyəti çox səmərəli nəticə verir. Bunu da nəzərə alan müəllim onları təlim prosesində bir qrup ətrafında birləşdirməli və maraqların inkişafına yol açmağı bacarmalıdır.Şagirdlərin maraqlarının düzgün təşkili onlara təlimdə daha çox stimul verir və yeni axtarışlara sövq edir.

Sosial- psixoli mühitin yaradılması elə bir yanaşmaya əsaslanmalıdır ki, bu zaman pedaqoji prosesə əsas olan vadaretmə elementi uşağın maraqlarının və şəxsiyyətinin xüsusiyyətlərinin nəzərə alınması ilə tarazlaşdırılsın. Münasib olmayan sosial- psixoloji mühitə valideyn iclaslarının aparılmasının ənənəvi metodu misal ola bilər. (2, s.180)

Valideyn iclaslarının vəzifələrindən biri hər bir şagirdin nailiyyətlərinin və dərsə münasibətinin səviyyəsi haqqında məlumatın valideynlərin nəzərinə çatdırılması hesab edilir. Beləliklə, şagirdin şəxsiyyətinin inkişafına aid olan gizli məlumat aşkarlanır. Bu isə uşağının belə problemləri olan valideynlərdə mənfi hisslərin əmələ gəlməsinə gətirib çıxarır və kənar şəxslərin müzakirə mövzusu olur. Buna görədə sosial- psixoloji mühitin düzgün təşkili baxımından valideyn iclaslarında ayrı-ayrı şagirdlərin inkişafı problemlərinə toxunmamaq və yalnız sinif kollektivinin həyatının təşkili məsələlərini müzakirə etmək, yalnız məxfi olaraq və fərdi görüşlərdə bəzi məqamları valideynlərin nəzərinə çatdırmaq olar (2, s.180).

Bərabər təlim şəraitinin əlverişli yaradılması üçün müəllim və şagird arasında isti və qayğıkeş münasibətlərin yaradılması vacib şərtlərdən biridir. Bu istiqamətdə fəaliyyətini düzgün qura bilməyən müəllim çox keçmədən təlimdə şagirdin geriləməsinin şahidi olacaqdır (3, s.151).

Pedaqoji fəaliyyət bilavasitə ünsiyyət vasitəsilə həyata keçirilir. Ünsiyyətdə pedaqoji-psixoloji yanaşmanın spesifik cəhəti ondan ibarətdir ki, burada diqqət başlıca olaraq ünsiyyətin strukturunun təhlilinə, şəxsiyyətlərarası və qruplararası münasibətdə, eləcə də idrak və ünsiyyət prosesində özünüdərkin formalaşma dinamikasına yönəlmişdir.

Pedaqoji ünsiyyət müəllimlərin şagirdlərlə dərsdə və dərsdənkənar müəyyən pedaqoji funksiyaların yerinə yetirilməsinə və əlverişli psixoloji iqlimin yaradılmasına, təlim fəaliyyətinin və müəllimin şagirdlərlə və şagirdlərin öz aralarındakı münasibətlərin optimallaşmasına yönələn peşəkar ünsiyyətdir.(1, s.96) Çünki prosesin məzmunlu, maraqlı, məqsədyönlü, səmərəli və faydalı həyata keçirilməsi pedaqoji ünsiyyətdən çox asılıdır.

Professional pedaqoji ünsiyyət müəllim və şagirdlərin üzvi sosial- psixoloji qarşılıqlı əlaqəsidir ki, onun da məzmununu informasiya mübadiləsi, tərbiyəvi təsirin göstərilməsi, kommunikativ vasitələrin köməyi ilə qarşılıqlı münasibətin təşkilidir. Bəzən uşaqlar müəyyən yaş dövrlərində valideynləri ilə öz problemlərini paylaşa bilmir, qarşı tərəfdən etinasızlıq, ya da

aqressivlik gördükləri üçün əməkdaşlıq etmirlər, bu da bəzi hallarda sinifdə də digər uşaqlarla konfliklərə gətirib çıxara bilir.

Belə hallarda müəllim şagirdlərə qarşı daha diqqətli və həssas davranmağı bacarmalıdır, onların problemlərini həll etmək üçün çıxış yolu axtarmalı və şagirdlərin diqqətini təlim- tərbiyə prosesinə cəlb etməlidir.

Ünsiyyəti düzgün təşkil etmək üçün müəllim həmin prosesin səmərəli təşkili ilə bağlı məlumatları yadda saxlayıb, yada salmağı bacarmalı, başqa sözlə özünün "kommunikativ hafizəsini inkişaf etdirməlidir". Eyni zamanda şagirdlərlə ünsiyyətdə öz müşahidəçiliyini inkişaf etdirməlidir. Səmərəli pedaqoji ünsiyyət qaydalarına yiyələnməyən, onun sosial- psixoloji mexanizmləri ilə tanış olmayan müəllim öz fəaliyyətini müvəffəqiyyətlə yerinə yetirə bilməyəcək və ciddi çətinliklərlə rastlaşacaq.

Bərabər təlim imkanları fərqli sosial vəziyyətdən, şagirdlərinin müxtəlif dərketməsindən cinsi, dini və irqi müxtəlifliklərdən və s.-dən asılı olmayaraq düzgün təşkil edilməlidir. Pedaqoji prosesin hər tərəfli inkişaf etməsi üçün bu məqamları nəzərə almaq vacib məsələdir. Buna görə də təlimdə bərabər imkanların yaradılması bütün şagirdlərə eyni təlim şəraiti yaradır və pedaqoji proses onların potensial imkanlarını nəzərə almaqla tənzimlənir və inkişaf etdirilir.

## ƏDƏBİYYAT


1. Əliyeva F., Məmmədova Ü. Müasir təlim texnologiyaları. Bakı: 2014.
2. Süleymanova A. Təhsilin əsasları. Bakı: 2014.
3. Həmzəyev M. Yaş və pedoqoji psixologiyanın əsasları. Bakı: 2003
4. Həsənov A., Ağayev Ə. Pedoqogika. Bakı: 2007.
5. UNESCO. Draft Paper for 2005 Global EFA Monitoring Report. 2005 // https://unesdoc.unesco.org/ark:
6. Azərbaycan Respublikası Təhsil haqqında qanun. // http://www.e-qanun.az/alpidata/framework/data/18/c_f_18343.htm


## TƏHSİL SOSİALLAŞMA İNSTİTUTU KİMİ

***M.Nuriyeva***

### XÜLASƏ

Məqalədə sosiallaşma institu kimi təhsilin üzərinə düşən vəzifələrdən bəhs olunur. Burada həmçinin Azərbaycanda təhsilin bu günkü vəziyyəti,təhsil sistemində baş verən yeniliklər, habelə təhsil qarşısında duran yeni tələblərdən bəhs olunur. Məqalədə vətəndaş təhsili və tərbiyyəsi məsələləri də geniş təhlil olunur.

## ОБРАЗОВАНИЕ КАК ИНСТИТУТ СОЦИАЛИЗАЦИИ

***М.Нуриева***

### РЕЗЮМЕ

В статье освещается роль образования как института социализации. В нем также обсуждается текущее состояние образования в Азербайджане, новые события в системе образования, а также новые проблемы, стоящие перед образованием. В статье также подробно анализируются вопросы гражданского образования и воспитания.

## EDUCATION AS AN INSTITUTION OF SOCIALIZATION

***M. Nurieva***

### SUMMARY

The article highlights the role of education as an institution of socialization. It also discusses the current state of education in Azerbaijan, new developments in the education system, as well as new challenges facing education. The article also analyzes in detail the issues of civic education and upbringing.

# NƏZAKƏT KONSEPTİ VƏ ONUN ETİKETLƏ OXŞAR XÜSUSIYYƏTLƏRİ

***İsmayılova Ləman***
***Azərbaycan Dillər Universiteti***
***Linqvokulturologiya kafedrası***
***leman-ismayılova2015@yandex.com***

***Açar sözlər:*** nəzakət qaydaları, nitq etiketləri, dilçilik.
***Ключевые слова:*** правила вежливости, речевые ярлыки, лингвистик.
***Keyword:*** courtesy rules, speech labels, linguistics.

Müasir dilçilikdə ümumilikdə kommunikasiya məsələsinin, hətta nitqin fərdi xüsusiyyətlərinin, kommunikasiya prosesində fikrin düzgün, dəqiq, səlis ifadə formalarının özünəməxsus öyrənilməsinə maraq olduqca artır. Kommunikasiya prosesinin maraq yaradan bu cür məsələlərindən əsası da nəzakət anlayışıdır. Nəzakət anlayışı məsələləri müasir dilçilikdə fərqli aspektlərdən araşdırma obyekti yaratmışdır. Bu məsələlər nitq aktları nəzəriyyəsi, mətn dilçiliyi, diskurs təhlili, danışıq dili, tipologiya, psixolinqvistika və paralinqvistika müstəvisində tədqiqə cəlb edilmişdir. Habelə, tədqiqatın araşdırılması tərəfləri də hələ olduqca çoxdur.

Aydındır ki, dilin qatları zənginləşdikcə verbal ünsiyyətin rəsmi və qeyri-rəsmi sahələrini müəyyən dəyişikliklər gözləyir. Bu cür dəyişikliklər öz əksini, sübhəsiz ki, daha çox dilin leksik qatında göstərəcək. Nəzakət sahəsi bu cəhətdən özünəməxsusluğu ilə seçilir. Nəzakət anlayışı sisteminə aid olan elementlər dilin fərqli səviyyələrinə dair vahidlərlə – leksik səviyyədə xüsusi sözlər, sabit birləşmələr və xüsusi müraciət formaları, qrammatik səviyyədə cəm şəkilçisi, sintaktik səviyyədə əmr cümlələrinin sual cümlələrinə çevrilməsi, üslub baxımından nitqin obrazlılığı, eləcə də düzgün intonasiya, səs tonu, kommunikasiya iştirakçılarının sosial statusundan asılı olaraq məsələnin düzgün araşdırılması və düzgün nəzakətli ifadələrin araşdırılmasına gətirib çıxarır. Nəzakət bildirən söz və ifadələrin bütün cəhətlərinin bu tip öyrənilməsi dilçilik üçün çox vacibdir.

Nəzakət düzgün davranış və başqalarının hisslərinə hörmət etməkdən ibarətdir. Nəzakət davranışlarımızla, danışığımızla, hərəkətlərimizlə digərlərinə qarşı hörmət, yüksək əxlaq nümayiş etdirməkdir . Nəzakət digərlərinin ehtiyac və hisslərini nəzərə alaraq qəlbimizdə onlara qarşı uyğun davranış və danışıq formasını müəyyən etməkdir.

Praqmatikada nəzakət səmimiyyət, hörmət, incəlik və məsafəni özündə əhatə edən bir anlayış kimi dərk olunur. Belə xüsusiyyətlər "xahiş edirəm" kimi nəzakət bildirən söz və ifadələrdən istifadə olunmaqla, uyğun səs tonu ilə danışmaqla, ona münasibət cəhətdən yaxınlıq və ya uzaqlıqdan asılı olaraq ad və ya soyadı ilə müraciət olunması ilə xarakteristika edilir. R.Uots nəzakətli davranışda kommunikantların bir-birinə yalnız nəzakətli danışıq tərzi ilə deyil, həm də öz nitqlərini "xanım" (Ms., Mrs.), "cənab" (Mr.) kimi hörmət ifadə edən xitablar və "zəhmət olmasa" (please), "təşəkkür edirəm" (Thank you), "bağışlayın" (sorry) kimi nəzakət ifadələrlə qüvvətləndirərək təsir göstərdiklərini bildirir [1, s.132]. C.Holms da nəzakəti başqalarının hisslərinə hörmət kimi səciyyələndirir. Əks tərəfin hisslərinə uyğun olmayan davranış vədanışığı isə o, kobud, qaba davranış adlandırır [2, s.32].

R.Lakof nəzakəti şəxsi münasibətlər zamanı qarşıya çıxa bilən hər hansı anlaşılmazlığı azaltmaq üçün istifadə olunan anlayış adlandırır . G.Liç nəzakəti uyğun münasibət yaratmaq və bu münasibəti davam etdirməyi qarşıya məqsəd qoyan davranış forması kimi , C.Holms isə yaxşı bir niyyət, dostluq xüsusiyyəti kimi dəyərləndirir [1, s.326].

Nəzakət, insanlarda anadangəlmə instinkt hesab olunmur, sosiomədəni və tarixi proses sayəsində qazanılan və inkişaf edən bir vərdiş, davranış kimi öz əksini tapır.

Nəzakət nəzəriyyəsinin yaranma tarixi XV əsrə aiddir. Oxford etimoloji lüğətinə görə, XVII əsrdə nəzakətli insan ədəbli, əxlaqlı normalara malik şəxs kimi nəzərdə tutulurdu. K.Enlik " On the history of politeness" kitabında qeyd edirdi ki, orta əsrlərdə Fransa, İspaniya, Almaniya və Hollandiyada ali, yuxarı təbəqə özünü digər təbəqələrdən nəzakət dəyərləri ilə fərqləndirirdilər. Onların təsəvvürlərinə görə, nəzakət dəyərlərinin əsasında uğurlara nail olmaq, şərəf qazanmaq kimi məqsədlər dayanır [3, s.478].

Fərqli mədəniyyətlərdə nəzakət nəzəriyyəsinin inkişafı və normaları üzrə xeyli sayda elmi araşdırmalar etmişlər. Tədqiqatçılar nəzakətli davranışın iki növünü aşkarlamışlar. Birinci növ nəzakət özündə sosiomədəni qrup üzvlərinin danışıq vaxtı istifadə etdiyi nəzakətli davranış formalarının fərqli formalarını birləşdirir. Bu cür yanaşma nəzakətin ümumi hiss anlayışlarını birləşdirir.

Ikinci növ nəzakət bir cəhətdən dilin nəzakətlilik əhatə edən formalarının istifadəsini, başqa cəhətdən isə sosial davranış nəzəriyyəsinə müvafiq davranış tərzini aşılayır.

J.S.Feliks-Brasdefer "Politeness in Mexico and the United States" kitabında qeyd edir ki, birinci növ nəzakət gündəlik ünsiyyət zamanı cəmiyyət üzvlərinin istifadə etdiyi nəzakətin ümumi anlayışını əhatə edir. Bu növ nəzakəti o, 3 komponentə bölür: ifadəli (expressive), təsnifedici (classificatory) və metapraqmatik [1, s.542]. Linqvistik nəzakətin bir növü olan metalinqvistik nəzakət sosial əlaqənin qurulması və sosial təzyiqin möhkəm qorunması üçün şərait yaradır. R.Marquez-Reiter ünsiyyət etiketi ilə birlikdə fatik ünsiyyəti metalinqvistik nəzakətin ifadə növü kimi qiymətləndirir. B.Malinovski ardıcıl söhbəti, stereotip mövzular haqqında danışmağı da fatik ünsiyyət instansiyaları kimi hesab edir. B.N.Qolovin ünsiyyətin müxtəlif şəraitlərini də təsvir edərək assertiv, emotiv, direktiv, fatik, ritorik, komissiv və informasiya alınması kimi kommunikativ məqsədləri fərqləndirir [4, s.82].

Nəzakət nəzəriyəsini ilk dəfə 1978-ci ildə P.Braun və S.Levinson araşdırmışlar. Nəzakət nəzəriyyə ziddiyyətli hesab edilsə də, elmi ədəbiyyatda geniş şəkildə tətbiq və bir o qədər də tənqid edilir. P.Braun və S.Levinsonun "nəzakət" nəzəriyyəsi iki hissə ayrılır. Birinci hissə "nəzakətin" təbiətini, xüsusiyyətlərini öyrənən fundamental nəzəriyyədir. Buraya hətta nəzakətin ünsiyyət prosesində həyata keçirdiyi funksiyalarından bəhs edilir. İkinci nəzəriyyə isə üç dildən – ingilis, tzeltal və tamil dillərindən nümunələr zəminində "nəzakət" strategiyasını öyrənən siyahıdan ibarətdir. İşin nəzəri hissəsi P.Braun və S.Levinson "nəzakət"i daha geniş mənada ifadə edə bilmələri üçün "etibar" anlayışını təqdim edirlər. Onlar cəmiyyətin hər bir fərdinin öz etibarı və digərlərinə qarşı göstərdikləri etimad haqqında narahat olduqlarını və eyni anda digər şəxslərin də oxşar şəkildə etibarı və etimadına olan istəklərini nəzərə alaraq "etibar" anlayışını pozitiv və neqativ olmaqla iki yerə ayırmışlar. Ümumiyyətlə, ünsiyyətdə olanlar özlərində ünsiyyət zamanı "etibar"ın iki növünü ehtiva edirlər: pozitiv etibar (positive face) və neqativ etibar (negative face) [1, s.326].

Nitq etiketi hər bir mədəniyyət sahəsində ifadənin və ya fikrin ifadəsinin formasına, məzmununa, qaydasına, xarakterinə və şəraitdən asılı olaraq yerinə düşüb-düşməməsinə qoyulan tələblər kimi özünü biruzə verir. Dilçilikdə nitq etiketinə fərqli təriflər verilməkdədir. Bu təriflər, bir qayda olaraq, bir-birindən kəskin şəkildə fərqlənmir, anlayış daha az və ya daha çox əhatə etmək baxımından ayrılır. "Nitq etiketi nitq davranışının tənzimlənən, cəmiyyət tərəfindən müsahiblərin müəyyən tonallıqda dil-nitq təması yaratmaq, onu davam etdirmək və saxlamaq üçün qəbul edilmiş milli özünəməxsusluğu ilə seçilən nitq konstruksiyalarıdır" [4, s.453]. Adamların salamlaşmaq, xudahafizləşmək, xahiş etmək, üzr istəmək anlarında istifadə etdikləri ünsiyyət formaları, hörmət ifadə edən intonasiya cəhətləri nitq etiketinə dairdir.

Hər bir uğurlu kommunikasiya aktı nitq etiketi ilə səciyyələnir. Yəni kommunikasiya aktı nitq etiketini öz daxilində məhv edir. Buna görə də, nitq etiketi kommunikasiya aktı tərəflərinin bir-biri ilə qarşılıqlı əlaqəsini həyata keçirir və onun uğurlu olmasına köməklik edir. Q.P.Qrays kommunikasiya aktının uğurlu və tərəflər arasında əhəmiyyətli həyata keçməsinin nitq etiketi ilə nitq ünsiyyətinin əlaqəsinin postulatlarından asılılığı ilə bağlı olduğunu qeyd etmişlər. Müəllifin irəli sürdüyü əsas

müddüalar hər bir ünsiyyətin əsasında dayanan kooperasiya prinsiplərindən yaranır. O, nitq ünsiyyəti postulatlarına aşağıdakıları daxil etmişdir: 1) keyfiyyət postulatları (məlumatın yalan olmaması və yalana əsaslanmaması); 2) kəmiyyət postulatı (məlumat nə həddən artıq qısa, nə də həddən artıq uzun olmamalıdır); 3) üsul (məlumat aydın, dəqiq olmalı, adresat üçün anlaşılmaz olan söz və ifadələrlə yüklənməməlidir); 4) münasibət (məlumat adresat üçün relevant olmalıdır). Qeyd edilmiş postulatlardan birinin və ya bir neçəsinin həyata keçirilməməsi kommunikasiya aktının uğursuzluğuna gətirib çıxarır. Ünsiyyət prosesində tərəflərdən biri digəri ilə təmas yaratmağa, onu öz tərəfinə çəkməyə, fikirlərini, hökmlərini inandırıcı etməyə və s. çalışır. Sadalanan bu cəhdlər kommunikasiya aktının hörmət və takt kimi əsas kateqoriyalardan ayırd edilməsinə əsas yaratmır. Deməli, nitq etiketinin əsas tələblərindən biri də məhz elə hörmətin özüdür. Beləliklə, Q.Qraysın postulatları, hətta, hörmət və takt nitq etiketinin yaradıcılarıdır. Bu yaradıcılar nitq aktında istifadə edilən dil vasitələri, onların qarşılıqlı əlaqəsi zəminində meydana çıxır, formalaşır, inkişaf edir. Nitq etiketinin bəzi vasitələri – yaradıcıları kommunikativ aktın həyata keçirilməsinin bütün müddətində ön planda durursa, bəziləri gah ön plana, gah da arxa planda həyata keçirilir.

Qeyd olunanlardan aydın olur ki, istər nitq etiketləri, istərsə də nəzakət bildirən sözlər eyni məqsədə xidmət edirlər.

Araşdırmalar göstərir ki, hər bir dildə, o hətta Azərbaycan dillərində lazımi qədər hazır nitq qəlibləri konstruksiyaları movcuddur. Həmin konstruksiya və qəliblər nitq etiketinin və nəzakət konseptinin vahidləridir. Bu vahidləri və ya hazır qəliblərin nitqdə işlənməsinin struktur-semantik xüsusiyyətləri müxtəlifdir. Qəliblər bu vahidləri olsa da, ünsiyyət prosesində hər zaman pozitiv reaksiya yaratmır. Bu qəlibləri müxtəlif və rəngarəng olduğu kimi, onlardan istifadə olunmasının da xüsusiyyətləri movcuddur. Ünsiyyətin bu formalarına salamlaşma, üzrxahlıq, minnətdarlıq, razılaşma, təsdiq, inkar, xudahafizləşmə və s. hallarda istifadə edilən hazır qəliblər aid edilir.

## ƏDƏBİYYAT


1. Oxford Advanced Learner’s Dictionary. 2013, p.1539.
2. Collin H. Collin’s English Dictionary. Glasgow, 2013, p.950.
3. Longman Dictionary of Contemporary English. 2013, p.500.
4. Watts R. Linguistic politeness research. Cambridge. Cambridge University Press, 2003, p.767.


## КОНЦЕПЦИЯ ВЕЖЛИВОСТИ И ЕЕ ПОХОЖИЕ ЧЕРТЫ С ЭТИКЕТОМ

***Исмайлова Ламан***

## РЕЗЮМЕ

Данная статья посвящена вопросу концепции вежливости и её схожим чертам с етикетом. Вежливость не рождается с человеком а формируется как социокультурная привычка или поведение. По этой причине вежливое поведение меняется в зависимости от образа жизни, национальной принадлежности. Не вежливые выражения выбираются в зависимости от отношения говорящего к конкретной ситуации. Теги и вежливые выражения могут быть структурыно простыми, состоять из двух или более слов и могут включать сложные предложения и целые предложения. Использование той или иной формы вежливости и маркировки, напрямую связано со статусом авторов сообщений, их отношением и уровнем познания.

## THE CONCEPT OF POLITENESS AND ITS SIMILARITIES WITH ETIQUETTE

***Ismayilova Laman***

## SUMMARY

The Article deals with the problems of the concept of politeness and its similarities with etiquette. Courtesy is not lack in human`s behaviour and it is shaped as a sociocultural habit or behaviour during life. For this reason, courtesy in behaviour can change due to the lifestyle, national identity of each nation. On the contrary uncourteous, expressions are selected according to the attitude of the speaker to the communication in a particular situation.

# SİYASİ DİSKURSUN QLOBAL KOMMUNİKASİYA MÜHİTİNDƏ ROLU

***Osmanova Yeganə***
***Azərbaycan Dillər Universiteti***
***yegane.osmanova.95@mail.ru***

***Açar sözlər:*** diskurs, informasiya, KİV, siyasi proseslər, virtuallıq.
***Ключевые слова:*** виртуальность, информация, политические процессы, речь, СМИ.
***Key words:*** discourse, information, Mass media, political processes, virtuality.

Müasir elm qlobal kommunikasiya vasitələrinə bütün dünyada və eyni zamanda da regional miqyasda və ölkə daxilində cəmiyyətdə baş verən hadisələr barədə insanların, müxtəlif mənşəli sosial qrupların və dövlətin operativ olaraq məlumatlandırılması vasitəsi kimi baxır. Eləcə də qlobal kommunikasiya vasitələrinə spesifik sosial funksiyaları həyata keçirən informasiya kanallarının toplusu kimi yanaşılır. Siyasi həyatda isə hazırki dövrdə sosial informasiya mühüm əhəmiyyət kəsb etməkdədir. Deməli, müasir dövrdə elmi baxımdan siyasi diskursun əhəmiyyəti olduqca vacibdir [12, s 138].

Siyasi dilçiliyin əsas anlayışlarından biri olan siyasi diskursun qlobal kommunikasiya mühitində rolunu təhlil etmək üçün ilk növbədə diskurs və siyasi diskurs anlayışlarını düzgün qiymətləndirməyə ehtiyac vardır [11, s 91].

XX əsrin II yarısından etibarən diskurs anlayışı yalnız dilçilik sahəsində deyil, eyni zamanda bir çox elm sahələrində də işlədilməyə başladılmışdır. Diskurs məfhumu bir sıra hallarda diskusiya məfhumu ilə eyni mənalarda işlədilsə də qeyd etməliyik ki, diskusiya anlayışından fərqli olaraq diskurs prosesində tərəflərin olması vacib məsələ hesab edilmir. Diskusiyadan fərqli olaraq diskursda qaydalar çox sadə bir şəkildə - formal və ya qeyri-formal, eləcə də müəyyən bir sosial qrup üçün nəzərdə tutula bilər.

Diskurs anlayışına tam olaraq aydınlıq gətirmək məqsədilə ilk növbədə mətn və nitq, eləcə də dialoqun müxtəlif növlərinin məzmununu kompleks formada müəyyən etmək olduqca vacibdir. Lakin bu məsələyə tam olaraq aydınlıq gətirilməmişdir [14, s 25]. Qeyd etməliyik ki, mətn və kontekst anlayışları üçün müəyyən edilmiş müxtəlif baxış və fərqli mövqelər mövcuddur. Adətən mətnin məzmununu, məna daşıyıcılığını və onun funksiyasını ilkin olaraq aydınlaşdırmadan dəqiqləşdirmək mümkünsüzdür. İstənilən hər hansı bir mətn informasiya daşıyıcısı olduğundan ona kommunikasiya vasitəsi olaraq da yanaşmaq mümkündür [4,s 31]. Son illər ərzində Azərbaycan dilçiliyində də mətn, kontekst və onların fərqli cəhətləri haqqında da bir sıra dəyərli fikirlər söylənilmişdir [1,2].

Məlumdur ki, şəxsiyyətin formalaşması prosesi uzun illər boyu bütün tədqiqatçıların hər zaman diqqət mərkəzində olmuşdur. Hazırki informasiya texnologiyaları dövründə isə şəxsiyyət probleminin yeni bir istiqaməti də meydana çıxmışdır ki, bunu da biz virtual şəxsiyyət problemi kimi adlandıra bilərik. Qloballaşma dövründə bu problemin müxtəlif aspektlərdən təhlil edilməsi və tədqiqi son dərəcədə mühüm əhəmiyyət daşımaqdadır. Çünki bildiyimiz kimi informasiya kommunikasiyası mühitindəki proseslərin bir çoxu, eləcə də elektron informasiya mühitində formalaşan yeni tendensiyaların məqsədyönlü şəkildə idarə edilməsi yalnız virtual şəxsiyyətin xarakterik xüsusiyyətləri barədəki məlum biliklərə yiyələnməklə birbaşa əlaqədardır. Deməli, biz informasiya kommunikasiya mühitində siyasi diskursun rolunu təyin etmək üçün ilk növbədə virtual şəxsiyyət məfhumunu düzgün qavramalıyıq [5], [13].

Əslində, elektron kommunikasiya mühitində təqdimat formalarının öyrənilməsi məqsədi daşıyan cəhdlər məhz bu vasitələrin özünün yaratdığı dövrdə başlanır. Bu sahədə isə ilk elmi təşəbbüslər hələ teleqraf epoxası dövrünə dayanmaqdadır [9, s 113]. Amma bu məsələ son illərdə

daha böyük bir tədqiqatçı marağı doğurmuşdur ki, bu da İnternetin hazırda bütün dünya ölkələrində geniş yayılması ilə sıx bağlıdır.

Virtual şəxsiyyət monolit xarakterə malik olmadığından onun dəqiq analizini vermək bir qədər çətinlik yaradır. Virtual şəxsiyyət elektron mühitdə mövcud olan subyektivizmin müxtəlif variantlarını özündə ehtiva edir [7]. Hazırda mövcud bir sıra yanaşmalara görə virtual şəxsiyyət internetdə gündəlik olaraq baş verən hər bir kommunikasiya virtual xarakter daşıyır və istənilən İnternet istifadəçisi də virtual şəxsiyyət olaraq hesab edilir. Eyni zamanda virtual şəxsiyyət anlayışına sinonim olaraq "post insan" anlayışından da istifadə edilməkdədir.

Virtual şəxsiyyət bir sıra xüsusiyyətlərə malikdir ki, onları aşağıdakı kimi qruplaşdıra bilərik:

Qeyri-cismanilik. Şəxsiyyətin virtual mühitdə mövcudluğu maddi formada deyildir. Real həyatda şəxsiyyət məfhumu müəyyən obyektə malikdir. Virtual şəxsiyyət də şəxsiyyət məfhumu kimi obyektə malikdir ki, bu obyekt də subyektin əsas keyfiyyətlərinə əsaslanmaqdadır. Lakin mövcud olmanın statusu dəqiq müəyyən deyildir. Yəni, virtuallıq burada reallıq və qeyri-reallıq arasında müəyyən edilmişdir. Deməli, virtuallıq reallığa qarşı dayanmaqdadır.

Anonimlik. Virtual şəxsiyyət anlayışına anonimlik xüsusiyyətinin verilməsi ilk dəfə "The New Yorker" jurnalı vasitəsilə populyarlaşmağa başlanmışdır. Belə ki, jurnalda virtual şəxsiyyətə aid olan elmi yazıda onun anonimlik xüsusiyyətinə də malik olmasından bəhs edilmişdir. Burada anonimlik deyərkən onun adının semiotik xarakter daşıması nəzərdə tutulur. Yəni, internet istifadəçisi olan virtual şəxsiyyətin müəyyən bir xüsusi adı vardır, lakin bu ad bəzən onun şəxsi seçimindən asılı olaraq gizlədilir [3].

İdentifikasiya imkanlarının genişliyi. Biz virtual şəxsiyyəti müxtəlif fərqli xarakterlərin ardıcıllığı vasitəsilə düzəldə bilərik. Bu xarakterlərə onun sosial mühitə yerləşdirdiyi müxtəlif şəkillər, paylaşdığı fikirlər, dünyagörüşü və mədəni səviyyəsi və s. aid ola bilər.

Eyni zamanda bir neçə virtual şəxsiyyətin yaradılmasının mümkünlüyü. Sosial mühitdə fəaliyyət göstərən virtual şəxsiyyət özünün niyyət və fəaliyyət istiqamətlərindən asılı olaraq bir deyil, istənilən sayda virtual şəxsiyyət yarada bilər. Eyni zamanda da bu şəxsiyyətlər bir-birindən kəskin formada fərqlənə bilər.

Virtual ünsiyyət amili. Real həyatda şəxsiyyət məfhumunun təşəkkül tapması müəyyən bir mənada ünsiyyət məhsuludur. Ünsiyyət eyni zamanda insanın şəxsiyyətinin formalaşması üçün istiqamət verir. Ünsiyyət prosesi zamanı bir sıra faktorlar ortaya çıxır ki, bunlara da insanın özünü dərk edə bilməsi, özünü qiymətləndirməsi və s. kimi amillər aid edilir. Bununla belə onu da qeyd etmək vacibdir ki, real həyatla virtual həyat bir-biri ilə qarşılıqlı əlaqədədir. Belə ki, real həyatda baş verən hadisələr virtual həyata, virtual həyatda baş verən hadisələr isə real həyatda baş verən hadisələrə təsir göstərir. Baş verən bu hadisələr isə eyni zamanda həm mənfi, həm də müsbət istiqamətdə ola bilər.

İşarələr kompleksi. Hər bir virtual şəxsiyyət dar mənada müxtəlif işarələrin birləşməsindən ibarətdir. Bu işarələrin birləşməsi isə öz növbəsində elektron mühitdə fəaliyyət göstərir, yəni bu mühit həmin işarələr kompleksinin daşıyıcı faktorudur. Bu işarələrin reallığa çevrilməsi isə insan zəkasında baş verir. Deməli, bu mənadan yanaşdıqda virtual şəxsiyyətlər yalnız işarələr kompleksi olmayıb, eyni zamanda da ideyalar kompleksidir.

Emosiyalar. Virtual şəxsiyyət müxtəlif işarələr toplusu, obrazlılıq fəaliyyəti, təqdimat və müşahidəçilərin psixi aləmində müəyyən fikir və təəssüratlar yaradan emosiyalardan təşkil edilməkdədirlər. S.İ.Vıqonskinin ideyalarına əsaslanaraq deyə bilərik ki, virtual şəxsiyyətin malik olduğu spesifik xüsusiyyətlər ənənəvi obrazı dağıtmaqla patoloji nəticələrə gətirib çıxarır [6].

Qeyd etdiyimiz kimi müasir elm qlobal kommunikasiya vasitələrinə müxtəlif aspektlərdən yanaşmaqdadır. Əgər biz bu məsələyə eyni baxış bucağından yanaşsaq qeyd edə bilərik ki,

məlumatların yayılması və ötürülməsi zamanı virtual şəxsiyyətin rolu böyükdür. Deməli, virtual şəxsiyyət sosial diskursun əsas elementi hesab edilə bilər [8, s 35].

İstifadəçilərə doğru yönəldilmiş müxtəlif informasiyaların xarakterik xüsusiyyətlərindən asılı olaraq cəmiyyətin hər bir üzvünün (eləcə də sosial qrupların) fəaliyyəti ictimai-siyasi müstəvidə əhəmiyyət kəsb etməkdədir. Məhz bu baxımdan da biz iddia edə bilərik ki, qlobal kommunikasiya vasitələri yalnız məlumat ötürücüsü deyil, eyni zamanda sosial idarəçiliyin bir elementidir. Belə ki, KİV ilə yayılan informasiyalar müxtəlif ideya, baxış, mövqe və təlimlərin, eyni zamanda da siyasi proqramların təbliğatçılarıdırlar.

Ümumi ictimai fikir formalaşdırmaq, sosial tənzimlənmə prosesisinin tərkib hissəsi kimi iştirak etmək, cəmiyyətdə konkret bir fikrin yaranması məqsədinə nail ola bilmək yolu vasitəsilə qlobal kommunikasiya vasitələri insanları müxtəlif hərəkat və fəaliyyətlərə sövq edə bilirlər. Eyni zamanda da biz bu prosesə sadəcə siyasi bir proses kimi yanaşa bilmərik. Çünki hər bir vətəndaşın dünyada baş verən siyasi hadisələrdən xəbərdar olmaq haqqı vardır. Belə ki, aşkarlıq olmadan demokratiya mümkün deyil, eyni zamanda demokratiya olmasa aşkarlıq da mövcud ola bilməz [13, s 205]. Qeyd etdiyimiz bu reallıq göstərir ki, qlobal kommunikasiya vasitələri dünyanın demokratik sisteminin əsas tərkib elementləridir. Və məsələyə eyni reallıqdan yanaşıldığı zaman qlobal kommunikasiya vasitələri dördüncü hakimiyyət adlandırıla bilər.

Qlobal kommunikasiya vasitələri hipotetik olaraq hakimiyyətin bir qolu hesab edilsə də onun hər hansı bir qanunverici və ya icraedici orqanları yoxdur. Bu vasitələrin yeganə əsas vasitəsi əsas informasiya daşıyıcısı olan səs, söz və görüntüdür. Bu əsas informasiya daşıyıcıları vasitəsilə informasiyaların cəmiyyətə çatdırılması və qiymətləndirilməsi həyata keçirilməkdədir. Bu prosesdə isə əsas rol azad cəmiyyətə xidmət edən medianın üzərinə düşür.

Cəmiyyətin həyatında baş verən bir sıra siyasi proseslərdə ictimai fikrin formalaşdırılması zamanı qlobal kommunikasiya vasitələri mühüm rol oynayır. Belə ki, onlar siyasi sosiallaşmanın əsas faktorudur [8, s 35].

XXI əsr informasiya əsri olaraq qəbul olunduğundan virtual şəxsiyyətin daimi olaraq aktiv iştirak etdiyi siyasi diskurs prosesi eyni zamanda dövlətin də informasiya siyasətinə əsaslanmalıdır. Müasir dövrümüzdə informasiyanın yayılaraq ötürülməsi dünyada baş verən bütün qlobal problemlərlə qarşılıqlı əlaqədədir və onlara birbaşa təsir göstərməkdədir. Regiondaxili və qlobal miqyasda onların mənfi və müsbət təsirləri nəticəsində müxtəlif siyasi hadisələr mahiyyət etibarı ilə dəyişə bilər. Odur ki, hər bir ölkədə siyasi aləmdə baş verən bütün hadisələrin düzgün qiymətləndirilməsi üçün ümumi bir biliyə malik olmaq vacib şərtlərdən biridir. Kütləvi informasiya vasitələrinin siyasi həyata və cəmiyyətə təsirinin böyüklüyü dövlətin informasiya siyasətində müəyyən islahatlar aparılmasını vacib edir.

## ƏDƏBİYYAT


1. Abdullayev Ə. Aktual üzvlənmə, mətn və diskurs. Bakı: Zərdabi LTD MMC, 2011, 272 s.
2. Abdullayev.Ə. Mətni anlama modelləri. Bakı: Səda, 1999, 344 s.
3. Cəfərov Y.M. Virtual şəxsiyyət və onun təşəkkülündə dilin rolu // İnformasiya cəmiyyəti problemləri, 2017, № 2, 20-25.
4. Şahbazova F.E. Yeni-köhnə informasiya oppozisiyasının ingilisdilli bədii diskursun formalaşmasında rolu): Filol.fəl.dok. …. dis.avtoref. Bakı: 2010,43 s.
5. Ümumi psixologiya, Dərslik (S.İ.Seyidov və M.Ə.Seyidovun elmi redaktorluğu ilə), Bakı: YYSQ, 2014, 434 s.
6. Выгонский С.И. Виртуальная реальность как массовая галлюцинация // Школа эффективных лидеров: дистанционное образование, 2006, http://www.gilbo.ru/index.php?page=psy&art=2414

7. Горный Е. Виртуальная личность как жанр творчества (на материале русского Интернета), Сетевая словесность, 2007, http://www.netslova.ru/gorny/vl.html
8. Сорокин Ю.А. Политический дискурс: попытка истолкования понятия // Политический дискурс в России. М.: Институт языкознания РАН, 1997, 203 с.
9. Тарасенко В.В. Человек кликающий: фрактальные метаморфозю // Общественные науки и современность, 2000, № 5, с.111-120.
10. Тургаев А.С., Хренов А.Е. Политология в схемах и комментариях, // учеб. пособие //. СПб.: Питер, 2005, 117 с.
11. Чудинов А.П. Политическая лингвистика (общие проблемы, метафора): Учеб. пособие. Екатеринбург: Уральский гуманитарный институт, 2003, 194 с.
12. Brown G., Yule G. Discourse Analysis [Text] / G. Brown, G.Yule. Cambridge: Univ. Press, 1983, 296p.
13. Dijk T. A. van. Society and Discourse. Cambridge University Press, 2008, 298 p.
14. Weinrich H.The textual function of the French article / S.Chatman(ed), Literary style, New York, 1971, pp. 221- 234.

## THE ROLE OF POLITICAL DISCOURSE IN GLOBAL COMMUNICATION

***Osmanova Yegana***

## SUMMARY

The article touches upon the political discourse and its importance in social environment. In the modern era, the importance of political discourse is rather crucial. It is evident that global communication plays an important role in forming public opinion in a number of political processes in social life. So, it is the main factor of politicization.

Different political events can essentially change as a result of their negative and positive effects on the regional and global scale. Therefore, it is important to have a general knowledge of the correct assessment of all the events in the political world in each country.

## РОЛЬ ПОЛИТИЧЕСКОГО ДИСКУРСА В ПРОЦЕССЕ ГЛОБАЛЬНОЙ КОММУНИКАЦИИ

***Османова Егана***

## РЕЗЮМЕ

Данная статья посвящена политическому дискурсу и его важности в социальной сфере. В современном мире роль политического дискурса велика. Очевидно, что глобальная коммуникация очень важна в формировании общественного мнения в ряде политических процессов социальной жизни.

Разные политические события могут изменится в зависимости от их отрицательного и положительного влияния на региональные и глобальные сферы. Поэтому, важно иметь общие знания правильной оценки всех событий в политической жизни каждой страны.

# YARADICI FƏALİYYƏT VƏ XARİCİ DİL DƏRSLƏRİNDƏ YARADICI TAPŞIRIQLARIN İSTİFADƏSİ

***Yusubova Aytac***
***Azərbaycan Dillər Universiteti, Psixologiya kafedrası***
***aytac.yusubova.97@mail.ru***

***Açar sözlər:*** Yaradıcılıq, təxəyyül, yaradıcı fəaliyyət, istedad, yaradıcı tapşırıq
***Ключевые слова:*** Творчества, воображение, творческой деятельности, талант, творческие задания
***Key words:*** Creativity, imagination, creative activity, talent, creative task.

Yaradıcılıq insanın elə bir mürəkkəb fəaliyyətinə deyilir ki, bu fəaliyyətin nəticəsində elm, incəsənət, texnika sahəsində yeni əsərlər meydana gəlir. Yaradıcılıq sözün hərfi mənasında nə isə yeninin yaradılmasıdır. Adətən yaradıcılıq dedikdə insan fəaliyyətinin o sahəsi nəzərdə tutulur ki, bu fəaliyyətin sahəsində nə isə yeni bir ideya, nəzəriyyə, qanun (elmi yaradıcılıq), yeni maşın, mexanizm (texniki yaradıcılıq), yeni bir bədii əsər (bədii yaradıcılıq) yaranır. Rus psixoloqu S.L.Rubinşteyn yaradıcılığa belə bir tərif vermişdir: “Yaradıcılıq insanın xüsusi növ fəaliyyəti olub ictimai əhəmiyyəti olan maddi və mənəvi dəyərlərin yaradılması prosesidir. Yaradıcılıq mahiyyət etibarilə idrakdır. Yaradıcılığa sadəcə olaraq idrak demək də azdır. Ona görə ki, hər cür idrak fəaliyyəti elə insanın fəallığıdır. Yaradıcılıq insan fəallığının xüsusi formasıdır.”

Yaradıcılıq prosesində insanın bütün psixi prosesləri, onun duyğu, qavrayış, hafizə, təxəyyülü iştirak edir. Bu prosesdə təxəyyülün rolu daha qabarıq şəkildə özünü göstərir. Təxəyyül fəaliyyət prosesində təşəkkül tapıb inkişaf edir. Fəaliyyətin hər bir sahəsində yaradıcı təxəyyül müəyyən xüsusiyyətlərlə təzahür edir. Xüsusilə bədii yaradıcılıqda təxəyyül müstəsna dərəcədə əhəmiyyətə malikdir. Bədii təxəyyülün mahiyyəti yeni obrazlar yaratmaqdan ibarətdir. Məhz bu obrazlar yazıçının ideyalarının, fikirlərinin, düşüncələrinin daşıyıcısı funksiyasını yerinə yetirir (5, s.234).

Yaradıcı şəxsiyyətin ən müxtəlif xüsusiyyətlərini, onun bacarıqlarını, koqnitiv xarakteristikasını ortaya çıxarmış saysız-hesabsız tədqiqatlar var. Yaradıcı bacarıqları öyrənən tədqiqatçıların çoxu metaforik düşüncə qabiliyyətini bu səbəblərdən ibarət siyahının başına çıxarır. Doğrudan da, adi əşyadan, sözdən, jestdən, obrazdan qeyri-adi şəkildə istifadə etmək bacarığı yaradıcı şəxsiyyəti fərqləndirən başlıca cəhətlərdəndir. Adi əşyaları, halları, hadisələri ənənədən kənara çıxan yeni forma və münasibətlərdə təqdim etmək bacarığı kimi metaforik düşüncə yaradıcı fəaliyyətin məhsuldarlığına köklü təsir göstərir. Yaradıcı aktiv şəxsin ümumən qəbul olunmuş daha bir qabiliyyəti çeviklikdir. Bu bacarıq yaradıcı şəxsə lazım gələndə bir problemə baxışdan sanki onunla heç əlaqəsi olmayan başqa bir problemin öyrənilməsinə keçmək imkanı verir. Yaradıcı şəxsin çevikliyinin başqa bir aspekti də onun hər işə “əlinin yatmasına”, qərarların işlənib hazırlanaraq qəbul olunmasında “peşəkara” çevrilməsinə imkan verən adaptasiya qabiliyyətidir. Daxili görmə qabiliyyəti yaradıcı naturanı başqalarından köklü şəkildə fərqləndirir. Bu elə bir qeyri-adi alətdir ki, yaradıcı aktiv şəxsiyyətin hələ təhlildən əvvəl öyrənilən hadisənin mahiyyətinə varmasına imkan verir. Yaradıcı şəxsin vizual mexanizmləri neytrallaşdırmaq bacarığı daxili görmə qabiliyyəti ilə sıx bağlıdır. Bu bacarıq obyektin ilk baxışdan gözə dəyməyən başlıca xarakterik xüsusiyyətlərini dəqiq görməyə imkan yaradır. Yaradıcı şəxsin daha çox koqnitiv xarakterik cizgilər kimi təqdim olunan digər xüsusiyyətləri cəldlik, zəngin təxəyyül, ağıl, orijinallıq, qeyri-adi fəaliyyət sahələrində aktivlikdir. İnsan fəaliyyətinin hansı sahəsinə aid olursa olsun, hər cür yaradıcılıq orijinallığı, bənzərsizliyi, qeyri-standart gedişləri, yeni ideyaları və s. ilə seçilməlidir (4, s.192).

Yaradıcılığın aspektləri son dərəcə çoxçalarlıdır: adi şüur onu bir cür qavrayır, bədii fikirdə bu, bir fitri ədəbi istedad, fəlsəfədə ideyalar aləminin sakral məkanına qovuşmaq və yeni

ideyanın doğulması, ilahiyyatda vəhy və ilham kimi dəyərləndirilir. Müasir innovasiyalı cəmiyyət isə onu inkişafın ən zəruri və real, hərəkətverici qüvvəsi hesab edir. Bütün bu müxtəliflikləri birləşdirən bir ümumi cəhət də mövcuddur: yaradıcılıq əvəzsiz sərvət və dəyər, insanın İlahi və dünyəvi təyinatından doğan bir hadisə kimi səciyyələndirilir (1, s.123).

Yaradıcı fəaliyyət yeni surətlərin formalaşması və yaradılması prosesidir. Mürəkkəb və çoxcəhətli olan yaradıcı fəaliyyəti bir proses kimi nəzərdən keçirsək, onda aşağıdakı 3 mərhələni ayırd edə bilərik:

1. Hazırlıq mərhələsi;
2. Yeni surətlərin formalaşması;
3. Yeni surətlərin bilavasitə yaradılması və dəqiqləşdirilməsi. Bu mərhələlər arasındakı sərhəd, şübhəsiz ki, şərtidir. Onlar bir-birilə üzvü surətdə əlaqədardır. Bu mərhələlərdən hər biri yaradıcılıq ideyasının həyata keçirilməsində mühüm rol oynayır.

Yaradıcı fəaliyyətin bütün sahələrini bir proses kimi təhlil etsək, onların hər birində yuxarıda qeyd edilən mərhələləri asanlıqla ayırd edə bilərik. Lakin nəzərə almaq lazımdır ki, yaradıcı fəaliyyət sahəsinin xarakterindən asılı olaraq onun hər bir mərhələsində özünəməxsus cəhətlər meydana çıxır.

Yaradıcı prosesin nəzərdən keçirilən xüsusiyyətləri uşaq yaradıcılığında şübhəsiz ki, eyni ilə təzahür etmir. Uşaq yaradıcılığının nisbətən sadə formalarında hətta bu mərhələləri ayırmaq belə mümkün deyildir. Uşaqların müəyyən hazırlıq aparmadan model düzəltməsi, şəkil çəkməsi, hekayə yazması halları məlumdur. Bu, həmişə uşağın yaradıcı fəaliyyətinə mənfi təsir göstərir. Uşaq yaradıcılığının nisbətən yetkin formalarında isə artıq yaşlıların yaradıcı fəaliyyəti üçün bu və ya digər dərəcədə xarakterik olan bir çox xüsusiyyətlər təşəkkül edir. Bu xüsusiyyətlər uşaq yaradıcılığında da yaşlıların yaradıcılığında olduğu kimi üç mərhələni fərqləndirmək imkanı verir.

İstedadın formalaşması yaradıcı fəaliyyətin inkişafı ilə şərtlənir. Əgər yaradıcı fəaliyyət inkişaf etməzsə, necə deyərlər, sadəcə olaraq təkrar edilirsə, o, əslində əyləncə xarakteri daşıyır. Uşaqda qabiliyyət və istedadın inkişaf etməsi üçün yaradıcı fəaliyyətin özü inkişaf etməlidir.

İnsanın fərdi inkişafında fəaliyyətin bir-birini əvəz edən üç növü ayırd edilir: oyun, təlim, əmək. Fəaliyyətin bir-biri ilə vəhdət təşkil edən bu növlərindən hər biri müəyyən yaş mərhələsində insanın psixi və fiziki inkişafına həlledici təsir göstərir. Müəyyən bir yaş dövründə oyun, başqa yaş dövründə təlim və ya əməkəsas fəaliyyət növü hesab olunur. Uşağın əsas fəaliyyəti onun psixi inkişafını şərtləndirir. Hər bir fəaliyyət bu və ya digər dərəcədə yaradıcı fəaliyyətdir. Fəaliyyətin hansı sahəsi olursa olsun, orada qarşıya qoyulmuş məqsədi həyata keçirmək üçün insandan müəyyən yaradıcılıq tələb olunur. Yaradıcı fəaliyyət sözün əsl mənasında, ictimai əhəmiyyətə malik yeni, orijinal məhsul verən fəaliyyətə deyilir. Yaradıcılıq prosesi nəinki fəaliyyətin məzmunundan, həm də şəxsiyyətin özünün fərdi xüsusiyyətlərindən, bilik və təcrübəsindən asılı olaraq çox müxtəlif formalarda cərəyan edə bilər.

İnsan fəaliyyətinin bütün sahələri kimi yaradıcı fəaliyyət də şüurlu xarakter daşıyır. Bu mühüm cəhət onda ifadə olunur ki, insan yaradıcı fəaliyyətə başlamazdan əvvəl onun məqsədini, həmin məqsədə çatmağın yol və vasitələrini müəyyənləşdirir. Yaradıcı fəaliyyətin istiqaməti onun məqsədi ilə müəyyən olunur. Şüurlu surətdə qarşıya qoyulmuş məqsəd insanın fəaliyyət prosesində icra etdiyi hərəkətlərin tərzlərini və xarakterini bir qanun kimi müəyyən edir. İnsanın öz qarşısına bu və ya digər məqsəd qoyması yaradıcı fəaliyyətin motivindən asılıdır. İnsan beynində əks olunub onu hər hansı fəaliyyətin icrasına yönəldən və təhrik edən amillərə fəaliyyətin motivi deyilir. Yaradıcı fəaliyyətin məqsədi və motivi bir-birilə üzvi surətdə əlaqədardır. Lakin onları eyniləşdirmək olmaz. Yaradıcı fəaliyyətin motivi və məqsədi anlayışlarını fərqləndirmək üçün həmişə bir cəhəti nəzərə almaq lazımdır: yaradıcı fəaliyyətin məqsədi dedikdə, onun yönəlmiş olduğu obyekt nəzərdə tutulur. Yaradıcı fəaliyyətin nəticəsində nə əldə edilirsə bu, onun məqsədini təşkil edir. Yaradıcı fəaliyyətin motivini müəyyən etmək

üçün həmin məqsədin nəyin naminə əldə edildiyini aydınlaşdırmaq lazımdır. İnsanın tələbatı, hissləri, bilikləri, maraqları, arzu və xəyalları onu yaradıcı fəaliyyətə təhrik edən əsas motiv kimi təzahür edə bilər. Bu motivlər əsasında da insanda, adətən, müxtəlif məqsədlər əmələ gəlir.

Müasir dövrdə sinif mühitində yaradıcılığı inkişaf etdirməyin faydası təhsil mütəxəssisləri tərəfindən geniş şəkildə qəbul edilir. Beləki, yaradıcılığın inkişaf etdirilməsi gələcək üçün mühüm kəşflərə və iqtisadi inkişafa yol aça bilər. Həmçinin, yaradıcılıq şəxsi inkişafda da mühüm rol oynayır və sinif şəraitində şagirdlərin marağını, dünyagörüşünü, ünsiyyət bacarıqlarını artıra bilər (3).

Yaradıcı tədris iki üsulla müəyyən edilə bilər: 1) yardıcılıqla öyrətmə; 2) yaradıcılıq üçün öyrətmə. Yaradıcılıqla öyrətmə müəllimin yaradıcı yanaşmalardan istifadə edərək öyrənməni daha maraqlı, effektiv etməsi kimi təsvir edilə bilər. Yaradıcılıq üçün öyrətmə dedikdə, şagirdlərin yaradıcı düşünmə və davranma bacarıqlarını inkişaf etdirən tədris üsullarından istifadə nəzərdə tutulur (7, s.274).

Dil tədrisinə yaradıcı yanaşma yaradıcılığı hər bir şəxsin fitri bacarığı, istedadı kimi nümayiş etdirir. Hər bir şəxs müəyyən şərtlər altında yaradıcı potensiyaya malik ola bilər. Yeni ideyalar kəşf etmək bacarığı yaradıcı potensiya kimi istinad edilir. Yaradıcı potensiya fərdin dərketmə bacarığını, şəxsiyyəti, ətraf mühiti nəzərə alma imkanları ilə əlaqələnir və fəaliyyət sahəsindən, tapşırıqlardan asılı olaraq dəyişə bilər. Yaradıcılığı inkişaf etdirməkdə müəllimlərin rolu mühümdür. Onların şagirdlərin qabiliyyətlərinə inamı yaradıcılığı inkişaf etdirə bilər. Dil müəllimləri şagirdlərdə yaradıcılığa təkan vermək üçün bir neçə üstünlüyə malikdirlər. İlk növbədə, dil özlüyündə yaradıcılıqdır. Biz bir ideyanı müxtəlif üsullarla ifadə edə bilərik. Bundan başqa, hər bir ifadə olunmuş söz müxtəlif reaksiyalar doğura bilər. Dediyimiz və ya yazdığımız hər bir söz, ifadə, cümlə ünsiyyətin müəyyən bir anında yaranır və danışanın məqsədindən asılı olaraq yenidən formalaşdırıla və ya dəyişdirilə bilər. İkincisi, dil dərsləri hər hansı bir mövzu və ya məlumatla məhdudlaşdırılmır. Dil müəllimləri dərslərini idman, idarəçilik, qanun, fəlsəfə və s. ilə əlaqədar mövzular üzərində qura bilərlər. Üçüncüsü, dil dərsləri şagirdləri asanlıqla yaradıcı situasiyalara cəlb edə bilər. Belə vəziyyətlərdə şagirdlər bir-birilə əlaqələndirilmiş problemlərə bir və ya daha çox cavab verməlidirlər. Dildən istifadə ünsiyyət formalaşdırdığına görə bütün situasiyalarda işlədilə, reallığa yaxın vəziyyət digər fənnlərin tədrisinə nisbətən daha asanlıqla yaradıla bilər (3, s.76)

Yaradıcılıq özünü müxtəlif yollarla göstərən keyfiyyətdir. Buna görə də, onu müəyyən etmək olduqca çətindir. Yaradıcı fəaliyyətdə özünü göstərən bəzi xüsusiyyətlər vardır. “Yeni bir şey yaratmaq” fikri yaradıcılığın əsasını təşkil edir. Amma yenilik bir şeyin yaradıcı hesab edilməsi üçün kifayət deyil. Yaradıcı fəaliyyət insanın fəaliyyət sahəsinə uyğun və praktik, faydalı olmalıdır (1, s.164).

Sinif mühitində şagirdlərin yaradıcı fəaliyyətini inkişaf etdirmək üçün bir sıra amillərə diqqət yetirmək lazımdır:

- Şagirdlərin özünəinamının formalaşdığı, səhvlərinə görə tənqid edilməkdən çəkinmədiyi rahat mühit yaradılmalıdır. Müdafiə, identiklik, sahib olma, məqsədə, şəxsi bacarıqlara malik olma hissləri özünəinamı formalaşdırır. Şagirdlərin bilik və bacarıqlarını qiymətləndirməklə, onların fərqli baxışlarına, düşüncə tərzlərinə hörmət etməklə, şagirdləri birgə işə həvəsləndirməklə onlarda özünəinam hissi inkişaf etdirilə bilər;
- Şagirdlərə seçim etmək şansı verilməlidir. Bununla onlar öz qərarlarına görə məsuliyyət daşımağı öyrənirlər. Tapşırıq seçimi, mövzu seçimi kimi kiçik qərarlar şagirdlərin özünüifadə qabiliyyətini inkişaf etdirir və öyrənməni daha maraqlı edir;
- Şagirdləri bir yerdə işləmək üçün ruhlandırmaq və inciklikə səbəb olmadan tənqid etmək lazımdır. Bu şagirdlər arasında əməkdaşlığı inkişaf etdirmək üçün mühümdür;
- Dəqiq müşahidənin vacib olduğu müntəzəm olaraq izah edilməlidir. Həmçinin, şagirdlər kitablardan, internet saytlarından və ya digər insanlardan soruşaraq məlumat əldə etməyə,

araşdırmağa həvəsləndirilməlidirlər;

- Yaxşı nəticələr əldə etmək üçün müxtəlif fəaliyyət növlərindən istifadə edilməlidir və şagirdlərə təkcə sinifdə deyil, sinifdən kənarda da öyrənmənin mühüm olduğu aşılanmalıdır;
- Müəllim dörd prinsipi tətbiq etməlidir: təsdiq etmə, dinləmə, ruhlandırma, dəstəkləmə. Tədris prosesində hər bir şagirdin fərdiliyi qəbul edilməlidir. Şagirdləri diqqətlə dinləmək, fikirlərinə tənqidi yanaşmamaq lazımdır. Onların bilik səviyyəsinə uyğun tapşırıqlardan, fəaliyyət növlərindən istifadə etmək və çətin vəziyyətlərdə şagird üçün dəstəkləyici mühüt yaratmaq vacibdir (2, s.47).

Məktəbdə xarici dil öyrənən şagirdlərin dil bacarıqları zəif olsa da, onlar müəyyən dərəcədəyaradıcı potensiala malik olurlar. Bu baxımdan, yaradıcılığın inkişafını nəzərdə tutan sinif mühiti yaratmaqla, şagirdlərin yaradıcı düşünmə, müşahidəçilik, sual vermə, müqayisə etmə, qarşılaşdırma, təsəvvür və fərziyyə etmə bacarıqları formalaşdırıla bilər. Xarici dilin tədris olunduğu sinifdə yaradıcılığın inkişafı şagirdlərin motivasiyasını artırır, dil öyrənməni maraqlı və yaddaqalan edir, şagirdlərə nailiyyət hissi verir, onların çevik yolla düşünmə qabiliyyətini, səbir, israrlılıq, hazırcavablılıq kimi keyfiyyətlərini inkişaf etdirir (6, s.268).

Dil tədrisində istifadə edilən tapşırıqları iki qrupa bölmək olar: 1) səlisliyə diqqət yetirən tapşırıqlar; 2) dəqiqliyə diqqət yetirən tapşırıqlar. Bu tapşırıqlar arasındakı fərqləri aşağıdakı kimi ümumiləşdirmək mümkündür:

Səlisliyə diqqət yetirən tapşırıqlar

- Dilin təbii istifadəsini özündə əks etdirir;
- Kommunikasiyaya nail olmağa diqqət yetirir;
- Dilin mənalı şəkildə istifadəsini tələb edir;
- Əvvəlcədən müəyyənləşdirilməsi mümkün olmayan dildən istifadəni tələb edir;
- Dilin kontekstdə istifadəsini nəzərdə tutur.
- Dəqiqliyə diqqət yetirən tapşırıqlar
- Sinifdə dildən istifadəni özündə əks etdirir;
- Dilin düzgün nümunələrinin formalaşmasına diqqət yetirir;
- Dilin kontekstdə istifadəsini nəzərdə tutmur;
- Dilin kiçik nümunələri üzərində işlənilir;
- Mənalı kommunikasiya tələb etmir;
- Dil seçiminə nəzarət olunur (6, s. 269).

Dil ünsiyyət vasitəsi olduğundan onu öyrənməkdə başlıca məqsəd bu dildə ünsiyyət qurmaq bacarığına yiyələnməkdir ki, bunun da səmərəli yolu bütün şagirdlərin dərs zamanı xarici dildə mümkün qədər çox danışmasına şərait yaratmaqdır. Buzqıranlar, əqli hücum, qrup işi, ziqzaq, problem həlli, fikir mübadiləsi, rollu oyunlar, layihələr, müsahibələr interaktiv sinifdə öyrənənləri hədəf dildən istifadə etməyə ruhlandıran fəaliyyət növləridir. Bunların əksəriyyəti kommunikativdir. Kommunikativ fəaliyyət məqsədlidir. Müəllim şagirdləri tapşırıqları icra etmək və ünsiyyət qurmağa həvəsləndirmək üçün kommunikativ məqsəd yaratmağı bacarmalıdır. Üstünlük nitqin rəvanlığına, onun situasiyaya uyğunluğuna verildiyinə görə, kommunikativ fəaliyyət forma deyil, məzmun üzərində qurulur və qrammatik dəqiqliyə diqqət yetirilmir. Şagirdlər fikirlərini ifadə etməkdə sərbəstdirlər.

Uşağın yaradıcı qabiliyyətlərinin inkişaf etməsində oyunun böyük rolu vardır. Uşaq oyun prosesində cisimlərin əlamətlərini, insanların funksiyalarını, insanlar arasındakı münasibətləri dərk etməyə başlayır. Oyun prosesində uşaq ancaq gördüklərini mütləq mənada təkrar etmir. O, öz oyununda əks etdirdiyi, təqlid etdiyi işə, hərəkətə yeni nəyi isə əlavə edir. Uşağın oyun fəaliyyətində yaradıcılıq ünsürləri nəzərə çarpır. Onun təxəyyülünün yaradıcı funksiyası özünü büruzə verir. Uşaq şəraiti dəyişir, predmetləri yeni qaydada yerləşdirməyə can atır, əşyalara özü bildiyi funksiyaları həvalə edir (2, s.84).

## ƏDƏBİYYAT

1. Əlizadə Ə. Şagirdlərin yaradıcı fəaliyyətinin psixologiyası. Bakı: Maarif, 1968,139 s.
2. Əlizadə Ə.Ə., Əzimov Q.E., Quliyev E.M. Məktəblinin psixologiyası. Bakı: Renessans-A, 2015, 114 s.
3. Əyyubova N. Xarici dil təliminin təşkili prinsipləri. // Azərbaycan müəllimi, 2012, s.7.
4. Seyidov S. Yaradıcılığın fenomenologiyası. Bakı: Qanun nəşriyyatı, 2013, 288 s.
5. Seyidov S., Həmzəyev M. Psixologiya. Bakı: Nurlan, 2007, 700 s.
6. Şirəliyeva G. Xarici dillərin tədrisində çalışmalar sisteminin tərtibi və istifadə metodikası. // Dil və ədəbiyyat jurnalı, 2013, № 2(86), s.268-269.
7. Mayesky M. Creative activities for young children. USA: Delmar, Cengage Learning, 2009, 666 p.

## ПРЕПОДАВАНИЕ ИНОСТРАННОГО ЯЗЫКА В СИСТЕМЕ ОБРАЗОВАНИЯ КАК ПРЕДМЕТОМ УЧЕБНОГО ПРОЦЕССА

***Юсубова Айтач***

## РЕЗЮМЕ

Статья посвящена развитию мыслительных действий и познавательной активности учащихся. Дается описание заданий, развивающих мышление и интеллектуальную активность учащихся. Охарактеризованы требования, необходимые для разработки творческих заданий. Рассмотрены проявления особенностей мыслительных действий учащихся, проявляющиеся при решении нестандартных задач. Отмечается, что педагог должен уметь решать задачи не только предметного обучения, но и владеть психотехнологиями интеллектуального и личностного развития учащихся.

## TEACHING A FOREIGN LANGUAGE IN THE EDUCATION SYSTEM AS A SUBJECT OF STUDY PROCESS

***Yusubova Aytac***

## SUMMARY

The article is devoted to the development of students’ mental operations and cognitive activity. The description of tasks, developing thinking and intellectual activity of students are presented. We characterize the requirements necessary for the development of creative tasks. Mental peculiarities of students actions that appear at the solution of non-standard tasks are considered. It is noted that the teacher should be able to decide the tasks not only of the subject learning, but also possess psychological technologies of intelligent and personal development of pupils.

# MƏKTƏBDAXİLİ NƏZARƏTİN İDARƏETMƏDƏ ROLU

***Yusifova Lalə Ruhlan qızı***
***BDU-nun II kurs magistrant***
**yusifova835@gmail.com**

***Açar sözlər:*** məktəbdaxili nəzarət, monitorinq, qiymətləndirmə, proqnoz.
***Ключевые слова:*** школьный мониторинг, мониторинг, оценка, прогнозирование.
***Key words:*** school-based supervision, monitoring, assessment, forecast.

Məktəbdaxili nəzarət məktəbin idarəedilməsində əsas yer tutur. O, təlim-tərbiyə prosesində əlaqə və əks əlaqə yaratmaq vasitəsi olaraq böyük rol oynayır, məktəbin bilik səviyyəsini və ona uyğun idarəedilməsini təyin edir. Onun məqsədi məktəbə rəhbərliyi müasir tələblərə uyğun səmərəli şəkildə həyata keçirməkdən ibarətdir. Məzmunu isə çoxcəhətli və mürəkkəbdir. Nəzarətin obyekti kimi: tədris planı, proqramları və s. yerinə yetirilməsi vəziyyəti; şagirdlərin bilik səviyyəsi; müəllimlərin ixtisas artırması.

Məktəbdaxili nəzarətin əsas vəzifələri bunlardır: məktəbdə bütün sahələr üzrə informasiya əldə etmək, nöqsanları aşkara çıxararaq onların aradan qaldırılması yollarını təyin etmək, təhsil işçilərinin iş metodlarının keyfiyyətini və səmərəliliyini üzə çıxarmaq.

Nəzarət müəyyən funksiyaları da yerinə yetirir:

Diaqnostik funksiya-hər bir sahədə işin vəziyyətini, çətinlik və nöqsanları, onların səbəblərini aşkarlayaraq qiymətləndirmədə istifadə olunur.

Öyrədici funksiya-mövcud biliklərin yeni biliklər əsasında genişlənməsində özünü göstərir.

Tərbiyə funksiyası-nəzarət prosesinin insanda işə münasibətin müsbət yöndə dəyişməsində ifadə olunur.

Stimullaşdırıcı funksiya-insanı müəyyən neqativ baxış və hərəkətlərdən çəkindirməkdə həyata keçirilir.

Məktəbdaxili nəzarətin həmçinin müxtəlif növləri vardır:

1. Aparılma vaxtına görə: cari, illik və dövri

Cari nəzarət lazımi informasiyalar almaq yolu ilə təlim-tərbiyə prosesini gündəlik idarə etmək vəzifəsinə xidmət edir. Dövri nəzarət dərs ilinin müəyyən dövrründə görülən işlərin vəziyyəti və nəticələrini aşkara çıxarmağa ona uyğun müvafiq qərarlar almağı həyata keçirir. Yekun nəzarət isə fənnin sonunda aparılan nəzarətdir.

2. Aparılma qaydasına görə: xəbərdarlıqlı və qəfil nəzarət
3. Xarakter və məzmununa görə: tematik və frontal nəzarət [1 səh. 128-129]

Tematik nəzarət müəyyən bir mövzu üzrə aparılan nəzarətə deyilir. Frontal nəzarət isə müəyyən bir sahənin hərtərəfli öyrənilməsində özünü göstərir.

Məktəbdaxili nəzarətdən danışarkən metodlarını da qeyd etmək lazımdır. Nəzarətin səmərəsi istifadə edilən metodlardan çox asılıdır. Nəzarət metodları-əks əlaqə yolu ilə məktəbin müxtəlif sahələri üzrə lazımi informasiyalar almağa xidmət edənpriyomlar nəzərdə tutulur. Onları bir neçə qrupa bölmək olar:

1) Şifahi nəzarət metodları: sual-cavab, sorğu,hesabat, məlumatın dinlənməsi, izahat və b.

2) Yazılı nəzarət metodları: yazılı sorğu, yazılı hesabat və məlumatlar, anket, yazılı izahat, test yoxlamaları, yoxlama yazı işləri, yazılı imtahanlar və s.

3) Əməli və qrafik nəzarət metodları: praktik işlərin icrası, laborator və təcrübə işlərinin yerinə yetirilməsi, qrafik işlər-çertyoj, eskiz, cədvəl, təcrübə qoyuluşu, sxem və s.

4) Proqramlaşdırılmış nəzarət metodları: maşınlı və maşınsız

5) Gündəlik müşahidə metodu və s. [1 səh. 130-131]

Nəzarət fərdi, qrup və kompleks formada həyata keçirilir. Fərdi nəzarət ayrıca müəllimin və digər məktəb işçilərinin fəaliyyətinə nəzarət deməkdir. Nəzarətin qrup forması məktəbin bir qrup işçisinin fəaliyyətinə nəzarətdə özünü göstərir. Kompleks nəzarət forması hər hansı bir mövzunu hərtərəfli və geniş miqyasdaqiymətləndirmək məqsədi güdür.

Nəzarətin səmərəliliyi onun təşkilindən çox asılıdır. Məktəb rəhbərliyi məktəb həyatının bütün sahələrinə nəzarət edir. Məktəb rəhbərinin bu cür nəzarətinin əsas istiqaməti dərslərin və tədbirlərin müşahidəsi və təhlil edilməsindən ibarətdir.

Məktəb rəhbərliyi əvvəlcədən müəyyən edilmiş məqsədlə dərsləri və digər tədbirləri dinləyirlər. Nəzarət həmçinin yaxşı planlaşdırılmalıdır. Nəzarətin məqsədinin və planının doğru müəyyənləşdirilməsi işi asanlaşdırır, düzgün təşkilinə kömək edir. Planın reallaşması zamanı maneələri nəzərə almaq lazım gəlir.

Dərslərin müşahidəsinə kompleks yanaşmaq dərs və müəllimin metodikası haqqında hərtərəfli məlumat almağa imkan verir. Dərsin müşahidəsi ilə bağlı qeydlər aparmaq nəzarətin effektiv olmasını təmin edir. Müşahidə davamlı və müntəzəm, aparılan qeydlər lakonik və yığcam olmalıdır.

Dərsin təhlilinin əsas məqsədləri: nəticənin səmərəliliyi, müəllimin iş metodikası və yaradıcılığı, dərsin nöqsanlı cəhətləri və onların səbəbləri və s.. Dərsi müntəzəm dinləməklə məktəb rəhbəri müəllim və şagirdləri daha yaxşı tanımaq imkanı əldə edir. Məktəb rəhbərliyimüşahidə etdikləri dərslərin nəticələri aşkarlıq mövzusu olmalı, ümumiləşmiş şəkildə məktəb kollektivinə çatdırılmalıdır. Təlim və tərbiyənin keyfiyyətinin yüksəldilməsi üçün kollektiv qərarlar verilməli, obyektiv qiymətləndirmə aparılmalıdır.

Nəzarətin səmərəli olması üçün bir çox şərtlər nəzərə alınmalıdır:

- Obyektivlik
- Sistemlilik və müntəzəmlik
- Hərtərəfli və rəngarəng olması
- Diferensiv və fərdi xarakteri
- Tələblərdə vahidlik
- Nəzarətçinin mütəxəssis kimi səlahiyyəti [1 səh. 135-136].

Məktəbdaxili nəzarət üçün vacib olan proseslərdən biri də qiymətləndirmə və monitorinqdir. "Şagird nailiyyətlərinin qiymətləndirilməsi" pedaqoji anlayış kimi təhsil leksikonuna yaxın illərdə daxil olmuşdur. Uzun müddət pedaqoji aləmdə "şagirdlərin bilik, bacarıq və vərdişlərin qiymətləndirilməsi" anlayışı işlədilmişdir. Bununla belə, qiymətləndirmə dedikdə, bir qayda olaraq, şagirdlərin gündəlik qiymətləndirilməsi başa düşülmüşdür. Hazırkı qiymətləndirmə sisteminin təhlili isə göstərir ki, indiyədək qiymətləndirmə standartlarının olmaması prosesdə qiymətləndirmə prinsiplərinin pozulmasına gətirib çıxarırdı [2].

Məktəbdaxili qiymətləndirmə şagird nailiyyətlərinin qiymətləndirilməsi (monitorinqi), kurikulum üzrə qiymətləndirmə və ümumi təhsilin pillələri üzrə yekun qiymətləndirmədən ibarətdir. Müasir dövrdə qiymətləndirmə təkcə məktəbdaxili qiymətləndirmə ilə bitmir. Belə ki, kurikulum üzrə milli və beynəlxalq qiymətləndirmə istiqamətləri də mövcuddur.

Məktəbdaxili qiymətləndirmə diaqnostik, formativ və summativ qiymətləndirmə istiqamətlərinə ayrılır.

Diaqnostik qiymətləndirmə şagirdin bilik və bacarıqlarının ilkin səviyyəsini müəyyənləşdirmək məqsədilə əsasən dərs ilinin, bəhs və bölmələrin əvvəlində, şagird başqa məktəbdən gəldikdə, sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, ona fərdi yanaşmanı təmin etmək və təlim strategiyasını müəyyənləşdirmək üçün müəllim tərəfindən aparılır. Bu qiymətləndirmənin nəticələri jurnalda yox müəllimin qeyd dəftərində qeyd olunur.

Formativ qiymətləndirmə dərs ili ərzində müntəzəm olaraq şagirdin qəbul edilmiş standartların reallaşmasına istiqamətlənən irəliləmələrini və geriləmələrini izləmək, bu zaman qarşıya çıxan problemləri aradan qaldırmaq və onu istiqamətləndirmək məqsədilə müəllim tərəfindən aparılır. Müəllim bu qiymətləndirmə vasitəsilə tədris prosesini tənzimləyir, şagirdlərin ehtiyaclarını öyrənir və onlara lazımi kömək göstərir. Formativ qiymətləndirmənin nəticələri də jurnalda qeyd olunmur. Formativ qiymətləndirmə fənni tədris edən müəllim tərəfindən məzmun standartlarından çıxan təlim məqsədləri əsasında hazırlanmış meyarlar üzrə aparılır, onun nəticələri yalnız şagirdin məktəbli kitabçasında, müəllimin şəxsi qeydlərində öz əksini tapır və şagird qovluğunda (portfolio) toplanır. Portfolio bir il ərzində məktəbdə saxlanılır və ilin sonunda şagirdə təhvil verilir.

Summativ qiymətləndirmə təlim prosesində müəyyən mərhələlərə (bəhs və ya bölmənin, yarımilin sonunda) yekun vurmaqla, qiymətləndirmə standartlarının səviyyələrinə əsasən hazırlanmış vasitələrlə şagirdin nailiyyət səviyyəsini ölçmək məqsədilə aparılır.Summativ qiymətləndirmənin nəticələri rəsmidir, 100 ballıq şkala ilə aparılır, yalnız yekunda 2, 3, 4 və 5 qiymətlərinə çevrilərək sinif jurnallarına, "Məktəbli kitabçası"na yazılır.

Summativ qiymətləndirmə kiçik və böyük summativ qiymətləndirmələrdən ibarətdir. Kiçik summativ qiymətləndirmə (KSQ) bəhs və ya bölmələrin sonunda altı həftədən gec olmayaraq müəllim tərəfindən, böyük summativ qiymətləndirmə (BSQ) təhsil səviyyələrinin sonunda, yəni IV, IX və XI siniflərdə bütün fənlərdən, V, VI, VII, VIII və X siniflərdə isə yalnız buraxılış imtahanları keçiriləcək fənlər üzrə məktəb rəhbərliyinin iştirakı ilə fənni tədris edən müəllim tərəfindən keçirilir. Təhsil səviyyələrinin sonlarında BSQ-lərin keçirilməsinin əsas məqsədi bütün fənlərdən təhsilalanların nailiyyətlərinin ölçülməsi, aralıq siniflərdəki BSQ-lərin əsas məqsədi isə buraxılış imtahanlarına mükəmməl hazırlığın təmin edilməsidir. Bundan başqa, ibtidai sinif şagirdlərinin yaş xüsusiyyətləri nəzərə alınaraq, I siniflərdə summativ qiymətləndirmə aparılmır, II, III siniflərdə yalnız Kiçik Summativ Qiymətləndirmə (KSQ) aparılır.

Kiçik summativ qiymətləndirmə vasitələri fənni tədris edən müəllim, böyük summativ qiymətləndirmə vasitələri isə məktəb rəhbərliyinin təşkil etdiyi xüsusi komissiya tərəfindən hazırlanır.

Böyük summativ qiymətləndirmə vasitələri fənnin məzmunundakı zəruri bilikləri əhatə etməklə daha çox tətbiqi bacarıqları yoxlamağa xidmət edir. Qiymətləndirmə vasitələrindən həmin dərs ilindəki növbəti summativ qiymətləndirmələr zamanı istifadə olunmasına yol verilmir. Bu vasitələr növbəti dərs illərində istifadə olunmaq məqsədilə məktəbin test bankına daxil edilir.

Kiçik summativ qiymətləndirmələrin keçirildiyi gün dərsdə iştirak etməyən şagirdin sinif jurnalında adının qarşısındakı xana diaqonalla 2 yerə ayrılır və onun surətində "q"(qaib) yazılır, məxrəci isə boş saxlanılır. Müəllim həmin şagirdlə növbəti 2 həftə ərzində summativ qiymətləndirmə aparır və onun nəticəsini məxrəcdə qeyd edir. Summativ qiymətləndirmədə iştirak etməyən şagirdlər üçün yeni qiymətləndirmə vasitələri hazırlanır.

Böyük summativ qiymətləndirmənin nəticələrinə görə ən çoxu üç fəndən qeyri-kafi qiymət alan II-VIII və X sinif şagirdləri "Ümumtəhsil məktəblərində, peşə liseylərində buraxılış imtahanları və şagirdlərin sinifdən-sinfə keçirilməsi haqqında Qaydalar"a uyğun olaraq yay tədris tapşırıqları alırlar. Yay tədris tapşırıqlarını ən azı bir fəndən yerinə yetirməyən şagirdlər təkrar sinifdə saxlanılırlar.

Şagirdin yarımillik qiyməti kiçik summativ (yarımillik ərzində keçirilən) qiymətləndirmənin nəticələri 40%, böyük summativ (yarımillik sonunda keçirilən) qiymətləndirmənin nəticələri 60% hesab olunmaqla aşağıdakı düstur əsasında çıxarılır.

BSQ – yarımilliyin sonunda keçirilən böyük summativ qiymətləndirmənin nəticəsini bildirir. Şagirdin yarımillik və illik qiymətləri çıxarılarkən yuvarlaqlaşdırma qaydası tətbiq edilir.

Summativ qiymətləndirmədə qiymətlər düzgün cavabların əsasında müəyyənləşdirilir. Tapşırıqlar səviyyəsinə görə asan, orta və çətin olur.

Valideynlərə qiymətləndirmənin nəticələri haqqında məlumatlar məktəbli kitabçası vasitəsilə çatdırılır və böyük summativ qiymətləndirmələrin nəticələri və şagird haqqında məktəb psixoloqunun qeydləri şagirdin şəxsi işində öz əksini tapır.

Monitorinq qiymətləndirmə, nəzarət və proqnoz məqsədi ilə obyekt, hadisə və proseslər üzərində sistemli şəkildə təşkil olunmuş müşahidədir. Müasir dövrdə monitorinq müxtəlif fəaliyyət sahələrində, o cümlədən təhsildə uğurla tətbiq olunan texnologiya kimi qəbul olunur.

Göstərilən şərtlər, anlayışlar və s. digərləri vəhdətdə, kompleks və obyektiv şəkildə həyata keçirilərsə məktəbdə keyfiyyətli təhsil mühiti yaranar.

## ƏDƏBİYYAT

1. İsmixanov M.A , Bəxtiyarova R.Ə. Məktəbin idarə olunması B., 2010
2. Mərdanov M. C. Qiymətləndirmə
1. İsmixanov M.A, Bəxtiyarova R.Ə. Ali məktəb pedaqogikası B., 2010
2. Rzayev O.H., Məmmədov S.M., İsmayılov Ş.N. Təhsilin idarəolunmasının əsasları B., 2010
3. İsmixanov M.A, Bəxtiyarova R.Ə. Məktəbin idarə olunması B., 2012
4. S. Rəsulov, R. Əzizov Orta ümumtəhsil məktəblərin idarə edilməsinin bəzi problemləri
5. R. Cabbarov Təhsil müəssisələrində təlim-tərbiyə işlərinin idarə edilməsi və planlaşdırılması məsələləri
6. F.N. İbrahimov, R.L. Hüseynzadə Pedaqogika I cild B., 2012, Pedaqogika II cild B., 2012
7. R. Məmmədzadə, A. Abdullayev, F. Kərimova, R. Cabbarov, S.Rəsulov, Ə. Quliyev Təhsilin idarə edilməsinin bəzi problemləri B., 2008
8. F. Rüstəmov, T. Dadaşova Ali məktəb pedaqogikası B., 2007
9. A. Nəzərov Müasir təlim texnologiyaları B., 2012
10. H. Əhmədov Azərbaycan təhsilinin inkişaf strategiyası B., 2010

## MƏKTƏBDAXILI NƏZARƏTIN IDARƏETMƏDƏ ROLU

### XÜLASƏ

Məktəbin idarə edilməsi birbaşa olaraq nəzarətdən asılıdır. Məktəb həyatında baş verən proseslərdə nəzarət nə qədər düzgün və obyektiv həyata keçirilərsə təhsil yüksək keyfiyyətli və səmərəli olar. Bunun üçün nəzarət sisteminin bütün tərkib hissələri müntəzəm olaraq aparılmalı, həyata keçirilməlidir.

## THE ROLE OF SCHOOL-BASED SUPERVISION IN MANAGEMENT

### SUMMARY

The manage of school depend on their control. İf school control realises truely and clear, education will be high quality at process which happen at scool life. For this the constituents of control system realise regularly.

## РОЛЬ ШКОЛЬНОГО НАДЗОРА В УПРАВЛЕНИИ

### РЕЗЮМЕ

Управление школой зависит от из-под контроля. Управление школой если все сделано правильно образование высокого качества в процессах школьной жизни. Компоненты системы управления должны проводиться регулярно.

# AİLƏDƏ UŞAQLARIN TƏRBİYƏSİNDƏ VALİDEYN QAYĞISININ HƏDDİNİN GÖZLƏNİLMƏSİ

***Alıyeva Jalə***
***BDU-nun II kurs magistrantı***
***Elmi rəhbər: M.Quliyeva***
***jale.aliyeva1995@mail.ru***

***Açar sözlər:*** validеyn, uşaq, qayğı, tərbiyə, davranış
***Ключевые слова:*** родитель, ребенок, забота, воспитание, поведение
***Keywords:*** parent, child, care, upbringing, behavior.

Validеyn qayğısı tərbiyənin aparıcı forması kimi çıxış еdir. Baxım və ya himayə səviyyəsi, validеynlərin bir uşağı böyütməyə nə qədər səy və vaxt sərf еtdiyini müəyyənləşdirir. İki еkstrеmal qorunma dərəcəsini ayırmaq olar: həddindən artıq (hipеrprotеksiya) və qеyri-kafi (hipoprotеktsiya) [9, 34].

Hipеrprotеksiya və ya hipеrhimayə ilə validеynlər uşağa çox vaxt və səy göstərirlər. Əslində təhsil onlar üçün bütün həyatın mənasına çеvrilir. Hipеrhimayə, validеynlərin uşağı artan diqqətlə əhatə еtməsi, hər şеydə onu qoruması, hər addımda onu müşayiət еtməsi, xəyali təhlükələrdən qoruması, narahat olması və hətta buna hеç bir səbəb olmadığı halda, uşağı yanında saxlaması, onu öz əhvalına və hisslərinə "bağlamaq" istəyi ilə ifadə еdilir **[5, 73]**. Bir qayda olaraq, qayğı validеynlərin özlərinə bağlılıq və sеvgi üçün yеrinə yеtirilməmiş və tеz-tеz nеyronik olaraq kəskin еhtiyacı ödəmələri üçün lazım olduğu qədər uşaqlara lazım dеyil. Ananın uşağı özünə "bağlaması" istəyi də açıq bir narahatlıq və ya təhlükə hissi üzərində qurulur. Hipеrhimayə həm validеynlərin tənhalığından qaynaqlanan narahatlıq, həm də bədbəxtliyin bir uşağın baş vеrə biləcəyi instinktiv qorxusu ilə motivasiya еdilə bilər. Bunu belə ifadələrlə ifadə etmək olar: "Gеcikmə, əks təqdirdə narahat olacağam", "Mənsiz hеç yеrə gеtmə".

Hipoprotеksiyanın köməyi ilə uşaq validеynlərin diqqət mərkəzindədir, əlləri ona çatmır, validеynlər zaman zaman ciddi bir şеy baş vеrdikdə tərbiyənin öz üzərlərinə götürürlər.

Uşağın böyüdülməsində vacib bir cəhət onun еhtiyaclarının qarşılanacağı dərəcədir. Bu xaraktеr qoruma səviyyəsindən fərqlənir, çünki validеyn uzun müddət tərbiyə vеrə bilər, ancaq uşağın еhtiyaclarını lazımi səviyyədə ödəyə bilmir. Uşağın еhtiyacı səviyyəsində iki həddindən artıq sеçim də mümkündür:

Dolğunluq validеynlər uşağın hər hansı bir еhtiyacını maksimum və qərarsız bir şəkildə təmin еtməyə çalışdıqları zaman baş vеrir. Onu əyləndirirlər, onun istədiyi hər şеy validеynlər üçün bir qanundur. Bu cür tərbiyəyə еhtiyacı izah еdən validеynlər, rasionallaşdırma mеxanizminin mahiyyətcə təzahürü olan dəlilləri təklif еdirlər: uşağın zəifliyi, еksklüzivliyi, özlərinin məhrum olduqlarını ona vеrmək istəyi.

Uşağın еhtiyaclarını nəzərə almamaq - bu tərbiyə tərzi validеynin uşağın еhtiyaclarını ödəmək istəməsi ilə xaraktеrizə olunur. Çox vaxt uşağın validеynlərlə еmosional təmasa еhtiyacı olur.

Körpəlikdə və еrkən uşaqlıqda uşağın bütün еhtiyacları böyüklər tərəfindən qarşılanır və ondan dеmək olar ki, hеç bir şеy tələb olunmur. Bununla birlikdə, motor qabiliyyəti və davranışını idarə еtmək qabiliyyəti inkişaf еtdikcə, validеynlər fəaliyyətini məhdudlaşdırmağa və istiqamətləndirməyə başlayır. Sözsüz ki, bir çox səbəblərə görə uşağa məhdudiyyətsiz azadlıq vеrilmir. Təhlükəsizliyini təmin еtmək üçün müəyyən məhdudiyyətlər və təlimatlar tələb olunur. Məsələn, bir uşaq yolda top oynaya bilməz və ya od və ya kəskin əşyalarla oynaya bilməz. Uşağın еhtiyacları daha mürəkkəbləşdikcə, istər-istəməz başqalarının istəkləri ilə ziddiyyətə

girirlər. Uşaq artıq ehtiyaclarını sərbəst ifadə edə bilməz, ancaq onları ətrafdakıların tələbləri ilə əlaqələndirməyi öyrənməlidir.

Valideynlər tərəfindən istifadə edilən nəzarət alətləri və bacarıqlarının interyerləşdirmə, özünü idarəetmə və sosial səriştəyə cavabdeh bir uşağın xarakter əlamətlərinin formalaşmasında vacib bir mexanizmdir [6, 134]. Valideyn standartlarının daxili olması bir tərəfdən qorxu hisslərindən, digər tərəfdən günahkarlıq hisslərindən asılıdır. İnteryerləşdirmə aşağı olduqda, nəzarət xarici cəza qorxusu ilə həyata keçirilir; interyerləşdirmə inkişaf etdikdə davranış günahkarlıqla idarə olunur.

Effektiv nəzarət emosional qəbulun yüksək tələblər həcmi, onların aydınlığı, ardıcıllığı və ardıcıllığı ilə birləşməsini əhatə edir [7, 59]. Valideyn nəzarəti bir bipolyar sistemdə təmsil oluna bilər: muxtariyyət - nəzarət. İntizam oxu çərçivəsində valideynlərin hər hansı bir spesifik davranışı iki ifrat nöqtə arasında baş verir: tam muxtariyyətdən valideynlərin mütləq təslimiyyətinə qədər.

Radke valideyn səlahiyyətləri və uşağın intizamının təzahürünün aşağıdakı prinsiplərini və formalarını müəyyənləşdirir [2, 63].

1. İki qütblə təmsil olunan hakimiyyət fəlsəfəsi: avtokratik və demokratik üslub. Avtokratik bir tərzdə, valideyn bütün tərbiyə siyasətini müəyyənləşdirir, uşaqdan çox şey tələb edir, ancaq tələblərini ona izah etmir. Demokratik üslubda tərbiyə siyasəti uşaqları olan valideynlər tərəfindən müzakirə olunur, yəni valideyn tələblərinin mahiyyəti uşağa izah edilir.

2. Valideyn məhdudiyyətləri. Uşaq onları poza bilməyəndə sərt və kobud ola bilər. Uşağın heç bir xüsusi nəticəsi olmadan poza biləcəyi zaman məhdudiyyətlər yüngül və mobil ola bilər.

3. Cəzaların şiddəti.

4. Valideynlərin uşaqla təması. Yaxşı əlaqə ilə valideynlər uşaqların problemlərinə diqqət yetirir, uşağın maraqlarını bölüşürlər. O, valideynlərə etibar edir və onlarla münasibətləri müsbət emosiyalarla doludur. Zəif təmasda valideynlər uşağın problemlərinə əhəmiyyət vermir və maraqlarını bölüşmürlər. Uşaq valideynlərinə etibar etmir, müsbət emosional münasibətlər də yoxdur.

Valideyn nəzarəti və uşağın sərbəst və müstəqil olmaq istəyi üçün qeyd-şərtsiz dəstəyin birləşməsini Baumrind nüfuzlu valideyn nəzarəti modelini adlandırır. Valideynlər uşaqlarına nəzakətlə, isti və anlayışla, mehribanlıqla,yanaşırlar, onlarla çox ünsiyyət qururlar, ancaq uşaqları idarə edirlər, şüurlu davranış tələb edirlər [1, 4]. Şiddətə və cəzaya daha çox güvənən valideynlərin davranış modeli hakimiyyət adını almışdır. Valideynlər uşaqlarına sərt nəzarət edir, çox vaxt güclərini tətbiq edirlər və uşaqları öz fikirlərini bildirməyə təşviq etmirlər. Uşaqları təşviq etməyən, uşağın müstəqilliyinə və özünə inamının artırılmasına diqqət yetirməyən valideynlərin davranış modeli himayəkar adını almışdır. Valideynlərin ahəngdar davranış modeli burada nadir hallarda istifadə olunan nəzarət istisna olmaqla, hər cəhətdən nüfuzlu valideyn modelinə bənzəyir. Qeyri-konformist davranış nümunəsi valideynlik ənənəvi anlayışını tanımayan valideynlərə xasdır. Onların pedaqoji taktikasının əsası uşaqların sərbəst inkişafı ideyasıdır.

Uşaqların davranışı bütün təhsil təsirlərindən asılıdır. Valideynlərin hər iki qrupu - nüfuzlu və imperativ - uşaqları idarə etməyə çalışırlar, lakin bunu müxtəlif yollarla edirlər. İmperativ valideynlər yalnız güc tətbiq edilməsinə güvənirlər, uşağın əsaslandırmadan onlara tabe olmalarını tələb edirlər. Nüfuzlu, əksinə, uşaqların fikirlərini nəzərə alır, problemlərinə cavab verir, uşaqlara müstəqillik və təşəbbüs göstərməyə imkan verir.

A.I. Zaxarov valideyn nəzarətinin üç növünü müəyyənləşdirir: icazə verilən, orta və həddindən artıq [5, 71]. Həddindən artıq nəzarət avtoritar bir forma ala bilər. Bu nəzarət növlərini daha ətraflı nəzərdən keçirək.

İcazəli nəzarətdə kiçik dərəcədə təsəvvürdən tutmuş valideynlərin övladlarının duyğularının öhdəsindən gələ bilməməsinə qədər qadağa və nizama ehtiyac yoxdur. Burada uşağın tam

fəaliyyətinə və müstəqilliyinə icazə verilir, cəza və tapşırıq yoxdur. Valideynlər uşaqların ağlı, istəkləri və tələbləri (şıltaqlıqları) ilə hər cür şəkildə razılaşır və çox vaxt qeyri-adekvat olurlar.

Nəzarətin olmaması iki formaya malikdir: hipoproteksiya və laqeyd hiperproteksiya. Hipoprotektsiya, bəzən tam laqeydliyə səbəb olan himayə və nəzarətin olmamasıdır. Bu nəzarət forması tez-tez uşağın rədd edilməsi ilə birləşdirilir və uşaq üçün valideyn münasibətlərinin son dərəcə əlverişsiz bir növüdür. Nəzarət və tələblərin olmaması halında olan ikinci münasibət forması, istəksiz bir hiperprektsiya və ya uşağı "ailə bütü" olaraq böyütməkdir, bu, uşağın bütün istəklərini yerinə yetirmək, həddindən artıq himayə və pərəstiş ilə ifadə olunur. Belə bir valideyn münasibəti ilə uşaq aşağıdakı daxili mövqeyi formalaşdırır: "Mənə ehtiyac var və sevilirəm, amma siz həyatda mənim üçün varsınız." Uşaq aşağıdakı anlayışlara əsaslanaraq davranışını idarə edir [4, 87]:

1. Mən ailənin mərkəziyəm, valideynlər mənim üçün mövcuddur.
2. İstəklərim və arzularım ən vacibdir. Bunları nəyin bahasına olursa, olsun həyata keçirməliyəm.
3. Ətrafımdakı insanlar, bunu deməsələr də məni heyran edir.
4. Mənim üstünlüyümü görməyən insanlar sadəcə axmaqdırlar. Mən onlarla məşğul olmaq istəmirəm.
5. Başqa insanlar məndən fərqli düşünürlərsə və hərəkət edirlərsə, səhv edirlər.

Bir uşağın laqeyd hiperproteksiyası olaraq tərbiyə edilməsi nəticəsində, bir tərəfdən həddindən artıq yüksək bir iddia meydana gəlir, digər tərəfdən, birinin öz davranışının qeyri-kafi təsirli bir könüllü tənzimlənməsi. Çox vaxt bu cür uşaqlar digər insanlarla münasibətlərdə həqiqi problemlərlə üzləşirlər, çünki onlardan valideynlərindən gördükləri eyni hörməti gözləyirlər.

Mülayim nəzarət növü həm valideynlərin, həm də prinsipə və əzmkarlığa həddən artıq uyğunlaşmayan möhkəmliyini və uşaqların istək və tələblərinə uyğun olaraq müəyyən bir situasiya rahatlığını özündə birləşdirir.

Həddindən artıq nəzarət valideynin uşağın hər addımını izləmək istəyində özünü göstərir. Tez-tez bu, uşaqların emosional və motor fəaliyyətinə, hisslərin ifadə edilməsinə, dərslərin hazırlanmasına və bu vəziyyətdə əhəmiyyətli dərəcədə azaldılmış "pulsuz" əyləncəyə qədər uzanır. Yemək qəbulu və uşaq həyatının ilk illərində özünə qulluq bacarıqlarının formalaşması ilə əlaqədar nəzarət həddini aşır. Bir çox hallarda nəzarət bir şey etmək və ya hətta istəklərinizi ifadə etmək icazəsi olmadan qadağan edildikdə, birbaşa və ya dolayı yolla nəzərdə tutulan qadağaların xarakterindədir. Uşaqlar xasiyyət və ya temperamenti ilə yetkinləri "razı salmırlar"sa, xüsusilə bir çox qadağalar tətbiq edilir. İdarəetmənin bolluğu, artan diqqət və qayğının bolluğu məhdudiyyətlər və qadağalarla birləşdirildiyi hallar dominant hiperproteksiyaya xasdır.

Valideyn tərbiyəsinin mahiyyəti uşaqların davranışlarını və şəxsiyyətlərini valideyn qavrayışlarına və tələblərinə uyğunlaşdırmaqdır.

Uşağın tərbiyəsi üçün üç əsas üsul var:

a) emosional cəza;

b) gücün təsdiqinə əsaslanan texnika;

c) izahat texnikası.

Emosional cəza valideynlərin uşağın hisslərinə təsir etdiyi bir intizam formasıdır. Bu, uşaqla danışmaqdan, rişxənd etməkdən, valideyn sevgisini qəsdən məhrum etməkdən ("ana bunu bəyənmir"), bəyənilməməyin ifadəsi, uşağın təcrid edilməsi, günahın stimullaşdırılmasıdır. Məsələn, bir ana uşağına deyə bilər: "Sən qum götürə bilməzsən, hər zaman xəstəsən, yenə xəstə məzuniyyətini almalı olacağam, sən artıq işgəncə verdin", "Quma getmə, yuyulmaqdan yoruldum". Bu, uşağa təsir göstərməyin ən güclü yoludur, çünki emosional cəza uzun ola bilər və əlavə olaraq bu vəziyyətdə uşağa güclü bir təhlükə, sevgi obyektini itirmək qorxusudur.

Güc ifadəsinə əsaslanan üsula fiziki cəza, zövqlərdən və maddi imkanlardan məhrum olmaq, uşağa münasibətdə şifahi təhdidlər daxildir. Bu vəziyyətdə uşağın davranışına nəzarət mexanizmi cəza qorxusudur. Gücə əsaslanan intizamın uşağın mənəvi inkişafının ləngiməsinə səbəb olduğu göstərilmişdir [3, 85]. Bu cür valideyn tərbiyəsi aşağıdakı amillərlə əlaqələndirilə bilər: valideyn stressinin və ya depressiyanın yüksək səviyyəsi, qıcıqlanma, valideynlərin təhsil səviyyəsinin aşağı olması, boşanma, çox sayda uşaq böyütmək və yoxsulluq kimi şəxsiyyət xüsusiyyətlərinin şiddəti. Bir uşağı cəzalandıran valideynlər qısa müddətli rahatlığa nail olurlar, ancaq uşağın inkişafının ümumi dinamikasına təsir göstərə bilməzlər [8].

İzahat üsulu davranışlarını niyə dəyişdirməli olduqlarını anlayacaqları ümidi ilə uşaqla ünsiyyət qurmağa çalışan valideynlər tərəfindən xarakterizə edilən nisbətən yumşaq bir nizam-intizamdır. Məsələn, bir uşağa davranışın rasionallığını izah etmək üçün davranışını, qüruruna müraciət edərək, "böyüklər olmaq" arzusunu izah etmək olar.

Bir uşağın vicdanının inkişafı anaların tərif və inandırıcılığı, mənfi fiziki cəzanı nə qədər tez-tez tətbiq etməsi ilə əlaqələndirir. Valideyn intizam tələblərinin uyğunsuzluğu (valideynlərdən biri, məsələn, cəzalandırırsa, digəri təşviq edirsə), uşağa manipulyasiya etmək imkanı verir, bu da valideyn intizam tədbirlərini təsirsiz hala gətirir.

Valideynlər uşağın davranışını başa düşməlidirlər. Çox vaxt onlar uşağın niyə bu şəkildə davrandığını başa düşməyə çalışmadan, davranışlarına, gördüklərinə və eşitdiklərinə reaksiya verirlər. Ən asan və sürətli cavab uşağa qışqırmaq və ya cəzalandırmaqdır. Uşağın istənməyən davranışlarına effektiv reaksiya vermək üçün bilməlisiniz: 1) uşaq hansı inkişaf mərhələsindədir, valideynin tələb etdiyi kimi davranışını idarə edə bilirmi; 2) müəyyən bir uşaq üçün hansı ifşa növü ən təsirli olacaq; 3) uşağın bu davranışına səbəb olan həqiqətən baş verənlər. Məsələn, bir uşaq qorxduğu üçün digər uşaqlara qarşı aqressiv ola bilər. Yetkin bir adam bu cür reaksiyaların qarşısını alır və ya dayandırmalıdır, eyni zamanda uşağın qorxusunun öhdəsindən gəlməsinə kömək etməlidir. Uşağa, yetkinin hisslərini başa düşdüyünü göstərmək lazımdır, insanların tez-tez əsəbləşəndə qəzəbləndiyini və öyrəndiyini öyrənməlidir. Bunu bilən uşaq digər insanlara qarşı aqressiv davranmaq əvəzinə hisslərini işlədəcəkdir.

## ƏDƏBİYYAT

1. Baumrind D. Current patterns of parental authority // Developmental Psychology Monographs, 1971
2. Radke M. J. The relation of parental authority to children's behavior and attitudes. New York: Greenwood Press, Publishers, 1969.
3. Waters V. The rational-emotive point of view of discipline. New York: International Universities Press, Inc., 1988
4. Гиппенрейтер Ю.Б. Поведение ребенка в руках родителей. Общаться с ребенком. Как? АСТ, 2014
5. Захаров А. И. Неврозы у детей и подростков. Л., 1988
6. Столин В. В. Самосознание личности. М.: Наука, 1983
7. Столин В.В., Соколова Е.Т., Варга А.Я. Психология развития ребенка и взаимоотношений родителей и детей как теоретическая основа консультативной практики. Семья в психологической консультации: Опыт и проблемы психологического консультирования. М., 1989
8. Ушинський К. Д. Рідне слово. Книжка для тих, хто навчає. К.: Радянська школа, 1983. Т. 2.
9. Эйдемиллер Э. Г., Юстицкис В. Психология и психотерапия семьи. СПб., 1999.

## AİLƏDƏ UŞAQLARIN TƏRBİYƏSİNDƏ VALİDEYN QAYĞISININ HƏDDİNİN GÖZLƏNİLMƏSİ


### XÜLASƏ

Məqalədə ailədə valideynlərin uşaqlara qarşı davranışındaqayğı həddinin aşılmaması müzakirə olunmuşdur. Uşaqlara münasibətdə üstünlük böyüklər tərəfindən hər hansı bir nöqteyi-nəzərin həqiqətinin qeyd-şərtsiz tanınmasına səbəb olur: hökmlər, imperativ, əmr tonu, tətbiq olunan rəylər və hazır qərarlar, sərt intizam və müstəqilliyin məhdudlaşdırılması, məcburiyyətin tətbiqi, fiziki cəza istəyi. Avtoritar tərbiyənin xüsusiyyətləri uşaqlara inamsızlıqda, bacarıqlarında, həmçinin uşaqlarla münasibətlərdə nüfuzda özünü göstərir.

Bu cür valideynlərin etiqadı "İstədiyim hər şeyi etməyə məcbur etməyincə sakitləşməyəcəyəm"dir. Ciddi valideynlər uşaqlara bir çox qadağalar qoyur, onları yaxından nəzarətdə saxlayır və uşaqların riayət etməli olduğu müəyyən davranış standartlarını təyin edirlər. Sərt valideynlər tələblər və qadağalar sistemində ziddiyyətlər göstərə bilər.


## ОЖИДАНИЕ РОДИТЕЛЬСКОЙ ЗАБОТЫ В СЕМЕЙНОМ ВОСПИТАНИИ


### РЕЗЮМЕ

В статье рассматриваются ограничения на то, как родители справляются с детьми в семье. Превалирующее отношение к детям приводит к безоговорочному признанию взрослыми любой точки зрения: суждений, императивов, тона командования, применяемых суждений и подготовленных решений, строгой дисциплины и сдержанности, принуждения и стремления к физическому наказанию. Особенности авторитарного воспитания проявляются в их недоверии к детям, в их способностях и в их отношениях с детьми.

Вера таких родителей: «Я не успокоюсь, пока не заставлю себя делать все, что захочу». Серьезные родители накладывают множество ограничений на своих детей, держат их под пристальным наблюдением и устанавливают конкретные стандарты поведения, которых должны придерживаться дети. Строгие родители могут проявлять противоречия в системе требований и запретов.


## EXPECTATION OF PARENTAL CARE IN FAMILY EDUCATION


### SUMMARY

The article discusses the limitations on how parents deal with children in the family. The prevailing attitude towards children leads to unconditional recognition by adults of any point of view: judgments, imperatives, tone of command, applied judgments and prepared decisions, strict discipline and restraint, coercion and the desire for physical punishment. Features of authoritarian education are manifested in their distrust of children, in their abilities and in their relations with children.

The faith of such parents: "I will not calm down until I force myself to do whatever I want." Serious parents place many restrictions on their children, keep them under close scrutiny, and set specific standards of behavior for children to follow. Strict parents may show contradictions in the system of requirements and prohibitions.

# YENİ TƏLİM TEXNOLOGİYALARININ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏDƏ ROLU

***Səmədli Mətanət Vaqif qızı***
***BDU- I kurs magistrantı***
**samedli.2016@mail.ru**

***Açar sözlər:*** təhsil, təlim, texnologiya, metod, distant təhsil, İKT.
***Ключевые слова:*** образование, обучение, технология, метод, дистанционное обучение, ИКТ.
***Key words:*** education, training, technology, methods, distance learning, ICT.

Azərbaycanın sivil dünyaya inteqrasiyası və ölkədə sosial-iqtisadi inkişafın təmin olunması daha çox elmin və təhsilin inkişafında, yeni elmi biliklərin, texnika və yeni texnologiyaların mənimsənilmə səviyyəsindən və s. amillərdən də asılıdır. Azərbaycanda təhsil siyasətinin formalaşdırılması təhsil sistemində islahatların aparılması, yeni təlim texnologiyaların tətbiqi, sosial-iqtisadi əhəmiyyətinin artırılması vacib məsələ kimi qarşıya qoyulmalıdır. Bu gün dünyada bilikli, bacarıqlı və müasir texnologiyalardan yararlanan mütəxəssislərin ölkənin, cəmiyyətin inkişafında böyük rolu var.

Bütün inkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycan respublikasının təhsil sistemində də inkişafetdirici təlim prinspinin bərqərar olması fəal təlim metodlarının yaranmasına təkan verdi. Fəal təlim metodlarının tarixi qədimdir. “Həm antik, həm də intibah dövründə onun elementlərindən geniş istifadə olunmuşdur” (1.səh 32).

Keçən əsrin 70-80 illərində həm məktəb pedaqogikası, həm də ali məktəb pedaqogikası istiqamətində tədqiqatlar aparan pedaqoq - alimlər təlim metodalarını qruplaşdırarkən, bu təsnifatlarda ənənəvi təlim metodları ilə yanaşı, fəal təlim metodalarına da geniş yer verməyə başladılar. Məsələn, M.Y. Lerner təlim metodları sırasına problemli anlama, qismən axtarıcılıq və ya evristik tədqiqat.

Böyük Çin filosofu və mütəfəkkiri Konfusti demişdir. Eşitdim – unutdum, gördüm – xatırladım, etdim – öyrəndim.

Azərbaycan Rspublikası Təhsil Nazirliyinin kollegiya iclasının materiallarında göstərilir: “ Fasiləsiz təhsil konteksində şəxsiyyətin, kamil insanın hazırlığı üzrə dünya təcrübəsinə inteqrasiya prinspi zəruri faktor kimi qəbul edilməli, həmin istiqamətdə konkret fəaliyyət həyata keşirilməlidir”. Bu şagirdləri müəyyən qədər fəallaşdıran, təlimdə müvəffəqiyyət qazanmağa imkan verən ənənəvi təlim metodlarından bütövlükdə imtina etmək demək deyildir.Ənənəvi metodların müsbət cəhətlərindən istifadə edərək yeni yanaşmanın, yeni təlim texnologiyalarının, innovasiyaların pedaqoji, psixoloji əsaslarını işləmək və nəticəyönümlü, şagirdə istiqamətlənmiş təlim-tərbiyə prosesinin elmi əsaslarının müasir tələblərə uyğun araşdırmaların aparılması təhsil sisteminin qarşısında duran ən aktual problem kimi qiymətləndirilir.

Təlim metodları dedikdə, məqsədə nail olmaq, təhsil vəzifələrini həll etmək yollarının məcmusu kimi başa düşülür. Pedaqoji ədəbiyyatda metod anlayışı müəllimin və ya şagirdlərin fəaliyyətinə aid edilir. Təlim metodu mürəkkəb, çoxparametrli bir anlayış olmaqla təlimin məqsədini, məzmununu, qanunauyğunluqlarını, prinsiplərini səmərəli həyata keçirmək üçün istifadə olunur. Təlimin məqsədinin, məzmunun keyfiyyətlə icrası seçilmiş metodların praktik imkanlarından asılıdır (2.səh 57).

Ümumiyyətlə təlim metodları 3 qrupa bölünür.

1. Passiv ənənəvi təlim;
2. Müasir fəal təlim;
3. Yeni interaktiv təlim (1).

Ənənəvi təlim sisteminin ən mürəkkəb problemlərindən biri istifadə olunan pedaqoji texnologiyaların konservatizmi, qeyri-çevik olmasıdır. Müasir informasiya– kommunikasiya dövründə elmin müxtəlif sahələrində toplanmış bilik kütləsi elə sürətlə artır ki, təlimin ənənəvi sxem və prinsiplərinə əsaslanaraq onları həm öyrənənə çatdırmaq, həm də mənimsətmək, əslində qeyri-mümkün işə çevrilir.

Ənənəvi dərs tipində mövzuların tədrisi zamanı sinifdə ümumi gərginlik hökm sürür, tədris prosesi şagirdlərin deyil, daha çox müəllimin aktual hesab etdiyi məsələlərin həllinə yönəlir. Bu zaman şagirdlərin əksəriyyəti təlim prosesində passiv iştirak edir. Ona görə də dərslər eyni tipli olub, şagirdlər üçün darıxdırıcı keçir. Hər bir dərs öz predmeti səciyyəsində tədris olunur, bu zaman həm də fənlərarası əlaqəyə az diqqət yetirilir.Bu prosesə interaktiv deyil, interpassiv deyilir.

Ənənəvi təlimin müəyyən imkanları da vardır. Belə ki, ənənəvi pedaqoji prosesi təsvir edəndə biz ilk növbədə lövhənin qarşısında duran müəllimi və onun sakit dinləyiciləri olan şagirdləri görürük. Bu zaman müəllim çalışır ki, bilikləri çatdırsın, şərh etsin və misallar gətirsin. Sagirdlər isə bu məlumatları passiv şəkildə qavrayır, anlayır, mənimsəyir, sonra bilikləri möhkəmləndirmək üçün bunları təkrarlayır və ya məsələlərin həlli prosesində tətbiq edirlər. Yəni, ənənəvi dərsdə şagirdlər məlumatları yadda saxlamağa çalışırlar, müəllim isə nəticələri özü çıxararaq bilikləri hazır şəkildə şagirdlərə çatdırır. Öyrədici fəaliyyət ilk növbədə müəllimin fəallığı əsasında həyata keçirilir. Ənənəvi təlimin bu xüsuiyyətinə görə onu izahedici-illüstrativ və ya reproduktiv (təkraredici) təlim adlandırırlar (3).

Deməli, ənənəvi təlim zamanı şagirdlərin dərketmə fəallığı passiv, reproduktiv xarakter daşıyır. Belə dərsdə yalnız informasiyaların toplanmasına və yaddaşın məşq etdirilməsinə yönəlmiş, həyatın real tələbatlarından kənar olan təhsil şəraitində müasir dövrün şəxsiyyətinin, hərtərəfli inkişaf etmiş insanın formalaşdırılması çətindir. Belə dərslərdə şablonçuluq, formalizm, əzbərçilik geniş yayılmış olur.

Fəal təlim metodlarının tətbiqi istər orta, istərsə də ali məktəb həyatında yeni mərhələ idi. Ənənəvi metodlardan fərqli olaraq, bu metodların tətbiqi biliyin mənimsənilməsi prosesində öyrənənin idrakı fəallığını artırırdı. Dərsdə müəllimlə şagirdin ( tələbənin) dialoquna geniş yer verildi, problemli vəziyyət yaradıldı və problemlərin həlli müəllimlə tələbənin müzakirəsi müstəvisində araşdırılmağa başlandı, öyrənən tədqiqatçılıq prosesinə cəlb edildi və s. Şagird (tələbə) qarşısında problemin yaradılmasını pedaqoqlar “ standart olmayan təlim-idrak məsələlərini orjinal (qeyri-standart) metodlarla işləməyə hazırlanan yaradıcı proses” kimi qiymətləndirirlər (1).

Pedaqoji ədəbiyyatda Fəal təlim prinsiplərini aşağıdakı kimi qruplaşdırırlar:

1. Şəxsiyyətə yönəlmiş təlim prinsipi
2. Fəal idraki prinsip
3. İnkişafetdirici təlim prinsipi
4. “Qabaqlayıcı təlim” prinsipi
5. Təlim-tərbiyənin çevikliyi prinsipi
6. Əməkdaşlıq prinsipi
7. Dioloji təlim prinsipi

Fəal və interaktiv təlim anlayışlarının bir çox cəhətləri bir-birilə çox yaxın və ümumidir. Belə ki, hər iki metodla keçilən dərs şagirdləri fəallaşdırmağa yönəldilmiş, hər ikisində şagirdlərə hazır biliklər verilmir, onlar axtarıcılığa, tədqiqatçılığa sövq edilir, hər ikisində müəllim şagird münasibətləri, ünsiyyət və dialoqlar hökm sürür.

Fəal təlim ənənəvi təlimdən fərqli olaraq, şagirdlərin fəal idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur.

Çox vaxt “fəal təlim metodları” anlayışının sinonimi kimi "interaktiv təlim metodları” anlayışından istifadə olunur. Belə ki, "interaktivlik” termini "dialoqu, qarşılıqlı təsiri” bildirir. Bu təlim metodunu ifadə etmək üçün həmçinin "problem – dialoji”, "problemli”, "evristik təlim” anlayışlarından da istifadə olunur.

Fəal(interaktiv) təlim – tədrisin və idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusudur. Bu təlim üçün aşağıdakı cəhətlər səciyyəvidir:

•müəllim tərəfindən şüurlu surətdə (iradiolaraq) idraki problem situasiyasının yaradılması;

•problemin həlli prosesində şagirdlərin fəal tədqiqatçı mövqeyinin stimullaşdırılması;

•şagirdlər üçün yeni və zəruri olan biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənilməsi üçün şəraitin yaradılması.

Yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim şagirdlərin yaddaşının təkcə yeni elmi biliklərlə (informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərinin, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına yönəlib. Bu zaman şagirdlər müəllimin rəhbərliyi altında, xüsusi seçilmiş, asan başa düşülən və yadda qalan, ən vacib təlim materialının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər (1).

Göstərilən hər 3 təlim metodunu sxem şəklində aşağıdakı kimi göstərmək olar:



Amerikalı tanınmış filosof və pedaqoq Con Dyuinin təhsil haqqında məşhur bir kəlamı var: "Təhsil həyata hazırlıq deyil; təhsil həyatın özüdür.” Digər bir amerikalı filosof, sosioloq, futroloq Alvin Tofflerə görə isə "21-ci əsrin savadsızları oxumağı və yazmağı bacarmayanlar deyil, öyrənməyi, bildiklərini bir kənara qoymağı və yenidən öyrənməyi bacarmayan kəslərdir.” Yəni göründüyü kimi bir məfhum olaraq, təhsil “praktik fəaliyyət üçün gərəkli olan biliklərin və müvafiq bacarıq və səriştələrin məcmusu” anlamına gəlir. YUNESKO-nun müəyyən etdiyi beynəlxalq tərifə görə də, təhsil şəxsiyyətin bacarıq və davranışlarının təkmilləşdirilməsinin elə bir prosesi və nəticəsidir ki, bu zaman o, əqli yetkinlik və fərdi inkişafa nail olur. Başqa sözlə, təhsil dedikdə yalnız formal təhsil, yəni məktəb və ya universitet təhsili nəzərdə tutulmur. "Təhsil həyatın müxtəlif çağırışlarına hazırlıq üçün uzunmüddətli və çoxşaxəli öyrənmə prosesidir.” Con Dyuinin fikrincə, ən geniş anlamda təhsil həyatın sosial davamı üçün bir vasitədir.

Bu mənada Respublikamızda da dünya təcrübəsinə əsaslanaraq və "Oxumaq heç vax gec deyil” prinsipindən çıxış edərək yaşlıların təhsilinin təşkilinə heç bir məhdudiyyət qoyulmur. Müstəqil Azərbaycanın ilk Konstitusiyasının "ƏSAS İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARI VƏ AZADLIQLARI” fəsilnin (III fəsil) "Təhsil hüququ” maddəsində (maddə 42.) bir mənalı şəkildə qeyd olunur ki, "Hər bir vətəndaşın təhsil almaq hüququ vardır.”

Azərbaycan Respublikasının Təhsil haqqında qanunun 13-cü maddəsinə əsasən təhsilalma formaları qeyd edilir. Onlardan biridə distant təhsildir. Distant təhsil öyrədən və öyrənən arasında əlaqəni telekommunikasiya və kompyuter şəbəkələri vasitəsilə operativ, müntəzəm dialoq, əks əlaqə əsasında, uzaq məsafədən həyata keçirir. Distant təhsilin xarakterik xüsusiyyətlərinə çeviklik, modulluluq, iqtisadi səmərəlilik, müəllimin yeni rolu, təhsilin keyfiyyətinə xüsusi nəzarət, müasir texnologiyalardan istifadə və s. aiddir. Distant təhsildə informasiyalar öyrənənlərə elektron materiallar, elektron dərslik, audio-video disklər və s. formalarda təqdim edilir. Distant təhsildə tədris metodik kompleksdən, kompyuter, audio-video maqnitofon, multimedia texnikası və s. kimi təlim vasitələrindən istifadə olunur.

Deyilənlərdən aydın olur ki, təhsildə innovasiyalardan, yeni təlim texnologiyalarından, yeni metod və priyomlardan istifadə, onların tətbiq olunması sonda həmin nəticələrin monitorinqi və qiymətləndirilməsi,təhlili təhsilin keyfiyyətini yüksəltməklə sənayenin, iqtisadiyyatın, insan fəaliyyətinin də bütün sahələrində keyfiyyətin yüksəldilməsini təmin edə bilər. Bu baxımdan möhtərəm prezidentimiz cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə qeyd etmişdir ki, biz gələcəyimizi yalnız neft amili üzərində qura bilmərik, bu təbii resusrdur və 50 il 100 ildən sənra qurtara da bilər, iqtisadiyyat elm və təhsil üzərində qurulmalıdır.

Təhsilin keyfiyyətinin yüksəldilməsinin mühüm amillərindən biridə təhsildə tətbiq olunan yeni texnologiyaların nəticələrinin diqqətlə qeydə alınması və həmin nəticələrin şəffaf formada təhlili, monitorinqi və qiymətləndirilməsidir.

Beləliklə, təhsildə keyfiyyətin müəyyən olunması şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi ilə şərtlənir. Lakin şagirdin təlim nəticələri təhsil sahəsində baş verən bütün fəaliyyətlərin yekun nəticəsi kimi ortaya çıxdığından şagirdin təlim nəticələrindən çıxış edərək müəllimin tədris fəaliyyəti, təhsil müəssisələrinin, təhsili idarəetmə strukturlarının və bütövlükdə ölkənin təhsil sisteminin fəaliyyətini də qiymətləndirmək mümkündür. Eyni zamanda, keyfiyyətin faktiki vəziyyətini müəyyənləşdirməklə kifayətlənməyib onun yaxşılaşması və idarə olunması problemini də həll etmək olar. Azərbaycan Respublikasının ümumi təhsil sistemində belə bir qiymətləndirmə sistemi yaradılmaqdadır.

Təhsilin nəticələrini şagirdlərin bilik səviyyəsi, təhsilin keyfiyyətini isə innovasiyalar üzə çıxarır. Əldə edilən və təhsilə gətirilən,nəzəri cəhətdən öyrənilib praktikada tətbiq edilən innovasiyaların növləri çoxdur. Bura daxil olan siyahıya baxdıqda onların daim artdığını yeniləşdiyinin şahidi oluruq. Bu sırada ən öndə yeniləşən kurikulumlar, fəal və interaktiv təlim

metodları inkluziv təhsil, distant təhsil, veb-texnologiyaları, İKT-dən istifadə bacarıqları, təhsilin ictimailəşməsi, peşəkar özünütəkmilləşdirmə və s onlarla bu kimi innovasiyalar dayanır.

Ali təhsil müəssisəsinin pedaqoji monitorinqinin əsas məqsədi təlimin planlaşdırılan və real nəticələrinin səviyyələrinin müqayisəsi, alınan nəticələrin və təlim məqsədlərinin uyğunluq səviyyəsini qiymətləndirmək, onun fəaliyyətinin güclü və zəif cəhətləri barədə dəqiq obyektiv və müqayisəli məlumatlar əldə etməkdir. Bunların əsasında müəssisənin fəaliyyəti vaxtında nizamlanır və sonrakı inkişaf proqnozlaşdırılır. Təhsil müəssisəsinin pedaqoji monitorinqi zamanı məlumatların mənbəyi tələbə müəllim kollektivləri, idarəetmə orqanları və ictimaiyyət ola bilər. Həmin məlumatlardan təhsil orqanları, müəllimlər və tələbələr istifadə edə bilərlər.

Buradan göründüyü kimi təhsil müəssisəsinin pedaqoji monitorinqinin başlıca funksiyası təlim prosesini, onun bütün komponentlərini və nəticələrini qiymətləndirməkdir.

## ƏDƏBİYYAT

1. A.M.Nəzərov. Müasir təlim texnologiyaları. Bakı-2012.
2.Kərimov Y. Təlim metodları. Bakı, 2007.
3.Mərdanov M. Azərbaycan təhsili islahat yollarında: uğurlar, problemlər, vəzifələr. Bakı, 2001.
4. Mehdizadə M. Ümumtəhsil məktəblərində təlimtərbiyə işinin təkmilləşdirilməsi yolları. Bakı, 1983.
5. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
6**.** ”Təhsildə Qloballaşma və İKT” mövzusunda konfrans materialları.Bakı 2008

## XÜLASƏ

Müasir dövrdə təhsildə istifadə olunan yeni texnologiyaları, onların tətbiqini, real vəziyyətini öyrənmək, inkişaf dinamikasını izləmək və proqnozlaşdırmaq vacib şərtlərdən biridir. Belə şəraitdə monitorinq mühüm pedaqoji vasitə hesab olunur. Təhsil prosesinin keyfiyyəti şagirdin təhsil nəticələrinin müntəzəm monitorinqi, təlim məzmunun təkmilləşdirilməsi, təhsil standartlarının tətbiq edilməsi, sağlam təhsilin saxlanılması və gücləndirilməsi, bir çox psixoloji problemlərin daha da kəskinləşməsinin qarşısını almaq baxımından da xüsusi əhəmiyyət kəsb edir.

## РЕЗЮМЕ

Одним из важнейших условий является изучение новых технологий, их применения, их реального состояния, динамики развития и мониторинга. В этих условиях мониторинг является важным педагогическим инструментом. В этих условиях мониторинг является важным педагогическим инструментом. Качество образовательного процесса имеет особое значение с точки зрения регулярного мониторинга результатов обучения учащихся, улучшения содержания обучения, применения образовательных стандартов, поддержания и укрепления здорового образования и предотвращения дальнейшего обострения многих психологических проблем.

## SUMMARY

New technologies used in modern education, their application, one of the most important conditions is to study the real situation, track and forecast the dynamics of development. In these circumstances, monitoring is an important pedagogical tool. The quality of the educational process is of particular importance in terms of regular monitoring of student learning outcomes, improvement of learning content, the application of educational standards, maintaining and strengthening healthy education, and preventing further aggravation of many psychological problems

# MƏMO BƏY MƏMAİNİN POEZİYASI

***Əliyeva Gülarə İsabala qızı***
***AMEA Məhəmməd Füzuli, adına Əlyazmalar İnstitutu elmi işçi***

***Açar sözlər:*** şeir, qəzəl, müxəmməs, Qarabağ, Şuşa
***Ключевые слова:*** стихи, газель, мухаммас, Карабаг, Шуша
***Key words:*** poem, gazel, mukhammas, Garabagh, Shusha.

XIX əsrin ikinci yarısında Azərbaycanda maarifçilik sosial-mədəni hərəkat kimi geniş vüsət almaqda idi. Poeziyada da maarifçilik, demokratizm ideyaları, xəlqilik və humanizm ruhu, tənqidi pafos və satira güclənirdi. Bununla bərabər, bir sıra şairlərin yaradıcılığında klassik romantik şeirin üslubu və problemləri özünü saxlamaqda idi. Poeziyada Füzuli təsiri, Füzuliyanəlik əvvəlki kimi özünü qabarıq göstərirdi. Tədqiqatçılar bu vəziyyəti belə izah edirdilər. "Əlbəttə, bu, XIX əsr şairlərinin bədii istedadsızlığı, epiqonçuluq meyli, yaxud Füzuli tilsimi ilə əlaqədar deyildi; əsas etibarilə keçən əsrin ikinci yarısında Azərbaycan ictimai-tarixi şəraiti, ölkədə zülm və ədalətsizliyin şiddətlənməsi, geniş xalq kütlələrinin ağır həyat keçirməsi, çar məmurlarının özbaşınalığı, tərəqqipərvər ziyalıların hökümət tərəfindən təqib edilməsi, sosial-mənəvi həyatın müxtəlif sahələrində "Füzuli dövrü"nün hələ yaşamasını şərtləndirirdi" (1,s.282).

Əsrin birinci yarısında olduğu kimi, ikinci yarısında da şairlərin əsas toplantı, müzakirə, mübahisə yeri ədəbi məclislər olmuşdur. Şuşada fəaliyyət göstərən "Məclisi-üns" ədəbi məclisinin üzvü, "Məclisi-fəramuşan"da iştirak edən istedadlı şair Məmo bəy Məmai poeziyada özünəməxsus dəst-xətti ilə seçilən sənətkarlardan olmuşdur. Onun əsərləri içində yalnız lirik-aşiqanə deyil, ictimai nöqsanları tənqid edən, vətənpərvərlik ruhlu şeirlərə də rast gəlirik.

Məmo bəy Hacı Əhməd oğlu Məmai (1842-1918) Şuşa şəhərində imkanlı ailədə dünyaya gəlmiş, burada mədrəsə təhsili almışdır. Fars dilini mükəmməl bilən şair ana dili ilə yanaşı, fars dilində də bir sıra əsərlər yazmışdır. Ticarətlə məşğul olan Məmo bəy bir müddət Aşqabad, Səmərqənd, Peterburq və Şimali Qafqazı, eləcə də Türkiyə və İranın bir sıra şəhərlərini gəzmişdir. Tədqiqatçı Nəsrəddin Qarayevin verdiyi məlumata görə o, gəzdiyi yerlərdə gördüklərini, söhbət etdiyi şəxslərdən eşitdiklərini qələmə alaraq bir əsər yazmışdır. M.Məmai əlyazması AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanan, Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevə ünvanlanmış məktubunda yazır: "Bu axır vəqtdə yazdığını "Səyahətnamə" ki, öz səyahətlərimdən ibarətdir, o kitabda hər şəhərdə rüəsayi-millət ilə görüşüb etdiyini göftguni və onların keyfiyyəti-halların, əhval və məqalın səbt edib yaxşıların tövsifi-mədh və pislərin qəth etmişəm, oxuyanlar üçün məzəmmətdən ibrət və mədhdən ləzzə olsun" (Bax: 3,s.190).

Məmai üzvü olduğu kimi "Məclisi-üns"lə yanaşı tez-tez "Məclisi-fəramuşan"da da iştirak edər, onun rəhbəri M.M.Nəvvabla həmsöhbət olardı. O, bir neçə dəfə Şamaxıya gedərək, orada fəaliyyət göstərən "Beytis-səfa"da və məşhur musiqişünas Mahmud ağanın məclislərində iştirak etmişdir. Şamaxılı şair Mirzə Əbdüləli Hilalinin "Məclisi-üns"ə göndərdiyi mənzum məktublarından birində Məmai haqqında dediyi xoş sözlər bu iki şəxsin yaxın olduğunu göstərir.

M.Məmai görkəmli Azərbaycan yazıçısı və dramaturqu Əbdürrəhim bəy Haqverdiyevin (1870-1933) dayısı olmuşdur.Şairi şəxsən tanıyan Mir Möhsün Nəvvabın təzkirəsində onun haqqında dedikləri böyük maraq doğurur: "Əsil-nəcabətli cənab Məşhədi Məhəmməd bəy bin Hacı Əhməd bəy bin Hacı Məhəmməd bin Hacı Şərif bin Abdulla bin Məmay Qarabağın Şuşa əhalisindəndir. Xosurət, nəzakətli, eyibsiz, xoşxasiyyət bir cavandır. Sənəti tacirlikdir. Yaşı qırxdır. "Məclisi-üns"ün üzvlərindəndir, altı şairdən biri hesab olunur. Çox vaxt "Məclisi-üns"də

şeir deyir. Özündən eşitdiyimə görə hər qəbildən şeirləri var. Ancaq pərakəndədir, divanı yoxdur. Təxəllüsü Məmaidir" (2,s.260).

Məmo bəy Məmainin bütün şeirlərini əhatə edən mükəmməl bir divanı əlimizdə yoxdur. Onun əsərləri Əlyazmalar İnstitutunda saxlanan ayrı-ayrı əlyazmalarda, cünglərdə toplanmışdır. B-1293 şifri altında saxlanan 106 vərəqlik cüngün 43 vərəqində Məmainin Azərbaycan və fars dillərində şeirləri toplanıb. B-1294 şifrli cüng şairin avtoqrafıdır, 45 vərəqdə onun Azərbaycan dilində yazdığı şeirləri toplanmışdır. B-724 şifrli əlyazmada Məmo bəylə yanaşı XIX əsr Qarabağ şairlərindən Xanbikə, Növrəs, Həsən, Mir Möhsün Nəvvab, Agəh, Dəruğə və başqalarının şeirləri köçürülüb. M-237, B-236, B-4819 şifrli əlyazmaların vərəqlərində də şairin şeirlərinə rast gəlmək olar.

Məmo bəy Məmainin Azərbaycan dilindəki şeirləri əsasən qəzəl və məsnəvi janrında yazılmışdır. Onun mürəbbe, müxəmməs, təkbeyt, qoşma nəzm şəkillərində də şeirləri vardır. Məmo bəyin yaradıcılığında lirik-aşiqanə mövzulu qəzəllər sayca daha çox olsa da, onun ictimai, vətənpərvərlik mövzulu şeirləri də böyük maraq doğurur. Onun lirik əsərlərində Məhəmməd Füzuli yaradıcılığının təsiri çox güclüdür. Xüsusilə "Sübh", "Arzu", "Derlər", "Var", "Həvəs" rədifli şeirlərində bu təsir daha qabarıq görünür. Şairin bir məsnəvi formalı şeiri Füzulinin "Leyli və Məcnun" poemasının əvvəlindəki saqinamə ilə səsləşməkdədir. Füzuli öz həmsöhbətlərinin həyatdan getdiyindən, söz mülkündə nizamın itdiyindən, söz sənətinin hörmətdən düşdüyündən danışır:

Həmcinslərin təmam getmiş,
Söz mülkündən nizam getmiş (4, s.30).

Məmai də şeirində dostlarının itdiyindən, şeirin hörmətdən düşdüyündən bəhs edir.

Həmkarlərim təmam getmiş,
Nəzm-aləmdən nizam getmiş.

Bir vaxtdı nəzm olub bəs xar,
Bu gövhərə kim yox xiridar (5, s.155).

Şairin şeirləri sadə və axıcı dili, özünəməxsus deyim tərzi ilə diqqəti cəlb edir. Qeyd edək ki, Məmo bəy şeirlərini əsasən dünyəvi məhəbbətə həsr etmişdir. Onun əsərlərinin lirik qəhrəmanı Qarabağda yaşayan sadə bir el gözəlinə qarşı duyğularını, eşqini tərənnüm edir. Şair sevdiyi gözəlin gözəlliyini, ayrı-ayrı bədən üzvlərini vəsf edir. Məşuqənin gözlərindən danışan müəllif onun nazla süzgün baxmasını məharətlə təsvir edir, "qanə" sözünü qan və qanmaq, anlamaq mənasında işlədərək cinas yaradır:

Süzgün baxanda aşiqi-nalanə gözlərin,
Min naz oxun vurar bu dili-canə gözlərin.

Bidəm baxıb gözümdən axan qanə gözlərin.
Aya olurmu dərdi-dilin qanə gözlərin (5, s.78).

"Tellərin" rədifli qəzəlində şair gözəlin yalnız tellərinin deyil, gözlərinin, qaşlarının da əsiri olduğunu deyir:

Salmış kəmərdə tir-kaman ilə oxların,
Şəhla gözün, hilal qaşın, qarə tellərin.

Səyyadvar dami-səri-zülfə bağlayıb,
Etdi şikar nərgisi-bimarə gözlərin (5, s.85).

Məmo bəy sevdiyi şuşalı gözələ üz tutub Şuşanı gülüstana, onu isə gülə bənzədir və deyir: Əgər sən olmasan, bu Gülüstannın nə mənası olar:

Sənsiz nədi Şişənin nəmudu,
Gəlməz nəzərə onun vücudu.
Gülşən gül ilə olubdu dilşad,
Gül olmasa kim edər onu yad (5, s.157).

Məmainin əsərlərində Molla Pənah Vaqif, Qasım bəy Zakir, Xurşidbanu Natəvanın da təsirini görmək mümkündür. Qeyd edək ki, «Məclisi-üns" ədəbi məclisinin üzvü olan şair bu məclisin başçısı Natəvana silsilə şeirlər həsr etmiş, onun sifarişi ilə şeirlər yazmışdır. Məlum olduğu kimi, Xurşidbanu şair olmaqla bərabər həm də rəssam olmuş, rəsmlərində təbiət təsvirlərinə, gül-çiçəklərə xüsusi fikir vermişdir. Məmo bəy onun çəkdiyi gül şəklinə həsr etdiyi qəzəldə yazır:

Verməyə xarəli gül daməninə gülşəndə,
Gül ola kaş cahan içrə təmənnası gəlinin.

Sən kimi hansı gülüstanda guli-sorx olur?
Bən kimi varmi, gülüm, bülbüli-şeydası gəlinin? (5,s.86).

Natəvanın başqa bir gül rəsminə həsr etdiyi "Gül"rədifli qəzəlində şair deyir:

Rövzeyi-bağı-İrəm derlər, səhfə seyr qıl,
Nəqş edir Natəvan dəsti zümürrüdfam gül (5, s.93).

Natəvan xəstə olduğu vaxtlarda yazdığı qəmgin ruhlu "Gedirəm" rədifli qəzəlinə cavab olaraq qələmə aldığı şeirində Məmai ona təsəlli verir, itkisinin bütün ziyalılara dərd ola biləcəyindən danışır:

Qıldı bimar bəni nərgizi-bimarların,
Xəstə canına fəda bu dilü canım, getmə!

Getməgin oldi qiyamət qəmu ərbabi-dilə,
Gəl qiyamət eləmə, sərvi-rəvanım, getmə! (5,s.127).

Başqa bir şeirində Məmo bəy Natəvanı "Məclisi-üns"ün səfası, şeir səmalarının müştərisi (Yupiter planeti) adlandırır.

Şairin həyat təcrübəsi artdıqca, dünyagörüşü inkişaf etdikcə onun həyatda rast gəldiyi problemlərə, ictimai məsələlərə həsr etdiyi şeirlərin sayı artmışdır. Nəsrəddin Qarayevin verdiyi məlumata görə Peterburqa səyahət etdiyi zaman Məmai orada Olqa Sergeyevna adlı bir nəfər qadınla tanış olmuş, ona farsca bir şeir ithaf etmişdir.Şeirin müqəddiməsindən aydın olur ki, Olqa Sergeyevna imperator sarayına yaxın olan, Şərq ölkələri, xüsusən də Qafqaz müsəlmanlarının tarixi ilə maraqlanan qadın olmuşdur. Məmai Peterburqda olarkən Olqa Sergeyevnanın hüzuruna getmiş, həmin şeirini ona oxunmuşdur. Məmai "elm, fəzilət, kamal sahibi" olan bu xanımın ərəb və farsca savadlı olduğunu bildirir və qeyd edir ki, ona Rusiyada Olqa Sergeyevna, İstanbulda isə Gülxanım deyirlər. Həmişə müsəlmanların irəli getməsinə səy və guşiş edir". Məmainin yazdığına görə, əri impertor sarayının xidmətçilərindən olan O.Sergeyevna hər il İstanbula gedib, orada Osmanlı sultanı ilə görüşür, məsləhət və məşvərətlər edir.

Haqqında danışılan şeirində gah elm-sənət karvanının ardınca qoşan , gah İran və Türkiyəyə səfər edən şair öz millətini xar və zəlil görəndə yaşamağı belə özünə ar bilərək yazır:

Gah sızlayar, gah ağlaram, gah yıxılar, gah qalxaram,
Dünyada dadrəsim yoxdur, heç kiməm, heç kəsin yoxdur.
Kimsə bilməyir halımı, kimə deyim məlalımı?
Möhnətlə dolmuş ürəyim, dərdliyəm, yoxdur köməyim.
Qəlbimdə gizli sirlər var, söyləyə bilmərəm aşkar.
Əgər desəm, ağzım yanar, deməsəm canım odlanar
(Tərcümə N.Qarayevindir).

Ürəyi dərd-qəmlə dolu şair narahatdır. O qorxur ki, milləti, xalqı üçün bir şey etməmiş ömrü sona yetə, arzuları qəlbində qala. Xalqının heyran və sərgərdan qalması, "millətin qabağında gedənlərin" onu irəli aparmaması şairi həmişə düşündürmüşdür. Şair fikri-zikri yeyib-yatmaq olanları tənqid edərək yazır:

Yeyib-yatmaq üçün yaşayır insan?
Bu xasiyyətə malikdir hər heyvan.

Sonra Məmai həmvətənlərinə müraciətlə deyir ki, "Ey dənə və suya giriftar olan, bu dən sənə tələ, su isə dərya selidir. Müqəddəs gülşənin quşu, nə üçün canına giriftarsan? Vətənin üstünə qanadər axı sən vətənin əzizisən!"

Vətənin, vətən övladının halına ağlayan şeir Olqa Sergeyevnaya müraciət edərək deyirdi: "Ey mənim ürəyimin ümidi, səndən başqa mənim bu müşkül dərdimi heç kim həll etməz". Şairin dərdi isə xalqın birliyi idi. Bu birliyin əsasını isə o, müasiri olan maarifçilər kimi elm və təhsildə görürdü:

Bil ki, əvvəl-axır ittihad elmdədir,
Hər iki təlaşın mayəsi elmdədir (3,s.192).

Məmai elmi işıq, fəzl və hünərin sərmayəsi, bütün xəbərlərin qapısı adlandırır və göstərir ki, insanın zinəti, yaraşıq və bəzəyi libasda deyil, onun elmindədir. Şair yaponların elm sayəsində qısa müddətdə tərəqqi etdiklərini nümunə gətirir. Birinci Dünya müharibəsində cərəyan edən hadisələrə həsr etdiyi şeirində şair bu müharibənin miqyasının genişliyindən, müasir hərbi texnikanın, silahların köməyi ilə külli miqdarda insanın məhv edilməsindən danışır:

Nə qədər şəhərlər xarab olmuş,
Nə qədər cism qərqi-ab olmuş.

Çaplinlər havada cəng eylər,
Ləşkər yer üzünü təng eylər.

Qırx iki santimetr top açılır,
Yer üzərində tamam od saçılır.
Bombalar çərxdən düşür xakə,
Atılır top yerdən əflakə (5, s.155).

Beynəlxalq vəziyyət barədə aydın təsəvvürə malik olan Məmo bəy imperialist ölkələrin müstəmləkəçi siyasətini tənqid edir, bundan əziyyət çəkən müsəlman xalqlarının halına acıdığını bildirir:

İngilisə fədadı Hindistan,
Aljiri qırdırır Firəngistan.
Bir tərəfdə Marokkodur pamal,
Farsa sahib tapılmayır əlhal.

Qalıb avarə dövləti-İran,
Dağılıb sərbəsər, qalıb viran. (5, s.161).

M.Məmai 1905-1906-cı il hadisələrinin, Qafqazda kütləvi qan axıdılmasının əsas günahkarlarının çar məmurları, qraf olduğunu deyir:

Bu nə ölməkdir, nə öldürmək, nə qan tökməkdir bu,
Bu nə cəng, cədəldir, bu nə qovğa, nə məsaf.
Qan ilə ləbriz olub Qafqaz, Elbürz ilə Qaf,
Hər şəhərdən qətlü qarətdir gəlir hər il qraf (5, s.72).

Şair yaşadığı cəmiyyətdə sədaqət, rəhm, mürüvvət, insaf əvəzinə hər addımda xəyanət, zülm, haqsızlıq, qətl-qarətə rast gəldiyindən şikayət edir. O, belə insanlarla yaşamaqdansa vəhşilərlə yoldaş olmağı üstün tutduğunu deyir.

Məmai M.P.Vaqifin "Bax" rədifli müxəmməsinə bənzətmə olaraq M.R.Fənaya yazdığı bir qitəsində zəmanədəki qarışıqlığı nahaq qanlara bais olan fitnə-fəsad əhlini, dünya malından ötrü bir-birinin canına qəsd edənləri tənqid edərək yazırdı ki, ortaya bir əhli-irfan çıxdıqda, bir savadlı, elmli adam yetişdikdə fitnə-fəsad əhli dərhal onun qətlinə fitva verir, Ərbablar şəxsi qərəzlik və mənasız söhbətlərdən başqa heç bir şeyə qadir deyillər:

Aləmi əfsad ilə aləm fəsad ilə dolar,
Düzdü rəhzənlər geyinmiş cameyi-əlaya bax.
Pişvalər düzd olmuş, müxənnəslər rəis,
Karbari-qövmü gör, əlayə bax, ədaya bax.
İttihadü ittifaqə cümlə aləm səy edər,
Bir-birilə Şişədə xəlq etdiyi qovğayə bax (5, s.39).

Məmo bəyin Gəncə səyahətinə həsr etdiyi şeirində cəmiyyətdəki nöqsanlar, insanlarda vətəndaşlıq qeyrətinin olmaması tənqid olunur. Şair deyir ki, Gəncəyə gedərkən məscidə baş çəkdim. Gördüm ki, burada heç kim yoxdur. Axund Hacıkəndə gedib, camaat isə mehmanxanada eyş-işrətlə məşğuldur, qumar oynayırlar. Qumar oynayanları bir-biri ilə dalaşaraq aranı qarışdırdılar: Mən bu əhvalatdan çox pərişan oldum, bayıra çıxıb bir az faytonda gəzdim. Bir xərabə gördüm. Faytonçu mənə dedi ki, bu Nizaminin məqbərəsidir. Bu sözlərdən şairin halı daha da pərişan olur. O, yerə düşüb məqbərənin ətrafını hörmətlə gəzir. Və Nizamiyə üz tutub göz yaşları ilə deyir:

Ey mehri-muniri aləmara,
Əşarı edən cahanda ehya.
Ey xaliqi "Xəmsə" Nizami,
To layiqi in çenin məqami? (5, s.148).

Şair deyir ki, ey şeri ehya edən böyük sənətkar! Məgər sən bu vəziyyətə layiqsən? Əslində müəllif bu sözləri deməklə öz xalqını, gəncəliləri laqeydlikdə, vətəndaşlıq qeyrətinin olmamasında ittiham edir. Vaxtını, pulunu mənasız işə sərf edənlər Gəncəni, Azərbaycanı bütün dünyada məşhur edən sənətkarın məqbərəsinin abadlaşdırılması şairi çox məyus etmişdir.

Məmo bəy 1905-1906-ci illərdə Qafqazda, Qarabağda cərəyan edən hadisələrin şahidi olmuş, çar Rusiyasının silahlandırdığı erməni millətçilərinin uydurma torpaq iddiaları ilə silahsız müsəlmanlara qarşı təcavüzünü, dinc əhalini qırmasını əsərlərində təsvir etmişdir. O, həmvətənlərinin doğma yurdunu düşmənlərdən müdafiəyə qalxmağa çağırmış, daşnaqlara layiqli cavab verən vətən övladlarını mədh etmişdir. "Yox" rədifli qəzəlində şair doğma yurdun təhlükədə olduğundan xəbərsiz həmvətənlərini ayıltmağa çalışır:

Bir yanda vətən təhlükəsi canımı almış,
Bir fəhm edənim, anlayanım, dərk edənim yox (5, s.10).

Şairin 21 bəndlik "Olsun" rədifli müxəmməsində həmin dövrdə baş verən qanlı hadisələrin günahkarları göstərilir. Tədqiqatçı N.Mustafayeva bu əsər barədə yazır: "Erməni-müsəlman davasının bilavasitə şahidi olan Məmo bəyin bu əsərini tarixi bir sənət kimi də qəbul etmək olar.

Müxəmməsin qafiyə sistemi belədir: aaabb. İlk üç misra öz aralarında qafiyələnir, sonda gələn iki misra nəqarət kimi səslənir, öz aralarında qafiyələnir. Sonuncu misra bütün bəndlərdə təkrarlandığından şeiri müxəmməsi-tərkibənd də adlandırmaq olar" (6, s.366). Müəllif göstərir ki, Şuşada, Qarabağda, başqa bölgələrdə müsəlmanlarla ermənilər dostluq şəraitində yaşayırdılar. Daşnaqlar Türkiyədən Azərbaycana gəldikdən sonra törətdikləri fitnə-fəsad nəticəsində qanlar töküldü, günahsız insanlar həlak oldu.

Rumdan Qafqaza yüz qoydu çü daşnaqsiyun,
Düşdi ortalığa aşub, bəla, fitnə, cünün,
Bu qədər qanlara bais olar oldi əknun,
O axan qan, o gedən canlara əfsus olsun,
Bizi məyus edən dəhrdə məyus olsun" (5, s.176).

Müəllif Şuşada qırğınlar törədən erməni daşnaklarını gülüstanı xarabazara çevirən qarğalara bənzədir.

XIX əsr Qarabağ ədəbi mühitinin yetirməsi olan istedadlı şair Məmo bəy Məmainin əlimizə çatmış ədəbi irsinin əsas hissəsi lirik-aşiqanə şeirlərdən ibarətdir, lakin bununla yanaşı o, cəmiyyətdəki nöqsanları tənqid edən əsərlər də yazmış, həmvətənlərini maarifə,mədəniyyətə, birliyə çağırmışdır. Xalqını böyük məhəbbətlə sevən şair vətənpərvərlik mövzusunda dəyərli əsərlər yazmışdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan ədəbiyyatı tarixi. Altı clddə. Dördüncü cild. Bakı: "Elm", 2011.
2. Nəvvab Mir Möhsün. Təzkireyi-Nəvvab/ Nəşrə hazırlayan: Əkrəm Bağırov. Bakı: "Elm", 2018.
3. Qarayev Nəsrəddin. XIX əsr Azərbaycan ədəbi məclisləri. Bakı: "Nurlan", 2012.
4. Füzuli Məhəmməd. Əsərləri. Altı clddə. II cild. Bakı: "Şərq-Qərb", 2005.
5. Məmai Məmo bəy. Şeirlər/ Nəşrə hazırlayan: Sevər Cabbarlı: Bakı: "Elm və təhsil", 2016.
6. Mustafayeva Nailə. Azərbaycan ədəbiyyatında müxəmməs janrı. Bakı: "Elm və təhsil", 2018.


## ПОЭЗИЯ МЕМО БЕКА МЕМАИ

## РЕЗЮМЕ

***Гюлара Алиева***


Талантливый азербайджанский поэт XIX века Мемо бек Мемеаи (1842-1918) родился в городе Шуша, образование получил в медресе. Он был членом литературного меджлиса «Меджлиси-унс». В стихах поэта можно увидеть влияние таких азербайджанских классиков, как М. Физули, М. П. Вагиф, Г. Закир, Х. Натаван. Основная часть стихов поэта посвящена лирическо-любовной теме. В ряде стихов он критикует недостатки общества. М. Мемаи резко критикует богатых, состоятельных людей, которым чуждо бедственное положение, нищета представителей наиболее необеспеченных представителей общества. Он поднял свой голос, призвал народ к борьбе против захватчиков азербайджанских земель, армянских националистов, которые были вооружены до зубов. В своем знаменитом пятистишии-мухаммасе поэт пишет, что на территории Азербайджана, Карабаха азербайджанцы и армяне жили в мире и дружбе. ну как только в начале XX века в страну переехали представители Дашнаксутюн, все изменилось.

Они велически начали подстрокать армян против азербайджанцев. Мемо бек проклинает всех, кто ради всех политических амбиций некогда процветающий край-

Карабах превратил руины. Патриотические мотивы играют большую роль в творчестве Мемо бека Мемаи.

## THE POETRY OF MEMO BEY MEMAI

## SUMMARY

***Gulara Alieva***

The talented Azerbaijani poet of the 19th century Memo bey Memai (1842-1918) was born in the city of Shusha, educated in a madrassa. He was a member of the literary Majlis of the Majlisi-uns. In the poems of the poet you can see the influence of such Azerbaijani classics as M. Fizuli, M.P. Vagif, G. Zakir, H. Natavan. The main part of the poet's poems is devoted to the lyrical love theme. In a number of verses he criticizes the flaws of society. M. Memai sharply criticizes the rich, wealthy people who are alien to the plight, poverty of the representatives of the most disadvantaged representatives of society.

He raised his voice, called on the people to fight against the invaders of Azerbaijani lands, Armenian nationalists, who were armed to the teeth. In his famous five-hundred-mohammas poet writes that on the territory of Azerbaijan, Karabakh, Azerbaijanis and Armenians lived in peace and friendship. Well, as soon as the representatives of Dashnaksutiun moved to the country at the beginning of the 20th century, everything changed. They started to spur Armenians against Azerbaijanis. Memo bey curses everyone who, for the sake of all political ambitions, the once prosperous region of Karabakh turned ruins. Patriotic motifs play a large role in the work of Memo bey Memai.

# АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ УЧЕБНО-ПОЗНАВАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ СТУДЕНТОВ НА СОВРЕМЕННОМ ЭТАПЕ

***Байрамова Афет Абан кызы,***
***старший преподаватель кафедры Педагогики БГУ***
***afetbayramova@gmail.com***

***Ключевые слова:*** студент, активность, мотивация, познавательная деятельность, научно-педагогическая деятельность.
***Açar sözlər:*** tələbə, fəaliyyət, motivasiya, idrak fəaliyyəti, elmi və pedaqoji fəaliyyət.
***Keywords:*** student, activity, motivation, cognitive activity, scientific and pedagogical activity.

